Əli bəy Hüseynzadə, Azərbaycanın ictimai-siyasi, elmi-fəlsəfi və ədəbi-estetik fikir tarixində silinməz iz qoymuş böyük mütəfəkkir, publisist, dahi şəxsiyyətdir. O, özünün fikir və düşüncələri, sosial-siyasi görüşləri və fəaliyyətilə yalnız Azərbaycanda deyil, bütün türk dünyasında və bütövlükdə müsəlman Şərqində, habelə Rusiyada və Avropada tanınmış bir şəxsiyyətdir. Əli bəy Hüseynzadə,* hər şeydən əvvəl, türk xalqlarının mədəni-mənəvi birliyinin alovlu təbliğatçısı və ardıcıl müdafiəçisi idi. İstər iri həcmli əsərlərində, istərsə də nəzəri-publisistik yazılarında o, türk xalqlarının milli-mənəvi mədəniyyətinin bütün sahələrini – tarixini, fəlsəfəsini, ədəbiyyat və incəsənətini əhatə etmişdir. Lakin onun əsərlərində əsas yeri sosial-siyasi, tarixi və ədəbi mövzular tuturdu. O, türkçülük və turançılıq ideyasının müəllifi idi. Bu anlayışlar altında o bütün türk xalqlarının iqtisadi, mədəni-mənəvi, ədəbi birliyini nəzərdə tuturdu. Əli bəy üçün «Turan», hər şeydən əvvəl, bütün türklərin vahid mənəvi məkanı, onların dəyişməz, daimi vətəni demək idi. «Bu vətənin ərazisi vahid islam, vahid türk kültürü, dili və mənəviyyatı idi» (1, s.3).

XX əsrin əvvəllərində «Həyat» qəzetinin redaktoru olduğu dövrdə (1905-1907) Ə.Hüseynzadənin diqqət mərkəzində duran əsas məsələlərdən biri - Avropa dövlətlərinin və Çar Rusiyasının Şərqdə apardıqları müstəmləkəçilik siyasəti və bu siyasətin müsəlman xalqlarının başına gətirdiyi müsibətlərin ifşası idi.

Bu mövzuya həsr etdiyi «Kasablanka faciəsi və Osmanlı-İran komediyası» adlı məqaləsində Ə.Hüseynzadə Avropa və ümumiyyətlə Qərb dövlətlərinin Şərqdə apardıqları müstəmləkəçilik siyasətini kəskin tənqid edir, onların dünyanın müxtəlif yerlərində, müxtəlif dövrlərdə müsəlman xalqlarına qarşı törətdikləri vəhşilikləri, onların başlarına gətirilən faciələri xatırladır və «Güc birlikdədir» məsələnə istinad edərək, müsəlman xalqlarını və ölkələrini bu siyasətə qarşı birgə mübarizəyə çağırır və bu mübarizədə qalib gəlmək üçün

---

* Məqalə fəlsəfə ü.f.d. Müstəqil Ağayev tərəfindən çapa məsləhət görülüb.

* Əli bəy Hüseynzadə Azərbaycan ziyalılarının əksəriyyəti kimi, dindar bir ailədə anadan olmuşdur. O, uşaqlıq vaxtlarından Tiflis şəhərində yaşamış, atasının vəfatından sonra babası Qafqaz Şeyxül-islamı Axund Əhməd Səlyaninin himayəsinə keçmişdir. 1875-85-ci illərdə Əli bəy Tiflis şəhər gimnaziyasında təhsil almış və orada rus, ərəb və fars dillərini öyrənmişdir. Əli bəyin babası Şeyx Əhməd Səlyani o dövrün bir çox görkəmli ziyalıları ilə dostluq münasibətlərində olmuşdur; onların içərisində Azərbaycan ədibi və mütəfəkkiri M.F.Axundov da var idi. Onlar Şeyxin evində tez-tez görüşür və elmi, ədəbi, fəlsəfi, dini mövzular ətrafında söhbətlər edirdilər. Bu söhbətlər Əli bəyin fikri inkişafına çox böyük təsir göstərmişdi. Hələ gimnaziyada təhsil aldığı illərdə dünya ədəbiyyatına böyük maraq göstərən Əli bəy, rəsm sənətini də çox sevərdi. Müəyyən dövrdə o, hətta, Peterburq İncəsənət Akademiyasına daxil olmaq istəmişdir. Lakin 1885-ci ildə Əli bəy Peterburq Universitetinin fizika və təbiətşünaslıq fakültəsinə daxil olur və burada Mendeleyevin, Vaqnerin mühazirələrini dinləyir. Eyni zamanda o, Avropanın dünya şöhrətli şair və yazıçılarının – Homerin, Dantenin, Şekspirin, Bayronun, Şillerin və Hötenin əsərləri ilə tanış olur, onların çoxunu orijinalda oxuyur. Bundan başqa o, məşhur şərqşünas, şərq fakültəsinin professoru Jukovskinin mühazirələrinə xüsusilə onun Ömər Xəyyam haqqında mühazirələrinə böyük maraq göstərir, onları dinləyir. Ə.Hüseynzadə Qərbin tarixini, dinini, fəlsəfəsini, ədəbiyyatını dərindən bilən bir insan idi. Peterburq Universitetində təhsil aldığı illərdə o, Qərb filosofları – Hartmanın, Şopenhauerin, klassik alman fəlsəfəsinin təmsilçiləri Kantın, Fixtenin, Hegelin əsərlərini öyrənmiş, Volter, Monteskye, Bekker, Rikkardo, Furye və Adam Smitin fəlsəfi-sosioloji görüşləri, siyasi-iqtisadi ideya və təlimləri ilə tanış olmuşdur.

onların birliyinin zəruri olduğunu bildirir. Əli bəy çox böyük təəssüflə müsəlman xalqlarının öz dindaşlarının başlarına gətirilən bu qanlı faciələrə çox vaxt biganə qaldıqlarını qeyd edir və buna misal olaraq, fransızların və ispanların birləşərək Kasablankada müsəlman əhalisinə qarşı törətdikləri vəhşilikləri, orada baş verən qanlı faciələri yada salır və müsəlman dövlətlərinin, xüsusilə «iki böyük islam dövlətləri» olan İran və Türkiyənin bu faciəyə göstərdikləri biganəliyi xüsusi vurğulayır (1, s.68).

Əli bəy Hüseynzadə «İslam birliyi» ideyasının təbliğini «Mövludi-Nəbi» adlı məqaləsində də davam etdirir və bu ideyanın məna və mahiyyətini izah edir. Bu məqalədə Əli bəy bütün insanları dinindən və milliyyətindən asılı olmayaraq birliyə çağırır, onların birliyinin, qarşılıqlı əməkdaşlığının zəruriliyi ideyasını irəli sürür və islam birliyi ideyasını bu kontekstdə açıqlayır. Əli bəy yazır: «Bizə elə gəlir ki, aramızda çox az adam var ki, birliyin həqiqi mənasını başa düşür. Hər kəs birliyi bir cür başa düşür. O ki qaldı bizə, birliyi doğru başa düşmək üçün əvvəl 17 Oktyabr Manifestinin elan etdiyi vicdan azadlığını, söz azadlığını başa düşmək lazımdır. Vicdan azadlığının mənası ondan ibarətdir ki, hər kəs istədiyi dinə inana bilər, istədiyi fikir sahibi ola bilər. Heç kəsin heç kimə inamına və fikrinə görə hücum etməyə haqqı yoxdur, nə dövlətin, nə də ayrı bir fərdin. Söz azadlığına gəldikdə isə, hər kəs açıq şəkildə öz fikrini ifadə edə bilər və öz inamını göstərməkdə azad və müstəqildir» (1, s.193-194). Dünyanın qabaqcıl, demokratik qüvvələrinin bu gün də təbliğ etdikləri və yaymağa çalışdıqları bu fikir və ideyaların müəllifi olan Əli bəy Hüseynzadəni, «mürtəce fikirli», mürtəce ideyalar təbliğ edən bir insan kimi təqdim etmək olarmı? Bu, nə qədər doğru və ədalətlidir? Əli bəyin söz azadlığı və başqa insan haqq və azadlıqları haqqında irəli sürdüyü bu fikirlər, hələ XX əsrin əvvəllərində Azərbaycanın qabaqcıl ziyalılarının dünyanın bu demokratik ideyalarını mənimsədiklərini və təbliğ etdiklərini göstərir. Ə.Hüseynzadə, bu azadlıqların insanlara verdiyi xeyri izah edərək yazırdı: «Bunun ən böyük xeyri ondan ibarətdir ki, bu azadlıqlar sayəsində insanlar xəbislikdən azad olurlar. Artıq insanlar: sünni də, şiə də və ya digər təriqət tərəfdarları da açıq şəkildə öz fikir və əqidələrini ifadə etməkdə azad və müstəqildirlər. Birliyin mənası ondan ibarətdir ki, hər bir fərd, öz cinsindən və milliyyətindən asılı olmayaraq hamıya hörmət etsin, onları öz qardaşları saysın, ata-babalarından qəbul etdiyi əqidələrinə görə qınamasın və öz inam və fikirlərini başqalarına qəbul etdirməyə çalışmasın. Birliyin mənası ondan ibarətdir ki, başqaları ilə birlikdə xalqın maraqları naminə işlər görsün… Artıq insanlar oyanırlar və başa düşürlər ki, nicat birlikdədir» (1, s.193-194). Ə.Hüseynzadənin bu fikirləri göstərir ki, o, müsəlman xalqlarını birliyə çağırarkən, heç də müsəlmanları dünyanın başqa millətlərinə qarşı qoymurdu; o, yalnız müsəlman xalqlarını və dövlətlərini, onlara edilən təzyiq və təcavüzlər qarşısında birləşməyə, bir-birlərinə mənəvi dəstək olmağa, yardım etməyə çağırırdı. Qeyd etdiyimiz kimi, Əli bəyin keçən əsrin əvvəllərində irəli sürdüyü bu fikirlər bu gün də öz aktuallığını itirməmişdir.

Avropa dövlətlərinin, ümumiyyətlə Qərbin və Rusiyanın bu gün müsəlman xalqlarının qarşısında duran problemlərin həllində tutduqları qeyri-obyektiv, ədalətsiz mövqe bu xalqların birləşməsinin zəruri olduğunu bir daha təsdiq edir.

Qərb dövlətlərinin və xüsusilə Rusiyanın Azərbaycanda uzun illər davam edən Qarabağ probleminin həllində nümayiş etdirdikləri ikili standartlar siyasəti də Əli bəyin islam birliyi ideyasının əhəmiyyətini və aktuallığını bir daha sübut edir. Ümidverici haldır ki, bu gün müsəlman xalqları və dövlətləri, artıq başa düşürlər ki, onların problemlərini yalnız özləri həll edə bilərlər və onlar islam dünyasının birləşməsinin zəruriliyini dərk edirlər.

Şübhə yoxdur ki, bu gün bütün müsəlman dövlətlərini birləşdirən və dünya siyasətində böyük nüfuza malik olan «islam konfransı təşkilatı» məhz bu zərurətdən yaranan siyasi təşkilatdır. Bu təşkilata üzv olan müsəlman dövlətləri öz siyasətlərində bir-birlərinə hərtərəfli: maddi, mənəvi, siyasi dəstək olmağa çalışırlar. Burada yalnız Rusiya ilə birləşərək, (öz

siyasətində) daha çox Azərbaycanın maraqlarına zidd siyasət yeridən İran dövləti istisna təşkil edir. Maraqlıdır ki, İranın Azərbaycanla bağlı maraqlarının, Rusiyanın bu istiqamətdə apardığı siyasətlə üst-üstə düşdüyünü, Əli bəy Hüseynzadə hələ bir əsr əvvəl görə bilmişdi. O, 1898-ci ildə nəşr etdirdiyi «Siyasəti-Fürusət» əsərində çarizm ilə İran şahlığı arasında Azərbaycan əleyhinə müttəfiqlik əlaqələrinin yaranması tarixini izləmiş və belə nəticəyə gəlmişdir ki, hər iki ölkədə - Rusiya və İranda islam dünyası üzərində «Domokl qılıncı» asılmışdır və İslamı böyük təhlükələr gözləyir.

Yaşar Qarayev Əli bəyin bu fikrinə münasibətini bildirərək yazır: «Tarixi faktlar Əli bəyin haqlı olduğunu göstərdi. Bu gün bu təhlükə özünü kobud və vulqar erməni şovinizmində göstərir… Tarixi faktlar sübut etdi ki, məhz şovinizm dalğasında qabaran rus-erməni həmrəyliyi, heç də təzə hadisə deyilmiş» (1, s.14). Bu fikir öz təsdiqini, Ə.Hüseynzadənin «Həyat» qəzetində çap etdirdiyi məqaləsində də tapır. Əli bəy bu məqaləsində «ermənilərin 1905-ci ildə Şərur və Naxçıvanda törətdikləri dəhşətli fəlakətlər haqqında Rusiya mətbuatında heç bir xəbərin verilməməsini, rus ziyalılarının bu dəhşətli hadisələrə biganəliyini qeyd edir və bu biganəliyin səbəbini, məhz rus-erməni həmrəyliyində görürdü» (1, s.14; 8). Əli bəyin erməni mövzusunda yazdığı məqalələrində diqqəti çəkən məqamlardan biri, milli məsələnin qoyuluşudur. Əli bəy heç vaxt milliliyi ümumbəşərlikdən ayırmırdı. Təsadüfi deyil ki, məqalələrinin birini o, «Millilik və insanilik» adlandırmışdı. Bu məqalədə o, ermənilyin milli proqramının humanist məzmundan məhrum olduğunu qeyd edir və haqlı olaraq ermənilər milli başlanğıcı mütləqləşdirməkdə, bu məsələdə ifratçılığa yol verməkdə günahlandırır. Əli bəy, «ermənilərin bütün müsəlmanlara və türklərə xas olan nə varsa, hamısının eybəcər olduğunu düşündüklərini və bu fikrin yalnız ermənilərə deyil, bütün avropalılara aid olduğunu» bildirir. O yazır: «Onlar, müsəlmanlar və türklər birləşəndə də narahat olurlar, aramızda münaqişə və düşmənçilik yarananda da. Biz birləşəndə onlar bunu «panislamizm» adlandırırlar» (1, s.14; 9). Əli bəy Hüseynzadə, müsəlman xalqlarının çıxış yolunu inkişaf və tərəqqidə, maarif və mədəniyyətin yüksəlişində görürdü, bunun üçün isə, onun fikrincə, «panislamizm» və «pantürkizm» kimi siyasi və coğrafi anlayışlara ehtiyac yoxdur. Ə.Hüseynzadə yazırdı: «Əgər İslam, türklər hər yerdə inkişaf və tərəqqi edərsə, güclənərsə, osmanlı ölkəsində, bu dünyada cənnət yaranacaq. Buna görə məsələ ittihad, yaxud tovhid məsələsi deyil, *məsələ biri-birimizi tanımaq, sevmək, dirçəliş yolunda bir-birimizə kömək etmək məsələsidir»* (6).

Beləliklə, Əli bəy türk və müsəlman xalqlarını bilik və maarifin «yaşıl işıqlarında görmək istəyirdi. «Nicat nədədir?» sualına o, «Nicat məhəbbətdədir, ideala, gözəlliyə daimi cəhddədir» - cavabını verirdi və bütün dünyada istər Avropa ölkələrində, istərsə də islam ölkələrində bu məhəbbəti təmin edəcək yeganə yolun azadlıq və ədalət yolu olduğunu düşünürdü və bildirirdi ki, məhz ədalət olan yerdə azadlıq, azadlıq olan yerdə isə məhəbbət ola bilər» (1, s.104). Bu dəyərlərin islam cəmiyyətlərində gerçəkləşməsi üçün Əli bəy insanların maariflənməsini zəruri şərt sayırdı. «Müzəffərəddin» adlı məqaləsində o, bu fikrini belə ifadə edir: «Maarif, birlik, hürriyyət»! Nə qədər gözəl nemətlər! Bunları unutmayalım, çünki əsl nicat bu üç qüvvətdədir» (1, s.105-106). Əli bəy Hüseynzadə bu fikrini bütün Rusiyanı terror alovları bürüdüyü, insanların bir-birilərini qətlə yetirdikləri, bombaların partladığı, «insanlar arasında məhəbbətin qalmadığı» bir vaxtda söyləmişdir. İnsanların bir-birlərinə qaşı törətdikləri misli görünməmiş zorakılıqlar fonunda Əli bəy şərə deyil, xeyrə, məhəbbətə ümid edirdi, ona inanırdı (1, s.101). O, yazırdı: «Biz bu yol ilə gedirik. Bizim məqsədimiz, arzumuz birlik, ittifaq, maariflənmə, sənaye və ticarətdir. Bu qüvvələr və yollarla yer üzərində insanların aqibətinə yazılmış xoşbəxtliyə nail olmaq olar» (1, s.14). Sonralar Əli bəyin bu ideyaları təhrif edilərək, millətçilik, çox təhlükəli «panislamizm» ideologiyası kimi qələmə verildi. Fikirlərinə «panislamizm» və «pantürkizm» adı verən, onları irticaçı fikirlər elan edən erməni siyasi oyunçularına, onların rus xristian tərəfdarlarına Ə.Hüseynzadə «panislamizm və ermənilər»

adlı məqaləsində cavab verir. Bu məqalədə o, «panislamizmi» özümüzə məlum olmayan, «özgələrə aşkar, özümüzdən gizli, özgələrə məlum bir qüvvət adlandırır və «hamının ondan qorxduğunu» bildirir (1, s.17-18; 7).

Qeyd edildiyi kimi, Əli bəy islam birliyi ideyası ilə bərabər, türkçülük ideologiyasının da banisi idi. Bu ideologiyanın əsasını «islamlaşmaq, türkləşmək və avropalaşmaq» ideyaları təşkil edirdi. Əli bəy bu ideyaları ilk dəfə «Turan» adlandırdığı və bütün türk xalqlarını birliyə çağırdığı şeirində ifadə etmişdi. Türkçülük ideologiyasının ilk və əsas məqsədi - türk dilinin təmizliyi, ümumi türk dilinin yaranması, türk tarixinin yaradılması və elmi biliklərin təbliği olmuşdur. Sonralar bu hərəkat bütün türkləri, Avropa və Rus müstəmləkəçiliyinə qarşı mübarizədə mədəniyyət və siyasət baxımından birləşdirmək məqsədinə yönəlir (1, s.39). Əli bəy özünün türkçülük görüşlərindən bəhs edərək, türkçülüyün əsas idealının, milli şüurun formalaşmasını sürətləndirmə olduğunu bildirir və qeyd edir ki, milli şüuru olmayan millətlər, daima təcavüzə məruz qalırlar (1, s.41). Demək olar ki, türkçülük türk millətinin öz mənliyini qorumaq istəyindən doğan bir ideologiya idi. Təsadüfi deyil ki, bu ideologiya türk xalqlarının milli şüurunun inkişaf etdiyi və milli azadlıq hərəkatının genişləndiyi bir dövrdə, məhz Azərbaycanda yaranmışdı. Qeyd etmək lazımdır ki, milli tariximizin mühüm bir dövrünü əks etdirən, türkçülük ideyalarını təbliğ edən bu ideologiya, bir fikir cərəyanı olaraq Azərbaycanda başqa türk ölkələrinə nisbətən daha kəskin xarakter almışdı. Bunun səbəbi o dövrdə rus çarizminin xalqımıza qarşı apardığı müstəmləkəçilik siyasəti, bu siyasətin düşmənçilik xarakteri daşıması və bunun nəticəsi olaraq ölkədə milli-azadlıq hərəkatının güclənməsi idi. Bu dövrdə Rusiyada baş verən 1905-ci il inqilabı və ölkədə geniş yayılan demokratik ideyalar, Azərbaycan ziyalılarının şüuruna güclü təsir göstərirdi. Belə bir şəraitdə, Ə.Hüseynzadənin və onun yaratdığı türkçülük ideologiyasının əsas məqsədi, xalqa qurtuluş yolunu göstərmək, onun milli şüurunu bu istiqamətdə formalaşdırmaq idi (1, s.42-43).

Qeyd etmək lazımdır ki, o zaman hər yerdə olduğu kimi, Azərbaycanda da bir çox qüvvəllər arasında, xalqın siyasi və milli şüurunu hansı istiqamətdə inkişaf etdirmək məsələsi ətrafında qızğın mübahisələr və mübarizələr gedirdi. Bu qüvvələrin mübarizəsi, mahiyyət etibarilə mövcud quruluşa qarşı yönəlmişdi və onların əsas məqsədi mütləqiyyəti ifşa etmək, milli zülmdən azad olmaq, sosial ədalətsizliyə son qoymaq idi. Lakin bu qüvvələrin bir hissəsi çıxış yolunu rus inqilabı ilə birləşməkdə görürdüsə, digər hissəsi müsəlmanların və türklərin yeganə çıxış yolunu milli tərəqqidə görürdü.

XX əsrin əvvəllərində, azadlığa aparan yolun hələ müəyyənləşmədiyi bir dövrdə Ə.Hüseynzadə üzərinə tarixi bir məsuliyyət götürərək, bu yolun «milli tərəqqi» yolu olduğunu elan etdi və «islamlaşmaq, türkləşmək və avropalaşmaq» prinsiplərini bu mübarizənin əsas məqsədi olduğunu bildirdi. Beləliklə, Əli bəy, müsəlman və türk xalqlarının milli-azadlıq hərəkatı tarixində türkçülüyü siyasi doktrinaya çevirdi (1, s.43). Ə.Hüseynzadəyə görə, əgər türklərin dini məfkurəsi islamlaşmaqdırsa, onların milli məfkurəsi türkləşməkdir. Milliyyət fikri qüvvətləndikcə, türklərin dini məfkurəsi, yəni islam dini də eyni dərəcədə qüvvətlənəcək (1, s.43). Əli bəy, millətçiliyi türkçülüyün mühüm xüsusiyyəti sayırdı və bildirirdi ki, milli hissdən məhrum olan millət, millət deyil. Millətçilik anlayışı altında o, bütün türk xalqlarının mənəvi birliyini, onların bir-birlərinə yaxınlığını, onlar arasında məhəbbəti nəzərdə tuturdu; mənəvi birliyə nail olmaq üçün isə, Əli bəyə görə, türkləri «milli tərəqqi» ideyası ətrafında birləşdirmək lazımdır (1, s.43; 6). Şübhəsiz, Ə.Hüseynzadənin ümid bəslədiyi «mənəvi təkamül» yolu, azadlığa aparan yol deyildi və buna görə də gerçəkləşə bilməzdi. İllər keçdikcə, yaşanmış həyat təcrübəsi, şahidi olduğu hadisələr, Əli bəydə insanlığın yeganə çıxış yolunun mənəvi təkamül, məhəbbət yolu olduğuna şübhə oyadır. 1908-ci ildə baş verən ictimai-siyasi hadisələr onu silahlı mübarizəsiz azadlığa nail olmağın, müstəmləkəçilik zülmündən xilas olmağın mümkünsüzlüyü fikrinə gətirir (1, s.45).

Beləliklə, əgər «Füyuzat» və «Həyat» qəzetlərində çalışdığı illərdə Ə.Hüseynzadə inqilabı qorxunc, dağıdıcı bir qüvvə sayır və xalqı silahlı mübarizədən uzaqlaşdırmaqla, onu «mənəvi təkamül» yoluna çağırırdısa, inanırdı ki, «nicat məhəbbətdədir», sonrakı illərdə baş verən hadisələr göstərdi ki, silahlı mübarizəsiz sosial ədalətə nail olmaq, müstəmləkəçilik zülmündən azad olmaq mümkün deyil. Bu dövrdən o artıq xalqı öz azadlığı uğrunda silahlı mübarizəyə çağırır. Ə.Hüseynzadə irsinin tanınmış tədqiqatçısı O.Bayramlının qeyd etdiyi kimi, Ə.B.Hüseynzadənin siyasi görüşlərində yaranan və sonrakı illərdə dərinləşən bu dönüş, dövrün qabaqcıl, inqilabı ideyalarının təsirilə bağlı idi (1, s.46). Bu dövrdə o artıq milli-azadlıq ideyaları ilə yanaşı, sosial ədalətsizliyə qarşı yönəlmiş fikirlər də irəli sürürdü. «Füyuzat» qəzetində çap edilmiş bir çox məqalələrində, xüsusilə, «İntiqad ediyoruz», «Həqaiqi ictimaiyyə», «Yer və insan», «Çilvəgahi-hüquq» və başqa məqalələrində Əli bəy sosial-ədalətsizliyə qarşı çıxır, varlıların malının, mülkünün əllərindən alınıb, kasıb xalq arasında bölüşdürülməsini zəruri sayır. O xalqın bədbəxtliyinin, çəkdiyi əzabların səbəbini sosial ədalətsizlikdə, insanlar arasında birlik və məhəbbətin olmamasında görür və sosial ədalətsizliyi aradan götürmək üçün hakim sinifləri həqiqətə və ədalətə çağırır (1, s.44).

Bu dövrdə Şərqdə başlanan milli azadlıq hərəkatları, İranda gedən Səttarxan hərəkatı, Türkiyədə «gənc türklərin» konstitusiya uğrunda mübarizəsi və digər tarixi və real hadisələr Əli bəyin mübariz ideyalarını məzmunca dərinləşdirir, onların siyasi əhəmiyyətini gücləndirirdi. Yaradıcılığının bu mərhələsində yazdığı «Siyasəti-Fürusət» əsərində Əli bəy Hüseynzadə Cənubi Azərbaycanda gedən Səttarxan hərəkatını alqışlayır, onu öz azadlığı uğrunda mübarizəyə qalxan xalqın qüvvəsinin, mətanətinin təzahürü kimi səciyyələndirir və onu tərənnüm edir. «Milli azadlıq hərəkatımızın tam bir mərhələsini əks etdirən, mürəkkəb siyasi məzmunla dolğun olan, xalqımızın oyanma, milli intibah tarixi ilə bağlı olan bu əsərində Ə.Hüseynzadə «Rus çarizminin, birinci rus inqilabının təsirilə oyanan Şərq xalqlarının milli azadlıq hərəkatına qarşı apardığı mürtəce müstəmləkəçilik siyasətini ifşa edir, bu inqilabı Azərbaycan xalqının istiqlalını təmin edəcək möhtəşəm bir qüvvə kimi qiymətləndirirdi. O inanırdı ki, bu inqilab, Azərbaycan xalqının həyatında, milli müqəddaratında tarixi rol oynayacaqdır» (1, s.47).

Cənubi Azərbaycanda baş verən inqilaba – Səttarxan hərəkatına böyük əhəmiyyət verən, onu yüksək qiymətləndirən Əli bəy bu əsərində çarizmin millətləri parçalamaq, onlar arasında münaqişə yaratmaq, nifaq salmaq, onları bir-birilə vuruşdurmaq siyasətini kəskin tənqid edirdi. O, öz azadlığı və istiqlalı uğrunda mübarizəyə qalxan Cənubi azərbaycanlılar ilə birlikdə, onlarla bir cərgədə Şimali Azərbaycan xalqını da görmək istəyirdi və inanırdı ki, yalnız belə birlik sayəsində Azərbaycan xalqı (cənubi və şimali azərbaycanlılar) rus Çarizminin əsarətindən xilas ola biləcəklər. Əli bəy Hüseynzadə, İran inqilabının siyasi ideallarını aqlışlayırdı və bu ideallar uğrunda mübarizədə canlarını qurban verən Təbriz mücahidlərini «odlarda yanıb kül olan, sonra yenidən dirilən «Feniks» quşuna bənzədirdi, onların Azərbaycan xalqının azadlıq və istiqlaliyyəti uğrunda, zülm və istibdada qarşı apardıqlar mübarizəni, İran tarixində yeni parlaq bir səhifə, yeni bir mərhələnin başlanğıcı sayırdı (2, s.7-9). O bu inqilabın bir türk inqilabı olduğunu xüsusi vurğulayırdı və türklərin tarixən İranın istiqlaliyyəti uğrunda mübarizədə böyük rol oynadıqlarını qeyd edirdi (2, s.7-9).

Əli bəy Hüseynzadənin «Siyasəti-Fürusət» əsəri Şərq istibdadına və xüsusilə İran mütləqiyyətinə qarşı yönəlmiş ən kəskin əsərlərdən biridir. O bu əsərində xalqı, əsrlərlə davam edən zülm və istibdada, cəhalət və nadanlığa qarşı mübarizəyə çağırır, onu müsəlman dünyasının faciəsi sayırdı. Ümumiyyətlə, Ə.B.Hüseynzadə cəhalət və nadanlığın tənqidini istibdadın ifşasından ayırmırdı. Bütün əsərlərində olduğu kimi, bu əsərdə də o, insanları elmə və maarifə, öz haqq və hüquqlarını müdafiə etməyə, öz insani ləyaqətlərini qorumağa çağırır və bu məsələlər ətrafında öz fikir və düşüncələrini ifadə edirdi. Ofeliya Bayramlı, «Siyasəti-Fürusət»

əsərini haqlı olaraq Əli bəy Hüseynzadə yaradıcılığının zirvəsi, «XX əsrin əvvəllərində Azərbaycan ictimai-siyasi və bədii fikrinin ensiklopediyası» adlandırmışdır (2, s.22).

Bu əsərdə Əli bəy, yaradıcılığının əsas mövzusu olan bütün türk və müsəlman xalqlarının azadlıq uğrunda mübarizəsinin zəruriliyi fikrini əsaslandırmağa çalışmış və bunun üçün İranın və Cənubi Azərbaycanın çoxəsrlik tarixinə müraciət etmişdir. Əsərdə Əli bəy bu tarixi iki dövrə ayırır: birinci dövrə o əfsanəvi Pişdadiyan sülaləsinin ilk hökmdarı Kəyumərsdən başlayaraq XIX əsr Qacar hökmdarlarının hakimiyyətinə qədərki dövrü aid edir. Bu dövrün tarixi hadisələri fonunda Əli bəy İranın və Azərbaycanın azadlığı, bütövlüyü və istiqlaliyyəti uğrunda mübarizə aparan türk hökmdarlarının fəaliyyətlərini işıqlandırır. İkinci dövrə isə Əli bəy XIX əsrdən XX əsrin əvvəllərinə qədərki dövrü, yəni Qacar sülaləsinin hakimiyyəti illərini daxil edir.

Əsərin bu dövrə aid olan hissəsində Əli bəy, XX əsrin əvvəllərində İranda və Azərbaycanda gedən prosesləri şərh edir, onlara öz münasibətini bildirir. O, rus çarizminin Qafqaz müsəlmanları və xüsusilə Azərbaycan türkləri əleyhinə apardığı irticaçı millətçilik siyasətini ifşa edir, bu siyasətin III Dövlət Dumasının qeyri-rus xalqlarına, onların milli-azadlıq hərəkatına qarşı yönəlmiş şovinist fəaliyyətində, milli azlıqların hüquqlarını kobudcasına pozan qanunlar qəbul etməsində, onları zorla ruslaşdırma siyasətində, Dumada çoxluq təşkil edən mürtəce rus millətçilərinin qafqaz müsəlmanlarını böyük bir xəyanətdə – «panislamizmdə» ittiham edərək, müsəlman və türk xalqlarının mənəvi birliyinin qarşısını almaq cəhdlərində təzahür etdiyini bildirir. «Siyasəti-Fürusət» əsərinin III Dövlət Dumasının fəaliyyətinə həsr edilmiş hissəsini, şübhəsiz, Əli bəy Hüseynzadənin siyasi məramnaməsi kimi qiymətləndirmək olar (2, s.22). Əhatə etdiyi mövzu və problemlərə görə, əsərin azadlıq və istibdad adlanan və iki hissədən ibarət olan bu hissəsində, Əli bəy çarizmin Qafqazda və xüsusilə Qarabağda Millətlər arasında nifaq salmaq siyasətini ifşa edir, bu siyasətin Cənubi Azərbaycanda da davam etdirildiyini qeyd edir və bunun çarizmin getdikcə güclənən Səttarxan hərəkatının qarşısını almaqda İran əksinqilabçılarına göstərdiyi köməkdə təzahür etdiyini bildirir.

Əli bəy Hüseynzadəni düşündürən problemlərdən biri, «Millətlə millət, dövlətlə dövlət, dövlətlə xalq, siniflə sinif, insanla insan arasında daima gedən müharibə və mübarizələr, onları doğuran səbəblər» olmuşdur. «Füyuzat» jurnalının son nömrəsində çap etdirdiyi «Pərdə eniyor» adlı məqaləsində, Əli bəy bu məsələyə öz münasibətini bildirir, onları doğuran səbəbləri izah etməyə çalışır. O yazır: «Dünyanın hansı tərəfinə baxsaq, hər yerdə mübarizə və müharibə səhnəsi görürük. Millət millətlə, dövlət dövlətlə, dövlət cəmiyyətlə, xalq dövlətlə, sinif siniflə, insan insanla daima müharibə vəziyyətindədir. Hər yerdə bu ümumi qətllər davam edir» (1, s.197). Əli bəy etiraf edir ki, insanların bir hissəsi bu vəziyyətə son qoymaq istəyir və «bu niyyətlə bəzən səmimi, bəzən də qeyri-səmimi olaraq…, müxtəlif ziyafətlərdə oturub danışırlar və nəticədə müharibə yerinə «hökm məhkəməsinə» müraciət etməyi məsləhət görürlər. Lakin bu da hələlik sözdən hərəkətə keçmədiyindən, müharibənin daha mədəni şəkildə aparılmasına hökm verirlər» (1, s.187-198). Bu gün Qarabağ münaqişəsinin həlli ilə bağlı «Minsk qrupu»nun 20 ildən çox davam edən və heç bir nəticə verməyən fəaliyyəti, Əli bəyin bu sözlərini təsdiqləyir. Əli bəy bu sözlərlə Azərbaycan xalqı üçün bu gün də aktual və mühüm olan bir fikir irəli sürür: *«Müharibə məsələsini sözlə, kağız üstündə həll etmək olmaz; bu boş xəyaldır, onu əməldə həll etmək lazımdır».* Əli bəy yazırdı: «Sülh konfransları məclislərindən müharibənin həllini gözləmək əbəsdir» (1, s.197-198). Bu məqalədə Əli bəy müharibəni yaradan səbəbləri açıqlayır və bu səbəbin hər şeydən əvvəl iqtisadiyyat olduğunu qeyd edir. Əli bəyə görə, «İnsanları indiyədək bir-birilə mübarizəyə və müharibəyə sövq edən qüvvət, millət və millət qeyrəti, din və məzhəb təəssübü, hökumət və səltənətlər olduğu düşünülür, əslində isə dövlətlər və hökumətlər milliyyət və məzhəbi bəhanə edirlər. Əsl həqiqət bundadır ki, müharibənin səbəbi iqtisadiyyatdır, yəni çörəkdir» (1, s.197-198). Çörək Əli bəyə

görə elə bir haqdır ki, o insanlara əmək və səylərinə görə qismət olur. Hər bir insan yalnız sərf etdiyi əməyə görə çörək, yəni maddi qazanc əldə etməlidir».

Rus inqilabını Əli bəy rus xalqının «torpaq və azadlıq uğrunda mübarizəsi» sayırdı. O, torpaq uğrunda mübarizəni, çörək uğrunda mübarizə, azadlıq uğrunda mübarizəni isə o çörəyi qazanmaq üçün zəruri ictimai-siyasi şəraitin yaranması uğrunda mübarizə kimi səciyyələndirirdi. Əli bəy, ayrı-ayrı xalqlar və millətlər, dini təriqətlər, dövlət və hakimiyyətlər arasında müharibələrin səbəbini ölkə daxilində baş verən sosial-iqtisadi münaqişələr, siniflərarası mübarizələr və onları doğuran iqtsiadi problemləri həll etmək cəhdlərində görürdü. Bu məqalədə Əli bəy, siniflər və sinfi mübarizə məsələsinə toxunur və mahiyyət etibarilə Marksın bu haqda məlum təlimini şərh edir. O yazır: «Hər bir dövlətin içərisində əhalinin iki qrup insanları arasında mübarizə gedir. Bunlardan biri, öz əmək̇ləri hesabına, öz səylərinə görə yaşayan fəhlələr, kəndlilər və sənətkarlar, digərləri isə «o qrup insanlardır ki, öz zəhmətilə yaşayanların hesabına yaşayırlar… Birinci qrup əhali bütün ölkələrdə və dövlətlərdə yaşayır və tədricən oyanmağa başlayır. *Milli və dini fərqlərə baxmayaraq,* fransız və ya alman, protestant və ya katolik olmalarına baxmayaraq, *onlar başa düşürlər ki, bir ailədirlər, öz ümumi maraqları olan ailə.* Bununla kifayətlənməyərək, onlar beynəlxalq təşkilatların köməyi ilə sözdən əmələ keçmək istəyirlər» (1, s.198). Göründüyü kimi, Əli bəy Hüseynzadə, burada Marksın dünya proletarlarının kapitala qarşı mübarizədə birləşmələri haqqında məlum çağırışını səsləndirir və onun mahiyyətini izah edir. O, sinfi mübarizənin ayrı-ayrı ölkələrə aid olmadığını, onu eyni zamanda bütün ölkələrdə, beynəlxalq miqyasda aparmağın mümkün olduğunu bildirir. Ə.Hüseynzadə kapitalizm cəmiyyəti və bu cəmiyyətə xas olan ziddiyyətlər haqqında fikir və düşüncələrini «İctimai həqiqətlər, torpaq və insan» adlı məqaləsində də davam etdirir. Bu məqalədə o, kapitalizm cəmiyyətinin səciyyəvi xüsusiyyəti olan əməyin istismarı məsələsinə toxunur və bu haqda fikirlərini şərh edir. O, insanlığın bir hissəsinin bu günə kimi sahibkarlığın hökm sürdüyü ictimai şəraitdə yaşadığını və belə bir şəraitdə istehsal edilən məhsuldan gəlirin istehsalçıya deyil, sahibkara çatdığını qeyd edir və bəşəriyyətin çox hissəsini təşkil edən yoxsul əhalinin gəlirdən məhrum olduğunu, yalnız sahibkarların dövlət və zənginlik içində yaşamalarına imkan yaratdığını vurğulayır (1, s.140-141). Əli bəy yazır: «Bizim zamanda aydın olan həqiqətlərin ən böyüyü odur ki, insan cəmiyyətini təşkil edən fərdlər, bəşəriyyətin ehtiyaclarını ödəmək üçün lazım olan məhsulları hasil etməyə çalışmalı, əmək sərf etməli və əməyinin əvəzində qazancı, haqqı tamamilə əldə edə bilməlidir. İnsan öz əməyinin məhsulundan məhrum edilməməlidir. Hər bir qayda, hər bir qanun, *hər bir ictimai şərait ki, bu qaydaya uyğun deyil, haqq və ədalətə zidd olduğundan ləğv və məhv edilməlidir»* (1, s.140-141).

Əli bəy Hüseynzadə kapitalizm cəmiyyətini sosializm ilə müqayisə edir və bunlar arasında fərqi göstərməyə çalışır. O yazır: «Sosialist heç də iddia edildiyi kimi demir ki, gəl sənin qazandıqlarını aramızda bölək… Sosializm elmi heç də kimsənin qazanmış olduğu mal və mülkü bölüşmək fikrində deyil. Sosialistlər demirlər ki, gəlin sərvət əhlinin malı və mülkünü bölək. Xeyr, bunlar deyirlər ki, gəlin elə bir cəmiyyət quraq, elə bir ictimai qayda yaradaq ki, *hər kəs öz varını və dövlətini öz əməyi ilə, ədalət və hüquq çərçivəsində qazansın»* (1, s.142). Burada Əli bəy, mahiyyət etibarilə, sosializmin əsas prinsipi olan «hər kəsə əməyinə görə» prinsipini izah edir və göstərir ki, qazancların ədalətə və hüquqa uyğun gəlməsi, mövcud ictimai qayda və qanunlardan asılıdır, yəni *yalnız ədalətli qayda və qanunların mövcud olduğu bir şəraitdə, sərf edilən əməyə görə qazanc əldə etmək olar.* Əli bəy yazır: «Bu gün bütün dünyanı bürüyən sosializm qarşısında qorxunu kiminsə bu vaxta qədər qazandığı var-dövlət yaratmır, mövcud qaydalar və qanunlar yaradırlar» (1, s.142).

Əli bəy Hüseynzadə bu məqalədə sosialistlərin fikir və nəzəriyyələrinin mahiyyətini açmağa, sosializmin vəzifələrinin nədən ibarət olduğunu izah etməyə çalışır. Sosializm nədir? sualına o belə cavab verir: «İnsanların ehtiyac duyduqları istehlak məhsullarının istehsalının

əsasını təşkil edən istehsal üsuluna sosializm deyilir. **Sosializm təsərrüfatının yaranması iki şərt tələb edir; birincisi, ayrı-ayrı fərdlərin ittifaqından və birliyindən ibarət cəmiyyət, ikincisi *«ictimai təsərrüfat» və «ictimai sərvət».*** Siyasi iqtisad, yəni iqtisad elmi öyrədir ki, ictimai sərvətin yaranmasının əsasını əmək, iş, çalışma təşkil edir. Lakin insanlığın maddi məhsulların istehsalına olan tələbatını təmin etmək üçün əməkdən, işdən başqa maddi vasitələr, yəni istehsal alət və vasitələri lazımdır. Bu maddi vasitələrdən ən əsası torpaqdır. Fabrika maşınları kimi alət və vasitələr ikinci dərəcəlidirlər. Sosializm qaydalarına görə, istehsal vasitələri və əmək alətləri ictimai sərvətlərin yaranması üçün zəruridirlər. Bunun üçün *əsas şərt, istehsal vasitələrinin və əmək alətlərinin ayrı-ayrı fərdlərə deyil, bütün cəmiyyətə mənsub olmasıdır»* (1, s. 193; 10).

Göründüyü kimi, Əli bəy burada, sosialist cəmiyyətində insanların birliyi və ittifaqı məsələsini ön plana çəkir, yəni bu cəmiyyətdə artıq maraqları bir-birinə zidd olan siniflərin olmamasını bildirir. Bunu o sosialist cəmiyyətinin əsasını təşkil edən istehsal üsulunun ictimai xarakter daşıması ilə izah edir, bu cəmiyyətdə istehsal vasitələri üzərində xüsusi mülkiyyətin ləğv edilməsinin və onun ictimai mülkiyyət ilə əvəz edilməsinn labüd olduğunu vurğulayır. Əli bəy Hüseynzadə müasir cəmiyyəti, insanların sahib olduqları mülkiyyət səviyyələrinə görə dörd müxtəlif siniflərə ayırır. Birinci sinfə o, torpaq sahəsi icarə edərək onun üzərində çalışan və bu icarədən aldığı gəlir hesabına yaşayanları daxil edir; digər sinfə, istehsal vasitələrinə və alətlərinə sahib olaraq, kapitaldan gələn gəlir hesabına yaşayanları aid edir. Üçüncü sinfə, Əli bəyə görə, torpaq sahibləri və sənətkarlar daxildirlər; bunlar böyük olmayan torpaq sahəsinə və kiçik əmək vasitələrinə sahib olub, cəmiyyətin xeyrinə işləyirlər və öz təsərrüfatlarını yaradaraq zəhmətləri ilə həyat üçün qazanc əldə edirlər. Dördüncü sinfə Əli bəy, heç bir istehsal vasitəsinə malik olmayan, öz əmək̆ləri və səyləri ilə yaşayan insanları daxil edir və bu yoxsul, ehtiyacı olan insanların proletariat adlandırıldıqlarını bildirir və qeyd edir ki, onlar istehsal vasitlərinin sahiblərinə öz əməklərini satmağa məcburdurlar (1, s.193). Demək olar ki, Əli bəy burada marksizmin iqtisadi təliminin əsas məqamlarını şərh edir. O, müasir cəmiyyətin əsasən iki qrup insanlardan ibarət olduğunu, onlardan bir hissəsinin öz əməyi və səyləri ilə həm özünü, həm də başqalarını saxladığını, istehsal vasitələrinə sahib olan digər hissəsinin isə başqalarının əməyi və səyləri hesabına yaşadıqlarını bildirir (1, s.193). Birinci qrup insanların fəhlə, əkinçi və sənətkar, ikinci qrupun isə mülkədar və kapitalistlər olduqlarını diqqətə çəkən Əli bəy, kapitalist cəmiyyətinin sinfi quruluşunu bu cəmiyyətdə hökm sürən sosial ədalətsizliyin əsas səbəbi sayır və bu cəmiyyətin sosializm cəmiyyəti ilə əvəz edilməsinin zəruriliyini qeyd edir (1, s.193). Lakin «bunu necə etmək olar?» sualını Əli bəy cavabsız qoyur. Bu da təbiidir, çünki o zaman hələ bolşevizmin sosialist ideyalarını praktikada gerçəkləşdirmək cəhdləri və onun acı nəticələri Əli bəyə məlum deyildi.

Ə.Hüseynzadənin maraq dairəsi çox geniş idi. Onu Azərbaycanın gələcək taleyi ilə bağlı, onun gələcək inkişafını düzgün isitiaqmətləndirə biləcək bütün problemlər maraqlandırırdı. Bunu onun «Füyuzat» jurnalında çap edilmiş məqalələrindən aydın görmək olar. Məsələn, «Füyuzat» jurnalında çap edilmiş «Cilvəgahi-hüquq; xalqın sədası-haqqın nidası» adlı məqaləsində Əli bəy dövlətçilik, dövlət idarəçiliyi ilə bağlı çox mühüm məsələlərə toxunur, dövlət quruculuğunun demokratik prinsiplərini izah edir. O, demokratik dövlətlərdə konstitusiyanın (Anayasanın) ən mühüm qanunu olan dövlət büdcəsi haqqında qanunun mahiyyətini və əhəmiyyətini açıqlayır və bu haqda maraqlı, öz aktuallığını bu gün də itirməmiş fikirlər irəli sürür.

Əli bəy yazır: «Parlamentin ən mühüm vəzifəsi, millətin büdcəsini, onun kontorlu və reviziyası ilə birlikdə təsdiq etməkdir. Mütləqiyyətin, özbaşınalığın hakim olduğu Müsəlman Şərqində büdcə daima əhalidən gizli saxlanılır və xalqdan vergi şəklində yığılan pullar xərclənir. Lakin o ölkələrdə ki, parlament hakimiyyəti mövcuddur, yəni hakimiyyət xalqın nümayəndələri tərəfindən idarə edilir, hökumət qəpiyinə qədər xalq qarşısında, ondan vergi

şəklində aldığı pullar üçün hesabat verməlidir. Əgər gəlirin, yəni əldə edilən dövlətin mənbəyi ədalətlidirsə, o zaman xərclər zəruri ehtiyac çərçivəsində, millətin və dövlətin marağına və xeyrinə sərf edilməlidir. Digər tərəfdən xərclər gəlirləri üstələməməlidirlər. Buna nəzarət isə maliyyə nazirliyinin vəzifəsidir» (1, s.138-139; 10). Əli bəyə görə, büdcə o zaman xalqın əleyhinə olur ki, qəbul edilmiş vergi qanununa görə, ehtiyacı olan əhalidən daha çox vergi alınır, dövlətlilər üçün isə ehtiyacı olanlara və yoxsullara nisbətən daha yaxşı vəziyyət yaradılır. Bu vəziyyət onda yaranır ki, büdcənin çox hissəsini əhalinin çox ehtiyac duyduğu mallardan gələn vergilər təşkil edir və büdcənin mənbəyi əsasən fəqir-füqəranın cibindən çıxır. Zənginlər üçün isə vergi məsələsində kasıb-kusuba nisbətən daha əlverişli vəziyyət yaranır (1, s.140; s.10).

Qeyd etmək lazımdır ki, Ə.Hüseynzadə nədən yazırsa yazsın, onun əsas məqsədi və məramı hər zaman xalqın maariflənməsi olmuşdur. Bunu Əli bəy dəfələrlə öz məqalələrində etiraf edir. O, azərbaycan ziyalılarının öz xalqı qarşısında əsas vəzifəsini «qəflətdə olan avam kütlələr arasında maarif nurunu yaymaq»da görürdü. Maarifi o qırmızı qaranlıqlar içində yaşıl işıqlar adlandırırdı və qeyd edirdi ki, müasir dünyada qanlı terrorların müharibələrin baş alıb getdiyi bir dövrdə xalqı nadanlıq və cəhalətdən qurtarmaq, onun üçün yaşıl işıqlar yandırmaq, azad və xoşbəxt gələcəyə yol açmaq deməkdir (1, s.189-90; s.10). Demək olar ki, Əli bəy Hüseynzadənin bütün əsərləri, məqalələri və publisistik yazıları bu müqəddəs vəzifəyə xidmət edirdi.

Ömrünü mühacirətdə və həbslərdə keçirmiş, təqiblərə məruz qalmış Əli bəy Hüseynzadənin ictimai-siyasi görüşləri və bütün nəzəri irsi, onun öz xalqının və bütün Şərq xalqlarının azad və xoşbəxt gələcəyinə ümid və inamını ifadə edir.

Böyük amallarla yaşayan və xalqının yolunda var qüvvəsi ilə çalışan bu böyük şəxsiyyətin bütün elmi-nəzəri və praktiki fəaliyyəti, onun bu gün də öz aktuallığını itirməyən fikir və ideyaları yalnız Azərbaycan xalqının deyil, bütün türk-müsəlman dünyasının mənəvi sərvətidir.

Açar sözlər: türkçülük, turançılıq, millilik, mənəvi, mədəni birlik, islam birliyi, ədalət, azadlıq, həqiqət, məhəbbət.

İstifadə olunmuş ədəbiyyat

1. Əli bəy Hüseynzadə. Qırmızı qaranlıqlar içində yaşıl işıqlar, Bakı, 1996.
2. Əli bəy Hüseynzadə. Siyasəti-Fürusət, Bakı, 1994.
3. «Fikrin karvanı» (məqalələr toplusu), Bakı, 1984.
4. «Füyuzat» jurnalı, № 24, 1907.
5. «Füyuzat» jurnalı, № 14, 1907.
6. «Türk qəzeti», № 56, 1904 (Turani, məktubi məxsusi).
7. «Təzə həyat», № 20-22, 1907.
8. «Həyat» qəzeti, 17 iyun, 1905.
9. «Füyuzat» jurnalı, № 18-20, 1907.
10. «Füyuzat» jurnalı, № 16, 1907.

Эльмира ЗАМАНОВА

ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ АЛИ-БЕКА ГУСЕЙНЗАДЕ (1864-1940)

Резюме

В статье автор рассматривает общественно-политические идеи и взгляды выдающегося азербайджанского мыслителя, ученого-публициста, страстного поборника и пропагандиста идеи культурно-духовного единства тюркских народов, создателя идей тюркизма и туранизма Али-бека Гусейнзаде. Кроме того, анализируются его мысли и суждения о свободе и социальной справедливости, его призывы к всеобщей любви между людьми, независимо от их национального, социального, религиозного различия, а также другие вопросы, которые охватывают все сферы национально-духовной культуры тюркских народов – историю, философию, литературу и искусство, и которые отражены в его публицистических статьях и книгах.

Ключевые слова: тюркизм, туранизм, культурно-духовное единство, исламское единство, справедливость, свобода, истина, всеобщая любовь.

Elmira ZAMANOVA

SOCIO-POLITICAL VIEWS OF ALI-BEY HUSEYNZADE (1864-1940)

Summary

In the article the author considers the socio-political ideas and views of the outstanding Azerbaijani thinker, scientist-publicist, impassioned champion and propagandist of the ideas of cultural and spiritual unity of the Turkic peoples, founder of the ideas of Turkism and Turanism Ali-Bey Huseynzade. In addition the analysis is made of his thoughts and opinion on freedom and social justice, call of universal love between the people not depending on their national social and religious differences and other ones which envelope all the spheres of the national spiritual culture of the Turkic peoples – history, philosophy, literature and art reflected in his publicistic articles as well as books.

Keywords: Turkism, Turanism, cultural and spiritual unity, Islamic unity, justice, freedom, truth, universal love.

UOT 1(091)

Xatirə QULİYEVA
a.e.i., filol.ü.f.d., dosent, AMEA FHİ

AZƏRBAYCANÇILIQ-MAARİFÇİLİK DÖVRÜNÜN FƏLSƏFİ-ETİK ƏSASI KİMİ*

İlk olaraq qeyd edək ki, tarixi minilliklərə söykənən azərbayacançılıq məfkurəsi, daha yeni məzmunda azərbaycançılıq fəlsəfəsi güclü svilizasiyaların bir-birini əvəzləməsi şəraitində dialektik inkişaf prosesi keçirərək bugünkü, aydın, işıqlı səviyyəsinə gəlib çıxmışdır. Xalqımızın müstəqillik əldə etdiyi illərdə azərbaycançılıq fəlsəfəsi daha da dəyərləndirilərək elmi sistem halına gətirilmişdir. Bu fəlsəfəni yeni dövrdə çox doğru olaraq Azərbaycan xalqının ümummilli lideri, ulu öndər H.Əliyevin adı ilə bağlayırlar. Təsadüfi deyil ki, akademik R.Mehdiyevin "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" əsərində həm Azərbaycançılıq ideyası, həm də ulu öndər H.Əliyevin bu fəlsəfəni yeni məzmunda yaratması, inkişaf etdirməsi məsələləri geniş şərh edilir.

Adı çəkilən monoqrafiyadan gətirdiyimiz aşağıdakı iqtibas azərbaycançılıq ideyasına ulu öndər H.Əliyev tərəfindən verilən tarixi qiyməti bir daha təsdiqləyir: "Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya Azərbaycanlılarının I qurultayında Dövlət siyasətini səciyyələndirərkən onun ən üstün həqiqətini vurğulamışdır: "Müstəqil Azərbaycan Dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir Azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (8, s.12).

Azərbaycançılıq fəlsəfəsinin əsasını bu cür şərh edən Ulu Öndər nəinki siyasi fəaliyyətinin ikinci dövrü- müstəqillik əldə etdiyimiz müasir, çağdaş illərimizdə, hətta sovet hakimiyyəti dönəmində bu dəyərlərə sahib çıxmış və siyasi idarəçilik prinsipi kimi tətbiq etməyə çalışmış və buna nə qədər ağır şəraitlər olsa belə nail olmuşdur.

Məsələn, bu bir tarixi həqiqətdir ki, Heydər Əliyev 1977-ci ildə qəbul edilmiş Azərbaycan SSR Konstitutsiyasına 77-ci maddənin daxil edilməsinə nail olmuşdur ki, əvvəla həmin maddə digər sovet respublikalarında tətbiq edilməmişdi və bu addım Azərbaycan dilinə milli öndərin bir şəxsiyyət, bir lider olaraq ilk növbədə məhəbbətini, diqqət və ehtiramını ifadə edirdi.

Müstəqillik dövründə də Heydər Əliyev öz daxili inam hissi ilə böyük Azərbaycançılıq ideyasına güc verərək milli dilimizə dövlət statusu verən tarixi qərar imzaladı.

Heydər Əliyevin müxtəlif illərdə və müxtəlif məzmunlu çıxışlarında söylədiyi və xalqımızın yaddaşında aforizm kimi yaşayan fikirlər də onun Azərbaycançılıq ideyasını dərkini, ona münasibətini əks etdirir.

Məsələn, "Hər bir xalqın milliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir", "Öz ana dilini bilməyən adamlar şikəst adamlardır", "Biz indi müstəqil dövlət kimi, azad xalq kimi öz dilimizlə, Azərbaycan dili ilə fəxr edirik... Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur" (9, s.31).

Milli dil dəyərini, xeyirin şər qüvvə üzərində qələbəsini, firavan həyat məramını, insanlar, dövlətlər arasında bərabərlik, dostluq, azadlıq, müstəqillik, inam, qarşılıqlı hörmət və s. fəl-

* Məqalə fəlsəfə ü.e.d. Dilarə Müslümzadə tərəfindən çapa məsləhət görülüb.

səfi-etik keyfiyyətləri azərbaycançılıq məfkurəsi kimi qəbul edib dəyərləndirən Ulu öndər Heydər Əliyev ömrünün sonuna kimi xalqımızın milli-mənəvi əsaslarının qoruyucusu, təbliğatçısı, inkişaf etdirib yaşadanı olmuşdur. Ulu öndərin gətirdiyimiz bu iqtibasda da ifadəsini tapan "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır. Əgər mən buna nail ola bilsəm, ən xoşbəxt adam kimi həyatımı başa çatdıracağam. Buna da nail olmağa çalışır və çalışacağam" (9, s.27) düşüncəsi maarifçiliyin ümumi bəşəri məzmununu müasir dövrü milli anlamda ifadə etməklə bərabər, xalqımızın azərbaycançılıq məfkurəsini gələcək nəsillər üçün də milli-mənəvi dəyər kimi əsaslandırır.

Azərbaycançılıq ideyasının əsasında Azərbaycan dövlətinin, onun dövlət maraqlarının dayandığını bütün siyasi fəaliyyəti boyu düşünən və əməli fəaliyyəti ilə təsdiqləyən Heydər Əliyev milli-mənəvi əsasların varlığında dayanan, fəlsəfi-etik fikrin demək olar ki, bütün müsbət kriteriyalarını ehtiva edən sülh hadisəsini xüsusi qiymətləndirmişdir.

Beynəlxalq Atatürk sülh makafatına layiq görülmüş Ulu Öndər Heydər Əliyev Azərbaycan və Azərbaycançılıq ideyasının bütün dünyada olduğu kimi bu bəşəri hadisədən – Sülhdən çox asılı olduğunu daim diqqətdə saxlamış, bütün məsələlərin danışıqlar yolu ilə həlli siyasi kursunu dəstəkləməklə kütləvi insan tələfatının, milli-mənəvi abidələrimizin məhvinin, bunların da təsiri nəticəsində gözlənilən təbii fəlsəfi-etik keyfiyyətlərin sıradan çıxması əleyhinə olmuşdur.

Bu da əlbəttə ki, milli öndərin azərbaycançılığı milli "mən" mahiyyətində qəbul edən, onu vətən və vətəndaş amilindən ayrı təsəvvür etməməsi, vəhdət halında qəbul edib, dəyərləndirməsi yüksək, qabaqcıl düşüncəsindən irəli gəlirdi.

Ümumiyyətlə isə Heydər Əliyev siyasi dünyagörüşündə milli və bəşəri amillərin, ictimai-siyasi baxışların mənbəyi xalq, onun tarixi, indisi və gələcəyi, bunun da mərkəzində milli-mənəvi əsaslar, etik-mənəvi qaynaqlar dayanırdı.

Ulu öndər Heydər Əliyevə görə Azərbaycançılıq həm mənəvi, həm də ictimai-siyasi, fəlsəfi- etik, hətta iqtisadi-maddi dəyərdir və ümummilli lider bu siyasi baxışını dövlət idarəçiliyinin daxili və xarici siyasət kursu kimi inkişaf etdirirdi.

Bu baxımdan Heydər Əliyevin qurduğu yeni, müstəqil Azərbaycanın tanınmış dövlət xadimi, akademik Ramiz Mehdiyevin düşüncələri aktuallıq kəsb edir. O, azərbaycançılıq ideyası ilə bağlı yazır ki, "əsas vəzifə problemə milli-etnik müstəvidə deyil, həm də ictimai-siyasi müstəvidə baxmaq, milli-mənəvi dəyərləri yeni qurulan cəmiyyətin bilavasitə strukturuna daxil etməkdir. Bu baxımdan azərbaycançılıq təlimi Azərbaycan dövlətçiliyi ilə sıx surətdə bağlıdır. Müstəqil Azərbaycan dövləti olmadan, azərbaycançılıq da açıq, dinamik bir proses kimi yaşaya bilməz" (8, s.7-8).

Akademik Ramiz Mehdiyev iqtibas gətirdiyimiz fikirlərinin yer aldığı "Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi" kitabına yazdığı müqəddimədə onu da xüsusi olaraq vurğulayır ki, "...ideologiya kimi "Azərbaycançılıq" müstəqil Azərbaycanın fəlsəfi-sosial doktirinasının sosial mədəni və etnocoğrafi-siyasi cəhətləri özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir. İdeya-nəzəri və siyasi baxımdan "azərbaycançılıq" və neokonservatizm bir-biri ilə sıx bağlıdır. "Azərbaycançılıq" coğrafi məkan baxımından sanki, neokonstruktivizmin bir hissəsi, milli şəraitdə bu ideyanın əlavəsidir"(8, s.10).

Ədəbiyyatşünas alim Yaşar Qarayev də siyasi lider və onun həmfikirləri kimi Azərbaycançılıq ideyasına münasibət bildirmiş, milli ideyanın, milli-mənəvi əsasların ictimai-siyasi mahiyyətini əbədi və bəşəri hadisə kimi qiymətləndirmişdir. Y.Qarayevin Azərbaycançılıq ideyasının tarixi mahiyyətini, dövlət quruculuğu siyasətində tarixi təcrübi əhəmiyyətini aydın və obyektiv surətdə ifadə edən düşüncələri maraq doğurmaqla bərabər, həmçinin bu milli fəlsəfənin mahiyyətini dolğun ifadə edir: "...Neçə yüz, neçə min il tarixi olan ən qədim ölkələrdə sabitliyin əsas səbəbi elə o olub ki, burada milli-mənəvi dəyərlər həmişə dövlətin

dövlət də öz növbəsində milli-mənəvi dəyərlərin keşiyində ayıq-sayıq dayanıb. Mentalitet tərbiyəsinə, milli "mən" yaddaşına və şüuruna biganə qalmamaq cəmiyyətdə əbədi, sabit müstəqilliyin, suverenliyin taleyinə və gələcəyinə də biganə qalmamağın şərti və zəmini olub" (5, s.125).

Alimin mentalitet, milli "mən" yaddaşı məsələsini xüsusi olaraq vurğulaması Azərbaycançılıq fəlsəfəsinin tarixin fikir, yaradıcılıq baxmından çox zəngin və əhəmiyyətli dərəcədə rəngarəng mərhələsi olan maarifçilik dövründə səviyyəsi, vəziyyətini təhlil etmək zərurətini daha da əsaslandırır. Doğrudan da Azərbaycançılıq fəlsəfəsi milli mentalitet - "mənə" bağlı şüur hadisəsidirsə, o zaman o bu və ya digər xalqın tarixi yaddaşında özünü təsdiq etmişdir.

Öz inkişaf tarixini yaşayan xalq vətən, vətəndaş ideal və ideyalarını da zənginləşdirib, yetkin hala gətirmişdir. Digər bir tərəfdən özünün rifahı üçün çalışarkən, səylər göstərərkən bilavasitə mənsub olduğu millətin tərəqqi işinə xidmət etmək kimi humanist fəlsəfi-etik dəyərlərdən çıxış etmək, sözsüz olaraq milli "mən" və milli mentalitet hadisəsi ilə həmahəng səslənir.

Bu baxımdan Azərbaycan maarifçilərinin təxminən 2 əsrlik böyük zaman ərzində gördükləri işlər öz məzmununa və dəyərinə görə miqyassızdır.

Azərbaycan maarifçiləri köhnəlik, sıradan çıxmaqda olan minillik mənəvi əsaslar - adət-ənənələr, əxlaq, mədəniyyət uğrunda böyük həyati təhlükələrlə üz-üzə gəlmələrinə baxmayaraq yeganə imkanları olan qələm və söz vasitəsilə mübarizə aparırdılar. Azərbaycançılıq ideyasını hətta heç dilə gətirmədən belə onun təmsil etdiyi xalqın tərəqqisi, maariflənməsi, elm və biliklərə yiyələnməsi, mövhumatın məngənəsindən qurtulması işinə xidmət göstərirdilər. Bu ən "böyük" azərbaycanlılar Azərbaycanın və Azərbaycan insanının dünyanın qabaqcıl ölkələri və vətəndaşları kimi inkişaf etməsi məqsədi ilə maarif, mədəniyyət ocaqları, cəmiyyətlər, qəzet və jurnallar açır, habelə, dramları, pyesləri, povestləri, şerləri, felyeton və digər irili-xırdalı miras ədəbi-ictimai yaradıcılıqları ilə çıxış edirdilər.

Onların maarifçilik missiyasında əsas fikir yeni cəmiyyət ideyaları, onun da mərkəzində yeni insan və yeni əxlaq mədəniyyəti dayanırdısa, bu böyük hərəkat təbii olaraq Azərbaycan və azərbaycanlılar üçün olması mahiyyətinə görə daha dərin əhəmiyyət kəsb edirdi.

Maarifçilərimiz bu gün elmi maraq doğuran azərbaycançılıq fəlsəfəsinin əsaslandığı milli-mənəvi dəyərlərin, milli dil, milli adət-ənənələr, əxlaq, hüquq və azadlıqlar və s. sistem halında inkişafını düşünür və ayrı-ayrı əsərlərində dövrü səviyyəni göstərməklə bərabər, əsasən maarifçilik fəlsəfəsinin tənqid gücü ilə onları dünyəvi mütərəqqi normalara uyğunlaşdırmağa çalışırdılar.

M.F.Axundovun, onun sələfi maarifçilərimizin və davamçıların bütün əsərləri Azərbaycançılıq fəlsəfəsinin tarixi proqram layihəsi kimi diqqəti cəlb edir. Eyni zamanda qeyd etməliyik ki, azərbaycançılıq xalqımızın mənəvi varlığının tarixi siması olaraq maarifçiliyə qədər torpaq, yurd, milli qəhrəman məzmunlarında mövcud olduğu kimi, maarifçilik dövründə artıq daha geniş məzmunda (Vətən, vətəndaş, onun hüquq və azadlıqları) inkişaf, evolyusiya keçirmişdir. Yəni, bu ideya, fəlsəfə yekrəng olmayıb, zamanın məhsulu olduğu üçün zənginliyi, rəngarəngliyi ilə mərhələ-mərhələ yüksəlmişdir. Həmçinin də, milli mənəvi əsasların mənzərəsi maarifçiliyin Azərbaycanda təşəkkül tapmağa başladığı XIX əsrin əvvəllərində nə qədər qaranlıq, işıqsız idisə, XIX əsrin ikinci yarısından başlayaraq bu sahədə güclü mənəvi sıçrayış müşahidə olunmuş, öz işini bitirməkdə olan XX əsr gecikmiş maarifçilik mərhələsində artıq xeyli dərəcə də tərəqqi etmişdir.

Azərbaycan maarifçiliyinin gecikmiş və həmçinin zaman etibarilə bizə daha yaxın mərhələsinin nümayəndəsi Cəlil Məmmədquluzadənin yaradıcılığı əsasında biz bu dediklərimizi əyani olaraq elmi-obyektivliklə təsdiqləyə bilərik.

Məsələn, Cəlil Məmmədquluzadənin "1909-cu ilin 11 yanvar tarixində Molla Nəsrəddin jurnalında çap olunmuş "Necə qan ağlamasın daş bu gün, qırxılıq gör neçə min baş bu gün" adlı yazısında din adı altında mövhumatçıların təşkil etdikləri Aşura günü baş yarma hadisəsi tənqid olunur və o həmrəy olduğu tərəqqipərvərlər nəsli - milli maarifçilərin ali azərbaycançılıq ideyasından çıxış edərək yazır ki, "Bu gün Kərbəla meydanı – Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa, - gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur" (14, s.160).

Göründüyü kimi, bu məqalədə Azərbaycan–Vətən məsələsi önə çəkilir və azərbaycançılıq fəlsəfəsi gücləndirilir. Bu ideyanın işıqlandırıldığı "Məscidlər" məqaləsində böyük maarifçi Cəlil Məmmədquluzadə həmmillətinin din və şəriətin güclü buxovlarına bürünməsini və dünyəvi təhsilə, deməli bəşəri tərəqqiyə can atmamasını tənqid edir. O, artıq yaradılmış dünyəvi təhsil məktəblərində hələ də hökm sürən gerilik əlamətlərini vurğulamaqla savadlı Azərbaycan üçün məqsədə uyğun olan yolları göstərir.

Cəlil Məmmədquluzadənin "Millət" məqaləsində azərbaycançılıq fəlsəfəsinin daha ciddi, yəni milli ideya məsələsi belə ifadə olunur: "Millət ləfzi İranda yoxdur. Nə qədər ki, qamusları vərəqlədim, nə qədər ki, camaat içində dolandım, - "millət" sözünü nə eşitdim, nə də bir kitabda gördüm. O yerdə ki, söz düşəndə gərək millət sözü danışıla – orada "əşxas(şəxslər ləfzi istimal olunur). Bu məhz bu səbəbdəndir ki, bizlərdə millət qurquları şəxsi qurqular şəklində zühura gəlir, milli işlərimiz əvəzinə şəxsi dəstgahlar peyda olur. ...Qədim əsərlərdə də belə imiş, yəni millət ibarət imiş bir şəxsdən, ya bir neçə şəxsdən. Millət yox hesabında imiş. Ta ki, ortanı əsrlərin əvvəlində məşhur filosof Demokrit birinci dəfə söylədi: "Millət", "millət" və bəyan etdi ki, hər məmləkətin tək bircə sahibi var ki, onun adı millətdir. Bir qədər vaxt bu söhbət yenə fəramuş oldu. Ta ki, miladi tarixinin min yeddi yüz doxsan üçüncü ilində yer üzünün ən nəcib millətlirindən hesab olunan Firəngistan caamatı yenə bir səs ilə dedi: "Millət", "millət"! Və bundan sonra Firəngistan millətpərəstliyi sayəsində yer üzündə çox-çox millətlər tərbiyə olundu, millətçilik və azadlıq bayrağı cəmi məmləkətlərə sirayət elədi və onların cümləsində biz də bir yüngülvari hərəkətə gəldik" (14, s.224-225).

Cəlil Məmmədquluzadə bu məqaləsində azərbaycançılıq fəlsəfəsinin Vətən və vətəndaş ideyası istiqamətində vətəndaş cəmiyyəti, o cümlədən bərabərlik və ədalət hissi, azadlıq hüququ məsələlərinə də toxunmuşdur. Belə ki, böyük mütəfəkkir millət haqqında danışarkən, Azərbaycan xalqının bir milllət kimi inkişafa doğru hərəkət etdiyini xüsusi vurğulayaraq göstərir ki, "...lakin bircə fərqi bundadır ki, biz dəxi istəmədik qeyrilərə təqlid edək, biz özümüz üçün məxsusi bir azadlıq fabrikası bina etdik ki, bu fabrikadan çıxan mal firəng və Avropa azadixahlığına oxşamasın, necə ki, məsəl üçün, şüşə karxanası ya ki, əba fabrikası. Bəs çünki, Qərb mətaı ilə Şərq mətaı mabeynində həmişə bir fərq var, həmçinin Qərb azadxahlığı ilə bizim azadxahlığımızda haman tafavüt əmələ gəldi ki, biz azadlıq binalarımızın bünövrəsini əşxas üstündə tikdik, millət üstündə tikmədik" (14, s.225).

C.Məmmədquluzadənin konkret olaraq "Azərbaycan" adlanan əsəri bu baxımdan olduqca xarakterikdir. Maarifçi ədib "Azərbaycan" əsərini 1917-ci ildə yazmış və elə Molla Nəsrəddin imzası ilə də eyni adlı jurnalda dərc etdirmişdir.

Əsərin yazılma tarixi, dövrü ictimai-siyasi motivlər nöqteyi-nəzərindən sosialist inqilabi ərəfəsinə təsadüf etsə də, əsərdən ucalan ideyalar SSRİ-nin maddi-mənəvi ideologiyasını deyil, maarifçilik hərəkatının fəlsəfi-etik əsaslarının güclü kanonlarını əks edirir. Digər tərəfdən qısa zamanda, yəni bir aylıq zaman ərzində xalq ziyalısı, xüsusən də C.Məmmədquluzadə kimi şəxsiyyət yazıçı sosialist inqilabının şəninə belə tərifnamə yazmazdı. Bütün maarifçilik irsində ilk dəfə olaraq bu əsərdə vətən məfhumu ən ciddi çalarları ilə və termin kimi də önə çəkilib,

qiymətləndirilir. Həm də bütün maarifçilik irsində ilk dəfə olaraq bu əsərdə vətən məfhumu ən ciddi çalarları ilə və termin kimi də önə çəkilib, "dindirilir".

Məsələn, "Azərbaycan" məqaləsindən oxuyuruq: "Ax unudulmuş vətən, ax yazıq vətən! Dünyalar titrədi, aləmlər mayallaq aşdı, fələklər bir-birinə qarışdı, millətlər yuxudan oyanıb gözlərini açdılar və pərakəndə düşmüş qardaşlarını tapıb, dağılmış evlərini bina etməyə üz qoydular. Bəs sən haradasan, ay biçarə vətən?!"(14, s.221-222).

"Azərbaycan" əsərində vətən, millət, dil müstəqilliyi ilə bağlı yazıçı estetik idealının elə estetik-obrazlı da ifadəsinin şahidi oluruq. Aşağıdakı iqtibas bu fikrimizi təsdiqləyir: "Dünya və aləm dəyişildi, mənalar özgə təbir əxz elədi, yəni bizim dilcə söyləsək, o şeylər ki, əsl mənalarını itirmişdi, qayıdıb əslini tapdı. Inna lillahi və inna ileyhi raciun. Amma buna hamı qail oldu ki, vətən, vətən, vətən, dil, dil, dil, millət, millət, millət!.. Dəxi bu dairələrdən kənar bəni-non-bəşər üçün nicat yolu yoxdur" (14, s.222).

Burada maarifçi yazıçının özü ilə dialoqunda şərh olunan ideya da azərbaycançılıq fəlsəfəsinin maarifçilik dövrü ədəbi-ictimai irsində yerini və əhəmiyyətini göstərir. "Dilim nə dilidir? – Azərbaycan dilidir. Yəni vətənim haradır? – Azərbaycan vilayətidir. Demək, çünki dilimin adı türk-Azərbaycan dilidir, belə məlum olur ki, vətənim də Azərbaycan vilayətidir" (14, s.222).

C.Məmmədquluzadə azərbaycançılıq fəlsəfəsini təhlilinə çalışdığımız bu əsərində ərazi, sərhəd məsələsinə də toxunur, bu istiqamətdə böyük azərbaycanlı olaraq vətənimiz Azərbaycanın coğrafi xəritəsini qədim zamanlardan mövcud olduğu kimi təbliğ-təşviq edir. Belə ki, O, bu əsərində Azərbaycanın çox hissəsinin İranda, qalan hissələrinin "Gilandan tutub, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bəyaziddən ibarət olsun" (14, s.222) kimi göstərir.

Azərbaycançılıq fəlsəfəsinin işıqlanması baxımından C.Məmmədquluzadənin ikinci böyük əsəri "Anamın kitabı" dramı da diqqəti cəlb edir. Bu dramda maarifçi ideyalar, maarifçi fəlsəfi-etik prinsiplər və ənənələrlə bərabər, milli ideya- Azərbaycançılıq fəlsəfəsi məsələsi də geniş əks olunmuşdur. Habelə bu əsərdə maarifçi realist ədib azərbaycançılıq fəlsəfəsini konkret olaraq əxlaq konsepsiyasından çıxış edərək dəyərləndirmişdir.

C.Məmmədquluzadənin dram yaradıcılığına həsr olunmuş tədqiqat əsərlərindən birində, ədəbiyyatşünas alim X.Əlimirzəyevin "Xarakterlər və problemlər dramaturgiyası" monoqrafiyasında "Anamın kitabı" dramının əhəmiyyətindən bəhs olunarkən belə bir məqam vurğulanır ki, "Anamın kitabı" pyesini C.Məmmədquluzadənin ümumi yaradıcılığı, xüsusilə xalqının milli intibahı, dirçəlişi, tərəqqisi sahəsindəki zəngin fəaliyyəti ilə bağlı, vəhdətdə tədqiq və təhlil etmək zəruridir" (4, s.119).

Tədqiqatçı alimin təhlillərində göstərilən "milli intibah", "dirçəliş", "tərəqqi" ifadə və mənaları maarifçilik etikasının "ağıl dövrü", "milli mədəniyyət nəzəriyyəsi" proqramı ideyası kontekstində əsaslandırılmasa da dramaturqun estetik məntiqi-məqsədinin düzgün şərhi kimi - müsbət qarşılanır.

"Azərbaycan" əsərində olduğu kimi "Anamın kitabı" dramında da C. Məmmədquluzadənin öz vətəninə, xalqına, onun gələcəyinə ümidləri, soydaşlarının "Ana dili" və "Ana-vətən" məfhumlarının daşıdığı mənalara məhəbbəti və məsuliyyəti ilə bağlı düşüncələri öz əksini tapmışdır.

Bu əsərdə yenilik və köhnəlik qarşılaşdırılır, "birinci" – insanların şüur inkişafı və millətin millət kimi yüksəlişi üçün vacib, zəruri olan dil məsələsini, ikinci – köhnəlik xalqın qarşılaşdığı dövrü anlaşılmazlıqları, yenilik adı ilə başqa mədəniyyətlərə kortəbii surətdə qoşulmanı təmsil edir.

Beləki, Ana obrazını vətən mənasında təsvir edən dramaturq onun oğlanları – Rusiyanı təmsil edən Rüstəm bəyin, İran-müsəlman mədəniyyətinə bağlı olan Mirzə Məhəmmədəli bə-

yin və türkçülüyü təbliğ edən Səməd bəyin simasında yetişən ziyalıların qeyri-milli, qeyri-vətən, qeyri-birlik ruhunda inkişafı tənqid edirdi.

Dramda Rüstəm bəyin anası ilə dialoqda söylədiyi fikirlər bu ideyanı yaxşı ifadə edir. "Rüstəm bəy: Ana, bax mən səni lap yaxşı başa salım. Nə qədər ki, mən bu kitablara etiqad eləyirəm (öz kitabları tərəfə əlini tutur), Məhəmmədəli də bu kitablara (Mirzə Məhəmmədəlinin tərəfinə əlini uzadır) və Səməd də bu kitablara (Səməd Vahidə tərəf əlini uzadır) etiqad eləyir, dəxi biz nə təhər ittihad edib, mehriban yola gedə bilərik?" (13, s.97-98).

Qardaşlardan Mirzə Məhəmmədəli də bu fikiri təsdiqləyir və davam etdirir. "Mirzə Məhəmmədəli: "Bax bu evdə üç qism kitab var ki, biz üç qardaş bunlara sitayiş edirik. Əgər biz bu kitabları bir-birinin yanına qoysaq və zaiqəyə tapşırsaq, baxıb görərik ki, bu üç qism kitab bir-birlərinə o qədər oxşayır, necə ki, məsələn, mən Səmədə oxşayıram, Səməd Rüstəmə oxşayır, Rüstəm bəy də mənə oxşayır" (13, s.97-98).

Kitab həm də məzmun keyfiyyəti baxımından mədəniyyəti ifadə edir. Mədəniyyət isə yuxarıda qeyd etdiyimiz kimi, maarifçilik dövrünün proqram nəzəriyyəsi, fəlsəfi-etik qayəsi, bədii-estetik metodologiyasıdır. Deməli, qardaşlar mədəniyyət proqramına bağlıdırlar. Onu həyatlarının amalı hesab edirlər. Lakin onların mədəniyyətləri öz milli mədəniyyətləri deyildir. O milli mədəniyyət ki, "Ananın kitabı"ndadır. Ananın kitabı isə ana xətt – bir vahid mədəniyyət yoludur ki, onun da adı maarifçilikdir.

"Anamın kitabı" dramında ananın qızı Gülbaharın finalda qardaşlarının "kitablarını" cırıb yandırması, hambala müraciətlə "Niyə hamı bir yerə getmir? Niyə hərə bir tərəfə gedir? ... Yəqin ki, dəli olublar... Nə səbəbə axır, hamı bir tərəfə getmir? Yox! Yox! bu pis işdi..." (9, s.80) deməsi də məhz bu ideyanı tənqidin yeni ampluasını işıqlandırır və C.Məmmədquluzadə maarifçi estetik idealının dolğun ifadəsi kimi ucalır.

Dramda ananın oğlanları üçün atalarından qoruyub saxladığı vəsiyyət də C.Məmmədquluzadənin maarifçi etik düşüncələrinin tərənnümçüsüdür. Dramaturq burada bir maarifçi sənətkar olaraq çatdırmaq istədiyi əsas ideyanı aşağıdakı kimi şərh etmişdir."Yer, göy, ay və ulduzlar göylərdə seyr edib gəzə-gəzə genə əvvəl-axır günün başına dolanırlar, çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır. Mən etiqad edirəm ki, mənim də balalarım dünyada hər yanı gəzib dolansalar, genə əvvəl-axır anaları Zərnişanın ətrafına gərək dolanalar. Çünki ay və ulduz günəşin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki, təbiətin həmin qanununu pozmaq istəyə! Onun insafı və vicdanı ona müdamül-həyat əziyyət edəcək, nə qədər canında nəfəs var, peşiman olacaq"(9, s.99-100).

Beləliklə, C.Məmmədquluzadənin adından da göründüyü kimi Azərbaycana, onun milli-mənəvi dəyərlərinin qorunub saxlanmasına, bütünlükdə Azərbaycançılıq ideyası - fəlsəfəsinə həsr olunmuş “Azərbaycan” və “Anamın kitabı” adlı əsərlərinin təhlilini yekunlaşdırarkən gəldiyimiz elmi-obyektiv qənaəti bölüşmək istərdik ki, Azərbaycançılıq ideyası yuxarıda da qeyd etdiyimiz kimi təkcə C.Məmmədquluzadə yaradıcılığında deyil, bütün maarifçilərimizin miras mənəvi irsində sistemli surətdə işlənmişdir.

Hətta tarixi qiymətləndirmə prinsipindən çıxış edib, elmi-obyektivliklə deyə bilərik ki, XIX əsr və XX əsrin 3 onilliyi ərzində Azərbaycanda cərəyan etmiş tərəqqi hərəkatına maarifçiliklə bərabər azərbaycançılıq adını da vermək tam doğru olar. Çünki maarifçilər sırası milli həyatımızın elə bir sahəsi, reallıq və gerçəkliyi yoxdur ki, ora böyük azərbaycançılıq hissi ilə nəzər yetirməmiş olsunlar və qələm, söz silahları ilə oradakı nöqsan və çatışmamazlıqları, bütövlükdə axsayan mədəniyyəti, sıradan çıxmaqda olan əxlaqı islah etməsinlər.

Açar sözlər: Azərbaycançılıq fəlsəfəsi, maarifçilik dövrü, fəlsəfi-etik keyfiyyətlər, milli-mənəvi dəyərlər, gecikmiş maarifçilik.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev V. Müstəqilliyimizin strategiyaı. Bakı: Azərbaycan nəşriyyatı, 2002, s.416.
2. Axundov M.F. Bədii və fəlsəfi əsərlər. /Tərt.ed. H.Məmmədzadə. B.: Yazıçı, 1987, s.368.
3. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004, s. 264.
4. Əlimirzəyev X. Problemlər və xarakterlər dramaturgiyası: C.Məmmədquluzadə haqqında. Bakı: Yazıçı, 1970, s.356.
5. Əliyev H.Ə.Müstəqilliyimiz əbədidir. 8-ci kitab, Bakı: Azərnəşr, 1998, s.488.
6. Əliyeva Z. Azərbaycan maarifçiliyi və dünya ədəbi-nəzəri fikri. Bakı: Səda, 2008, s.114.
7. Əliyeva Z. Azərbaycan və fransız maarifçiliyi: qarşılıqlı əlaqələr. Bakı: Səda, 2010, s.223.
8. Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi. Bakı: BDU, 2002.
9. Quliyeva X. Azərbaycanda maarifçi estetika. Bakı: Elm, 2000, s. 212.
10. Quliyeva X. Maarifçilik dövrü fəlsəfi fikrində etika məsələləri, AMEA FSHİ, «Elmi Əsərlər», №2(19), 2012, Bakı, s. 49-54, s. 326.
11. Quliyeva X. Heydər Əliyev və Azərbaycanda yeni məzmunlu maarifçilik. XXI əsr Dirçəliş jurnalı, (Xüsusi buraxılış), 2012, s.168, s.172-180, s.198.
12. Mehdiyev R. İctimai və humanitar elmlər zaman kəsiyində. «Azərbaycan qəzeti», 13 dekabr, 2009-cu il. (http: azertağ. com. /store/ Neüs/ Polirics).
13. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə. II c. Bakı: Azərnəşr, 1984, s.196.
14. Məmmədquluzadə C. Əsərləri: 6 cilddə. IV c. Bakı: Azərnəşr, 1985, s.276.

Хатира КУЛИЕВА

АЗЕРБАЙДЖАНИЗМ КАК ФИЛОСОФСКО-ЭТИЧЕСКАЯ ОСНОВА ЭПОХИ ПРОСВЕЩЕНИЯ

Резюме

В статье анализируются взгляды азербайджанских философов-просветителей, исследуются проблемы мировой философско-этической мысли в Азербайджане. Автор статьи отмечает, что философы-просветители большое внимание уделяли просвещению, усвоению научных знаний, прогрессу народа. Они призывали народ бережно хранить национальный язык, традиции и все национально-нравственные ценности, составляющие основу философии азербайджанизма.

Ключевые слова: философия азербайджанизма, Эпоха Просвещения, философские и этические ценности, национальные и духовные ценности, запоздалое просвещение.

Khatira KULIYEVA

AZERBAIJANISM AS PHILOSOPHICAL AND ETHICAL FOUNDATIONS OF THE EPOCH OF ENLIGHTENMENT

Summary

In the article an analysis is made of the views of Azerbaijani philosophers-enlighteners, the problems of world philosophical and ethical thought in Azerbaijan. The author of article notes that philosophers-enlighteners paid more attention to enlightenment, adoption of scientific knowledge, progress of the people. They called the people to keep thriftily the national language, traditions and all the national-moral values making up the basis of the philosophy of Azerbaijanism.

Keywords: philosophy of Azerbaijanism, Enlightenment, philosophical and ethical values, national and spiritual values, belated enlightenment.

UOT 1(091)

Aydın ƏLİZADƏ
AMEA FHİ, a.e.i., fəlsəfə e.d.,

Elsevər SƏMƏDOV
AMEA FHİ, a.e.i., ,fəlsəfə ü.f.d.

KLASSİK YUNAN FƏLSƏFƏSİ: ARİSTOTEL VƏ PLATON FƏLSƏFƏSİNİN QISA İCMALI*

Giriş

Fəlsəfi düşüncənin əsasları Qədim Şərqdə qoyulsa da, dərinlik, tutarlılıq və sistemlilik baxımından fəlsəfənin inkişafına Qədim Yunanıstanda rast gəlinir. Bununla belə, hələ ilk dövrlərdə fəlsəfi düşüncə özünü yunan miflərinin əsasında təşkil etsə də, Şərq ruhu, mənəviyyatı və müdrikliyi ilə qovuşduqdan sonra öz inkişaf dövrünü reallaşdırmışdır. Fəlsəfə tarixinə nəzər yetirdikdə müşahidə edirik ki, Qədim Yunan fəlsəfəsi Şərq hadisələri olan Zərdüştlük, Hinduizm, Buddizm və Misir inanc və düşüncəsindən təsirlənmiş, onların dini-fəlsəfi elementlərini öz fəlsəfi paradiqmalarına daxil etmişdilər. Bununla da, fəlsəfi düşüncənin inkişafını ilkin olaraq sofistlərin timsalında görə bilirik. Onlar ilk olaraq yaradılış və kosmoloji problemlərdən başlayaraq fəlsəfənin müxtəlif problemləri haqqında fikirlər irəli sürməyə başlamışdılar. Bu tendensiya b.e.ə. V-IV əsrlərdə inkişaf edərək öz zirvə nöqtəsinə çatmışdır. Bu dövrdən başlayaraq yunanların siyasi nüfuzu da artmışdır. Bütün bu amillər yunan mədəniyyətinin, elminin və dünyagörüşünün dünyanın müxtəlif yerlərinə də yayılmasını zəruri etmişdir. Bu da Makedoniyalı İsgəndərin istilalarından sonra reallaşmağa başlamışdır. Bu dövr tarixdə "*Qızıl Dövr"* kimi dəyərləndirilir. Elə o dövrdə də yunan fəlsəfəsi özünün ən parlaq dövrünü yaşadığından bu dövrün fəlsəfəsini Klassik Dövr adlandırırlar. Yunan klassik fəlsəfəsinin ən görkəmli nümayəndələri isə Platon və Aristotel olmuşdur. Onlar həm öz fəlsəfi fikirlərini ortaya qoymuş, həm də o dövrün bütün biliklərini, fəlsəfi fikirlərini bir araya gətirərək sistemləşdirmiş, elmi kateqoriyalara salmışdılar. Onların fəlsəfi təlimləri özlərindən sonrakı bütün nəsillərin dünyagörüşünə, elmi və fəlsəfəsinə təsir etmişdir.

1. Platon fəlsəfəsinin qısa icmalı

Platon (Πλάτων) təxminən b.e.ə. 427-347-ci illərdə Afinada dünyaya gəlmiş, orada yaşayıb yaratmışdır. Sokratın tələbəsi olduğu fəlsəfi ədəbiyyatlarda qeyd olunmuşdur. Onun dünyagörüşünün formalaşmasında Qədim Misirin elm, mədəniyyət, inanc və düşüncəsinin böyük təsiri olmuşdur (14, s.232-233). Çünki orada o kahinlərdən dərs almış, sonra Siciliya və Cənubi İtaliyaya səfərlər etmişdir. O, orada olarkən Eleya məktəbinin və Pifaqorçuların təlimləri ilə tanış olmuş, sonra isə öz fəlsəfi fikirləri ilə çıxış etmişdir. B.e.ə. 387-ci ildə Afinaya qayıdandan sonra orada *Akademiya* ('Ακαδήμεια) adlanan bir məktəb təsis etmişdir (14, s.233).

Platon öz fəlsəfəsində əsas diqqəti ontoloji məsələlərə, eləcə də dövlət və cəmiyyət problemlərinə yönəltmişdir. Sokratın ideyalarını davam etdirərək o, sofistlərin iddialarına qarşı çıxmış və obyektiv biliyin əldə edilməsini mümkün hesab etmişdir.

Platonun bir çox əsəri dövrümüzə qədər gəlib çatmışdır. Ümumiyyətlə, onun əsərləri şərti olaraq "Corpus Platonicum" adlanır. Onları ilk dəfə (b.e.ə. III əsr) İsgəndəriyyə kitabxanasının müdiri olan Bizanslı *Aristofanes* və (b.e.ə. I - b.e. I əsrlər) neo-Rlatonçu filosof *Trasillus* bir

* Məqalə fəlsəfə ü.f.d., dosent Roida Rzayeva tərəfindən çapa məsləhət görülüb.

araya gətirmişdilər. Bu əsərlərin çoxu "***Timeus***" (Τίμαιος), "***Kritias***" (Κριτίας), "***Fedon***" (Φαίδω), "***Dövlət***" (Πολιτεία) və s. kimi dialoq formasında yazılmışdır.

Onun yuxarıda qeyd edilən əsərlərinə nəzər yetirdikdə görürük ki, Platon olduqca dərin fəlsəfi təfəkkürə sahib insan olmuşdur. Onun fəlsəfi düşüncələri özündən sonra bütün nəsillərin qaranlıq yollarına işıq salmışdır. Belə ki, onun fəlsəfi düşüncəsindən bəzi fikir və ideyaları sistemləşdirərək vermək mümkündür. Bu, əsasən onun ideal aləm, tanrı, ruh, sevgi və dövlət haqqındakı fikir və ideyalarıdır.

İdeal aləm haqqında

Platon özündən əvvəlki filosoflardan fərqli olaraq hər şeyin əsasını hər hansı bir maddədə deyil, ***ideyada*** (ἰδέα) görürdü (15, s.52). O hesab edirdi ki, bizim yaşadığımız və duyduğumuz dünya real deyildir, çünki o dəyişkəndir. Bütün şeylərin əsil mahiyyəti onların görüntülərində deyil, səbəblərində və ya ideyalardadır (2, s.246-248). Deməli, bu dünyada hər bir şey ideya ilə müqayisədə tanınır. Yəni, onlar sanki qəliblərə bənzəyir, hər şey onların formalarında olur. Eyni zamanda duyğu aləmində hər şey ideyalara doğru yönəlir, onlara can atır. İdeyaları duymaq olmaz, onları yalnız düşüncə ilə dərk etmək mümkündür.

Buna örnək kimi at, qoyun, bəbir və siçanı göstərmək mümkündür. Onların hər biri fərqli varlıq olmasına baxmayaraq bizim beynimizdə onların hamısı bir ümumiləşmiş adla "heyvandırlar". Halbuki onların hər biri fərqli varlıqlardır - biri at, digəri siçan və s. Ancaq Platona görə, həmin "heyvan" anlayışı təkcə bizim beynimizin məhsulu deyildir. O müəyyən bir məkanda doğrudan da mövcuddur. At, siçan, bəbir, qoyun və s. onun görüntüləridirlər. Deməli, o - "heyvan" bunların pərdə arxasında olan ideyasıdır.

Platona görə, bu dünyanı yalnız ideyalar aləmini dərk etməklə anlatmaq mümkün deyildir. Burada hər şey müvəqqəti və keçici olduğuna görə "*varlıq*"dan başqa, burada "yoxluq" da vardır. Bununla da o, *Parmenidesin* fəlsəfəsinə zidd getmiş, yoxluğun maddə olduğunu, ideyaların isə onda təcəssüm etdiyini qeyd etmişdir. Deməli, yuxarıda qeyd edilən misala görə gördüyümüz at, qoyun, bəbir və siçan əslində yoxdur. Onlar ideya olan əsl varlığın inikasıdırlar (əksidir). Beləliklə, Platonun fəlsəfəsində varlıq ideya, yoxluq isə materiyadır (15, s.52). Bu dünya əslində varlıq olan ideyalarla yoxluq olan materiyanın (maddənin) arasındadır. Bir tərəfdən onun var olması ideyalar aləmindən xəbər verir, digər tərəfdən isə o həm də yoxluqdur, çünki bu dünya keçici, onun üzərində olan hər şey isə ölümə və məhv olmağa məhkumdur.

İdeyalar aləmi Platonun fəlsəfəsində çoxpilləli və piramida şəklindədir. Bu piramidanın başında xeyir və həqiqət rəmzi olan ***Əql*** (νοῦς) durur. Hər şeyin məqsədi də odur (1, X). Əbədi olan ideyalar da ondadır. Eyni zamanda, onlar yaradılmamış və ölməzdir. Həmçinin zaman və məkandan asılı deyil, dəyişməzdir. Duyğular aləmində isə hər şey əksinə cərəyan edir. Belə ki, orada hər şey keçici və ölümə məhkumdur. Ayrıca, bu dünya zaman və məkandan asılıdır. Həyatın məqsədi isə ideyalar aləminə (Tanrıya) yaxınlaşmaq, ona bənzəmək, müvəqqəti xarakter daşıyan maddi aləmdən uzaqlaşmaqdır (1, XXVIII).

Tanrı haqqında

Platona görə, ideyaları maddi aləmdə təzahür etdirən və onları əlaqələndirməyə çalışan bir Tanrı vardır. Bu Tanrı "***Demiurqós***"dur (δημιουργός, sənətkar) (15, s.28). Ancaq nə ideyalar, nə də maddə ondan asılı deyildir. Çünki onları o yaratmamışdır. Ancaq Demiurqos əzəldən mövcud olan ideyaları onun təzahürləri ilə uyğunlaşdırır. Bu baxımdan Demiurqosu yaradıcı adlandırmaq mümkündür. Bununla da Platonun Tanrısı hər şeyi heçdən var edən monoteistik Tanrıdan fərqlənir. Eyni zamanda, Demiurqos hər şeyə qadir də deyildir. O yalnız materiyanın müqavimətini sındıraraq onu ideyaya uyğunlaşdırmaq istəyir. Ancaq o bunu qismən edə bilir. Sonralar bəzi xristian (qnostik) cərəyanlarının təlimində Demiurqos "ikinci" və ya "saxta" Tanrı kimi tanınmışdır. Onlara görə, həqiqi Tanrı Kainatı yaratdıqdan sonra

yerdə hakimiyyəti şər qüvvələr ələ keçirmişdilər. Onların başçısı da Demiurqos olmuşdur. Bu səbəbdən də dünyada şər vardır.

Ruh haqqında

Platon ruhla bədəni bir-birinə qarşı qoymuşdur. Hər bir insan ideal aləmin və eyni zamanda materiyanın (maddənin) daşıyıcısıdır. Bədən keçici və ölümə məhkum olan materiya, ruh isə dəyişməz və ölməz ideyadır (17, s.80b). Ona görə də həyatın mənası əbədi həyata hazır olmaq, onu qazanmaqdan ibarət olmalıdır.

Platona görə ruhların *ağıllı*, *qəzəbli* və *nəfsi* səviyyələri vardır (16, IV). Ağıllı səviyyə insanı ideyalar aləminə yaxınlaşdırır, onun mənəviyyatının əsasında durur, onu həmişə xeyrə yönəldir. Qəzəbli səviyyə nizam və çətinliklərə sinə gəlməyə yönəlir. Nəfsi səviyyə isə insanı maddi aləmə bağlayır və onu geriyə çəkir və onu ideyalar aləmindən uzaqlaşdırır. İnsanlarda isə vəziyyətdən asılı olaraq bəzən ağıllı, bəzən qəzəbli, bəzənsə nəfsli səviyyə hakim olur (1, XXIII).

Qeyd etmək lazımdır ki, Platon *reinkarnasiyaya* da (ruhların köçü) inanırdı. O hesab edirdi ki, öz əməllərinə görə insan gələcək həyatda müxtəlif bədənlərdə təkrar həyat qazanacaqdır (17, s.81e). Ancaq kamillik səviyyəsinə çatmış ruhlar əbədi olaraq bu dünyadan ayrılır və ideyalar aləmi ilə qovuşur. Beləliklə, Platon ruhun maddə ilə, yəni bədənlə qovuşmasına birmənalı baxmırdı. Bununla da o, bədənə ruhun zindanı kimi baxırdı. Onun fikrinə görə, ruh o zindandan xilas olmağa və öz azadlığına qovuşmağa can atır. Bunun üçün də insan ruhunu azad etmək üçün dünya ilə bağlarını qırıb ən yüksək məqsəd olan ***"Xeyrə"*** yönəlməlidir.

Bununla birlikdə Platon ruhların insan bədənində həyat tapmasından öncə var olmasına da inanırdı (17, s.73). Buna görə də insan ideal aləmdə olanları xatırlayır, orada ruh hər şeyi ən mükəmməl və gözəl şəkildə görür. Ruh maddi aləmdə hər şeyin əsil mahiyyətini dərk etməyə çalışır və onların ideyalarını yada salır.

Sonralar Platonun "*ruhun xatirələri*" haqqındakı fikirləri ***apriorizmin*** əsasını qoymuşdur. Onun bu ideyası digər sonrakı təlimlərdə də istifadə olunmuşdur. Apriorizmə görə insanın şüurunda elə biliklər və qəliblər vardır ki, onlar təcrübə nəticəsində əldə edilməyib, öncədən də mövcud olmuşdur.

Platona görə ruh ölməzdir. Çünki insanın bilikləri onun ruhunun məhsuludur. Onlar səbəbsiz yaranmır, keçmiş həyatın xatirələridir. Bu baxımdan da bilik itmir və heç bir vaxt yaddan çıxarıla bilməz. Bu da unutma və xatırlama silsiləsini təşkil edir. Platon qeyd etmişdir ki, heç də hər bir insanın ruhu onun ölümdən sonra Tanrılar aləminə ucalmır. Ancaq həyatı boyu özünü tanıma ilə məşğul olan, hər şey haqqında düşüncələrə qapanan və həqiqəti axtaranların ruhları bu məqamlara çatır. Bu insanlar isə filosoflardır. Filosof olmayan insan isə əsla saflaşaraq tanrılaşa bilməz. Filosoflar bədənin ölümündən sonra yeni bədəndə dünyaya gəlməzlər. Digər insanların ruhları isə apardıqları həyat tərzinə uyğun olaraq yeni bədənlərə köçürlər.

Bununla da öncə dini məzmun daşıyan ölməzlik ideyası ilk dəfə fəlsəfəyə intiqal etmişdir. Filosofun ölümü adi insanın ölümünə bənzər deyil. Onun ruhu İlahi əbədilik ideyasının təcəssümüdür. Yenə Platona görə, dini təlimlərdən fərqli olaraq yüksək məqamlara çatmaq üçün dini ayinlərə riayət etməklə deyil, fəlsəfi məqamlara yüksəlməklə mümkündür. Ümumiyyətlə, ideyalar *intuisiya* vasitəsi ilə dərk edilir və bu həqiqi bilikdir. Maddi aləmin təzahürləri isə yalnız təsəvvürdür. Bu təsəvvürlər isə heç də həqiqi bilik deyildir.

Sevgi haqqında

Platon fəlsəfəsində sevgi hissinə də böyük əhəmiyyət verilir. Onun təsiri o qədər böyükdür ki, onsuz heç nə təsəvvür edilməz. Hətta gözəlliyə və xeyrə olan sevgi hissi insan ruhunun ideyasıdır. Ən böyük güc isə sevgi tanrısı ***Erotdur***. Onun verdiyi güc heç nə ilə müqayisə edilə bilməz. Erot təkcə insanda deyil, bütün təbiətdə yaşayır və onu idarə edir. Hər şey sevgidən yaranır və ondan doğulur. Ona görə Erota ən böyük sayğı bəslənməlidir. Eyni

zamanda, Erot bəlkə də tanrı belə deyildir. Sadəcə insan təbiətini tanrılarla bağlayan bir gücdür. Ola bilsin ki, Erot gözəl də deyildir, sadəcə gözəlliyə və xeyrə yönəlir. Çünki onda olmayan bir şeyi əldə etməyə çalışır. Həmçinin Erot, cismani və mənəvi sevgini birləşdirən bir gücdür. Bədənə qarşı olan bir sevgidə bayağılıq olsa belə, o lazımdır. Çünki öncə gözəl bədənə vurulan insan, sonra onun ruhunda olan *Xeyri* və mənəvi gözəlliyi axtarır və ona qovuşmaq istəyir. Sonra isə sevgi gücü insanı İdeal Gözəlliyə yönəltməklə tərbiyələndirir, elmini artırır və onu yüksək dəyərlərlə yaşamağa vadar edir. Beləliklə, sevgi hissi bizi mənəvi cəhətdən də təkmilləşdirir. Nəticədə isə bu hisslərin inikası ədəbiyyatda əks olunur. Ona görə də Sevgi Xeyrin təcəssümüdür (18).

Belə ki, Platonun Sevgi haqqındakı fikrini sonrakı dövrlərdə müxtəlif xristian və müsəlman (sufilər) mistik təlimləri mənimsəmişdir. Ancaq onlar Sevgini yalnız mənəviyyatda görüb, onu Tanrıya qovuşmada əsas istiqamət kimi dəyərləndirirdilər. Elmdə isə Platonun bu fikirlərini ***Ziqmund Freyd*** istifadə etmişdir. Onun psixoanalizində Sevgi hissi insan təbiətinin aparıcı qüvvəsi kimi göstərilir.

Dövlət haqqında

Platonun fəlsəfəsində dövlət və cəmiyyət məsələlərinə də böyük əhəmiyyət verilmişdir. Bu məsələlər əsasən insan və ruh fəlsəfəsi aspektində açıqlanır. O hesab edirdi ki, insanlar yetkin cəmiyyəti fərdi şəkildə qura bilməzlər. Ona görə də dövlətə və qanunlara ehtiyac vardır. Ancaq dövlət öz vəzifəsini yerinə yetirmək üçün ideala yaxın olmalıdır. Bu məqama çatmaq üçün isə idarəçilik üsulları və qanunun müəyyən tələblərə cavab verməsi lazımdır.

Ümumiyyətlə, Platon insanları üç təbəqəyə bölür. Birinci təbəqədə *ağıl sahibləri* insanlar yer almaqdadırlar. Çünki onların mənəviyyatında düşüncə digər duyğuları üstələyir. Bu səbəbdən də ağıl sahibi insanlarda ideyaların ardıcıllığı və ahəngi əks olunur və bu insanlar ideal gözəlliyi də dərk edə bilirlər. Onlar həmçinin ***Xeyrə*** doğru yönələrək ədalət və həqiqət tərəfdarları olub, dünyanın aldadıcı özəlliklərinə aldanmırlar. Məhz ağıl sahibi insanlar müdrik filosoflardır və onlar dövləti idarə etməlidirlər (16, V, s.473).

İkinci təbəqə insanlar *emosional insanlardır*. Onların mənəviyyatında emosionallıq (affektlik) payı daha çox olur. Bu kimi insanlar əsasən özlərinə qapanırlar. Ancaq bu təbəqə insanlar igidlik və mərdlik nümunəsi də ola bilərlər. Bu təbəqə insanlar əsasən orduda qulluq edir, ictimai asayişi qoruyur, öz xidməti borclarını yerinə yetirirlər (16, II, s.420).

Üçüncü təbəqəni isə *dünyaya bağlı olanlar* təşkil edirlər. Onların ruhları maddi aləmdən həzz almağa meyillidirlər. Bu təbəqəyə məxsus olan insanlar əsasən fiziki əməklə məşğul olub dövlətin maddi vəziyyətini yaxşılaşdırmaqla dövlətə xidmət edirlər (16, IV, s.420).

Daha sonra Platon bir neçə dövlət quruluşunu qeyd edir (16, VIII). Bunlar əsasən aşığıdakılardır:

1. Aristokratiya - azlığı təşkil edən ən yaxşı vətəndaşların ədalətli hakimiyyəti.

2. Timokratiya - azlığı təşkil edən hərbiçilərin və digər hörmətə layiq insanların ədalətsiz hakimiyyəti.

3. Oliqarxiya - azlığı təşkil edən varlı adamların ədalətsiz hakimiyyəti.

4. Demokratiya - çoxluğun həm ədalətli, həm də ədalətsiz hakimiyyəti.

5. Tiraniya - bir nəfərin ədalətsiz hakimiyyəti.

Platonun fəlsəfəsində ədalətli və kamil dövlət ən yüksək idealdır. Bu dövlətdə hamı öz vəzifəsini yerinə yetirir. O hesab edirdi ki, şəxsi mülkiyyət və ailə müxtəlif ziddiyyətlərin yaranmasına səbəb olur. Bu isə cəmiyyətin və dövlətin birliyini pozur. Ona görə də hakimiyyətdə olan təbəqənin və əskərlərin mülkiyyəti və qadınları ümumi olmalıdır (16, VIII, s.543).

2. Aristotel fəlsəfəsinin qısa icmalı

Aristotel (Ἀριστοτέλης, b.e.ə. 384-322) Frakiyanın Stagira şəhərindən idi. Aristotel Platonun tələbəsi olmuş, müəlliminin ölümündən sonra bir müddət Kiçik Asiyada yerləşən Atarne, sonra isə Lesbos adasındakı Militena şəhərində yaşamışdır. Gənc yaşlarından elmə və fəlsəfəyə böyük maraq göstərmişdir. Aristotel b.e.ə. 367-ci ildə Afinaya köçmüş, Platonun Akademiyasında fəaliyyət göstərmişdir. B.e.ə. 343-cü ildə Makedoniya kralı Filippin dəvəti ilə Makedoniyaya köçmüş, onun sarayında gənc şahzadə ***Aleksandrın*** (İskəndərin) müəllimi olmuşdur. B.e.ə. 335-ci ildə Afinaya qayıtmış, orada *Liseyon* (Λύκειον) adlanan öz fəlsəfi məktəbini açmışdır. Onu peripatetik (məşşai) məktəb də adlandırırlar. Dövrümüzdə "liseylər" adlanan məktəblər Aristotelin Liseyon adlanan fəlsəfi məktəbinin əsasında təşkil edilmişdir.

Aristotel, İskəndərin ölümündən sonra makedoniyalıların tərəfdarları Afinada təqib olunduqlarına görə, b.e.ə. 322-ci ildə Euboia adasında yerləşən Xalkida şəhərinə köçmüş və orada dünyasını dəyişmişdir.

Aristotel qədim dünyanın ən böyük filosoflarından biri olmuşdur. Onun elmi fəaliyyəti nəticəsində Qədim Yunan fəlsəfəsi ən parlaq dövrlərini yaşaya bilmişdir. O, ilk dəfə fəlsəfədə insan düşüncəsinin bütün sahələrini əhatə edən sistem yarada bilmişdir. Onun məntiq, təbiət, metafizika, ontologiya, əxlaq, dövlət, ritorika, poetika və s. sahələrinə aid aşağıdakı əsərləri mövcudur. Belə ki, onun Metafizika (Μετὰ τὰ φυσικά), Fizika (Φυσικὴ ἀκρόασις), Göy haqqında (Περὶ οὐρανοῦ) Nokomah əxlaqı (Ἠθικὰ Νικομάχεια), Meteorologiya (Τα μετεωρολογικά), Kateqoriyalar (Κατηγοριῶν), Sofistlərin təkzib edilməsi (Περὶ τῶν σοφιστικῶν ἐλέγχων), Ruh haqqında (Περὶ ψυχῆς) və s. kimi fundamental əsərlərini qeyd etmək mümkündür. Ümumiyyətlə o, bəşəriyyət tarixində bilinən ilk insandır ki, elmlərə sistemli yanaşmış və onların klassifikasiyasını vermişdir.

Sevindirici haldır ki, Aristotelin bəzi əsərləri dövrümüzə gəlib çatmışdır. Bundan başqa Aristotelin fəlsəfi düşüncələri onun tələbələrinin və digər müəlliflərin əsərlərində də verilmişdir. Bununla yanaşı, bəzi tədqiqatçılar ehtimal edirlər ki, onun müəllifliyi ilə tanınan bəzi əsərlər ola bilsin ki Aristotel tərəfindən deyil, başqa müəlliflər tərəfindən yazılmışdır.

Metafizikası

Metafizika fəlsəfənin predmeti olaraq təbiət üstü aləmlə əlaqədar problemləri əhatə edir. Metafizika həm də dialektikanın əksidir. Metafizikanı fəlsəfənin predmeti kimi ilk dəfə fəlsəfi ədəbiyyata daxil edən və onun ilkin izahını verən də Aristotel olmuşdur.

Aristotel Platonun ideyalar haqqında təlimini tənqid etmişdir (7, I, 6). Onun "*Platon mənim dostumdur, ancaq həqiqət dostluqdan üstündür*" kimi məşhur kəlamı da vardır. Aristotelə görə ideyalar və real dünya bir-birindən fərqli məkanlarda mövcud ola bilməz. Bir şeyin kölgəsi başqa məkanda ola bilməz, onlar hər ikisi eyni yerdə olmalıdırlar. Ona görə də onlar bir yerdə vəhdət təşkil edirlər. Eyni zamanda, Platonun ideyaları bu dünyada şeylərin hərəkətini, yaranmasını, inkişafını, məhv olmasını və ölümünü izah etmir. Çünki onlar real aləmdən uzaq başqa bir aləmdədirlər və onlar daha çox sükunətin təmsilçiləridirlər. Bundan başqa Platonun nəzəriyyəsi dünyadakı şeylərin dərk olunmasını imkansız edir. Çünki belə olduqda onların əsil mahiyyəti özlərində deyil, bizim duymadığımız ideyalarda olur. Ona görə də Aristotel varlığı başqa çür təsəvvür edirdi. Onun fikrincə hər şeyin əsasında hər zaman var olan materiya durur. Ancaq o elə bir cansız, ruhsuz bir maddədir ki, ondan hər şeyi yaratmaq mümkündür (7, III, 4). Bu yaradılış prosesində isə üçüncü bir qüvvə iştirak etməlidir. Bu qüvvə isə *"İlk mühərrikdir"* (τὸ πρῶτον κινοῦν). Aristotel onun varlığını hərəkətin varlığı ilə əsaslandırır. Belə ki, bir şey hərəkətdədirsə, onda bu hərəkətə təkan verən olmalıdır. Ancaq "İlk mühərrikin" özü isə hərəkətsizdir **(**4, I, 5). O materiyanı canlandırır, ondan isə bitki, heyvan və insanlar kimi canlıları yaradır (7, V, 25). Bu, dulusçunun gildən düzəltdiyi müxtəlif şeylərə bənzər bir prosesdir. Məsələn, "İlk mühərrik" ilkin olaraq insanın formasını və ya Platonun ifadəsi ilə desək, onun ideyasını yaradır. Sonra ona cisim (materiya) verir və bununla

da insan yaranmış olur. Bütün dünya və Kainat əslində *materiyadan* ibarətdir. Beləliklə, Aristotelin istifadə etdiyi ***"forma***" anlayışı, Platonun "ideyasına" çox yaxın məna ifadə edir. "İlk mühərrik" əslində Aristotelin mücərrəd qəbul etdiyi mifləşdirilmiş, insani xüsusiyyətlər qazandırılmış tanrı deyildir. Aristotelə görə, O maddə deyil, ***"Əqldir"*** (νοῦς). Planonun *Demiurqosundan* fərqli olaraq, Aristotelin "İlk mühərriki" dünyanı ideyalardan kənar real qəbul edir. O hər zaman fəaliyyətdədir və cansız materiyaları formalaşdırır. Bu fikirlər sonralar Xristian və Müsəlman fəlsəfəsində də istifadə edilmişdir.

Ümumiyyətlə, Aristotel fəlsəfəsində *formaya* xüsusi əhəmiyyət verilmişdir. Aristotelə görə forma məhz təbiətdir (4, II, 1). Onsuz materiya yalnız bir *imkandır, yəni* Aristotelin təbirincə potensiyadır. Məsələn, Aristotelə görə daşların bir araya yığılması imkan verir ki, bina inşa edilsin (formaya malik olsun). Ancaq o bina inşa edilməzsə, daşların bir araya yığılmasının heç bir mənası olmazdı. Deməli, imkanın varlığı əhəmiyyətli olsa belə, həlledici deyildir. Hərəkət olmazsa imkanın keyfiyyətə keçməsi mümkün olmazdı. Kainatı təşkil edən *materiya* (maddə) da belədir. Ondan formalar yaranmazsa, mənasız bir şey olardı. Beləliklə, deyə bilərik ki, əslində hər şey *materiya* və *formanın* vəhdətindən ibarətdir (7, VII, 3).

Beləliklə, Aristotel formaları şeylərdən ayırıb, onları substansiya kimi təsəvvür edirdi. Materiya isə Aristotelin fəlsəfəsində "İlk mühərrik" kimi əbədidir, yaradılmayıb və məhv edilməzdir. Onun əsasını *dörd ünsür* (od, hava, su və torpaq) təşkil edir. Bu ünsürlər həm də dərk edilməyən "ilk mühərrik" ilə reallıqda mövcud olan və duyulan aləm arasında bir bağlantı və keçiddir. Duyulan şeylərin isə bir-birinə zidd olan iki cüt xassəsi vardır. Biri *isti-soyuq*, digəri isə *quru-nəmdir*. Yuxarıda qeyd edilən dörd əsas element isə bunların xassələri vasitəsi ilə formalaşır. Dünyada bütün duyulan şeylər yuxarıda qeyd edilən elementlərin kombinasiyalarının nəticəsidir. İlk materiyadan fərqli olaraq, onlar dərk olunur və əsas kateqoriyalar vasitəsi ilə təyin edilirlər.

Kateqoriyalar və idrak prosesi

Müəyyən bir şey haqqında tam təsəvvür yalnız onun mahiyyətinin bilinməsindən sonra yaranır. Bu da Aristotel fəlsəfəsinin ən əsas məqamlarından birini təşkil edir. Aristotel fəlsəfi yaradıcılığında mahiyyətin izahını vermək üçün *kateqoriyaları* (κατηγορία - ittiham, xassə, deyim) tətbiq edilmişdir. Kateqoriya hər bir anlayışın, ifadənin, həqiqətin ən ümumi və sadə formasıdır ki, onların əsasında bir tərəfdən digər anlayışlar (idrak kateqoriyaları), başqa tərəfdən isə dərk edilən obyektlərin gördüyümüz varlıq formaları (varlıq kateqoriyası) ortaya çıxır. Başqa sözlə, kateqoriya reallığın ən əhəmiyyətli tərəflərini əks etdirən ümumi anlayışdır. Bununla da Aristotel idrak və varlıq kateqoriyalarının münasibətlərini araşdıran *idrak nəzəriyyəsinin* əsaslarını qoymuşdur. Aristotelin ***"Orqanon"*** əsərinin birinci kitabı "*Kateqoriyalar*" adlanır. Orada 10 kateqoriya göstərilmişdir: *"substansiya"* (οὐσία), *"kəmiyyət"* (ποσόν), *"keyfiyyət"* (ποιότης), *"münasibət"* (τὸ πρός τί), *"məkan"* (τὸ που), *"zaman"* (τὸ πότε), *"hal"*(τὸ κεῖσθαι), *"fəaliyyət"* (τὸ ποιεῖν), *"məxsusluq"*(τὸ ἔχειν) i *"məruz qalma"* (τὸ πάσχειν) (6, IV). Aristotelə görə məhz hər bir şeyin mahiyyətinin açılmasının əsasında bu kareqoriyalar durur.

İdrak nəzəriyyəsində Aristotel subyektdən asılı olmayan *obyektiv reallığın mövcudluğu* mövqeyindən çıxış edirdi. O qeyd edirdi ki, ətraf mühitimizdə olan şeylər insanda duyğularla əks olunur. Həqiqi biliyi ideal aləmdə görən Platondan fərqli olaraq Aristotel hesab edirdi ki, insandan asılı olmayan gerçək dünya vardır. Ona görə də insanda əks olunan hər şey öncə duyğu vasitəsi ilə əldə olunur. Bilik və yüksək ağıl formaları isə duyğu yolu ilə əldə olunmur. Bunlar daha yüksək əqli fəaliyyətlə əldə edilir.

Məntiq

Aristotel tərəfindən kateqoriyaların fəlsəfi izahının verilməsi həm də məntiq elminin inkişafına təsir etmişdir. Çünki hər bir şeyin mahiyyətində duran anlayışların müəyyən

edilməsi o şey haqqında tam təsəvvür yaradır. Beləliklə, Aristotel məntiq elminin inkişafında müstəsna rol oynamışdır. Onun üçün məntiq ayrıca elm deyil, hər bir elmin əsasıdır. Onun məntiq haqqındakı təlimi *"**Orqanon**"* adlanan əsərində ortaya qoyulmuşdur.

Aristotel hesab edirdi ki, məntiq sübutlar haqqında elmdir. Əqli fəaliyyət reallıqda var olan şeyləri əks etdirir. Məntiqi mülahizə və əql yolu ilə əldə edilən nəticələr, fikirlər və terminlər bir-birinə zidd olmamalıdır. Bu fikirlərin əsasında isə sonralar ***sillogizm*** (συλλογισμός) haqqında təlim yaranmışdır (3, I, II). Bu təlimə görə, hər hansı bir ümumi növ ya cins haqqında irəli sürülən fikir, o növə və ya cinsə aid olan ayrıca fərd haqqında da irəli sürülməlidir. Buna görə də sillogizmlər böyük və kiçik *mülahizə* (önərmə) və *qərardan* ibarətdir. Önərmə qərarın verilməsinin təməlində duran iddia və ya fikirdir. *Böyük önərmə* ümumi nəticəni, *kiçik önərmə* isə subyektin nəticəsini əhatə edir. Sillogizmin nümunəsi kimi belə bir üçlü mülahizəni qeyd etmək mümkündür: *Hər bir insan ölməlidir (böyük önərmə). Sokrat da insandır (kiçik önərmə). Deməli, Sokrat da ölməlidir (qərar).*

"Sofistlərin təkzib edilməsi" kitabında Aristotel yazırdı ki, bütün məntiqi yanlışlıqların kökü sillogizmlərdə olan yanlışlıqlardadır. Bu yanlışlıqlar isə ikiyə ayrılırlar: Bir qismi *dilin xətaları*, digəri isə *mənaların təhrifidir*. Dildəki xətalar sözlərin çoxmənalılığından, vurğuların düzgün qoyulmamasından irəli gəlir. Məna xətaların isə səbəbi şeylərin mahiyyətinə deyil, təsadüfi tərəflərinə varmaq, mütləqlə nisbini fərqləndirməmək, sualları düzgün qoymamaq kimi amillərdən irəli gəir (13, I (5), II (14)).

Daha sonra Aristotel ***"Orqanon"*** əsərinin ***"Topika"*** kitabında *həqiqət* anlayışını izah edən məntiqi dialoqlarını qələmə almışdır. Aristotel burada həqiqətin açılması üçün hər bir şeyin ilkin halını, yəni mahiyyətinin açılmasını tövsiyə etmişdir. Ayrıca, onun fikrinə görə, mülahizələrin istiqaməti də buna yönəlməlidir. Yəni, həqiqi fikir başlanğıca yönəlməlidir. Çoxmənalı söz haqqında mülahizə isə irəli sürülən fikrin mənasına uyğun olmalıdır. Məsələn, "*təbiət*" sözünü insan və ya ətrafımızda olan bütün canlılar mənasında işlətmək mümkündür. Ona görə də istifadə edilən söz irəli sürülən fikrə uyğun olmalıdır (11, I, 1).

Aristotelə görə məntiqi dialoqda sistem olmalıdır. Öncə problem ortaya qoyulmalı, sonra mülahizənin *induktiv* ya *deduktiv* yolla irəli sürülməsi yolları haqqında düşünülməli, məsələlərin bənzər və fərqli tərəflərinə diqqət yetirilməlidir. Suallar doğru və konkret qoyulmalı, cavabların isə strategiyası olmalıdır (11, I, 14).

Ruh haqqında

Aristotel ruhu həyatın əsası hesab edirdi. Aristotelə görə ruh maddə və bədənin forması, onların mənası isə hərəkətlərinin səbəbi və məqsədidir. Ruh bitki, heyvan və insanlarda yaşayır. Ruh bədənlə birlikdə var olsa belə, ondan daha üstündür. Beləliklə, Aristotelə görə bədən ruha tabedir (10, III, 8).

Platonda olduğu kimi, Aristotel də ruhların səviyyələri haqqında söhbət açmışdır. Ona görə ruhların üç səviyyəsi vardır. Birincisi *nəbatidir* (vegetativ) ki, onun sayəsində fiziki inkişaf baş verir. İkincisi, səviyyə nəfsani və ya heyvanidir (*duyğusal*). Bu səviyyədə ruh artıq görmək, eşitmək, duymaq, toxunmaq, ehtiras, və iştaha gəlmək kimi xüsusiyyətlərini təmin edir. Üçüncüsü isə *əqldir* ki, o ruhun ən yüksək səviyyəsidir (10, II, 3).

Aristotelə görə bitkilərdə ruhun yalnız nəbati, heyvanlarda nəbati və nəfsani, insanlarda isə həm nəbati, həm nəfsani, həm də əqli səviyyəsi vardır. Məhz əqli səviyyəsini inkişaf etdirən, xeyrə yönələn, mənəvi cəhətdən yüksələn, müdrikliyə çatan insanlar *xoşbəxt* olurlar.

Heyvanlar xoşbəxtliyin nə olduğunu bilmir, tanrılar isə daim xoşbəxt həyat keçirirlər. Yalnız insan öz xoşbəxtlik yolunu seçmək və ya onu inkar etmək imkanındadır. Aristotelə görə, xoşbəxt olmaq üçün ruhun əqli səviyyəsini inkişaf etdirmək lazımdır ki, insan heyvanlardan seçilsin. Aristotelin xoşbəxlik haqqındakı fikirləri İslam peripatetiklərinə də təsir

etmişdir. Onlar sadəcə İslam dəyərləri ilə Aristotelin xoşbəxtlik haqqındakı fikirlərini uzlaşdırmışlar.

Əxlaq

Aristotel əxlaq elmini də inkişaf etdirmisdir. Onun fikrincə, əxlaqın məqsədi ruhun *Xeyrə* yönəlməsidir (9, VIII, 7). Bu isə insanı xoşbəxtliyə ulaşdırır. Bu yolda ruhun əqli səviyyəsi nəbati və nəfsani səviyyələri üstələyir. Bunu əldə etmək üçün insan özünü bu istiqamətdə tərbiyələndirir ki, o da sonra vərdiş halını alır və bütün bunlar isə zamanla insanın özəlliyinə çevrilir. Bununla belə, xoşbəxt olmaq üçün sağlamlıq, yaxşı görkəm, müvafiq maddi durum kimi müəyyən göstəricilər də olmalıdır.

Xeyrin özəlliyi isə hər bir aşırılıqdan uzaqlaşmaqdır (9, IV, 10). Məsələn, qorxaqlıq və məğrurluq aşırılıqlardırsa, bunların arasında olan cömərdlik əxlaqın əsası olan Xeyirdir. Yenə, israfçılıq və xəsislik aşırılıqlardırsa, qənaətçilik məqsədəuyğun əxlaq nümunəsidir (9, II, 2).

Aristotelə görə insan həyatdan həzz almalıdır. Bu da *Xeyrə* ulaşmanın nəticəsində baş verir. Beləliklə, insanın mənəvi durumu o zaman yuksək olur ki, o etdiyi əməllərin doğru və xeyrə uyğun olduğunu hiss edir. Əxlaqlı olmaq isə hər hansı bir xeyirli işin görülməsi ilə dəyərləndirilmir. Çünki xeyir əməllər çoxdur, insanlar onları eyni dərəcədə bütün həyatları boyu etməlidirlər ki, həyatdan həzz alsınlar. Hər bir insan təbəqəsinin öz əxlaqi vəzifələri vardır. Eyni zamanda, ədalət anlayışı kimi hamı üçün bir olan xeyir vardır ki, onlara hamı əməl etməlidir. Qeyd etmək lazımdır ki, hər bir əxlaqi hərəkət şüurlu olaraq yerinə yetirilir. Deməli, əxlaq düşüncə ilə sıx bağlıdır və buna görə də insanın xeyirlə şəri bir-birindən ayırmaq imkanı vardır (9, III, 7).

Kosmoqoniya və fizika

Aristotel kosmoqoniyasının əsasını geosentrizm (yermərkəzçilik) təşkil edir. Bu da Yerin Kainatın mərkəzində yerləşməsi təsəvvürü ilə əlaqədardır. O hesab edirdi ki, Yer kürə formasında və hərəkətsizdir. Onun ətrafında Ay, Günəş, ulduzlar və göy fırlanır. Geosentrizm təlimi Orta əsrlər fəlsəfəsində kosmoqonik baxışların formalaşmasında çox böyük rol oynamışdır.

Bu baxımdan Aristotel hesab edirdi ki, dünyanın əsasını *beş ünsür* təşkil edir. Onlardan dördü - *torpaq, su, hava* və *od* bizim səmaaltı dünyadadır (8, I, 2). Onlar hərəkətdədirlər, eyni zamanda onlar forma da dəyişdirə bilərlər. Buna görə də dünyada müxtəlif proseslər baş verir və dəyişikliklər müşahidə edilir. Bu ünsürlər isə öz növbəsində iki qütblü və ziddiyyətli cütlüklərdən yaranır. Belə ki, Yer soyuqla istinin, hava quru ilə nəmin, su soyuqla istinin, od isə isti ilə qurunun əlaqələrindən doğur (8, I, 3).

Aristotelə görə, göydə olan nə varsa beşinci ünsür olan *efirdən* əmələ gəlmişdir (5, I, 3). Orada yalnız planet və ulduzların əbədi və bərabər dairəvi hərəkəti mövcudddur. Bütün bunları isə Tanrı kimi təsəvvür edilən "İlk mühərrik" əmələ gətirmişdir. Onun fikirlərinə görə, kosmos sonsuz deyildir, onun bitdiyi yerdən yoxluq başlayır (5, I, 7).

Bu fikirlər Orta əsr Xristian və İslam teologiyasında da geniş istifadə edilmişdir. Belə ki, Orta əsrlərdə teoloqlar düşünürdülər ki, günah yerlə əlaqəli problemdir, ona görə də göy ünsürləri yerdəkindən fərqlənirdi. Çünki ideal aləm olaraq efir Tanrı və onun mələkələrinin məkanı kimi verilirdi. Bu səbəbdən də mövcudiyyətin başlanğıcı və sonu Tanrıdır. Məhz yoxluq da buradan başlayırdı. Sonra, elmin inkişaf etməsi ilə sübut olunmuşdur ki, əslində yer və göy ünsürləri arasında heç bir fərq yoxdur. Bu da onu göstərirdi ki, Aristotelin bu mülahizələri artıq köhnəlmişdir.

Dövlət və cəmiyyət haqqında

Aristotel Platonun ideal dövlət haqqında fikirlərini tənqid etmişdir. Platonun ideal dövlətindən fərqli olaraq Aristotelin dövləti utopik deyil, real xarakterə sahibdir. Hansı ki, bu

dövlət modelində insanların xoşbəxtliyi əsas götürülür, ancaq burada bütün münasibətlər gerçək və rasional müddəlara əsaslanır (12, II).

Dövlətin əsas məqsədi Xeyrin və ədalətin qurulmasıdır. İnsan öz təbiətinə görə şüurlu ictimai heyvandır (9, XI). O yalnız icma şəklində yaşayıb tərbiyə oluna bilər. Buna isə yalnız dövlətdə nail olmaq mümkündür. Ona görə də insan həm də siyasi varlıqdır (12, I).

Əsil ədalət qanunların mövcudluğu ilə xarakterizə olunur. Dövlətdə yaşayan insanlar isə mütləq şəkildə qanunlara tabe olmalıdırlar. Bu isə əslində hər bir insanı ucaldır. Ona görə də dövlət inkişaf etmiş cəmiyyətlərin birliyidir.

Eyni zamanda, cəmiyyətin əsasını ailə təşkil edir. Ona görə də onun qanun və strukturunu Aristotel dövlətlə əlaqələndirir. Ailə ictimai həyatın ilk mərhələsi kimi xarakterizə edilir (12, I). Burada cəmiyyət və dövlət eynilik təşkil edir. Dövlətin məqsədi isə hər bir vətəndaşın xoşbəxt və güvənli yaşamasını təmin etməkdir (12, VII).

Aristotel quldarlıq cəmiyyətinin tərəfdarı idi. Elə bu cəmiyyəti o təbii vəziyyət kimi dəyərləndirmişdir. Tale insanların bir qismini hakimiyyət üçün, digərlərini isə onlara xidmət etmək üçün yaratmışdır. Buna baxmayaraq, Aristotel ifrat dərəcədə varlanmağa da qarşı olmuşdur. Eyni zamanda, Aristotel Platondan fərqli olaraq insanların şəxsi mülkiyyətinə böyük əhəmiyyət verir (12, II). Aristotel dövlətdə yaşayan azad insanları mülkiyyətlərinə görə siniflərə bölürdü: *varlılar*, *orta təbəqə*; *yoxsullar* (12, *IV*). Aristotelin bu fikirlərindən sonrakı dövrlərdə kommunist və solçu təlimlərində istifadə edilmişdir. Orada təbəqələşmə burjua, ziyalı və fəhlə sinfi kimi verilmişdir. O burada ən çox orta təbəqəyə əhəmiyyət verirdi. Çünki varlılarla yoxsullar arasında davamlı ziddiyyətlər vardır. Ona görə də Aristotel dövlətin sabitliyi üçün orta təbəqənin möhkəmlənməsini əsas götürmüşdür. O düşünürdü ki, dövlətdə yoxsulların sayı artmamalıdır, çünki belə olarsa sabitlik pozula bilər (12, V). Günümüzdə də, siyasi quruluşlarda stabilliyin davamlı olması üçün orta təbəqənin formalaşdırılması və möhkəmləndirilməsi, bununla da varlı və yoxsul təbəqə arasında ziddiyyətlərin yumşaldılması yolu tutulmuşdur.

Aristotelə görə, siyasət insanların dövlətdə öz həyatlarını yüksək səviyyədə qurmaq və yönəltmək üçün istifadə etdikləri vasitədir. Onun məqsədi insanları xeyrə doğru yönəltməkdir (12, VII). Ancaq insanların çoxlu əskiklikləri də vardır. Ona görə də siyasətin məqsədi onları tərbiyələndirməkdir. Beləliklə, hər bir vətəndaş qanunlara və hakimiyyətə tabe olmalı, öz vətəndaşlıq borcunu yerinə yetirməlidir. Bu məqsədlə də dövlət cəmiyyətə uyğun olan siyasi quruluşu seçməlidir.

Dövlətdə insanlar nemətlər əldə etmək üçün birləşirlər. Dövlət vətəndaşlara həddən çox varlanmaq imkanı verməməli, hər hansı bir şəxsin həddən artıq hakimiyyət əldə etməsinin qarşısı alınmalıdır. Dövlət həm də qulları öz tabeçiliyində saxlamalıdır. Qullar və yoxsullar varlı vətəndaşlardan fərqli olaraq dövlət işlərində iştirak edə bilməzdilər. Onu da qeyd etmək lazımdır ki, Aristotelin dövlət və siyasət haqqındakı fikirləri yunanlara ünvanlanmışdı. Digər millətləri o barbar hesab edərək onların kölə ruhuna sahib olduqlarını iddia edirdi (12, III). O qeyd edirdi ki, əgər yunanlar obyektiv səbəblər üzündən yaşadığı yerlərdə məqsədəuyğun dövlətə nail ola bilmirlərsə, onda onlar xarici qüvvələrə müraciət edə bilərlər. O, burada əsasən makedoniyalıları nəzərdə tuturdu. O düşünürdü ki, onların vasitəsi ilə İran məğlub edilməli və bu ərazilərdə yeni yunan dövlətləri yaranmalıdır.

Aristotelə görə bir necə dövlət quruluşu vardır. Onlar *nizamlı* və *nizamsız* olmaqla iki yerə bölünürlər. Nizamlı quruluşlar monarxiya, aristokratiya və politiyadır. *Monarxiya* bir adamın (kralın), *aristokratiya* isə yüksək imtiyazlı siniflərin hakimiyyətidir. Burada tək adamın deyil, azlığın hakimiyyəti həyata keçirilir. *Politiya* çoxluğun maraqlarını əks etdirən çoxluğun hakimiyyətidir, bu həm də mötədil demokratiyadır. Bu idarəetmə sistemi çox az millətlərdə ola bilər. Orada hər şey (əxlaq, rifah və s.) mötədildir, həddi aşmır, aşırılıqlara yol verilmir (12, III).

Nizamsız dövlət quruluşu isə tiraniya (istibdad), oliqarxiya və demokratiya kimi idarəetmə üsullarına bölünür. Burada hakimiyyəti əldə etmişlər öz şəxsi maraqlarını güdürlər. *Tiraniya* belə bir monarxiya quruluşudur ki, orada bir nəfər hakimiyyəti öz şəxsi maraqları üçün istifadə edir. *Oliqarxiya* öz maraqlarını güdən imtiyazlı siniflərdən olan azlığın hakimiyyətidir. *Demokratiya* isə cəmiyyətdə çoxluqda olan yoxsullar və azad vətəndaşların hakimiyyətidir. Bununla belə, demokratiya başqa nizamsız hakimiyyətlərin arasında ən yaxşısıdır. Monarxiyadan yayınma tiraniyaya, aristokratiyadan yayınma oliqarxiyaya, polisiyadan yayınma demokratiyaya, demokratiyadan yayınma isə oxlokratiyaya gətirib çıxarır. *Oxlokratiya* isə demokratiyanın aşırı formasıdır və bu idarəetmə üsulu demaqoqların idarə etdiyi kütlənin istəyinə və nəfsinə uyğun qurulan hakimiyyətdir. Bu quruluş əsasən cəmiyyətlərdə xaotik vəziyyətlərdə ortaya çıxır (12, III). Günümüzdə, bəzi hallarda xalq demokratiya adına bəzi dağıdıcı qüvvələri hakimiyyətə gətirə bilirlər (məsələn, XX əsrdə Almaniyada faşistlərin hakimiyyətə gətirilməsi kimi). Bununla da, demokratiyanın mükəmməl bir idarəetmə üsulu olmadığının şahidi oluruq. Ona görə də təcrübə göstərir ki, siyasi quruluşlardan asılı olmayaraq qanun aliliyi və demokratik dəyərlərin mövcudluğu əsasdır. Məsələn, Skandinaviya ölkələrində demokratik quruluş özünü müsbət tərəfdən göstərə bilmişdir.

Aristotelin fikirləri, onun hərtərəfli fəlsəfi irsi sonrakı bəşəriyyətin düşüncə tarixinə çox böyük təsir göstərmişdir. Özəlliklə, Orta əsrlərdə Xristian və Müsəlman filosofları Aristotelin əsərlərindən bəhrələnmiş, öz dünyagörüşlərini formalaşdırmışdılar. Peripatetiklər adlanan bu filosoflar onun fəlsəfi irsinə müraciət edərək onları inkişaf etdirib, şərhlər yazmışdılar.

Açar sözlər: Platon, Aristotel, filosofiya, metafizika, ideya, təbiət, dövlət və demokratiya.

İstifadə olunmuş ədəbiyyat

1. Albinus, The Handbook of Platonism: Alcinous, ed. and trans. John Dillon (Oxford, 1995).

2. Anonymous Prolegomena to Platonic Philosophy. Journal of the History of Philosophy Volume 1, Number 2, December 1963.

3. Aristotle. Prior Analytics (Öncəki analitika). Translated by A.J. Jenkinson http://classics.mit.edu/Aristotle/prior.html

4. Aristotle. Physics (Fizika). Translated by R.P.Hardie and R.K.Gaye. http://classics.mit.edu/Aristotle/physics.html

5. Aristotle. On the Heavens (Göylər haqqında). Translated by J.L.Stocks. http://classics.mit.edu/Aristotle/heavens.html

6. Aristotle. Categories (Kateqoriyalar). Translated by E.M.Edghill http://classics.mit.edu/Aristotle/categories.html

7. Aristotle. Metaphysics (Metafizika). Translated by W.D.Ross http://classics.mit.edu/Aristotle/metaphysics.html

8. Aristotle. Meteorology (Meteorologiya). Translated by E.W.Webster. http://classics.mit.edu/Aristotle/meteorology.html

9. Aristotle. Nicomachean Ethics (Nicomakh əxlaqı). http://www.virtuescience.com/ethics4.html

10. Aristotle. On the Soul (Ruh haqqında). Translated by J.A.Smith. http://classics.mit.edu/Aristotle/soul.html

11. Aristotle. Topics (Topikalar). Translated by W.A.Pickard-Cambridge http://classics.mit.edu/Aristotle/topics.html

12. Aristotle. Politics. Translated by Benjamin Jowett. http://classics.mit.-edu/Aristotle/politics.html

13. Aristotle. The Sophistical Elenchi (Sofistlərin təkzib edilməsi). https://en.wikisource.org/wiki/The_Sophistical_Elenchi/Table_of_Contents

14. Olympiodorus. The Life of Plato. Translated by George Burges in The Works of Plato: A NEW and literal version (London: Henry G.Bohn, 1865), volume IV. Olympiodorus. The Life of Plato. Translated by George Burges in The Works of Plato: A new and literal version (London: Henry G.Bohn, 1865), volume VI, pp.232-240.

15. Plato. Timaeus (Timeus). Translated by Benjamin Jowett. http://classics.mit.edu-/Plato/timaeus.html

16. Plato. The Republic (Dövlət). Translated by Benjamin Jowett. http://classics.mit.edu-/Plato/republic.html

17. Platon. Phaedo (Fedon). Translated by Benjamin Jowett. http://classics.mit.edu/-Plato/phaedo.html

18. Plato. Symposium (Simposium). Translated by Benjamin Jowett. http://classics.mit.edu/Plato/symposium.html

Айдын АЛИЗАДЕ,
Эльсевар САМЕДОВ

КЛАССИЧЕСКАЯ ГРЕЧЕСКАЯ ФИЛОСОФИЯ: КРАТКИЙ ОБЗОР ФИЛОСОФИИ ПЛАТОНА И АРИСТОТЕЛЯ

Резюме

В настоящей статье в краткой форме изложены общие положения философии двух наиболее ярких представителей классической греческой философии Платона и Аристотеля, идеи которых в дальнейшем воздействовали на развитие всей мировой науки. Основываясь на трудах греческих философов, а также исследователей их наследия, авторы статьи стремились на доступном языке довести материал до широкой читательской аудитории.

Ключевые слова: Платон, Аристотель, философия, метафизика, идея, природа, государство и демократия.

Aydin ALIZADEH, Elsever SAMADOV

CLASSICAL GREEK PHILOSOPHY: AN OVERVIEW OF PHILOSOPHY OF PLATO AND ARISTOTLE

Summary

In the present article there is given briefly an outline of the general principals in philosophy of two outstaning representatives of the classical Greek philosophy Plato and Aristotle, whose ideas in future influenced on the development of world science as a whole. In this work the authors have tried to bring the material in accessible language for the widest audience, referring to the works of Plato and Aristotle, as well as researchers of their heritage.

Keywords: Plato, Aristotle, philosophy, metaphysics, idea, nature, state and democracy.

UOT 1.101.1

Mikayıl ƏKBƏROV
k.e.i., AMEA FHİ

KÜTLƏVİ İNFORMASİYA VASİTƏSİ OLAN TELEVİZİYANIN BƏZİ FƏLSƏFİ MƏSƏLƏLƏRİ HAQQINDA*

İnsan həyatının güzgüsü sayılan televiziyanı qüdrətli və qiymətli bir sənəd adlandırmaq olar. Cəmiyyət kütləvi informasiya vasitəsi olan televiziyada daha aydın göründüyündən bu vasitə XX əsrin ortalarından etibarən inam və inadla evlərə, ailələrə, yaddaşlara daxil olaraq insanların tribunasına çevrilmişdir.

XX əsrin ikinci yarısının informasiya «partlayışı» nəticəsində və elmi-texniki inqilabın ən yeni nailiyyətləri əsasında meydana gəlmiş televiziya həm də ötən illər ərzində mənəvi və estetik məzmun kəsb etmişdir. Cəmiyyət həyatının bütün sahələrinə nüfuz etmiş televiziyanın özünün mahiyyətindəki bu məzmun getdikcə zənginləşir, yeni çalarlarla yadda qalır.

Çağdaş internet dönəmində elmi-texniki inqilab insan tərəfindən «istehlak edilən» informasiyanın keyfiyyət və kəmiyyətini, onun səmərəlilik əmsalını ciddi şəkildə artırmağa imkan verir. Şəxsiyyətin siyasi-mənəvi cəhətdən formalaşmasında yaxından iştirak edən müasir informasiya vasitələri içərisində televiziyanın ən mühüm, ən kütləvi kateqoriyaya yüksəlməsi prosesi təbiidir.

Doğrudan da televiziyanın informasiyanın «ixrac» maşını olması həqiqətini və onun özünün təbiətindəki son dərəcə güclü estetik, mənəvi təsir potensialını inkar etmək gerçəkliyə zidd olardı. Sosial sferada televiziyanın mövqeyi barədə danışanda müasir televiziyanın son dərəcə böyük estetik, siyasi və bədii keyfiyyətlərinin əhəmiyyətini azaltmaq mümkün deyil. Əksinə, bu keyfiyyətləri televiziyanın təsir gücünü artıran amillər hesab etmək olar. Məhz bu amillərin köməyi ilə televiziya son illərdə kütləvi informasiya vasitələri arasında ön sıraya çıxmış, insana və cəmiyyətin maddi və mənəvi nailiyyətlərin inkişafına təsir edən bir sahəyə çevrilmişdir.

Fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə "Siyasi etika" əsərində yazır: "Bütün azadlıqlar və hüquqlar eyni zamanda ümumi demokratik dəyərlərdir. Onlar hüquqi və mənəvi humanizmin nailiyyətlərini əks etdirir" (2, s.5).

Bu gün dünyanın efir məkanından otürülən informasiyalar cəmiyyətdə bəzən müsbət, bəzən isə mənfi hallar doğurur. Dəyərlərin bu cür xaotik qoyuluşu cəmiyyətin ümumi vəzifələr uğrunda səfərbər olunmasında, insanların öz həyat mənafelərini doğru-dürüst müəyyənləşdirməkdə çətinlik törədir.

Hazırda dünyanın efir məkanında orijinal düşüncə tərzinin məhsulu olan, insanların sosial tərəqqisinə xidmət edən verilişlərə çox az hallarda rast gəlmək mümkündür. Artıq eyni səviyyədə, ancaq müxtəlif dillərdə danışan, bir-birini təkrarlayan televiziyalara da, verilişlərə də baxmaqdan insan bezib. İnsanların sosial həyatına xidmət edən, humanist düşüncə tərzinə malik verilişlərə üstünlük vermək fikrimizcə, faydalı olardı.

Müasir televiziyaya düşüncə tərzinə görə iki kontekstdən yanaşmaq lazımdır. Birincisi, qanunun aliliyini əsas tutaraq, yeni dünyagörüşünə əsaslanan məzmun yaratmaq. İkincisi isə müasir düşüncədən bəhrələnərək təqdimatdan tərtibatadək - formadan istifadə etmək. Bu kontekstdə Azərbaycan televiziyası ilə Qərb kanalları arasında fərq açıq-aydın görünür.

---

* Məqalə fəlsəfə ü.e.d., professor Əli Abasov tərəfindən çapa məsləhət görülüb.

Maraqlı tendensiya odur ki, televiziya verilişləri ruhunda tərbiyə alıb qidalananlar insan həyatının bütünlüklə əyləncədən ibarət olduğunu düşünür. Şübhəsiz ki, hər kəs zəhmət çəkib bilmədiyini öyrənsə, yaxşıları mənımsəsə və onları öz maddi, mənəvi rahatlığına yönəltsə, yəni gördüklərindən və öyrəndiklərindən zövq alsa daha yaxşı oıar.

YUNESKO-nun dünyada qüdrətli kommunikasiya və mühüm əlaqə vasitəsi olan televiziyanın inkişafına böyük diqqət yetirməsi səbəbsiz deyil. Kommunikasiya sisteminin, o cümlədən, televiziyanın fəaliyyətinin mənası xalqların azadlığı işinə, qarşılıqlı anlaşmanın dərinləşdirilməsinə, millətlərin sosial tərəqqisinə xidmət edir.

Televiziyanın güclü təsir qüvvəsinə malik olması barədə fikirlər onun cəmiyyətin ayrılmaz hissəsinə çevrildiyi vaxtdan eşidilir. Televiziyanın əsarət altına alınmasına qarşı dünyada bir çox etiraz aksiyaları keçirilir. Çoxkanallı verilişlər sistemi yaradıldıqdan sonra ona münasibət bir qədər dəyişib. İnternetin meydana gəlməsi şübhəsiz ki, bu problemin həllini daha da sürətləndirib.

Texnikanın indiki şəbəkəsi bu sahədə mənfi elementlərin sayca azalmasına imkan yaradıb. Lakin məlumdur ki, tamaşaçı kütləsinin yalnız müəyyən hissəsi internetdən faydalana bilir. Buna görə də insanların əksər hissəsi müasir televiziyanın siyasi, iqtisadi və psixoloji hücumlarının hədəfi olaraq qalır.

Televiziya sahəsində çalışan mütəxəssislər son zamanlarda diqqəti "düşüncə yükü" az olan verilişlərə yönəldirlər. Əvvəlki kimi indi də efirdə planetimizin müxtəlif yerlərindən hadisələr – qəzalar, terrorlar, təbii fəlakətlər və bu qəbildən olan digər məlumatlar çox verilir. Amma son zamanlarda televiziya müxbirinin kamerası tez-tez insanın gündəlik sosial qayğılarına, problemlərinə tuşlanır. İnsanın mənəvı dayaqları – elm, mədəniyyət sərvətləri televiziyaya daha çox yol açır, vaxtı keçmiş adətlərin kökündən dəyişdirilməsi meyilləri getdikcə güclənir.

Yaranmış indiki tarixi və sosial-siyasi şəraitdə, cəmiyyətin özündə ehkama, təfəkkür süstlüyünə qarşı mübarizə getdiyi bir zamanda televiziyanın səmərəliyi daha çox orada çalışanların səviyyəsindən asılıdır. Belə olduqda, televiziyanın fəaliyyəti yaradıcı gücü aşkar etməyə, görülən işlərin gedişini daha dərindən işıqlandırmağa, həyatımızın mühüm hadisələrinə tamaşaçılar tərəfindən düzgün qiymət verilməsinə və olaylar barədə mücərrəd, sosial məzmundan kənar deyil, ictimai fikri səhih ifadə etməyə, onun formalaşmasında yaxından iştirak etməyə imkan yaradardı.

Televiziya verilişlərində nöqsanlar çoxdur. Sadəcə, bir şey demək olar ki, televiziyalarda da mənalı, humanizmə əsaslanan axtarışlar demək olar ki, gözə az dəyir.

Televiziyanın yaydığı informasiya özünə sosiallığını daxil edərək, cəmiyyətdə olan münasibətlərin bütün tiplərini və sferalarını əhatə edir. Bu cür informasiyaya aktuallıq, kütləvi auditoriyaya yönəlmə xasdır. Televiziya cəmiyyəti məlumatlandırmaq, insanları sosial cəhətdən aktivləşdirmək funksiyasını yerinə yetirərək, get-gedə özü-özlüyündə ictimai-siyasi fəaliyyət forması alır.

İnsanlıq, cəmiyyət texniki inkişafın yüksək səviyyəsinə çatdığı bir dövrdə televiziya tərəfindən verilən informasiyalar, şərhlər və təhlillər ictimai fikri formalaşdırır. Beləliklə, seyrçi informasiya və şərh verən, konkret prosesləri təhlil edən adamlara inam hiss edir.

Cəmiyyət üçün məlumatları daha tez, daha əhatəli, daha geniş miqyasda yayan mənbə kimi televiziyanı yeganə informasiya mənbəyi də adlandırmaq mümkündür.

Televiziyada obyektivlik prinsipi saxlanılmalıdır. Müəyyən dəyərlər və normalar obrazların çoxluğu ilə paralel kəskinlik və anlayışların birmənalılığından yararlanarkən formalaşır. Bu metod hazırda dünyada çox geniş yayılıb. Bununla belə hər hansı bir televiziya verilişin aspektinin emosionallıq hesabına zəifləməsinə heç vaxt yol verilməməlidir. Çünki emossionallıq elementlərindən həddindən artıq çox istifadə olunması cəmiyyətdə populizm tendensiyasının meydana gəlməsinə və son nəticədə insanların mənəvi dəyərlərinin və eləcə də hadisələrə baxışının düzgün formalaşmamasına gətirib çıxara bilər.

Təəssüf ki, bu gün Azərbaycan efirində konkret faktların hər hansı bir emosionallıq elementlərinə qurban verilməsi və nəticə etibarilə proqramda baş verən proseslərin səhv və natamam əks etdirilməsi geniş yayılıb. Əgər müəllif hadisə və insanları bilavasitə özünü təsvir etmək əvəzinə, yalnız onlara öz münasibətini bildirməklə kifayətlənirsə, fikrimcə, bu səhvdir və bu cür düşüncənin vaxtı çoxdan keçib.

Hazırda kütləvi informasiya vasitələri sistemində televiziyanın rolu son dərəcə artıb. Burada mədəniyyətimizin yüksəlməsi, adamların problemlərin həllinə marağının artması, konkret sosial məsələlərin həll edilməsi cəhdlərin çoxalması öz əksini tapır. Ən mühüm vəzifə kütləvi informasiya vasitələri sistemində televiziyanı cəmiyyətin ən müasir tələbləri səviyyəsinə yüksəltmək, ictimai şüura, sosial durumun tələblərinə cavab verən təsirli forma və metodları aşkar etməkdir.

İnsanlar televiziyadan ümumilikdə dünyanın problemləri barədə yeni məlumatlar almaq, mütəxəssis şərhləri və təhlilləri eşitmək və oxumaq istəyirlər. Kütləvi informasiya vasitələrinin əsas funksiyaları sırasına cəmiyyətin məlumatlandırılması və bu vasitə ilə ictimai şüurun formalaşdırılması daxildir. Faktiki olaraq cəmiyyətin həyat dinamikası onun nə dərəcədə məlumatlı olmasından asılıdır.

Azərbaycanın inkişafı məsələləri ətrafında geniş diskussiyaların aparılması və rəy plüralizminin real həqiqətə çevrilməsi, ölkəmizdə demokratikləşmə ab-havasının dərinləşməsinə yönəldilən tədbirlər televiziyanın çıxışlarının səmərəliliyini köklü şəkildə artırmağı, peşəkarlığı yüksəltməyi, düşüncələri ölçüb-biçməyi, dəlillərin inandırıcılığını və dürüstlüyünü təmin etməyi şərtləndirir.

Azərbaycan cəmiyyətinin hazırda bir çox göstəriciləri üzrə indiki dövrə gəlib çatmasında televiziyanın oynadığı rol mütləq araşdırılmalıdır. Əks təqdirdə, düşdüyümüz ictimai fikir böhranından qurtulmaq mümkün olmayacaq.

Şübhə yoxdur ki, kütləvi informasiya vasitələrinin, o cümlədən televiziyanın çoxcəhətli və yaradıcı iştirakı olmadan inkişafa təminat vermək qeyri-mümkündür. Ötən illərdən fərqli olaraq indiki demokratiya şəraitində bu vasitələr özlərində cəmiyyətin həyat fəaliyyətinə təsir göstərən keyfiyyətcə yeni fikirlər aşkar edir və fikrimizcə, nəticə belə alınır:

- televiziya getdikcə əvvəllər tənqid, şərh, ümumi müzakirə üçün qapalı olan mövzu və zonalara nüfuz edən daha demokratik, daha açıq bir vasitəyə çevrilməlidir;
- filosofların, yəni ictimaiyyətin düşüncəli nümayəndələrinin verilişlərə dəvət olunmaq, televiziyadan tribuna kimi istifadə etmək imkanları artırılmalıdır;
- televiziyada əyləncəli mövzularla yanaşı, cəmiyyətin mənəvi dəyər problemlərin işıqlandırılması meyilləri də gücləndirilməlidir;
- televiziya cəmiyyətin sosial həyatın müxtəlif sahələrində mövcud olan problemlərin həll olunmasının daha optimal yollarını axtarıb tapmaq qabiliyyətini ortaya qoymalıdır.

Beləliklə, bu qənaətə gəlmək olar ki, televiziyada azadlıq və humanizm, sosial ədalət prinsipini inkişaf etdirmək üçün imkanlar çoxdur və onlardan lazımınca istifadə olunmalıdır. Yaddan çıxarmaq lazım deyildir ki, cox yaxın keçmişdə bu barədə dinib-danışmaq cəsarət sayılırdı və bunu təcrübədə həyata keçirmək isə heç kimin ağılına belə gəlməzdi.

Açar sözlər: informasiya, televiziya, internet, efir məkanı, televiziya verilişi.

İstifadə olunmuş ədəbiyyat

1. Məmmədzadə İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında. Bakı: Təknur, 2009, 220 s.
2. Məmmədzadə İ. Siyasi etika. Bakı: İnam Plüralizm Mərkəzi, 1997, 20 s.
3. Şükürov A. Qloballaşma: mahiyyət və perspektivləri. Bakı: Adiloğlu, 2001, 170 s.
4. İmanov H. Fəlsəfənin əsasları. Bakı: Turan evi, 2007, 443 s.

5. Yaspers K. Tarixin mənası və təyinatı. Bakı: Zəkioğlu, 2008, 334 s.
6. Юровский А.И., Борецкий Р.А. Основы телевизионной журналистики. М.: Изд-во Московского университета, 1966, 337 с.
7. Jurnalistika məsələləri. II hissə. Bakı: Maarif, 1972, 330 s.
8. Hegel hüquq fəlsəfəsi. Bakı: Nərgiz, 2007, 376 s.
9. İradə X. Telefenomen. Bakı: Şərq-Qərb, 2004, 222 s.
10. Qunnar S., Nils G. Fəlsəfə tarixi. Bakı: Zəkioğlu, 2007, 752 s.
11. Uill D. Fəlsəfi hekayələr. Bakı: Zəkioğlu, 2006, 578 s.

Микаил АКПЕРОВ

О НЕКОТОРЫХ ФИЛОСОФСКИХ ВОПРОСАХ ТЕЛЕВИДЕНИЯ КАК СРЕДСТВА МАССОВОЙ ИНФОРМАЦИИ

Резюме

Неразработанность до сих пор вопросов философии и теории телевидения как средства массовой информации является предметом интенсивных обсуждений среди разноуровневых зрителей. К сожалению, большинство работ, посвященных этой теме (за исключением мизерной части), ненаучного характера. В этом смысле поднятая тема ненаучного является актуальной.

Рассматривая историю создания телевидения от начала до наших дней, затрагивая его отрицательные и положительные стороны, автор попытался также изучить некоторые его философские вопросы. Кроме того, выдвигаются интересные научные мысли, связанные с величайшим изобретением XXI века – телевидением, стоящими перед ним задачами.

Ключевые слова: информация, телевидение, интернет, пространство эфира, телевизионная программа.

Mikail AKBEROV

ABOUT SOME PHILOSOPHICAL ISSUES OF TELEVISION AS A MEDIA

Summary

Not working out yet phylosophy and theory of television, as a kind of media, becomes the subject of intense debate among the spectators on various levels. Unfortunately, the works dedicated to this subject, with the exception of meagre part are not of scientific character. In this sense, the theme raised in the article is an actual one. Considering the history of TV since creation up to the present, touching upon the positive and negative sides, the author tried also to research into some philosophical questions of television.

In addition, he puts forward interesting scientific ideas related to the greatest invention of the twenty-first century - TV and the tasks facing it.

Keywords: information, television, Internet, broadcast space, television programm.

UOT 1 (091)

Zaur RƏŞİDOV
doktorant, AMEA FHİ

MÜASİR İNGİLİS DİLLİ FƏLSƏFİ ƏDƏBİYYATDA SPİNOZANIN ƏBƏDİLİK, SÜRƏKLİLİK VƏ ZAMAN PROBLEMİ*

Benedikt (Barux) Spinozanın (1632-1677) fəlsəfi irsi müasir dövrdə olduqca aktual və maraq doğuran bir dünyagörüşü sistemidir. Hal-hazırda bu böyük filosofun yaradıcılığı ilə məşğul olan çoxsaylı alimlər mövcuddur. Onların fəaliyyəti ilə hər il Avropanın müxtəlif universitet nəşriyyatlarında Spinozanın fəlsəfəsinə həsr olunmuş çoxlu kitab, məqalə və jurnallar dərc olunur. Belə müasir şərhçilərdən Y.Y.Melamed, A.A.Lonq, S.Nadler, K.Frankel, A.Damasio, E.Marşall, A.Qarrett, Ç.Jarrett, J.Ualler, M.J.Kisner, M.LeBuffe, M.D.Rokka, U.Montaq, J.T.Kuk, S.B.Smit, D.Qarrett, Ç.Huyenemann, J.Biro, L.E.Qudman, L.C.Rays və digərlərini göstərmək olar.

Müasir dövrdə tədqiqatçı alimlərin Spinozanın fəlsəfi irsinə münasibətlərinin xeyli dəyişdiyinin də şahidi oluruq. Müqayisələr, digər elmlərə inteqrasiya olunmuş şəkildə araşdırmalar, fərqli izah üsullarına üstünlük verilən baxışlar daha çox nəzərə çarpmaqdadır. Belə yeniliklər qismində Spinozanın qədim yəhudi və eləcə də Orta əsr ərəb mütəfəkkirləri ilə təkcə müqayisəli şəkildə yox, eyni zamanda varislik əlaqələri baxımından şərhlərini göstərə bilərik. Məsələn, Amerika alimi K.Frayenkel hesab edir ki, Spinozanınn fəlsəfi sisteminin formalaşmasında Maymonidin nə qədər rolu olmuşdursa, ondan daha artıq İbn-Rüşdün təsiri hiss olunmaqdadır və Spinozanın baxışları İbn-Rüşdə daha yaxındır (6, s.11). Spinozanın valideynləri Hollandiyaya Priney yarımadasından, daha dəqiq desək, Portuqaliyadan köçmüşlər. L.E.Qudman hesab edir ki, Spinoza Şərq filosoflarının, xüsusilə də Əndəlüs mütəfəkkirlərinin əsərləri ilə tanış idi. Məlumdur ki, Əndəlüsdən (Priney yarımadasına ərəblərin verdiyi ad) olan İbn Tufeylin (1105-1185) məşhur əsəri "Hay ibn Yakzan"ı birinci dəfə Avropa dillərinə, məhz holland dilinə tərcümə edən Spinozanın yaxın dostu və daimi əlaqə saxladığı Y.Bouvmister (1630-1680) olmuşdur (9, s.66-67). Spinozanın baxışlarının varislik prinsipi əsasında təhlili Qədim dövr təlimlərinə də şamil edilir. A.Lonq Spinozanı stoyaçılarla müqayisə edərək, onu stoyaçı və kvazi-stoyaçı (qismən stoyaçı, sanki stoyaçı) kimi təqdim edir (15, s.377). V.Montaq isə Spinozanın dünyagörüşünün əsasında qədim yəhudi dini-mistik və teoloji təlimlərinin durduğunu iddia edir. O qeyd edir ki, Spinozada Allahın immanent daxili qüvvə kimi təsvir edilməsinin kökü qədim "Kabbala" (verilmə) adlı yəhudi mistikası və bu təlimdə Allahın izahı üsulu olan "Ensof" və eləcə də "Kaballa"da "həyat ağacı" kimi təqdim olunan "sefirot" təlimidir (19, s.139).

Spinozanın ideyalar haqqında təlimi, xüsusilə də emosiya və affektlər nəzəriyyəsi və bu baxışların tibb sahəsinə tətbiqi məsələsi digər bir mühüm yenilikdir. Məsələn, portuqaliyalı nevroloq A.Damasio Spinoza haqqında yazdığı əsərində etiraf edir ki, o peşəkar filosof deyil və Spinoza haqqında fəlsəfi kitab yazmaq məqsədi də güdmür. Əsas affektlər (qəlbin ehtirasları) kimi Spinozada insanın emosiya və hissləri, bu emosiyaların səbəbi, hisslər ahəngini, eləcə də mərkəzi baxış sistemi kimi insanın sevinc və kədər hisslərini anlamaq məqsədi ilə Spinozaya müraciət edir (4, s.8). Bu yeni yanaşmalardan biri kimi Spinozanın metafizik təliminin Rene Dekartın (1596-1650) fəlsəfəsinə müraciət etmədən müstəqil şərhini də göstərə bilərik. İstənilən dövr spinozaşünasının əsərinə nəzər salsaq mütləq orada məşhur

* Məqalə fəlsəfə ü.f.d. Afaq Məmmədova tərəfindən çapa məsləhət görülüb.

fransız rasionalisti R.Dekart ilə əlaqəli interpretasiyalara rast gəlmiş oluruq. Spinozanın fəlsəfi sistemi çox vaxt Dekart fəlsəfəsinin davamı kimi də qiymətləndirilir. Bu mənada B.Lordun fikirləri maraqlıdır. O, Spinozanın «Etika»sını şərh edərək yazır: «Etika»nın interpretasiyasında ənənəvi Dekart modelindən imtina edərək, bacardıqca Spinozanın öz terminlərindən istifadə edəcəkdir" (16, s.1). Spinozanın "Etika"sının psixoloji aspektdə şərhi də yeni yanaşma kimi maraqlıdır. Belə ki, "Etika"nın ənənəvi metafizik izahı artıq psixoloji izahlarla da zənginləşir. Məsələn, E.Marşal Spinozanın "Etika"dakı fəlsəfi baxışları haqqında yazır: "Etika"nın metafizik özülünü saxlamaqla və zərurət yarandıqda bu metafizik anlayışlara müraciət etməklə, əsasən Spinozanın fəlsəfi sistemini psixoloji aspektdən izah etməyə çalışaraq əsas mərkəzi psixoloji məsələlərə yönəldəcəkdir" (17, s.10-11).

İncəsənət alimlərinin Spinoza barədə fikirləri də olduqca maraqlıdır. Bununla bağlı halhazırda Hollandiyada məşhur olan mədəniyyət nəzəriyyəsi üzrə professor M.Balı qeyd edə bilərik. O, məşhur holland rəssamı və Spinozanın müasiri olan Rembrandt van Reynlə (1606-1669) müqayisə apararaq hər iki böyük şəxsiyyətin bir-birinə təsirini üç aspektdə görmüşdür. Birincisi – Spinozanın materialistik düşüncələrinin Rembrandtın realizminə təsiri, ikincisi – bədən və ruhun vəhdətinin rəssamın fiqurlarının "psixoloji dərinliyi"nə təsiri, üçüncüsü isə insanın aktivlik və passivlik arası əlaqələrinin fərdin həyatında olduqca böyük rola malik olmasıdır (1, s.277).

Spinozanın ənənəvi panteizm məsələsi və onun metafizikasının özülünü təşkil edən substansiya (cövhər) problemi də müasir dövrdə artıq yeni formada şərh olunmağa başlamışdır. Substansiya, onun təzahür "qüvvələri" olan atributlar (əlamətlər) və bu atributların varlıqlara "daşıdığı" keyfiyyətlər–moduslar (xassə və xüsusiyyətlər) daha çox əbədilik (aeternitatis), sürəklilik (duratio) və zaman (tempus) baxımından şərh olunur. Tək və vahid substansiyanın əbədilik prinsipi qalmaqda davam edərək, sürəkli zamanda sonlu modusların əbədiliyi təmin edən mövcudluq zərurətləri ön plana çəkilir. XX əsrin ortalarınadək olan fəlsəfi ədəbiyyatda belə ənənəyə demək olar ki, rast gəlinmir. Modusları substansiyadan "özgə" sayan baxışlar, onlar arasındakı əlaqələrin şərtiliyi, substansiyanın aktiv modusların isə tam passiv olmasını iddia edən yanaşmalar üstünlük təşkil edir (məsələn, H.F.Hallett və E.Körleyi göstətmək olar). Məqalədə də, əsasən, Spinozanın metafizikasını əbədilik və sonluluq prinsipi əsasında izah etməyə çalışaraq əsasən müasir dövrün tədqiqatçılarının əsərlərinə müraciət edəcəyik.

Allahın nizamı və bütün qanunları əbədidir. Əbədilik olmadan, Allahın yaratdıqları qeyri-kamil və daimilikdən (yaranma və məhvolma prosesi kimi) məhrum olardı. Əbədilikdə isə nə vaxt, nə əvvəl, nə də sonra vardır (23, s.237). Ümumiyyətlə, substansiyanın əbədilik problemi "Etika"da başlıca məsələdir. Belə ki, Spinozanın vahid substansiyasına xas olan əsas keyfiyyət məhz elə əbədilikdir. Bəs insan necə, onun mövcudluğu əbədidirmi? Spinoza hesab edir ki, insanın da mövcudluğu bu əbədiliyin bir hissəsi, yəni sürəklilik kimi əbədidir. Başqa sözlə, sürəklilik də bir daimi proses kimi əbədiliyə aiddir. Zaman isə konkret fərdlərin–sonlu modusların bu sürəklilikdəki mövcud olma anıdır. Spinozaya görə, zamanın dəyəri insana, onun əxlaqına mənfi təsir edən affektlərdən qurtulmaq, əqlin rəhbərliyi altında yaşamaq və mövcudluğunu qorumaqdır (conatus).

C.Valler hesab edir ki, Spinozanın substansiyası müstəqil xassə və xüsusiyyətlərə malik olan əbədi varlıqdır. Substansiya bu konkret keyfiyyətlərsiz də mövcud ola bilər. Xassə və xüsusiyyətlər isə özləri-özlərinə mövcud ola bilməzlər. Onlar mövcud olmaları üçün substansiyaya möhtacdırlar (25, s.3-4). Bu fikirlə razılaşmaq olar. Belə ki, Spinoza mövcudluq (mahiyyət) və mövcud olmanı (təzahür) bir-birindən ayırdığı kimi, substansiyanı da xassələrdən ayırırdı. Bunların hər ikisinə malik varlıq kimi təkcə substansiyanın özünü qeyd edirdi (23, s.219). Substansiyanın mahiyyəti məhz elə onun mövcudluğudur. Mövcudluq, başqa sözlə substansiya, mövcud olmadan yəni moduslardan fərqlənir. Mövcudluq əbədilik

prinsipinə, mövcud olma isə sürəklilik, keçicilik prinsipinə tabedir. Bu prinsipdən çıxış edən Spinoza substansiyanı Allah (əbədilik) ilə eyniləşdirirdi ("Deus sive Substantia") (23, s.222). C.Valler qeyd edir ki, Spinozadakı zaman anlayışı "eternalizm"ə (zamanın təbiətinə ontoloji yanaşma və zamanın məkanın bir ölçüsü kimi nəzərdən keçirilməsi) uyğun gəlir (25, s.17). C.Vallerin fikri həqiqətə uyğundur. Çünki Spinoza təbiəti sonsuz modus hesab edərək sonsuz üsullar və vasitələrlə dəyişən bir varlıq elan edirdi (23, s.254-255). Bütün xassələr, keyfiyyətlər, eləcə də dəyişikliklər – zaman da bu sonsuz modusa daxil olur. Bu mənada zaman və ya vaxt əbədiyyətdən fərqli, daha doğrusu onun bir hissəsi kimi çıxış edir. Məhz buna görə, C.Valler Spinozanı "sürəkli eternalist" (durational eternalist) adlandırır (25, s.37). Spinozanın substansiya – atribut – modus bölgüsündə moduslar özləri də sonsuz və sonlu olmaqla iki növə ayrılırlar. Substansiyanın təfəkkür atributunun (mənəvi olan əlamətin) sonsuz modusu Allahın ideyası və ya sonsuz idrak – intellektdir (intellectus infinilus) (23, s.246). Başqa sözlə, bütün ideyaların cəmi olan Allah ideyasıdır. Ölçü atributunun (maddi olan əlamətin) sonsuz moduslarından birincisi, birlikdə götürülmüş hərəkət və sükunətdir (23, s.252). İkincisi isə, yuxarıda qeyd etdiyimiz "dar anlamlı" təbiətdir. M.D.Rokka da hesab edir ki, Spinozanın metafizikasından qaçılmaz olaraq belə bir nəticə hasil olur ki, sonlu moduslar Allahın təbiətindən hasil ola bilməzlər. Sonlu moduslar yalnız sonsuz moduslardan törəyə bilərlər (5, s.71). Spinoza substansiya və ya Allahı əbədi və sonsuz hesab etməklə, həm də onu bölünməz də elan edirdi (23, s.224). Belədə dəyişməz və bölünməz vahid varlıqdan çoxluqlar necə hasil olur? Spinoza məsələni substansiyanın moduslarına xassələri "ötürən" atributlar vasitəsilə həll edirdi. Belə ki, substansiya vahid varlıq kimi həm də bütün atributların yekunu və cəmidir. Sonsuz moduslar da bu "ötürülən qüvvələri" atributlardan alaraq sonlu moduslara "çatdırırlar". Əbədi olanın dəyişkən və zamanca mövcud olana keçidi məhz belə reallaşmış olur. M.D.Rokka qeyd edir ki, təbiətin müvafiq qanunları müəyyən mənada zəruridir. Bu Spinozanın determinizmidir (5, s.75). Fikrimizcə, Spinozanın dediyi təbiət qanunları zəruri olmaqla bərabər əbədinin sonluda gerçəkləşməsinin də zəruri şərtidir. Spinozanın əbədilik probleminin dindən qaynaqlandığını iddia edən S.Smit hesab edir ki, "Etika", "Tövrat"da olduğu kimi, Allah, aləmin yaranması məsələləri ilə başlayaraq, ilahi varlığa olan intellektual sevgiyə qədər gəlir (24, s.25). Yəni, əbədidən (Allah) sonluya (insan) doğru və əbədinin sonluda təcəssüm etməsi ilə tamamlanır. Müəllif onu da əlavə edir ki, Spinozanın panteizmi səbəbsizliyi inkar edir. Bir növ determinizmə gətirir. Hər şeyin zəruri olaraq baş verəcəyini təyin edir. Allahın bütün şeylərin immanent səbəbi olması bütün əxlaqi dəyərləri də yox etmiş olur (24, s.37). Qeyd etmək istərdik ki, Allahın (Spinozada həm də substansiyanın) əbədilik prinsipi təkcə "Tövrat" yox, "Quran" da daxil olmaqla bir çox müqəddəs kitablara (əsasən monoteist dinlərə) xas olan xüsusiyyətdir. Deterministik düşüncə (ümumi səbəbiyyət prinsipi və hadisələrin bir-birinə bağlılığı) isə konkret fərd - insanı zamanda sonlu etməklə onu sürəkli keyfiyyətlərlə də "bürüyür". Məhz bu mənada Spinoza əxlaqi keyfiyyətləri, yəni obyektiv olaraq mövcud olan "xeyir" və "şər"i inkar edirdi. Bu keyfiyyətləri zamanda sonlu olan insana aid edərək, "yaxşı və ya pis yolunun tutması"nı fərdin iradəsinin ixtiyarına buraxırdı. Əbədi varlığa birmənalı nə xeyir, nə də şər aiddir. Bunlar sonlu insanın affektləri və iradənin seçimləridir. Spinoza bu səbəbdən insan iradəsinin azad olmadığını iddia edirdi. İnsan iradəsi ehtiraslara tabe olmağa meyillidir. Təfəkkür isə əksinə, ehtirasları dəf edə biləcək qüvvədir. S.Smit bir maraqlı fikir də söyləyir. O qeyd edir ki, Spinozanın "Etika"sındakı Allah ümumi qanunlar prinsipi kimi çıxış edir. Buna görə də, Allah immanent səbəbdir. Bu sistemdə kəşf və təkamül yoxdur. Hər baş verən zərurətə tabedir. Allahı dərk etmək zəruri olaraq şeylərin mövcudluğunu dərk etməklə ekvivalentdir (eynidir) (24, s.40). Son cümlə ilə razılaşmaq olar, çünki bu fikir - "Allahı şeylərin həqiqi bilgisinə əsasən dərk etmək" "Etika"da da qeyd olunur (23, s.374). Amma immanent səbəb kimi, Allah və ya substansiyada təkamülün olmaması fikri bir qədər

şübhəlidir. Belə ki, əbədi varlıq olan substansiyanın ölçü atributunun daimi, sonsuz modusu – təbiətdə sürəkli və zaman daxilində müxtəlif sonsuz formalarda təzahür etməsi elə substansiya və ya Allahın dinamik bir qüvvə olmasını xarakterizə edir. Bu proses əbədi olaraq təkrarlanır. Buradan Spinozanın fəlsəfi sisteminin passiv olmadığı aydın görünür. Amerikalı alim D.Qarrett də eyni fikirdədir. O da qeyd edir ki, Spinozanın təlimi monistik naturalistik sistemdir (8, s.2). Hərəkət və sükunət fundamental qüvvələrdir (8, s.6). Bildiyimiz kimi, "Etika"da hərəkət və sükunət birgə götürüldükdə ölçü atributunun birinci sonsuz modusunu təşkil edir.

Ç.Jarrett hesab edir ki, Allah həm fiziki, həm də psixidir. Aləmdən ayrılmazdır (11, s.37). Ç.Jarrettə görə nəzərə alsaq ki, biz insanlar da daxil olmaqla təkcə bir substansiya mövcuddur və bütün şeylər onun modifikasiyaları – şəkildəyişmələridir, onda Spinozanın təlimi "radikal monizm"dir (11, s.54). Əbədilik və bu əbədilikdə müxtəliflik məsələlərinin gözəl izahını verən alimlərdən biri də J.T.Kukdur. O qeyd edir ki, Spinozaya görə Allah hər şeydir. Hər şey Allahdadır. Aləmdə olan hər bir şey Allahın bir hissəsidir. Allahın aktiv təzahürüdür. Buna görə də Allah bütün mövcudluqları özündə əks etdirir (2, s.10). O, bu fikrini mənalı bir analogiya ilə izah edir. J.T.Kuk "Alisa möcüzələr ölkəsində" kitabının müəllifi Luis Kerrollun (1832-1898) "Çeşir pişiyi" obrazından istifadə edərək yazır: "Üzsüz gülüş ola bilməz. Öz növbəsində gülüş və ya təbəssüm də üz olmadan heç bir real mövcudluğa malik deyil. Varlıqlar (şeylər) ilahi substansiyanın sonlu üsul və vasitələri formasında təzahür edən reallıqlardır" (2, s.29). Yəni, zamanda sürəkli olan (təbəssüm) zamansız və sürəklikdən kənar olan əbədinin (üzün) bir hissəsidir. Sürəklinin daima əbədidə meydana gəlməsi və itməsi prosesi özü də əbədidir. Spinozanın dediyi "Allahı əbədilik altında anlamaq" (sub specie aeternitatis) elə bunu nəzərdə tutur. Allah, substansiya və təbiətin əbədiliyini, sonlu fərd ancaq özünün sürəkliliyinin - sonluluğunun əbədi proses olmasını dərk edərək anlaya bilər.

Bəs bu əbədilikdə olan sürəklilik necə baş verir? V.Montaq Spinozanın fikirlərinə istinad edərək hesab edir ki, hər bir bədən (və ya cisim) zəruri şəkildə digərləri ilə şərtlənir və digərlərini də şərtləndirir. Bu proses sonsuz və əbədidir (20, xxi). Deməli, əbədilikdə olan sürəklilik birbaşa cisimlər və ya qeyri-cisimlər (ideyalar) arası əlaqədən, bağlılıqdan, nizamdan hasil olur. Əbədilik sonlu modusların köməkliyilə sürəkliliklə qovuşur və ya əksinə, sürəklilik, zamanda sonlu moduslar da vahid varlığın əbədi qanunları ilə əbədiliyin bir hissəsinə çevrilir. Bir növ ona "daxil olur". Spinoza atributların hamısını substansiyaya aid etsə də, atributların birinin digərinə təsiri və ya üstünlüyü məsələsini inkar edirdi (23, s.221). Əgər iki atribut bir-birinə təsir edə bilmirsə, onda bu mühakimədən mütləq şəkildə hasil olur ki, bu atributların modusları da eynilə bir-birinə təsir edə bilməzlər. Bədən ruhu təfəkkürə (və ya düşüncəyə) təhrik edə bilmədiyi kimi, ruh da bədəni hərəkətə və ya digər başqa bir fəaliyyətə sövq edə bilməz (23, s.279). Eyni zamanda, Spinoza varlıqların öz mövcudluqlarını qoruyub saxlama cəhdini (conatus) də əsas əbədi fəlsəfi prinsip kimi başa düşürdü. Spinoza "conatus" prinsipini həm metafizik, həm də qnoseoloji planda nəzərdən keçirirdi. Bu prinsip varlıqlara aid olduğu qədər də, ideyalara aiddir. Hər bir varlıq mümkün olduğu qədər öz mövcudluğunu qoruyub saxlamağa çalışır (23, s.283). A.Qarrett də hesab edir ki, "conatus" bütün modusların öz varlığını qoruyub saxlamasıdır. Bu mənəvi olanla maddi olanı əlaqələndirmək prinsipi demək deyil (7, s.28). O əlavə edir ki, Spinozaya görə varlığını qoruma cəhdi, təşəbbüsü metafizik prinsip olsa da, təkcə fiziki yox, eləcə də psixi moduslara da aid olan xüsusiyyətdir (7, s.183). Deməli, sürəkil və zamanda sonlu olan moduslar vahid və əbədi substansiyaya əbədi baş verən və dəyişən proses kimi aid olmaqdan başqa, onlar arasında digər bir əlaqə də vardır. Sonlu və sürəklilər əbədinin bir hissəsi olmaq və bu əbədilikdə öz sürəkliliklərini qorumaq üçün özləri də əbədi olaraq cəhd və təşəbbüs göstərirlər. Deməli, bu sonlu modusların zəncirvari şəkildə sonsuz varlıqdan asılı olmasından əlavə, həm də sonluların da öz daxili "conatus"u, cəhd və təşəbbüsləridir. Fikrimizcə, Spinozanın sistemindəki əbədilik problemi qarşılıqlı surətdə məhz

bu model əsasında təmin olunur. Bu əbədi əlaqələrin baş verməsində təbiətin rolu nədir? A.Qarrett hesab edir ki, Spinozada "təbiətin ümumi nizamı" xarici səbəb kimi nəzərdən keçirilir (7, s.56). Spinozaya görə, hərəkət və sükunətdə olan cisimlərin hərəkət və sükunət şərtləri birgə götürülmüş şəkildə sonsuz və əbədi qanunlar olduğundan daima dəyişməz qalır. Bu bir növ hərəkətin saxlanma qanununa bənzərdir (7, s.41). Buradan aydın olur ki, bütün sonsuz moduslar "geniş anlamlı" təbətin təsir qüvvəsi, əlaqə və nizamına tabedir. Hərəkət və sükunət də substansiyanın sonsuz moduslarıdır. Deməli, varlıqların (sonlu modusların) gerçəkləşməsi və öz varlığını qoruyub sürdürmə məkanı elə təbiətin özüdür (Allah və ya substansiyaya bərabər tutulan "geniş anlamlı" təbiət yox, sonsuz modus kimi başa düşülən "dar anlamlı" təbiət). Başqa sözlə, Spinozanın əbədiliklə sürəklilik arası əlaqə və "conatus" prinsipi məntiqi yox, təbiətdə baş verən real prosesdir. Sonlu modus kimi insan da bu prosesin fəal iştirakçısıdır.

Spinozanın əbədilik probleminin "conatus" prinsipi onun "Deus sive Natura" (Allah və ya təbiət) problemi, yəni panteizm fəlsəfi sistemi ilə də əlaqəlidir. Bilindiyi kimi, Spinoza Allahı təkcə substansiya ilə yox, həm də təbiətlə də eyniləşdirirdi. Amma bu təbiət yuxarıda qeyd etdiyimiz maddi, dəyişkən və müxtəlifliklərə malik sonsuz modus yox, əbədi qanun və əlaqələr nizamı kimi gerçəkləşən fəal qüvvə kimi nəzərdən keçirilirdi. Bu təbiətin qanunları (təbiət) ilahi qanunlarla (Allah) eyni anlamlıdır. Bu məsələyə önəm verən S.Nadler hesab edir ki, Spinozanın substansiyası bütün mümkün reallığı, gerçəkliyi, varlığın mövcudolma xüsusiyyət və xassələrini əhatə edərək, onları vahid bir sistemdə birləşdirir. Bu səbəbdən substansiya Allah və ya təbiətdir (21, s.70). S.Nadler Spinozanın panteizm problemini yeni bir formada şərh edir. O, digər şərhçilərdən fərqli bu panteizmi iki növə ayırır. Birincisi "immanent panteizm"dir. Yəni, Allah "ontoloji" olaraq aləmdən ayrı olsa da, amma yenə də "aləmdədir". Aləmin tərkibindədir. Məsələn, necə ki, su insana, yaş bir şeyə və ya meyvəyə aiddir. Daxilən bunların hər birinə xasdır. Bu panteizmin geniş anlamda izah olunmasıdır. İkinci növ panteizm isə, "reduktiv panteizm"dir (müxtəsər, dar anlamda). Yəni, Allah mövcud olan hər bir şeylə eyniyyət təşkil edir. Allah hər şeydir, hər şey Allahdır. Bu mənada Allah bütün kainat, aləm, təbiət və onların bütün tutumu içərisində olan hər bir şey ilə eynidir (21, s.118). Fikrimizcə, Spinozanın fəlsəfi sisteminə S.Nadlerin qeyd etdiyi panteizm növlərindən birinci daha uyğundur. Birincisi, Spinoza bu məsələni, yəni immanentlik prinsipini "Etika"da qeyd edir (23, s.229). İkincisi, Allahın aləmdən ayrı olmamasını təmin edən əsas şərtlər vardır. Bir az əvvəl qeyd etdiyimiz kimi, belə şərtlər təbiət qanunları, nizam və əlaqədir. Nəhayət, üçüncüsü, əbədilik problemi məhz immanent qüvvə olma prosesi ilə təmin olunur. Başqa sözlə, təbiətin qanun və əlaqələri şəklində Allah immanent səbəb kimi əbədi və sonsuz substansiyanı "əmələ gətirir" – onunla eyni anlamlı olur, "Aləmin daxili nuruna çevrilir". Substansiya, Allah və təbiət vahid bir vəhdətdə cəmlənir. S.Nadlerin Spinozanın panteizminə verdiyi ikinci tərifdə isə birincisi, Spinozanın sistemindəki şeylər-maddi varlıqlar aləminin "yerləşdiyi təbiət" substansiyanın sonsuz modusundan başqa bir şey deyil. Geniş anlamda Spinozanın təbiəti, belə demək olarsa, "maddi" deyil. Substansiya və ya Allahla eyniləşdirilən təbiət qanunlar və əlaqələr yığını olan vahid qüvvə kimi nəzərdən keçirilir. Bu təbiət "ilahi qanunlar" kimi təzahür edir (eyni anlamlı). İkincisi, Allahın yaradılan şeylərlə eyniləşdirilməsi prinsipi Spinozanın təliminə tamamilə yaddır. Spinoza şeylər aləmini yaradılan təbiətə (Natura Naturata) yəni moduslara aid edərək, yaradan təbiəti (Natura Naturans) yəni substansiyanı onlardan ayırırdı (23, s.234). Sonsuz moduslar belə "sonsuz olmalarına baxmayaraq", yenə də yaradılan təbiətə aid edilirdi. Nəhayət, üçüncüsü, əgər panteizmin bu növü Spinozanın təlimi üçün əsas götürülsə, onda Spinozanın əsas konsepsiyası, yəni substansiyanın vahid və əbədilik prinsipi dağılmış olur. Belədə Allah zamanda sürəkli bir varlığa çevrilir. Gördüyümüz kimi, Spinozanın əbədilik, sürəklilik və zaman problemi onun metafizikasının, eləcə də panteistik

dünya görüşünün də əsasını təşkil edir. Bu prinsip pozulduqda onun metafizikası kökündən dağılmış olur. S.Nadler əlavə edir ki, immanent səbəbiyyət prinsipinin əsas fərqləndirici xüsusiyyəti səbəbin nəticədən ayrılmamazlığıdır (22, s.62). Yəni, yaradanın yaradılandan fərqli olması yox, onunla əlaqəli olmasıdır. Onlar arasındakı əbədi bağlılığı təmin edən - səbəbiyyət prinsipidir. Hər şeyin vahid substansiyanın təzahürü olmasını iddia edən bu təlimdə "fərq" anlayışı nisbidir.

Ç.Huenemann da Spinozanın panteistik sisteminə fərqli qiymət verir. O hesab edir ki, panteislər yaradılışın Allahdan ayrı olmadığını inkar edənlərdir. Amma kimsə aləmi, kainatı Allahın ideyası ilə eyniləşdirirsə, o spinozistik panteist ola bilməz... Allah aləmin ideyasıdır... Bu panteizm idealistik deyil (10, s.219). Fikrimizcə, Allahın əbədilik kimi, aləmin sürəkliliyin ideyası olması fikri Spinozanın fəlsəfi sisteminə, xüsusən də "Etika"nın "ruhuna" daha uyğundur. Məhz substansional vəhdəti təmin edən əsas şərt də ideyanın obyektə bağlılığı prinsipidir. Səbəbiyyət əlaqələridir.

Y.Melamed isə hesab edir ki, tək-tək şeylər Allahda olsalar da, onlar Allahın hissələri deyil, onun moduslarıdırlar–xassələridir. Ümumi mənada Spinozanı panteist saymaq doğrudur. Amma bir şeyi nəzərə almaq lazımdır ki, Spinozanın panteizmində tam-hissə yox, substansiya-modus əlaqəsi var (18, s.48-49). Y.Melamed Spinozanın təliminə həm də fərqli bir tərif verir. Onun fikrincə, bu təlim substansional monizm və ya radikal (əsaslı) atributiv plüralizmdir (attributes pluralist) (18, s.198). Başqa sözlə, çoxluqları əhatə edərək özünə daxil edən vahidlik və ya vahidliyin çoxluqlar vasitəsilə ifadə olunmasıdır. Bu kimi interpretasiyalar Spinozanın təliminə tamamən yeni baxışların meydana gəlməsinə səbəb olur. Belə ki, Ç.Jarrett hesab edir ki, belə yanaşma bucağından (rakusundan) baxdıqda Spinozanın fəlsəfi sistemi "mümkün aləmləri-kainatları" istisna etmir (12, s.125).

Spinozanın metafizik sistemindəki əbədilik, sürəklilik və zaman anlayışları arasında keçid məsələsi, qeyd etdiyimiz kimi, yaradan və yaradılan təbiət aspektindən həll olunur. Belə ki, əbədi və sonzuz varlıq substansiya daima əbədi mövcuddur. Moduslar isə əbədi prosesdə olan sürəkli tək şeylər və ya sonlu vahidlərdir. Bu modeli bir az əvvəl yuxarıda qeyd etdiyimiz Spinozanın "Deus sive Natura" (Allah və ya təbiət) probleminə asanlıqla tətbiq etmək olur. Yəni, Allah və ya substansiya əbədi, sonsuz və daimidir. "Geniş anlamda nəzərdə tutulan Spinozanın təbiət"idir. "Dar anlamda olan Spinozanın təbiət"i isə bu əbədiliyin zaman və sürəklilikdə olan əbədi qanunlar sistemi kimi sonsuz və müxtəlif formalarda gerçəkləşməsidir.

Bəs əbədilik prinsipindən çıxış edərək bunun əksini, ənənəvi panteizmə xas olaraq "Natura sive Deus" (Təbiət və ya Allah) demək olarmı? Fikrimizcə, xeyr. Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, Spinozanın sistemi belə modelə uyğun gəlmir. İkinci və ən əsası isə, A.J.Koverin qeyd etdiyi kimi, Spinozadakı "yaradılışdan" öncə zaman yox idi. Spinozada sürəklilik və zaman ölçü atributuna xas olan xüsusiyyətlər kimi nəzərdən keçirilir (3, s.114). Başqa sözlə, metafizik planda kainat, təbiət, hərəkət, sükunət və eləcə də sürəklilik və zaman da ölçü atributuna xasdırlar. Daha doğrusu, ölçü atributunun sonsuz modusu - yaradılan təbiətin "özü" və "məhsul"larıdırlar. Bu mənada "Natura"nın (maddi varlığın) "Deus"dan (mənəvi varlıqdan) əvvəl gəlməsi mümkünsüzdür. Ümumiyyətlə, Spinozanın sistemində eynianlamlı ifadələrin iki prinsip əsasında – həm əbədilik, həm də sürəklilik baxımından şərhi xarakterikdir. Spinoza azadlıq problemini də eynilə həm əbədi bir kateqoriya qismində azad yaradıcı səbəb kimi (substansiyaya aid olan), həm də sürəkli bir kateqoriya kimi, insana aid olan xüsusiyyət (modus) formasında nəzərdən keçirir. Məsələn, M.Kisner hesab edir ki, "Etika"nın II hissəsində əgər azadlıq bir metafizik kateqoriyadırsa, sonrakı hissələrdə artıq etik xarakter almağa başlayır (13, s.17). Başqa sözlə, əbədilikdən sürəkliliyə "enər"ək insanda birləşir.

Fikirlərimizi ümumiləşdirib deyə bilərik ki, Spinozanın metafizik sistemi tam, bütöv kimi götürülmüş bir qutudursa, bu qutudan kənarda heç nə yoxdur. Hər şey bu "qutuya" daxildir. Əbədilik və zamanda sonluluq bir-birinə elə qırılmaz bir formada bağlanıb ki, bunların biri o birini istisna etmir. Əksinə, gerçəklik bu tərəflərin hər ikisinin varlığını labüd və zəruri edir. Spinozanın fəlsəfi sisteminin ana xəttini məhz bu problem, yəni əbədilikdən sürəkliliyə və zamanda sonluya istiqamətlənmə təşkil edir. Əbədiliyə (Allaha) xas olan kamilliyin qazanılması sonlunun (insanın) zamandakı və məkandakı ən əsas vəzifəsinə çevrilir. Metafizik tamdan - əbədidən, zamanda sonlu - insana doğru meyillənmə baş verir. Spinozanın fəlsəfi sisteminin son nəticəsi zamanda sonluların əxlaqi norma, keyfiyyətlər qazanması və kamilliyə yetməsi ilə tamamlanır. Fəlsəfədən əxlaqa keçid müşahidə olunur. Ümumiyyətlə, əbədi mükəmməllikdən sonlu kamilliyə keçid "Etika"nın son və Spinozanın özünün etiraf etdiyi "qazanılması olduqca çətin olan" məqsədini təşkil edir.

Açar sözlər: gənc alimlər, yeni baxışlar, əbədilik, sürəklilik, zaman, panteizm.

İstifadə olunmuş ədəbiyyat

1. Bal Mieke and Vardoulakis Dimitris. "An Inter-action: Rembrandt and Spinoza". In Spinoza Now. Minneapolis: "University of Minnesota Press", 2011, pp.277-303.

2. Cook J. Thomas. Spinoza's Ethics: A Reader's Guide. London: "Continuum", 2007.

3. Cover A. Jan. "Spinoza's Extended Substance Cartesian and Leibnizian Reflections". In New Essays on the Rationalists. Edited by Rocco J. Gennaro and Charles Huenemann. New York/Oxford: "Oxford University Press", 1999, pp.105-133.

4. Damasio Antonio. Looking for Spinoza: Joy, sorrow, and the feeling brain. Orlando: "Harcourt, Inc", 2003.

5. Della Rocca Michael. Spinoza. The Routledge Philosophers. New York: "Routledge", 2008.

6. Fraenkel Carlos. "Could Spinoza Have Presented the Ethics as the True Content of the Bible?" In Oxford Studies in Early Modern Philosophy. Edited by Daniel Garber and Steven Nadler: Volume IV. Oxford: "Oxford University Press", 2008, pp.1-50.

7. Garrett Aaron. Meaning in Spinoza's Method. Cambridge, UK: "Cambridge University Press", 2003.

8. Garrett Don. "Introduction". In The Cambridge Companion to Spinoza. New York: "Cambridge University Press", 1996, pp.1-12.

9. Goodman Lenn E. "What Does Spinoza's Ethics Contribute to Jewish Philosophy?" In Jewish Themes in Spinoza's Philosophy. Edited by Heidi M. Ravven and Lenn E. Goodman. Albany: "State University of New York Press", 2002, pp.17-89.

10. Huenemann Charlie. "The middle Spinoza". In Spinoza: Metaphysical Themes. Edited by Olli Koistinen and John Biro. New York: "Oxford University Press", 2002, pp.210-220.

11. Jarrett Charles. Spinoza: A Guide for the Perplexed. London/New York: "Continuum Publishing", 2007.

12. Jarrett Charles. "Spinoza on Necessity". In The Cambridge Companion to Spinoza's Ethics. Edited by Olli Koistinen. Cambridge: "Cambridge University Press", 2009, pp.118-139.

13. Kisner Matthew J. Spinoza on Human Freedom: Reason, Autonomy and the Good Life. Cambridge, UK: "Cambridge University Press", 2011.

14. Le Buffe Michael. From Bondage to Freedom: Spinoza on Human Excellence. Oxford: “Oxford University Press”, 2010.

15. Long A. Antony. “Stoicism in the Philosophical Tradition: Spinoza, Lipsius, Butler” In The Cambridge Companion to the Stoics. Edited by Brad Inwood. Cambridge: “Cambridge University Press”, 2003, pp.365-392.

16. Lord Beth. Spinoza’s Ethics An Edinburgh Philosophical Guide. Edinburgh: “Edinburgh University Press”, 2010.

17. Marshall Eugene. The Spiritual Automaton Spinoza’s Science of the Mind. Oxford: “Oxford University Press”, 2013.

18. Melamed Yitzhak Y. Spinoza’s Metaphysics: Substance and Thought. New York: “Oxford University Press”, 2013.

19. Montag Warren. “That Hebrew Word” Spinoza and the Concept of the Shekhinah. On Jewish Themes in Spinoza’s Philosophy. Edited by Heidi M. Ravven and Lenn E. Goodman. Albany: “State University of New York Press”, 2002, pp.131-144.

20. Montag Warren. Bodies, Masses, Power: Spinoza and His Contemporaries. London/New York: “Verso”, 1999.

21. Nadler Steven. Spinoza’s Ethics: An Introduction. Cambridge: “Cambridge University Press”, 2006.

22. Nadler Steven. ‘‘Whatever is, is in God’’: substance and things in Spinoza’s metaphysics. In Interpreting Spinoza. Edited by Charles Huenemann. Cambridge: “Cambridge University Press”, 2008, pp.53-70.

23. Shirley Samuel. Spinoza: Complete Works. Indianapolis: “Hackett Publishing Company Inc”, 2002.

24. Smith Steven B. Spinoza’s Book of Life: Freedom and Redemption in the Ethics. New Haven, CT: “Yale University Press”, 2003.

25. Waller Jason. Persistence through Time in Spinoza. Lexington: “Lexington Books”, 2012.

Заур РАШИДОВ

ПРОБЛЕМА ВЕЧНОСТИ, ПРОДОЛЖИТЕЛЬНОСТИ И ВРЕМЕНИ У СПИНОЗЫ В СОВРЕМЕННОЙ АНГЛОЯЗЫЧНОЙ ФИЛОСОФСКОЙ ЛИТЕРАТУРЕ

Резюме

В статье рассматривается проблема вечности и продолжительности как основная модель в философской системе Б.Спинозы. Автора также интересует проблема изучения философского наследия Б.Спинозы в Европе в настоящее время. Рассматривается важность новой интерпретации мировоззрения великого мыслителя по отношению к другим наукам. Обсуждение этих философских взглядов в аспекте вечности и временности прежде всего выдается как пантеистическая философская проблема.

Ключевые слова: молодые ученые, новые взгляды, вечность, продолжительность, время, пантеизм.

Zaur RASHIDOV

SPINOZA'S PROBLEM OF ETERNITY, DURATION AND TIME IN MODERN ENGLISH PHILOSOPHICAL LITERATURE

Summary

In the article the problem of eternity and duration as the main model in Spinoza's philosophical system. The author examines the philosophical heritage Spinoza in Europe at present is considered. The importance of a new interpretation of ideology, of the great thinker in relation to other sciences in the modern world is considered. Discussion of these philosophical views, is considered in the aspect of eternity and time as pantheistic philosophical problem.

Keywords: young scholars**,** the new views, eternity, duration, time, pantheism.

UOT 101.1.36

Anar FƏRMAYILOV
dissertant, Azərbaycan Turizm və Menecment Universiteti

TURİZMİN TƏDQİQİNİN NƏZƏRİ-FƏLSƏFİ ƏSASLARI*

Giriş

İnsan əlaqələrinin demokratik forması olan turizmin əsas məqsədi sosial birliyin humanist potensialının möhkəmlənməsi və çoxalması, xalqlar arasında sülh və əmin-amanlığa kömək göstərilməsi ilə bağlıdır (5, s.111).

Dünyanın vəhdəti, ictimai həmrəylik ilk növbədə insanlar arasında razılıq olması deməkdir. Bu zaman ideal, yüksək düşüncəli insanlar deyil, sosial konfliktlər, ictimai ziddiyyətlər, şəxsi dramatik hadisələr yaşayan konkret insan nəzərdə tutulur. Turizmin əsas sosial dəyəri və mahiyyəti onun beynəlxalq və digər münaqişələrdə sülhpərvər rolunu oynaması, vətəndaş birliyinin sabitləşdiri amili olması, mehriban qonşuluq, dostluq, həmçinin insanların qarşılıqlı anlaşması amilləri ilə bağlıdır (11, s.45-49).

Turizm insanları barışdırmaq bacarığına malikdir. Kommunikativ funksiya xüsusi biliklər, o cümlədən sosial etika, sosial pedaqogika və psixologiya sahəsində biliklər tələb edir, belə ki, şifahi dialoq zamanı bu biliklər zərurət kəsb edir. Turizm sahəsində çalışan mütəxəssislər üçün turizmin sosial, humanist yönümlü funksiyalarını, kommunikativ mədəniyyətin xüsusiyyətlərini bilmək onların üstünlüyü hesab edilir.

Hazırda yüzlərlə beynəlxalq təşkilat turizm işinin təşkili ilə məşğul olur. Onların arasında Beynəlxalq Turizm Təşkilatı, Beynəlxalq Otellər Assosiasiyası, Beynəlxalq Turizm Bürosu, Turizm sahəsinin öyrənilməsi və tədqiqi ilə bağlı Avropa İnstitutu, Beynəlxalq Turizm Akademiyası, Turizm və Mehmanxana Təsərrüfatı Üzrə Ali Məktəb, Turizm Kolleci və s. qeyd edilə bilər.

Turizmin inkişaf dinamikasına qısa nəzər

XX əsrin ikinci yarısı – XXI əsrlər turizmin canlanması dövrü hesab edilir. Qlobal təzahürə çevrilən turizmin dinamikası daim inkişaf edir. Belə ki, əgər 1950-ci ildə dünyada 25 milyon, 1970-ci ildə 165 milyon nəfər turist var idisə, **cədvəl 1**-dən göründüyü kimi, turistlərin sayı 1985-ci ildə 327,1 milyon, 1990-cı ildə 457,2 milyon, 1995-ci ildə 565,4 milyon, 2000-ci ildə 667,7 milyon, 2002-ci ildə 715 milyon, 2010-cu ildə 1006,4 milyon nəfər olmuşdur (21, s.65-67).

Hazırda dünya əhalisinin hər 700 milyonu dünyada, 2200 000 000 nəfər isə yaşadığı ölkə daxilində turizm səyahəti edir. Bununla əlaqədar olaraq, iqtisadiyyat, siyasət, mədəniyyət qlobal xüsusiyyətlər kəsb edir (10, s.52-63).

Proqnozlara görə 2020-ci ildə turistlərin sayı 1561,1 milyon nəfərə çatacaq. Onu da qeyd etmək olar ki, turistlər səyahət üçün Avropa ölkələrinə üstünlük verirlər.

---

* Məqalə fəlsəfə ü.e.d. Ziba Ağayeva tərəfindən çapa məsləhət görülüb.

Cədvəl 1.

Dünya regionları	Gələn turistlərin sayı					
	1985	**1990**	**1995**	**2000**	**2010**	**2020**
Cəmi	327,1	457,2	565,4	667,7	1006,4	1561,1
Afrika	9,7	15,0	20,2	27,4	47,0	77,3
Amerika(Şimali, Cənubi)	64,3	92,8	108,9	130,2	190,2	282,3
Şərqi Asiya (Sakit okean regionu)	31,1	54,6	81,4	92,9	195,2	397,2
Avropa	212,0	282,7	338,4	393,4	527,3	717,0
Yaxın Şərq	7,5	9,0	12,4	18,3	35,9	68,5
Cənubi Asiya	2,5	3,2	4,2	5,5	10,6	18,8
Mənbə	BTT					

Bu gün turizm sənayesi ən gəlirli sahələrdən birinə çevrilib. Beynəlxalq Turizm Təşkilatının məlumatlarına görə digər sənaye sahələri ilə müqayisədə turizm sənayesi inkişaf tempinə görə, ilk yerlərdən birini tutur. Turizm DMM-in 12%-ni verir, 2002-ci ildə turizmdən əldə edilən gəlir 474 milyard dollara çatmışdır. Məhz turizm bir çox ölkələrə iqtisadi böhranı yumşaltmağa, iqtisadiyyatın digər sahələrini inkişaf etdirməyə imkan vermişdir (21, s.45-57). Turizm zəruri ictimai funksiyanı yerinə yetirir, əhalinin məşğulluğunu təmin edir. Beynəlxalq Turizm Təşkilatının qiymətləndirməsinə görə hazırda dünyada 260 milyon insan turizm işi ilə məşğuldur (17, s. 75-82).

Cədvəl 2-də göstərildiyi kimi təkcə 2013-cü ildə turizmdən əldə edilən gəlir ABŞ-da 135,6 milyard dollar, İspaniyada 57 milyard dollar, Almaniyada 43,3 milyard dollar, İngiltərədə 56,9 milyard dollar, Honkonqda 48,5 milyard dollar olmuşdur.

Cədvəl 2.

Beynəlxalq turizmdən əldə edilən gəlir milyard $ 2013-cü il üçün göstəricilər					
Ölkələr		2013-cü ildə artım %	2012	2011	2012-ci ildə artım
1	ABŞ	9,4 (135,6)	126,2	115,6	9,2
2	İspaniya	1,1 (57)	55,9	59,9	-6,6
3	Fransa	-2,3 (51,4)	53,7	54,5	-1,5
4	Çin	-5,5 (44,5)	50,0	48,5	3,2
5	İtaliya	-1,8 (39,4)	41,2	43	-4,2
6	Almaniya	5,2 (43,3)	38,1	38,9	-1,9
7	İngiltərə	20,5 (56,9)	36,4	35,1	3,2
8	Honkonq	16,4 (48,5)	32,1	27,7	16,0
9	Avstraliya	-0,4 (31,1)	31,5	31,5	0,2
10	Rusiya	-2,5 (8,7)	11,2	11,3	-1,2

Turizmdən ən çox gəlir əldə edən ölkələr ABŞ, İspaniya, İngiltərə, Fransa hesab edilir. Ümumdünya Turizm Şurasının məlumatına görə Barselona dünya üzrə turizm və səyahətlər sahəsində ən böyük sənayeyə malikdir. Burada turizm sənayesi üzrə dövr edən sərmayə 3,5 trilyon dollara çatır (18, s.9).

Qeyd edildiyi kimi, beynəlxalq turizm əsasən Qərbi Avropa ölkələrində daha çox inkişaf edib. Dünya turizm bazarının 60%-i və valyuta axınının 50%-i Avropa ölkələrinin, turizm bazarının 18%-dən çoxu və valyuta axınının 20%-i ABŞ-ın, turizm bazarının 8%-i və valyuta axınının 5%-i Afrika və Yaxın Şərq ölkələrinin payına düşür. Nəticədə turizm həmin ölkələrin əsas gəlir sahəsinə çevrilir və milli iqtisadiyyatın inkişafına təkan verir. Yeni sənaye ölkələri kimi Yaponiya, Cənubi Koreya işgüzar görüşmələr, əyləncəli turizm baxımından unikal ölkələr hesab edilir (19, s. 275-304).

Turizm XX əsrin fenomeni adlandırılıb. Belə ki, Beynəlxalq Turizm Təşkilatının qiymətləndirməsinə görə 2000-ci ildə turizm əmtəə və xidmət ixracı həcmində digər təsərrüfat sahələrilə müqayisədə birinci yerə çıxıb. Hər il turizm sənayesində 2200 milyard dollar pul dövr edir. Qlobal milli məhsulun 11%-ni turizm istehsal edir, dünya sərmayəsinin 7%-i turizm sahəsinə qoyulur, bu gün turizm iqtisadiyyatın ən güclü sahələrindəndir.

Turizm müasir insanın ilkin tələbatlarından birinə çevrilib. Böyük Britaniyada ailə büdcəsinin 19%-i, Yaponiyada 14%-i, Fransa və ABŞ-da 12%-i turizm səyahətlərinə sərf edilir. Hər il orta amerikan ailəsi turizmə 3900 dollar pul xərcləyir (1, s.87-97).

Bu gün turizm sənayesi dünya iqtisadiyyatının ən dinamik sahəsi hesab edilir. "Fəaliyyət forması olan turizm səyahətlərin təşkil olunmasını və qonaqpərvərlik sənayesini əhatə edir" (20, s.9). Digər tərəfdən turizm sosial xidmət sahəsi olub, milyonlarla insanın iş yerləri ilə təmin edilməsinə şərait yaradır, eyni zamanda yeni diplomatiya forması, kommunikativ mədəniyyətin zəruri amili kimi çıxış edir (18, s.17-28).

Turizmin təhlilnə nəzəri-fəlsəfi yanaşma

Turizm nəzəri-fəlsəfi tədqiqinin əsas istiqamətlərindən biri onun universallaşması, qloballaşması ilə bağlıdır. Bu proses kütləvi turizm bazarının yaranmasına, milli mədəniyyət-lərin, unikal mədəni nümunələrin devalvasiyasına aparır.

Turizmin nəzəri-fəlsəfi aspektdə araşdırılmasında əsas yerlərdən birini turizmin sosial-ekoloji əsasları təşkil edir. Şəhər mühitindən sıxılan insanlar təmiz təbiətə can atırlar. Bu amili nəzərdə tutan bir çox proqnozlarda göstərilir ki, növbəti 20 ildə turizm iki dəfə genişlənəcək. Təbii turizm və ekoturizm bugünkü turizmin əsas amilləri kimi çıxış edir. Ekoturizm eyni zamanda özündə sosial iqtisadi və mədəni maraqları, şəhər və kənd əhalisinin tələbatlarını birləşdirir.

Qeyd edə bilərik ki, bu gün turizm mürəkkəb sosial fenomenə çevrilib. Bu baxımdan da artıq *turizmin nəzəri-fəlsəfi* aspektləri xüsusi əhəmiyyət kəsb edir. Bu gün turizmologiya adlanan istiqamət bilavasitə fəlsəfi əsaslarda öyrənilən inkişaf, həqiqət, ədalət, azadlıq və məsuliyyət kimi məsələləri təhlil edir. Tədqiqatçı alimlərin qeyd etdiyi kimi, "turizm həm "həyat tərzi", həm də "dəyər" kimi fəlsəfi və sosial əsaslandırma tələb edir" (7, s.21).

M.M.Kiselyovun fikrincə, "turizm-marağın təmin edilməsi olub, insanın dünyagörüşünün formalaşması vasitəsidir" (8, s.53, 56). Dünyagörüş isə məlum olduğu kimi, fəlsəfi tədqiqiatların mühüm istiqamətlərindən birini təşkil edir.

Belə ki, turizm istirahətlə yanaşı özünün və başqa xalqların məişətini, tarixini, mədəniyyə-tini, ənənələrini, adətlərini dərk etmək imkanı açır. Tarixi, mədəni, elmi, memarlıq, etnoqrafik və digər səyahət və ekskursiyalar zamanı xalqlar və ölkələrlə tanışlıq turistin dünyagörüş və intellektini genişləndirir, inkişaf etdirir, sosial və siyasi reallıqları daha yaxşı dərk etməyə imkan verir, xalqlar arasında sülh və dostluq münasibətlərinin inkişafına yol açır. Öz növbəsində dövlətlər arasındakı dostluq münasibətləri turist mübadiləsi üçün zəruri amildir. Buna görə də turizmi "sülhün elçisi" adlandırırlar (5, s. 56-59).

Beləliklə, səyahət edən insan yalnız "turizm məhsulunun istifadəçisi deyil, o, səyahət zamanı digər ölkələrin, xalqların, insanların təbii və mədəni dünyasına, "dəyərlər qalaktikasına" uyğunlaşır". Məhz belə bir insanda *turizm dünyagörüşün fəlsəfi əsaslarına təsir edir*. Məhz belə bir şəxsiyyət, fərd dünyanı yalnız dərk etmir, ondan istifadə etmir, həm də ondan bəhrələnir, təbii və mədəni nemətləri mənimsəyir, əldə edilmiş bilikləri və təəssüratı şəxsi mənəvi sərvətinə çevirir.

Turizmin tədqiqinə nəzəri-fəlsəfi yanaşma digər nəzəriyyələr kimi, ilk növbədə turizmin mahiyyətini açmağa, onun kateqoriyalar və konseptual əsaslarını təqdim etməyə çalışır. Onu da

qeyd etmək lazımdır ki, turizm o qədər çoxşaxəli anlayışdır ki, onu birmənalı izah etmək mümkün deyil. Turizm multidissiplinar (fənlərarası) təzahür olub, infrastruktur, azad hərəkət, qonaqpərvərlik, yüksək keyfiyyətli ərzaq, keyfiyyətli ətraf mühit, kadr hazırlığı, nəqliyyat, səmərəli kommunal xidmətləri, turistlərin təhlükəsizlik xidməti kimi olduqca geniş anlayışları özündə birləşdirir.

Turizmin sosial-fəlsəfəsi özünəməxsus fəlsəfi *fenomenologiya* kimi çıxış edir. İnsanın həyatı, onun mədəni təcrübəsi, ünsiyyət mübadiləsi turizmin fəlsəfəsinin əsaslarını təşkil edir. Fenomenologiyada məhz bu aspektdə insan varlığı ilə onun şüurunun, şəxsiyyətlə dünyanın, sosiumla mənəvi mədəniyyətin qarşılıqlı təsiri turizmin fəlsəfəsinə transformasiya edir. Fenomenologiya mahiyyət, məna, şərhlərə böyük diqqət yetirir, insana onu əhatə edən mədəniyyəti başa düşməkdə və mədəniyyətin mahiyyətini açmaqda kömək edir (4, s.54-59).

Turizmin sosial-fəlsəfi dərki onun *hermenevtik əsasları* ilə sıx bağlıdır. Turist səyahətlərində mədəni dəyərlər şərh, yaxud interpretasiya edilərək dərk və qəbul edilir. Turist yalnız söhbətlərə qulaq asmır, həm də tarixi abidələri, memarlıq incilərini, təbiət gözəlliklərini mənimsəyir. Bu mənada hermenevtika insan varlığının fenomenologiyası kimi çıxış edir. Mədəni simvolların hermenevtik izahı obyektiv olub, insan varlığının ontoloji xüsusiyyətlərini, yaxud mövcudluq şərtlərini açır. Bu şərtlər insanın ekzizstensial varlığı ilə bağlıdır.

Başqa "bir dünyanı" dərk edən insan qarşısında çoxtərəfli mədəni mühit və yeni mədəni məkan açılır, onun varlığını müəyyən edir. Bu əsasda insanın mürəkkəb *etik-psixoloji hisslər kompleksi* yaranır. Bununla da turizm *sosial antropoloji* mahiyyət qazanır və insan şəxsiyyətinin formalaşmasına, onun peşəkarlıq xüsusiyyətlərinə təsir edir. Turist özünün noosferaya, sivilizasiyaya bağlı olduğunu hiss edir. Turizm insan dəyərlərinin reallaşmasının səmərəli vasitəsi hesab edilir. Turizm fəaliyyətinin *aksioloji, dəyər aspektləri* turizmin təhlilində əsas amillərdən hesab edilir (15, s.65-68). Şəxsiyyətin ünsiyyət mədəniyyətinin, qarşılıqlı hörmətinin, qarşılıqlı dözümlülüyünün formalaşması böyük fəlsəfi humanist mahiyyət kəsb edir. BMT, UNESCO, BTT kimi beynəlxalq təşkilatlar XXI əsri "humanitar dönüş" dövrü hesab edirlər və ünsiyyət və birgəyaşayış etikasını "insan sivilizasiyasının" əsas amilləri kimi qəbul edirlər. Belə ki, bu etika ümumbəşəri mədəniyyəti formalaşdırır və yeni tarixi dövrün yaranmasına səbəb olur, bəşər birliyinin davamlı mövcudluğunu təmin edir.

Turizmə *humanist prizmadan baxış* müxtəlif mədəniyyətlər arasında *dialoq və poliloqun genişlənməsini, yeni inteqrasiya proseslərinin* yaranmasını, beynəlxalq münasibətlərin təkmilləşdirilməsini və s. nəzərdə tutur. Belə ki, turizm "kommunikativ mədəniyyətin" formalaşmasında aparıcı rola malikdir. Kommunikativ mədəniyyət yeni humanizm konsepsiyasının əsas elementi kimi çıxış edir. Kommunikativ mədəniyyət strukturunda turizm xüsusi yer tutur. Belə ki, *müasir turizm dövlətlərarası sosial-siyasi, iqtisadi və mədəni dialoq proseslərinin əsas vasitəsinə çevrilib* (16, s.69-72).

Beləliklə, yuxarıda qeyd edilənləri ümumiləşdirərək demək olar ki, *turizmin sosial-fəlsəfi təhlilinin bir neçə aspekt və əsas istiqamətlərini göstərmək olar. Bunlar – qnoseoloji, hermenevtik, fenomenoloji, antropoloji, akseoloji, kulturoloji, prakseoloji yanaşmaları özündə birləşdirən nəzəri-metodoloji araşdırmalarla* bağlı olan tədqiqat fəaliyyətini əhatə edir.

Ədəbiyyatdan məlum olduğu kimi, prakseologiya praqmatizm, dünyaya praktik yanaşma ilə bağlıdır. Prakseologiya insan həyat və fəaliyyətinin necə uğurlu təşkil edilməsi. dəyərlərin gerçək həyatda necə reallaşdırılmasının tətdqiq edən elmi istiqamətdir. Prakseologiya fəaliyyətin nəzəri konsepsiyası kimi proqram-konseptual layihələrin, turizmin inkişafının nəzəri modellərinin, turizmin təkmilləşdirilməsi ilə bağlı proqramların hazırlanmasına yönəlir. Prakseologiya "hadisələrin strukturu", "hadisələrin səbəbkarı", "mübarizə texnikası" kimi anlayışları özündə birləşdirir. Prakseoloji fəlsəfənin əsas müddəaları fəaliyyətin təşkili, məntiqi fəaliyyətin səmərəliliyi şərtləri, rəqiblərin qarşılıqlı fəaliyyəti ilə, həmçinin menecment və marketinqin

fəlsəfi aspektləri, turizm-mehmanxana təsərrüfatının – nəqliyyat, servis xidməti, qidalanma və s. funksiyalaşmasının texnoloji mexanizmləri ilə bağlıdır ki, bu da turizmologiyanın nəzəri-metodoloji əsaslarını təşkil edir.

Turizmin metodoloji əsaslarının təhlili ilə bağlı amerikan alimləri R.Makintoş, Ç.Qoldner və B.Ritçi aşağıdakı yanaşmaları təklif edirlər:

1. Turizmin öyrənilməsinə *institusional yanaşma* müxtəlif institutların və vasitəçilərin öyrənilməsini, təşkilati prosesləri, əməliyyat metodlarını, biznesin iqtisadi mühitini tədqiq etməyi tələb edir;

2. *Sosial-fəlsəfi yanaşma* turizmi sosial fəaliyyət kimi qəbul edir, turizmin cəmiyyətə təsirini, turistlərin fərdi, kollektiv və qrup formasında ünsiyyət, dünyagörüş və davranışının insanlar və ölkələrarası münasibətlərdə əhəmiyyəti və rolunun xüsusiyyətlərini öyrənir;

3. *Sistemli yanaşma* turizmi öyrənərkən müxtəlif yanaşmalar kompleksindən istifadə edir, bu əsasda turist firmaların rəqabət mühitində makro səviyyədə fəaliyyətini, onların bazarını, siyasi, hüquqi, iqtisadi, sosial və digər sistemlərlə qarşılıqlı münasibətlərini öyrənir;

4. *Tarixi yanaşma* turizm institutlarının fəaliyyətini, tarixi rakursda inkişafını və yeniliklərə təsirini təhlil edir;

5. *Coğrafi yanaşma* turizm ərazisini, landşaftı, iqlimi, iqtisadi və sosial-mədəni aspektləri öyrənir;

6. *İqtisadi yanaşma* turizmi həm daxili, həm də dünya iqtisadiyyatı səviyyəsində analiz edir, onun ödəmə balansına və mübadilə kursuna, məşğulluğa, iqtisadi inkişafa və digər iqtisadi amillərə təsirini öyrənir;

7. *İdarəetmə nöqteyi-nəzərindən yanaşma* da zəruri və səmərəlidir, belə ki, ayrı-ayrı turist firmalarının idarəetmə xüsusiyyətlərinin aşkarlanmasına yönəlir;

8. *Fənlərarası, multidissiplinar yanaşma* turizmin ictimai həyatın bütün aspektlərini əhatə etməsi fikrinə saslanır. Bu zaman bilavasitə antropoloji yanaşma istifadə edilir, insanın turizm fəaliyyəti ilə bağlı institutlarda yeri və rolu öyrənilir;

9. *Psixoloji yanaşma* insanın mənəvi-psixoloji amillərinin təhlili üçün istifadə edilir;

10. *Hüquqi yanaşma* turizm fəaliyyətini tənzimləyən qanunvericilik sənədlərini və orqanlarını təhlil etmək üçün istifadə edilir (2, s.23-35).

Turizmin nəzəri-fəlsəfi təhlilinin əsas tərəflərindən biri onun *əxlaqi-psixoloji* əsasları ilə bağlıdır. *Turizmin etikası* – peşə əxlaqının bir hissəsini təşkil edir. Turizmin etikası dedikdə, çox zaman turizm industriyasında çalışanlaraverilən etik meyar və tələblər, onların peşəkar fəaliyyətlərinin bəzi funksional xüsusiyyətləri nəzərdə tutulur. Burada göstərilir ki, turizm sahəsinin mütəxəssisləri xoş mərama, yüksək peşəkarlıq və insani keyfiyyətlərə, ensiklopedik biliklərə, sülhsevər xasiyyətə malik olmalı, insanlara qarşı tam dözümlülük nümayiş etdirmə-lidirlər. Başqa sözlə desək, turizm üzrə mütəxəssis turizmi xalqların və insanların yüksək humanist prinsiplərə söykənən "xalq diplomatiyası" kimi təqdim etməyi bacarmlıdır.

Bir sıra müəlliflər turistlərin tələblərinin maksimum ödənilməsinə qarşılıqlı *sosial yanaşmanın* formalaşdırılması zərurətindən danışırlar. Turizm etikası bir tərəfdən turistin, digər tərəfdən isə turizm işi ilə məşğul olan mütəxəssisin davranışı ilə bağlıdır. Hər bir əxlaqlı, tərbiyəli insan tanımadığı şəxslərdə ilk görüşdə yaxşı təəssürat yaratmağa, xoş niyyətli olmağa, şən, diqqətcil görünməyə çalışır. O da həqiqətdir ki, bir çox insanlarda mənəvi mədəniyyət funksional xüsusiyyət daşıyır. Belə ki, turizm sahəsində çalışan şəxs insanlarla nəzakət və ünsiyyət yaratmağa məcburdur (12, s.14).

Turizmə fəlsəfi-nəzəri yanaşma sübut edir ki, ictimai, qrup və fərdi fəaliyyət forması olan turizm insanların birləşməsinə, şəxsiyyətin sosiallaşmasına və rabitə imkanlarının genişlənməsinə şərait yaradır. Bu mənada hər bir turizm səyahəti mədəni xüsusiyyət daşıyır.

Turizmin nəzəri-fəlsəfi təhlili eyni zamanda onun həm mənfi, həm də müsbət tərəflərini açmağa imkan verir. Hər bir sosial fenomen kimi turizmə daxili ziddiyyətlər xasdır. Bu təzadlar bir tərəfdən ictimai həyatın demokratikləşməsi, digər tərəfdən isə mehmanxana və ekskursiya xidmətlərinin elitarlaşması, bir tərəfdən turizm əlaqələrinin beynəlmiləlləşməsi, digər tərəfdən isə bəzi turizm ərazilərinə yalnız xüsusi insanların daxil olmaq imkanları ilə bağlıdır.

Qeyd edilməlidir ki, turist subyekt kimi azad şəxsiyyətdir, o, maddi, siyasi, mənəvi azadlığa malikdir. Turistin qeyd edilən meyarlar əsasında müəyyənləşən azadlığı onun özünəməxsus etik davranışını formalaşdırır. Eyni zamanda, bu azadlıq onu müəyyən kateqoriya turistlərə aid edilməyə imkan verir. Azadlıq imkanları "elit turist" və "sosial turst" məhfumlarının yaranmasına gətirir. Elit turist ekzotik marşrutlar, xüsusi xidmət və mədəni proqramlardan istifadə edir. Sosial turist kəmiyyətcə üstünlük təşkil edir və tam fərqli xidmətdən yararlanır. Sosial turizm qeyri-dövlət büdcəsindən toplanan vəsait hesabına maliyyələşir (17, s.127). Sosial turizm aztəminatlı əhali üçün nəzərdə tutulur.

Turizm həm iqtisadiyyatın güclü amili, həm təsirli sosial institut, həm də mədəniyyət sahəsi kimi *insanın mənəvi zənginləşməsinə* kömək edir. Turizm antropoloji xüsusiyyət daşıyır. Turizmin antropoloji əsasları turizm fəaliyyəti, turizm fəallığı və s. anlayışlarla bağlıdır. Turizm fəaliyyəti dedikdə, turizm sahəsində peşəkar fəaliyyət nəzərdə tutulur. Bu zaman turist firması, turoperator, turizm agentliyi turizmin fəaliyyət subyektləri kimi çıxış edirlər. Bu zaman turist bu fəaliyyətin obyektinə çevrilir. Vebster lüğətində turist "maraq və məmnuniyyət xatirinə səyahət edən insan" kimi xarakterizə edilir. Bu mənada "turist fəallığı" anlayışı geniş istifadə edilir. Bu zaman turist fəaliyyət subyekti kimi çıxış edir. Belə ki, insanın tələbatları onları təmin etmək hissi yaradır. Bu anlayış turizmin antropoloji əsaslarını öyrənməyə imkan verir. Turizmin antropologiyası fəlsəfi nəzəriyyə olub, turizmi insan fəaliyyətinin müxtəlif formalarından biri kimi nəzərdən keçirir. İnsan bir çox formalarda yer dəyişir, lakin digər yerdəyişmələrdən (miqrasiya, qaçqınlıq, məburi köçkünlük və s.) fərqli olaraq turizm fəaliyyəti bilavasitə insanın səyahətlə bağlı maraq və tələbatlarının ödənilməsinə yönəlir.

Beləliklə, turizm fenomeninə nəzəri-fəlsəfi baxış aşağıdakı problemləri aşkara çıxarır:

- mənəvi dəyərlərin müəyyən edilməsi;
- insanın vaxtının rasional istifadə edilməsi;
- təbii resursların səmərəli istifadə edilməsi.

Açar sözlər: sosial turizm, beynəlxalq turizm, turizm fəlsəfəsinin nəzəri, fəlsəfi əsasları, daxili turizm , sağlamlıq idman turizmi.

İstifadə olunmuş ədəbiyyat

1. Александрова А.Ю. Международный туризм. М.: "Аспект пресс", 2001.

2. Воронкова В.Г. Развитие туризма как социального и культурного явления в условиях глобализации и кросс-культурной коммуникации. Научные записки Киевского университета туризма, экономики и права. Серия: философские науки, вып. 8, 2010.

3. Гализдра А.С.Феномен туризма: методология исследования (статья). Вестник Саратовского государственного технического университета, № 2, 2006.

4. Джафари Дж. Феноменология туризма. Научно-теоретический журнал, № 8, 2000.

5. Документ Акапулько. Мадрид, 1982.

6. Зязюн И.А. Философия туризмологии. Туризм на порозі XXI століття: освіта, культура, екологія. Киив, 1999, с.21.

7. Карпова Л.А. Туризм как социально-культурный феномен /Философия туризма. Учеб. пособие . /Под ред . В.С. Пазенок, В.К. Федорченко. Киев: Кордор , 2004, 268 с.

8. Кисельев М. М. Туризм і природознавство - філософсько-світоглядний аспект. Всеукраїнський круглий стіл "Філософія туризму". Киив, 2002.

9. Кузнецов С.А. Социальный туризм как феномен социального государства. Педагогико-психологические и медико-биологические проблемы физической культуры и спорта, №4(25) 2012.

10. Любивый Я.В. Современное массовое сознание: динамика и тенденции развития /Я.В.Любивый; отв. ред.: А.Т.Гордиенко; АН Украины, Ин-т философии. Киев: Наукова думка, 1993, 141 с.

11. Манільська декларація по світовому туризму (Прийнята Всесвітньою конференцією по туризму, яка проходила в Манілі (Філіппіни) з 27 вересня по 10 жовтня 1980 року). Хартія туризму. 1985.

12. Пазенок В.С. Феномен туризма: "человеческое измерение". Гостиничный и ресторанный бизнес. № 1, 2001.

13. Пархоменко Т.С. Антропология туризма. //http://tourlib.net/ books_ ukr/ filo-tur14.htm

14. Рахуба Е.С. Социокультурное значение туризма. Научные записки Ровенского государственного гуманитарного университета. Вып.16, т.II, 2010.

15. Туризм: практика, проблемы, перспективы. № 10, 2000.

16. Федорченко В.К. Образование в туризме: взгляд в третьем тысячелетии. Гостиничный и ресторанный бизнес, № 1, 2000.

17. Федорченко В.К. Туризмология как наука. Основные парадигмы теории туризма. Киев, 2009.

18. Федорченко В.К. Туризм і народна дипломатія. Філософія і культурологія туризму. Киив, 2001.

19. Федорченко В.К. Социоинтегративна сущность туризма (социально-философский и праксеологический аспекты).

20. Филип Котлер, Джон Боуэн, Джеймс Мейкенз. Маркетинг. Гостеприимство. Туризм. М., 1998.

21. Франческо Франжіаллі "Тенденції розвитку світового туризму", лекція. Киев, 2002.

22. Hamingway S. The impact of tourism on the human rights of women in South East Asia, The International Journal of Human Rights, Vol.8 No, 3, 2004

23. Khan M.M. Tourism development and dependency theory, Annals of Tourism Research, Vol.24, No.1, 1997.

Анар ФАРМАИЛОВ

ТЕОРЕТИКО-ФИЛОСОФСКИЕ ОСНОВЫ ИССЛЕДОВАНИЯ ТУРИЗМА

Резюме

Автор отмечает, что XXI век - время развития и расширения массового или социального туризма. В этой связи возникает необходимость исследования теоретико-философских основ феномена туризма.

Туризм является сложным междисциплинарным хозяйственным комплексом. Он формируется в виде экономической деятельности как образ жизни и хобби путешест-

вующего человека. Туризм способен приближать, примирять людей. Комуникационная функция требует особых знаний, в том числе о социальной этике, социальной педагогике и психологии; при вербальном диалоге эти знания важны. Для специалистов, работающих в области туризма, необходимо знание социальных, гуманистических функций, особенностей коммуникационной культуры.

В наше время сотни международных организаций занимаются туристической деятельностью. Это: Международная организация туризма, Международная ассоциация отелей, Международное бюро туризма, Международная академия туризма, Высшая школа по туризму и хозяйству отелей и т.д.

Туризм различается по видам: международный туризм, социальный туризм, внутренний туризм, сельский туризм, индустрия туризма, деятельность экскурсии и туризма, оздоровительно-спортивный туризм и т.д.

Ключевые слова: социальный туризм, туристическая деятельность, теоретические и философские основы феномена туризма, международный туризм, внутренний туризм, оздоровительно-спортиный туризм.

Anar FARMAYILOV

THEORETICAL AND PHILOSOPHICAL FOUNDATIONS OF THE STUDY OF TOURISM

Summary

The author notes that the XXI^{-st} century is time of development and expansion of mass or social tourism. And this in turn requires research theoretical and philosophical foundations of the phenomenon of tourism.

Tourism is a difficult, interdisciplinary economic complex. The goods of tourism are formed in the form of economic activity, as a way of life and a hobby of the traveling person. Tourism is capable to approach, reconcile people. Communication function of tourism demands special knowledge including social ethics, social pedagogy and psychology; at verbal dialogue this knowledge is important. For the experts working in the field of tourism, knowledge of social, humanistic functions, features of communication culture, their advantage.

In modern time the hundreds international organizations are engaged in tourist activity. These are International organization of tourism, the International association of hotels, the International bureau of tourism, the International academy of tourism, the Higher school for tourism and economy of hotels, etc.

Some areas of tourism differ: international tourism, internal tourism, rural tourism, industry of tourism, activity of excursion and tourism, healthy and sporting tourism, etc.

Keywords: social tourism, theoretical and philosophical foundations of tourism phenolmenon, international tourism, domestic tourism, healthy and sporting tourism.

XARİCİ ÖLKƏ TƏDQİQATLARI

УДК 1(091)

Гуннар СКИРБЕКК
Профессор. Университет Бергена
(Норвегия)

ТРАНСЦЕНДЕНТАЛЬНАЯ ПРАГМАТИКА: ИСТОРИЧЕСКАЯ ПЕРСПЕКТИВА ПОЗДНЕЙ ФРАНКФУРТСКОЙ ШКОЛЫ (ХАБЕРМАС, АПЕЛЬ, ВЕЛЬМЕР). ПОЛЬЗА И ВРЕД ТРАНСЦЕНДЕНТАЛЬНОЙ ПРАГМАТИКИ ДЛЯ ЖИЗНИ*[1]

Я опишу, в чем вижу силу и релевантность трансцендентальной прагматики для интеллектуальной среды в послевоенный период. Покажу, как дискуссии в пределах трансцендентальной прагматики выявили внутренние вызовы в одно и то же время, когда в интеллектуальной среде и организационном окружении произошли неблагоприятные изменения за последние десятилетия. И я вкратце укажу как можно и следует принять эти вызовы и новые плеяды с тем, чтобы трансцендентальная прагматика могла бы раскрыть свое философское значение и практическую уместность в изменяющихся условиях; лозунг здесь постепенный (мелиористический) ход мысли.

С самого начала я допускаю, что Практическая Философия включает Политическую Философию и Нормативную Социальную Философию. Более того, я принимаю, что Трансцендентальная Прагматика, как практическая философия, имеет «температуру». (Кто встречался с Карлом-Отто Апелем или Юргеном Хабермасом понял бы[2]). Итак, в чем заключается риск для тех, кто работает в области трансцендентальной прагматики?

Выражаясь кратко, у тех, кто занимается трансцендентальной прагматикой, есть миссия: Призыв преодолеть кризис цивилизации, как нормативный вызов, и призыв совладать с модернити, воспринимаемым в смысле научно-основанных и институционно разлигающихся обществ с разнообразными «познавательными интересами», не просто средством рациональности, но и также толковательным и свободным рассуждением, понимаемые как дискурсивное рассуждение.

Вкратце, я предполагаю, что их, главным образом, заботит дискурсивное просвещение, т.е. современное общество, умеренное и оправдываемое саморефлективным и дискурсивным доводом. Вот в чем обстоит в действительности, дело для философов, вовлеченных в трансцендентальную прагматику и дискурсивное рассуждение.

Чтобы пояснить эту точку зрения я размещу трансцендентальную прагматику в исторические рамки изменяющихся интеллектуальных и институционных плеяд.

1. Послевоенная плеяда и роль трансцендентальной прагматики

Начинаю я со следующего предложения: Трансцендентальную прагматику следует понимать как философский и экзистенциальный ответ на скептицизм и кризисы цивилизации. Отсюда, это неслучайно, что трансцендентальная прагматика возникла после

---

* Məqalə fəlsəfə ü.e.d., professor İlham Məmmədzadə tərəfindən çapa məsləhət görülüb.
[1] Напоминание Ницше: Von Nutzen und Nachteil der Historie für das Leben.
[2] Ср. к прим. Апель 1998 и 2003, и Хабермас 2001, 2004, 2005, 2012.

Второй Мировой войны, и что она возникла первоначально в Германии а не в победившем Англофоновом (Anglophone) мире.[1]

Это мой первый пункт: интеллектуальную плеяду в пост-военный период, когда постепенно появлялась трансцендентальная прагматика, можно было обычно охарактеризовать вызовами из трех углов (i). Была необходимость ответить на «Войну и нацистский период»,[2] чтобы справиться с убытками цивилизации.

В этой ситуации трансцендентальная прагматика представляла попытку сформулировать постскептический ответ на вопрос, как оправдать повсеместно законные принципы и опыт для цивилизованного общества.

Более того, говоря шире, существовали две главенствующий интеллектуальные позиции в данный послевоенный период, с одной стороны, (ii) экзистенциализм, защищающий нормативную решаемость[3] (и позитивный релятивизм), и с другой стороны (iii) позитивизм, отстаивающий нормативный дисижинизм (решаемость) и эмоциональность (и эпистемическое науко-образование – epistemic scientism). Отсюда следует, у трансцендентальной прагматики были ясно узнаваемые соперники в этих двух философских позициях, экзистенциализм и позитивизм.

В интеллектуальном и политическом отношении возникающая трансцендентальная прагматика могла бы, таким образом рассматриваться как находящаяся в рамках треугольной плеяды с вызовами военного опыта как всеобщей основы и с экзистенциализмом и позитивизмом, как двумя конкурирующими интеллектуальными позициями с каждой стороны.

Добавьте к этому то, что первое поколение мыслителей Франкфуртской школы (Т.В.Адорно и М.Хоркхаймер) опиралось сильно на дихотомию инструментального разума с внедренной властью, с одной стороны и свободной эстетики, с другой, со схожим отрицанием спорного и свободного рассуждения, как в Хайдеггеровском экзистенциализме. Вопреки обеим этим позициям (Хайдеггер и Адорно/Хоркхаймер), а также вопреки логическому позитивизму (как в Венской школе), неотложной задачей для появившейся трансцендентальной прагматики стал пересмотр различных видов рациональности. Итак, дискурсивное и рефлективное понятие рациональности было разработано и отстаивалось теми, кто был склонен к трансцендентальной прагматике (прежде всего, Апель и Хабермас) и в то же время понятие рациональности различалось согласно различным наукам и различным основным действиям.[4]

---

[1] По этой причине трансцендентальная прагматика имеет смысл, в первую очередь для тех, кто столкнулся с этими вызовами. Те, кто еще остается равнодушным и самодовольным, не задаваясь вопросом о собственных основах, едва ли поймут интеллектуальное значение и экзистенциальное влияние трансцендентальной прагматики. Ср. различия в раннем жизненном опыте Ричарда Рорти и Карла-Отто Апеля. Во время Второй Мировой войны Рорти мирно искал дикие орхидеи в США, в то время как Апель испытал крах цивилизации на Восточном Фронте (см. Рорти 1999, с.6-7). Это самое верно и для псевдо-скептических интеллектуалов, кто отказывается придерживаться скептического вызова до горького конца; критика этой позиции, см.Скирбекк 1958.

[2] См. Апель 1988.

[3] По крайней мере в его популярных версиях. Более того десижинизм (decisionism, от слова решение – прим. пер-ка) у раннего Хайдеггера, ср. с политически двусмысленным термином «решительность» (Entschlossenheit) в «Sein und Zeit» (1927).

[4] Ср Хабермас о различных «познавательных интересах» и Апель/Кеттнер о “die eine Vernunft und die vielen Rationalitaten”.

2. Внутренние дискуссии и вызовы

Имели место внутренние дискуссии и вызовы. Только несколько упоминаний относительно понятия истины. Точкой отправления мы имеем взаимосвязь между оправданием и истиной. Оправдание «может быть утеряно», оно может измениться «со временем и пространством» и вовлеченными лицами, и оправдание рассматривается как последовательное, более или менее хорошо установленное, в то время как истина «не может быть утеряна», будучи независимой от времени и пространства и людей, удерживающих ее.

Отсюда, идентифицирование истины с оправданием представляет истину родственной.[1] Но, с другой стороны, если кто-то определяет истину и оправдание радикально отличными, трудно было бы увидеть как истина будет когда-либо достигнута людьми, поскольку как существа, подверженные ошибкам, мы зависим от исследования и дискуссии, т.е. процессов оправдания.

Ответ трансцендентальной прагматики на эту дилемму состоит из попытки постичь понятие истины как «идеализация» в трансцендентал-прагматическом смысле, т.е. неизбежно предполагаемая регулятивная идея.[2] Однако, дискуссии внутри и вокруг сообщества философов трансцендентальной прагматики выявляют, что это понятие истины остается противоречивым. Вот, вкратце напоминание главных моментов в этом отношении: Карл-Отто Апель понимает понятие истины как трансцендентальную прагматическую предпосылку выражая в терминах «окончательное мнение» идеального сообщества исследователей и участников дискуссии «во время длительного пути», и отсюда как «регулятивную идею» с присущими речью и действием (a speech-act inherent «regulative idea»), неизбежно предполагаемую в нашем взаимодействии и одновременно указывающую направление поиска нами истины, но никогда полностью нереализуемую в реальной жизни и в истории человечества.

Данное понятие Апелем истины как «идеального консенсуса» было атаковано с различных сторон, например, Альбрехтом Вельмером, который представил различные аргументы против:[3]

(i) Согласно Вельмеру, понятие «идеального консенсуса» Апеля в терминах «окончательное мнение» исходит из идеи «Божьего ока», противоположной собственному понятию Апеля. Она влечет за собой метафизический покой, несмотря на требования Апеля преодолеть теоретическую метафизику трансцендентальными аргументами со свойственными речью – действием.

(ii) Более того, из-за нашей людской ограниченности (finitude), будет всегда множество лингвистических подходов и, таким образом, (говорит Вельмер) «борьба об истине»,[4] и следовательно не будет окончательного консенсуса.

(iii) Следовательно, понятие идеального консенсуса концептуально бесмысленно: оно предполагает конец истории, конец человеческих условий и, таким образом не имеет смысла как цель человеческих усилий.

Более специфично, оно предполагает, согласно Вельмеру, полную прозрачность, абсолютное знание и моральное усовершенствование – что делает понятие бессмысленным.[5]

---

[1] Ср. Ричард Рорти.

[2] Не идеализация в смысле «идеализованных моделей» как в экономике или физике.

[3] Вельмер, 2003.

[4] Streit um die Wahrheit, там же.

[5] Вельмер 1993, с.162, где он говорит, что Апель предполагает Vollkommene Transparenz, absolutes Wissea u moralische Volkommenheit.

Последнее заявление[1] ясно отвергается Апелем, добавившего, что подобное требование было, на деле, абсурдным. Однако, на мой взгляд, проблема остается в собственной позиции Апеля из-за неизбежного плюрализма языков во многих случаях; не обязательно как «борьба» между концептуальными перспективами (как высказывается Вельмер), а как лингвистический и концептуальный плюрализм (например) из-за дифференциации многосторонних концепций дисциплин и языков в современных научно-основанных обществах.

Более того, как на счет собственной позиции Вельмера? Вельмер, в основном, ссылается на то, что рассматривает как грамматическую точку, переключатель перспективы между «моими верованиями» и «верованиями других»,[2] первое воспринималось как истина, т.е. для меня здесь и теперь, а последнее понималось как ошибочное.

На мой взгляд, сила Вельмеровской точки зрения кроется в его ударении на неизбежность требований истины здесь и теперь, грамматически в изъявительном наклонении первого лица.[3] Но есть вопросы, которые следует поднять (как Апель сразу указал на это), к примеру, следует ли заявления самого Вельмера о грамматически, обоснованном эпистемическом переключателе понимать как повсеместно требование законности, и этим самым как требование консенсуса в идеальных условиях, несмотря на лингвистический плюрализм и людскую ограниченность.

Позвольте мне вспомнить и некоторые другие возражения Вельмеру.[4] Не следует различие между «нашими верованиями» (в изъявительном наклонении первого лица) и «верованиями других» (в третьем лице в перспективе) анализировать как строгую дихотомию. Очевидно существуют взаимосвязи между двумя перспективами, в том смысле, что «мои верования» - это те верования, которые установились и испытаны во взаимодействии с другими лицами. Более того даже если я принимаю «мои верования» здесь-и-там как истинные, в то же время из опыта я рефлективно осведомлен о собственной подверженности ошибкам. Я знаю, что мы не свойственно ошибаться, и это как раз причина, почему я признаю необходимость идти дальше, быть открытым для проверки нынешних своих взглядов новыми исследованиями и обновленными доводами, возможно новыми концептуальными и дисциплинарными перспективами.[5] Но тогда мы находимся в пути, если не в сторону усовершенствования, по крайней мере прочь от того, что может быть признано, как менее разумные взгляды – короче говоря, градуалистским мелиоризмом[6] (постепенным) как трансцендентальная прагмастическая предпосылка, и таким образом, «основной регулятивной идеей».

---

[1] Там же, с.153.

[2] Хабермас также (как Вельмер) делает ударение на переключатели между (i) принятием чего-то за правду и (ii) ставя под сомнение нечто в дальнейшем исследовании (Хабермас 1999). Но у Хабермаса это появляется как социологическая точка зрения о научном исследовании, но не как самореферективная (трансцендентально-прагматичная) точка зрения – и в этом решающее значение.

[3] Вельмер отстаивает такую точку зрения, что понятие истины относиться к самореференции, но и то что подверженность ошибкам может принять различные формы и степени. Это хорошая точка зрения. Но он не показывает мелиористическо-динамические направления в сторону улучшение, уклонение от которого считается менее разумным соображением. Отсюда, он мало говорит о «регулятивных идеях», которые интерпретирует как у Апеля, и не мелиористически.

[4] Здесь мы ссылаемся на Вельмера 2003, но не Вельмера 1986, см. следующую сноску.

[5] Относительно необходимости взвешивания и аргументации для ошибающихся людей. Ср. Джон Стюарт Милль, 1859, глава II «О свободе мышления и Дискуссии».

[6] Это согласуется с основными точками зрения у Вельмера 1986, с.124-131 и 171-172, и 1993, с.175, где он аргументирует постепенный подход и «отрицательное оправдание» (negative Rechtfertigung). Схожие точки у Скирбекка, 2002. Также Кеттнер в «Апель и Кеттнер» издания 1992, с.22; “Der diskursethische

Два момента здесь решающие:

(i) Подверженность ошибкам следует понимать как множественное понятие, освещать в исследованиях различных случаев.

При обсуждении подверженности ошибкам (fallibilism) Вельмер ссылается на доводы Виттгенштейна (Wittgenstein), взятые из мировых жизненных фактов и «безмолвного знания» с присущим действием. Я согласен. Нам надо просмотреть множество различных случаев в большей или меньшей степени ошибочного знания и проникнуть в суть: всеобъемлющие теории, простые изложения, концептуальные структуры («словари» в терминологии Рорти) и факты с присущим действием.[1] Более того при анализе компетенций с присущим им действием и пониманий сути мы можем убедительно спорить за необходимые предпосылки.[2] Я бы пошел дальше, выступая за внимательное использование «доводов от абсурдности» относительно различных случаев, чтобы выявить различные виды (и степени) «абсурдности», и этим рефлективно также выявлять различные виды предпосылок.[3]

Вкратце, подверженность ошибкам следует поменять как множественное и как постепенное (понятие), и вследствие этого необходимо тщательно рассмотрение различных случаев.

(ii) Понятие «регулятивных идей» надо понимать мелиористически, в смысле преодоления менее хороших точек зрения и доводов, а не в смысле исчерпывающей окончательной истины.

Вельмер ссылается на важность рассмотрения вопросов различных концептуальных рамок или «словарей» (ссылаясь на Ричарда Рорти и этим на Хейдеггера относительно «раскрытия мира», Welterschie ung). Я соглашаюсь с этим. Мы должны рассматривать вопрос (релятивной) концентуальной (не-) адекватности, не просто вопрос истины (в терминах концептуально выстроенных изложений и теорий).[4] Более того мы можем говорить о концептуальной (не-) адекватности в постепенных (gradual) выражениях, как о более или менее адекватной или неадекватной. Отсюда, в той степени, что существует выход за рамки (spill-over) между концептуальной (-не) адекватностью и требованиями истины, мы могли бы даже говорить о постепенных требований истины, о (всеобъемлющих) теориях, являющих более или менее истинными.[5]

Короче говоря, при обсуждении подверженности ошибкам (fallibilism) нам следует также рассмотреть вопрос концептуальной адекватности и неадекватности (и возможный переход к вопросу предполагаемой и теоритической истины), и при

Ansatz kritisiert das Bestehende im Zichte regulativer İdeen {...} Regulative İdeen sind {...} Orientier ungsinstrumente für die melioristisch-kritische Arbeit bestimmer Negation”. Дальнейшие комментарии об Апель-Вельмер полемике у Скирбекка, изд. 2004, 7-27.

[1] Например, Дарвинизм – ошибочная научная теория, но определенно менее ошибочна, чем идея сотворения. И описательная макро-анатомия человеческого тела едва ли ошибочна вообще, поскольку мы знаем его всего – это больше не тема научного исследования, а предмет образования для будущих врачей и медицинского персонала.

[2] Ср. «праксиологический» (praxeological) анализ у Якова Мело и др., у Скирбекка изд. 1983.

[3] Скирбекк 1993. О термине «аргументы от абсурдности», ср. также Гилберт Райл о неофициальном ’reducto ad absurdum arguments’. Райл 1945.

[4] К прим. Скирбекк 2012. Выражаясь кратко: все утверждения в научной теории (скажем в экономике) могут быть хорошо определены внутри собственных концептуальных рамок, но теория может не увидеть различные явления в области ее интересов (например, экономические теории часто терпя неудачу при прогнозировании будущих событий). Одним словом, ее концептуальное «раскрытие мира» (относительно) не способно справляться с важными фактами.

[5] Скирбекк 2003.

рассмотрении случаев относительной концептуальной адекватности или неадекватности следует рассмотреть мелиористическую перспективу (игнорирование которой было бы менее разумным).

Напоминание: в этом отношении в трансцендентальной прагматике первостепенными являются четыре требования вескости с присущими речью и действием: требование истины, требования правдоподобности, требование верности и требование многозначительностию. Короче говоря, требование истины и правильности видятся аргументативно («дискурсивно») «небезнадежными» в идеальных условиях, характеризуемые «бессильной силой лучшего аргумента» и взаимным признанием среди участников[1] - одним словом в свободных и равных условиях для всех участников и при желании выискать лучшие аргументы и слушать друг друга.[2] В трансцендентальной прагматике требования привильности видятся как требования норм справедливости и беспристрасности, в первую очередь, для регулирования конфликтов, не как требования, касающиеся ценностей. Требование правдивости не видятся как дискурсивно исправимыми. Подобные заявление становятся «безнадежными» межличностными опытами среди тех кого касается. К тому же, многозначность истолковывается как предпосылка аргументации (и коммуникации) имеющей смысл, хотя это может быть отнесено к вопросам концептуальной адекватности или неадекватности. Это главные характерные черты дискурской теории истины и правильности, которые свойственны трансцендентальной прагматике (или соответственно «универсальной» и «формальной» прагматике у Хабермаса). Однако имеются критические замечания в отношении этой концепции четырех требований вескости, например:

(i). Существуют доводы в пользу дальнейших дифференциаций, к примеру, между заявлениями истины единичных изложений и заявлениями истины исчерпывающих теорий, а также между этими заявлениями истины и заявлениями (релятивной) концептуальной адекватности[3] (ii). Одновременно существуют доводы в пользу переходов между различными заявлениями обоснованности, к примеру, между заявлениями теоретической истины и заявлениями концептуальной адекватности, а также между заявлениями концептуальной адекватности и вопросами ценности.[4] Итак, имеются доводы в пользу взгляда, что релятивная концептуальная адекватность «описаний ситуации» является решающей для заявлений нормативной (мораль и этика) вескости.[5]

3. Новые созвездия – в институционной, политической, интеллектуальной сферах

В начале, некоторые краткие наблюдения об институционных изменениях: в академии мы имеем повышение специализации и дробления, тоже самое в философии. Благодаря Болонским реформам в Европейских университетах временные графики для гуманитарных наук укорочены и различные дисциплины разделены на меньшие единицы. Издательства, также те, что именуются университетской прессой все больше

[1] Личная автономия (Mündigkeit) не является эмпирическим фактом. Это – задача (для каждого индивидуума, а также общества) и в этом смысле она – регулятивная идея. Это момент с политическим смыслом, хотя часто в политической теории остается незамеченным. Ср. Скирбекк 2011, с.183-185.

[2] Схожие точки зрения, к прим. Джон Стюарт Милль и Кнут Эрик Траной.

[3] Вельмер 1986, с.168. Скирбекк 2003 и 2012 сс.73 f

[4] Например, Скирбекк, 2012.

[5] Вельмер 1986, к прим. сс.125, 134-5. У Скирбекка 2003 и 2012 вопросы концептуальной адекватности различных «описаний ситуации» относятся к множеству научных и дисциплинарных перспектив (scholarly), в то время как Вельмер склонен обращаться к социально-культурным случаям вроде борьбы за пересмотр «описания» женщин, детей и гомосексуалов, смотри Вельмер, там же, с.125.

превращаются в источник дохода, сосредотачиваясь скорее на учебниках и освещении литературы, чем на профессиональной философии. Эти тенденции – плохая новость для философии, не в меньшей мере для трансцендентальной прагматики, воспринимаемой как всеобъемляющий проект, требующий дискурсивного и само-рефлективного хода мысли и широкого знания противоположных, философских позиций и современных научно-основанных обществ.

Что касается изменений на интеллектуальном уровне, я напомню несколько моментов: после Второй Мировой войны позитивизм представлял философски хорошо выраженную позицию и легко опознаваемую мишень для критики. Сегодня ситуация многообразна и хаотична. Способы мышления, вызывающие воспоминание о позитивизме все еще присутствуют вокруг, но они часто заложены в невыраженные прямо позиции и предположения в областях высоко специализированных дисциплин и профессий таких как невронаука, биология или экономики и политической науки, профессий, которые зачастую оставляют без внимания эпистемологические вопросы самореферентивной природы и вопросы нормативного оправдания. Отсюда, чтобы ясно выразить философскую критику, которую те, кого касаются эти области исследования, не могут проигнорировать, решающим будет хорошая информированность о том, что делается в этих науках и профессиях с тем, чтобы выразить свою критику на языке и путем, которые видятся (соответствующим) уместным и важным для тех, к кому обращена критика такого рода. Спор в общих выражениях за предположительно превосходящую философскую контрпозицию не будет выглядеть убедительным. Чтобы быть релевантной, подобная критика должна быть специфической и проникать в суть дисциплин и профессий, которые являются ее мишенью.

В настоящее время экзистенциализма не является больше доминирующей позицией. Но вновь есть множество дисциалин и профессий, которые имеют схожие эпистемологические и нормативные недостатки, которые наблюдались в экзистенциализме послевоенной эпохи, такие как этическая решаемость и культурный релятивизм с невниманием к аргументированному и самокритически рефлексивному рассуждению. Например, в гуманитарных и общественных науках и соответствующих профессиях имеются различные варианты контекстуализма, деконструктизма и постмодернизма, каждый с невниманием или даже с явным неприятием самокритически рефлексивного довода в поиске истины и всемирной обоснованности, рассматриваемые как евроцентризм или логоцентризм, и за эти предполагаемые изъяны обвиняется «западное просвещение». Например, нити ведут к «исследованиям культуры», которые некритично одобряются М.Фуко и (так называемой) «Французской теорией». Они наблюдаются в политическом мультикультурализме и в академических постколониальных исследованиях, которые напоминают прежнюю лефтистскую критику классового угнетения и власти в замаскированной форме, часто без доводов в пользу законных и универсальных принципов, в противоположность незаконных контекстуальных.

Одним словом, интеллектуальная обстановка стала более неясной и аморфной, более сложной для того вида критики, с которой выступает трансцендентальная прагматика.

11. Собрание законодательства Российской Федерации. 2009, № 37, ст.4416.

12. Распоряжение Правительства Российской Федерации № 793-р «Концепция методологии систематизации и кодирования информации, а также совершенствования и актуализации общероссийских классификаторов, реестров и информационных ресурсов» //Собрание законодательства Российской Федерации. 2014, № 20, ст.2594.

13. Собрание законодательства Российской Федерации, 2009, № 7, ст.776.

14. Собрание законодательства Российской Федерации, 2008, № 52 (ч.1), ст.6217.

15. Собрание законодательства Российской Федерации, 2012, № 19, ст. 2338.

16. Собрание законодательства Российской Федерации. 2013, № 27, ст. 3634.

17. Собрание законодательства Российской Федерации. 2008, № 52 (ч.1), ст. 6366.

18. Исаков В.Б. Официальное электронное опубликование. М.: Формула права. 2012.

19. Пиголкин А.С. Систематизация законодательства в Российской Федерации. СПб.: Издательство «Юридический центр Пресс».

20. Ведение Министерством юстиции Российской Федерации регистров нормативных правовых актов. Учебное пособие /А.В.Морозов, Л.В.Филатова. М.: РПА Минюста России, 2011.

Natalya FADEYEVA

DÖVLƏT ORQANLARININ QEYDİYYAT FƏALİYYƏTİNDƏ QANUNLARIN SİSTEMLƏŞDİRİLMƏSİNİN SİSTEMLİ DƏRKİ

Xülasə

Məqalədə informasiya telekommunikasiya texnologiyalarının istifadə olunduğu informasiya cəmiyyətinin inkişaf məsələlərinə baxılır. Burada vətəndaş təşkilat və dövlətin informasiya tələbatlarının yerinə yetirilməsi üçün bütün şəraitin yaradıldığı bildirilir. Rusiya Ədliyyə Nazirliyi nümunəsində qeydiyyat fəaliyyətində qanunların sistemləşdirilməsinə müasir yanaşmalar və problemlər müzakirə edilir. Məqalədə müvafiq istiqamətdə hüquqi aktların geniş icmalı verilir.

Açar sözlər: sistemləşdirmək, informasiya resursları, informasiya sistemi, kodlaşdırma, informasiya cəmiyyəti, yoxlama-baxış.

Natalya FADEEVA

SYSTEMIC EVALUATION OF LEGISLATION SYSTEMATISATION IN REGISTRATION ACTIVITIES CARRIED OUT BY PUBLIC AUTHORITIES

Summary

Issues of development of information society using information technologies, a society where all conditions are provided for satisfying the information needs of citizens, organisations, and the government, are considered in the paper. Problems and modern approaches to legislation systematisation in registration activities as exemplified by a case study of the Ministry of Justice of the Russian Federation are discussed. The paper contains a comprehensive overview of legal acts in this field.

Keywords: systematisation, information resources, information systems, codification, information society, monitoring.

УДК 340.1(091)

Маргарита ФОКИНА
Преподаватель Московского Государственного Юридического Университета им.О.Е.Кутафина (МГЮА)
(Россия)

ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ МУСУЛЬМАНСКИХ ПРАВОВЫХ ШКОЛ*

Мусульманская правовая система, рассматриваемая в данной работе, основывается на положениях и концепциях, которые кардинально отличаются от тех, что приняты в европейских странах. Мусульманское право можно считать особенной идеологией и системой взглядов на социальное устройство, которые оказывают огромное влияние на развитие целого ряда стран Востока.

Ислам возник в VII в. н.э. на Аравийском полуострове среди арабских племен. Ислам является самой молодой из трех мировых религий, включая буддизм и христианство, и имеет своих последователей в большинстве стран мира. Мусульманское право и исламская идеология оказывают большое влияние, как на международную политику, так и на социальные взгляды людей.

Мусульманская правовая система состоит из доктрин, которыми занимаются традиционно мусульманские ученые-юристы. Коран является основополагающим источником и началом шариата. Ученые-юристы выработали много норм и правовых доктрин, которые имеют непосредственное отношение к юриспруденции и правовой системе. Так, одними из самых известных мусульманских ученых-юристов были Абу Ханифа, Малик ибн Анас, Мухаммед ибн Идрис Шафии, Ахмад ибн Ханбаль.

Как указывалось выше, мусульманское право возникло в VII-X вв. на Аравийском полуострове и эволюционировало сравнительно долгое время. Положения и нормы его были выработаны у истоков начала развития ислама, действуют по сей день. На развитие мусульманского права влияли такие страны Востока, как Египет, Сирия и т.д., а впоследствии капитализм, зарождавшийся на этих территориях, а также буржуазные эволюции.

Ислам всегда являлся не только религией, но и определенным образом жизни, взглядами и положением личности в обществе. Такие принципы и основополагающие начала отражаются в шариате. Шариат – это общий для всех мусульман свод правил и законов жизни. Он гарантирует стойкое положение ислама. Не вызывает сомнения тот факт, что правовые и религиозные нормы ислама находятся в тесной взаимосвязи. Данный факт отражается в том, что правовые нормы берут свое начало из Корана и сунны. В их основе лежит божественное откровение, которое закрепляет, в первую очередь, основу веры и правила морали, являющиеся содержанием правовых норм в мусульманском праве.

Необходимо указать, что в качестве правовой ответственности в мусульманском праве выступают религиозные категории, например, такие, как «грех». Так, любой «грех» может быть наказан мусульманским судом.

Таким образом, мусульманскому праву присущи черты религиозности, которые выражаются, во-первых, в божественном происхождении, во-вторых, в тесной связи норм права и религии.

---

* Məqalə fəlsəfə ü.e.d., professor İlham Məmmədzadə tərəfindən çapa məsləhət görülüb.

Шариат (в переводе с арабского языка означает путь, образ действия) – это комплекс правил поведения, предписаний, убеждений для мусульманина. Предписания шариата включают в себя как юридические, так и нравственные нормы, не делая разграничения на право и религию.

Шариат возник не вместе с исламом, а позже. При жизни пророк Мухаммед сам выполнял роль законодателя и судьи. Нормы были введены им и вошли в суры Корана. Так, сура 13, аят 37 говорит:

«Так ниспослали Мы его,
Чтоб на арабском языке был свод законов (Нашего Суда)» (3).

Однако Мухаммед не мог предусмотреть все правовые ситуации, которые случаются в жизни общества и государства. После его смерти обнаружилось, что норм, которые закреплены в Коране, не хватает для разрешения споров между людьми. И общество стало при спорах обращаться к прецедентам. Затем же были созданы сборники хадисов – рассказы Мухаммеда, в которых содержались решения и предписания, связанные с различными областями жизни и деятельности общества и государства. На сегодняшний день главными считаются шесть собраний хадисов: Сахих Бухари, Муслим, Суннан Абу Дауд, ат-Тирмизи, Хасан и ибн Мудхаас.

Хадис делится на две части: первая называется иснад (опора) и она предполагает собой ссылку на источник рассказа, в котором идет перечисление людей, передавших его. Зачастую, под иснадом предполагается цепочка имен, начиная с последнего рассказчика и доведенная до очевидца пророка. Например: «Имам аль-Мунави сказал: «Этот хадис передали аль-Хаким (ат-Тирмизи), ат-Табарани, ад-Дайлями, хафиз Абу Муса аль-Мадини и другие от ‘Абду-р-Рахмана ибн Самуры. Аль-Хайсами сказал: «Его передал ат-Табарани с двумя иснадами, в одном из которых присутствует Сулейман ибн Ахмад аль-Васиты, а в другом - Халид ибн ‘Абду-р-Рахман аль-Махзуми и оба они являются слабыми» (6). После иснада сопутствует матн, то есть сам текст предания.

Что касается шариата, то в нем до сих пор сохранилась кровная месть. В Коране в суре 2 аяте 178 сказано:

«О вы, кто верует!
Предписано вам право
За смерть (убитых близких) отплатить:
За жизнь свободного - свободный,
И раб - за жизнь раба,
И за жену – жена» (3).

Также за совершение преступления впоследствии можно откупиться денежной суммой. Такой откуп напоминает положения «Русской Правды», в которой устанавливалось следующее: «Кто убьет человека, тому родственники убитого мстят за смерть смертью; а когда не будет мстителей, то с убийцы деньги взыскать…» (5). За нанесение человеку ранений и увечий полагается выплачивать штраф. Сопоставление шариата с «Русской Правдой» не является простой случайностью. Во времена зарождения Древней Руси и становления Аравии* развитие двух государств было на одинаковом уровне.

*Аравия (в переводе с древнееврейского языка – пустыня) – полуостров, расположенный на юго-западе Азии.

Ответственность за наказание и в настоящее время сохранило жестокость в шариате. Так, согласно суре 5 аяту 38:

«И вору, и воровке отсекайте руки,
Как воздаяние за то,
Что (души их) усвоили себе, -
Как наказанье от Аллаха, -
Ведь Он, поистине, велик и мудр!» (3).

Также, сура 24, аят 2 предписывает:

«Прелюбодея и прелюбодейку –
Подвергнуть порке в сто ударов,
И (в соблюдении) сей заповеди (Бога)
Пусть состраданье к ним не овладеет вами,
Если в Аллаха и Последний День уверовали вы.
И пусть при наказании (прелюбодеев)
Присутствует собрание людей, уверовавших (в Бога)» (3).

Такой вид наказания, как тюремное заключение, использовалось крайне редко. Это исходит из того, что народ придерживался кочевых традиций и не было смысла на оседлой территории предусматривать тюрьму. Тюрьма предполагает собой постоянное место содержания заключенных.

Шариат также предусматривает за некоторые преступления, например, такие, как переход в иную веру, преднамеренное убийство, смертную казнь. Существовали разнообразные виды казни – забивание камнями на площади, четвертование, погребение заживо, отсечение головы. Так, в современных странах, где шариат занимает центральное место, сохранились подобные меры ответственности и наказания. В настоящее время побиение камнями сохранилось в шести государствах. Последним примером может послужить следующее сообщение СМИ: «16 января 2015 года было сообщено о побиении камнями боевиками организации Исламское государство Ирака и Леванта в захваченном ими иракском городе Мосул женщины, обвиненной в прелюбодеянии» (7).

Одной из главных особенностей мусульманской правовой системы является своеобразное мышление, которое неразрывно связано с богословием. Заключается оно в анализе шариата и норм, которые основываются на Коране и суннах. Мусульманская правовая система разделяется на несколько видов, в зависимости от толкования или существования разных религиозных школ, имеющих разные принципы, положения и интерпретации шариата. Можно назвать четыре главных направления: Маликитское, ханафитское, шафиитское и ханбалитское.

Подобные направления основываются на нескольких обязательных постулатах. При толковании Корана религиозные школы отвергают или признают определенные положения. Используются такие понятия, как (2, с.91):

- рай – мнение авторитетного богослова, занимающегося изучением правоведения;
- иджма – консенсус, мнение нескольких крупных и значимых лиц по поводу толкования шариата;
- иджтихад – право лица самостоятельно заниматься толкованием норм шариата, а также разрешать юридические и религиозные вопросы, ссылаясь на Коран;

- кыяс – суждение, основанием которого является аналогия. То есть разрешение вопроса с отсылкой на похожее случившееся отношение в Коране.

Первым основателем маликитского направления является Малик ибн Анас. Он предложил кодифицировать нормы в определенном порядке. Приверженцы маликитской школы признают обычное право Медины,* а также при разрешении споров используют иджму. При рассмотрении конкретных вопросов маликиты также допускают индивидуальное толкование норм, если оно не наносит ущерба обществу. Таким образом, используя здравый смысл, разрешают конфликты в интересах мусульман. Наибольшее число последователей данной религиозной школы проживает в Магрибе – арабских странах Северной Африки. В настоящее время маликитская школа популярна в Марокко, Алжире, Тунисе и Ливии. В этих государствах с помощью толкования норм маликитского направления разрешают конфликты в брачно-семейных отношениях.

Вторым направлением является – ханафитское. Это одно из самых либеральных течений. Создателем его является ан-Нуман ибн Сабит Абу Ханифа. Для данной школы характерными являются:

1) мнение авторитетного богослова (рай);

2) непосредственное применение аналогии при разрешении споров (кыяс);

3) учет традиций и обычного права при разрешении конкретных конфликтов.

Ханафитское направление позволяет приспосабливать правила и нормы шариата под условия жизнедеятельности общества и государства. Такая лояльность дает широкое распространение данной школы. Ранее ханафитская школа господствовала в Аббасидском халифате и Османской империи. На сегодняшний день распространена в Египте, Сирии, Ираке, Афганистане и Пакистане.

Третьим направлением является шафиитское, названное в честь его основателя – Мухаммеда ибн Идриса аш-Шафии. Данная школа занимает промежуточное звено между ханафитами и маликитами. По мнению представителей школы, правоведение имеет следующие основы:

1) Коран;
2. сунна;
3. иджма;
4. кыяс.

Шафиитское направление не получило большого распространения и господствует на территориях Индонезии, Брунея и в странах Восточной Африки.

Четвертое направление - представляется ханбалитская школа, названная в честь его основателя Ахмада ибн Ханбаля, который являлся учеником Мухаммеда ибн Идриса аш-Шафии. Ахмад ибн Ханбаль являлся жестким противником всех нововведений в правоведении и полагал, что новшество есть ересь. Он был приверженцем фундаментального, традиционного взгляда на право. В настоящее время ханбалитское направление закреплено на государственном уровне в Саудовской Аравии.

Деятельность вышеперечисленных направлений непосредственно влияет на дальнейшее развитие мусульманской правовой системы. Она вносит изменения в зависимости от условий жизни общества и государства, отказывается от устаревших правил, которые не возможно применять в современном мире. Однако, мусульманские ученые-

*Обычное право Медины – нормы правовых комплексов, не отраженные в шариате.

правоведы углубленно изучают все постулаты, толкования школ и выявляют расхождения и схожие решения вопросов, касающихся права.

Мусульманская правовая система развивалась в тесной связи с религией и ее толкованием. Право находится во взаимосвязи с религией и берет свое начало от Корана. Ислам – религия, которая является не только взглядами на божественное происхождение мира, но и мировоззрение и система взглядов на социальное устройство жизни и деятельности, как общества, так и самого государства в целом. Право неразрывно существует с религией и является второстепенным продуктом, в отличие от религии.

Сегодня существуют страны, в которых ислам – государственная религия, а споры и конфликты разрешаются посредством шариата и Корана. Например, в Саудовской Аравии конституцией является непосредственно сам Коран, уголовный кодекс же опирается на постулаты шариата. Саудовская Аравия на данный момент считается единственной страной, где казнь проходит путем отсечения головы. Кроме отсечения головы саблей, наказания производятся в форме побиения камнями и распятия обезглавленного тела. Однако, в настоящее время ученые-юристы предлагают различать два таких понятия, как «мусульманское право» и «право отдельно взятых мусульманских стран». Такие различные понятия существуют на практике в жизни почти всех исламских государств. Общество не смешивается кардинально с религиозными направлениями и живет по официальным законам государства. В таких странах процветает дуализм правовых систем, в которых смешивается религиозное право с правом, исходящим от государственного аппарата. Государства развиваются и между ними усложняются как социально-экономические, так и международные отношения. Предписаний Корана и шариата, естественно, не хватает на решение таких сложных правовых отношений.

Помимо 4-х основных школ толкования правовых норм существуют и другие, которые занимаются разъяснением положений Корана и шариата. Джафаритское направление распространено среди шиитов;* основателем которого является Джафар ад-Садик. В свою очередь, джафаритское направление подразделяется на две ветви – ахбариты и усулиты.

Все вышеперечисленные школы способствуют развитию мусульманской правовой системы. Однако при углубленном изучении основ этих направлений можно найти различия в толкованиях по важнейшим вопросам.

Ключевые слова: ислам, Коран, шариат, хадис, мусульманская правовая система, направления.

Список использованной литературы

1. Аль-Хазиф бен-Хаджар аль-Аскалани. Поучение желаемого из источников норм. М., 2001.

2. А.С.Боголюбов. Ислам: энциклопедический словарь /отв.ред. С.М.Прозоров. М.: Наука, 1991.

*Шиизм – одно из направлений ислама, которое объединяет различные общины и признает Али ибн Абу Талиба и его потомков единственно законными наследниками и духовными преемниками пророка Мухаммеда.

3. Коран. Перевод смыслов и комментарии Иман Валерии Пороховой. Редактор: Аль-Рошд Мухаммад Саид. Издательство Рипол-Классик, 2014.

4. Марченко М.Н. Проблемы теории государства и права: учебник. М.: Проспект, 2013.

5. Тихомиров М.Н. Пособие для изучения «Русской Правды». М.: Издание Московского Университета, 1953.

6. In Graphic Photos and On Twitter, ISIS Members Record and Tout Executions of Gay Men. Дата обращения 09 июня 2015 г.

Marqarita FOKİNA

MÜSƏLMAN HÜQUQ MƏSƏLƏLƏRİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Xülasə

Müsəlman hüquq sistemi dini formada ifadə olunan kompleks normaları əks etdirir. Ərəb xilafətində yaranmış İslam yalnız din deyil, həm də müsəlmanlar üçün ideologiyadır. Müsəlman hüququnun 2 səciyyəvi cəhəti vardır: birincisi, hüququn ilahidən gəlməsi, ikincisi, normaların ilahiyyatçılar tərəfindən şərh edilməsi. Çoxsaylı şərhlər əsasında müxtəlif təmayüllər yaranıb ki, onlar fiqhdə əsas mövqeləri fərqləndirirlər.

Açar sözlər: İslam, Quran, şəriət, hədis, müsəlman hüquq sistemi, təmayüllər.

Margarita FOKINA

THE MAIN DIRECTIONS IN ISLAMIC SCHOOLS OF LAW

Summary

The Islamic legal system is a system of canons of law expressed in religious form. Islam that originated in the Arab Caliphate is not just a religion but a kind of ideology for Muslims. The Islamic law has two characteristic features: firstly, law is of divine origin, and secondly, the canons and prescriptions of law are interpreted by theologians. Due to numerous interpretations of legal provisions, different directions emerged distinguishing the main positions in jurisprudence.

Keywords: Islam, Quran, sharia, hadith, Islamic legal system, directions.

SOSİOLOGİYA BÖLMƏSİ

UOT 316.344.34

İbrahim ABDULSƏLİMLİ
doktorant, kabinet müdiri,
BDU, AMİ-nin Şəki filialı

MÜƏLLİM HAZIRLIĞININ KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏSİ*

Antik dünyanın fikir dahisi olan Aristotel özünün elmi, ədəbi – nəzəri görüşlərində təhsilin bəşəriyyətin tərəqqisindəki rolundan danışarkən qeyd edirdi ki, "təhsilin kökü acı olsa da meyvəsi şirindir" (11). Sonrakı dövrlərdə yunan filosofu Pifaqor da özünün fəlsəfi görüşlərində təhsilə də yer verərək yazırdı: "təhsili başqa insanla da bölüşə bilərsən və onu başqasına verməklə, özün onu itirmirsən, məhz təhsillə insan heyvanlardan, ellinlər - barbarlardan, azad doğulmuşlar – qullardan , filocoflar adi insanlardan seçilirlər" (15, s.21). XIV əsr İslam filosofu və sosioloqu, dövlət xadimi və tarixçisi İbn Xəldunun (1332-1406) təhsil və onun fəlsəfəsinə dair türkdilli mənbələrdə maraqlı məlumatlar vardır. Türk alimi, professor-doktor Mahmut Tezcan bu münasibətlə yazır: "İbn Xəldun, təhsil haqqındakı fikirlərini baş abidə "Müqəddimə" də bildirmişdir. "Müqəddimə"nin təhsilə yönəlik hissələrini nəzərdən keçirdikdə, İ.Xəldunun təhsil elminə dair, ümumi təhsil, tədris üsulları, uşaq təhsilində əsas prinsiplər, müəllimlərin xarakterləri, öyrənmə, dini təhsili, elmlərin təsnifatı kimi məsələlərə rast gələ bilirik" (17, s.9).

Cənubu Afrikanın azadlıq liderlərindən biri olmuş Nelson Mandelanın da təhsillə bağlı maraqlı fikirləri vardır. O, təhsilin xalqın azadlıq mübarizəsindəki rolunu yüksək qiymətləndirərək yazırdı ki, "təhsil dünyanı dəyişmək üçün ən güclü silahdır" (13).

Avropa elmi fikrinin dahisi olmuş Albert Eynşteyn təhsilə aşağıdakı kimi tərif vermişdir: "Təhsil - biz hər şeyi və məktəbdə bizə öyrədilənləri yadımızdan çıxandan sonra yerdə qalandır" (17, s.64-67).

Görkəmli siyasi xadim Mustafa Kamal Atatürkə görə isə "ən mühüm, ən əsaslı məqam təhsil məsələsidir. Çünki, təhsil bir milləti ya azad, müstəqil, şanlı, uca bir cəmiyyət halında yaşadar, ya da bir milləti əsarət və səfalətə tərk edər" (19).

Ümumiyyətlə, "təhsil" anlayışının izah olunmasına və onun xüsusiyyətlərinin müəyyən-ləşdirilməsinə münasibətdə bugünkü elmi fikirdə də müxtəliflik özünü göstərməkdədir. Bu müxtəliflik, təhsilə fərqli yanaşmanı, ona müxtəlif tərifərin verilməsini təmin edir. Professor F.İ.İbrahimov "təhsil" anlayışına münasibətində nəzəriyyəçi alimlərdən - professor Ə.X.Paşa-yev və professor F.A.Rüstəmovun fikrlərinə söykənərək yazır: "1) təhsil cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarını inkişaf etdirmək, onu həyata hazırlamaq məqsədilə verilir; 2) təhsilin məzmunu müasir standartlara uyğun olaraq müəyyənləşdirilir; 3) təhsilin məzmunu tədris müəssisələrində və özünütəhsil yolu ilə mənimsənilir; 4) mənimsənilmənin səviyyəsi qəbul edilmiş meyarlarla yoxlanılır və qiymətləndirlir; 5) təhsilalma prosesi müəyyən olunmuş hüquqi sənədlərin verilməsi ilə başa çatır" (7, s.126).

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

Görkəmli riyaziyyatçı, professor Zahid Qaralov isə təhsilin müxtəlif parametrli funksiyalar yerinə yetirdiyini nəzərə alaraq aşağıdakıları qeyd edir:

-Təhsil – insanın, millətlərin, bəşəriyyətin keçmişini, bu gününü və gələcəyini bütöv halında birləşdirməyin mükəmməl vasitəsidir;

-Təhsil –insanın inkişafının əsası və birinci göstəricisidir;

-Təhsil – fərdlərin, xalqların, millətlərin və dünyanın intellectual potensialının tənzimləyicisidir;

-Təhsil – ayrı-ayrı şəxslərin, etnik qrupların, xalqların və millətlərin, bəşəriyyətin kamilləşməyə doğru hərəkətinin, dayanıqlı inkişafının nəzəri və praktik cəhətdən reallaşma imkanlarını artıran üstün fəaliyyət sahəsidir;

-Təhsil – tərəqqi vasitəsidir;

-Təhsil, insana insanlıq keyfiyyətləri formalaşdırmağa imkan yaradan və bu imkanlardan hər kəsin yararlanmasını təmin edən maddi-mənəvi zənginlik sistemidir (15).

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu insan kapitalına yüksək dəyər verilən ölkəmizdə təhsilin keyfiyyətini yüksəltməyi, onun məzmununa və təşkilinə qloballaşma, informasiyalaşdırma tələbləri baxımından yanaşılmasını zəruriləşdirir. Qanunun 11-ci maddəsində əksini tapmış tələblərə görə, təhsil alanlar dövrün tələblərinə və şəraitinə uyğunlaşmalı, rəqabət qabiliyyətli olmalı, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərməyə, ünsiyyət yaratmaq bacarığına yiyələnməli, fasiləsiz təhsil almalı, müasir standartlara uyğun gələn biliklərə və dünyagörüşünə, yüksək intellektual səviyyəyə və praktik iş qabiliyyətinə, yeni texnologiyaya yiyələnməlidirlər (9).

Dövlət müstəqilliyinin bərpa olunmasından ötən iyirmi ildən artıq bir müddət ərzində Azərbaycanın təhsil sistemi mürəkkəb bir yol keçmiş və özünün bugünkü inkişaf mərhələsinə gəlib çatmışdır. Ötən illər ərzində Respublikamızda təhsilin hüquqi-normativ bazası yaradılmış, onun maddi-texniki, tədris-metodiki təminatı əhəmiyyətli dərəcədə möhkəmləndirilmişdir. 22 may 2009-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunmuş "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı"na uyğun olaraq bütünlüklə təhsil sistemində, eləcə də ali təhsildə ciddi islahatlar həyata keçirilməsinə başlanmış, təhsilimizin məzmunu əhəmiyyətli dərəcədə yenilənmiş, təhsil sahəsində keyfiyyətin təmin edilməsi sahəsində irəliyə doğru ciddi addımlar atılmışdır, ali təhsilimizin Avropa təhsil məkanına inteqrasiyası prosesi geniş vüsət almışdır (1).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nomrəli "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının təsdiq edilməsi haqqında" qərarında deyilir: "Hazırda ilkin pedaqoji təhsil fasiləsiz muəllim hazırlığının yalnız bir fundamental mərhələsi kimi qəbul edilməli və muəllim hazırlığı muxtəlif usullarla fasiləsiz olaraq davam etdirilməlidir (4). Ona gorə də Azərbaysan Respublikasında muəllim hazırlığının və pedaqoji təhsilin fasiləsizlik prinsipləri baxımından inkişaf etdirilməsi ucün konseptual yanaşmaların işlənilməsinə və fasiləsiz pedaqoji təhsil sisteminin inkişaf etdirilməsi ucün strateji fəaliyyət proqramının hazırlanmasına ehtiyas yaranmışdır. Bu Konsepsiya və Strategiya sənədi respublikada novbəti 10-15 il ərzində fasiləsiz pedaqoji təhsil və muəllim hazırlığı tədbirlərini istiqamətləndirmək ucün nəzərdə tutulmuşdur. Sənədin əsas məqsədi fasiləsiz müəllim və pedaqoji kadrlar hazırlayan müəssisələrin sosial statusunun möhkəmləndirilməsinə, bu sahədə təhsilin keyfiyyətinin bilavasitə yüksəldilməsinə, inkişaf etmiş dövlətlərin qabaqcıl təcrübələrinin öyrənilməsinə, uzun illər ərzində formalaşmış milli ənənələr və müasir beynəlxalq təsrubə əsasında pedaqoji təhsilin məzmununun və strukturunun yeniləşdirilməsinə, təlim və tərbiyənin vahidliyinin, sistemin dovlət, istimai və şəxsi prioritetlərinin balanslaşdırılmasının təmin edilməsinə xidmət etməkdir.

Müxtəlif illərdə təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində atılan addımlara və qəbul olunan çoxsaylı layihələr, qərarlar və proqramlara baxmayaraq hələ də bəzi universitetlərin müstəqil inkişaf proqramları, strateji planları olmadığı kimi, kadr siyasəti sahəsində də aydın planları mövcud deyildir. Nəzərə alsaq ki, ümumilikdə təhsilin keyfiyyəti bilavasitə peşəkar və müasir düşüncəli kadrlardan asılıdır, onda bu sahədə görülməli işlərin miqyasının nə qədər geniş olduğunu dərk edərik (8). Fikrimcə, ali məktəblərdə çevik və müasir idarəetmənin olmaması da bilavasitə idarəetmə strukturlarında fəaliyyət göstərənlərin mühafizəkarlığı, yeniliyi qəbul etməməsi, müasir tələblərlə ayaqlaşa bilməməsi ilə birbaşa bağlıdır. Bəzi müəllimlərimizin yenilikləri ciddiyə almaması, öz gündəlik fəaliyyətlərini inkişaf edən dünyanın diktə etdiyi standartlara uyğun qura bilməməsi və yaxud bu önəmli məsələyə ümumiyyətlə etinasız yanaşması gələcəkdə cəmiyyəti və təhsil ictimaiyyətini çıxlımaz bir vəziyyətə salınmasına gətirib çıxarır. Professor-müəllim heyətinin də əksəriyyətinin müəyyən yaş həddində olması, yeniliyə və dünyada təhsil sahəsində baş verən islahatlara çevik reaksiya vermək istəməmələri sonda lazım olan nəticələrə nail ola bilməmək kimi xoşagəlməz situasiyaların baş verməsi üçün münbit şərait yaradır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində çalışan işçilərin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" 8 sentaybr 2008-ci il tarixli sərəncamı və onun icrası ilə bağlı Nazirlər Kabinetinin "Dövlət büdcəsindən maliyyələşən ali təhsil müəssisələrində çalışan işçilərin yeni vəzifə maaşlarının və vəzifə maaşlarına əlavələrin təsdiq edilməsi haqqında" və 12 sentyabr 2008-ci il tarixli 209 nömrəli qərarı ilə ali məktəblərdə rektor, prorektor, dekan, kafedra müdiri ştatları vəzifə statusu qazanmış və əvvəlki dövrlərdən fərqli olaraq, həmin vəzifələrdə işləyənlər üçün yüksək vəzifə maaşı və ona əlavələr müəyyən olunmuşdur (5). 1 sentyabr 2013 cü il tarixində yenidən müəllim əməyinin respublika prezidenti tərfindən layiqincə qiymətləndirilməsi də müəllimlərimizin işlərinə daha məsuliyyətlə yanaşmaları üçün əlavə stimul yaradır (1).

Müəllim hazırlığı sahəsində keyfiyyətin yüksəldilməsi məsələlərindən danışarkən, bu sahəyə bilavasitə xidmət edən əlavə təhsil sahəsindən geniş söhbət açmamaq mümkün deyildir. AMİ-nin Şəki filialında əlavə təhsilə xidmət edən sahədə çalışdığım uzun illər ərzində ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrində müşahidə etdiym bir çox faktlar rəngarəng və çox da ibrətamizdir. Etiraf etmək lazımdır ki, müəllimlərin bacarıqlarının artırılmasında, yeni innovasiyalar, müxtəlif nəzəriyyə və metodların mənimsənilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edən ixtisasartırma təhsili üzrə beynəlxalq təşkilatlarla birlikdə müəyyən işlər görülsə də, həllini gözləyən problemlər daha ciddidir. Keçirilən treninqlər, aparılan seminarlar və həyata keçirilən layihələr müəllimlərin bilavasitə öz üzərində işləməsi problemlərinə xidmət etsə də, etiraf etmək lazımdır ki, bu tədbirlərdə əksər müəllim kontingentinin əhatə olunması arzu olunan səviyyədən, çox təəssüf ki, hələ də uzaqdır. Yəni bu tədbirlərdə rayon təhsil şöbələri tərəfindən demək olar ki, həmişə eyni müəllimlərin iştirakının təmin edilməsi məqsədəuyğun hesab edilir. Bu da əksər müəllimlərin təhsildə tətbiq olunan yeniliklər və innovasiyalardan xəbərdar olmalarına mənfi təsir göstərir. Əvvəlki illərdə bu sahədə keyfiyyətdən çox, kəmiyyət amilinə üstünlük verilməsi yuxarıda adları sadalanan neqativ halların baş verməsinə gətirib çıxarır (2).

Türk məmləkətlərində və o cümlədən Azərbaycan cəmiyyətində müəllimin statusu XX əsrin ortalarına qədər çox yüksək olub, cəmiyyətin ən hörmətli adamına (yuxarıda qeyd edildiyi kimi) «müəllim» deyiblər. Sonra sui-istifadə halları başlayıb, küt, savadsız, mənəvi cəhətdən qüsurlu insanlar müəllimlik etdikcə bu peşəyə münasibət dəyişib, inversiya baş verib, müəllim hörmətdən düşübdür. XX əsrin əvvəllərində ruhani məktəblərində mollalar dini və mədrəsəni nə qədər hörmətdən salmışdırsa, çağdaş dövrümüzdə müəllimlərin bir qismi təhsili, məktəbi o qədər hörmətdən salıblar. Bizim müəllimləri tənqid atəşinə tutmaq üçün

«Molla Nəsrəddin» jurnalını yolun azmış müəllimləri tənqid etmək üçün təzədən «Müəllim Nəsrəddin» adı altında nəşr etməyə ehtiyac duyulur (10, s. 79).

Təhlil göstərir ki, "öyrədənlər"in əksəriyyəti kifayət qədər peşəkar və səriştəli deyildir, müəllimlərin ehtiyacları lazımi səviyyədə qiymətləndirilmir, mövcud ixtisasartırma proqramları müəllimlərin ehtiyaclarını təmin etmir, fəal təlim texnologiyalarının tətbiqinə yetərincə diqqət yetirilmir, ixtisasartırmanın nəticələrinə görə müəllim fəaliyyəti stimullaşdırılmır (10).

İxtisasartırma təhsili müəssisələrində müəllimlərin ixtisasları üzrə lazımi bilik və bacarıqlara yiyələnməməsi cəmiyyətdə həmin təhsil müəssisələrinə inamın azalmasına və haqlı narazılıqlara səbəb olur. İxtisasartırma təhsilinə hər il on minlərlə müəllim cəlb olunur, xeyli dövlət vəsaiti sərf edilir, lakin bunun müqabilində müəllimlər lazımi bacarıqlar əldə etmirlər, bu kursların bəzilərinin formal olduğunu bilərək ümumiyyətlə ixtisasartırma tədbirlərinə həvəslə gəlmirlər (8).

Doğrudur, Azərbaycan Respublikası Nazirlər kabinetinin 6 sentyabr 2010-cu il tarixli 163 №-li qərarı ilə təsdiq edilmiş «Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası» adlı sənədin qəbul olunması pedaqoji kadrlarda bu sahədə bir çox problemlərin həllində irəliləyişlərin olması ümidini yaradır (6). Lakin yenə də bu sistemdə tətbiq olunan yeni proqramların işlənilməsində rayon təhsil şöbələrinin seyrçi mövqe tutması, bizdə, tətbiq olunan bu yeniliyin də digər yeniliklərdən heç nə ilə fərqlənməməsi təəssüratını yaradır.

Müəllim hazırlığının keyfiyyətinin yüksəldilməsi müəllimim özünün bu peşəyə necə yanaşmasından bilavasitə asılıdır. Yəni ki, müəllim adını daşıyan hər bir insan kimdən və harada işləməsindən asılı olmayaraq öz ixtisasına və peşəsinə dair müxtəlif materialları, ədəbiyyatları, qabaqcıl innovasiyaları, bu sahədə son illərdə xarici dövlətlərin təhsil sistemlərində tətbiq olan yenilikləri daima öyrənməli və gündəlik peşəkar fəaliyyətində tətbiq etməlidir (10). Son illər müxtəlif orta ümumtəhsil məktəblərində apardığım müşahidələr təsəvvürümdə bunun əksi olan bir mənzərəni yaradır. Müəllimlər sanki gözləyi ki, kimsə onlara hazır metodiki vəsaitləri, əyani vasitələri, fənninə dair pedaqoji materialları gətirib çatdırsın. Müəllimin öz üzərində işləməsi, peşəsinə məsuliyyətlə yanaşması problemi isə sanki ən axırıncı plana keçir. Ümumiyyətlə müəllim hər bir dərsə yaradıcı, tədqiqatçı və novator nöqteyi nəzrindən yanaşmalıdır. Çünki heç kim üçün sirr deyil ki, "öyrədən" özü də öyrətmə prosesində daim təkmilləşir, cilalanır, tədris prosesində özü üçün bir çox yeni mətləbləri aşkara çıxarır. Müəllimin növbəti günkü müasir dərsə hazırlaşması prosesi özlüyündə mürəkkəb və kifayət qədər enerji və vəsait tələb edən mürəkkəb bir prosesdir.

Müəllimin dərsə hazırlaşması iki mərhələyə bölünür: ilkin hazırlıq və bilavasitə hazırlıq.

Dərsə ilkin hazırlıq xüsusi pedaqoji və metodik ədəbiyyatın öyrənməsini, fənn üzrə tədris proqramının və onun izahat vərəqinin, dərslik və dərs vəsaitlərini, fənn üzrə müntəxəbatı, didaktik materialları, digər müəllimlərin iş təcrübəsinin öyrənilməsini, müəllimlərin öz təcrübəsini təhlil etməsini, dərslər sistemində bu dərsin yerini müəyyənləşdirməyi nəzərdə tutur (3, s.125).

Dərs ilinin əvvəlində müəllim proqramda hər bir mövzuya ayrılan saatların miqdarını, tədris planında bu fənnə ayrılan həftəlik saatların miqdarını və tədris məşğələlərinin cədvəlini diqqət mərkəzində saxlamaqla, müvafiq təqvim müddətlərini müəyyənləşdirərək, proqramın bütün mövzularının öyrənmə vaxtını bölüşdürür. Müəllim tədris işini tematik planlaşdırmalıdır. Tematik planda dərslərin ardıcıllığı, dərsdə yerinə yetirilən işin əsas bölmələri və növləri, fənlərarası və fəndaxili əlaqələr, informasiya kommunikasiya texnologiyalarının, yeni innovasiyaların tətbiqi, hər bir dərs üçün təchizat qeyd edilir. Bütün müəllimlər üçün vahid və məcburi ola biləcək tematik plan forması müəyyən olunur, çünki bu, tədris fənlərinin və hər bir müəllimin işinin xüsusiyyətlərindən asılıdır (7).

Əksər məktəblərdə müəllim gündəliyinin tərtibinə bir sıra müəllimlər tərfindən etinasız yanaşılma, ona gətirib çıxarır ki, dərsin əvvəlcədən planlaşdırılması prosesinin vacibliyi məsələsi həmin müəllimlər üçün arxa plana keçir. Dərsə əvvəlcədən hazırlıq hər bir dərsə aid tematik planlaşdırmanın dəqiqlişdirilməsini, ayrı-ayrı dərslərin planlarının tutulmasını, mövzuya dair müxtəlif slaydların hazırlanmasını zərurətə çevirir. Dərsin planı, yəni işçi plan əlbəttə ki, hər bir müəllim üçün vacibdir. Bu plan tərtib olunarkən, adətən gələcək dərs proq-nozlaşdırılır, bir növ onun ssenarisi hazırlanır. Məhz bu proses müəllimin əvvəlcədən nəzərdə tutduğu materialın şagirdlər tərəfindən tam mənimsənilməsini təmin edir.

Dərsin uğuru və onun nəticələri heç də yalnız müəllimin hazırlığından deyil, həm də məktəblilərin hazırlığından asılıdır. Bir çox müəllimlər, nədənsə öz praktik fəaliyyətlərində bu məsələyə lazımınca diqqət yetirmirlər. Yeni təlim metodlarının tətbiqi zamanı müəllim sinfin ümumi səviyyəsi nəzərə alınmadan, qrup tapşırıqlarının verilməsində hətta mahiyyətini bəzən izah etmədən belə mürəkkəb priyomlardan istifadə etməyə çalışırlar. Halbuki məktəblilərin dərsə hazırlanmaları onlarda müsbət psixoloji əhval yaradır, yüksək idraki maraq oyadır.

Müasir təlim metodlarına mükəmməl yiyələnməsi, tədris etdiyi fənnə və mövzuya dair əlavə audio-vizual və əyani vasitələrdən istifadə edə bilmək qabiliyyəti, İKT-nin yüksək səviyyədə tətbiqi vərdişi müəllimə tədris prossesində daha effektiv keyfiyyət göstəricilərinə nail olmaq üçün geniş spektrlər açır. Sevindirici haldır ki, son illərdə Şəki, Oğuz və Qəbələ RTŞ-nə daxil olan ümumtəhsil müəssisələrinin əksəriyətində apardığımız sosioloji araş-dırmalar və monitorinqlərin nəticələri göstərdi ki, müəllimlərimizin əksəriyyəti işlərini müasir dünyanın qoyduğu tələblər səviyyəsində qurmağa çalışır, dərslərdə İKT-dən, audio-vizual materiallardan, elmi ədəbiyyatlardan istifadə eməyi artıq özləri üçün vərdişə çevirmişlər.

Açar sözlər: ali təhsil sistemi, təhsil islahatları, milli təhsil konsepsiyası, Boloniya sistemi, dövlət proqramı, standartlar, kurrikulum, «Təhsil haqqında» AR-nın Qanunu.

İstifadə olunmuş ədəbiyyat

1. «2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı» 22 may 2009-cu il, Azərbaycan Respublikası Prezidentinin rəsmi internet səhifəsi. http://www.president.az/

2. Azərbaycan Respublikası təhsil Nazirliyinin 2012-ci ildə görülmüş işlərə dair hesabatı. Azərbyacan Respublikası Təhsil Nazirliyinin rəsmi internet səhifəsi. http://www.edu.gov.az

3. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika: ali məktəblər üçün dərs vəsaiti. Bakı: Renesans, 2000, 202 s.

4. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyasının təsdiq edilməsi haqqında. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 25 iyun 2007-ci il tarixli Qərarı (№102). Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet səhifəsi. http://www.cabmin.gov.az/

5. Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 sentyabr 2008 ci il tarixli Qərar (№ 209). Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet səhifəsi. http://www.cabmin.gov.az/

6. Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2007-ci il tarixli Qərarı (№163). Azərbaycan Respublikası Nazirlər Kabinetinin rəsmi internet səhifəsi, http://www.cabmin.gov.az/

7. İbrahimov F.N. Pedaqoji anlayışların interpretasiyası «sistem-struktur» rakursda, Bakı:

Mütərcim, 744 s.

8. Həsrət A. Müəllimin dərsə hazırlığı. Şəxsi internet səhifəsi http://www.almazhasret.com

9. Mərdanov M.C. Azərbaycan təhsili: yaxın keçmişə, bu günə və gələcəyə bir baxış. "Azərbaycan müəllimi" qəz., Bakı, 14 may 2010.

10. Təhsil haqqında Azərbaycan respublikasının qanunu. Bakı: Qanun, 2010.

11. Əsgərov Ş. Təhsilin fəlsəfi problemləri. «Kainat» elmi-kütləvi publisistik jurnal, №1, 2001, s.16.

12. Əsgərov Ş Təhsilimiz: Dünən, bu gün, sabah. www.shahlarasgerov.com

13. Viksitat, http://az.wikiquote.org/wiki/Aristotel

14. www.azadinform.az/news

15. http://journal.qu.edu.az/articleəpdf/1034ə393.pdf)

16. Артамонова Е.И. Профессиональная подготовка учителей в условиях модернизации образования /Актуальные проблемы образования в условиях его модернизации: Материалы научного симпозиума, 8-9 февраля 2007 г., Лондон. М.: МАНПО, 2007.

17. Марусева И.В. Современные педагогические технологии //Педагогическое образование и наука.

18. Гавров С.Н., Никандров Н.Д. Образование в процессе социализации личности //Вестник УРАО, 2008, №5, с.21-29.

19. Сводная энциклопедия афоризмов. Електронный ресурс. http://dic.academic.ru

20. Принципы творчества от Альберта Эйнштейна. Електронный ресурс. www.adme.ru/citat

21. Prof. Dr. Mahmut Tezcan. Ankara Universitesi Eğitim Bilimleri Fakültesi Yayınları no: 170 Eğitim Sosyolojisinde çağdaş kuramlar ve Türkiye, Ankara Universitesi Eğitim Bilimleri Fakültesi, Ankara, 1993, 124 s.

22. http://pazaryeli.com/Egitim.php

Ибрагим АБДУЛСАЛИМЛИ

ВОПРОС УЛУЧШЕНИЯ КАЧЕСТВА ПОДГОТОВКИ УЧИТЕЛЕЙ

Резюме

В статье автор рассматривает проблему повышения качества подготовки учителей, исследует проекты и научные работы некоторых зарубежных специалистов, а также анализирует указы и документы государства. Он комментирует данные о приоритетных направлениях подготовки преподавателей в зарубежных странах, показывает пути решения проблем и механизмы их реализации на основе социологических исследований.

Ключевые слова: система высшего образования, реформы образования, национальная концепция образования, система Болоньи, государственная программа, стандарты, куррикулум, «Закон об образовании» Азербайджанской Республики.

Ibrahim ABDULSALIMLI

THE QUESTION OF IMPROVING THE QUALITY OF TEACHERS TRAINING

Summary

In the article the problem of improving the quality of teachers' training is considered, the projects and scientific works by some foreign experts are investigated, as well the orders and documents of State are analysed. The author comments the data on priority trends in teachers' training in the foreign countries, shows the ways of solution of the problem and mechanisms of their realization on the basis of sociological studies.

Keywords: system of higher education, reform of education, national conception of education, Bologna system, State program, standards, curriculum, «The law on education» of the Republic of Azerbaijan.

PSİXOLOGİYA BÖLMƏSİ

UOT 159.923.316.6

Sevinc SARIYEVA
doktorant, AMEA FHİ

İNTERAKTİV TƏLİMİN SOSİAL-PSİXOLOJİ ASPEKTLƏRİ*

Müasir təhsil real tələbatlara və beynəlxalq standartlara cavab verən təhsil prosesini qurmağa hazır olmalıdır. Azərbaycan psixoloqu Ə.Əlizadənin fikrincə, "ənənəvi didaktik sistem artıq öz dövrünü yaşayıb. Bu gün yeni pedaqoji təfəkkür dövrü böyük müvəffəqiyyətlə vətəndaşlıq hüququ qazanıb" (4). Təhsil prosesinin aktivləşdirilməsinin effektiv metodlarından biri kimi interaktiv metod qiymətləndirilir. Son illər təhsil sistemimizdə interaktiv təlim metodunun tətbiqinə geniş yer ayrılır. Bu metodun əsas məqsədi tədris prosesində hər bir şagirdə öz fikirini müdafiə etməyi və başqalarına qulaq asmağı öyrənməyə imkan yaratmaqdır.

Müasir dövrdə tədris materialının şagirdlər tərəfindən effektiv mənimsənilməsi nöqteyi-nəzərindən ənənəvi təhsil fərqlənir. Ənənəvi təlimdə müəllim dərsi idarə edir, şagirdlər müəllimin təlimatlarına tabe olan passiv dinləyicilər rolunda çıxış edirlər. Ənənəvi təhsildə şagirdin müəllimlə əlaqəsi yoxlama işləri, testlər, sorğular vasitəsi ilə həyata keçirilir. Ənənəvi modelin əsas xüsusiyyəti odur ki, şagirdlər müəllimin izahından və ya dərsliyin mətnindən materialı əldə etməklə qənaətlənirlər. Burada qarşılıqlı ünsiyyət və yaradıcılıq imkanları məhduddur. İnteraktiv metod idrak fəaliyyətinin stimullaşdırılmasına və şagirdlərin müstəqil olmasına yönəlmiş metoddur. Bu model "şagird-müəllim" sistemində ünsiyyətə, yaradıcıı tapşırıqlara geniş imkan yaradır. İnteraktiv təlim subyekt-subyekt münasibətidir, ikitərəfli informasiya mübadiləsidir. Psixoloji lüğətdə "interaksiya" qarşılıqlı təsir mənası verir (6). Sosial psixologiyada interaksionalizm cərəyanı C.Mid tərəfindən işlənmişdir. O göstərdi ki, şəxsiyyətin inkişafı qrup üzvlərilə birgə fəaliyyət və ünsiyyət prosesində tamamlanır. Başqa insanlarla ünsiyyətdə abstrakt düşünmə qabiliyyəti formalaşır. Qarşılıqlı təsir qrupla, partnyorla münasibətdə, şəxsiyyətlərarası kommunikasiyada, ünsiyyətdə başqasının rolunun qəbul edilməsi, situasiyaya özünün təsir etməsi kimi başa düşülür (1).

İnteraktiv təlim prosesi şagirdin kollektivdə iştirakını zəruri bir şərt kimi nəzərdə tutur. Tədris prosesi qarşılıqlı təsir əsasında alınır. Hal-hazırda təhsildə interaktiv metoddan intensiv istifadə olunur. İnteraktiv təlim qarşılıqlı təsirə, qarşılıqlı anlaşmaya zəmin yaradır. İnteraktiv metod ilə sağlam davranış vərdişlərini, yaradıcılıq bacarıqlarını formalaşdırmağa, dolğun şəkildə dərs materialının mənimsənilməsinə imkan yaradır.

Qeyd edim ki, interaktiv formalardan istifadə vaxtı müəllim yalnız prosesi nizama salır və onun ümumi təşkili ilə məşğul olur, qruplarda müzakirə üçün sualları və ya mövzuları, lazımlı tapşırıqları hazırlayır, nəzərdə tutulmuş vaxta nəzarət edir. İştirakçılar biri-biri ilə ünsiyyətə girərək, birgə qoyulmuş məsələlər ətrafında düşünməyə, münaqişələrin öhdəsindən gəlməyə çalışırlar. İnteraktiv təlim mühitində qarşılıqlı unsiyyət şəraitində yaddaşın məhsuldarlığı artır, daha çox şəxsiyyətin intellektual və emosional xüsusiyyətləri - diqqətin sabitliyi, onu bölmək bacarığı, müşahidəçiliyi, partnyorun fəaliyyətini təhlil etmək, onun motivlərini görmə qabiliyyətinin pozitiv inkişafına imkan yaradır.

İnteraktiv təlimin keçirilməsinin zəruri qaydaları bunlardır:

---

* Məqalə psixologiya ü.f.d., dosent Elxan Bəylərov tərəfindən çapa məsləhət görülüb.

Birinci qayda - bütün iştirakçılar bu və ya digər dərəcədə müzakirə prosesinə cəlb edilməlidir. Bu məqsədlə texnologiyalardan istifadə etmək faydalıdır. *İkinci qayda* - iştirakçıların psixoloji hazırlığına qayğı göstərmək zəruridir. *Üçüncü qayda* - interaktiv texnologiyasında öyrənənlər çox olmamalıdır. *Dördüncü qayda* - yerin hazırlığı. İştirakçılara böyük və kiçik qruplarda tapşırığın icrası vaxtı yerini dəyişdirmək asan olmalıdr. Öyrədilənlər üçün fiziki rahatlıq yaradılmalıdır. *Beşinci qayda* - bütün iştirakçılar istənilən dözümü göstərməli, söz azadlığına malik olmalı, hər kəsin hüququna, onun üstünlüklərinə hörmət etməlidirlər. *Altıncı qayda* - qruplarda iştirakçıların bölməsinə diqqətlə yanaşılmalıdır. Əvvəlcə o könüllülük əsasında tərtib edilməlidir (7).

Qeyd edim ki, şagirdlərin müzakirələrdə iştirakı labüddür. Bu zaman onlarda fikir yürütmək bacarığı inkişaf edir. Kompyüterdən, proyektordan istifadə dərsin səmərəliyini artırır. Qrupda şagirdlərin sayı və təlimin keyfiyyəti düz asılılıqda olmalıdır. Şagirdlərin sayı çox olan qruplarda təlimin keyfiyyəti yüksək olmur. Çünki müəllim bütün şagirdlərə vaxt ayıra bilmir. Zəif oxuyanlar yaxşı oxuyan şagirdlərin kölgəsində qalır.

Təlimin interaktiv formaları yüksək motivasiyanı, biliklərin möhkəmliyini, yaradıcılığı, fantaziyanı, aktiv həyat mövqeyini, qrupun ruhunu, şəxsiyyətin dəyərini, özünü ifadə etməsini, qarşılıqlı hörməti təmin edir. Azərbaycan psixoloqu Z.Veysova tədris məşğuliyyətlərinin keçirilməsinin əsas interaktiv formalarını aşağıdakı kimi müəyyən etmişdir: yaradıcılıq tapşırıqları; kiçik qruplarda iş; müzakirə; oyunlar (rollu oyunlar, təqlidlər), işgüzar oyunlar və maarifləndirici oyunlar; öyrənmə (tədqiqat), söhbət, müzakirə, konkret vəziyyətlərin təhlili, yeni materialın möhkəmləndirilməsi; evristik söhbət; ictimai resurslardan istifadə, məsələyə baxış, videofilmlərin müzakirəsi, ekskursiyalar, tamaşalar, sərgilər; müzakirə və problemlərin həlli ("beyin hücumu", "qərarları ağacı", "hadisələrin analizi", "danışıqlar və mediasiya", "nərdivanlar və ilanlar"); təlimlər (2).

İnteraktiv təlim – müəllimlə şadird arasında qarşılıqlı təsir formasıdır, dərsin gedişatında müəllim və şagirdlər bir-biri ilə qarşılıqlı təsirdə olurlar, şagird daha aktiv düşünməyə yönəldilir. Əgər ənənəvi təhsildə müəllim əsas aparıcı qüvvə idisə, burada isə müəllim və şagirdlər bərabər hüquqdadır.Yəni subyekt-subyekt münasibətindədir. Ənənəvi təhsildə avtoritar stil güman edilirdisə, aktiv təlimdə isə demokratik stil güman edilir."İnteraktiv" sözü "interact" ingilis sözüdür, tərcüməsi "Inter" - "qarşılıqlı", "act" - hərəkət etmək deməkdir. “Qarşılıqlı təsir” – hərəkətin, inkişafın universal və obyektiv formasıdır, istənilən sistemin strukturunu müəyyən edir (8). Qarşılıqlı təsir – insanların ümumi tapşırığın uğurlu həllində biri-birinə təsirini ifadə edir.“Qarşılıqlı təsir” anlayışı yalnız informasiya mübadiləsi deyil, həm də ümumi fəaliyyətdə birgə təsiri reallaşdırmağa imkan verir. İnteraktiv - kimləsə (insan tərəfindən) və ya bir şeylə (məsələn, kompüterlə) dialoq və ya söhbətin rejimində qarşılıqlı təsir etmək qabiliyyətidir. Beləliklə, interaktiv təlim hər şeydən əvvəl, dialoq təlimidir, subyekt-subyekt münasibətidir.

İnteraktiv təlim prosesində şagirdlərin emosional durumlarına diqqət yetirmək lazımdır. Rus psixoloqu L.S.Vıqotskinin fikrincə, «Biz uşaqlarda daha mükəmməl yadda saxlamaya və fikri fəallığa nail olmaq istəyiriksə, hər bir halda bu və ya digər fəaliyyətin emosional baxımdan stimullaşdırılmasının qayğısına qalmalıyıq. Təcrübə və tədqiqatlar göstərir ki, emosional boya kəsb edən faktlar, hadisələr laqeydliklə xarakterizə olunan hadisələrə nisbətən daha yaxşı yadda qalır» (3, s.95). Zənimcə, təlim prosesində müəllim emosional çalarlardan istifadə edərək şagirddə təlimə maraq aşılamalı, təlimə həvəsləndirməli, şagirdin hiss və emosiyalarını, həyacanı anlamalı, ruh düşkünlüyünü aradan qaldırmalı, onlarda təlimə yüksək əhval-ruhiyyə oyatmalı, şagirdlə emosional təmas yaratmalıdır.

İnteraktiv yanaşmanın əsas psixoloji xüsusiyyətinə subyektlərin qarşılıqlı təsiri, iştirakçıların emosional, mənəvi fəallığı aiddir. M.Novik fəal təlimin aşağıdakı xüsusiyyətlərini

qeyd etmişdir: 1) Sagirdlərin istəyindən asılı olmayaraq onların təfəkkürü məcburi fəallaşdırılır; 2) Onların fəallığının qısamüddətli və epizodik deyil, yetərincə dayanıqlı və uzunmüddətli olması; 3) Məsələnin həllinin sərbəst, yaradıcı işlənilməsi; 4) Sagirdlərin yüksək motivasiya və emosional səviyyəsi (3, s.53).

İnteraktiv təlimin səciyyəvi cəhətləri özü-özlüyündə səmərəlidir. Çünki burada müəllim tərəfindən şüurlu surətdə idraki problemli situasiyanın yaradılması; problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması; şagirdlər üçün yeni və zəruri olan biliklərin biliklərin müstəqil kəşfi, əldə edilməsi və mənimsənilməsi üçün şərait yaradır (2, s.11). Fikrimcə, tədqiqatçılıq qabiliyyətinin inkişaf etməsi nəticəsində şagirdlər fikir yürütmək, sual vermək, əməkdaşlıq etmək, kömək etmək, başqasını dinləmək, qarşıya qoyulan məsələlərə yaradıcı və tənqidi münasibət bacarığına yiyələnirlər.

Azərbaycan psixoloqu Ə.Əlizadəyə görə, «interaktiv metodların sosial-psixoloji qatları sosial psixologiya tədqiqatlarının kökündə formalaşıb. Norman Tripletin eksperimentlərinin interaktiv menodikalar üçün sosial-psixoloji effekti belədir: başqa adamların iştirak etdiyi situasiyalarda subyektin fəallığı yüksəlir» (4). Qeyd edim ki, şagirdlər qrupda fəaliyyət göstərirlər. Sosial subyektlər biri-birlərilə qarşılıqlı təsirdə olurlar. Qrup üzvləri arasıda "biz" hissi yaranır, şəxsiyyətlərarası münasibətlər inkişaf edir.

İnteraktiv metodlardan istifadə vaxtı şagird prosesin tamhüquqlu iştirakçısı olur, onun təcrübəsi tədris biliyinin əsas mənbəyi olur. İnteraktiv formalardan istifadə zamanı müəllimin rolu kəskin dəyişir, o yalnız prosesi nizama salır. Müəllim hazır biliklər vermir, şagirdləri sərbəst axtarışa yönəldir. S.L.Rubinşteynə görə, "şagird-müəllim-tədris materialı qarşılıqlı əlaqədə olur və biri-birilərini şərtləndirir" (5, s.66). Qeyd edim ki, ənənəvi təhsil prosesində kommunikasiyanın birtərəfli formasından istifadə olunuraq - informasiya ötürülürdü. Burada müəllimin təcrübəsi təlimin əsas mənbəyidir. Şagird yalnız oxuyur, eşidir, biliyin müəyyən sahələri haqqında danışır. Ənənəvi təlim formasından fərqli olaraq, interaktiv təlimdə müəllimin şagirdə qarşılıqlı təsiri dəyişir: müəllim şagirdlərin fəallığına yer verir, onların təşəbbüsü üçün şərait yaradır. İnteraktiv təlim qarşılıqlı anlaşmanı təmin edir. Fikrimcə, interaktiv təlim prosesində şagirdlərin biri-birilə qarşılıqlı təsirdə olması onlarda qarşılıqlı ünsiyyət imkanı yaradır. Qrup üzvləri anlamalıdır ki, ümumi tədris fəaliyyəti hər kəsə düşünmək, axtarışda olmaq imkanı yaradır. Fəal təlimin əsas tələbi odur ki, şagird fəal olsun, keçirilən mövzuya dair araşdırma aparsın və öz təqdimatını etsin. Müəllim isə problemli situasiyanın həlli zamanı şagirdlərin fəal tədqiqatçı mövqeyinin həvəsləndirilməsinə şərait yaratmalı, yeni biliklərin kəşf edilməsi və mənimsənilməsi üçün şagirdi düzgün yönəltməlidir. P.L.Xonun fikrincə, qrup üzvlərinin müsbət qarşılıqlı aslılığı, bilavasitə qarşılıqlı təsir şagirdlərin birgə işləmək bacarığını, əməkdaşlığı inkişaf etdirir (9). Zənimcə, qrupda müsbət psixoloji iqlim olduqda şagirdlər arasında müsbət emosional münasibətlər yaranır, qarşılıqlı kömək, qarşılıqlı hörmət, qarşılıqlı inam, qarşılıqlı əməkdaşlıq, qarşılıqlı ünsiyyət formalaşır. Yeni yanaşmanın mahiyyəti şagirdlərin yaddaşını yalnız yeni biliklərlə zənginləşmir, həm də təfəkkürün inkişaf etdirilməsi sahəsində daha çox biliklərin əldə edilməsi və mənimsənilməsi, bacarıq və vərdişlərin, şəxsi keyfiyyət və qabiliyyətin qazanılmasına yönəlib (2). Qeyd edin ki, ənənəvi təlimdə hafizəyə üstünlük verilirdisə, interaktiv təlimdə təfəkkürə üstünlük verilir. Fikirləşmək, fikir yürütmək, analiz, sintez etmək, nəticə çıxarmaq, ümumiləşdirmə, müqayisə, müzakirə etmək, məsələyə yaradıcı və tənqidi yanaşmaq bütün bunlar təfəkkürlə əlaqədardır. Mən, 1-6-cı siniflərdə interaktiv təlim prosesində aşağıdakıları müşahidə etmişəm: müəllim dərsə başlayarkən motivasiyadan istifadə edir. Motivasiyada problem yaradır, problemlə bağlı şagirdlər öz fikir və fərziyyələrini irəli sürürlər. Tədqiqatın təşkilində problemin həlli istiqamətində sinfə iş tapşırılır, əvvəlcədən hər qrup üçün işçi vərəqələri hazırlanır. İş formasını müəllim seçir. Məlumatın mübadiləsində verilən tapşırıqla əlaqədar şagirdlər öz aralarında fikir

mübadiləsi aparırlar, müstəqil fikirlər irəli sürürlər. Hər qrupun cavabı eyni olmur. Hansı qrupun cavabının daha dolğun, daha dəqiq olduğunu müəllim qeyd edir. Əgər yanlış fikir varsa düzəliş edir, istiqamət verir, sonra ümumi nəticə çıxarılır. Məlumatın müzakirəsi və təşkilində qrupların liderləri işçi vərəqini lövhəyə yapışdırır, ümumi fikri müəllim və şagirdlərə çatdırırlar. Tətbiqetmə mərhələsində əldə olunan biliklərə əsaslanaraq sinifdə və ya evə verilən tapşırıqlar yerinə yetirilir. Bu mərhələdə kartoçka və testlərdən, texniki vasitədən, proyektordan, kompyüterdəni stifadə edirilir. tədris prosesində hər kəs aktiv iştiraka həvəsləndiririlr, Bununla yanaşı tədris materialının effektiv mənimsəməsinə imkan yaradırlır, əks əlaqə həyata keçirirlir, şagirdlərdə müstəqil fikir yürütmək bacarıqları və münasibətləri formalaşdırılır, öyrədən və öyrənən arasında müsbət münasibətlər demokratik stildə həyata keçirilir. Müşahidələrimə əsasən yuxarıda qeyd etdiyim interaktiv təlimin müsbət cəhətlərilə yanaşı, mənfi cəhəti vaxt çatışmazlığı, qrupda həddən artıq səs-küyün olmasıdır.

Beləliklə, təlimin interaktiv metodu şagirdlərə bilik verməklə yanaşı, həyatda yaşamaq bacarığını - effektiv ünsiyyəti, sərbəst olaraq problemləri həll etməyi, mənfi emosiyaların öhdəsindən gəlməyi, stress vəziyyətlərində özünü aparmağı, qərar qəbul etməyi, həyatda və təhsildə müvəffəqiyyətli ola bilməyi öyrədir. Belə nəticəyə gəlmək olar ki, interakniv metodun tətbiqi təhsili daha maraqlı və məzmunlu edir. Fəal təlim prosesində şagirdlər tənqiqi düşünməyi, mürəkkəb problemləri həll etməyi, alternativ fikirləşməyi, təlimdə uğur qazanmağı, disskusiyada iştirak etməyi, başqa insanlarla ünsiyyətə girməyi öyrənirlər. Təlimə interaktiv yanaşma yalnız bilik prosesinin aktivləşməsinə imkan yaratmır, həm də müasir həyatda uşaqlarda güzəştlərin axtarışını, konstruktiv ünsiyyəti, müşahidə mədəniyyətini, onun potensialını üzə çıxardır.

Elmi yeniliyi: Məqalədə interaktiv təlimin sosial-psixoloji aspektləri təhlil olunmuşdur. İnteraktiv qarşılıqlı təsir sosial-psixoloji fenomen kimi ünsiyyəti inkişaf etdirir, əməkdaşlıq bacarığını formalaşdırır. Şagirdlərin təlimə həvəsini, onların başqa insanlarla qarşılıqlı əlaqələrini formalaşdırmağa imkan verır.

Məqalənin praktik əhəmiyyəti və tətbiqi: Məqalədə əldə edilmiş nəticələrdən sosial və pedaqoji psixologiya üzrə mühazirələrdə istifadə istifadə edilə bilər.

Açar sözlər: interaktiv metod, ünsiyyət, qarşılıqlı təsir.

İstifadə olunmuş ədəbiyyat

1. S.Bayramov, Ə.Ə.Əlizadə. Sosial psixologiya. Qapp-Poliqraf, 2003, 354 s.
2. Z Veysova. Fəal interaktiv təlim: müəllimlər üçün dərs vəsaiti. UNİCEF, 2007, 156 s.
3. B.Əliyev, K.Əliyeva, R.Cabbarov. Pedaqoji psixologiya. Bakı, 2011, 254 s.
4. Ə.Əlizadə, H.Əlizadə. Yeni pedaqoji. Bakı, 2008, 479 s.
5. Ə.Əlizadə, İ.Sultanova. Taksonomiya nəzəriyyəsi və təcrübəsi: müasir məktəbin işıqlı yolu. Bakı, 2008, 172 s.
6. Большой психологический словарь /Сост.: и общ. ред. Б.Мещеряков, В.Зинченко. СПб.: Прайм-ЕВРОЗНАК, 2004, 672 с.
7. Кашлев С.С. Интерактивный метод обучения. М., 2011, 224 с.
8. Суворова Н. Интерактивные обучения – новые подходы. М., 2005, 165 с.
9. Хон Р.Л. Педагогическая психология. Принципы обучения /Р.Л. Хон. М.: Деловая книга, 2002, 736 с.

Севиндж САРЫЕВА

СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ИНТЕРАКТИВНОГО ОБУЧЕНИЯ

Резюме

Статья посвящена интерактивному обучению - относительно новому направлению в образовательном процессе. Рассматриваются его общие характеристики, особенности и дидактические возможности. Внимание уделяется учебному диалогу как основе обеспечения интерактивности.

Интерактивное обучение позволяет одновременно решать несколько задач, главной из которых является достижение целей обучения, развитие коммуникативных умений и навыков. Оно помогает установлению эмоциональных контактов между учащимися, обеспечивает воспитательную задачу, поскольку приучает работать в команде, прислушиваться к мнению своих товарищей.

Ключевые слова: интерактивный метод, отношение, общение, взаимовлияние.

Sevinj SARIYEVA

SOCIO-PSYCHOLOGICAL ASPECTS OF INTERACTIVE METHODS OF EDUCATION

Summary

The article is devoted to a relatively new direction in the educational process – the interactive education. The author considers its general characteristics, pecularities and didactic potential. Particular attention is paid to the educational dialogue as a base of provision of interactivity. Interactive education permits to solve simultaneously several task the main of which is achievement of education objectives, development of the communicative skills and habits. It helps to establish emotional contacts among the studeuts, provides educational task as trains to work in a team, to consider an opinion of their comrad.

Keywords: interactive method, attitud, communication, interaction.

SİYASİ ELMLƏR BÖLMƏSİ

УДК 32:001.8

Анар БАГИРОВ
д.ф. по политическим наукам

ОПРЕДЕЛЕНИЕ МОРАЛЬНО-ПСИХОЛОГИЧЕСКОГО ПОВЕДЕНИЯ ЛИДЕРА В ПСИХОАНАЛИЗЕ*

Изучение природы лидерства уходит глубоко корнями в историю развития философских наук. Это связано с непосредственным отношением его к политическим категориям, какими являются власть и господство. В свое время Геродот, Плутарх и другие античные мыслители ставили в центр исторических повествований действия выдающихся лидеров – монархов, полководцев (14, с.3). Макиавелли рисовал моральный образ лидера - государя, который любыми средствами достигает политических целей (11, с.273). Для Ницше стремление к лидерству - это проявление «творческого инстинкта» человека: лидер вправе игнорировать мораль - оружие слабых (9, с.301; 10, с.446). Для Г.Тарда подражание последователей лидеру – основной закон социальной жизни (12, с.288, 334).

В современной политической науке проблема лидерства переводится в план эмпирических исследований в социальных группах, где за основу принимаются психологические и социально-психологические аспекты. Стоит отметить, что проблема лидерства в психологии изучалась до конца 60-х годов, затем наступил период маарги-нализации этого аргумента. Причина такой научной амнезии кроется в трудоемкости сбора эмпирических результатов и их бесконечности, что препятствует пониманию сущности лидерства (6), а в дальнейшем приводит к сложным процессам социального влияния и их взаимосвязи с когнитивными механизмами вовлеченных субъектов.

В ту пору Лассуэл стал первым, кто использовал биографию в политической науке. Разработанная им методология легла в основу психобиографии, ориентирующейся на изучении бессознательных мотиваций с помощью психоаналитики (5, p.14). В психобиографии применяются элементарные концепции Фрейда для исследования патологии лидера (2, p.61) а также замена психоанализа существующим эклектизмом, соединяющим различные теории личности (7, pp.606-618). Это позволяет нам рассмотреть психические отклонения лидера и соответствующее их влияние на его моральное поведение. Первоначально связь между личностью лидера и психопатологическим явлением изучал Фрейд, а завершил ее Фромм, выдвинув теорию некрофилии, воспользовавшись при этом казусом Гитлера. Исходя из опыта клинических наблюдений, изложенных в работах Фрейда и его последователей, мы попытаемся дать определение морально-психологического поведения лидеров.

Изучив симптомы психических заболеваний, Фрейд пришел к выводу, что патологические феномены возникают на основе процесса вытеснения эмоций, влечений или реакций, неприятных сознательному человеческому «Я», из сферы сознания в подсознательную сферу. Причиной же служит конфликт между природными инстинктами человека и обществом. Ведь сексуальные и агрессивные импульсы присущи

---

* Məqalə fəlsəfə ü.e.d., professor İlham Məmmədzadə tərəfindən çapa məsləhət görülüb.

человеку от природы, они всегда противоречат моральным требованиям и ценностям общества. Теория вытеснения напрямую имеет связь с динамикой морального поведения, поскольку общество требует от человека подавления нежелательных инстинктов и направления их энергии на социально-полезные нужды. Благодаря этому качеству, которое Фрейд назовет сублимацией, человек способен под воздействием общественных требований переключать сексуальные побуждения на другие социально-полезные пути. Когда требования цивилизации превышают по своей силе способность индивидуума к сублимации, тогда и появляются преступники и невротики. В результате конфликт между индивидуумом и социальной средой приводит к болезни личности, к неврозам, в числе которых К.Хорни отмечает «невротическое стремление к власти», всепоглощающую охоту за лидерством, стремление к господству над другими людьми (4).

Выдвинутая Фрейдом теория сублимации играет не последнюю роль в формировании психической неполноценности лидера. Однако, для объяснения патологического поведения лидера недостаточно только одного биологического разъяснения, необходимо пояснить роль социокультурной среды, которая формирует его психологию. Развивая теорию сублимации, Фромм определил систему человеческих потребностей: 1. Потребность в человеческих связях. 2. Потребность в самоутверждении. 3. Потребность в привязанности. 4. Потребность в самосознании. 5. Потребность в системе ориентаций и объекте поклонения. Необходимо внимательно следить за развитием психологической истории личности и изучать отношение между формирующимся индивидуумом и динамикой общества (1, pp. 277-324).

Из отмеченных человеческих потребностей рассмотрим две, которые связаны с лидерством: потребность в самоутверждении и потребность в самосознании. Потребность в самоутверждении может быть удовлетворена либо в процессе творчества, либо в процессе деструктивности. Только творческий способ удовлетворения потребностей может привести к радости и счастью; что же касается деструктивности, то в конечном счете этот способ самоутверждения причиняет огромные внутренние страдания как самому человеку, воспользовавшемуся им, так и окружающим его людям. Потребность в самосознании означает, что лидер осознает свою неповторимую индивидуальность, свое «Я». Благодаря этому он обретает внутреннюю силу и уверенность. Потребность в самоутверждении и самосознании - это стремление компенсировать комплекс неполноценности, о чем гласит теория Адлера: «Уже давно подозревали, что те, кто очень самодоволен и властен, лишь компенсируют комплекс неполноценности. Жажда лидерства рассматривается как страхование от подспудного чувства неполноценности. В элитных группах происходит постоянная ожесточенная борьба между ориентированными на власть людьми. Причем эти люди никогда не довольны своей судьбой, независимо от того, насколько благосклонна к ним фортуна. Жажда власти кажется ненасытной. Тот факт, что высокий социальный статус не умиротворяет их, показывает, что в действительности они недовольны собой как человеческие существа» (15, с.364). Как свидетельствуют исследователи, многие из них открыто признаются в том, что они несчастны.

Несмотря на сложившееся мнение о том, что лидеры обладают большим интеллектом, нежели его последователи, эмпирические исследования демонстрировали значение интеллекта лидера, который был немного выше среднего, чем индивидуума, не обладающего лидерскими качествами. Но этот интеллект должен ограничиваться, так как чрезмерный разум создает преграды при взаимопонимании между лидером и его последователями в вопросах определения общих целей (3). Потому в среднем лидер

обладает большим рассудком, но необязательно должен быть интеллигентней всех вместе взятых (6).

Сублимация и человеческие потребности определяют патологические изменения психики лидера в зрелом возрасте, в процессе интеграции (взаимодействия) с окружающей его социокультурной средой. Однако истоки надо искать в раннем возрасте, когда искаженно сформированная детская психика извращает в зрелом возрасте человеческие потребности и сублимацию. Этим началом является «комплекс Эдипа», или инцест. По Фрейду, подавление либидо может переходить в стремление к лидерству. Массы нуждаются в авторитете, аналогичному авторитету отца семейства. Ребенок, живущий под гнетом отца-тирана, защищает себя, развивая механизм повиновения, который становится источником мазохистского удовлетворения. Жизнь ставшего взрослым человека продолжает определяться защитными механизмами, сформированными в рамках реакций на отца, выступавшего по отношению к нему в качестве враждебного социального агента. Такой человек получает удовлетворение, когда подчиняется начальнику, политическому лидеру, когда обнаруживает тенденцию быть конформистом. Холмс, опираясь на инцест, объясняет «законное лидерство», базирующееся на определенных этических нормах. «Сын пытается узурпировать место отца, избегая возмездия со стороны отца и братьев. Если он незаконно узурпирует лидерство, его может в будущем постигнуть та же судьба: поэтому он подчиняет себя определенным групповым нормам морали. Исходя из «комплекса Эдипа», Холмс делает вывод о необходимости того, чтобы «отношения лидер-масса освящались чем-то – законом, Богом, общественным мнением или чем-то в этом духе (8, с.84).

Инцест может быть доброкачественным или злокачественным. Доброкачественная инцестуальная фиксация проявляется в виде теплой, эротической привязанности к матери. Злокачественная инцестуальная фиксация есть результат нарушения эмоциональной связи с матерью, которая развивается вследствие детского аутизма, т.е. психопатологического явления, когда ребенок не в состоянии отличить одушевленные предметы от неодушевленных; он воспринимает человека в форме неживой материи. Таким образом, «доброкачественная инцестуальная фиксация является нормальной переходной стадией в индивидуальном развитии, в то время как злокачественная инцестуальность – это ярко выраженная патология, возникающая в тех случаях, когда какие-то условия не дают сформироваться доброкачественным инцестуальным связям» (13, с.175). Отсюда Фромм делает вывод, что злокачественная инцестуальность является одной из причин некрофилии, а, может быть, и вообще главной ее причиной. Психопатологические отклонения (некрофилия) объясняются лишь одной злокачественной инцестуальносью, но это только биологическая сторона. Согласно Фромму, инцест - это лишь углубленная теория фрейдовского «комплекса Эдипа». В объяснении некрофилии Фромм отходит от принципов социологизма, отличающего фрейдизм от неофрейдизма.

Исходя из приведенных теорий, можно сделать следующий вывод: морально-психологическое поведение лидера – это результат влияния злокачественной или доброкачественной инцестуальной фиксации на его психику (сознание) и как вследствие этого - негативная или позитивная система потребностей, приводящая к изменению степени сублимации. Следовательно, полноценный лидер в морально-психологическом плане - это лидер, который переводит из сознательной сферы в подсознательную чувство неуверенности, бессилия и беспомощности перед экзистенциальной проблемой; иначе его можно компенсировать деструктивностью, стремлением человека уничтожать, разрушать все то, что существует вне его как внешняя причина его тревожного внутреннего состояния.

В истории человечества мы не раз сталкивались с лидерами, наделенными комплексом неполноценности, в характере которых превалировала деструктивность (Гитлер, Пол Пот). Глубоко изучив эту аномалию человеческого сознания и избавившись от нее, мы сделаем мир более гуманным. Ради этого нам стоит жить.

Ключевые слова: лидер, лидерство, психоанализ, сублимация, «комплекс Эдипа», психобиография, деструктивность, инцест, некрофилия, патология.

Список использованной литературы

1. Abrams P. Sociologia storica, Il Mulino, Bologna, 1983.
2. Besançon A. Storia e psicoanalisi, Guida, Napoli, 1975.
3. Gibb C.A., «Leadership", in G. Lindzey and E.Aronson (eds.), Handbook of Social Psychology, Addison-Wesley, Reading (Mass.), 1968.
4. Horney K., M.D. The Neurotic Personality of our Time, W.W.Norton & Company, N.Y., London 1937, Part.10.
5. Lasswell H.D., Potere, politica e personalita, UTET, Torino, 1975, p.14.
6. Stogdill R.M., Handbook of Leadership, The Free Press, New York, 1974.
7. Tucker R.C., The Georges' Wilson Reexamined: an Essay on Psycobiography, in The American Political Science Review, 71 (1977), n.2, pp. 606-618.
8. Ашин Г.К. Критика современных буржуазных теорий о роли народных масс и личности в истории. М.: «Высшая школа», 1973.
9. Ницше Ф. Воля к власти: Опыт переоценки всех ценностей. М., 1995, с.301.
10. Ницше Ф. Избранные произведения. Кн. 1., М., 1990.
11. Макиавелли Н. Государь. СПб., 2000.
12. Тард Г. Социальная логика. СПб., 1996.
13. Фромм Э. Адольф Гитлер. Клинический случай некрофилии. М.: «Прогресс», 1992.
14. Шевелев В.Н. Социология управления. Учебное пособие. Ростов на Дону, 2004.
15. Шибутани Т. Социальная психология. М.: «Прогресс», 1969.

Anar BAĞIROV

LİDERİN ƏXLAQİ-PSİXOLOJİ DAVRANIŞININ PSİXOANALİZDƏ MÜƏYYƏN EDİLMƏSİ

Xülasə

Liderlik problemi qədim dövrlərdən bəri fəlsəfi elmlər sahəsində təhlil obyektinə çevrilmişdir. Liderliyi müəyyən etmək üçün tez-tez psixoanaliz elementlərinə də müraciət edilir. Təqdim olunan məqalədə liderin əxlaqi-psixoloji davranışının yalnız psixoanaliz kateqoriyalarından istifadə yoluyla xarakterizə edilməsinə çalışılmışdır.

Açar sözlər: lider, liderlik, psixoanaliz, sublimasiya, Edip kompleksi, psixobioqrafiya, destruksiya, insest, nekrofiliya, patologiya.

Anar BAGHIROV

DEFINITION OF THE MORAL AND PSYCHOLOGICAL BEHAVIOR OF THE LEADER IN PSYCHOANALYSIS

Summary

Leadership has been the object of study in the philosophical sciences since ancient times. To determine the leadership in social and political sciences they often resort to the elements of psychoanalysis. In the given article, we will attempt to define the moral psychological behavior of leader using only the categories of psychoanalysis.

Keywords: leader, leadership, psychoanalysis, sublimation, Oedipus complex, psycho-biography, destruction, incest, necrophilia, pathology.

UOT 32.303.4

Elnur HACALIYEV
b.e.i., siyasi e.ü.f.d., AMEA FHİ

QLOBALLAŞMANIN SOSİAL-SİYASİ ASPEKTLƏRİ*

XX əsrin ikinci yarısında bəşəriyyət elə problemlərlə üzləşdi ki, o, sivilizasiyanın, bütün xalqların mənafeyinin ən dərin əsaslarına toxunur. Onların kəskinləşməsi insanın fəaliyyətinin nəticəsidir və bu problemlərin həlli məhz dərk edilmiş və məqsədyönlü fəaliyyətlə bağlıdır. Meydana çıxan problemlərin qlobal xarakteri onların bütün ölkələrin və xalqların birgə səyləri ilə həllini tələb edir.

Qlobal problemlər müasir dünyanın sosial, iqtisadi, siyasi ziddiyətləri ilə üzvi əlaqə kəsb etməklə və qovuşmaqla müxtəlif siniflərin, sosial qrupların, siyasi partiyaların, ictimai hərəkatların və b. maraqlarına toxunur. Onlar aydın şəkildə siyasi çalarlar ifadə edir və bunların həlli daha çox siyasi sferaya istiqamətlənir, bir sözlə qlobal problemlər sosial-siyasi aspekt kəsb edir. Müəyyən mənada hətta qeyd etmək olar ki, qloballaşma müxtəlif dövlətlərin, partiyaların, siniflərin, hərəkatların siyasi kurslarının və məqsədlərinin toqquşduğu sahəyə çevrilir (1, s.150-151).

Qloballaşma dedikdə nə başa düşülür: o, müasir dövrün yeni meyldirmi, yoxsa siyasi inqilab dövrünə aiddir? Bu sualı cavablandırmaq prinsipial xarakter daşıyır. Strateji geosiyasət, müasir dövlətlərin milli oriyentasiyası, daxili və xarici siyasətin konseptual formalaşması xeyli dərəcədə ondan asılıdır. Tədqiqatçılar qloballaşmanı müxtəlif tarixi zaman kəsiyindən hesablayırlar. Bəzi müəlliflər, məsələn, M.Uoters hesab edir ki, bu baxımdan onun başlanğıcı XVI əsrə aid edilə bilər.

H.Lentner əminliklə bildirir ki, qloballaşma XIX əsrin sonundan müasir industriyanın, nəqliyyat və kommunikasiyanın yeni texnologiyalarının inkişafı, beynəlxalq əmtəə mübadiləsinin inkişafı və kapital axını, müasir tipli miqrasiyadan başlanmışdır. R.Robertson qeyd edir ki, qloballaşma dünya dinlərinin təzahürü ilə müqayisə edilə bilər.

Beynəlxalq münasibətlərə aid tədqiqatlarda qloballaşma soyuq müharibə dövrünün başa çatması ilə əlaqələndirilərək iddia edilir ki, qloballaşma o zaman başlanır ki, dünya Şərq-Qərbin və ya Şimal-Cənubun birqütblü strukturu kimi dərk edilir, transmilliləşmənin sürətlənməsi və ölkələrin qarşılıqlı asılılığının güclənməsi baş verir (2, s.14-18).

Beynəlxalq siyasi elmdə qloballaşmaya dair müxtəlif nöqteyi-nəzərlər mövcuddur. Məsələn, realist paradiqmanın tərəfdarları qloballaşmanı S.Hantinqtonun «sivilizasiyaların toqquşması» ruhunda başa düşürlər. Neoliberallar qloballaşmanı «tarixin sonu» (F.Fukuyama) kimi nəzərdən keçirirlər. Yeni marksistlər qloballaşmanı inhisarçı kapitalın və Amerika imperializminin məqsədyönlü strategiyası kimi izah edirlər.

F.A.Sıqankov hesab edir ki, qloballaşmanın məzmunu dünya kapitalizminin siyasətini əks etdirir və o, «imperializm» terminini əvəzləyir. K.S.Hacıyevin fikrincə, qloballaşma çoxlu sosial, iqtisadi, mədəni, siyasi və digər münasibətləri və əlaqələri nəzərdə tutur ki, onlar da ümumdünya xarakteri daşıyır.

Ümumiyyətlə, qloballaşma nəzəriyyəsinin işlənib hazırlanmasında E.Yiddens, M.Uoters, R.Robertson, H.Hondker və başqaları böyük rol oynamışlar. Qloballaşma konsepsiyasının formalaşmasına İ.Vallerstaynın dünya sistemi yanaşması müəyyən töhfə bəxş etmişdir. Onun

* Məqalə tarix ü.e.d., professor Həsən Əlibəyli tərəfindən çapa məsləhət görülüb.

elmi təhlilinin başlıca obyekti dünyanı vahid bütövlük kimi açıqlaması olmuşdur ki, bu da qloballaşmaya ölkə və region həddindən kənarda diqqət yetirilməsini nəzərdə tutur.

Müxtəlif siyasi qüvvələrin ideoloqları öz ictimai fəaliyyətində qlobal problemlərdən öz ideya-siyasi məqsədləri baxımından istifadə etməyə cəhd edərək tərəfdarlarının böyük hissəsini özlərinə cəlb etməyə çalışırlar. Qeyd etmək lazımdır ki, qlobal problemlərin mahiyyətini nəzərdən keçirərkən heç bir halda müxtəlif doktrinaların ideya-siyasi birliyi haqqında mülahizələr yürütmək olmaz. Bu problemin həllində maraqlı olan xeyli siyasi partiyalar, ictimai təşkilatlar və hərəkatlar öz siyasi doktrinalarını işləyib hazırlayarkən, qlobal problemlərin həllinə aid proqramlar irəli sürürlər. Qlobal problemlərin həllində sosial-siyasi amillərin üstünlüyünün dərk edilməsi qloballaşmanın xeyli ölkədə nəinki elmi biliklərin xüsusi sahəsi, eləcə də dövlətin siyasətinin mühüm istiqaməti kimi dəyərləndirilməsinə imkan yaratdı.

XXI əsrə qədəm qoyan bəşəriyyət uğurlu gələcək naminə keçdiyi inkişaf yoluna diqqət yetirməli, keçmişə bu günkü sivilizasiyanın mövqeyindən, modernləşmənin perspektivindən tənqidi münasibət bildirməli və yer üzündə xoşbəxt həyatın bərqərar edilməsi üçün düzgün nəticə çıxarmalıdır. Bunu son yüzillikdə dünyada baş verən dərin kəmiyyət və keyfiyyət dəyişiklikləri daha çox şərtləndirir. Əlbəttə, bununla bağlı dünya dövlətlərinin, xüsusilə də, böyük dövlətlərin üzərinə böyük məsuliyyət düşür.

XX əsr tarixə böyük, qlobal hadisələr dövrü kimi daxil olmuşdur. İki dünya müharibəsi, ölkələrin müəyyən qismində baş verən sosial inqilablar, müstəmləkə sisteminin və sonuncu imperiyanın (SSRİ-nin) dağılması, bəzi ölkələrdə (İtaliyada, Almaniyada) faşizmin məhvi və sosializmin süqutu XX əsrin mahiyyətini səciyyələndirən böyük hadisələrdir.

Əlbəttə, yaşadığımız dövr eləcə də bəşəriyyətin taleyində böyük uğurlarla yadda qalıb. XX əsrin ikinci yarısından başlayan elmi-texniki inqilab məhsuldar qüvvələrin inkişafında köklü dəyişikliklər doğurmuşdur. Bununla yanaşı, elmi-texniki inqilab bəşəriyyətin həyatı üçün narahatlıq yaradan müəyyən qlobal problemlərin təzahürünə təsir göstərmşidir.

Dünya birqütblü struktura yaxınlaşmışdır və burada mərkəzi mövqeyə yeganə fövqəldövlət sayılan ABŞ iddialıdır. Lakin beynəlxalq siyasətdə gündəmdə yeni dünya qaydaları haqqında məsələ durur. Bu məsələ təxminən XX əsrin 90-cı illərindən etibarən sürətlənən qloballaşma prosesinin təsiri sayəsində formalaşır. «Qloballaşmanın əhəmiyyətli cəhəti bütün dünya miqyasında formalaşan, sadəcə, maliyyə və informasiya bazarı deyildir, məhz maliyyə-informasiya məkanıdır ki, burada yalnız böyük dərəcədə kommersiya fəaliyyəti deyil, eləcə də bəşəri fəaliyyət həyata keçirilir» (3, s.133-134).

«Qlobal problemlər» termini elmi ədəbiyyatda XX əsrin 60-cı illərinin sonundan etibarən işlədilir. Qlobal problemlərin özü isə daha əvvəllər yaranmışdır. Artıq 1950-ci illərin sonlarında qlobal ekoloji problem kifayət qədər aydınlığı ilə təzahür edir. XX əsrin dünya müharibələri, 1940-50-ci illərin hüdudlarında raket-nüvə silahının yaradılması bəşəriyyətin məhvi təhlükəsini yaratdı. Bu baxımdan hazırda bütün sivilizasiyanın qorunub saxlanması başlıca əhəmiyyət kəsb edir. Mövcud reallıqdan çıxış edərək hesab etmək olar ki, elə problemləri qlobal hesab etmək olar ki, bəşəriyyətin ictimai tərəqqisini ləngidir, müəyyən şəraitdə isə sivilizasiyanın mövcudluğunu şübhə altına alır. Bu anlayış xeyli genişdir, lakin onun əsasında qlobal problemlərin daha xarakterik cəhətlərini formalaşdırmaq olar:

- həmin problemlər ümumbəşəri xarakter daşıyır, başqa sözlə, bütün ölkələrin və xalqların maraqlarına toxunur, perspektivdə isə bütün bəşəriyyətin;
- insan cəmiyyətinin bütün tarixi ərzində daxili səbəblərdən eyni vaxtda baş verir, lakin müəyyən dövrə qədər onlar bütün kəskinliyi ilə təzahür etmir və onların inkişafı həmişə nəzərə çarpmır;
- müasir şəraitdə ümumdünya xarakteri daşıyır, çünki onların fəaliyyət sferasını ilk dəfə bütün planet təşkil edir;

- kompleks, sistemli xarakter daşıyır və uğurlu həlli üçün bütün ölkələrin və xalqların birgə səyi zəruruidir;

- daim inkişaf edən zaman və məkan nəticəsində yeni qlobal problemlər təzahür edir və bəziləri aradan qalxa da bilər;

- həm yaranması səbəbləri baxımdan və eləcə də təzahürü xarakterinə görə qarışıq sosial-təbii mahiyyət daşıyır.

Beləliklə, qlobal problemlər sosial-təbii problemlərin məcmusu olmaqla, bəşəriyyətin sosial tərəqqisi və sivilizasiyanın saxlanması onların həllindən asılıdır, bu problemlər dinamizmi ilə səciyyələnir, cəmiyyətin inkişafının obyektiv amili kimi yaranır və öz həlli üçün bütün bəşəriyyətin birgə səylərini tələb edir. Qloballaşma şəraitində beyənlxalq əməkdaşlığın bütün subyektləri dövlətlərlə yanaşı, beynəlxalq əməkdaşlıqda müxtəlif legitimliyə, müxtəlif insanlara, maraqlara malik olan transmilli firmalar, banklar, maliyyə qrupları, müxtəlif peşəkar birləşmələr və s. iştirak etməlidirlər.

Müasir dövrün qlobal problemləri bəşəriyyətin indiki inkişaf mərhələsi üçün nə isə yeni bir hadisə deyildir, məhz əvəllər «insan-cəmiyyət-təbiət» sistemində mövcud olan ziddiyyətlərin hazırkı şəraitdə görünməmiş dərəcədə kəskinləşməsi və dərinləşməsi kimi səciyyələnir. Buna görə onların hərtərəfli təhlili üçün elə səbəblərin aydınlaşdırılması zəruridir ki, məhz bu problemlərin aktuallaşmasına imkan yaratsın. Müasir qlobal problemlərin kəskinləşməsini iki qarşılıqlı əlaqədə olan proses şərtləndirir. Bu, bir tərəfdən, məhsuldar qüvvələrin və istehsal münasibətlərinin təkmilləşməsi və inkişafının, eləcə də cəmiyyətin maddi mədəniyyətinin inkişafının nəticəsidir. Digər tərəfdən, qlobal problemlərin yaranması və dərinləşməsi sosial tərəqqi ilə şərtlənir. Qlobal probemlərin yaranmasının bu iki başlıca səbəbi həmçinin onların dərinləşməsini şərtləndirdi. Əgər insan cəmiyyətinin inkişafının ilk mərhələlərində bu iki proses lokal, sonralar regional xarakter daşıyırdısa, müasir şəraitdə qlobal xarakter kəsb edir.

Bundan əlavə, müasir sivilizasiyanın inkişafı xeyli əhəmiyyəli proses və hadisələrin ümumdünya xarakterinin güclənməsi əlaməti ilə müşahidə olunur. Elmi biliklərin tarixdə görünməmiş səviyyəsi və miqyası, elmi-texniki inqilabın sürətli inkişafı «insan-cəmiyyət-təbiət» sistemində münasibətlərin dinamik inkişafına imkan yaratdı. Əlbəttə, bəzən də qlobal ziddiyyətlərin kəskinləşməsinə imkan yaradır.

Bütün qlobal problemlər bir-birini qarşılıqlı şərtləndirən əlaqəyə malikdirlər. Hər bir qlobal problem öz-özünə yox, məhz qlobal problemlərin bütün sisteminin "elementi" kimi çıxış edir. Müasir dövrün qlobal problemlərinin sistemli xarakteri onların kompleks tədqiqini tələb edir. Qlobal problemlərin sistemli bütövlüyü eləcə də müəyyən biliklər sistemini nəzərdə tutur ki, bu da ümumi şəkildə qlobalistika adlanır.

Qlobal problemlərin qarşılıqlı əlaqəsi və qarşılıqlı asılılığı onların tipologiyasını müəyyənləşdirir. Qlobal problemlərin əsas qrupları başlıca sosial birliklər arasındakı münasibətlərlə, eləcə də insanla təbiət və insanla cəmiyyət arasındakı münasibətlə şərtlənir. Qlobal problemlərin tipoloji variantının əsaslandığı konsepsiyalardan L.N.Samoylovun konsepsiyası maraq doğurur. Bu konsepsiya əsasında qlobal problemlərin tipologiyasına aşağıdakılar aiddir:

- I qrup: - Müasir superqlobal (ümumdünya qlobal) problemlər. Onlar bəşəriyyətin daha da tərəqqisi tələblərinə uyğun olaraq, beynəlxalq münasibətlərin yenidən qurulması ilə bağlıdır. Bunlara aiddir: dünya raket-nüvə müharibəsi probleminin qadağan edilməsi, yeni dünya qaydalarının təşkili (bərabərhüquqlu və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərinə əsaslanan), iqtisadi inteqrasiyanın inkişafı və s.

- II qrup – Ümumplanetar (resurslara əsaslanan) qlobal problemlər. Onlar cəmiyyətin təbiətə münasibətdə optimallaşması, harmoniyalaşması və humanistləşməsi problemi ilə bağlıdır. Bunlara aiddir: ekoloji problemin bütün təzahürləri, demokratik enerji, ərzaq problemləri, kosmosdan istifadə problemi və s.

- III qrup. – Ümumbəşəri (subqlobal) problemlər – sosial-mədəni, humanitar xarakterli, cəmiyyət və şəxsiyyət münasibətinin demokratikləşməsi ilə bağlılığı baxımdan səciyyələnir. Bura istismarın, yoxsulluğun və sosial qeyri-bərabərliyin digər formaları probleminin aradan qaldırılması problemi, səhiyyə, təhsil problemi, insan hüququna təminat və s. aiddir.

Avropa elmində «qloballaşma» termini əhəmiyyətli yer tutur. Qloballaşma həyata xüsusi elmi istiqamət – qlobalizm bəxş etdi. «Qlobalizm» termini bəşəriyyətin yaşaması ilə bağlı olan siyasi strategiyanı təcəssüm etdirmək üçün istifadə edilir. Ayrıca elmi sahə kimi, məhz qlobalistika təşəkkül tapdı. Yeni bilik sahəsi olmaq etibarilə, qlobalistikada qlobal modelləşdirmə və proqnozlaşdırma başlıca yer tutur. Qloballaşma milli dövlət sərhədlərinin silinməsi prosesini və maneəsiz olaraq yüksək inkişaf etmiş ölkələrin kapitalının, əmtəə mallarının, xidmət sahəsinin, ideya və mədəni standartların bir-birinə nüfuz etməsi kimi səciyyələnir (4, s. 458).

Xarici elmi ədəbiyyatda qloballaşmanın üç dalğası nəzərə çatdırılır. Birinci dalğa XV və XVI yüzillikləri, ikinci dalğa XIX əsrin ikinci yarısını, üçüncü dalğa isə SSRİ-nin dağılmasından sonrakı dövrü əhatə edir. Qloballaşma yolunda xeyli maneələr aradan qaldırıldı, lakin bəşəriyyət üçün onun nəticələrini proqnozlaşdırmaq çətindir.

Xarici ədəbiyyatda qloballaşma fenomeninə müxtəlif yanaşmalar mövcuddur: qloballaşma dünya bazarı kimi, əlaqələndirici kimi, modernləşmə və «detradisionalizm» kimi, homogenləşmə və ya hibridləşmə kimi. Bu yanaşmalar nə qədər müxtəlif məntiqi zəminə əsaslanırsa, bir o qədər müəyyən mövcud aspektlərin göstəricisi kimi nəzərdən keçirilməlidir. Bu baxımdan həmin yanaşmaları şərti olaraq üç cür müəyyənləşdirmək olar. Birinci yanaşmanı «inqilabi» adlandırmaq olar, bu mövqedən qloballaşma dərin tarixi kökə və uzun tarixi perspektivə malik olan proses kimi açıqlanır. Bu yanaşmanın tərəfdarları hesab edirlər ki, elektron vasitələrinin və kommunikasiyanın inkişafı, yüksək texnologiyalar «yeni iqtisadiyyat» doğurur və onlar bu prosesi «informasiya inqilabının» qloballaşma dövrü adlandırmağa meyil edirlər (5, s. 1).

Buna görə birinci yanaşmanın tərəfdarları qloballaşmanı elə modernləşmə kimi açıqlayırlar ki, bu, fərdlər, sosial qruplar və sosial təsisatların öz məqsəd və maraqlarının reallaşması üçün müqayisəolunmaz daha geniş seçim imkanı təmin edir, onlar ənənələrlə bağlı olan öhdəliklərdən xeyli azad olurlar. Bu yanaşmanın istiqamətlərindən biri olan «detradisionalizm» qloballaşmanı dünya bazarını stimullaşdıran fenomen kimi nəzərə çatdırır. «Optimallıq» kimi səciyyələnən digər istiqamət isə hesab edir ki, qloballaşma xalqların tədricən yaxınlaşması, onların iqtisadi və sosial inkişaf səviyyəsinin tarazlığı, demokratiyanın möhkəmlənməsi, qərarların qəbulu prosesinin optimallaşması üçün maddi zəmin hazırlayır.

«Təkamül» adlanan ikinci yanaşma belə bir tezisdən çıxış edir ki, qloballaşmanın indiki formaları hər şeydən əvvəl mədəniyyətin texnokratik oriyentasiyası ilə şərtlənir; özündə qeyrisabitlik, ölkələrin və xalqların əksəriyyəti üçün təhlükəli olan xeyli amillərin mənbəyini gizli saxlayır, siyasətdə, sosial sferada və idarəetmə formalarında dəyişikliklərin stimuluna səslənir. Bu, dünya qaydalarını dağıdır və nəticədə bəşəriyyətin yaşaması və planetimizdə həyatın saxlanması üçün əvvəllər mövcud olmayan problemlər yaranır.

Təkamül yanaşma tərəfdarları qloballaşmanın başlıca problemlərini aşağıdakı kimi fərqləndirirlər:

1. Qloballaşma prosesinin qeyri-bərabər inkişafı müasir dünyaya yekcins olmayan forma təlqin edir, xeyli ölkələrdə daxili ziddiyyətləri gücləndirir.

2. Müasir dünyada zəngin və yoxsul ölkələr arasında qeyri-bərabərlik güclənir və özündə beynəlxalq münaqişələrin və beynəlxalq terrorizmin səbəbinin potensial səbəbini gizlədir.

3. Transmilli korporasiyalarla milli dövlətlər arasında ziddiyyətlər kəskinləşir, bu isə sosial və iqtisadi siyasətin həyata keçirilməsi ilə bağlı məsuliyyəti artırır.

4. Qlobal iqtisadi və siyasi məkanda narkotik maddələrin, silah və s. istehsalı və yayılması üzrə transmilli sindikatlar formasında «kölgə» aktorlarının təzahürü, eləcə də cinayətkar qruplaşmaların və beynəlxalq terrorçu təşkilatların sayı artır.

Beləliklə, qloballaşma nəinki xalqların əməkdaşlığı üçün yeni imkanlara malik olan, həmçinin dünya inkişafına, dünya iqtisadi və siyasi sisteminin sabitliyinə neqativ təsir göstərən ziddiyyətli prosesdir.

Qloballaşma prosesini müəyyənləşdirməyə aid üçüncü yanaşma-pessimist, skeptik mövqe iddia edir ki, qloballaşma obyektiv ümumdünya prosesi deyil, məhz xalqların əksəriyyətinin maraqlarına cavab verməyən subyektiv prosesdir. Bu yanaşmanın tərəfdarları qloballaşmanı birtərəfli proses kimi vurğulayırlar, mədəni imperializm, bir mədəniyyətin digər mədəniyyət üzərində üstünlüyü kimi şərh edirlər. Onlar hesab edirlər ki, qloballaşma prosesi vesternizasiya (qərbləşmə) və ya amerikalaşmadır, başqa sözlə, bütün dünyada daha güclü dövlətin dəyərlərinin, həyat formasının yayılmasıdır.

İndiki şəraitdə bəşəriyyəti daha çox düşündürən ən mühüm qlobal siyasi problemlərdən birincisi, yeni dünya müharibəsi təhlükəsinin mövcudluğu və bu məqsədlə kütləvi qırğın silahlarının toplanması və təkmilləşdirilməsidir. Dövlətlər və xalqlar arasında müharibələrin labüdlüyünü şərtləndirən səbəblər haqqında xeyli nəzəriyyə və təsəvvürlər olduğuna baxmayaraq, bu ciddi məsələyə aid iki əsas fikir istiqaməti mövcuddur.

Bəzi sosiolqlar və politoloqlar insan cəmiyyəti tarixində müharibələrin səbəbini ilk öncə, xarici şəraitlə, kənar amillərlə əlaqələndirirlər. Digər alimlər isə xalqlar arasında müharibələrin zəruriliyini insanın öz təbiəti ilə, onun zorakılığa və irticaçılığa cəhd etməsi ilə izah edirlər. Ümumiyyətlə, müharibələrin labüdlüyünü ancaq xarici şəraitdə və insanın təbiətində axtarmaq səyləri birtərəfli, məhdud xarakter kəsb edir. Elə buna görə də sosioloqlar müharibə və münaqişələri törədən səbəbləri daha geniş və əhatəli səpkidə araşdırmağı daha düzgün və məqsədəuyğun sayırlar.

Hazırda dünyanın bəzi böyük dövlətlərinin dəhşətli dərəcədə dağıdıcı müasir silahlara, ilk öncə istilik nüvə silahına malik olması bütün ölkələr üçün əsl təhlükəli şərait yaratmışdır. Nüvə silahına malik olmayan ölkələrin indi adi silahların köməyilə öz təhlükəsizliyini təmin etməsi mümkün deyildir. Dünyada sülhə, təhlükəsizliyə yalnız ölkələrin birgə səyləri sayəsində nail olmaq mümkündür.

Təəssüf ki, son zamanlar sürətlə silahlanmaya sərf edilən xərclər xeyli artır. Hazırda dünyada hərbi xərclər bir il ərzində 1 trilyon dollar təşkil edir. Dünya alimlərinin yarısından çoxu yeni kütləvi qırğın silahı yaratmağa cəhd edirlər (6, s. 364).

Maraqlıdır ki, nüvə silahının mövcudluğunu dünya müharibəsinin qarşısını almaq kimi qiymətləndirən təsəvvürlər də yayılmışdır. Nüvə silahının yaranmasını «tarixi zərurət» kimi əsaslandırmaq cəhdləri təcavüzkarlıq niyyətlərini ört-basdır etmək səylərindən başqa bir şey deyildir. Qeyd edək ki, nüvə silahını dünya müharibəsinin qarşısını almaq üçün etibarlı vasitə hesab edən konsepsiya ABŞ-ın hərbi nəzəriyyəçiləri tərəfindən işlənib hazırlanmışdır.

Siyasətlə qlobal problemlərin əlaqəsi həmçinin ekoloji problemlərin həlli nümunəsində də kifayət qədər araşdırılır (dövlətin ekoloji siyasətinin həyata keçirilməsi kontekstində). Dövlətin ekoloji siyasətinin formalaşmasına hər şeydən əvvəl iri kapitalın «təzyiq qrupları» əhəmiyyətli təsir göstərir.

Siyasi məkana ilk öncə ekoloji hərəkatın, sonra isə siyasi partiyaların nüfuz etməsi ekoloji siyasətin formalaşmasında yeni mərhələnin başlancığı oldu. Seçkiqabağı kampaniyalarda təbiətin qorunması zərurəti ilə bağlı şüarların səsləndirilməsi, «ekoloji» nümayişlərin və mitinqlərin keçirilməsi ekoloji problemlərin siyasi proseslərə nüfuz etməsinin təzahürüdür.

Beynəlxalq siyasətdə bu qarşılıqlı əlaqə «ekoloji» yeni müstəmləkəçilikdə, «ekoloji» standartların idxalında, ekoloji problemlərin «ixracında» təzahür edir. İndiki şəraitdə tam

əsaslandırılmış səviyyədə belə bir mülahizə yürütmək mümkündür ki, siyasətin sosial-mədəni, humanitar xarakterli subqlobal problemlərlə sıx əlaqəsi qaçılmazdır.

Hazırda ekoloji təhlükə bəşəriyyəti nüvə müharibəsi qədər narahat edir. Heç də təsadüfi deyildir ki, alimlər «ekoloji böhran» dedikdə, məhz planetin biosferası mexanizminin özünü tənzimləməsinin dağılması təhlükəsini nəzərdə tuturlar. Bu baxımdan bütün ölkələr və xalqlar öz səylərini ətraf mühitin qorunması və yaxşılaşdırılması problemini, başqa sözlə, eləcə də siyasi mahiyyət kəsb edən ekoloji problemin həllinə istiqamətləndirməlidirlər. Ekoloji problem ictimai istehsalın artması problemi və onunla bağlı olaraq enerjiyə və xammala olan tələbatın yüksəlməsi ilə sıx əlaqəyə malikdir. Unutmaq olmaz ki, təbii ehtiyatlar tükənməz deyildir. Buna görə təbii ehtiyatlardan istifadə edilməsinə səmərəli, elmi cəhətdən əsaslandırılmış səviyyədə yanaşmaq lazımdır. Bununla yanaşı, həmin məsələnin həlli müəyyən çətinliklərlə bağlıdır. Mövcud çətinliklərdən biri ondan ibarətdir ki, hazırda əhalinin hər nəfəri hesabı ilə enerjiyə tələbat inkişaf etməkdə olan ölkələrdə inkişaf etmiş ölkələrlə müqayisədə xeyli yuxarıdır. Bu fərqi azaltmaq məqsədilə dünyada enerji istehsılını bir neçə dəfə artırmaq lazımdır.

Dövrümüzün siyasi mahiyyət kəsb edən qlobal problemlərindən biri də demoqrafik problemdir. İndiki şəraitdə dünya əhalisinin demoqrafik artımı ilə məhsuldar qüvvələrin dinamikası arasında təzahür edən uyğunsuzluğun həll edilməsi təxirəsalınmaz vəzifələrdəndir. Əhali artımının sürəti ilə şərtlənən müəyyən çətinliklər yaranır. Əhalinin ərzaqla təmin olunması ilə bağlı nəzərə çarpan çətinliklər daha çox narahatlıq doğurur. İnkişaf etməkdə olan və iqtisadi cəhətdən geri qalan ölkələrdə əhalinin artımı daha sürətlə baş verir. BMT-nin proqnozuna görə, dünya əhalisi 2030-cu ildə 10 milyard, 2080-ci ildə 14 milyard nəfərə çatacaqdır. Hər gün dünyada təxminən 280320 min nəfər insan doğulur. Məhz bu mənada əhalinin ərzaqla təmin edilməsi qlobal problem kimi çıxış edir.

Demoqrafik problemin həlli dünya dövlətlərinin birgə məqsədyönlü demoqrafik siyasətindən çox asılıdır. Demoqrafik siyasət sosial-iqtisadi siyasətin tərkib hissəsidir. Demoqrafik siyasətin başlıca məzmununu ölkə əhalisinə tənzimləyici təsir göstərilməsi təşkil edir.

Demoqrafik siyasətin başlıca istiqamətlərinə əhalinin təkrar istehsalı və miqrasiyası; onun təhsil potensialının formalaşması; əmək ehtiyatlarının tərkibi və strukturu; peşə yönümü, işlə təmin edilmə; əhalinin məşğulluğu aiddir.

Demoqrafik proseslərin real meyillərini dərk etmək prosesi əsasında onların digər ictimai proseslərlə səbəb-nəticə əlaqələrini müəyyənləşdirmək zəminində isə demoqrafik proqnozlar və planlar (eləcə də sosial-iqtisadi, hərbi-siyasi və başqaları) zəminində demoqrafik və sosial siyasətin məqsədləri, tədbirləri müəyyənləşdirilir.

Açar sözlər: qloballaşma, sosial, siyasi, qlobal problemlər, müasir, siyasət.

İstifadə olunmuş ədəbiyyat

1. Фромм Е. Бегство от свободы: человек для себя. М.: Юнити, 1998.
2. Кузнецов В.И. Золотой миллиард и остальное человечество. Проет Контра-Т, №4.
3. İnqlehart R. The Renaissance of Political //American Political Science Reniew, 1988.
4. Кальер Ф. Каким образом договариваться с государями. М.: «МИА», 2001.
5. Кулагин В.М. Международная безопасность. М.: Аспект Прец, 2006.
6. Дарендорф Р. Дорога к свободе. Вопросы философии, № 9, 1990.

Эльнур ГАДЖАЛИЕВ

СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ АСПЕКТЫ ГЛОБАЛИЗАЦИИ

Резюме

В статье исследуются глобализация и ее социальные и экономические последствия, приводится мнение известных исследователей о глобализации и в этом контексте анализируются характерные черты глобализации.

Глобальные проблемы рассматриваются как совокупность социальных вопросов. Автор прослеживает их взаимосвязь и взаимовлияние в зависимости от системного характера современных глобальных проблем, а также акцентрирует внимание на существующих подходах в литературе, связанной с социально-политическими аспектами глобализации.

Ключевые слова: глобализация, социальные, политические, глобальные проблемы, современная политика.

Elnur HAJALIYEV

SOCIAL AND POLITICAL ASPECTS OF GLOBALIZATION

Summary

In article globalization and its social and economic consequences are investigated, thoughts of famous researchers on globalization are given and in this context the characteristic features of globalization are analyzed. Global problems are considered as a whole complex set of social problems. Here their interrelation and interference depending on system character of modern global problems are considered, and also the attention to the existing approaches in the literature connected with social and political aspects of globalization are paid.

Keywords: globalization, social, political, global problems, modern policy.

UOT 327.56

Akif MARİFLİ
Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Siyasi Araşdırmalar İnstitutunun elmlər doktoru proqramı üzrə dissertantı, tarix ü.f.d.

TERRORÇU, YOXSA AZADLIQ UĞRUNDA DÖYÜŞÇÜ? (ANLAYIŞIN TƏSBİT EDİLMƏSİ BAXIMINDAN)*

Anlayışın təsbit edilməsi zərurəti

Mövcud olan ictimai və siyasi münasibətlər bir sıra anlayışların düzgün şəkildə təsbit edilməsini zəruri edir. Həmçinin bu anlayışların beynəlxalq unifikasiyasını və beynəlxalq ümumi qəbulunu mühüm məsələlər kontekstinə çıxardır. Belə anlayışlardan ikisi də "terrorçu" və "azadlıq uğrunda döyüşçü" anlayışlarıdır. Bir çox hallarda burada dəqiq və ümumi qəbul edilmiş təsbitin olmaması sui-istifadəyə və beynəlxalq müstəvidə problemlərə gətirib çıxarır. Hər hansı bir dövlət, dövlətlər qrupu və ya təşkilatın terrorçu olaraq qəbul etdiyini digər dövlət, dövlətlər qrupu və təşkilat azadlıq uğrunda döyüşçü olaraq qəbul edir. Bu isə onu göstərir ki, əksər hallarda müəyyən dövlətlər tərəfindən bu cür təsbitlərin unifikasiya edilməməsi səbəbindən ciddi problemlər yaşanır. Ona görə hər hansı istənilən bir anlayışın dəqiq şəkildə təsbit edilməsi zəruridir.

Terrorçu kimdir?

Bu suala cavab axtararkən, xüsusi ilə Qərb ədəbiyyatlarında maraqlı təsbitlərlə üzləşirsən. Onların arasında hətta qəribə təsbitlər də vardır. Məsələn, amerikalı tədqiqatçı Brent Smit qeyd edir ki, bəziləri üçün potensial terrorçu gənc və *müsəlman olan* birisidir (7). Təbii ki, belə bir təsbit olduqca qeyri-humanistdir və düzgün bir təsbit deyildir. Belə ki, müasir başa düşülən anlamı ilə terroru hər hansı bir dünyəvi dinin dəstəkləməsi kimi düşünmək düzgün olmaz. B.Ganor adlı digər bir tədqiqatçı isə məsələni belə ifadə edir ki, alimlər, siyasətçilər və digər mütəxəssislər ümumiyyətlə terrorçuluqdan danışarkən fərqli yanaşmalardan çıxış edirlər (8). Hüquqşünaslar üçün əsas etibarilə terrorçuluğun hüquqi prosedurlar vasitəsi ilə cəzalandırılması və ən yaxşı halda sırf hüquqi mexanizmlərlə qarşısının alınması prioritet məsələdir. Politoloqlar isə terrorçuluğun siyasi köklərini və ya həmçinin siyasi hədəflərini araşdırırlar. Mütəxəssislər üçün isə terror aktlarının hazırlanması formaları, onların texniki olaraq qarşısının alınması maraqlıdır. Məsələn, psixoloqlar üçün terrorçunun psixoloji tipi olduqca maraq doğurur. Eyni zamanda, onun konkret bir halda verə biləcəyi psixoloji reaksiya maraqlı gəlir. Həkimlər üçün terrorçularda əsasən hansı fizioloji problemlərin üstünlük təşkil etdiyi müəyyən araşdırma mövzusudur. Lakin praktiki olaraq onu demək olar ki, terrorçuluq bir hal kimi, terrorçu bir şəxs olaraq, terror qrupları isə sosial qrup olaraq kompleks şəkildə öyrənilməlidir. Belə ki, terrorçuluq sistemli ictimai təzahürləri olan və həyatın bir çox sahələrində əks olunan texnoloji haldır. Terrorçu isə istənilən bir ortamda baş vermiş qeyri-standart halda adi insandan deformasiya edə bilər. Bunu bir çox misallar sübut edir. Məsələn, Avropa kimi sakit bir cəmiyyətdə baş vermiş Breyvik hadisəsi kimi (12). Bu hadisə terrorçunun yalnız problemli cəmiyyətlərdən çıxa biləcəyi düşüncəsini ortadan qaldırdı. Belə ki, Norveç dünyanın kifayət qədər ən sakit və sülhsevər ölkəsi hesab edilir. Burada siyasi və digər

* Məqalə siyasi e.ü.e.d., professor Elman Nəzirov tərəfindən çapa məsləhət görülüb.

azadlıqlar təmin edilmişdir. Bütün bunlara baxmayaraq Breyvik siyasi və irqçi bir motivasiyadan çıxış edərək 77 nəfəri öldürmüş, 97 nəfəri isə güllələmişdir (12). Deməli, bəzən terror hadisəsinin ortaya çıxması üçün qeyri-standart zəminlər də ola bilir. Daha bir misalı ABŞ kimi demokratik və güclü bir dövlətdən vermək olar. Son dövrlər məktəblərə qarşı silahlı hücumlar bu kateqoriyadandır. 20 aprel 1999-cu ildə iki yuxarı sinif şagirdi oxuduqları Kolumbayn məktəbinə silahlı basqın etmiş, 37 nəfəri yaralamış, onlardan 13-ü sonradan ölmüşdür (13). Sual doğur, bu aqressivlik və yeniyetmə insanların kütləvi bir qırğın təşkil etməsinin siyasi, psixoloji, irqi, dini və digər səbəbləri nədir?

Aleksandr Liyə görə terrorçular digər siyasi fəaliyyətlərin bahalığı və vaxt aparması səbəbi ilə zorakı mübarizə metodlarını seçən şəxslərdir. Terrorçular hədəfə yetmək üçün ətraflarını adi siyasi partiyaların üzvləri kimi sadə insanlardan formalaşdırmırlar. Onlar kifayət qədər siyasi proseslərdən xəbərdar olan, enerjisini buna həsr edən və sosial şəbəkələrlə gündəlik bağlılığı olan insanları cəlb edirlər (6). Ümumiyyətlə, terrorçu müasir müharibə qaydalarını pozan, siyasi dəyişikliklər etmək məqsədilə müəyyən etdiyi hədəflərə doğru istiqamətlənmiş insan qruplaşmasıdır.

Bir sıra hallarda aparılan tədqiqatlar arasında terrorçu haqqında təsbitetmə təmelləri özünü fərqli göstərir və belə qənaətə gəlmək olur ki, terrorçular müxtəlif cür olur, fikri ən populyar yanaşmadır (5). Terrorçular öz planlarını həyata keçirmək üçün əhalinin bütün təbəqələrindən müxtəlif peşə adamlarını özlərinə cəlb edirlər. Rusiya siyasi ədəbiyyatında terrorçuları dini, ideyalı, muzdlu, siyasi və digər kateqoriyalara bölürlər və terrorçuluq özlüyündə qəliz bir sosial hal kimi qiymətləndirilir. Burada ideoloqlar, maliyyələşdirənlər, texniki dəstək verənlər, terror aktını həyata keçirənlər vardır. Bütün bu insanlar terrorçu kateqoriyasına daxil olurlar (4). Bəzi amerikan müəllifləri də öz əsərlərində terrorçuları aşağıdakı qruplara bölürlər:

1) cinayətkarlar;
2) parçalanmış qruplar;
3) hər hansı terror qrupu ilə bağlı olmayan terrorçular;
4) dini-ekstremal qruplar;
5) yaraqlılar və ya üsyançılar;
6) dövlət dəstəyi alan terrorçular (15, s.14-19).

Azərbaycan Respublikasının qanunvericiliyinə görə, terrorçu terror aktını həyata keçirmiş olan şəxsə deyilir (2). Beləliklə, görmək olur ki, terrorçu anlayışının təsbiti zamanı hər hansı bir terror aktında iştirakı əsas olaraq qəbul edirlər**.** Bu əməliyyatda iştirak edən şəxsin elə etdiyi ilk terror aktında terrorçu olaraq təsbit edilməsi meyli özünü açıq şəkildə göstərir.

Azadlıq uğrunda döyüşçü kimdir?

Bu məsələdə də maraqlı yanaşmalar və fərqli fikirlər vardır. İmmanuel Wallerstein bu haqda yazır: “Dünyanın dörd bir yanında dövlətlər özlərini dövlət sistemi içində hüquqları qəbul edilməyən qruplar olaraq düşünən mütəşəkkil hərəkətlərlə mütəmadi olaraq qarşı-qarşıya qalırlar. 1999-cu ilin fevralında bu növdən iki hərəkət xəbərlərdə davamlı gündəmdə idi: Yuqoslaviyada yaşayan kosovoluları təmsil edən UÇK (Kosovo Qurtuluş Ordusu) və Türkiyədə yaşayan kürdləri təmsil edən PKK (Kürdüstan Fəhlə Partiyası). Yuqoslaviya və Türk hökumətlərinə görə, bu hərəkətlər "terrorçu" qrupları hesab olunur. Bu hərəkətlər isə özlərini, xalqlarının azadlıq hərəkatları olaraq təqdim edirlər” (3). Türkiyəli müəllif D.Aydın isə azadlıq döyüşçüsü məsələsi haqqında yazır: “Hazırda siyasi cinayət məsələsi yalnız hüquqi bir mövzu olmaqdan çıxıb siyasi və ideoloji ölçülərə çatmışdır. Dövlətlər bir tərəfdən siyasi günahkarlar mövzusunda diskriminativ qaydalara əsaslandıqları halda, digər tərəfdən terrorçu hərəkətlərin və terrorçu təşkilatlanmaların qarşısını almağa çalışırlar. Bu səbəbdən də bir ölkədə terrorçu olaraq adlandırılan aktivistlər başqa bir ölkədə siyasi dissident olaraq qəbul olunur və dəstəklənir. Digər tərəfdən, bir müddət terrorçu

olaraq adlandırılanlar daha sonra azadlıq döyüşçüsü olaraq qəbul edilir" (9). Yenə həmin müəllif fikirlərinə davam edərək yazır ki, bu gün hər kəs tərəfindən mənfi qəbul edilən terror hərəkətlərinin və terrorçuların fəaliyyətinin davam etməsi onlara siyasi qiymətin düzgün verilməməsindən irəli gəlir. Ancaq dövlətlərin rəftarları və ya beynəlxalq sənədlərdə istifadə olunan ifadələr diqqətə alındığında nəyin terror olduğu mövzusunda hələ bir dəqiqlik və ortaq fikir birliyi təmin edilə bilməmişdir. Bunun da ən əhəmiyyətli səbəbi terror təsbitinin hüquqi bir qiymətləndirmədən çox siyasi bir qiymətləndirmə mövzusu olmasıdır. Lakin dövlətlər terror tərifi etmək yerinə, terror hərəkətlərinin bir siyahısını sıralamağı uyğun görürlər. Dövlətlər arasında terror mövzusunda ən bariz ziddiyyət bir dövlət üçün terrorçu sayılanın, o biri dövlətdə siyasi dissident və ya *azadlıq döyüşçüsü* kimi qiymətləndirilməsidir. Məsələn, ermənilərin məşhur terrorçusu, türk və azərbaycanlı qatili Monte Melkonyan (14). Ermənistan Silahlı Qüvvələrinin hərbi hissələrindən birinə, İrəvan şəhərində bir universitetə, bir məktəb və bir körpüyə, eləcə də xeyriyyə fonduna terrorçu Monte Melkonyanın adı verilmişdir. Halbuki, o insanlıq əleyhinə cinayətlər törətmiş bir cani idi.

Sam Vaknin adlı bir tədqiqatçı isə öz yazılarında zülmə və zülmkarlığa qarşı mübarizə aparanları azadlıq uğrunda döyüşçü hesab edir (10). Bəzən siyasi təhlilçilər bir tərəfdən terrorçu kimi qiymətləndirdikləri təşkilatlara, digər tərəfdən azadlıq uğrunda döyüşçü deyilməsinin də mümkünlüyünü istisna etmirlər (8). Məsələn, Afrikada fəaliyyət göstərən «Boko Haram» qruplaşması haqqında yazan müəlliflər bu təşkilatı terrorçu hesab etsə də, onların fəaliyyətlərindəki siyasi motivasiyanı önə çəkərək onlara "azadlıq döyüşçüsü" deyilməsinin də mümkünlüyünü istisna etmirlər (11).

Azadlıq uğrunda döyüşçü və terrorçu anlayışları birləşə bilərmi?

Azadlıq uğrunda döyüşçü və terrorçu anlayışlarının birləşməsi mümkündürmü? Bu sual, əslində, məsələlərə aydınlıq gətirilməsi üçün olduqca önəmli rola malikdir. Belə ki, istənilən bir məsələnin aydınlıq tapması üçün onun elmi differensiasiyasına ehtiyac vardır. Azadlıq uğrunda döyüşçünün bir siyasi, hərbi aktor olaraq ortaya çıxmasının bir sıra ilkin şərtləri mövcuddur. Bu ilkin şərtlərin əsasında ərazilərin işğal edilməsi, siyasi, hərbi, iqtisadi zülm və diskriminasiya dayanır. Bəzi hallarda deyilən amillərin aradan qaldırılması üçün müəyyən resurs çatışmazlığı səbəbindən azadlıq uğrunda döyüşçülərin istifadə etdiyi mübarizə metodikasında terrorçuluq xüsusiyyətləri meydana gəlir. Terrorçuluğun əməliyyat forması və növü olaraq hər hansı bir azadlıq hərəkatında istifadə edilməsi o hərəkata terrorçuluq adı qazandırır. Müasir geosiyasi proseslərə baxdıqda biz bəzi təmælləri görə bilirik. Texniki təchizat, iqtisadi inkişaf nöqteyinəzərindən kifayət qədər inkişaf etmiş, yüksək texnologiyalı ordulara malik olan dövlətlər öz üzərinlərində tam əksinə, zəif inkişafa malik olan dövlət və millətlərdən terror təhlükəsi hiss edirlər. Təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bəzi hallarda yüksək inkişaf etmiş cəmiyyətləri təmsil edən dövlətlərin regional, qlobal miqyasda siyasəti terrorçuluğun ilkin rüşeymlərini doğura bilir. Təbii ki, terrorçuluq mənfi bir haldır, amma mənfiliklərin aradan qaldırılması onların səbəblərinin düzgün tapılmasına bağlıdır. Dünyada multikulturalizmin məhv olduğunu inkişaf etmiş cəmiyyətlərin siyasi liderlərinin dilə gətirməsi bəzi hallarda azadlıq uğrunda döyüşçülərin terrorçuya çevrilməsinə gətirib çıxardır. Yeri gəlmişkən, bu məsələdə dünya siyasi liderləri Azərbaycan Respublikası rəhbərliyinin siyasətini özlərinə nümunə götürə bilərlər. Belə ki, Azərbaycan multikulturalizmin təntənəsinin bariz nümunəsidir. Azərbaycan siyasi rəhbərliyi milli xüsusiyyət olan tolerantlığı öz siyasəti ilə dəstəkləyir. Halbuki, bunu çox vaxt özlərinin ifrat demokratikliyini qabartmağa çalışan Qərb dövlətlərində belə görmək olmur. Demək olar ki, hər gün xəbər portallarında, KİV-də milli və dini zəmində cinayətlərin xəbərlərini almaq olur. Bu cinayətlərin əksəriyyəti isə demokratik prinsipləri özlərinin fəaliyyət əsası kimi bəyan etmiş ölkələrdə baş verir.

Bura həm də böyük dövlətlərin xarici siyasətlərini də misal gətirmək olar. Qərb dövlətlərinin xüsusilə öz xarici siyasətlərində istifadə etdikləri istilahlar belə bəzən beynəlxalq səviyyədə qıcıq yaradır. Rusiya, Çin, Hindistan və digər dövlətlərin də siyasətlərində belə bir tendensiyanı sezmək olur. Azadlıq uğrunda döyüşçülərin silahlı fəaliyyətinin aradan qalxması, habelə onların fəaliyyətlərində terrorçuluğa yönəlməməsi üçün ilk iş böyük dövlətlərin üzərinə düşür.

Bəs elmi tədqiqatlarla məşğul olan şəxslər məsələyə necə kömək göstərə bilərlər? Burada biz unifikasiya əsaslarını təklif edə bilərik. Unifikasiyanın olması bir sıra hallarda anlayışların istismarına mane ola bilər. Müxtəlif sahələrdə unifikasiya aparılmasından sonra müəyyən irəliləyişlərin əldə edildiyini görmək mümkündür. Məsələn, beynəlxalq ticarətdə ÜTT prinsiplərinin əsas alınmasından sonra bir çox dövlətlər öz gömrük, xarici iqtisadi fəaliyyət siyasətlərini bu unifikasiya edilmiş qaydalara uyğunlaşdırmağa çalışırlar. Uyğunlaşma apardıqdan sonra isə özlərinin iqtisadi durumlarında kifayət qədər fərq hiss edə bilirlər. Terrorçuluq məsələləri ilə bağlı olaraq isə unifikasiyanın aparılması olduqca vacibdir. Belə ki, kommentariyaların fərqliliyi, anlayışların fərqli izahı bəşəriyyəti ciddi təhlükələr qarşısında qoyur. Hətta müasir anlamda dövlət təsisatına qarşı mənfi fikir formalaşdırır ki, dövlət transmilli və ya regional terror təşkilatları qarşısında acizdir. Dövlətin ictimai dayaqlarını itirməsi isə onun süqutunun başlanğıcıdır. Dövlətlərin təsisat olaraq süquta uğraması da öz növbəsində beynəlxalq düzənin süquta uğramasına gətirib çıxara bilər. Yeni dünya düzənində qeyri-dövlət transmilli terrorçu qruplaşmaların dominantlığı ələ keçirməsi bütün bəşəriyyətə təhlükədir. Bu təhlükədən qorunmaq üçün hər hansı bir dövlətin ayrılıqda fəaliyyət göstərməsi mümkün deyildir. Hətta iqtisadi, hərbi, texnoloji imkanların yüksək olması belə problemi aradan qaldıra bilməz.

Unifikasiya əsasları əsasında dövlətlərin anlayışların təsbit edilməsində olan problemləri ortadan qalxa bilər. Hər hansı bir azadlıq uğrunda döyüşçünün həyata keçirdiyi əməliyyatın qeyri-hərbi kontingentə qarşı yönəlməsi onu faktiki olaraq terrorçuya çevirə bilir. Bu o deməkdir ki, həyata keçirilən zorakılıq aksiyası nəticəsində dinc əhali və qeyri-hərbi infrastruktur məhv edilir. Eyni zamanda terror aktlarından istifadə edən və lakin bunu siyasi məqsədlər üçün edən şəxslər hardasa azadlıq uğrunda döyüşçülər kimi səciyyələndirilə bilər. Məsələn, Azərbaycan tarixində mövcud olmuş "Difai" təşkilatı kimi. "Dövlət strukturları əvəzinə "Difai"nin müvafiq strukturlarının yaradılması onu göstərirdi ki, bu partiya heç də, bəzilərinin iddia etdikləri kimi, yalnız döyüş təşkilatı deyildi. "Difai"nin üzvləri arasında savadlı və praqmatik insanların olması sayəsində o, dövlət işlərinin aparılması üçün çox böyük daxili potensiala malik idi" (1) Bütün bunlar onu deməyə əsas verir ki, azadlıq uğrunda döyüşçü ilə terrorçu arasında fərqi müəyyən edən beynəlxalq unifikasiya aparılmasının yolu yalnız odur ki, mülki əhaliyə, qeyri-hərbi infrastruktura, hərbi məqsədlər üçün istifadəsi mümkün olmayan texnikaya qarşı terror aktı həyata keçirənlər heç cür azadlıq uğrunda döyüşçü kimi xarakterizə edilə bilməz. Buna misal olaraq ASALA-nı göstərmək olar. ASALA Parisdə və Vyanada işlətdiyi cinayətlərin arxasınca dünyanın hər yerində türklərə qarşı terroru daha da genişləndirdi. Bu qurum bir gün uzaq Sidneydə, o biri gün Beyrutda, digər gün isə başqa bir yerdə türk diplomatlarına qarşı qanlı terror həyata keçirirdi. Bir sözlə, bu terrorçu təşkilatın səsi dünyanın hər yerindən gəlirdi.

Terrorçuluğun arealının gələcək proqnozlaşdırılması barədə bəzi qeydlər

Terrorçuluğun coğrafi arealının böyüməsi ehtimalları ətrafında düşünülməsi önəmlidir. Ümumiyyətlə, terrorçuluq asimmetrik bir təhlükədir. Yəni terrorçuların nə zaman və hansı istiqamətdən hansı üsul və vasitələrlə təhlükəli ola biləcəyini söyləmək çətin olur. Lakin müəyyən dinamikanın izlənməsi terrorçuluğun növbəti areallarını və eləcə də forma və şəkillərini ehtimal etməyə imkan verir (16, s.125, 17, s.85). Uzun illər bir sıra beynəlxalq güclərin yeritdiyi siyasət nəticəsində latent hala keçmiş olan təhlükələr mövcuddur. Bunların bir çoxu milli, siyasi, dini və

digər çalarlara malikdirlər. Terrorçuluq arealının genişlənməsi həmçinin beynəlxalq güclərin geosiyasətlərinin dəyişikliyi ilə də bağlıdır.

Beynəlxalq siyasi proseslərin iştirakçıları və xüsusilə böyük dövlətlər nəzərə almalıdır ki, hər bir xalqın öz tarixi siyasi və psixoloji portreti vardır. Bu portret istər geosiyasi siyasətin formalaşdırılmasında, istərsə də terrorçuluğun proqnozlaşdırılması zamanı çox maraqlı olmalıdır. Məsələn, siyasi idealları üçün mübarizə aparan xalqların və ya qrupların siyasi və hərbi cəhətdən zəif olduqları dövrlərdə proseslərə verə biləcəkləri reaksiya ilə onların güclü vaxtlarında verə biləcəkləri reaksiya tamamilə fərqlidir. Bu deyilənlərlə bağlı olaraq tarixi inkişafın müxtəlif dövrlərində maraqlı ziqzaqvari dəyişmələr vardır. Bu dəyişmələrin izlənilməsi və onların ətrafında elmi araşdırmaların aparılması lazımdır. Belə olan təqdirdə siyasi və ya digər ideoloji fikirlərin bərqərar edilməsi üçün terrordan istifadə edilmə ehtimallarını əks etdirən xəritələri belə hazırlamaq mümkündür.

Terror təhlükəsizliyinin ümumi cəhətdən qiymətləndirilməsi birinci növbədə onun yaranmasına səbəb olan iqtisadi inkişafın xarakteri ilə bağlıdır. Bu da strateji əhəmiyyətli məhsulların istehsalında, eləcə də ərzaq təhlükəsizliyi məsələlərində düzgün mövqeyə malik olmaqla əlaqədardır. Belə ki, strateji istehsalın dünya iqtisadiyyatının əsasını təşkil etməsi, eləcə də iqtisadi inkişafın regional proporsiyalarının müvazinətinə nail olunması lazımdır. Əks halda, iqtisadi sərvətlərin dünya üzrə düzgün bölüşdürülməməsi və eləcə də xüsusilə üçüncü dünya ölkələrinin təbii resurslarının istismarında ədalət meyarlarının gözlənilməməsi terrorçuluq fəaliyyətlərinin yeni-yeni coğrafi areallara keçməsinə səbəb ola bilər.

Terrorçuluğun arealının genişlənməsinin qarşısını almaq üçün aşağıdakı fəaliyyətlərin yerinə yetirilməsi dünya dövlətlərinin maraqlarında olmalıdır:

1. Dövlətlərin iqtisadi potensialının artırılması. Bu əhalinin məşğulluğuna müsbət təsir edərək terrorçuların təbliğatının və eləcə də insanların terrorçu birləşmələrə cəlb edilməsinin qarşısını ala bilər. Bəzi hallarda müəyyən ölkələr iqtisadi potensiallarını daxili imkanlar hesabına gücləndirə bilmirlər. Belə ölkələrin əksəriyyətində daxili və beynəlxalq terrorizm şəbəkələri fəaliyyət göstərir. Ona görə beynəlxalq təşkilatlar ölkələrin iqtisadi potensialının gücləndirilməsi istiqamətində öz yardımlarını göstərməlidirlər;

2. Təbii ehtiyatların energetika əsaslarının, tranzit imkanlarının qorunması. Təbii ehtiyatların qorunmaması iqtisadiyyata təsir etməklə yanaşı sosial düşüncəyə də təsir edir. Xüsusilə transmilli korporasiyaların fəaliyyət göstərdiyi ölkələrin bir qismində bu şirkətlərə dünya imperializminin nümayəndələri kimi baxırlar. Hətta hesab edilir ki, bu şirkətlər yerli resursları çapıb-talayır. Belə olan təqdirdə ictimai narazılıq yaranır və təbii ki, ictimai narazılığın mövcud olması terrorçuluğun inkişafına müsbət təsir göstərir. İkinci məsələ tranzit imkanlarıdır. Tranzit imkanlarının qorunması beynəlxalq mubadiləni inkişaf etdirir və multikultural düşüncəni gücləndirir. Multikultural düşüncənin genişlənməsi isə terrorçuluğa qarşı görülən tədbirlər içərisində ən önəmlilərindəndir;

3. Beynəlxalq maliyyə ehtiyatlarının ölkələrin iqtisadiyyatına yönəldilməsi. Maliyyə dövriyyəsinin güclənməsi və onun iqtisadiyyata təsiri və istehlaka daxil olması mənfi mənada idealizmin qarşısını alan amillərdəndir. Real maliyyə imkanlarının məhdudluğu qrupların və fərdlərin düşüncəsində istər-istəməz aqressivliyi artırır və bununla da terror fəaliyyətlərinin formalaşdırılması üçün zəminlərdən birini təşkil edir. Pulsuzluq anlayışı insan təfəkkürünə təsir edən başlıca amillər sırasına daxildir. Xüsusilə müasir bəşəriyyətin inkişafında maliyyə prosesləri birbaşa fərdlərin həyatına ciddi təşkil edir və onların fəaliyyət şüurunun formalaşmasında iştirak edir.

Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, terrorçuların kateqoriyalara bölünməsi, bu kateqoriyaların yaranmasına zəmin olan faktorların qoyuluşu terrorizmin inkişafının proqnozlaşdırılmasına birbaşa təsir edir. Dünya dövlətləri siyasətlərini elə qurmalıdırlar ki, "azadlıq

uğrunda döyüşçülərin" aktuallığı azalsın və onların terrorçuya çevrilməsi prosesi isə ümumiyyətlə baş verməsin. Çünki terrorizm bütün zaman və məkanlarda olduqca təhlükəlidir. Onun təhlükəlilik dərəcəsini artıran əsas amil isə terrorçuluq təhlükəsinin asimmetrik xarakteridir (18). Yəni terrorçuluq ehtimal edilən yerlərdən peyda olacağı kimi tamamilə ehtimal edilməyən istiqamətlərdən də meydana gələ bilər. Bu isə öz növbəsində siyasi elmdə fəaliyyət göstərənlərin diqqətini növbəti bir anlayışın detallı öyrənilməsinə yönəltməlidir. Bu da asimmetrik təhlükə anlayışıdır. Ümid edirik ki, biz də bu məqalələr seriyasının davamında asimmetrik təhlükə anlayışı haqqında müəyyən aspektərin işıqlandırılması baxımından problemlərə toxunacağıq.

Açar sözlər: Azərbaycan, terrorçu, azadlıq uğrunda döyüşçü, fərq, mübarizə.

İstifadə olunmuş ədəbiyyat

1. Əzizov E. DİFAİ XX əsrin əvvəllərində erməni-azərbaycanlı münaqişəsinin ilkin tarixi şərtləri və səbəbləri. Bakı, 2009, s.112.

2. Terorçuluqla mübarizə haqqında Azərbaycan Respublikası Qanunu "Azərbaycan" qəzetində dərc edilmişdir (31 avqust 1999-cu il, № 198).

3. Aydın D. Terör Eylemlerinin Siyasal Suç Açısından Değerlendirilmesi // Uluslararası Hukuk ve Politika. İstanbul, 2006., Cilt 2, №7, s.1-20. http://www.usak.org.tr/dosyalar/dergi-/kOM68V4xipX74PLGul6kSlPbvkxjy4.pdf

4. Караваев А.Г. Молодежь и антитеррор. М., 2013.

5. Кожина Н.В. Образ террориста в сознании молодых людей. Четвертая Международная научная конференция по проблемам безопасности и противодействия терроризму. МГУ им. М.В.Ломоносова, 30-31 октября 2008 г., т.1, М.: «МЦНМО», 2009.

6. Alexander Lee. Who Becomes a Terrorist? Poverty, education, and the origins of Political Violence //Access Provided by Stanford University at 08/11/11, California, 2011, pp. 204-207. https://people.stanford.edu/amlee/sites/default/files/lee%202011_1.pdf

7. Smith, Brent L. Terrorism in America: Pipe Bombs and Pipe Dreams. Albany: State University of New York Press, 1994, pp.46146, 194.

8. Ganor Boaz. Defining Terrorism: Is one man's terrorist another man's freedom fighter? // Police Practice and Research, 2002, Vol. 3, № 4, pp. 287–304.

9. Wallenstein Immanuel. The Center Isn't Holding Very Well. Commentary № 377, May 15, 2014. http://www.iwallerstein.com/center-holding/

10. Sam V. Terrorists and freedom fighters. Skopje 2004, p.5.

11. Fisher J. (2011, September 18). Analysis-Nigeria UN bomb: Video of "Boko Haram" bomber released. BBC News. Retrieved from http://www.bbc.co.uk/news/world-africa-14964554

12. http://az.sciencegraph.net/wiki/Anders_Berinq_Breyvik

13. http://www.newsru.com/background/18may2006/columbineslght.html

14. http://az.wikipedia.org/wiki/Monte_Melkonyan

15. Gregory G.Noll, Michael S. Hildebrand. Special Operations for Terrorism and Hazmat Crimes. US – Red Hat Publishing, 2002, 352 p.

16. Stone, B. Patton, Sh.Heen of the Harvard negotiation project. Difficult Conversations: How to Discuss What Matters Most USA, 2010, 352 p.

17. R.Fisher and W.Ury with B.Patton, Editor.Getting to YES Negotiating an agreement without giving in. USA, 2011, 240 p.

18. R.Fisher, D.Shapiro. Get What You Want Improve Your Relationships Beyond Reason Using Emotions as You Negotiate. USA, Viking, 2006, 250p.

Акиф МАРИФЛИ

ТЕРРОРИСТ ИЛИ БОРЕЦ ЗА СВОБОДУ? (С ТОЧКИ ЗРЕНИЯ ОПРЕДЕЛЕНИЯ ПОНЯТИЯ)

Резюме

В статье автор пытается выявить разницу между понятиями «террорист» и «борец за свободу». С этой целью он обращается к западным авторам. В основном комментирует различия между исследованиями. Деление террористов на категории и факторы, способствующие их созданию обусловливает актуальность статьи.

Автор подчеркивает, что проблема заключается вовсе не в том, что террорист, как считают некоторые западные ученые, - это мусульманин, и что террор спонсируется какой-либо мировой религией. Он отмечает, что даже в международных документах нет точного определения понятия «террор». Как считает автор, причина кроется в превосходстве политической оценки определения террора над юридической.

Другой интересный вопрос: как воспринимают борца за свободу в двух или более государствах. Дело в том, что один и тот же человек в одном государстве считается террористом, а в другом - политическим диссидентом или борцом за свободу. Автор анализирует близкие и похожие особенности обоих понятий, рассматривает определения как наших, так и зарубежных специалистов.

Ключевые слова: Азербайджан, террорист, борец за свободу, разница, борьба.

Akif MARIFLI

A TERRORIST OR A FREEDOM FIGHTER (IN TERMS OF DETERMINATION OF THE DEFINITION)

Summary

In the article the author makes an attempt to consider the difference between the definitions of a terrorist and a fighter for independence. For this puspose he refers to the definitions by Western scientists and analyses the substance of the issue as well as gives the explanation of the differences between researches. Division of terrorists into various categories and putting the factors causing generation of these categories in the paper underlines its topicality. The paper also provides an interesting analysis of different approaches of local and foreign researchers to the issue.

The author underlines that the issue is not that 'a terrorist is a Moslem, as some Western scientists think, and that some world religion gives support to terror. He notes that even in the international documents an exact definition of «terror» lacks. It is caused by fact that the definition of terror is mainly a subject of political assessment rather than legal one.

Another interesting aspect of the issue is that a fighter for independence is considered differently, by two and more states. So a person considered a terrorist in one country is called a political dissident or fighter for independence in another country. The author analyses the similar and close features the definitions both of local and foreign experts.

Keywords: Azerbaijan, terrorist, freedom fighter, difference, strife.

UOT 32.061.234

Mirnazim CƏFƏROV
elmi işçi, AMEA FHİ

QLOBALLAŞMA ŞƏRAİTİNDƏ MİLLƏTLƏRARASI VƏ DİNLƏRARASI ÜNSİYYƏTDƏ TOLERANTLIQ VƏ MƏDƏNİYYƏT*

Azərbaycanda qədim dövrlərdən müxtəlif xalqların nümayəndələri yaşamış, bir çox xalqların dinləri mövcud olmuşdur. Azərbaycan və onun xalqı həmişə dini dözümlülüyü ilə fərqlənmişdir.
Heydər Əliyev

Yaşadığımız XXI yüzillik tarixə qloballaşma əsri kimi daxil olmuşdur. Hazırkı qloballaşma şəraitində yeni bir dünya nizamı bərqərar olmaqdadır. Qloballaşma kimi tanınan bu nizamın təşəkkülü prosesində Qərblə Şərqə məxsus dünya dövlətləri arasında iqtisadi, siyasi, mədəni, mənəvi, habelə hərbi əlaqələr və əməkdaşlıq genişlənir. Bu genişlənmə eyni zamanda Qərbə-Şərqə aid cəmiyyətlər, onlar arasında münasibətlər, habelə mədəniyyətlərarası, sivilizasiyalararası, dinlərarası dialoqda güclənir. Yüksək texnologiyalar, kommunikasiya və informasiya vasitələri sürətlə inkişaf edir, daha da təkmilləşir və geniş vüsət alır.

Qloballaşma hazırkı dünyada radikal sosial, iqtisadi, siyasi, hüquqi, mədəni, mənəvi, o cümlədən dini dəyişikliklərlə səciyyələnir. Başqa sözlə, cəmiyyətdə müxtəlif sosial qrup və təbəqələr qarşılıqlı əlaqə və qarşılıqlı asılılıqların qlobal sisteminə geniş şəkildə cəlb olunur. Sosial əlaqələrin, həmçinin dini münasibətlərin qloballaşması müasir insanın mövcudluğunun məkanını və zamanını da dəyişir. Qlobal xarakter və mahiyyət daşıyan cəmiyyətdə onun üzvlərinin milli və beynəlmiləl tərkibidə əvvəlki cəmiyyətlərdən fərqli olaraq daha artıq dərəcədə genişlənir.

Dünənə qədər dünyada dominantlıq edən dövlətlərarası, cəmiyyətlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası və dinlərarası strukturlar qeyri-hökumət təşkilatları ilə, vətəndaş hərəkatları ilə, transmilli korporasiyalarla, dünya kapital bazarı ilə, kütləvi informasiya vasitələri – dövri mətbuat, radio, televiziya və internetlə onun fəal subyektləri kimi tamamlanır və zənginləşir. Qloballaşma daha çox inkişaf etmiş Qərb dövlətlərində məqbul sayılan ideoloji standartlar əsasında getdiyindən İslam və müsəlman aləmi bu prosesdə onlara ayrılmış yeri müəyyən etmək zərurəti ilə qarşılaşmışdır.

Məlum olduğu kimi, qloballaşma mədəniyyətlərin, sivilizasiyaların və dinlərin qarşılıqlı təsirlənməsini, çulğalaşmasını və zənginləşməsini şərtləndirsə də, sosial, siyasi, mədəni və mənəvi dəyərlər arasındakı fərqləri tamamilə silib atmağa qadir deyildir. Deməli, qloballaşma mədəniyyətlərin, sivilizasiyaların, dinlərin də toqquşmasına səbəb ola bilməz. Bəşəriyyət – insan nəsli nə qədər yaxın olsa da, dəyər və yönümlər bir-birindən nə dərəcədə təsirlənsə də sivilizasiyaların, mədəniyyətlərin və dinlərin bilavasitə özəl xüsusiyyətləri qorunub saxlanılacaq, kimliyi, həqiqi mahiyyəti bilinəcəkdir. Çünki bu, cəmiyyətin, başqa sözlə desək, dialektikanın məlum üç qanununun – kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunlarının tələblərindən irəli gəlir.

Hesab edirik ki, dünyada gedən ictimai-siyasi proseslərdə və sivilizasiyalararası dialoqda dünya mədəniyyətlərinin qarşılıqlı münasibətləri mühüm əhəmiyyət kəsb edir və bu, bütün dövrlərdə belə olmuşdur. Yer kürəsində müxtəlif dillərə, dinlərə və irqlərə mənsub olan

* Məqalə tarix ü.e.d., professor Həsən Əlibəyli tərəfindən çapa məsləhət görülüb.

yüzlərcə millət və xalq yaşayır. Onlar məskunlaşdıqları əraziyə, həmin ərazinin ölçülərinə və təbii ehtiyatlarına görə, həmçinin ənənələrinə, mədəniyyətlərinə, psixologiyalarına və sosial-tarixi təcrübələrinə görə fərqlənirlər. Xalqlar, dövlətlər və sivilizasiyalar arasında qədim dövrlərdən bəri qarşılıqlı əlaqələr mövcud olmuşdur. Belə ki, müxtəlif yollarla həyata keçirilən ikitərəfli və çoxtərəfli münasibətlər zamanı onlar bir-birini zənginləşdirmişlər.

Müxtəlif millətlərə mənsub insanların ünsiyyəti olduqca mürəkkəb prosesdir. Bu ünsiyyət sosial-məişət, istehsal və mənəvi həyatın bir çox digər tərəflərinə toxunur. Bir tərəfdən insanlar öz milli özünəməxsusluğunu təbliğ edir, digər tərəfdən isə özgə millətin dəyərlərini, ümumbəşəri dəyərləri qəbul edir və qiymətləndirirlər. Hər hansı cəmiyyətin rifahının meyarı orada ictimai münasibətlərin harmonik inkişafından, cəmiyyət üzvlərinin inkişafının intellektual və mənəvi səviyyəsindən asılıdır. Çoxmillətli cəmiyyətlərdə bu cür meyar millətlərarası ünsiyyətin ictimai zəruriliyinin onun üzvləri tərəfindən dərk edilməsindən, millətlərarası ünsiyyət mədəniyyətinin təsdiqindən və fəaliyyət göstərməsindən, habelə mənəvi dəyərlərin milli münasibətlərin tənzimləyicisinə çevrilməsindən ibarətdir.

Araşdırmalarımıza əsasən deyə bilərik ki, uzun zamanlar boyu gerçəkləşdirilən millətlərlararası dialoq bir neçə yolla şərtlənmişdir. Belə ki, bu, hadisələrin inkişafının təbii gedişi ilə, coğrafi və tarixi səbəblərlə bağlıdır. Məsələn, Antik dövrlərdə yunanlarla iranlılar arasında qarşılıqlı əlaqələr, Avropanı Asiya ilə birləşdirən "Böyük İpək Yolu" və s. sübut edir ki, dünya xalqları həmişə bir-biri ilə dialoqa can atmışlar. Xalqlar, mədəniyyətlər, sivilizasiyalar arasında dialoq onların təmsilçiləri vasitəsilə danışıqlar yolu ilə də həyata keçirilmişdir. Bu, coğrafi və ya tarixi amillərlə əlaqədar olmayan düşünülmüş və məqsədyönlü fəaliyyətin nəticəsidir (1, s.27).

Tarixdən məlum olduğu kimi, millətlərarası və dövlətlərarası qarşılıqlı münasibətlər xalqların bir-biri ilə mədəni və dini əlaqələrini daha da möhkəmləndirmiş, bəzən isə dinin xarakterik xüsusiyyətlərinin özününküləşməsinə səbəb olmuşdur. Məsələn, bəlli olduğu kimi, buddizm Hindistanda təşəkkül tapmışdır. Lakin sonradan bu din Çində daha geniş yayılmışdır. Belə ki, buddizm Çində fəlsəfi fikrin, dinin, incəsənətin, ədəbiyyatın inkişafına da əhəmiyyətli təsir göstərmişdir. Hindlilərə məxsus buddizm Çin mədəniyyəti ilə birləşmiş, yeni səciyyəvi xüsusiyyətlər əldə etmişdir. Çində buddizmin yayılması nəticəsində yeni fəlsəfi məktəblər, dini cərəyanlar yaranmışdır. Buddizm daha sonra isə qonşu ölkələrə - Koreyaya və Yaponiyaya da yayılmışdır və nəticədə, bu ölkələrin milli mədəniyyətlərinə çox böyük təsir göstərmişdir. Daha bir misal göstərək: qədim yunan mədəniyyəti də əvvəlcə məsafə baxımından onlara daha yaxın olan Qədim Misirdə yayılmış, burada inkişaf etmiş, daha sonra isə Qərbi Avropaya da yayılaraq, çağdaş Avropa mədəniyyətinin formalaşmasında aparıcı xüsusiyyət daşımışdır.

Millətlərarası ünsiyyət təcrübəsində insanın əxlaqi, etik norma və inancları hər şeydən öncə etnik, milli tolerantlıq, xüsusi ruhi dözüm tələb edir. Tolerant olmaq o deməkdir ki, öz milli ləyaqət hissini, milli mədəniyyətini, adət və ənənələrini, musiqi və rəqslərini saxlamaqla yanaşı, başqalarının heç də həmişə başa düşülməyən və bəzən hətta adamı qıcıqlandıran ənənə və mədəniyyətinə dözməyi və hörmət etməyi də bacarmaq lazımdır.

"YUNESKO-nun tolerantlıq prinsipləri Bəyannaməsi"ndə təsbit olunan tolerantlıq anlayışı sosial (sosio-mədəni) yanaşmaya əsaslanır və eyni zamanda fərdi etik planda onun əhəmiyyətini qeyd edir. Millətlərarası ünsiyyətdə tolerantlıq sosial münasibətlər sisteminə möhkəm daxil olmuşdur. Getdikcə sürətini artıran qloballaşma prosesləri millətlərarası münasibətlərin müxtəlif formalarının genişlənməsinə təsir göstərməyə bilməz. Millətlərarası nikah, beynəlxalq tədris və peşə mübadilələri, əcnəbi işçi qüvvəsinin cəlb edilməsi, birgə müəssisələrin yaradılması və çoxmillətli əmək kollektivlərində işləmək çağdaş dünyanın gerçəkliklərindəndir.

Dünya mədəniyyətində tolerantlıq haqqında təsəvvürlərin zəngin və maraqlı tarixi vardır. Hələ qədim dini-mifik dünyagörüşlərində bizim bu gün "tolerantlıq" adlandıra biləcəyimiz bir

sıra təzahürlərə rast gəlmək olar. Məlumdur ki, qədim yunanların və romalıların dinlərində təkallahlılıq kultu mövcud deyildi. Onlar müxtəlif xalqların allahları arasında ayrı-ayrı müqayisələr aparır, onların arasında müvafiq məna oxşarlıqları müəyyənləşdirirdilər. Əgər bu allahlar yunanların və romalıların anlamına və dünyagörüşünə uyğun gəlirdisə, onları öz panteonlarına daxil edirdilər. Qədim Romada "*tolerare*" (dözmək) felindən geniş istifadə edirdilər. Mark Tuli Siseron "*tolerantia*" sözünü insan əməllərinə münasibətdə dözümlülüyə malik olan müdriklərin ruhuna münasibətdə işlədirdi. Sokrat və sofistlər tolerantlığın məzmun tərəfini açmışdılar. Abderli Protaqor bildirirdi ki, "...həyatda hər şey həqiqidir", ona görə də dözümlülük tamamilə təbiidir. Fərqsizlik idealı isə mütləq dözümlülük idealıdır. Sokratın "bircə onu bilirəm ki, heç nə bilmirəm" fəlsəfəsi hazırda tolerantlığı araşdıran bir çox tədqiqatçılar tərəfindən tolerant təfəkkürün özülü kimi qəbul edilir. İnkişaf etmiş Orta əsrlərdə tolerantlıq heç bir dinə inanmayanlara və kafirlərə dözümlü münasibət kimi izah olunurdu.

Son vaxtlar qloballaşmanın və milli mədəniyyətlərin qarşılıqlı təsiri, mədəni qloballaşmanın mahiyyəti, mədəniyyətlərarası münasibətlər, mədəniyyətlərin dialoqu kimi bəşəri problemlər ictimai elm nümayəndələrinin tədqiq və müzakirə etdikləri əsas elmi problemlərdəndir. Azərbaycan alimləri də bu problemlərin araşdırılmasında iştirak etmiş və bir sıra əsərlərdə "qloballaşma – din və mədəniyyət" məsələləri ətraflı təhlil olunmuşdur.

Amerika sosioloqu və politoloqu S.Hantinqton 1996-cı ildə "Sivilizasiyaların toqquşması və yeni dünya düzəni" adlı kitab nəşr etdirmişdir. O, soyuq müharibələrdən sonrakı dünya düzəninə həsr etdiyi bu əsərində qeyd etmişdir ki, uzun əsrlər boyu beynəlxalq münasibətlərin əsas prioriteti sayılan "millətlərarası – dövlətlərarası" münasibətlər öz yerini tədricən mədəni və sivilizasiyon birlikarası münasibətlərə güzəştə getməli olmuşdur (2).

Qərb sivilizasiyası ilə müxtəlif Şərq sivilizasiyaları tarix, dil, mədəniyyət, ənənələr, dini baxımdan bir-birindən fərqlənir. Tədqiqatçı S.Əhədovanın fikrincə, fərqlilik heç də münaqişə demək deyildir. Lakin o da faktdır ki, bəşər tarixində ən uzun və dağıdıcı müharibələr məhz sivilizasiyalar arasındakı fərqlər nəticəsində baş vermişdir. Qərblə Şərq arasındakı bu fərqliliyi onların inkişaf yollarının müxtəlifliyi ilə də izah etmək olar. Qərb elm və texnikanın nailiyyətlərinə əsaslanan rasional yolla getmişdirsə, Şərqdə ənənələrə əsaslanan ənənəvi cəmiyyətlər üstünlük təşkil etmişdir. Bu zaman biz Qərb dedikdə, Avropada XV-XVII əsrlərdə təşəkkül tapmış sivilizasiyon və mədəni inkişafın xüsusi tipini nəzərdə tuturuq ki, bu tipin əsasını Antik mədəniyyət və xristian ənənələri təşkil etmişdir.

"Şərq sivilizasiyasında həyat tərzinin sabitliyi, dini-mifoloji təsəvvürlərin üstünlük təşkil etməsi, kollektiv-şəxsiyyət münasibətlərinin birincinin xeyrinə olması kimi xüsusiyyətlər özünü göstərir. Burada əsas mədəni dominantlar kimi miflər, dini ayinlər, ibadətlər və sitayişlər çıxış edir.

Hər iki sivilizasiya tipinin dünya mədəniyyətinin inkişafında böyük xidmətləri, nailiyyətləri olsa da, onların bir-birindən təcrid olunmuş məkanda mövcudluğu mümkün deyildir. Mədəniyyətlər və sivilizasiyalar arasında dialoq və sintezə doğru qarşılıqlı hərəkət olmadan bəşəriyyətin heç bir gələcəyi yoxdur" (3, s.37).

Dinlərarası dialoq məsələsi hələ XIX əsrin ortalarında gündəmə gəlsə də, 1950-60-cı illərdən başlayaraq konkret məzmun kəsb etmişdir. Dinlərarası dialoq hər şeydən öncə müxtəlif dinlərə etiqad edən insanların qarşılıqlı əlaqələrini, onların görüşərək bir-birinin dinindəki müsbət cəhətləri öyrənməsini, aralarında mövcud olan problemləri müəyyən etməsini, qarşılıqlı surətdə zənginləşmək istəyini nəzərdə tutur. Dialoqda məqsəd kimisə hansı əqidəninsə düzgünlüyünə inandırmaq, kiminsə etiqadını dəyişdirmək olmamalıdır. Digər tərəfdən, dinlərarası dialoqun geniş vüsət aldığı indiki şəraitdə diqqət dinləri bir-birindən ayıran özəl xüsusiyyətlər üzərində deyil, onları birləşdirən müştərək cəhətlər üzərində cəmləşdirilməlidir (4, s. 78).

Məlum olduğu kimi, digər sahələrdə çalışan insanlarla müqayisədə din xadimlərinin üzərinə bəşəriyyətin və yaşadıqları cəmiyyətin taleyüklü problemlərinin həllində, o cümlədən dinlərarası dialoqun və əməkdaşlığın reallaşdırılmasında daha böyük vəzifə və məsuliyyət düşür. Ona görə ki, din xadimləri təkcə özlərinə görə deyil, həmçinin onlara inanan, onların arxasınca gedən çoxlu sayda dindarın mövqeyinə və dünyagörüşünə də təsir etmək imkanındadırlar.

XXI yüzillik tolerantlığa aktiv mənəvi ideologiya kimi baxır. Bu ideologiya başqalarının fikir, ideya və hərəkətlərinin itaətlə qəbul edilməsinə yönəlmiş deyil, millətlər, sosial qruplar, fərqli milli-mədəni, dini, yaxud sosial mühit insanları arasında qarşılıqlı anlaşma və qarşılıqlı fəaliyyət naminə dözümlülüyə hazır olmaqdır.

Qeyd etmək lazımdır ki, tolerantlıq bir sıra mənbələrdə dözümlülük anlayışı ilə eyniləşdirilsə də, daha aydın və fəal istiqamətə malikdir. Tolerantlıq – passiv, itaətkar dözümlülük deyil, aktiv mənəvi mövqedir. Tolerantlıq –başqa mədəniyyətə, milli, dini və sosial mühitə malik insanlarla pozitiv qarşılıqlı təsir naminə, etnik birliklər və sosial qruplar arasında qarşılıqlı anlaşma naminə dözümlülüyə psixoloji hazır olmaqdır.

XX yüzilliyin ikinci yarısında və XXI yüzilliyin əvvəllərində tolerantlıq problemi beynəlxalq xarakter almışdır, belə ki, onun müsbət həlli çoxsaylı beynəlxalq və dövlətdaxili münaqişələrin qarşısını almağa imkan verir. Münaqişə edən tərəflər arasında aparılan dialoqda kompromisslərə nail olunması qarşılıqlı dözümlülüyün müəyyən səviyyəsi olmadan, digərinin fərqli fikirləri hüququnu tanımadan mümkün deyil.

Qloballaşma prosesinin mahiyyəti həm insanların, həm də dövlətlərin qarşılıqlı əlaqələrinin və qarşılıqlı asılılıqlarının kəskin genişlənməsində və mürəkkəbləşməsindədir. Bu isə özünü planetar informasiya məkanının, dünya kapital, mal və işçi qüvvəsi bazarının formalaşmasında, təbii mühitə texnogen təsir problemlərinin beynəlmiləlləşməsində, millətlərarası və dinlərarası münaqişələrin və təhlükəsizliyin çözülməsində göstərir. İnsanların qarşılıqlı asılılığının güclənməsi, çağdaş dünyanın qloballaşması prosesində aydın üzə çıxan bəşəriyyətin gələcək taleyinə görə məsuliyyətin dərk edilməsi tolerantlıq mədəniyyətinin formalaşmasına səbəb olur. Qarşılıqlı iqtisadi və maliyyə asılılığı, informasiya qloballaşması və təhlükəsizlik baxımından qarşılıqlı asılılıq müasir dünyanın qloballaşmasının səciyyəvi xüsusiyyətləridir. Hazırda beynəlxalq münasibətlərdə tolerantlıq prinsipi artıq etik arzu xarakteri daşımır, əksinə, sosial-siyasi imperativ xüsusiyyəti əldə edir. Lakin məhz qloballaşma prosesləri tolerantlıq prinsipinə əsaslanan beynəlxalq münasibətlərin yeni tipinə keçidi xeyli çətinləşdirir. Buna hər şeydən öncə, dünyanın artmaqda olan müxtəlifliyi (yeni dövlətlərin yaranması, dinlər və s.) mane olur.

Çağdaş dünyanın plüralizasiyası həm sosial nəzəriyyədə, həm də beynəlxalq münasibətlər praktikasında plüralizm və tolerantlıq prinsiplərinə əməl etməyin zəruriliyini bildirir. Dözümsüzlüyün aradan qaldırılması bəşəriyyətin hazırkı böhrandan çıxması üçün başlıca istiqamətə çevrilir.

S.Əhədova haqlı olaraq göstərir ki, sivilizasiyaların, xalqların, mədəniyyətlərin, dinlərin dialoqu və qarşılıqlı anlaşması terrorizmi, müharibələri, etnik separatizmi və zorakılıqları beynəlxalq və ölkədaxili münasibətlər praktikasından çıxara biləcək ən mühüm vasitədir (3, s.45).

Hazırkı qloballaşma şəraitində mədəniyyətlərin, xalqların və sivilizasiyaların qarşılıqlı təsiri sahəsində tolerantlıq mədəniyyətinin tərbiyə olunmasının heç bir alternativi yoxdur. Tolerantlıq sosial münasibətlərin yeni tipi kimi problemə təkcə müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsir sahəsində deyil, həmçinin sivilizasiyaların daxilində də toxunur.

Çox zaman tolerantlığı hüquqi və siyasi mədəniyyətin formalaşması, insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipinin bərqərar olması, dözümlülük münasibətinin tərbiyə edilməsi, başqa xalqların mədəniyyətinə və dəyərlərinə hörmət göstərilməsi, zorakılığın,

irqçiliyin, ksenofobiyanın, dini dözümsüzlüyün, terrorçuluğun qəbul edilməməsinin formalaşması ilə əlaqələndirirlər. Lakin tolerantlıq anlayışından məhz milli aspekti ayırsaq, o zaman bu, müxtəlif etnososial qrupların təmsilçilərinin bir-birinə müəyyən münasibətində ifadə oluna bilər.

Etnik tolerantlıq müxtəlif etnik mədəniyyətlər arasında nəsə bir ümumilik nəzərdə tutur. Bu ümumilik yolların ümumiliyidir. Etnik tolerantlıq prinsipləri müxtəlif milli qruplar arasında dialoq və bir-birinə hörmət prinsipidir. Etnik tolerantlıq prinsiplərinin başa düşülməsində müəyyən modifikasiyalar mümkündür. Tədqiqatçı V.Lektorski tərəfindən tolerantlığın səviyyələr üzrə anlaşılması təklif olunur:

1. İndifferent tolerantlıq – bir etnik qrupun digərinə qarşı sadə fərq qoymamasında ifadə olunur. Bu səviyyədə müxtəlif mədəniyyətlərin dini ehkamları, etnik forma mərasimləri, inanclar bir-biri ilə qovuşur. Bu şəraitdə rasional dialoq mümkün deyil, çünki göstərilən seqmentlər rasional deyil.

2. Qarşılıqlı anlaşmanın mümkünsüzlüyü çərçivəsində tolerantlıq. Bu səviyyə tolerantlığın daha yüksək əmsalını nəzərdə tutur. Müxtəlif mədəniyyətlərin fərdləri onlara yad olan mədəniyyətin elementlərinə hansısa intuitiv-kortəbii hörmət duyurlar. Lakin bu hörmət ehkam və bütövlükdə, qeyri-rasional xarakterlidir.

3. Tolerantlıq aristokrat mövqelərdə mərhəmət kimi ifadə olunur. Bu zaman onların öz mədəniyyəti imtiyazlı mövqe tutur, digər etnik qrupların təmsilçiləri isə geridə qalmış, az inkişaf etmiş sayılır.

4. Tolerantlıq şəxsi təcrübənin və tənqidi dialoqun genişləndirilməsi çərçivəsində dözümlülük kimi. Bu, etnomədəni kommunikasiyanın ən optimal səviyyəsidir. Belə ki, təkcə digər xalqın nümayəndələrinə hörmət edilməsini nəzərdə tutmur, həmçinin tənqidi dialoq kontekstində öz mövqelərinin dəyişilməsi imkanını da nəzərdə tutur (5, s.46-54).

Maltalı tədqiqatçı Kennet Ueynin fikrincə, millətlərarası dialoq o halda üzvi və konstruktiv ola bilər ki, o, vasitəsiz, təbii mənaya malikdir. Bu, o deməkdir ki, tolerantlıq müxtəlif mədəniyyətlərin təmsilçilərinin dəyərlərinə, qaydalarına və inanclarına yalnız hansısa hipotetik və mücərrəd hörmət deyil, habelə dəyər və qaydaların məhz daşıyıcılarına – birbaşa müxtəlif sosiomədəni məkanların insanlarına hörmət deməkdir (6, s.16).

Müşahidələrimizə əsasən, söyləyə bilərik ki, etnik tolerantlıq müxtəlif etnik qrupların dialoqu və qarşılıqlı təsiri çərçivəsində təyin olunur. Etnik tolerantlıq dialoqu prinsipi müxtəlif çoxsaylı yanaşma, qayda və dəyər parametrlərini nəzərdə tutur.

Dini sahə tolerantlığın ilk növbədə zəruri olduğu cəmiyyət həyatının tərkib hissələrindəndir. Müxtəlif dinlərin ardıcılları, bir konfessiyanın müxtəlif təriqətləri arasında, dindarlar və qeyri-dindarlar arasında hörmətcil, sakit və xeyirxah münasibətlərin dərəcəsi insanların mədəni səviyyəsini, cəmiyyətin və dövlətin sivilliyini müəyyənləşdirir.

Dini tolerantlıq bütövlükdə dindarların özünütəyin azadlığı hüququnun tanınması, vətəndaşların bu hüquqa, cəmiyyətin mədəni-dini plüralizminə hörmətcil münasibətdir. Dini tolerantlığın münasibətlərin müəyyən tipi olaraq müxtəlif iştirakçıları ehtiva etdiyi nəzərə alınarsa, o zaman onun yaranması aşağıdakı səviyyələrdə baş verir:

- mikrosəviyyə - fərdlər arasında;
- makrosəviyyə - bir qayda olaraq konfessiyalararası tolerantlığı formalaşdıran dini qruplar arasında, eləcə də dünyəvi sosial həyata tolerant münasibət;
- meqasəviyyə - dini təşkilatlarla din və siyasət arasındakı qarşılıqlı münasibətlərə nəzarət edən dövlət arasında.

Maraqlıdır ki, bütün dinlər tolerantlığı demək olar ki, eyni şəkildə əsaslandırırlar. Bütövlükdə, bütün dini təlimlər milli yaxud mədəni mənsubiyyətindən asılı olmayaraq insanın insana münasibətinin 2500 il ərzində öz formasını dəyişsə də, məzmunu dəyişilməz qalan

universal prinsiplərini təbliğ edir. Qədim dövrlərdən bəri bu, aksiomatik ilahi qaydalar şəklində dini dünyagörüşlərində təsbit olunmuşdur.

Göründüyü kimi, müxtəlif vaxtlarda və müxtəlif coğrafi məkanlarda yaranan bütün dinləri bir ümumi ideya – tolerantlıq birləşdirir, insanın münasibətində sülhə çağırış rolunu oynayır.

Dünya dinlərinin tarixi sübut edir ki, peyğəmbərlərin bəyan etdikləri normalar, prinsiplər və öyüd-nəsihətlər sistemi insanın təbiətinə xeyirli təsir göstərmiş, onda yüksək mənəvi keyfiyyətlər oyatmış, müxtəlif millətlərin və inancların təmsilçilərini ümumi ideallar zəminində birləşdirmişdir.

Dövlətin bütövlüyünü qoruyub saxlamaq və millətlərarası ziddiyyətlərin kəskinləşməsinin qarşısını almaq məqsədilə "tolerantlığın sərhədləri"ni yetərincə sərt şəkildə möhkəmləndirmək zəruridir. Müxtəlif ölkələrin siyasi təcrübəsi göstərir ki, müasir cəmiyyətlərdə azlıqda qalanların tələblərinə məhəl qoyulmaması dövlət siyasətinin əsası ola bilməz. Eyni zamanda onu da yaddan çıxarmaq olmaz ki, tolerantlıq prinsipləri gerçək olaraq yalnız qarşılıqlı əsasda tətbiq edilə bilər. Ərazi quruluşunun təşkili zamanı, dil, təhsil siyasətinin işlənməsi və s. hallarda bunu nəzərə almaq lazımdır. Azlıqların "pozitiv diskriminasiyası" və onların dominant olmağa can atması intolerantlığın (yəni tolerantlığın əksi, dözümsüzlük - M.C.) genişlənməsinə səbəb olur, çünki əksəriyyət tərəfindən tanınmır. Ona görə də dövlətin etnosiyasəti tarazlaşdırılmış xarakter daşımalıdır. Bu, həm milli ənənələrə söykənməlidir, həm də həmin cəmiyyətdə qəbul edilən müəyyən elmi yanaşmalara əsaslanmalıdır.

Millətlərarası gərginliklərin və münaqişələrin, ekstremizmin aradan qaldırılması insanlar arasındakı münasibətlərdə tolerantlıq keyfiyyətinin inkişafı ilə birbaşa bağlıdır. Tolerantlıq təzahürünün və millətlərarası münasibətlərin sosioloji öyrənilməsi sosial və etnik identifikasiyalar, millətlərarası stereotiplər, sosial qaydalar, davranış strategiyaları, eləcə də milli qruplar arasındakı münaqişəli vəziyyət problemləri ətrafında cəmləşir. Bizə elə gəlir ki, tolerantlıq ictimai təfəkkürdə müəyyən dəyər kimi mövcuddur, lakin ifadə ölçüləri və üsulları müxtəlif ola bilər.

Dünyada tolerantlıq prinsipləri bərqərar olmayana qədər dinlərarası dialoqdan danışmaq əhəmiyyətsizdir. Əgər tərəflər tolerant deyilsə, o zaman onlar bir-birini qətiyyən qəbul etməyəcəklər. Məsələn, Ermənistan insan hüquqları və tolerantlıqla bağlı konvensiyalara qoşulsa da, etnik təmizləmə və işğal siyasətini davam etdirir.

Dünya dinlərinin mahiyyəti dialoqa və əməkdaşlığa imkan yaradır. Hidayət Orucovun sözlərinə görə, "dünya dinlərinin "bətnində" konfessiyalararası dialoqu və əməkdaşlığı reallaşdırmaq üçün böyük potensial "gizlənib". Çağdaş dövrümüzdə dinlərarası əməkdaşlığın baş tutması müəyyən mənada bu potensialın nə qədər və necə istifadə olunmasından asılıdır..." (7, s.25-58).

Özünün mövcudluğu prosesində hər bir millət həm öz keçmişinə, həm də digər xalqların mədəniyyət təcrübəsinə müraciət etmək ehtiyacı duyur. Dünyanın mövcud mənzərəsinin inkişafının və dünyanın dəyişilməsinə olan obyektiv tələbatların səbəb olduğu mədəniyyətlərin bu cür qarşılıqlı təsiri xüsusilə son onillikdə daha aydın müşahidə olunur. Belə ki, hazırda sosial, siyasi, iqtisadi dəyişikliklər xalqların miqrasiyasını, o cümlədən baxışların, düşüncələrin və mədəniyyətlərin mübadiləsini sürətləndirmişdir.

Millətlərarası ünsiyyət mədəniyyəti tarixi təzahürdür, burada sosial təcrübənin nailiyyətləri bərqərar olur və ötürülür. Onlar maddi və mənəvi əmək məhsullarında, sosial norma və institutlar sistemində gerçəkləşir. Lakin millətlərarası ünsiyyət mədəniyyətinə həmçinin təkcə maddi və mənəvi dəyərlərin məcmusu kimi deyil, habelə insanın özünü inkişafı və özünü reallaşdırması prosesi kimi də baxmaq olar.

Məlum olduğu kimi, mədəniyyət - müxtəlif həyat tərzləri, inam və dəyərlər, habelə onların bədii təcəssümüdür. Bunlar bir qayda olaraq bir nəsildən digər nəslə ötürülür, lakin, demək olar ki, toxunulmazlıq, dəyişməmək xüsusiyyəti daşımır. Zaman keçdikcə mədəniyyət dəyişir, yeni dövrlərə uyğunlaşırvə yeni formalar əldə edir. Qloballaşma prosesləri müxtəlif mədəniyyətlərin nümayəndələri arasında ünsiyyət və əlaqə səviyyəsini yüksəltdiyindən mövcud cəmiyyətlər daha multimədəni olur.

Avropa Şurasının qəbul etdiyi "Mədəniyyətlərarası dialoq üzrə Ağ kitab"a əsasən, mədəniyyətlərarası dialoq - müxtəlif etnik, mədəni, dini və dil mənşəli fərdlər və qruplar arasında qarşılıqlı hörmət əsasında açıq fikir mübadiləsidir. Bu cür dialoq digər insanların da yanaşma tərzlərini dinləmək arzusu və imkanı ilə yanaşı, eyni zamanda öz fikrini də ifadə etmək azadlığının və imkanının olmasını tələb edir.

Avropa Şurasını təmsil edən mütəxəssislərin fikrincə, millətlərarası dialoq beynəlxalq siyasətin aparıcı anlayışlarından biridir. Millətlərarası dialoqa cəmiyyət daxilində münaqişələrin aradan qaldırılmasında profilaktik metod kimi, mədəni müxtəlifliyin səbəb olduğu təhdidlərə siyasi cavab kimi, sosial təbəqələşməyə, stereotiplərə, irqçiliyə və diskriminasiyaya əks-təsir göstərmə vasitəsi kimi baxıla bilər.

"Ağ kitab"da göstərilir ki, son onilliklərdə mədəni müxtəliflikdə müəyyən irəliləyişlər nəzərə çarpır. Avropa dünyanın hər yerindən olan miqrantları yaxşı həyat şəraiti və sığınacaq axtarışı kimi məqamlarla cəlb etmişdir. Qloballaşma zaman və məkanı görünməmiş ölçüdə sıxışdırıb. Telekommunikasiya və mətbuatda inqilablar, xüsusən, İnternet kimi yeni kommunikasiya xidmətlərinin meydana gəlməsi milli-mədəni sistemləri get-gedə sıradan çıxarıb edib. Nəqliyyat və turizmin inkişafı mədəniyyətlərarası dialoq üçün get-gedə daha çox şərait yaradaraq həmişəkindən çox sayda insanın qarşılıqlı əlaqəsini təmin edir. Bu vəziyyətdə plüralizm, dözümlülük və geniş fikirlilik həmişəkindən daha çox önəmlidir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi plüralizmin "müxtəliflik və mədəni adətlərin dinamikliyi, etnik və mədəni mənsubiyyət, dini inamlar,incəsənət, yazılı və sosio-iqtisadi ideyalar və anlayışların qəbul olunması və hörmət edilməsi" əsasında qurulduğunu və "müxtəlif mənsubiyyətə malik olan fərd və qrupların harmonik qarşılıqlı təsirinin sosial həmrəyliyinə nail olmaq üçün mühüm əhəmiyyət kəsb etdiyini" tanıyıb.

Lakin pluralizm, dözümlülük və geniş fikirlilik yetərli olmaya bilər: mədənimüxtəlifliyin idarə olunmasında təkanverici, formalaşmış, geniş paylaşılmış cəhdlərə böyük ehtiyac var. Mədəniyyətlərarası dialoq bu məqsədə nail olmaq üçün əsas vasitədir,o olmadan dünyada yaşayan hər kəsin rifahı və azadlığını qorumaq çətin olar.

Nəzərə almaq lazımdır ki, "Ağ kitab" hüquqi sənəd deyil, mədəniy-yətlərarası dialoq qanunun köməyi ilə yaradıla bilməz. Sənədin preambulasında göstərilir ki, mədəniyyətlərarası dialoq bu sənəddə təsbit edilən əsas prinsiplərin reallaşmasına könüllü dəvət xarakterini saxlamalı, burada təqdim olunan müxtəlif tövsiyələrin çevik istifadəsinə, habelə cəmiyyətin gələcəyi barədə davam edən diskussiyalarda iştirakını davam etdirməlidir.

"Ağ kitab"da dini birliklərin dialoqa cəlb edilməsinin iki aspekti fərqlənir: onlardan biri dini qurumların dövlət orqanları ilə münasibətlərinə, digəri isə öz aralarındakı əlaqələrə aiddir. Dinlərarası dialoq Avropa Şurasının səlahiyyətlərinə daxil olmasa da, Şura dinlərarası dialoqu mədəniyyətlərarası dialoqun bir hissəsi kimi qəbul etmiş və dini təşkilatları multimədəni Avropada insan hüquqlarına, demokratiyaya və hüququn aliliyinə kömək etməyə çağırmışdır.

Azərbaycan çoxmillətli və polikonfessional ölkədir. Təbiidir ki, bütün millətlərin və təriqətlərin nümayəndələri daim bir-biri ilə qarşılıqlı əlaqədədir. Ona görə də dini tolerantlığın formalaşdırılması ölkənin təhlükəsizliyinə, onun bütövlüyünə təsir göstərən mühüm amillərdən biridir. Cəmiyyət öz üzvlərində açıq düşüncə tipinin formalaşmasında, müxtəlif dinlərin ardıcıllarının dialoqa marağının yaranmasında, din və ya milli mənsubiyyət zəminində bir-

birinə qarşı qabaqcadan yanlış fikirlərin dəf edilməsində, ümumi rifah naminə dözümlülüyün və konstruktiv əməkdaşlığın bərqərar olmasında maraqlıdır.

Səmavi dinlərdən sonuncusu olan və Azərbaycan əhalisinin əksəriyyətinin etiqad etdiyi İslam müəyyən mənada sülh, mehribançılıq, dözümlülük, tolerantlıq deməkdir. Sözü gedən məsələ ilə əlaqədar olaraq Quranda deyilir: «Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə gəlin! Şeytanın yolu ilə getməyin, çünki o, sizin açıq-aşkar düşmənizdir» (8, s. 441). Məlum olduğu kimi, İslam azad seçim dinidir. 1990-cı ildə qəbul edilmiş və dünyanın demək olar ki, bütün müsəlman dövlətləri tərəfindən imzalanmış «İslamda insan hüquqları üzrə Qahirə Bəyanna-məsi»ndə deyilir: «Kiminsə öz etiqadını dəyişdirməsi və ya ateist əqidəsinə bağlanması üçün hər hansı üsuldan istifadə edilməsi qadağandır». Müsəlmanlar bu hüququn gerçəkləşdirilməsi zamanı başqalarının dini əqidəsinə hörmət etməli və onlarla bağlanılmış müqavilə əsasında sülh şəraitində yaşamağa can atmalıdırlar. Məhəmməd Peyğəmbər buyurmuşdur ki, «Dözümsüzlüyə çağıranlar bizdən deyildir. Dözümsüzlüyə görə döyüşənlər də bizdən deyildir. Öz dözümsüzlüyünə görə ölənlər də bizdən deyildir».

Müqəddəs Kitabımız olan Qurana gəldikdə onu demək olar ki, bu kitabda digər dinlər, o cümlədən iudaizm və xristianlıq barədə, adı çəkilən dinlərə aid kitablar haqqında geniş məlumatlar vardır. Bu, özlüyündə qloballaşmanın – sivilizasiyalararası, mədəniyyətlərarası və dinlərarası dialoqun yaranmasına ilkin əsas vermişdir. Quranda da bərabərlik və qardaşlıq təsdiq olunmuşdur, özü də təkcə şəxsi ləyaqət qismində deyil, eləcə də möminlər üçün məcburi sosial davranış normaları keyfiyyətində. Bəşər tarixi boyu maddi-iqtisadi və mənəvi baxımdan ən böhranlı anlarda belə sivilizasiyalar, mədəniyyətlər, o cümlədən dinlər bir tərəfdən özlərini zənginləşdirmək üçün bir-biriilə sıx dialoqa girmiş, bir-birinə qarşılıqlı təsir göstərmişlərsə, digər tərəfdən bilavasitə özlərinə məxsusluqlarını qoruyub saxlamaq üçün ilkin mənbələrinə qayıtmaq imkanlarından faydalana bilmişlər. Yeri gəlmişkən, bir daha təkrar etmək istərdik ki, sivilizasiyalararası, mədəniyyətlərarası və dinlərarası dialoqu inkişaf etdirmək sahəsində Heydər Əliyev Fondunun son illərdə həyata keçirdiyi müxtəlif tədbirlər: - beynəlxalq simpoziumlar, konfranslar, «dəyirmi masa»lar, forumlar xüsusi əhəmiyyət kəsb edir.

Qeyd etmək istərdik ki, İslam dini digər monoteist dinlərlə, o cümlədən xüsusilə iudaizm və xristianlıqla səmərəli və qarşılıqlı faydalı şəkildə dialoq yaratmaq ənənələrinə malik bir dindir. Bu baxımdan, müstəqil Azərbaycan bütün dünyaya örnək, nümunədir. Bu, hər şeydən əvvəl, onunla izah oluna bilər ki, Azərbaycanda İslam, xristian və yəhudi dinləri əsrlər boyu mövcud olmuşdur (9, s. 12-14). Bu dinlərin müasir ardıcılları hazırda ölkəmizdə mehriban bir ailənin üzvləri kimi yaşayırlar. Tarixi təcrübə bir daha inandırıcı şəkildə təsdiq və sübut etmişdir ki, ölkəmizdə bu dinlər və onlara etiqad edənlər arasında heç bir münaqişə, ixtilaf olmamışdır. Bizə elə gəlir ki, belə bir problemin olmaması hər şeydən əvvəl İslam dininin sülh, mehribanlıq, dözümlülük (tolerantlıq) dini olması ilə bilavasitə əlaqədardır.

Mədəniyyətlər arası, sivilizasiyalararası və dinlərarası dialoqun baş tutması məqsədilə İslam dini müəyyən prinsiplər də işləyib hazırlamışdır. Bu prinsiplər elmi-nəzəri və metodoloji prinsiplər olmaqla yanaşı, iki kateqoriyaya ayrılır. Həmin metodoloji prinsiplər aşağıdakılardır:

Birincisi, dialoq elmi-nəzəri və məntiqi əsaslar üzərində qurulmalıdır.

İkincisi, dialoq tərəflərə öz fikirlərini açıq-aşkar bildirmək üsulu kimi nəzərdən keçirilməlidir. Buna elmi-siyasi ədəbiyyatlarda, ümumi xarakterli lüğətlərdə plüralizm deyilir. Dialoqdan imtina edilməməlidir. Yeri gəlmişkən qeyd etmək istərdik ki, Ermənistan Respub-likasının rəhbərliyi sağlam dialoqdan qaçır, mütəmadi olaraq hər iki tərəf üçün faydalı olan dialoqdan imtina edir. Bu qəbildən olan imtinalar bir çox hallarda dindar və qeyri-dindarlar arasında da müşahidə olunur. Dialoqa hansısa təcavüz kimi baxılmamalıdır. Dialoq tərəflərə öz fikirlərini və mövqeyini bildirmək, qarşı tərəfin mövqeyini öyrənmək imkanı verir. Dialoq

etikası, dialoq mədəniyyəti tərəflərin bir-birini diqqətlədinləməsini, fikirlərini açıq-aşkar bildirməsini, çeviklik göstərilməsini tələb edir.

Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi, eramızdan əvvəl I minilliyin sonunda eramızın I minilliyinin əvvəllərində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmış, bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdır. Yunan-Roma mədəniyyəti, bütün Antik sivilizasiyanın güclü təsiri altında inkişaf edən elm, ədəbiyyat və incəsənətimiz çox erkən dövrlərdə özünəməxsus forma və məzmuna malik olmağa başlamışdır. Heydər Əliyev zərdüştlüyün, yəhudi, xristian, həm də İslam mədəniyyətinin müxtəlif mərhələlərdə zəngin mədəniyyətimizin formalaşmasına təsir göstərdiyini vurğulayır və qeyd edirdi ki, Azərbaycan müxtəlif siyasi baxışların, iqtisadi münasibətlərin, dövlətçilik formalarının təsirini öz üzərində hiss etmişdir (10).

XX əsrin sonlarında müstəqilliyini ikinci dəfə bərpa etmiş Azərbaycan Respublikasının Ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1995-ci ildə qəbul edilmiş Konstitusiyasının əksər maddələri insan hüquq və azadlıqlarının qorunmasına həsr olunmuşdur. Dövlətimiz ölkə vətəndaşlarının ümumqəbul olunmuş bütün hüquq və azadlıqlarla tam əhatə olunmasına təminat verir. Bu cür təminatlardan biri də vicdan azadlığının qorunmasıdır. Belə ki, Əsas qanunun «Din və dövlət» adlanan 18-ci maddəsində deyilir:

I. Azərbaycan Respublikasında din dövlətdən ayrıdır. Bütün dini etiqadlar qanun qarşısında bərabərdir.

II. İnsan ləyaqətini alçaldan və ya insanpərvərlik prinsiplərinə zidd olan dinlərin yayılması və təbliği qadağandır.

III. Dövlət təhsil sistemi dünyəvi xarakter daşıyır.

Konstitusiyanın vicdan azadlığından bəhs edən 48-ci maddəsi hər kəsin vicdan azadlığı olduğunu təsbit edir.Hər bir insanın dinə münasibətini müstəqil müəyyənləşdirmək, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək yaxud heç bir dinə etiqad etməmək, dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququ vardır. Bu maddədə göstərilir ki, dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa və ya ictimai əxlaqa zidd deyilsə, sərbəstdir (11, s. 9-19).

Azərbaycan Respublikası Konstitusiyasının 7,18,48 və 71-ci maddələrində qanunvericiliklə təsbit olunmuş müddəalara görə ölkəmizdə din dövlətdən ayrıdır. Buna baxmayaraq, Azərbaycan dövləti öz ölkəsinin dindar vətəndaşı olan müsəlmana da, xristiana da, yəhudiyə də, İslama da, xristianlığa da, iudaizmə də, məscidə də, kilsəyə də, sinaqoqa da münasibətdə obyektiv mövqe nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2013-cü ildə prezident and içməsi mərasimində tolerantlıqla bağlı demişdir: «Azərbaycanda son on il ərzində dinlərarası, millətlərarası münasibətlər artıq dünya üçün bir örnək olmuşdur. Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlər, forumlar, konfranslar Azərbaycanı dünyada tolerantlıq məkanı, dözümlülük, multikulturalizm mərkəzi kimi təqdim etmişdir. Bu, bizim həyat tərzimizdir, eyni zamanda bizim siyasətimizdir. Artıq Azərbaycanın bu sahədəki təcrübəsi öyrənilir. Bu gün Azərbaycan dünya miqyasında bu istiqamətdə aparılan siyasətlə seçilən, fərqlənən ölkələrdən biridir. Bir sözlə, demokratiya, insan hüquqları, hüquqi dövlət quruculuğu ilə bağlı bütün addımlar ölkəmizi daha da gücləndirmiş və dinamik inkişafa imkan vermişdir» (12).

Azərbaycan dini tolerantıq məkanı baxımından dünyada yeganə ölkədir. Fəlsəfi yönümdən və dini tolerantlıq nöqteyi-nəzərindən aparılan konkret sosioloji tədqiqatların nəticələri göstərir ki, sivilizasiyaların fərqli mədəniyyətləri dialoqunu önə çəkən düşüncə tərzi ictimai quruluşun xararkterindən asılı olmayaraq cəmiyyətin tarixi inkişafının nəticəsidir. Müxtəlif fərqli mədəniyyətlər insan birliklərinin birgə yaşayışı müqabilində əldə edilmiş tarixi nailiyyət kimi demokratik, vətəndaş həmrəyliyi cəmiyyətinin, mədəniyyətlərarası münasibət-

lərin təməl prinsiplərindəndir. Tarixin başqa millətlərə və ənənəvi monoteist dünya və millidinlərə (burada əsasən, buddizim, xristianlıq, İslam, və iudaizm dinləri nəzərdə tutulur – M.C), fərqli mədəniyyətlərə dözümlü yanaşması ilə seçilən Azərbaycanda tolerantlıq xalqın milli-mənəvi dəyərlər sistemindən, düşüncə tərzindən qaynaqlanır. Geostrateji mövqeyinə görə, çeşidli dünya görüşünün (azərbaycançılıq, xristianlıq və yəhudilik baxışlarının) və həyat tərzinin, həmçinin ümumbəşəri məna və məzmun kəsb edən mədəni-mənəvi dəyərlərin, habelə müxtəlif dinlərin çulğalaşdığı məkan olan Azərbaycan milli-etnik tərkibi ilə dünyanın ən nadir mədəni sivilizasiyalarından birinə çevrilmişdir.

Müsəlmanların əksəriyyət təşkil etdiyi bir ölkə kimi Azərbaycanda müxtəlif etnik və dini qruplar sülh şəraitində birgə yaşayırlar. Tarix boyu ölkəmizdə bütün xalqları və dinlərin nümayəndələrini həmişə dostluq münasibətləri birləşdirib. Ayrı-ayrı etiqad və inanclara malik insanların yüz illərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanmasında xalqımıza xas olan mədəni və mənəvi dəyərlər müstəsna dərəcədə əhəmiyyətli rol oynaymışdır.

Ümummilli liderimiz Heydər Əliyev 1998-ci il may ayının 1-də Prezident sarayında ölkənin din xadimləri ilə görüşərkən demişdir: «...Bütün dinlər həmişə insanları sağlam mənəviyyata, düz yola dəvət ediblər. Dinin əsas məqsədi o olub ki, insanlar ədalətli, xeyirxah, sədaqətli, səmimi olsun, cinayət etməsin, cəmiyyətə fayda versin. Ona görə də bizim dinə münasibətimiz sadəcə onun əsasları ilə bağlıdır. Azərbaycanda bundan sonra da din, vicdan azadlığı təmin olunacaq və hər bir insan öz istədiyi kimi sərbəst, rahat yaşayacaqdır. Azərbaycanda müxtəlif dinlərin bu cür birliyinin olması müstəsna dərəcədə nümunəvi xarakter daşıyır. Bu, əslində Azərbaycanın reallığını, eyni zamanda Azərbaycan xalqının dini dözümlülüyünü göstərir. Azərbaycanda əhalinin əksəriyyətini İslam dininə etiqad edən azərbaycanlılar təşkil edir. Ancaq, eyni zamanda, Azərbaycanda xristian-pravoslav, yəhudi dininə etiqad edən insanlar, müxtəlif millətlərin nümayəndələri də yaşayırlar. Azərbaycanlılar başqa dinlərə münasibətdə həmişə dözümlü olublar və bunu bizə Quran, Həzrəti-Məhəmməd vəsiyyət edib» (13, s.8).

İndi Azərbaycanın müstəqil ölkə kimi inkişaf etdiyi dövrdə bu dəyərlər sistemi daha da güclənməkdədir. Hazırda Azərbaycanda bütün konfessiyaların ibadət evləri - məscid, kilsə, sinaqoq və s. azad və dözümlülük şəraitində fəaliyyət göstərir. Milli-mənəvi dəyərlərimizin qorunmasına, tarixi-mədəni abidələrimizin bərpasına böyük önəm verən Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva bir sıra məscid və ziyarətgahların təmir və bərpasına dəstək verməklə yanaşı, xristian və yəhudi abidələrinin də bərpa olunması prosesinə xüsusi diqqət göstərir.

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva 2008-ci ildə Bakıda keçirilən «Mədəniyyətlərarası dialoqun genişləndirilməsində qadınların rolu»na həsr olunmuş beynəlxalq simpoziumda demişdir: «Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühiti yaratmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətimizdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi, sinaqoq, pravoslav məbədi və kirxa yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərlə üst-üstə düşdüyünü təsdiq edir. Bu, təkcə tarixin ayrı-ayrı məqamları deyil. Bu il biz yeni katolik məbədi açmışıq. Tarixi əhəmiyyət daşıyan məscid və kilsələrin bərpası ilə yanaşı, yenilərini də tikirik. Ümidvaram ki, Bakı forumu gələcəkdə ənənəvi şəkil almaqla sivilizasiyaların faydalı dialoqunun formalaşmasına dair hər birimizin öz ideya və mədəniyyətimizi həyata keçirmək üçün imkan yarada bilər» (14).

Əslində, belə tədbirlərin keçirilməsi üçün Azərbaycanda həm güclü zəmin, həm də əlverişli mühit mövcuddur. Qədim dövrdən bu günə qədər Azərbaycan bütün dünyaya açıq olan bir diyar kimi tanınır və ölkəmizdə hökm sürən yüksək tolerantlıq mühitini insanlarımızla ilk təmasdan hiss etmək mümkündür.YUNESKO, İSESKO, BMT-nin Sivilizasiyalar Alyansı və Avropa Şurasının dəstəyi ilə 2011 və 2013-cü illərdə Bakıda I və II Ümumdünya Mədəniyyətlərarası forumları keçirilmişdir. 2011-2013-cü illərdə I, II və III Bakı Beynəlxalq Humanitar forumlarının və başqa nüfuzlu tədbirlərin Bakıda təşkil olunması bunu təsdiq edir. IV Bakı Beynəlxalq Humanitar Forumu bu ilin oktyabr ayında keçiriləcək. 2011-ci il oktyabrın 10-11-də "XXI əsr: ümidlər və çağırışlar" devizi ilə keçirilmiş Beynəlxalq Humanitar Forumun qəbul etdiyi qətnamədə göstərilıir ki, qloballaşmanın müxtəlif modellərinin və variantlarının nəzərdən keçirilməsi bugünkü mövcud mədəniyyətlərin və mənəvi oriyentirlərin müxtəlifliyinə adekvat diqqət yetirməyə imkan verir. Qloballaşma şəraitində mədəniyyətlərin və sivilizasiyaların qarşılıqlı təsir prosesi heç də müəyyən dəyərlər sistemini hamıya qəbul etdirmək məqsədi daşımır. Qətnamədə bir ölkənin və ya bir sıra ölkələrin dəyərlər sisteminin heç də mütləq həqiqət kimi qəbul edilməsinin düzgün olmadığı, azadlıq, bərabərlik, həmrəylik, tolerantlıq, təbiətə ehtiram kimi fundamental dəyərlərin mühüm əhəmiyyəti təsdiq edilmişdir.

Biz Bakıda yüksək səviyyədə təşkil olunan tədbirlərdən bəhs etdik. Azərbaycan təmsilçiləri ölkəmizin hüdudlarından kənarda keçirilən toplantılarda da fəal iştirak edir. Məsələn, Avropa Şurası Nazirlər Komitəsinin himayəsi ilə 2010-cu ilin sentyabrında Makedoniyanın Oxrid şəhərində "Mədəniyyətlərarası dialoqun, tolerantlığın və qarşılıqlı anlaşmanın irəliləyişində KİV-in rolu: KİV-in ifadə azadlığı və mədəni və dini müxtəlifliyə hörmət" mövzusunda konfrans keçirilmişdir. Azərbaycan nümayəndə heyəti də bu tədbirə qatılmış, ölkədəki qazanılmış müsbət təcrübə barədə Avropa Şurası üzvlərinə ətraflı məlumat verilmişdir. Bundan başqa, son illər ərzində Avropa Şurası Parlament Assambleyasının iclaslarında mədəniyyətlərarası dialoqla bağlı dinləmələr aparılmışdır. Bu zaman Avropada milli azlıqlar, etnik və dini icmaların vəziyyəti, İslamla bağlı yaranan durum, İslamizm və İslamofobiya, ekstremizmə qarşı mübarizə, mədəniyyətlərarası dialoqun dini elementləri kimi mühüm əhəmiyyət kəsb edən məsələlər müzakirə edilmişdir.

Bu yaxınlarda Bakıda "Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə" mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü keçirilmişdir. Məlum olduğu kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra ölkəmizdə dinlər və etnik qruplar arasında münasibətlər Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik konsepsiyasına uyğun olaraq daha da möhkəmlənib, bu sahə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev hazırda ölkədə dini etiqad azadlığının və multimədəni harmoniyanın təminatçısı və himayəçisidir. Adı çəkilən tədbirdə qeyd olunmuşdur ki, mədəniyyətlərin nüvəsini təşkil edən dinlər universal dəyərlər sisteminin başlanğıc nöqtəsi və ilkin formasıdır: "Bu baxımdan, dinlər arasındakı dialoqu mədəniyyətlərarası dialoqun ilkin mərhələsi və ya onu şərtləndirən əsas amil və ölçü kimi qəbul etmək olar. Bu gün Avropa məkanında dinlərarası və mədəniyyətlərarası dialoqa nail olmaq, dünyada sülh və əmin-amanlığı bərqərar etmək üçün bütün beynəlxalq təşkilatların, nüfuzlu dini mərkəzlərin və ölkələrin səylərinin birləşdirilməsi labüddür. Azərbaycan üzərinə düşən mənəvi borcu və şərəfli missiyanı layiqincə yerinə yetirməyə çalışır. Əgər müstəqilliyinin ilk illərində Azərbaycan dünyada gedən dinlər və mədəniyyətlərarası dialoq prosesinin fəal iştirakçısı idisə, indi demək olar ki, bu prosesin hərəkətverici qüvvəsinə çevrilib. Bu gün Bakı iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Sammitinə və bununla bağlı çoxsaylı beynəlxalq səviyyəli tədbirlərə ev sahibliyi edir. Təsadüfi deyil ki, dünyada analoqu olmayan Beynəlxalq Multikulturalizm Mərkəzi Bakıda yaradılıb".

Qeyd etmək lazımdır ki, mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə mübadilə görüşünün Bakıda keçirilməsi Azərbaycan üçün əhəmiyyətli hadisədir. Bu vacib tədbir Azərbaycanın Avropa Şurası Nazirlər Komitəsində sədrliyi üzərinə götürdüyü zaman müəyyənləşdirdiyi əsas prioritetlərin tərkib hissəsidir. Bu prioritetlər isə beynəlxalq hüququn norma və prinsiplərinə əməl etmək və ədaləti qorumaqdır. Mübadilə görüşünə ev sahibliyi edən ölkəmiz tolerantlığın, dözümlülüyün, dialoq və qarşılıqlı anlaşmanın təşviqi istiqamətində bütün səyləri birləşdirmək məqsədini və bu istiqamətdə bütün tərəflərlə əməkdaşlığa hazır olduğunu bəyan edir.

Mədəniyyətlərarası dialoqun mühüm şərtlərindən biri etnik separatizm və dini radikalizm nəticəsində meydana çıxmış münaqişələrin həll edilməsi, eləcə də regionda və dünyada sülh və əmin-amanlığın tam bərqərar olmasıdır. Azərbaycanın Avropa Şurasının Nazirlər Komitəsinə sədrliyinin nümayəndəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının sözlərinə görə, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti yalnız Avropa Şurasının üzvü olan bir dövlətin digərinə təcavüzü kimi dəyərləndirilməməlidir, eyni zamanda böyük bir regionda mədəniyyətlərarası dialoqa, demokratik Avropa dəyərlərinə, ümumbəşəri prinsiplərə, habelə sülh və təhlükəsizliyə ciddi təhdid kimi qiymətləndirilməlidir.

Bu gün Azərbaycanın əməkdaşlıq üçün böyük maraq göstərdiyi nüfuzlu təşkilatlardan biri də Avropa Şurasıdır. İqtisadi və siyasi sahələrdə həyata keçirilmiş uğurlu islahatlar Azərbaycanın regionun lider dövləti kimi mövqeyinin möhkəmlənməsini təmin etməklə yanaşı, ölkəmizi böyük Avropa ailəsinin də layiqli üzvünə çevirib. Nadir dini tolerantlıq modelinə malik olan dövlət kimi Azərbaycan Respublikası mədəniyyətlərarası dialoqla bağlı məsələlərə xüsusi diqqətlə yanaşır.

Azərbaycanda tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Azərbaycanda müxtəlif dini mənsubiyyətə malik insanlar özlərini cəmiyyətimizin ayrılmaz tərkib hissəsi sayır, dövlətin diqqət, qayğı və himayəsini eyni dərəcədə hiss edirlər. Azərbaycanda din xadimlərinə, dini ibadət yerlərinə dövlətimizin başçısı tərəfindən yüksək diqqət və qayğı göstərilir.

Hazırda Azərbaycan Respublikası müxtəlif dinlərin və dini təriqətlərin nümayəndələri üçün hər cür şəraitin yaradıldığı demokratik dövlətdir. Azərbaycan tarixən tolerantlığı qorumuş və müdafiə etmişdir. Milli dözümlülük, tolerantlıq atmosferi Ümummilli liderimiz Heydər Əliyevin dövlət-din konsepsiyasına müvafiq olaraq daha da möhkəmlənmiş və dövlət siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Dövlətlərin qarşılıqlı anlaşması olmadan cəmiyyət daxilində tolerantlıq inkişaf edə bilməz. Ona görə də hazırkı narahat dünyada, ziddiyyətlərin və qarşıdurmaların baş verdiyi bugünkü gündə bəşəriyyətin xilası naminə bütün səyləri birləşduirmək lazımdır (16, s.129).

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun direktoru Jerar Ştudman bu nüfuzlu təşkilatın 2002-ci il oktyabrın 10-11-də Bakıda keçirilən konfransında bildirmişdir: "Azərbaycanda dini dözümlülük heç də yeni konsepsiya deyildir. Bu ölkə yüz illər boyunca müxtəlif mədəniyyətlərin yanaşı yaşamasına, dözümlülüyə bariz nümunə ola bilər".

1999-cu ildən etibarən Azərbaycanda 16 noyabr Beynəlxalq Tolerantlıq günü qeyd olunur. Həmin gün müxtəlif dini icmaların rəhbərləri, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təmsilçiləri, ilahiyyatçı alimlər, ictimaiyyətin nümayəndələri və başqaları bir araya gələrək onları narahat edən məsələləri müzakirə edirlər. Onlar tərəfindən mövcud problemlərin həlli üçün əməli tədbirlər görülür.

Ölkə prezidenti hər il ölkə müsəlmanlarını, xrisrianları və yəhudiləri dini bayramlar münasibətilə təbrik edir: "Azərbaycanda tarixən təşəkkül tapmış səmavi dinlər yüz illər boyu qarşılıqlı hörmət və etimad şəraitində, dinc yanaşı fəaliyyət göstərərək insanlar arasında humanizm, həmrəylik, dözümlülük kimi bəşəri dəyərlərin bərqərar olmasında, cəmiyyətimizdə mükəmməl etnik-dini tolerantlıq mühitinin və zəngin multikultural ənənələrin formalaşmasında

müstəsna rol oynayıb. Təsadüfi deyildir ki, bu gün Azərbaycan bütün dünyada sivilizasiyalararası və mədəniyyətlərarası dialoq məkanı kimi tanınır və qəbul edilir" (17).

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə dini mədəniyyətin, dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinin gücləndirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Dini mədəniyyətin inkişafı" Fonduna 3 milyon manat ayrılması haqqında 18 yanvar 2014-cü il tarixli Sərəncam vermişdir (18).

Ümummilli liderimiz Heydər Əliyevin azərbaycançılıq ideologiyası bütün Azərbaycan xalqının maraqlarının təmin olunması baxımından əhəmiyyətli bir nəzəriyyədir. Azərbaycançılıq mahiyyətcə müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir. Azərbaycançılıq ideyası milli azlıqların, onların adət-ənənələrinin, mədəni hüquqlarının hərtərəfli təmin edilməsini də özündə ehtiva edir. Bununla yanaşı, azərbaycançılıq etnik və dini birliyi deyil, milli və regional mənsubiyyətindən, sosial vəziyyətindən, dinindən asılı olmayaraq bütün vətəndaşların öz ümumi vətəninə - Azərbaycana mənəvi sadiqliyini əsas tutur. Heydər Əliyevin müdrik siyasəti nəticəsində Azərbaycanda millətlərarası sülh və anlaşma daha da dərinləşmişdir. Ölkəmizdə etnoslar və xalqlar arasında hər hansı münaqişə, ziddiyyət və qarşıdurma mümkün deyil və bu problem tamamilə aradan qaldırılmışdır.

Açar sözlər: qloballaşma, millətlərarası münasibətlər, tolerantlıq, islam, mədəniyyələrarası dialoq.

İstifadə olunmuş ədəbiyyat

1. Толерантность и культура межнационального общения. Учебно-методическое пособие (для студентов вузов). Краснодар: Просвещение, 2009, 307 с.

2. Хантингтон С. Столкновение цивилизаций. М.: АСТ, СПб, Терра Фантастиъа, 2003, 603 с.

3. Əhədova S. Müasir dünyada mədəniyyətlərarası münasibətlər. Bakı: Elm, 2014, 348 s.

4. ƏliyevR. Din - əxlaqa aparan yol. Bakı: İrşad, 2005, 80 s.

5. Лекторский В.А. О толерантности, плюрализме и критицизме. Вопросы философии, №11, 1997.

6. Кеннет Уэйн. Образование и толерантность. Высшее образование в Европе, № 2, т. XXI, 1997.

7. Orucov H. Dinlərarası dialoq: qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru //Dövlət və din, sentyabr-oktyabr, 2009.

8. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: Qismət,1997, 606 s.

9. Mürsəlov R. İslam və müasir dünyanın qlobal məsələləri. Bakı, 2008, 181 s.

10. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Yeni 2011-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət //Azərbaycan, 2000, 30 dekabr.

11. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan Respublikası Milli Məclisinin nəşri, 2002, 118 s.

12. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimində nitqi /www.president.az

13. Abasov H.M. Şeyxülislam Axund Ağa Əlizadə. Bakı: Hərbi nəşriyyat, 2000, 104 s.

14. Bakıda «Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Forum çərçivəsində Gənclər Forumu keçirilmişdir /http://www.anl.az/down/medeniyyet2008/iyun/ medeniyyet 2008_iyun_62.htm

15. Bakıda «Mədəniyyətlərarası dialoq: mədəniyyət və din arasında qarşılıqlı əlaqə» mövzusunda 2014-cü il mədəniyyətlərarası dialoqun dini ölçüsü üzrə Avropa Şurasının mübadilə görüşü işə başlayıb/ Respublika, 2 sentyabr 2014.

16. Гулузаде М. Толерантность в Азербайджане. Межкультурные коммуникации. Тбилиси, № 9, 2009.

17. http://avropa.info/?xeber=52158

18. http://az.trend.az/news/politics/2231619.html

Мирназим ДЖАФАРОВ

ТОЛЕРАНТНОСТЬ И КУЛЬТУРА В МЕЖНАЦИОНАЛЬНЫХ И МЕЖРЕЛИГИОЗНЫХ ОТНОШЕНИЯХ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Резюме

В статье рассматриваются история межнациональных отношений и взаимоотношения мировых культур в контексте происходящих в мире общественно-политических процессов и диалога цивилизаций. Анализируются вопросы толерантности и терпимости, а также характерные особенности культурных и религиозных связей в межгосударственных и межнациональных взаимоотношениях. Акцентируя внимание на различиях между цивилизациями Востока и Запада в исследованиях разных ученых, автор в то же время отмечает, что обе цивилизации внесли огромный вклад в развитие мировой культуры; более того, их существование в изолированном пространстве попросту невозможно. Комментируются документы, принятые Советом Европы, ЮНЕСКО и другими международными организациями в этой области, а также соответствующие статьи Конституции Азербайджанской Республики. Автор приводит сведения о том, что в Азербайджане созданы все условия для религиозной толерантности и межнационального диалога. В хронологической последовательности представлена информация о проведенных в Баку международных мероприятиях на темы межкультурного диалога и толерантности. Особое внимание уделяется деятельности в этом направлении Фонда имени Гейдара Алиева.

Ключевые слова: глобализация, межнациональные отношения, толерантность, ислам, межкультурный диалог.

Mirnazim JAFAROV

TOLERANCE AND CULTURE OF INTERNATIONAL AND INTERRELIGIOUS RELATIONS UNDER GLOBALIZATION

Summary

The article focuses on the history of interethnic relations and mutual ties of world cultures within social and political processes and dialogue of civilizations occurring in the world. Tolerance and characteristics of cultural and religious ties in interstate and international relations have been analyzed. The author, emphasizing the differences between the civilizations of the East and West in the studies of various scholars, notes that both types of civilizations have contributed a lot to the development of world culture and moreover their existence in an isolated arece is simply impossible. The documents adopted by the Council of Europe, UNESCO and other international organizations in this field, along with relevant articles of the Constitution of the Azerbaijan Republic are commented on, at the same time the information on prerequisites for the development of religious tolerance and international dialogue in Azerbaijan is given. The information is presented in a chronological order gives on various international events held in Baku on intercultural dialogue and tolerance as well as decisions taken there. In this regard particular attention is also drawn to the work of the Heydar Aliyev Foundation.

Keywords: globalization, international relations, tolerance, Islam, intercultural dialogue.

UOT 321.01

Vüqar RƏHİMZADƏ
siyasi e.ü.f.d., dosent,
doktorant, AMEA Naxçıvan Bölməsi

DÖVLƏTİN İNFORMASİYA TƏMİNATI SİYASƏTİ: İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ KİV-LƏRİN FƏALİYYƏTİ KONTEKSTİNDƏ*

Giriş

Müasir qloballaşma şəraitində hər bir dövlət təkcə dərin inkişaf etmiş informasiya sisteminə söykənən yeni ictimai mühitini formalaşdırmaqla kifayətlənməyib, həmçinin yaranmaqda olan informasiya cəmiyyətinin optimal inkişaf yollarını axtarmalı olur. Milli inkişaf yolunu seçmiş hər bir dövlət və onun sosial strukturları öz informasiya siyasətində informasiya və idarəetmə problemlərinin təzahürlərini tədqiq etməli, alınan nəticələri rasional tətbiq etməyə səy göstərməlidir. Müasir sosial-siyasi idarəetmə nəzəriyyələrində insan haq-qında informasiyanın genişləndirilməsində və dərinləşdirilməsində, informasiya cəmiyyətində şəxsi azadlığın dərəcəsinin artırılmasında dövlətin siyasəti yeni şərt kimi çıxış edir.

Cəmiyyətin siyasi sistemində informasiya təminatı funksiyasının həyata keçirilməsi müəyyən şərtlərə söykənir. İnformasiya dinamikasının qanunauyğunluqlarından çıxış edilsə, demək olar ki, bu gün cəmiyyətin informasiya təkamülünü əvvəlki dövrlərə nisbətən proqnozlaşdırmaq daha da çətinləşmişdir.

KİV dövlət-cəmiyyət arasında əlaqələndirici vasitədir

Demokratik mühitdə kütləvi informasiya vasitələri əsas informasiya mənbələri, eləcə də hökumətlə insanlar arasında əlaqələndirici vasitə olaraq cəmiyyətdə mühüm rol oynayır. KİV insanları həyatın müxtəlif sahələri ilə bağlı, həmçinin fərdlərin həyatına təsir edəcək informasiya və biliklə təmin etmə rolunu həyata keçirir ki, buraya idarəçilik də aiddir. KİV, adətən, xalqın adından həyata keçirilən fəaliyyətlərlə bağlı əsas informasiya mənbəyi kimi çıxış edir. Odur ki, KİV inkişaf, demokratiya və keyfiyyətli idarəçiliklə bağlı biliyin əldə edilməsi üçün əsas qaynaq, eləcə də münaqişələr zamanı böyük əhəmiyyəti olan element sayılır. KİV həmçinin insanlar, hadisələr, mühüm tədbirlər və s. ilə əlaqədar informasiyanı cəmiyyətə təqdim etmək vəzifəsini də daşıyır. Beləliklə, KİV-in fəaliyyətində əsas vasitə olan informasiya təhlükəsizliyi çox əhəmiyyətli elementə çevrilir. Bu da öz növbəsində KİV-in strukturunda müəyyən dəyişikliklər etməyə, kütləvi auditoriyaya çatdırılan materialların məzmununa, üslub və xarakterinə yeni səciyyəvi çalarlar verməyə bilməzdi (1, s. 59-62).

Dünyada cərəyan edən proseslər hər bir dövlətin ən başlıca vəzifələrindən birinin onun öz informasiya məkanına nəzarəti gücləndirməklə informasiya resurslarının mühafizəsi uğrunda mübarizə aparmalı olduğunu söyləməyə əsas verir. Son zamanlar bir çox dövlətlər öz vətəndaşları və siyasi maraqlarının təhlükəsizliyi ilə yanaşı mədəniyyətlərini, ənənələrini və mənəvi dəyərlərini də qorumaq üçün xüsusi tədbirlər görmək məcburiyyətindədirlər. Bu baxımdan dövlətlər konseptual səviyyədə məqsədlərini həyata keçirmək, siyasi, iqtisadi və hərbi sahələrdə müvəffəqiyyət əldə etmək üçün vacib olan informasiyanı əldə etməyə çalışırlar. Bu gün cəmiyyətdə milli informasiya resurslarının mühafizəsi məsələsi çox aktualdır. İnkişaf etmiş dövlətlər tərəfindən informasiya silahının tətbiqi və qlobal informasiya infrastrukturunun

---

* Məqalə fəlsəfə ü.f.d., dosent Zeynəddin Şabanov tərəfindən çapa məsləhət görülüb.

yaradılması bu ölkələrin dünyada lider ölkə olmaq ideyasından irəli gəlir. İnternetdə açıq informasiya şəbəkəsinin genişlənməsi, kompyüter cinayətkarlığının artması, siyasi və iqtisadi məqsədlərə çatmaq üçün yüksək səviyyədə informasiya hücumu təhlükələrinin çoxalması informasiya təhlükəsizliyi kimi məsələlərin aktuallığını ön plana çıxarır.

Azərbaycanda informasiya cəmiyyəti quruculuğu

Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sahəsində hüquqi bazanın əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndər informasiya-kommunikasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət yetirirdi və bu sahədə inkişafa nail olmaq üçün daim səy göstərirdi (2, s.4).

1993-cü ilin ortalarından respublikada ictimai-siyasi sabitlik təmin edildikdən sonra ölkənin davamlı inkişaf strategiyası müəyyənləşdirildi, demokratik islahatların həyata keçirilməsinə başlanıldı. Müasir jurnalistikanın inkişaf etdirilməsi, milli mətbuatın mütərəqqi ənənələrinin qorunub saxlanılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi istiqamətində müvafiq işlər görüldü.

1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında hər kəsin fikir və söz azadlığı, qanuni yolla istədiyi məlumatı axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq hüququ təsbit olundu, informasiya azadlığına təminat verildi, kütləvi informasiya vasitələrində, o cümlədən mətbuatda dövlət senzurası qadağan edildi (3, s.3).

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 6 avqust tarixli Fərmanı ilə Nazirlər Kabineti yanında Mətbuatda və Digər Kütləvi İnformasiya Vasitələrində Dövlət Sirlərini Mühafizə Edən Baş İdarə ləğv olundu. 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının yeni Qanunu qəbul edildi, 2001-2002-ci illərdə beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq şəraitində bu sahədəki qanunvericilik bazası tam təkmilləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırıldı. 2000-ci ildə kütləvi informasiya vasitələrinin fəaliyyətinə nəzarət funksiyasını yerinə yetirən Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, 2003-cü ildə isə cəmiyyət, dövlət orqanları və kütləvi informasiya vasitələri arasında münasibətlərin ictimai tənzimlənməsi mexanizmi kimi qeyri-dövlət təşkilatı olan Azərbaycan Mətbuat Şurası jurnalistlərin I qurultayında yaradıldı.

2002-ci il iyunun 25-də "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 5 oktyabr tarixli Fərmanının 1-ci bəndi ilə Milli Televiziya və Radio Şurası yaradıldı. Şuranın əsas vəzifəsi televiziya və radio yayımlarının fəaliyyətini tənzimləmək, yayım zamanı ictimaiyyətin maraqlarını qorumaq, televiziya və radio yayımı haqqında qanunvericiliyə əməl edilməsi üzərində nəzarəti həyata keçirməkdən ibarətdir.

Azərbaycan beynəlxalq informasiya və hüquq məkanına uğurla inteqrasiya edir. Son on beş ildə Azərbaycanda informasiya cəmiyyəti quruculuğu sahəsinin inkişaf etdirilməsi üçün ardıcıl addımlar atılıb, bu istiqamət dövlət siyasətinin prioritetlərindən birinə çevrilib. 2003-cü il 17 fevral tarixində imzalanan "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə (2003-2012-ci illər) Milli Strategiya" 10 ilə yaxın müddətdə müasir informasiya texnologiyalarının Azərbaycanda tətbiqi sahəsində prioritet vəzifələr müəyyənləşdirmişdir (4, s.127).

Dövlət informasiya siyasətinin prioritetləri və metodları

Azərbaycanda XIX əsrin sonlarına təsadüf edən dövlət informasiya siyasətinin formalaşması prosesi cəmiyyətin əsas siyasi institutu sayılan mətbu orqanların nəşri ilə şərtlənmişdir. Hesab edirik ki, massmedianın siyasi proseslərə təsiri məsələsində hər bir zaman aktuallığını qoruyan kimi iki əsas yanaşmanı qabartmaq mümkündür: təbliğat və jurnalistika. Birinci yanaşma metodu öz mənşəyi etibarilə daha erkən dövrə təsadüf edir və KİV-in də təsbit etdiyi kimi, vətəndaşlara və onların siyasi oriyentasiyasına ciddi təsir göstərir. İkinci nəzəriyyə isə ölkəmizdə müstəqilliyin elan edilməsindən sonrakı dövrdə informasiya axınlarını və ictimai diskussiyaları səbəbləndirən mövzuların idarə olunmasında KİV-in prioritet rolunu qabardır.

Dövlət informasiya siyasətinin inkişafında müasir mərhələnin özəlliyi ondan ibarətdir ki, modernləşmə şəraitində dəyişikliklərin həyata keçirilməsində o, dövlətin əsas instrumentlərindən biri kimi çıxış edir. Bununla belə, ondan istifadə demokratik konstitusiya normaları ilə məhdudlaşdırılır. Dövlətin azad informasiya məkanına təsiri də müvafiq normativ-hüquqi baza ilə nizamlanır. Burada dövlət-vətəndaş münasibətləri kontekstində qarşılıqlı məsuliyyət və öhdəlik məsələsi aktuallaşır. Yəni dövlət sosial innovasiyalara dəstək olmalı, cəmiyyəti və onun sosial informasiyasını müasir hüquqi dövlətin təməl prinsipi olan informasiya azadlığı prinsipini pozmamaq şərtilə daxili və xarici təhdidlərdən qorumalıdır (5, s.3-9).

KİV sahəsində dövlət siyasətinin həyata keçirilməsinin iki metodunu fərqləndirmək mümkündür. Onlardan biri ideoloji metoddur ki, o artıq tarixin arxivinə çevrilmiş Sovetlər İttifaqında qüvvədə olmuşdur. İqtisadi metod da mövcuddur ki, ondan birbaşa və ya dolayısı ilə istifadə olunur. Dolayı yol, təsir media bazarının dövlət tənzimlənməsini nəzərdə tutur. Birbaşa təsir isə plüralizmin dəstəklənməsi və ya müəyyən media layihələrinin maliyyələşdirilməsi məqsədilə KİV-ə dotasiya ayrılmasıdır. Sonuncudan ölkəmizdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması fonunda geniş istifadə olunur və uğurlu nəticələrini verir (6, s.18).

Dövlətin KİV sahəsində siyasəti cəmiyyətin informasiya təminatına kompleks təsir göstərə bilir. Bu sahələrə koqnitiv, mənəvi və əsasən də psixoloji sahələri misal göstərmək olar. Ümumilikdə, dövlət siyasətinin informasiya təminatını şərti olaraq aşağıdakı aspektdə analiz edərdik:

1. Dövlət siyasətinin informasiya təminatı, siyası sistemi - ümumilikdə cəmiyyətin siyası sistemini bütün təhdidlərdən qoruna bilmək və inkişaf etmək üçün fəaliyyətə gətirir;

2. Bu anda KİV dövlət-cəmiyyət, cəmiyyət-dövlət münasibətlərində cəmiyyətin informasiya tələbatını ödəyən və təhlükəsizliyini qoruyan qüvvə kimi çıxış etməsi aspektinə daxil olur;

3. Siyasi sistemin plüralist inkişaf modeli formalaşır.

Bu baxımdan KİV – in siyasi sistemin daxilində çoxqütblü rolu üzə çıxır. Yəni, o həm informasiya təhlükəsizliyinin qoruyucusu, həm də onun potensial təhlükə daşıyıcısı kimi çıxış edir. İnformasiya hakimiyyəti məqsədyönlü şəkildə müəyyən məlumatların yayılması (və ya yayılmaması) və cəmiyyətdə ictimai rəyin yaradılması ilə məşğul olur. İnformasiya hakimiyyətinin subyektləri kimi KİV-lər, informasiya və reklam agentlikləri, elm – tədris müəssisələri və s. çıxış edir. Saydıqlarımızın içərisində daha çox təsir gücünə malik olanları qismində KİV, televiziya, radio, reklam agentlikləri, məktəb və universitetlər çıxış edir. İnformasiya hakimiyyəti digər hakimiyyətlərdən fərqli olan təsirlərə malikdir:

1. Hissolunmaz təsirlər. Yəni qəbul edilən informasiyaya onu qəbul edənlərin daha az etirazı nəzərdə tutulur ki, bunun da nəticəsində fərd tərəfdara və ya düşmənə çevrilə bilər.

2. İnformasiyanın qloballığı. Müasir texnologiyalar vasitəsilə informasiya ani olaraq dünyanın istənilən nöqtəsinə ötürülə bilər.

3. İstənilən ictimai və ya fərdi hadisəni gündəmə gətirmək və maraq obyektinə çevirmək. Yəni KİV digər siyasi sistem orqanlarından fərqli olaraq fərdin şəxsi həyatına da birbaşa müdaxilə etmək imkanına malikdir. Buna misal kimi hər hansı bir tanınmış və ya sıravi bir şəxsin problemlərinin, şəxsi həyatının televiziya ekranlarında və ya mətbuat səhifələrində verilməsini göstərmək olar (9, s.60).

Bütün bunlar göstərir ki, KİV cəmiyyət həyatına həm neqativ, həm də xeyirli təsir göstərmək imkanına malikdir.

Onun neqativ təsirlərinin aradan qaldırılması, zənnimizcə, iki yolla mümkündür:

1. Dövlətin düzgün informasiya siyasətinin qurulması.

2. İnformasiya mədəniyyətinin formalaşdırılması.

3. Cəmiyyətin informasiya təminatını düzgün, şəraitdən asılı olaraq nəzərə almaq bacarıqları.

Qeyd etmək lazımdır ki, birinci amil daha aparıcı rol oynayır. Məhz düzgün qurulmuş informasiya siyasəti KİV-in cəmiyyətə neqativ təsir göstərmək imkanını azaldır. Dövlət informasiya təminatı siyasəti cəmiyyətin informasiya tələbatlarının təmin edilməsinə yönəlir. Demokratik cəmiyyətlərdə informasiya siyasətinin qurulması xalq hakimiyyəti prinsipinə söykənir, başqa sözlə, onun qurulmasında vətəndaş cəmiyyətinin və dövlətin maraqları uzlaşdırılmalıdır. KİV-lər informasiya cəmiyyətinin institutu adlandırıla bilərlər (10, s.35).

Bu o halda mümkündür ki, KİV – konkret olaraq hansısa dairələrin maraqlarının ifadəçisi yox, xalqın maraqlarını əks etdirsin. Əgər dövlət vətəndaş cəmiyyətinin maraqlarını qorumursa, onda KİV bu funksiyanı öz üzərinə götürür. Bu zaman informasiya təminatçısının həm subyekti, həm də obyekti olan siyasi sistemin proseslərə çevik və effektli təsiretmə gücü azalmış olur. Əgər bu vəzifənin öhdəsindən KİV də gələ bilməsə, onda dövlətə və KİV-ə qarşı inamsızlıq formalaşır ki, bu da informasiya böhranı kimi xarakterizə olunur. İnformasiya böhranı çox təhlükəli böhran olub cəmiyyət və dövlət həyatını sarsıdır, nəticə etibarilə dövlətçiliyin zəifləməsinə gətirib çıxarır. Göründüyü kimi, informasiya təminatı kommunikativ – informasiya fəaliyyətlərinin sistemi kimi çıxış edir. İnformasiya təminatı öz qarşısına elə bir məqsəd qoymalıdır ki, onun nəticəsi siyasi, hüquqi, iqtisadi, mənəvi – etik, sosial – psixoloji və digər sahələrdə xalq və dövlətin dialoquna nail olsun, hamının maraqlarını ifadə etmək iqtidarında olsun. Dövlət informasiya siyasətinin strateji məqsədi isə ölkədə informasiya cəmiyyətinin qurulması olmalıdır. Məhz belə bir cəmiyyətdə fərdin, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin tam etibarlı qorunmasına nail olmaq olar.

Beləliklə, informasiya təminatı siyasəti insanların həyat fəaliyyətinin xüsusi bir sferası olub, informasiyanın yaradılması və yayılması ilə məşğul olaraq sosial və siyasi institutların və sosial qrupların maraqlarını ödəmək məqsədi güdür (11, s.135).

Yuxarıda qeyd olunuğu kimi, bu məqsədlərə necə nail olmaq ölkədəki informasiya cəmiyyətinin inkişaf səviyyəsindən asılıdır. İnformasiya təminatı siyasəti həm də dövlət siyasətinin iki mühüm məsələsini həll edir:

- beynəlxalq səviyyədə dövlətin imicini qaldırmaq və yüksaəltmək;
- ölkə daxilində hakimiyyətə inam hissinin formalaşdırılması, informasiya texnologiyalarının yayılması və inkişafının təmin olunması.

Bu məsələlərin həlli inkişaf etmiş ölkələrdə çox yüksək səviyyədə həyata keçirilmişdir.

Nəticə

Media ilə bağlı siyasətdən bəhs edərkən KİV-in fəaliyyətini tənzimləyən qanunvericilik aktlarına, eləcə də hüquqi əsasa malik digər sənədlərə xüsusi diqqət yetirilməlidir. Hazırda adı dünyanın siyasi xəritəsində keçən dövlətlərin böyük əksəriyyətinin, o cümlədən Azərbaycanın Konstitusiyası söz və fikir azadlığına təminat verir. Bu sahədə Azərbaycanda siyasi plüralizmin bərqərar edilməsi şəraitində söz və mətbuat azadlığının təmin olunması, demokratik və azad medianın formalaşdırılması məqsədilə qanunvericilik səviyysində mühüm addımlar atılmışdır.

Azərbaycan Respublikasında plüralizmin, söz və məlumat azadlığının inkişaf etdirilməsi uğurla reallaşdırılan hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun mühüm şərtlərindən birinə çevrilmişdir. Dövlət tərəfindən həyata keçirilən informasiya siyasəti Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş fikir, söz və məlumat azadlığının, vətəndaşların informasiya əldə etmək hüququnun dolğun və etibarlı şəkildə təmin olunmasına yönəlmişdir (7).

Beləliklə, burada deyilənləri yekunlaşdıraraq belə qənaətə gələ bilərik ki, Azərbaycanın KİV fəzasında dövlət siyasətinin informasiya təminatına kompleks yanaşmaq üçün 3 əsas istiqaməti götürmək daha məqsədəuyğundur:

- normativ-hüquqi bazanın yaradılması,
- təşkilati tənzimləyici təminatın yaradılması,
- nəhayət, texnoloji təminatın yaradılması.

Təbii ki, hər bir istiqamətdə internet beynəlxalq təşkilat olduğundan, beynəlxalq və regional xarakter daşımalıdır. Müasir KİV-in texnoloji imkanları isə təkcə sosial reallıqları əks etdirməyə imkan vermir, eyni zamanda, medianın bu reallıqların yaradılmasının fəal iştirakçısı olmasını təmin edir. Vətəndaş cəmiyyətinin üfüqi strukturu isə KİV-in məhsulu olan informasiyanın daha sürətlə yayılmasına rəvac verir. Müasir dünya və Azərbaycan reallığı birmənalı şəkildə sübuta yetirmişdir ki, KİV vətəndaş cəmiyyətinin formalaşmasının əsas dayaqlarından biri olsa da dövlətin informasiya təminatçısı rolu birmənalı olaraq danılmazdır. Bütün liberal ideyalar belə dövlətin siyasi sistem daxilindəki bu rolunu təkzib edə bilməz. Müasir qlobal dünya sistemi informasiya təminatçısı rolunda dövlətlərin daha yaxın və sistemli qlobal təminat modelini tapmağı hədəf götürməlidir.

Açar sözlər: qloballaşma, informasiya sistemi, informasiya cəmiyyəti, siyasi sistem, demokratiya, kütləvi informasiya vasitələri, informasiya təhlükəsizliyi, kommunikativ.

İstifadə olunmuş ədəbiyyat

1. Модестов С.А. Информационное противоборство как фактор геополитической конкуренции. М., 1999.

2. Vəliyev H. “Dövlət siyasətinin informasiya təminatı”. 525-ci qəzet, 2 may, 2013.

3. Azərbaycan Konstitusiyası ölkədə hüquqi dövlət quruculuğunu təmin etmişdir . Xalq qəzeti, 23 noyabr 2013.

4. Mehdiyev R. Demokratiya yolunda: irs haqqında düşünərkən. “Şərq-Qərb”, 2008, 792s.

5. Əliquliyev R.M. Cəmiyyətin informasiya təhlükəsizliyinə dair bəzi konseptual baxışlar /R.M.Əliquliyev, Y.N.İmamverdiyev, F.F.Yusifov //İnformasiya Cəmiyyəti Problemləri. Bakı, 2011, № 2.

6. Niyazov X. Azərbaycanda siyasi sistemin modernləşməsi şəraitində dövlət informasiya siyasəti (KİV timsalinda) İxtisas: 5904.01 - Siyasi institutlar və sistemlər. Siyasi

elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın Avtoreferatı. Bakı, 2014.

7. İnsan hüquq və azadlıqlarının həyata keçirilməsi Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu http://www.meclis.gov.az/?/az/topcontent/33

8. Почепцов В.Г. Теория коммуникации. М.: Рефл-бук, Киев: Ваклер, 2001, 651 с.

9. Петкова Н.О. Проблемы формирования коммуникативно-информационных структур гражданского общества. М., 2001.

10. Монойло А.В. Государственная информационная политика в особых условиях. Монография.М.: МИФИ, 2003, 388 с.

Вугар РАГИМЗАДЕ

ГОСУДАРСТВЕННАЯ ПОЛИТИКА ИНФОРМАЦИОННОГО ОБЕСПЕЧЕНИЯ: В КОНТЕКСТЕ ИНФОРМАЦИОННОЙ БЕЗОПАСНОСТИ И ДЕЯТЕЛЬНОСТИ СМИ

Резюме

Осуществление функции информационного обеспечения политической системы общества связано с определенными условиями. Если выступать с позиции закономерностей информационной динамики, то можно сказать, что по сравнению с прежними временами, сегодня стало сложнее прогнозировать информационную эволюцию общества.

Происходящие в мире процессы свидетельствуют о том, что одна из важнейших задач любого государства заключается в необходимости защищать информационные ресурсы путем усиления контроля за своим информационным пространством. В последнее время многие государства наряду с обеспечением безопасности своих граждан и политических интересов вынуждены принимать специальные меры по защите своей культуры, традиций и духовных ценностей. В этом контексте государства стараются заполучить ценную информацию для осуществления своих целей на концептуальном уровне - достижения успеха в политической, экономической и военной сферах.

Ключевые слова: глобализация, информационная система, информационное общество, политическая система, демократия, средства массовой информации, информационная безопасность, коммуникативный.

Vugar RAHIMZADE

STATE INFORMATION PROVISION POLICY: IN THE CONTEXT OF INFORMATION SECURITY AND ACTIVITY OF THE MASS MEDIA

Summary

In the political system of society the function of provision of information is based on certain conditions. If we take into account regularities in dynamics of information, then we can say that predicting evolution of the information society has become more difficult than previously.

The global processes give ground to say that protecting information resources through strengthening control over information space has become one of the key tasks for each state. Many countries have recently been forced to take special measures to protect – apart from ensuring security of its citizens and political interests – their culture, traditions and moral values.

From this point of view the countries are trying to get important information in order to fulfill their goals on a conceptual level, and succeed in the political, economic and military spheres.

Keywords: globalization, information system, information society, political system, democracy, mass media, information security, communicative.

УДК 327; 930.22

Лейла СУЛЕЙМАНОВА
диссертант, Академии Государственного
Управления при Президенте Азербайджанской Республики

ЛИВАН И ГЕОПОЛИТИЧЕСКИЕ ПРОЦЕССЫ НА БЛИЖНЕМ ВОСТОКЕ*

Как известно, геополитическое соперничество на Ближнем Востоке - этой колыбели иудаизма, христианства и ислама и где сосредоточено свыше половины мировых достоверных запасов нефти - значительно актуализировалось после окончания второй мировой войны, в период холодной войны, а в современных условиях приобрело наиболее острые формы.

В современной геополитике часто сталкиваемся с тем, что имеет отношение к серьезным сдвигам как в общемировой, так и в региональных масштабах. Порой эти процессы, будучи текущей геополитической действительностью, проходящей на стороне, являются определяющими по своей сути. Особенно они характерны для Ближнего Востока и все чаще определяются термином арабо-израильский баланс (1).

На Ближнем Востоке постоянно идут процессы жесткого внутреннего противостояния, которые оказывают огромное влияние на события глобального уровня. В последний период произошло изменение внешнеполитического вектора, который определяет позиции сторон, вовлеченных в противостояние: прежде это было арабо-израильское противостояние, а относительно недавно стало ирано-израильское.

В самом деле, Иран и Израиль представляют два конфликтующих лагеря - «радикально-исламистский» и «умеренный». Иран, возглавляющий радикально-исламистский блок, выстраивает свою «державную» политику на реализацию региональных геополитических аспираций в контексте продвижения «всемирной исламской революции». Вследствие этой политики он становится проблемой в глобальном масштабе. К тому же Иран и исламистские радикальные силы сделали Израиль основной мишенью агрессивной политики, рассматривают его в качестве главного врага. Израиль наряду с другими странами умеренного лагеря находится в вынужденном противостоянии этой угрозе. Образ внешнего врага необходим этим режимам для внутреннего сплочения рядов и привлечения поддержки единоверцев.

Оба лагеря («радикально-исламистский» и «умеренный»), составляющие биполярную региональную систему на Ближнем Востоке, ныне движутся на встречных курсах. Реальная угроза столкновения этих полюсов является сердцевиной всего комплекса ближневосточной политики. Вокруг этой проблемы происходит формирование внешнеполитической стратегии как в глобальном, так и региональном масштабах.

Ближневосточный регион и в прошлом, и в настоящее время таит много привлекательных перспектив, совмещающих однако как преимущества, так и опасности. Региональные реалии предполагают выбор между двумя полюсами, представленными Ираном и Израилем. Россия, наращивающая участие в проблемах региона, вынуждена определить выбор своего курса по отношению к этим противостоящим полюсам, что сопряжено с дилеммой, сочетающей российские геополитические и другие интересы в регионе, в том числе исходящую из этого региона и набирающую силы радикально-исламистскую угрозу. Выбор поддержки одного из лагерей повлечет за собой потерю

* Məqalə siyasi e.ü.e.d. Ramiz Sevdimalıyev tərəfindən çapa məsləhət görülüb.

потенциального преимущества, тогда как дальнейшее балансирование между лагерями чревато опасностью быть отодвинутым другими игроками (2).

В последнее время Россия проводит новый, более активный внешнеполитический курс, включающий два параллельных направления: во-первых, активное участие в существующей системе международно-геополитических отношений, постепенное наращивание своего паритетного статуса; во-вторых, курс на изменение существующей системы, выражающийся в концепции «многополярного мира». В надежде на адекватный статус для себя. В этой шкале приоритетов Ближний Восток занимает ВТОростепенное место, хотя участие в происходящих там процессах является необходимым ввиду геополитического значения для России этого региона, что наглядно продемонстрировали недавние известные события в Сирии.

Что же касается США, то на Ближнем Востоке по сути существуют два направления, способные препятствовать их гегемонии в регионе – это «шиитский вариант» и «сирийский вариант». Вполне очевидно, что если США сумеют развалить сирийско-иранский союз и нанести сокрушительный удар по Ирану, то они выиграют весь ближневосточный фронт. Перед американцами откроются территория от Израиля через Сирию, Иран в Афганистан и сразу две дороги – на Кавказ и в Центральную Азию. Установив контроль над «Великим Шелковым Путем», американцы смогут как в военном, так и в политическом отношении контролировать этот важнейший стратегический регион мира. Создав же там базы для военной авиации и систем ПРО, равно как и для ракетных установок, США будут реально угрожать геополитическим интересам России на всем Большом Ближнем Востоке (3).

2010-2013 годы стали для ряда арабских стран Ближнего Востока и Северной Африки (Египет, Сирия, Ливан, Иордания, Йемен, Тунис, Ливия) периодом бурных внутриполитических потрясений и вооруженных конфликтов. Эти события получили на информационном поле и в текущем политическом лексиконе название «арабская весна». В результате массовых городских митингов протеста населения, уличных столкновений протестующих с полицией и военными в ряде названных стран возникли ситуации общенационального бунта и вооруженного противостояния. В итоге своих постов лишились президенты Туниса (Бен Али), Египта (Хосни Мубарак), Йемена (Али Абдалла Салех). Отправлены в отставку несколько правительств и в других странах. В ходе прямо поддержанного Францией, Великобританией и другими странами НАТО, а также Саудовской Аравией и Катаром вооруженного мятежа в Ливии был убит глава государства и один из лидеров арабского мира Муаммар Каддафи. В отношении же Башара Асада сегодня осуществляются масштабные военно-политические мероприятия по отстранению его от власти, вплоть до физического уничтожения.

Строго объективных и внятных оценок событий «арабской весны» на сегодня, похоже, так и не появилось. Тем не менее, нельзя сказать, что все они были спонтанными, стихийными и неуправляемыми. По всему чувствовалось, что накопившееся среди населения большинства арабских стран недовольство условиями жизни и существующими порядками активно подогревалось как изнутри, так и извне.

На геополитической карте Большого Ближнего Востока заметную роль играет и ливанский фактор. Ливан (Аль Джумхурия аль Любнания, Lebanese Republic) расположен в Западной Азии, на восточном побережье Средиземного моря. Около 90% его населения составляют арабы, остальные - армяне, турки, курды, черкесы и др. Территория Ливанской Республики составляет 10 452 кв. км., население – около 4 млн. чел. В конфессиональном отношении 35 процентов страны составляют христиане, 35 процентов - шииты, 23 процента - сунниты, 7 процентов - друзы. Официальным государственным языком является арабский (4).

Ливан - парламентская республика. Ее политическая система существенно зависит от особенностей религиозной окраски страны. Согласно Конституции Ливана, власть в стране разделена между тремя религиозными группами: шиитами, суннитами и христианами-маронитами. Глава государства – президент, им может стать только маронит.

Высшим законодательным органом является однопалатный парламент (Национальное собрание), состоящий из 128 депутатов. Политические партии образовываются по религиозно-клановому признаку. Их члены отстаивают политические и экономические интересы своей конфессиональной или этнической группы, а также клана (семьи), к которому принадлежат по рождению. Свободные выборы в Собрание состоятся каждые четыре года (5).

Таким образом, своеобразие и уникальность Ливана заключаются в его многоконфессиональности и культурном плюрализме. На этом благодатном участке ближневосточного средиземноморского побережья проживают представители трех религий: мусульмане, христиане и друзы. В свою очередь сами представители исламской и христианской конфессий также делятся на ряд общин. В Ливане проживают христиане-марониты, связанные унией с католической церковью, православные, мусульмане-шииты и мусульмане-сунниты. Необходимость договариваться и находить компромисссы, невзирая на непохожесть и подчас полярные религиозные установки, породила Коституцию 1943 года, закрепившую определенные государственные посты за представителями конкретных религиозных общин. Президентом страны, согласно данной конституции, может стать только маронит, премьер-министром - мусульманин-суннит, спикером парламента – мусульманин-шиит. Некоторые министерские портфели были закреплены за православными и друзами.

Дополнительное разнообразие местным ландшафтам придает летний наплыв на родину представителей ливанской диаспоры. Как известно, в мире на сегодняшний день проживают 23 миллиона ливанцев (6). Безработица и нехватка земли, а также трагические события гражданской войны вынудили многих жителей этой страны искать счастья за рубежом. В одной только Бразилии на сегодняшний день проживают 8 миллионов выходцев из Ливана. Большие диаспоры имеются в Аргентине, Франции, Соединенных Штатах, государствах Персидского залива. Ливанцы гордятся своими соотечественниками, получившими известность за границей - хирургом-кардиологом Майклом Дебейки, самым богатым человеком планеты - мексиканским мультимиллиардером Карлосом Слимом Хелу, а также колумбийской певицей Шакирой. На дорогах страны часто можно увидеть рекламные плакаты, явно предназначенные для богатых компатриотов: «Помоги родной стране! Инвестируй в Ливан!» (7).

Между тем, хрупкий межрелигиозный мир был взорван в середине семидесятых годов прошлого века. Кровавая гражданская война 1975-1990 гг., стоившая народу Ливана многочисленных жертв, была во многом спровоцирована действиями внешних сил. Годы смут научили ливанцев терпимости и сохранять межрелигиозный мир. В этом можно убедиться, наблюдая, как в пору Рамадана мусульмане приглашают на званые вечерние обеды (ифтар) своих христианских соотечественников, а христиане-марониты, ранее подчеркивавшие свою принадлежность к европейской цивилизации, достаточно дружелюбно относятся к своим согражданам-мусульманам.

Геополитическая роль Ливана в Восточном Средиземноморье не раз провоцировала соседние государства к попыткам взять эту страну под свой контроль. Особенно напряженными оказались отношения с соседним Израилем. В 1982 году произошла израильская интервенция в Ливан. Предлог был вроде бы вполне обоснованным: в охваченной анархией стране окопались террористы, нападавшие на израильскую территорию. Однако

борьба с террором вылилась в разрушение Бейрута вакуумными и кассетными бомбами, привела к гибели десятков тысяч мирных жителей (8).

Представляет интерес тот факт, что Ливан ненадолго стал второй арабской страной, подписавший в 1983 году мирный договор с Израилем. Согласно этому договору, Израиль вывел свои войска из территории Ливана, оставив за собой зону безопасности на юге страны. Однако примерно год спустя ливанское правительство под давлением Сирии разорвало это соглашение (9, с.61).

В 2006 году Ливан испытал новое вторжение израильской армии. Половина Бейрута была разрушена бомбардировками. Особенно обидно, по словам самих ливанцев, что к тому времени уже затянулись раны гражданской войны, а строительный бум в столице и восстановление инфраструктуры породили надежду на массовый наплыв туристов. Целью вторжения была ликвидация шиитского движения «Хезболлах», ставшего весомой политической силой в ливанском обществе (10).

В настоящее время отношения Ливана с соседним Израилем переживают очередную фазу обострения. Геологоразведка выявила на ливанском шельфе месторождения нефти и газа (насколько они значительны - вопрос пока спорный), и израильтяне сразу же предъявили претензии на эти территории, что, разумеется, вызвало бурю возмущения в Ливане. Вопрос о «нерушимости морских границ» является сейчас одним из самых злободневных в ливанской прессе.

Большое беспокойство в Ливане вызывает также нестабильность в соседней Сирии. В течение пятнадцати лет (1990-2005 гг.) сирийские войска выполняли в Ливане «интернациональный долг» и были здесь хозяевами положения. Позитивным итогом стало наступившее в стране спокойствие после гражданской войны. Однако произвол сирийских спецслужб привел к тому, что далеко не все ливанцы сейчас вспоминают сирийское господство добрым словом. В то же время никто, даже относящиеся к числу политических противников Дамаска, не желает, чтобы соседняя страна была погружена в хаос и анархию.

Многие ливанские политики убеждены, что события в Сирии спровоцированы внешними геополитическими игроками. «Обратите внимание на то, как проходили арабские революции, - говорит патриарх ливанской политики, 77-летний спикер парламента Набих Берри. Возмущения начинались в столицах и в больших городах. В Египте волнения начались в Каире, в Тунисе - в Тунисе, в Ливии восстание началось во втором по величине городе Бенгази. А что мы видим в Сирии? Ни в Дамаске, ни в Алеппо, где проживает большинство сирийцев, до сих пор не было значительных демонстраций. Волнения начались в Дераа, на границе с Иорданией. Как только их удалось успокоить, вспыхнули беспорядки на границе с Турцией. Подавили выступления там, начался мятеж в Дейр эль-Зоре, на границе с Ираком. Ясно, что без внешних сил здесь не обошлось» (7).

В 2005 году в ливанской политической жизни произошло событие, которое потрясло всю страну и надолго раскололо общество. В результате террористического акта погиб премьер-министр, богатейший бизнесмен Ливана Рафик Харири**.** В девяностые годы прошлого века Харири много сделал для послевоенного восстановления Ливана, вкладывая в местную экономику собственные средства и привлекая инвестиции западных стран. Противники сирийского присутствия в Ливане сразу же обвинили в причастности к убийству Сирию и союзное с ней ливанское движение «Хезболлах». Политические партии страны создали две большие коалиции: «Движение 8 марта» (просирийское) и «Движение 14 марта» (антисирийское). В состав «Движения 8 марта» вошли «Хезболлах», шиитское движение «Амаль» и Свободное Патриотическое Движение генерала Мишеля Ауна**.** Судьба этого христианского политика по-своему уникальна и не вписывается в классические схемы. В восьмидесятые годы он был активным противником сирийского

присутствия в стране и после подписания Таифских протоколов, которые фактически превращали Ливан в протекторат Сирии, был вынужден эмигрировать во Францию. Однако, вернувшись в 2005 году в Ливан, он взял курс на сотрудничество с сирийцами и их союзниками. Причиной такого поворота послужила тревога, которую испытывал генерал за судьбы христианской общины Ливана. Тесные отношения клана Харири с Саудовской Аравией беспокоили ливанского политика, опасающегося, как бы за саудовскими деньгами в Ливан не хлынули идеи ваххабизма и религиозной нетерпимости. О том, что такая угроза реальна, можно убедиться, побывав в Триполи - северной столице Ливана. В беднейших кварталах этого суннитского города, несомненно, чувствуется присутствие фундаменталистов, о чем свидетельствуют бородатые юноши и черные флаги партии «Хизб ут-Тахрир», запрещенной во многих мусульманских странах (7).

Сейчас на месте теракта в Бейруте находятся мемориальный комплекс Рафика Харири, к которому ливанцы ежедневно несут живые цветы, и роскошная мечеть, возведенная по проекту его сына Саада. Истина об убийстве Харири неизвестна до сих пор, но работа Международного специального трибунала по Ливану вносит раскол в ряды ливанских политиков, создает дополнительную нервозность, нарушая и без того хрупкий межобщинный баланс.

Заместитель генерального секретаря движения «Хезболлах» Аммар аль Мусауи так комментирует работу трибунала: «Случай международного трибунала по Ливану уникален. Это единственный международный орган такого рода, созданный для расследования убийства одного человека.

Молодой Саад Харири, возглавляющий «Движение 14 марта», в течение двух лет являлся также премьер-министром Ливана. Однако на этом ответственном посту он не проявил ни мудрости, ни дальновидности, свойственной его покойному отцу. Не сумев договориться с партнерами и оппонентами (а умение договариваться является едва ли не самым важным для ливанского политика), Харири оставил свой пост и уехал в Париж. Несколько месяцев страна жила без правительства, что, впрочем, не очень беспокоило терпеливых и философски относящихся к внутриполитическим сложностям ливанцев (6).

В целом, происходящие на Ближнем Востоке на протяжении последних десятилетий бурные международно-геополитические процессы не могли (и не могут) на современном этапе не затронуть в той или иной степени Страну Кедра как минимум в силу ее географического расположения и стратегического значения. К тому же рядом с такими беспокойными соседями, как Израиль и Сирия, а также стоящими за их спиной мировыми геополитическими игроками.

Ключевые слова: геополитическое соперничество, арабо-израильский баланс, жесткое внутреннее противостояние, радикально-исламистский блок, умеренный блок, концепция «многополярный мир».

Список использованной литературы

1. Фридман Дж. Израиль, Палестина, Ливан, Сирия: надежды сталкиваются с реальностью // www.stratfor.com

2. Маген Ц. Влияние России, Ирана и Израиля на политические процессы в ближневосточном регионе //В кн.: Геополитические процессы на Ближнем Востоке (Материалы Международной конференции, МГИМО (У) МИД России, М., 23 апреля 2009 г.) /Под редакцией А.В.Федорченко/ М.: МГИМО – Университет, 2010, (Серия: «Книги и брошюры ИМИ», т.14).

3. Али Мухиэддин. Трансформация политических процессов на Ближнем Востоке в постсоветскую эпоху / Геополитика постмодерна//2009-08-29
4. Ливан. Государственное устройство //kommentarii.org/strani_mira_eciklop
5. Государственное устройство и политическая система Ливана. - Страны мира //ru-world.net/livan-gosudarstvennoe-...
6. Кузнецов А. Почему Бейрут называют «глазами и ушами» арабского Востока? /Геополитика постмодерна // 2011-09-09
7. Геополитика постмодерна, 2011-09-09
8. Ливанская война (1982) //ru.wikipedia.org/wiki/Ливанская_вой...
9. Ближний Восток: война и политика. М., 2010.
10. Арабо-израильский конфликт: Война в Ливане 2006 //waronline.org/forum/viewtopic.php?t...

Leyla SÜLEYMANOVA

LİVAN VƏ YAXIN ŞƏRQDƏ GEOSİYASİ HADİSƏLƏR

Xülasə

Məqalədə Yaxın Şərqdə müasir dövrdə baş verən əsas geosiyasi hadisələr açıqlanır. Bu regionda yerləşən ölkələrdə, o cümlədən, Livanda başverən və regional və qlobal səviyyədə olan hadisələrə güclü təsir edən sərt qarşıdurmalara müxtəlif aspektdən aydınlıq gətirilmişdir. Livanın qonşu olduğu ölkələr İzrail və Suriya ilə münasibətlərinə və onların bu ölkədə gedən daxili siyasi prosseslərə olan təsirlərinə xüsusi yer ayrılmışdır.

Açar sözlər: geosiyasi rəqabət, Ərəb-İsrail balansı, sərt daxili münaqişə, radikal İslam bloku, orta vahid, «çoxqütblü dünya» anlayışı.

Leyla SULEYMANOVA

LEBANON AND GEOPOLITICAL PROCESSES IN THE MIDDLE EAST

Summary

The article describes the main geopolitical processes taking place at the present stage in the Middle East and reveales various aspects of the rigid internal conflicts in a several countries of the region including Lebanon, having a huge impact on events on the regional and global level. Considerable attention is paid to the relations between Lebanon and neighboring countries Israel and Syria, and relationship of these countries with the domestic political processes.

Keywords: geopolitical rivalry, Arabian-Israel balance, rigid internal opposition, radical-Islamic block, moderate block, conception «multipolar world».

UOT 327

Seymur MƏMMƏDOV
dissertant, BDU

AVROPANIN ENERJİ XƏRİTƏSİNDƏ AZƏRBAYCAN*

Neftlə zəngin Xəzər dənizinin karbohidrogen ehtiyatları hər zaman dünyanın aparıcı dövlətlərinin diqqət mərkəzində olub. ABŞ, Avropa Birliyi və Çin bunun bariz nümunəsidir. SSRİ-nin dağılması və yeni müstəqil dövlətlərin yaranması dünyanın enerji əldə etmək imkanlarını daha da genişləndirdi ki, əsas diqqət isə yenə də, Cənubi Qafqaz və Mərkəzi Asiya yönəldi. Ümumiyyətlə, bütün ekspertlərin ortaq rəyinə görə, XXI əsrdə Xəzər dənizi, yəni sahilyani ölkələr dünya enerji resursları mənbələri baxımından əsas yeri tutacaq.

Cənubi Qafqaz geosiyasi yerləşməsinə görə, xüsusi strateji əhəmiyyətə malikdir. Buna görə də ABŞ və başqa Qərb dövlətləri bu bölgədə iqtisadi cəhətdən möhkəmlənmək istəyirlər. Bu isə Cənubi Qafqazda təsir gücünü itirmək fikrində olmayan Rusiyanın maraqlarına ziddir. Çünki qərb, xüsusən də ABŞ-ın siyasəti Rusiyanı bu regiondan sıxışdırıb çıxartmağa istiqamətlənib. Bununla da demək olar ki, Cənubi Qafqaz və Xəzər hövzəsi öz geosiyasi çəkisinə görə, qlobal güclərin rəqabət, mübarizə və təsir zonasına çevrilir (1, s.172).

Xəzər dənizi ilk növbədə Avrasiyanın mərkəzində yerləşməsi ilə əhəmiyyətli ərazi sayılır. Münaqişə və qeyri-stabil bölgələrin əksəriyyəti Xəzər hövzəsi ilə birbaşa, yaxud dolayısı ilə kəsişir, yaxın ərazidə yerləşir. Buna misal kimi, İraq və Əfqanıstanı göstərmək olar. Xəzər dənizi ərazisindən həm də münaqişə bölgələri və "qaynar" nöqtələrə nəzarət eləmək imkanları da asanlaşır. Bu fakt da Xəzər amilini bir daha qabardır və əhəmiyyətini artırır.

İkinci mühüm amil Xəzər dənizinin zəngin mineral ehtiyatlarıdır. Burada isə, əsas yeri neft və qaz təşkil edir. Hazırki qiymətləndirmələrə görə, Xəzər dənizindəki neft ehtiyatları dünya neft ehtiyatlarının 4-9%-ni təşkil edir. Bu dunya enerji balansında kifayət qədər mühüm paydır. Bu baxımdan Xəzər dənizi dünyanın əsas neft hasilatçıları olan İran körfəzi ölkələrinə ciddi rəqib ola bilər. Həm də Xəzər hövzəsi İran körfəzi ilə nisbətdə ABŞ-la münasibətdə daha idarə olunandır.

Xəzər hövzəsinin üçüncü mühüm üstünlüyü bölgənin vacib nəqliyyat kommunikasiyasına sahib olmasıdır. Qərbin böyük Yaxın Şərqi modernləşdirmə istəyinin kökündə, isə bu regionun enerji-resurs potensialı ilə bağlıdır. Amma bu planların reallaşdırılması üçün boru-kəmər kommunikasiyaları marşrutunda təhlükəsiz mühit yaradılmalıdır. Burada isə, Cənubi Qafqaz, Xəzər hövzəsi və Yaxın Şərqdə gedən proseslər diqqətlə izlənilir. Bu isə, ABŞ-nın enerji təhlükəsizliyini təmin etmək sahəsində görməli olduğu əsas işlərdən biri kimi qiymətləndirilir.

Müasir iqtisadiyyatın əsas lokomotivi hesab edilən karbohidrogen ehtiyatlarının zənginliyi Azərbaycanın beynəlxalq iqtisadi və siyasi əlaqələrinin ana xəttini təşkil etməklə ölkəmizi dünya iqtisadiyyatının ciddi aktorlarından birinə çevirib. Qlobal enerji təhlükəsizliyi müasir dünya iqtisadiyyatında həllini gözləyən vacib problem kimi qiymətləndirilir. Təsadüfi deyil ki, ekspertlər növbəti 20 il ərzində Avropanın təbii qaz tələbatının 2 dəfə artacağını proqnozlaşdırırlar. Avropanın qaza olan ehtiyacı və bu tələbatın ildən-ilə artması yeni enerji marşrutlarının çəkilməsini gündəmə gətirir. Bu gün AB-nin illik qaz hasilatı 200 milyard kubmetrdən aşağıdır, istehlakı 500 milyard kubmetrdən yuxarıdır. AB qaz istehlakının 58%-ni idxal hesabına həyata keçirir, bunun isə 45%-ni təkcə Rusiyadan alır (3, s.140).

Artan tələbatın qarşılığında isə daxili istehsal illik 200 milyard kubmetrdən 100 milyard kubmetrə qədər azalacaq.

---

* Məqalə siyasi e.ü.f.d. Sənan Həsənov tərəfindən çapa məsləhət görülüb.

Azərbaycan milli suverenliyini qazandıqdan sonra, karbohidrogen resurslarından ölkə maraqları naminə istifadə edilməsinə start verdi. Bu məqsədlə yeni ixrac marşrutları yaradılmalı, daha sağlam tərəfdaşlar seçilməli və dünya bazarlarına birbaşa çıxış təmin edilməli idi. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilis-Ərzurum qaz (BTƏ) boru kəmərlərinin işə salınması Azərbaycanın qlobal enerji bazarlarında statusunu möhkəmləndirməklə yanaşı, ölkəmizin Avropa dövlətləri ilə iqtisadi əlaqələrini də gücləndirdi (4, s.184). Ötən müddət ərzində Azərbaycan dünya bazarında etibarlı tərəfdaş imici formalaşdıraraq, qlobal energi təhlükəsizliyinə də öz töhfəsini verir.

Azərbaycanın enerji resusları ilə zəngin olması, bu resurslara böyük ehtiyac duyulan Avropa ölkələrinin coğrafi yaxınlığında yerləşməsi, habelə resursların Avropa bazarlarına ixrac imkanları Azərbaycanın geosiyasi vəziyyətinin əhəmiyyətliliyini daha da artırır. Geosiyasi əhəmiyyəti artıran digər bir faktor da, ölkənin Mərkəzi Asiya ilə Avropa arasında bir növ körpü rolunu oynamaq imkanına malik olmasıdır. Avropa bazarına enerji resurslarının ixracatçısı olmaqla yanaşı, Azərbaycanın Türkmənistan təbii qazının və Qazaxıstan neftinin Avropa və dünya bazarına çıxarılmasında əhəmiyyətli mövqeyə malik olması ölkənin regional və beynəlxalq səviyyədə geosiyasi əhəmiyyətini şərtləndirən amillərdir.

Azərbaycan üçün ən uyğun təbii ixrac bazarları Avropa və Rusiyadır. Hazırda Azərbaycan 5 ölkəyə müxtəlif həcmlərdə qaz satır. Əsas ixrac bazarı isə Türkiyə hesab olunur. 2010-cu il ərzində Türkiyəyə 4,9 milyard m3, 2011-ci ildə 4,5 milyard m3 təbii qaz ixrac olunub. 2012-ci ildə isə bu rəqəm 6,6 milyard m3 təşkil edib. 1,5 milyard kubmetri Gürcüstana, 400 milyon kubmetri İrana, 750 min kubmetri isə Yunanıstana ixrac edilir. Həmçinin, Rusiyaya da qaz ixrac edilir. Əsas ixrac marşrutlardan biri Cənubi Qafqaz Boru Kəməri hesab olunur ki, bunun da yaxın illərdə ixracat potensialı artacaq. Proqnozlara görə, növbəti 5 il ərzində bu kəmərin ixracat gücü 24 milyard kubmetrə çatacaq ki, bunun da 8 milyardını Orta Asiya ölkələri - Qazaxıstan və Türkmənistan təmin edəcək. Yerdə qalan 16 milyard kubmetr isə Azərbaycanın payına düşəcək. Yəni, bunun 6 milyard kubmetri Türkiyə üçün nəzərdə tutulur, yerdə qalan 10 milyardı isə Avropa bazarına Azərbaycan özü satacaq (6).

Regionda həyata keçirilməsi planlanan bəzi Qərb dəstəkli enerji layihələri NABUCCO, ITGI və TAP əslində Cənubi Qafqazda və Xəzər Ətrafında qlobal partnyorların aktiv cəlb olunması üçün ilkin addım xarakteri daşıyır.

Sadaladığımız layihələrin hamısı Avropanın təbii qaz təchizatının Rusiyadan asılılığını azaltmaq məqsədi daşıyır. Təbii ki, bu asılılığı tamamilə aradan qaldırmaq mümkün deyil. NABUCCO, İTGİ və TAP kimi layihələrin reallaşdırılacağı təqdirdə Xəzər hövzəsinin təbii qaz ehtiyatlarını Avropaya nəql etməklə bu asılılığı nisbətən azaltmaq nəzərdə tutulur. İtaliya bəstəkarı Cüzeppe Verdinin 1842-ci ildə yazdığı operanın personajı Babil kralının adı ilə adlandırılan NABUCCO boru xəttinin uzunluğu 3 300 km planlaşdırılırdı. Xəzər regionundan Türkiyə və Balkan yarımadası vasitəsilə Mərkəzi Avropaya təbii qazın ixracı üçün nəzərdə tutulan «Nabucco» kəmərinin inşası məqsədilə yaradılan «Nabucco Gas Pipeline İnternational GmbH.» konsorsiumuna OMV (Avstriya), MOL (Macarıstan), «Transgaz» (Rumıniya), «Bulgargaz» (Bolqarıstan), «BOTAŞ» (Türkiyə) və RWE (Almaniya) şirkətləri qoşulub. Hər bir tərəfdaş şirkətin konsorsiumda payı 16,67% təşkil edir.

Vaşinqtondakı Atlantik Şurasının tədqiqatçısı, «Transxəzər» kəmərləri ideyasını irəli sürənlərdən biri Borut Grgic "The Finansial Times" qəzetindəki məqaləsində yazır ki, "Nabucco" kifayət qədər bahalı layihədir və bu kəməri doldurmaq üçün yetərincə qaz tapmaq hələ mümkün olmayıb. Bu baxımdan Bp şirkətinin irəli sürdüyü yeni qaz kəməri layihəsi kifayət qədər cəlbedici görünür. Çünki layihə "Nabucco"dan üç dəfə qısadır və dəfələrlə ucuz başa gəlir. Türkmən qazının bu kəmərlə nəqli perspektivləri xeyli dumanlıdır. Çünki bunun üçün Xəzərin dibindən kəmər çəkmək lazımdır. Belə vəziyyətdə Bp Türkiyə və Azərbaycanın artıq mövcud olan qaz

kəmərlərindən istifadə etməyi təklif edir. Ona görə də şirkətin təklif etdiyi layihə xeyli cəlbedicidir.

Layihələrin həyata keçirilməsinə gəldikdə isə artıq NABUCCO-nun ilkin formatda reallaşması mümkün deyil.

Azərbaycan qazının Türkiyəyə satışı və Türkiyə üzərindən tranziti məsələləri ilə bağlı yaranmış nisbi gərginlik 7 iyun 2010-cu il tarixində imzalanmış Azərbaycanla Türkiyə paket qaz anlaşma memorandumunun imzalanması ilə aradan qalxdı. 2011-cu ilin oktyabrın 25-də imzalanmış müqavilələrdən və 26 dekabrında imzalanmış Trans Anadolu Boru Kəməri (TANAP) ilə bağlı konsorsiumun yaradılmasına dair anlaşma memorandumundan və 2012-ci il 26 iyunda kəmərin tikintisi ilə bağlı imzalanmış hökümətlərarası sazişdən sonra NABUCCO-nun əvvəlki marşrut üzrə inşasını şübhə altına qoydu (2, s.163).

İki ölkə arasında imzalanmış sənədlər paketi isə enerji sahəsindəki əməkdaşlığı yeni keyfiyyət müstəvisinə çıxarmış oldu. TANAP ilə bağlı konsorsiumun yaradılmasına dair anlaşma memorandumunun imzalanması bu enerji əməkdaşlığını daha da canlandırdı. Konsorsiumun təsisçiləri kimi ilkin mərhələdə SOCAR (80%), BOTAŞ (10%) və TPAO (10%) çıxış edir. Gələcəkdə Şahdəniz layihəsində iştirak edən digər şirkətlərin də konsorsiuma cəlb olunması nəzərdə tutulub. 2012-2017-ci illərdə inşası nəzərdə tutulan TANAP-ın reallaşması Xəzər hövzəsinin təbii qaz ehtiyatlarının Avropaya daşınması məsələsində irəliyə doğru atılmış çox ciddi bir addım olacaq. Trans Anadolu Qaz Boru Kəməri - təbii qazı Türkiyənin Şərq sərhədindən Qərb sərhədinə daşıyacaq, bütün ölkədə sabit tranziti təmin edəcək. Layihə Azərbaycandan başlayan genişlənmiş Cənubi Qafqaz boru kəmərini Avropa Birliyində bir neçə kəmərlə əlaqələndirəcək. 5 il ərzində reallaşması nəzərdə tutulan layihənin dəyəri 7 mlrd. ABŞ dollarıdır. Dörd mərhələdə həyata keçiriləcək layihənin ilk mərhələsi 2018-ci ildə başa çatacaq. 2020-ci ildə kəmərin buraxılış qabiliyyəti ildə 16 mlrd., 2023-cü ildə 23 mlrd., 2026-cı ildə isə 31 mlrd. kubmetrə çatdırılacaq (7).

İlk dövrdə TANAP kəməri ilə nəql olunacaq 16 mlrd. kubmetr Azərbaycan qazının 10 mlrd. kubmetri Avropaya, 6 mlrd. kubmetri isə Türkiyəyə satılacaq. Avropa üçün nəzərdə tutulan qaz Türkiyə-Bolqarıstan və ya Türkiyə-Yunanıstan sərhədində təhvil veriləcək. TANAP layihəsində ARDNŞ 80%, Türkiyənin BOTAŞ və TPAO şirkətləri isə birlikdə 20% paya malikdir. 2014-cü il mayın 30-da İstanbul şəhərində "Şahdəniz-II" və "TransAnadolu" Təbii Qaz Boru Kəməri (TANAP) layihələrində Türkiyənin payının artırılması ilə bağlı imzalanma mərasimi keçirilib. Bununla da Türkiyə tərəfinin "Şahdəniz 2" layihəsindəki payı 9%-dən 19%-ə, TANAP layihəsindəki payı isə 20%-dən 30%-ə artırılıb. Bu isə Türkiyənin Xəzər dənizindəki investisiyalarda BP-dən sonra ikinci yerdə olması anlamı daşıyır.

İmzalanma mərasimindəki çıxışında Azərbaycanın Energetika naziri Natiq Əliyev cənub qaz dəhlizi layihəsinin təkcə Türkiyə ilə Azərbaycan arasında deyil, enerji sahəsində beynəlxalq münasibətlər çərçivəsində həyata keçirilən mühüm layihələr olduğunu vurğulamışdı.

TANAP layihəsinin işə düşməsi "Şahdəniz-II" layihəsi üzrə qaz hasilatına başlanması vaxtı ilə uzlaşdırılıb və 2019-cı il üçün nəzərdə tutulub. Azərbaycan Prezidenti İlham Əliyev 2012-ci il mart ayının 2-də Türkiyənin TRT kanalına verdiyi müsahibədə vurğulamışdı: "...bu gün Türkiyə-Azərbaycan enerji işbirliyi nəinki bölgə üçün, dünya üçün əhəmiyyətlidir. Birgə təşəbbüslərimiz – Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri, Transanadolu qaz layihəsi, bütün bunlar bizim birliyimizi daha da sıx edəcək, eyni zamanda, bölgədə və dünyada təsir imkanlarımızı daha da artıracaqdır".

Azərbaycan və Türkiyə konkret enerji layihələri ilə Avropanın enerji xəritəsini dəyişirlər. Azərbaycan və Türkiyə arasında Trans-Anadolu təbii qaz boru xətti (TANAP) layihəsinin imzalanması ilə qısaldırmış variant - „Nabucco-West" layihəsi meydana gəlmişdir. «Nabucco Gas Pipeline International GmbH» konsorsiumuna görə, qaz kəmərinin ilkin layihəsindən fərqli

olaraq, boru xəttinin məsafəsinin azalması ilə əlaqədar hazırkı layihənin smeta dəyəri ikiqat aşağı olacaq. «Nabucco-West» qaz kəməri layihəsinə əsasən 1315 kilometr uzunluğunda olan boru xətti Türkiyənin Bolqarıstanla sərhəddindən başlayaraq Avstriyanın Baumqarten qazpaylaşdırıcı məntəqəsinə qədər çəkilməlidir. «Nabucco-West» qaz kəməri layihəsinin tikinti xərcləri təxminən 4 milyard avro təşkil edəcəkdir.

TANAP boru xətti ilə nəqli olunacaq mavi yanacağı Türkiyənin qərb sərhədlərindən Avropa bazarlarına çıxarmaq üçün «Şahdəniz» konsorsiumu TAP əsas ixrac kəmərini seçdi.

Uzunluğu 870 kilometr olacaq Trans Adriatik Qaz Kəməri (TAP) Şahdəniz yatağının ikinci fazasının mavi qazını Türkiyə, Yunanıstan, Albaniya ərazisi ilə İtaliyaya çatdıracaq. Layihənin ümumi dəyəri təxminən 2,2 milyard ABŞ dollarına bərabərdir. TAP layihəsinin əsas mənbəyi "Şahdəniz"in ikinci fazası çərçivəsində hasil olunacaq qazdır. Proqnozlara əsasən, ikinci fazada hasilata 2016-cı ildə başlanacaq və TAP kəmərinin tikintisinə 3 il tələb olunacaq. İkinci mərhələdə Avropaya nəql olunacaq mavi yanacağın həcmi 20 milyard kubmetrə çatdırılacaq. Hazırda layihənin 3 səhmdarı var ki, bu, İsveçrənin "Axpo" (42,5%), Norveçin "Statoil" (42,5%) və Almaniyanın "E.ON Ruhrgas" (15%) şirkətləridir.

TAP Nabucco-dan 450 kilometr qısadır və deməli, iqtisadi baxımdan daha rentabellidir. Nabucco West-ə nisbətən kəmərin inşaat xərcləri xeyli az olacaq. Azərbaycan artıq öz qazını birbaşa Avropa bazarına, həm də bazar qiymətləri ilə çıxara biləcək. Bu isə ölkənin bir bazardan asılılığının aradan qalxması və Bakının mavi yanacaq ixracatında əsas nail olması anlamına gəlir. Odur ki, TAP anlaşması Azərbaycan üçün həm də siyasi-diplomatik əhəmiyyət daşıyır. Anlaşmadan birmənalı şəkildə udan tərəflər eyni zamanda qonşu Türkiyə və Gürcüstandır. Türkiyə TANAP-a sahib olmaqla eyni zamanda TAP-a da "ev sahibliyi" edəcək, ölkənin bu layihədən də öz daxili ehtiyacları üçün faydalanmaq imkanı olacaq. Türkiyəyə nəql edilən qazın illik həcmi 12,6 milyard kubmetrə yüksələcək. Gürcüstan yenə də tranzit ölkədir və TAP çərçivəsində qoyulacaq 45 milyard dollar sərmayənin 25 milyard dollardan artığı Azərbaycan və Gürcüstan iqtisadiyyatına yönəldiləcək.

2013-cü ilin dekbarın 17-də Azərbaycan enerji təhlükəsizliyi və enerji şaxələndirilməsi sahəsində daha bir strateji layihəyə imza atdi. Heydər Əliyev Mərkəzində "Şahdəniz-2" üzrə yekun investisiya sazişi imzalandı. "Şahdəniz-2" layihəsi Azərbaycan və Gürcüstan ərazisi boyunca Cənubi Qafqaz boru kəmərinin genişləndirilməsinə xidmət etməklə Trans-Anadolu və Trans-Adriatik qaz boru kəmərlərinin tikintisi ilə bağlı planların reallaşmasına təkan verəcək, Avropaya yeni qaz dəhlizi açacaqdır. 3500 kilometr məsafədə nəql olunacaq qazın Avropaya 2019-cu ildə çatdırılması planlaşdırılır (5).

"Şahdəniz" yatağının işlənməsi layihəsinin ikinci mərhələsi üzrə yekun investisiya qərarı uğurların, qətiyyətli praqmatik siyasətin davamı kimi dünya enerji siyasi palitrasında çox mühüm fundamental sənəd kimi xarakterizə oluna bilər. Çünki bu qərar dünyanın transenerji strukturunun ən mühüm komponenti kimi yanacağın şaxələndirilməsinə yeni üfüqlər açır. Azərbaycanın və xarici neft-qaz kompaniyalarının qətiyyəti və siyasi iradəsi nəticəsində regionun geosiyasi-iqtisadi xəritəsini dəyişən, enerji tarixinə qızıl hərflərlə yazılan ən mühüm hadisə baş verməsi ilə yanacağın çoxşaxəli diversifikasiyasının ana arteriyası işə düşmüş olur. Eyni zamanda, bu sistemin ən etibarlı və rentabelli seqmenti olan TAP layihəsi də strateji frazaya keçid almış olur.

1999-cu ildə kəşf olunan "Şahdəniz" yatağının işlənilməsinin birinci mərhələsi çərçivəsində 2006-cı ildən Gürcüstan və Türkiyəyə qaz ixrac edilir. "Şahdəniz" yatağının işlənilməsinin ikinci mərhələsi və "Cənub" qaz dəhlizi layihələri isə dünyanın neft-qaz sənayesində indiyə qədər həyata keçirilmiş ən böyük və mürəkkəb təşəbbüslərdən hesab olunur.

2014-cü il iyunun 3-də Bakıda keçirilmiş XXI Beynəlxalq Xəzər neft, qaz, neftayırma və neft kimyası sərgi və konfransında iştirak edən Azərbaycan Respublikasının prezidenti İlham Əliyev bildirmişdi: "Bu gün "Cənub" qaz dəhlizinin reallaşması böyük dərəcədə "Şahdəniz"

yatağının işlənilməsindən asılıdır. Sevindirici hal ondan ibarətdir ki, "Şahdəniz" qaz yatağının işlənilməsi ilə bağlı bütün məsələlər öz həllini tapıb. "Şahdəniz-2" layihəsinə start verilib. O vaxta qədər TANAP layihəsi imzalanıb və beləliklə, bizim qarşımızda hazırda heç bir maneə yoxdur.

Ancaq biz yaxşı xatırlayırıq ki, uzun illər ərzində Azərbaycan qazını Avropaya nəql etmək üçün danışıqlar gedirdi, söhbətlər aparılırdı, müxtəlif konfranslar, simpoziumlar təşkil edilirdi. Ancaq əfsuslar olsun ki, onların real nəticələri olmamışdır və sadəcə olaraq ildən-ilə müşahidə edilən müzakirələr, bəyanatlar, amma ortada bir şey yox idi. Biz isə istəyirdik ki, bu layihə reallaşsın. Çünki bizim həyata keçirdiyimiz bütün layihələr vaxtında, hətta vaxtından əvvəl reallaşır. Ona görə, biz heç vaxt imkan verə bilməzdik ki, "Cənub" qaz layihəsi gözəl bir layihə, ideya kimi qalsın.

Ona görə, həlledici anlarda biz bütün məsuliyyəti öz üzərimizə götürmüşdük və yeni layihənin icrası ilə bağlı təkliflərimizi vermişdik. Bu layihənin adını da biz vermişik – TANAP, Trans- Anadolu qaz kəməri. Bu layihənin reallaşması üçün biz çox böyük səylər göstərmişik və nəticə etibarilə 2012-ci ildə Azərbaycan və Türkiyə arasında müqavilə bağlandı. Bu gün TANAP layihəsi artıq reallıqdır. TANAP layihəsinin həyata keçirilməsi üçün artıq praktiki işlər başlamışdır və bu layihəyə diqqət artmaqdadır".

"Şahdəniz-2" layihəsinin, eləcə də Transadriatik boru kəmərinin həyata vəsiqə alması birbaşa Azərbaycan Prezidenti İlham Əliyevin siyasi qətiyyəti, prinsipial qərarı və xarizmatik liderliyinin, mükəmməl təşəbbüsünün məntiqi nəticəsi hesab oluna bilər. Məhz Azərbaycanın siyasi liderinin uzaqgörən praqmatik siyasi əzmkarlığı sayəsində 2011-ci ilin yanvarında Bakıda Azərbaycan və Avropa İttifaqı arasında XXI əsrin ən böyük iqtisadi-siyasi hadisələrindən biri olan "Cənub" qaz dəhlizinə dair Anlaşma Memorandumunun imzalanması ilə yeni enerji əməkdaşlığının əsası qoyuldu. Eyni zamanda, Azərbaycanın dövlət başçısı ilə Avropa Komissiyasının prezidenti Joze Manuel Barroza tərəfindən enerji sektorunda Strateji Əməkdaşlığa dair Bəyannamənin imzalanması "Şahdəniz-2" və TAP layihələrinin gerçəkləşməsində açar rolunu oynadı. Prezident İlham Əliyevin bəyan etdiyi kimi iki il əvvəl imzalanmış həmin memorandum proseslərin inkişafına dərin zəmin yaratdı. "Bu, öz növbəsində ölkəmizin enerji strategiyasının həyata keçirilməsinə və Avropa istiqamətində enerji təchizatının şaxələndirilməsinə yardım etmişdir. Ötən il biz Türkiyə ilə Transanadolu boru kəməri - TANAP-a dair tarixi saziş imzalamışıq. Bu il isə TAP layihəsi əsas ixrac marşrutu seçilmişdi. Nəhayət, bu gün biz "Şahdəniz-2" yekun investisiya qərarını imzalayırıq".

Azərbaycan Prezidenti İlham Əliyevin bəyan etdiyi kimi, "Şahdəniz- 2" enerji layihəsi dünyanın ən iri enerji layihələrindən biridir. Bu layihə enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Azərbaycan 19 il əvvəl "Əsrin müqaviləsi"ni imzalamaqla Xəzər dənizini xarici sərmayələrə açmışdır və ölkəmizin uğurlu iqtisadi inkişafını təmin etmişdir. "Həmin müqavilə XX əsrin müqaviləsi adlandırılmışdır. "Şahdəniz" isə düşünürəm ki, XXI əsrin müqaviləsi olacaqdır... Bu, Azərbaycanda ən böyük qaz yataqlarından birinin tammiqyaslı işlənməsi yolunda belə mühüm hadisələrin yalnız kiçik nümunəsi olmaqla, tarixin inikasıdır. Bu layihə regionun və Avropanın enerji xəritəsini dəyişdirəcək". Regional layihələrdə aparıcı mövqe qazanan respublikamız beynəlxalq miqyasda söz sahibi, milli maraqlar baxımından öz şərtlərini diktə edə bilən ölkəyə çevrilib.

"Şahdəniz" qaz yatağı dünyanın ən böyük yataqlarından biridir və Azərbaycanın qaz potensialının ən azı 50 faizini təşkil edir. Son illərdə ölkədə uğurlu kəşfiyyat işləri nəticəsində "Ümid" və "Abşeron" qaz yataqları aşkarlanıb. "Şahdəniz", "Ümid", "Abşeron" və digər yataqlarda olan qaz ehtiyatları 2,5 trilyon kubmetrə bərabərdir. Bu da həm Azərbaycanın, həm də Avropanın uzun müddət enerji təhlükəsizliyinin təmin edilməsi üçün öz rolunu oynaya bilər.

Dünya tarixində ən böyük sərmayə qoyuluşu olacaq bu anlaşma Azərbaycan mavi qazının Avropa bazarına birbaşa çıxarılmasını təmin edəcək. İlkin qiymətləndirmələrə görə, sərmayənin

həcmi 45 milyard dollardan artıqdır. Bu məbləğin yarıdan çoxu Azərbaycana investisiya ediləcək. "Yeni əsrin yeni layihəsi" kimi qiymətləndirilən bu layihə uzun müddətli dövrdə Azərbaycanın dövlət gəlirlərinin formalaşmasında lokamativ olacaq.

Beləliklə, bu anlaşma Azərbaycan üçün sadəcə iqtisadi mənfəət baxımdan deyil eyni zamanda strateji aspektdən də kifayət qədər əhəmiyyətlidir.

Əvvəlla, bu anlaşma Azərbaycanın dövlət gəlirlərinin uzun müddətli dövrdə və strateji olaraq təmin edilməsi baxımdan əhəmiyyətlidir. Belə ki, ilkin qiymətləndirmələrə əsasən, Azərbaycanın Şahdəniz yatağının birinci və ikinci fazasının işlənməsindən əldə etdiyi gəlirin həcmi 200 milyard dollara yaxın olacaqdır. Bu isə, dövlətin və eləcə də ölkə əhalisinin iqtisadi gəlirlərinin kəskin artırılması baxımdan ciddi maliyyə mənbəsinin yaranması deməkdir.

İkincisi, Şahdəniz yatağının ikinci fazasının mavi qazınını Türkiyə və Avropa bazarına 2018-ci ildən başlayaraq daxil olacağını nəzərə aldıqda bu eyni zamanda Azərbaycan enerji resurslarının satışından əldə etdiyi gəlirlərinin də stabil olaraq tənzimlənməsinə imkan verəcəkdir. Mavi qaz satışından əldə edilən gəlirlərin stabil olaraq artması eyni zamanda Hasliatın Pay Bölgüsü üzrə neft ixracının mərhələli aşağı düşməsinin iqtisadiyyata hər hansı mənfi təsirlərinin qarşısını almış olacaq. Bu isə o deməkdir ki, bu anlaşma mərhələli olaraq Azərbaycan neft dövrün uzun müddətli qaz dövrü ilə əvəzlənməsi deməkdir.

Üçüncüsü, Azərbaycan bu anlaşma ilə eyni zamanda müstəqilliyinin daimi təmin edilməsi üçün bir daha yeni zəmin formalaşdırdı. Azərbaycanın mavi qazının Avropa bazarına çıxarılmasına qarşı kifayət qədər xarici təzyiqlər var idi. Praktik olaraq, ölkəmiz Xəzər hövzəsində Avropa Birliyi ilə danışıqlarda sonadək öz mövqeyini qoruyub saxlayan yeganə dövlət oldu. Birliyinin Türkmənistan ilə apardığı uzun sürən danışıqlara baxmayaraq Cənub Qaz Dəhlizində Aşqabadın iştirakına nail olmaq mümkün olmadı. Buna rəğmən, Azərbaycan həm TANAP, həm də TAP-ın reallaşmasına nəinki töhvə verdi, hətta birbaşa iştirak etdi. Ölkəmizin müstəqil qərarı eyni zamanda Azərbaycanın regionda müstəqil fəaliyyətinin nəticəsi kimi qiymətləndirilə bilər.

Dördüncüsü, bu qərarla Azərbaycan Avropanın enerji təhlükəsizliyinə ciddi töhvə vermişdi. Bu layihənin reallaşması Avropanın Rusiyadan mavi yanacaq asıllığını azaldacaq. Birinci mərhələdə ildə 10 milyard kubmetr qaz Rusiyadan yan keçməklə Avropa bazarına çıxarılacaq. Növbəti mərhələdə bu, 21 milyard kubmetrə çatdırılacaq. Əgər TAP-ın ötürmə qabiliyyətinin 60 milyard kubmetr olduğunu nəzərə alsaq, bu, o deməkdir ki, "Abşeron" yatağı da istifadəyə veriləndən sonra Avropa Birliyi göstərilən həcmdə qazı Azərbaycandan idxal edəcək. Elə birinci mərhələdə Avropa bazarına çatdırılacaq mavi yanacaq, bir neçə ölkənin tələbatını ödəmək baxımından böyük əhəmiyyət daşıyacaq. Mavi yanacaq baxımından Rusiyadan 97 faiz asılı olan Bolqarıstan, 98 faiz asılı olan Macarıstan da TAP-dan yararlanan ölkələr olacaqlar. Ümumilikdə TAP Avropanın Mərkəzi Şərqində, eləcə də cənubi Avropada enerji təhlükəsizliyinin formalaşmasına ciddi müsbət təsir göstərəcək.

Beşincisi, Azərbaycanın bu qərarı qonşular xüsusən də Rusiya ilə münasibətlərin əvvlki kimi yaxşı səviyyədə qalmasına imkan verəcək. TAP layihəsinin seçilməsi Rusiya-Azərbaycan münasibətlərinin kəskinləşməsinə səbəb olmayacaq. Bu kəmər daha çox İtaliya bazarına hədəflənib. Düzdür, Rusiya da İtaliya bazarına çıxmağı planlaşdıran bir ölkə idi. Azərbaycanın bu bazara çıxışı Rusiyanın istəyini arxa plana saldı. Amma gələcəkdə bu layihə Rusiyanı məcbur edəcək ki, növbəti mərhələdə Cənub Axını layihəsini təxirə salsın, bu istiqamətdə müzakirəni dayandırsın. Avropa Birliyi isə TAP layihəsinin seçilməsində maraqlı tərəf idi. Çünki bu, Avropanın enerji siyasətinə, enerji təhlükəsizliyinə xidmət edəcəkdir. Paralel olaraq, TAP layihəsinin reallaşmasından Türkiyə və Gürcüstan kimi ölkələr də gəlir əldə edəcəklər. Bununla yanaşı, TAP vasitəsilə ixrac olunan qazın müəyyən hissəsi həmin ölkələrin daxili istehlakı üçün istifadə olunacaq. Şirkətlər səviyyəsində isə TAP layihəsi imkan verəcək ki, SOCAR Avropa Birliyi ölkələrinin bazarlarına çıxacaq, investisiya yatıra biləcək. Bütün bunları nəzərə alaraq

demək olar ki, TAP Azərbaycan üçün qonşular ilə münasibətdə də strateji layihədir. Bu layihə üzərində dayanmaqla, rəsmi Bakı siyasi-diplomatik addım atdı. Həm bölgədə aparıcı qüvvələrlə, o cümlədən Rusiya və Avropa Birliyi ilə münasibətlərini əvvəlki səviyyədə saxladı, hətta yaxşılaşdırdı, həm də iqtisadi gəlir əldə etmə imkanını genişləndirdi.

Altıncısı, Azərbaycan üçün TAP eyni zamanda rentabeliyi təmin edilmiş layihədir. NABUCCO-WEST-lə müqayisədə TAP boru kəməri 450 kilometr qısadır. Bu da onun çəkiliş xərclərinin daha az olmasına şərait yaradır. Rentabellik baxımından bu, olduqca vacibdir. Yəni, tikinti xərclərinin az olması layihənin daha rentabelli işləməsini şərtləndirən amildir. Azərbaycan üçün bunun iqtisadi üstünlüyü ondan ibarətdir ki, TAP layihəsi vasitəsilə ölkəmiz daha bahalı bazara, qiymətlərin daha yüksək olduğu bazara çıxış imkanı qazanır. Nəzərə almaq lazımdır ki, TAP İtaliyanın mavi yanacağa olan tələbatına hesablanıb. Bu da Azərbaycana imkan verir ki, öz qazını daha yüksək qiymətə təklif edə bilsin. Digər tərəfdən, Azərbaycan TAP layihəsini reallaşdırmaqla, birmənalı şəkildə bir neçə bazara öz qazını çıxarmaq imkanı qazanır. Buna misal olaraq, TANAP vasitəsilə Türkiyə, həmçinin Gürcüstan, Rusiya, eləcə də Avropanın digər ölkələrinə, o cümlədən Albaniya, Baltik ölkələrinə, xüsusən də Bosniya və Hersoqovina, Bolqarıstan, Monteneqro, İtaliya bazarlarına çıxışı qeyd edə bilərik. Göründüyü kimi, TAP sayəsində Azərbaycanın bir bazardan asılılığı aradan qalxır. Azərbaycan qazını istədiyi qiymətə bazara çıxara biləcək. Xatırladım ki, Prezident İlham Əliyev də ölkəmizin mavi yanacaq strategiyasında yalnız Azərbaycanın maraqlarına uyğun olan qiymətlə qazın xarici bazarlara çıxarılmasına üstünlük veriləcəyini bəyan etmişdi. Bu baxımdan, Azərbaycan TAP layihəsinə qoşulmaqla, praktiki olaraq bu hədəfə çata bildi. Ən nəhayət, TAP imkan verir ki, Azərbaycan birbaşa, heç bir tranzit olmadan öz qazını Avropaya çıxarsın. Bu, Avropa bazarına ilk daxilolma sayılacaq. Bununla Azərbaycan Şərq Tərəfdaşlığı proqramı çərçivəsində regionda Avropanın enerji təhlükəsizliyinə töhfə verən ilk ölkə kimi tarixə düşəcək.

Yeddincisi, Azərbaycan Dövlət Neft Şirkəti TANAP-da əsas investor olmaqla yanaşı TAP-da da aparıcı sərmayəçilərdən biri kimi iştirak edəcək. Bu isə təbii ki, Neft Şirkəti üçün yeni sərmayə imkanları və eləcə də yeni bazar deməkdir. Təbii ki, bu investisiyaların rentabelli olması SOCAR-ın timasılında Azərbaycan daxil olunan vəsaitlərin həcmini artıracaq.

Həhayət, TAP boru xəttinin çəkilməsi onun Azərbaycana daxil olmaqla keçdiyi ölkələrdə yeni iş yerlərinin açılması deməkdir. Layihə çərçivəsində 30 min yeni iş yerinin yaradılması nəzərdə tutulur. Yeni iş yerlərinin əhəmiyyətli hissəsi ölkəmizin payına düşəcək. Bununla yanaşı, digər iştirakçı ölkələrin də məğluq sferası bu layihədən faydalana biləcək. Məsələn, layihə çərçivəsində Yunanıstanda 2 min yeni iş yerinin yaranması, bu ölkənin iqtisadiyyatına 1,5 milyard, Albaniya iqtisadiyyatına isə 1 milyard avro investisiya qoyulması, mindən artıq yeni iş yerinin açılması gözlənilir.

Bütövlükdə, təsdiq edilmiş neft ehtiyatları 1,5 milyard ton, qaz ehtiyatları isə "Abşeron" yatağının ehtimal edilən 350 milyard kubmetrlik qaz potensialı da daxil edilməklə 2,55 trilyon kubmetr ola Azərbaycanın etibarlı tərəfdaş imici və Avropaya çıxış imkanları ölkəmizin əhəmiyyətini daha da artırır. Hazırki imkanlarla Azərbaycan Avropa ölkələrinin ümumi qaz tələbatını 10 ilə yaxın ödəmək gücünə malikdir. Lakin respublikamızın ehtiyatlarının bununla bitdiyini demək doğru deyil. Çünki bir sıra mütəxəssislər hesab edirlər ki, Xəzərin Azərbaycan sektorunda kəşf edilməmiş neft-qaz ehtiyatları hələ kifayət qədərdir. Digər mühüm məqam isə Xəzər regionunun enerji resurslarını Avropa bazarlarına Rusiyadan kənar keçməklə çıxaracaq ən optimal yolun məhz Azərbaycandan keçməsidir. Bu səbəbdəndir ki, AB-nin Azərbaycanla apardığı müzakirələrdə və həyata keçirilməsi planlaşdırılan layihələrdə respublikamız sadəcə ixracatçı kimi deyil, həmçinin tranzit ölkə olaraq iştirak edir. Azərbaycanın qaz potensialı növbəti on ildən sonra ixracın həcmini təxminən 60 milyard kubmetrə qədər artırmaq imkanı yaradır.

Açar sözlər: Azərbaycan, enerji, neft, qaz, NABUCCO, TANAP, TAP, Avropa.

İstifadə olunmuş ədəbiyyat

1. Dr Shirin Akiner. Caspian: Politics, Energy and Security. Curzon. London. 2004, UK, p. 406.
2. Дарабади П. Кавказ и Каспий в мировой истории и геополитике XXI века. М.: Весь мир, 2010.
3. Давыдов А.В. Энергетическая безопасность и энергосбережение как основные направления развития экономики России. Молодой ученый, № 5, 2012.
4. Doç. Dr. Osman Nuri Aras, Elçin Süleymanov. Azərbaycan İqtisadiyyatı. Bakı, 2010, s.301.
5. http://azertag.com/node/1172565. Bakıda "Şahdəniz-2" üzrə yekun investisiya qərarının imzalanması mərasimi olmuşdur
6. http://www.europeanenergyreview.eu/site/pagina.php?id=3544
7. http://enerjienstitusu.com/2013/03/19/tanapta-anlasma-tamam/

Сеймур МАМЕДОВ

АЗЕРБАЙДЖАН НА ЭНЕРГЕТИЧЕСКОЙ КАРТЕ ЕВРОПЫ

Резюме

В данной статье прежде всего обосновывается тот факт, что Азербайджанское государство играет важную роль в деле обеспечения энергетической безопасности Европы. Также обстоятельно анализируется сущность энергетической карты.

Известны два направления энергетической карты: первое (диверсификация энергетических ресурсов) – экономического характера, второе (выход на мировой рынок) - в основном политического характера. Автор подробно анализирует все эти и многие другие вопросы.

Ключевые слова: Азербайджан, энергетика, нефть, газ, NABUCCO, TANAP, TAP, Европа.

Seymur MAMMADOV

AZERBAIJAN ON THE POWER MAP OF EUROPE

Summary

In the article, first of all, the fact is with grounded that the Azerbaijani state plays an important role in providing energy security of Europe. The essence of the power card is also thoroughly analyzed. Two directions of the power card are well-known. The first direction is diversification of energy resources, it is of economic character. The second one is an entry into the world market, it generally has political character. In this article all these and other moments are analyzed by the author.

Keywords: power-engineering, oil, gas, NABUCCO, TANAP, TAP, Europe.

HÜQUQ BÖLMƏSİ

UOT 343.1

İsaxan VƏLİYEV
hüquq ü.e.d., professor, şöbə müdiri,
AMEA FHİ

CİNAYƏTDƏN ZƏRƏR ÇƏKMİŞ ŞƏXSLƏRƏ KOMPENSASİYA VERİLMƏSİNİN AZƏRBAYCAN MODELİ BARƏDƏ*

Qüvvədə olan Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində zərər çəkmiş şəxsə kompensasiya verilməsi məsələsi (*AR CPM-in XX fəsli, 189-191-ci maddələr*) cinayət mühakimə icraatında əmlak məsələlərinə aid edilmişdir (1). Nəzərə almaq lazımdır ki, «Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» 14.07.2000-ci il tarixli Qanunun 2-ci maddəsinə əsasən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin andlı iclasçılara, habelə zərər çəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaları məhkəmə hüquq islahatı başa çatdıqdan və müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minir (*bu o deməkdir ki, zərər çəkmiş şəxsə kompensasiya verilməsi haqqında qaydalar hal-hazırda tətbiq edilmir – İ.Vəliyev*). Bununla belə hesab edirik ki, zərər çəkmiş şəxsə kompensasiya verilməsi institutu müasir dövrdə cinayət-prosessual hüququn aktual məsələlərindən biri olduğu üçün tədqiqatçı alimlərin diqqətindən kənarda qalmamalıdır.

Lakin bu məqalədə nəzərdən keçirilən institut hazırda təcrübədə tətbiq edilməyən bir hüquq institutu olduğu üçün, onun tədqiqat metodologiyası digər hüquq institutlarının tədqiqat metodologiyasından onunla fərqlənəcəkdir ki, institutun mahiyyətinin izah edilməsi qüvvədə olan qanunvericiliyin normaları müasir təcrübədən daha çox, onun tam həcmdə tətbiq edildiyi xarici ölkələrin təcrübəsinə və həmin institut barədə nəzəri fikirlərə əsaslanılmalı olacaqdır.

Fikrimizcə, ilk növbədə bu institutun Azərbaycanın cinayət prosesinə gəlişi tarixinə, belə demək olarsa, onun genezisi məsələsinə diqqət yetirmək məqsədəuyğun olardı. Qeyd edilməlidir ki, zərər çəkmiş şəxsə kompensasiya verilməsi instututu sovet cinayət-prosessual qanunvericiliyi ilə nəzərdə tutulmurdu. Bu anlamda, nəzərdən keçirilən institut post-sovet cinayət prosesi konsepsiyasının elementi hesab edilə bilər. Onun ilk təzahürünə MDB dövlətləri üçün hazırlanmış və qəbul edilmiş Model CPM-də (*17 fevral 1996-cı il tarixdə MDB-nin iştirakçı dövlətlərinin Parlamentlərarası Assambleyasının 7-ci Plenar iclasında qəbul edilmişdir*) rast gəlinir. Model CPM-in 24-cü fəsli «Zərər çəkmiş şəxsə dəymiş ziyanın əvəzinin müstəqil dövlət tərəfindən kompensasiya edilməsi» adlandırılmışdı və həmin fəslin sisteminə 204-206-cı maddələr aid edilmişdi. Model CPM-in «Zərər çəkmiş şəxsin müstəqil dövlətin hesabına kompensasiya almaq hüququ» adlanan 204-cü maddəsinə əsasən, zərər çəkmiş şəxs müstəqil dövlətin büdcəsi hesabına cinayət qanunu ilə qadağan edilmiş əməllə ona vurulmuş ziyana görə kompensasiya almaq hüququna o zaman malik olur ki, onun barəsində belə əməlin törədilmiş olması faktı 1) məhkəmənin hökmü ilə; 2) cinayət təqibi orqanının yekun qərarı və ya 3) məhkəmənin və ya cinayət təqibi orqanının cinayət işi üzrə icraatın dayandırılması haqqında qərarı ilə müəyyən edilmiş olsun.

---

* Məqalə hüquq ü.e.d., professor Bəhram Zahidov tərəfindən çapa məsləhət görülüb.

Model CPM-in «Zərər çəkmiş şəxsə müstəqil dövlətin hesabına ödənilən kompensasiyanın məbləği» adlanan 205-ci maddəsi zərər çəkmiş şəxsə dövlət hesabına ödənilməli olan kompensasiyanın məbləğini zərər çəkmiş şəxsə qarşı törədilmiş cinayət əməlinin ağırlıq dərəcəsinə görə differensiasiya edir. Model CPM-də məbləğin hesablanması vahidi kimi minimal əmək haqqı kateqoriyasından istifadə edilir və qeyd olunur ki, zərər çəkmiş şəxsin, ona qarşı müstəsna dərəcədə ağır cinayət törədildikdə minimal əmək haqqının əlli misli, xüsusilə ağır cinayət törədildikdə minimal əmək haqqının otuz misli, ağır cinayət törədildikdə isə minimal əmək haqqının on misli məbləğində kompensasiya almaq hüququ vardır. Model CPM-in «Zərər çəkmiş şəxsə müstəqil dövlətin hesabına kompensasiya verilməsi məsələsinin həlli qaydası» adlanan 206-cı maddəsində qeyd edilir ki, zərər çəkmiş şəxsə cinayət qanunu ilə qadağan edilmiş əməllə vurulmuş ziyana görə müstəqil dövlətin hesabına kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi əsasında məhkəmə həll edir.

Yeri gəlmişkən qeyd edək ki, Sovetlər dönəmində cinayət mühakimə icraatında vurulmuş zərərin ödənilməsi ilə bağlı məsələlər bu və ya digər həcmdə, SSRİ Ali Soveti Rəyasət Heyətinin «Dövlət təşkilatlarının və ictimai təşkilatların, habelə xidmət vəzifələrini icra edərkən vəzifəli şəxslərin qanunsuz hərəkətləri ilə vətəndaşa dəymiş zərərin əvəzinin ödənilməsi haqqında» 18 may 1981-ci il tarixli Fərmanı ilə tənzim edilirdi. Həmin Fərmanın 2-ci bəndində qeyd edilirdi: «Qanunsuz olaraq məhkum etmək, qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb etmək, qanunsuz olaraq qətimkan tədbiri kimi həbsə almaq, qanunsuz olaraq həbs və ya islah işləri şəklində inzibati tənbeh vermək nəticəsində vətəndaşa dəymiş zərərin əvəzi təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının vəzifəli şəxslərinin təqsirindən asılı olmayaraq dövlət tərəfindən tam həcmdə ödənilir. Bəraət hökmü barəsində qərar çıxarıldığı; cinayət hadisəsi olmadığına görə və ya cinayətin törədilməsində vətəndaşın iştirakı sübut edilmədiyinə görə cinayət işinə xitam verildiyi; inzibati hüquq pozuntusu haqqında işə xitam verildiyi şəraitdə zərərin əvəzinin ödənilməsi hüququ meydana çıxır». Fərmanın 3-cü bəndinə əsasən, yalnız 1981-ci il iyunun 1-dən sonra barəsində qanunsuz hərəkətlər edilmiş vətəndaşlar həmin Fərmanın 2-ci maddəsinə uyğun olaraq zərərin əvəzini almaq hüququna malik idilər. Həmçinin, nəzərdən keçirilən Fərmanla «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri ilə vətəndaşa dəymiş zərərin əvəzinin ödənilməsi haqqında» Əsasnamənin təsdiq edildiyi də qeyd edilməlidir.

Bununla belə, nəzərdən keçirilən Fərmanla hər hansı bir şəxsə cinayətdən zərər çəkdiyinə görə kompensasiya verilə bilinməsi üçün onun barəsində yalnız təhqiqat, istintaq, prokurorluq və ya məhkəmə tərəfindən ədalət mühakiməsi əleyhinə cinayətlərdən biri (məsələn, qanunsuz olaraq məhkum etmə, qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb etmə, qanunsuz olaraq qətimkan tədbiri kimi həbsə alma və s.) törədilmiş olmalı idi. Həmin dövrün təcrübəsində isə belə hallara demək olar ki, rast gəlinmirdi. Bu səbəbdən, Sovetlər dövründə cinayət qurbanlarına kompensasiya verilməsi institutu işlək bir mexanizmə malik deyildi.

Yeri gəlmişkən qeyd edək ki, 15 mart 1996-cı il tarixdə «Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi vaxtilə ədalət mühakiməsi əleyhinə törədilmiş cinayətlərdən (repressiyalardan) zərər çəkmiş şəxslərin pozulmuş hüquqlarının bərpası istiqamətində dövlət tərəfindən atılmış əhəmiyyətli addımlardan biri olmuşdur. Adı çəkilən Qanunun əhəmiyyəti ondan ibarətdir ki, həmin Qanunla 1920-ci il aprelin 28-dən başlayaraq Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insanın öz siyasi əqidəsinə, fəaliyyətinə, başqa cür düşündüyünə və ayrı səbəblərə görə repressiyalara məruz qalması dövlət tərəfindən rəsmi şəkildə tanınmışdır. Barəsində bəhs olunan Qanun məhz Azərbaycan Respublikası ərazisində törədilmiş siyasi repressiyaların qurbanlarına bəraət verilməsi, onların siyasi, sosial və vətəndaşlıq hüquqlarının

bərpa edilməsi, mənəvi itkilərinin əvəzinin ödənilməsi, həmçinin özbaşınalığın başqa nəticələrinin aradan qaldırılması üçün hüquqi əsasları müəyyən etmək məqsədi ilə qəbul edilmişdi. Qanunun 1-ci və 2-ci maddələrində «siyasi repressiya» və «siyasi repressiya qurbanları» kateqoriyalarına aşağıdakı kimi anlayışlar verilmişdir. Siyasi repressiya dedikdə, siyasi mülahizələrə görə dövlət tərəfindən tətbiq edilən, məhkəmələrin və mühakimə funksiyaları verilmiş başqa orqanların qərarı ilə yaxud icra hakimiyyəti orqanları və vəzifəli şəxslər, inzibati səlahiyyət verilmiş ictimai təşkilatlar və ya onların orqanları tərəfindən inzibati qaydada icra olunan, həyatdan və ya azadlıqdan məhrumetmə, qeyri-qanuni məcburi müalicə üçün ruhi müalicəxanaya yerləşdirmə, ölkədən çıxarma və vətəndaşlıqdan məhrumetmə, əhali qruplarını yaşayış yerindən çıxarma, sürgünetmə, köçürtmə və xüsusi məskənə göndərmə, azadlığın məhdudlaşdırılması şəraitində məcburi əməyə cəlbetmə şəklində müxtəlif məcburiyyət tədbirləri, habelə sinfi, sosial, milli, dini və ya sair əlamətlərə görə dövlət və ya siyasi quruluş üçün sosial təhlükə sayılan şəxslərin hüquq və azadlıqlardan başqa cür məhrum edilməsi və ya bunların məhdudlaşdırılması başa düşülür. Qanunun kontekstində siyasi repressiya qurbanları dedikdə isə, siyasi repressiyanın müxtəlif növlərinə məruz qalmış şəxslər, onların ailə üzvləri, o cümlədən öz valideynləri və ya qohumları ilə birlikdə repressiyanın icra edilməsi (sürgünün, köçürtmənin, cəzanın çəkilməsi) yerlərində olan şəxslər, repressiyanın icra edilməsi yerlərində anadan olmuş uşaqlar, həmçinin siyasi repressiya kimi ölüm cəzasına məhkum edilmiş şəxslərin uşaqları başa düşülür. Nəzərdən keçirilən Qanunun daha bir müsbət cəhəti ondan ibarətdir ki, onun bəraət verilməsi qaydasına aid hissəsi yaşayış yerindən asılı olmayaraq, 1920-ci il aprelin 28-dən 1991-ci il oktyabrın 18-dək olan dövrdə Azərbaycan Respublikası ərazisində siyasi repressiyaya məruz qalmış şəxslərə şamil edilir. Bundan başqa, həmin Qanunun müddəalarına əsasən, göstərilən dövrdə SSRİ-nin tərkibinə daxil olan başqa respublikaların ərazisində repressiyaya məruz qalmış Azərbaycan Respublikası vətəndaşlarına bəraət almaqda köməklik göstərir.

Doğrudur, bu Qanun bizim məqalədə nəzərdən keçirilən hüquq institutu – «cinayət qurbanlarına kompensasiya verilməsi» kontekstində siyasi repressiya qurbanlarına kompensasiya ödənilməsini nəzərdə tutmur, lakin ədalət mühakiməsi əleyhinə törədilmiş cinayət növündə repressiya qurbanı olmuş zərər çəkmişlərin pozulmuş hüquqlarının bərpası üçün dövlətin geniş öhdəliklərini müəyyən edir. Belə ki, Qanuna əsasən, bəraət verilmiş şəxslərin siyasi repressiya ilə əlaqədar dövlət mükafatından, elmi dərəcədən, hərbi rütbədən, pensiyadan və başqa hüquqlardan məhrum edilməsi haqqında qərarlar qüvvədən düşmüş sayılır.

Bilavasitə sahəvi, yəni məhz cinayət-prosessual qanunvericilikdə zərər çəkmiş şəxsə kompensasiya verilməsi institutu 2000-ci ildə qəbul edilmiş AR CPM-də də öz təsbitini tapmışdır. Hal-hazırda AR CPM-də «Zərər çəkmiş şəxsə kompensasiya verilməsi» adlanan XX fəsil (*189-191-ci maddələr*) mövcuddur.

AR CPM-in «Zərər çəkmiş şəxsin kompensasiya almaq hüququ» adlanan 189-cu maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi aşağıdakılarla müəyyən olunur: 1) məhkəmənin hökmü ilə; 2) cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə.

Göründüyü kimi, Model CPM-dən fəqli olaraq, AR CPM-də icraatın dayandırılması haqqında qərar əsasında zərər çəkmiş şəxsə kompensasiya verilməsi imkanı nəzərdə tutulmasa da, ümumən, AR CPM-in 189-cu maddəsi Model CPM-in 204-cü maddəsinin nümunəsi əsasında qurulmuşdur.

«Zərər çəkmiş şəxsə verilən kompensasiyanın miqdarı» adlanan 190-cı maddənin müddəalarına əsasən isə zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyana görə aşağıdakı məbləğdə kompensasiya almaq hüququna malikdir: 1) ona

qarşı xüsusilə ağır cinayət törədildikdə – üç yüz otuz manat; 2) ona qarşı ağır cinayət törədildikdə – yüz altmış beş manat; 3) ona qarşı az ağır cinayət törədildikdə – əlli beş manat; 4) ona qarşı böyük ictimai təhlükə törətməyən cinayət törədildikdə – on bir manat.

Zərər çəkmiş şəxsə verilən kompensasiyanın miqdarı məsələsində də AR CPM Model CPM-dən kompensasiyanın miqdarının cinayətin ağırlıq dərəcəsinə əsasən müəyyən edilməsi texnikasını götürsə də, Model CPM-dən fərqli olaraq, AR CPM-də hətta böyük ictimai təhlükə törətməyən cinayətə görə də kompensasiyanın ödənilməsi nəzərdə tutulmuşdur.

Nəhayət, AR CPM-in «Zərər çəkmiş şəxsə dövlət hesabına kompensasiya verilməsi məsələsinin həlli qaydası» adlanan 191-ci maddəsinin müddəalarına görə zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana bağlı kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə həll edir. Bu zaman kompensasiya Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına ödənilir. Zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi məsələsi ittiham hökmündə əks etdirilərkən məhkəmə habelə hökmdə kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutularaq dövlət büdcəsinə qaytarılmasını da əks etdirir.

Zərər çəkmiş şəxsə dövlət hesabına kompensasiya verilməsi məsələsinin həlli qaydası həm AR CPM-də, həm də Model CPM-də demək olar ki, eyni cür müəyyən edilmişdir.

AR CPM-in qüvvəyə minməsindən sonra bu günə qədər zərər çəkmiş şəxsə kompensasiya verilməsi haqqında qaydalara yalnız bir dəfə dəyişiklik edilmişdir: Azərbaycan Respublikasının 02.06.2008-ci il tarixli Qanunu (11) ilə AR CPM-in 190.0.1-ci maddəsində «şərti maliyyə vahidi məbləğinin üç yüz misli miqdarında» sözləri «üç yüz otuz manat», 190.0.2-ci maddəsində «şərti maliyyə vahidi məbləğinin yüz əlli misli miqdarında» sözləri «yüz altmış beş manat», 190.0.3-cü maddəsində «şərti maliyyə vahidi məbləğinin əlli misli miqdarında» sözləri «əlli beş manat», 190.0.4-cü maddəsində isə «şərti maliyyə vahidi məbləğinin on misli miqdarında» sözləri «on bir manat» sözləri ilə əvəz edilmişdir.

Qeyd etmək lazımdır ki, 2000-ci ildə qəbul edilmiş AR CPM-də təkcə zərər çəkmiş şəxsə deyil, digər subyektlərə də kompensasiya almaq hüququ verilmişdir. Odur ki, zərər çəkmiş şəxsə kompensasiya verilməsi institutunun mahiyyətini dərk etmək üçün onun digər şəxslərə verilən kompensasiyadan nə ilə fərqləndiyini də müəyyən etmək zəruridir. Bunun üçün isə, ilk növbədə, AR CPM-lə kimlərə və hansı əsaslarla kompensasiya almaq hüququ verildiyinə aydınlıq gətirilməlidir.

Qüvvədə olan qanunvericiliyə görə (AR CPM-in 12.2-ci maddəsi) cinayətin əlamətləri olan əməldən zərər çəkmiş şəxsin CPM-də nəzərdə tutulmuş qaydada cinayət təqibinin başlanılmasını tələb etmək, onun həyata keçirilməsində zərər çəkmiş şəxs və ya xüsusi ittihamçı qismində iştirak etmək, habelə vurulmuş mənəvi, fiziki və maddi ziyana görə kompensasiya almaq hüququ vardır.

AR CPM-in 48.4-cü maddəsinə əsasən, şəxs cinayət işi üzrə məhkəməyədək icraatda Məcəllənin 158 və 159-cu maddələrində göstərilmiş müddətdən artıq həbsdə qalarsa, ona dəymiş mənəvi ziyana görə pul kompensasiyasını almaq hüququna malikdir. Kompensasiya cinayət işi üzrə çıxarılmış qərardan asılı olmayaraq mülki mühakimə icraatı qaydasında həll olunur.

AR CPM-in 57.1-ci maddəsinə görə, cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində Məcəllənin 56-cı maddəsində nəzərdə tutulmuş şəxslərə vurulmuş mənəvi, fiziki və maddi ziyan ödənilməlidir. Həmçinin, bu şəxslərin əmək və mənzil hüquqları bərpa edilməli, bunlar mümkün olmadıqda isə həmin hüquqların pozulması nəticəsində dəyən ziyanın pul kompensasiyası təmin edilməlidir.

AR CPM-in 56-cı maddəsi isə, öz növbəsində müəyyən edir ki, aşağıdakılar cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsi hüququna malikdirlər:

– bəraət almış təqsirləndirilən şəxs;

– Məcəllənin 39.1.1, 39.1.2, 39.1.6, 39.1.8, 39.2-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilmiş şəxs;

– Məcəllənin 39.1.3, 39.1.4, 39.1.10 və 39.1.11-ci maddələrində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan, lakin vaxtında xitam verilməyən və haqqında cinayət təqibi davam etdirilən şəxs;

– Məcəllənin 39.1.12-ci maddəsində nəzərdə tutulmuş əsaslarla barəsində cinayət təqibinə xitam verilməli olan və buna razılıq alınmasına baxmayaraq, haqqında cinayət təqibi davam etdirilən şəxs;

– qanunsuz həbs olunmuş və ya tibbi yaxud tərbiyə müəssisəsinə məcburi yerləşdirilmiş, habelə qanuni əsas olmadan müəyyən edilmiş müddətdən artıq həbsdə saxlanılmış şəxs;

– cinayət təqibi üzrə icraat zamanı qanunsuz olaraq CPM-in 176 və 177-ci maddələrində nəzərdə tutulmuş hallarda prosessual məcburiyyət tədbirlərinə məruz qalmış şəxs.

AR CPM-in 58-ci maddəsi müəyyən edir ki, cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş maddi ziyan əsaslandırılaraq hesablandıqdan sonra kompensasiya verilməklə tam həcmdə ödənilməlidir. Bu zaman fiziki və mənəvi ziyan Azərbaycan Respublikasının qanunvericiliyi ilə digər hal nəzərdə tutulmayıbsa, məhkəmə tərəfindən ədalətli hesab olunmuş məbləğdə ödənilir. Məcəllənin 56-cı maddəsində göstərilən şəxslərə məhrum olduğu əmək haqqı, pensiya, müavinət və başqa gəlirlərə, müsadirə edilməsi, dövlət nəfinə keçirilməsi, istintaq orqanları tərəfindən götürülməsi, üzərinə həbs qoyulması ilə vurulmuş əmlak ziyanına, ödənilmiş məhkəmə xərclərinə, müdafiəçiyə ödənilmiş pul məbləğinə, hökmün icrası zamanı ödənilmiş və ya tutulmuş cəriməyə görə kompensasiya verilir.

60.1-ci maddəyə əsasən isə cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində vurulmuş ziyanın ödənilməsini tələb etmək və kompensasiya almaq hüququna CPM-in 56-cı maddəsində göstərilən şəxslər, onların qanuni nümayəndələri, növbə üzrə daha yaxın vərəsələri, habelə vurulmuş ziyanın ödənilməsi hüququ olan şəxs öldükdə qanuna əsasən ailə başçısının itirilməsinə görə pensiya ilə təmin edilməlisinə ölmüş şəxsin ailə üzvləri malikdir.

Göründüyü kimi, cinayət prosesində kompensasiya verilməsinin iki əsası vardır: 1) cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində şəxsə (*onun hüquqlarına*) ziyan vurulması; 2) cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri – cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi.

Cinayət prosesində zərər çəkmiş şəxs yeganə subyektdir ki, onun hər iki əsasla kompensasiya almaq hüququ vardır və o, həmçinin yeganə subyektdir ki, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona dəymiş ziyana görə kompensasiya almaq hüququna malikdir. Belə ki, AR CPM-in 87.6.18-ci maddəsinə əsasən, zərər çəkmiş şəxsin cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə qanunla müəyyən edilmiş kompensasiyanı dövlət hesabına almaq, 87.6.19-cu maddəsinə əsasən isə, cinayət işi üzrə icraat zamanı sərf edilmiş xərclərin ödənilməsinə və cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq hüquqları mövcuddur.

Kompensasiya almaq hüququ olan bütün digər proses iştirakçıları yalnız cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya ala bilərlər. Cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq hüququ AR CPM-in 89.4.20-ci

maddəsi ilə mülki iddiaçıya, 90.7.22-ci maddəsi ilə şübhəli şəxsə, 91.5.40-cı maddəsi ilə təqsirləndirilən şəxsə, 93.4.21-ci maddəsi ilə mülki cavabdehə, 94.4.5-ci maddəsi ilə hal şahidinə, 95.6.9-cu maddəsi ilə şahidə, 96.6.5-ci maddəsi ilə mütəxəssisə, 97.6.7-ci maddəsi ilə ekspertə, 99.6.3-cü maddəsi ilə tərcüməçiyə və 101.5.22-ci maddəsi ilə proses iştirakçılarının qanuni nümayəndələrinə verilmişdir.

Qanunvericiliyə görə zərər çəkmiş şəxsə verilməli olan və AR CPM-in XX fəslində təsbit edilmiş kompensasiyanın cinayət prosesi ilə bağlı ödənilən digər kompensasiyadan əsas fərqi onun ödənilməsi əsası – zərər çəkmiş şəxsə qarşı cinayətin törədilmiş olmasıdır.

Qeyd etdiyimiz kimi, zərər çəkmiş şəxs nəzərdən keçirilən kompensasiya növlərindən hər ikisini almaq hüququna malik olan yeganə proses iştirakçısıdır. Sadəcə olaraq, zərər çəkmiş şəxsin cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri nəticəsində ona vurulmuş ziyana görə kompensasiya almaq hüququ hal-hazırda xüsusi qanunla tənzim edilsə də, onun cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ona vurulmuş ziyana görə kompensasiyanı dövlət hesabına almaq hüququnu təmin edən xüsusi qanun hələ ki qəbul edilməmişdir.

Nəzərə alınmalıdır ki, təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının və ya onların vəzifəli şəxslərinin qanunsuz hərəkətləri (səhvi və ya sui-istifadəsi) nəticəsində fiziki şəxslərə, o cümlədən cinayət prosesində zərər çəkmiş şəxs qismində çıxış edən şəxslərə vurulmuş ziyanın dövlət tərəfindən ödənilməsi hüququ Azərbaycan Respublikasının «Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında» 29.12.1998-ci il tarixli Qanunu ilə təmin edilir.

Beləliklə, geniş mənada cinayət prosesində zərər çəkmiş şəxsə ödənilən kompensasiya dedikdə, zərər çəkmiş şəxsin şəxsiyyətinə və ya onun hüquqlarına cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində ziyan vurulduğu, yaxud cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri, yəni cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində ziyan vurulduğu hallarda dövlət tərəfindən vurulmuş zərərin əvəzinin ödənilməsi başa düşülür. Sual yaranır: *Bəs dar mənada (AR CPM-in 192-196-cı maddələrində nəzərdə tutulan qaydada), zərər çəkmiş şəxsə ödənilən kompensasiya dedikdə nə başa düşülməlidir?*

Həqiqətən də, zərər çəkmiş şəxsə cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətləri, yəni cinayət prosesini həyata keçirən orqanın səhvi və ya sui-istifadəsi nəticəsində ziyan vurulduğu hallarda dövlətin həmin ziyanın əvəzini ödəməsinin məntiqi aşkardır. Bu məntiqi tezislər kimi ifadə etmək istəsək, göstərə bilərik ki, cinayət prosesini həyata keçirən orqan dövlət orqanıdır və onun vurduğu ziyan dövlətin vurduğu ziyandır ... Hüquqi dövlət isə həyata keçirdiyi daxili və xarici siyasətlə, o cümlədən bu siyasətin prinsiplərindən irəli gələn və həyata keçirilən fəaliyyəti ilə şəxsiyyətə ziyan vurmamaq öhdəliyi daşıyır ... hüquqi dövlətdə şəxsiyyətə ziyan vurula biləcək hallar qanunla tənzimlənir ... hüquqi dövlətin şəxsiyyətə qanunsuz ziyan vurduğu hallarda dövlət həmin ziyanın mənfi nəticələrini aradan qaldırır, pozulmuş hüquqları bərpa edir və vurduğu ziyanın əvəzini ödəyir (3, s. 239-242; 4, s. 77-78).

Bəs ikinci halda, yəni şəxsiyyətə qarşı cinayət törədildikdə dövləti kompensasiya ödəməyə nə vadar edir, axı cinayəti törədən dövlət deyildir və cinayətə görə maddi məsuliyyət dövlətin üzərinə düşmür?

Həqiqətən də, şəxsiyyətə qarşı cinayət törədilən hallarda dövlət zərər çəkmiş şəxsə kompensasiya ödəməklə özünün şəxsiyyət qarşısındakı mülki-hüquqi məsuliyyətini realizə etmir. Cinayətdən zərər çəkmişlərə kompensasiya ödəmə öhdəliyi dövlətin digər daxili funksiyalarından (məsələn, hüquq-mühafizə və sosial) irəli gəlir.

Sanki hər bir dövlət hüquq-mühafizə funksiyasını həyata keçirir və bu funksiya dövlətdən tələb edir ki, o, ərazisində hüquq qaydasını, ictimai asayişi və hüquqa zidd əməlləri qadağan edən qanunların icrasını təmin etsin ... cinayətkarlığa qarşı mübarizə aparsın ... özünü

(*yəni dövləti – İ.Vəliyev*), cəmiyyəti və şəxsiyyəti cinayətkar qəsdlərdən qorusun, cinayətlərin qarşısını alsın, onların törədilməsinə yol verməsin (8, s. 6; 9, s. 111).

Bu anlamda, cinayətin törədilməsi və onun nəticəsində şəxsə ziyanın vurulması, konkret hala münasibətdə dövlətin hüquq-mühafizə funksiyasının səmərəsiz olduğunun göstəricisi kimi çıxış edir. Başqa sözlə, belə çıxır ki, dövlət törədiləcək cinayətin qarşısını almadığı üçün şəxsiyyət ziyan çəkmiş olur və dövlət hüquq-mühafizə funksiyası ilə şəxsiyyəti cinayətdən mühafizə edə bilmədiyi üçün ona dəymiş zərəri kompensasiya edir. Lakin bu amil, dövlət tərəfindən cinayət qurbanlarına kompensasiya verilməsinin yeganə əsası deyildir. Nəzərə almaq lazımdır ki, dövlətin hüquq-mühafizə funksiyası heç də bütün növ cinayətləri istisna edə bilməz, hətta ən inkişaf etmiş dövlətlərdə belə cinayətkarlıq dövlət orqanlarının tam nəzarəti altında deyildir. Bu səbəbdən, zərər çəkmiş şəxslərə kompensasiyanın verilməsini yalnız dövlətin öz hüquq-mühafizə funksiyasını səmərəli icra edə bilməməsi əvəzinə verilən ödəmələr kimi izah etmək olmaz, bu zaman dövlətin sosial funksiyasına da mütləq istinad etmək lazımdır.

Hər bir dövlət sosial funksiya da yerinə yetirir. Bu funksiyadan çıxış edərək dövlət şəxsiyyətin sosial müdafiəsini təmin edir ... cəmiyyət üzvləri üçün onların istehsalatda iştirak edib-etməməsindən asılı olmayaraq normal həyat şəraiti yaradır ... sosial bərabərsizlik şəraitinin aradan qaldırılması istiqamətində tədbirlər görür ... maddi imkansızlıq səbəbindən layiqli həyat şəraitindən və normal insani tələblərin ödənilməsindən məhrum olmaya yol vermir (5, s. 19; 7, s. 98-99).

Bu anlamda, dövlət cinayətdən zərər çəkmişlərə kompensasiya verməklə vurulmuş ziyan nəticəsində onların sosial rifahında baş vermiş mənfi dəyişikliklərin cinayət qurbanlarının sonrakı həyat və fəaliyyətinə neqativ təsirini azaltmağa, zərər çəkmiş şəxslərin sosial reabilitasiyasını təmin etməyə çalışır.

Beləliklə, zərər çəkmiş şəxsə ödənilən kompensasiya (AR CPM-in 192-196-cı maddələrində nəzərdə tutulan qaydada) dövlətin hüquq-mühafizə və sosial funksiyalarından irəli gələn, cinayətdən dəymiş zərərin əvəzinin dövlət hesabına ödənilməsi və cinayət qurbanlarının sosial reabilitasiya vasitəsidir.

Cinayət qurbanlarına dövlət tərəfindən kompensasiya ödənilməsi institutunu tətbiq edən dövlətlərin təcrübəsinin öyrənilməsi belə nəticəyə gəlməyə əsas verir ki, dünya təcrübəsində bu institutun realizə edilməsinin bir-birindən bu və ya digər dərəcədə fərqlənən müxtəlif modelləri mövcuddur. Şübhəsizdir ki, cinayət qurbanlarına dövlət tərəfindən kompensasiya ödənilməsi institutunu realizə edən bütün dünya dövlətlərinin təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi milli cinayət prosesində bu problemlərə həsr edilmiş bir məqalə daxilində tam nəzərdən keçirilə bilməz. Bu, daha çox müqayisəli cinayət-prosessual hüququn predmetinə aid olan bir məsələdir, müstəqil və daha geniş bir tədqiqat mövzusudur. Bununla belə, bu məqalə daxilində dünya dövlətləri arasında tədqiq edilən institutun realizə modelinin spesifik xüsusiyyətlərinə görə seçilən üç dövlətin təcrübəsinə (*belə demək olarsa, üç əsas modelə*) diqqət yetirməyi məqsədəuyğun hesab edirik.

İlk olaraq, cinayət qurbanlarına kompensasiya verilməsinin Yeni Zelandiya modelinə diqqət yetirmək istərdik. Yeni Zelandiya bütün dünya dövlətləri arasında ilk dəfə cinayət qurbanlarına dövlət tərəfindən kompensasiya verilməsi institutunu rəsmi təsbit etmiş dövlətdir. Yeni Zelandiyada 1963-cü ildən etibarən «Cinayətlər nəticəsində vurulmuş ziyanın kompensasiyası haqqında» Qanun (*Criminal İnjuries Compensation Act*) qüvvədədir və cinayət qurbanlarına kompensasiya verilməsi məsələləri həmin qanunla tənzimlənir. Qeyd edilən Qanunun 2-ci maddəsi cinayət qurbanının anlayışını təsbit edir – cinayət qurbanı dedikdə, hər hansı bir şəxsin cinayət hesab edilən hərəkəti və ya hərəkətsizliyi nəticəsində ziyan çəkmiş yaxud öldürülmüş şəxs başa düşülür. Bu anlayışın təsir dairəsinə düşən şəxslərə kompensasiyanın

ödənilməsi məsələlərinin həllini «Cinayətlərə görə kompensasiya Tribunalı» həyata keçirir. Bu Tribunal (*xüsusi məhkəmə*) üç nəfər üzvdən ibarətdir. Adı çəkilən Qanunun 17-ci maddəsinə əsasən, Tribunal cinayət qurbanının ərizəsi əsasında öz mülahizəsinə görə zərər çəkmiş şəxsə kompensasiya ödənilməsi barədə qərar qəbul edə bilər. Qanunun 18-ci maddəsi isə cinayət qurbanına nələrə görə kompensasiyanın ödənilməsinə yol verildiyini müəyyən edir. Belə ki, Tribunal Qanuna əsaslanaraq, aşağıdakılardan hər hansı birinə görə cinayətdən zərər çəkmiş şəxsə kompensasiya verilməsi haqqında qərar qəbul edə bilər:

1) qurbana ziyan vurulması və ya onun ölümü ilə əlaqədar faktiki və əsaslandırılmış xərclərə görə;

2) qurbanın əmək qabiliyyətinin tam və ya qismən itirilməsi ilə əlaqədar maddi itkilərinə görə;

3) qurbanın ölümü ilə əlaqədar onun himayəsində olan şəxslərin maddi itkilərinə görə;

4) qurbana vurulmuş ziyanla əlaqədar yaşanan digər maddi itkilər və Tribunalın fikrinə görə qurbana vurulmuş ziyanla əlaqədar çəkilən digər əsaslandırılmış xərclərə görə;

5) qurbanın iztirabları və mənfi təəssüratlarına görə (10, s. 64-68).

Fikrimizcə, cinayət qurbanlarına kompensasiya ödənilməsi institutunun diqqət yetirilməli olan ikinci modeli Böyük Britaniya modelidir. Böyük Britaniya, həm də Yeni Zelandiyadan sonra bu institutu rəsmi təsbit etmiş ikinci dövlətdir.

1990-cı ildə Böyük Britaniyada «Cinayət qurbanları Xartiyası» (*The Victim's Charter*) qəbul edilmişdir. Bu normativ sənəd Böyük Britaniyada ilk dəfə cinayət qurbanlarının kompensasiya almaq hüququnu elan etmişdir. Cinayət qurbanlarına kompensasiya verilməsinin prosedur qaydaları isə 1995-ci ildə «Cinayətlə vurulmuş ziyana görə kompensasiya haqqında» Qanunda (*Criminal İnjuries Compensation Act*) təsbit edilmişdir. Bununla belə, bu Qanun da cinayət qurbanlarına kompensasiya ödənilməsi qaydalarını müfəssəl şəkildə əhatə etmir və əksər məsələlərdə qanun qüvvəli akta – «Cinayətlə vurulmuş ziyana görə kompensasiya ödəmə» Qaydalarına (*Criminal İnjuries Compensation Scheme*) göndərici normalar nəzərdə tutur. Həmin Qaydaların özü bir neə dəfə ciddi redaktə dəyişikliklərinə məruz qalmışdır, hazırda Qaydaların 2008-ci il tarixli redaksiyası tətbiq edilir. 1995-ci il Qanunu, birbaşa olaraq öz məzmununda aşağıdakı bir sıra əhəmiyyətli müddəaları nəzərdə tutur. Qanunda qeyd edilir ki, cinayətə görə kompensasiyanın istənilən formada güzəşt edilməsinin və ya ona hər hansı bir öhdəlik yükləmənin heç bir hüquqi qüvvəsi yoxdur. Qanuna əsasən, cinayət qurbanının kredit borclarının da onun barəsində cinayət törədildiyinə görə aldığı kompensasiyaya yönəldilməsinə yol verilmir. Qanunda nəzərdə tutulur ki, hökumət cinayətkardan onun törətdiyi cinayətə görə qurbana ödədiyi kompensasiyanın əvəzinin ödənilməsini tələb edə bilər, həmçinin Qanuna görə, kompensasiya ödəmələrinin həyata keçirilməsi üçün pul vəsaitləri hökumət tərəfindən əvvəlcədən bu məqsədlə ayrılmış vəsaitlərdən götürülməlidir və s.

«Cinayətlə vurulmuş ziyana görə kompensasiya ödəmə» Qaydalarında nəzərdə tutulmuş əhəmiyyətli müddəalara isə aşağıdakıları aid etmək olar. Məsələn, Qaydalarda göstərilir ki, cinayət qurbanlarına kompensasiyanın ödənilməsi cinayəti törədənlərin məhkum edilib-edilməməsindən asılı deyildir. Bu qaydanın müsbət cəhəti ondadır ki, onun vasitəsilə hökumət hətta formal səbəblərdən (*məsələn, cinayət məsuliyyəti yaşına çatmadığına görə, diplomatik immunitetə malik olduğuna görə və s. bu kimi hallarda*) cinayət məsuliyyətindən azad edilmiş şəxslərin də cinayət əməllərindən zərər çəkmiş şəxslərin hüquqlarına təminat verə bilir. Daha bir müsbət hal kimi göstərmək olar ki, Böyük Britaniyada cinayət qurbanlarına kompensasiya ödəmələri ilə məşğul olan xüsusi xidmət fəaliyyət göstərir – «Cinayətlə vurulmuş ziyana görə kompensasiya ödəmə Xidməti» (*Criminal İnjuries Compensation Authority*). Bu xidmət cinayət qurbanlarından kompensasiya ödəmələri haqqında ərizələri qəbul edir, daha sonra Xidmətin əməkdaşları tərəfindən həmin ərizələr üzrə ödəmələrin həyata keçirilməsi üçün

əsasların olub-olmamasına dair yoxlama həyata keçirilir və həmin yoxlamanın nəticələrindən asılı olaraq Xidmət kompensasiyanın tam həcmdə verilməsi yaxud kompensasiya miqdarının azaldılması və verilməsi, yaxud da kompensasiya verilməsindən imtina edilməsi haqqında qərarlardan birini qəbul edir. Maraqlı bir haldır ki, cinayət qurbanlarına Xidmətin qərarlarından üçpilləli şikayət imkanı verilir – əvvəlcə birinci dərəcəli tribunala, sonra yuxarı tribunala, nəhayət, apellyasiya məhkəməsinə. Nəzərdən keçirilən Qaydaların daha bir mütərəqqi müddəası kompensasiyanın təkcə bilavasitə qurbanlara deyil, cinayət nəticəsində ölmüş qurbanın yaxın qohumlarına da ödənilməsinə yol verir.

Qeyd edilən Qaydalar cinayət qurbanlarına ödənilən kompensasiyanın dörd növünü nəzərdə tutur:

1) standart məbləğli kompensasiya – vurulmuş zərərin növündən asılı olaraq əvvəlcədən müəyyən edilmiş tarif cədvəlinə əsasən ödənilir;

2) itirilmiş qazanca görə kompensasiya – cinayət qurbanının əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar ödənilir;

3) yaxın qohumun ölümünə görə kompensasiya – kompensasiya üçün müraciət etmiş yaxın qohumların sayından asılı olaraq müəyyən edilir;

4) xüsusi xərclərə görə kompensasiya – tibbi xidmətlərə, xəstələrə evdə qulluğa və s. kimi xidmətlərə görə ödənilir (6, s. 160-167; 10, s. 71-73).

Çin Xalq Respublikasının da cinayət qurbanlarına kompensasiya ödəmə təcrübəsinə nəzər salmaq istərdik. Bu dövlətdə tətbiq edilən modelin xüsusi cəhəti ondan ibarətdir ki, Çində bütün cinayətlərdən deyil, yalnız dövlət hakimiyyəti orqanlarının vəzifəli şəxsləri tərəfindən törədilən cinayətlərin qurbanlarına kompensasiya ödənişi nəzərdə tutulur. Cinayət qurbanlarına kompensasiya ödəmələrini nəzərdə tutan qanun Çində 1994-cü ildən etibarən qüvvədədir. Törədilməsinə görə kompensasiya ödənişi nəzərdə tutulan cinayətlərə aşağıdakılar aid edilir:

1) şəxsi qanunsuz tutma;

2) şəxsi qanunsuz həbs etmə;

3) təqsirsiz şəxsin cəza çəkməsinə səbəb olan hökmün qəbul edilməsi;

4) işgəncə və əzab verməklə şəxsin öz təqsirini etiraf etməsinə nail olma;

5) silah və ya xüsusi polis vasitələri tətbiq etməklə şəxsin sağlamlığına ziyan vurma və ya onun ölümünə səbəb olma.

İlk baxışdan belə təəssürat yarana bilər ki, Çində tətbiq edilən model cinayət prosesini həyata keçirən orqanın qanunsuz hərəkətlərinə görə bütün dünyada tətbiq edilən kompensasiya ödənişi modeli ilə eynidir, lakin Çin modelinin xüsusiyyəti ondan ibarətdir ki, yuxarıda sadalanan cinayətlərə görə kompensasiya ödəmələri ümumi dövlət büdcəsindən və ya hər hansı xüsusi fonddan deyil, cinayət törətmiş vəzifəli şəxsin əməkdaşı olduğu dövlət orqanının vəsaitləri hesabına ödənilir.

Hazırda, bilavasitə təcrübədə tətbiq edilən bir institut olmasa da, Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyi cinayətdən zərər çəkmiş şəxslərə dövlət tərəfindən kompensasiya verilməsinin özünəməxsus bir modelini nəzərdə tutur. Hesab edirik ki, həmin modelin təhlili əsasında onun əsas elementlərini, eləcə də gələcəkdə bu institutun səmərəli tətbiqi üçün konkret inkişaf istiqamətlərini müəyyən etmək mümkündür.

AR CPM-in 189-cu maddəsi yalnız zərər çəkmiş şəxsə və yalnız iş üzrə icraatın sonunda kompensasiya almaq imkanı verir. Həmin maddəyə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna o zaman malik olur ki, ona qarşı bu əməlin törədilməsi məhkəmənin hökmü ilə və ya cinayət prosesini həyata keçirən orqanın yekun qərarı ilə müəyyən edilmiş olsun.

Hesab edirik ki, qanunda kompensasiya almaq hüququnun subyektinin zərər çəkmiş şəxslə məhdudlaşdırılması və bu hüququn yalnız icraatın sonunda tanınması cinayət qurbanına kompensasiya verilməsi institutunun səmərəliliyini azaldır. AR CPM-in 87.1-ci maddəsinə əsasən, cinayət qanunu ilə nəzərdə tutulmuş əməl nəticəsində fiziki şəxsə birbaşa mənəvi, fiziki və ya maddi ziyan vurulmasına kifayət qədər əsaslar olduqda o, zərər çəkmiş şəxs qismində tanınır. Lakin cinayətlərin bir qismi üzrə cinayətdən bilavasitə zərər çəkmiş şəxslər həyatını itirir (*məsələn, 2013-cü ildə Azərbaycanda törədilmiş cinayətlər nəticəsində zərər çəkmiş 7496 nəfərdən 1415 nəfəri ölmüşdür*). Eyni zamanda nəzərə alınmalıdır ki, cinayət nəticəsində şəxsin ölməsi onun yaxınları üçün mənəvi olduğu qədər maddi sıxıntılar da yaradır, xüsusən də ölən şəxsin himayəsində yaşayan insanlar olduqda, onun ölümü himayədə olanları çətin vəziyyətə salır. Bununla belə, qüvvədə olan qanunvericilik cinayət nəticəsində ölmüş şəxsin yaxın qohumlarının və onun himayəsində olanların kompensasiya almaq hüququnu nəzərdə tutmur.

Fikrimizcə, zərər çəkmiş şəxsə kompensasiya verilməsi institutunun (AR CPM-in XX fəsli) gələcək inkişafında Böyük Britaniya modelindən faydalanmaqla, ölmüş cinayət qurbanının yaxın qohumlarına və onun himayəsində olan şəxslərə kompensasiya verilməsi imkanının nəzərdə tutulması cinayətin vurduğu ziyandan sosial reabilitasiya vasitəsi kimi daha ədalətli və səmərəli olardı. Cinayət nəticəsində yaxın qohumunu itirmiş şəxslər bu kompensasiyanın hesabına dəfn və s. mərasim xərclərini qarşılamaqla dövlət dəstəyini real olaraq hiss edə bilərlər.

Kompensasiya hüququnun yalnız icraatın sonunda tanınmasını təsbit edən qaydanı da bu institutun səmərəsini azaldan amil kimi qiymətləndirmək olar. Təcrübə göstərir ki, cinayətdən zərər çəkmiş şəxslərə, xüsusilə də cinayət nəticəsində yaxınlarını itirmiş şəxslərə əsas dəstək cinayət hadisəsindən sonra ilkin vaxtlarda daha zəruri olur. Məhz cinayətdən sonrakı ilk günlərdə zərər çəkmiş şəxs ya müalicəyə, ya itirdiyi yaxınının dəfninə yaxud da digər problemlərinin aradan qaldırılması üçün yardıma ehtiyac duyur.

Odur ki gələcəkdə, zərər çəkmiş şəxslərə onların müvafiq prosessual status əldə etmələri anında kompensasiya almaq hüququ verilməsi daha məqsədəuyğun görünür. Belə olarsa, insanlar cinayət mühakimə icraatına zərər çəkmiş şəxs kimi daxil olduqları ilk andan dövlətin onların yanında olduğuna və onların düşdükləri çətin vəziyyətdən çıxmalarına kömək edəcəyinə inana bilərlər.

Bu yanaşmanın nə qədər optimal və doğru olduğunu yaxın keçmişdən hamıya məlum olan bir misalla isbat etmək mümkündür. Xatırlatmaq istərdik ki, 2013-cü ilin yayında «Nabran Holiday Village» adlı istirahət mərkəzinin hovuzunda müvafiq təhlükəsizlik qaydalarına riayət edilməməsi səbəbindən azyaşlı İmran Cəfərzadə hər iki ayağını itirmişdi. Faktla bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.1-ci (*əmək mühafizəsi qaydalarını pozma*) və 314.2-ci (*səhlənkarlıq*) maddələri ilə cinayət işi də başlanmışdı. Buna baxmayaraq, İmran Cəfərzadənin təcili şəkildə kifayət qədər bahalı əməliyyatlar keçirməsinə ehtiyac duyulurdu. Qüvvədə olan normativ baza isə zərər çəkmiş şəxsə hər hansı bir «dərhal ödəmə» nəzərdə tutmurdu. Faktiki olaraq, İmranın valideynləri nə yolla olursa, olsun pul tapmaqla onu əməliyyat etdirmək və daha sonra cinayət işi üzrə icraatın sonunda mülki iddia hesabına dəymiş zərərin əvəzini tələb etmək məcburiyyətində idilər. Bu misalda zərər çəkmişin və onun yaxınlarının necə çətin bir vəziyyətdə olmasını təsəvvür etmək çətin deyildir. Qeyd etmək lazımdır ki, Cənab Prezident İlham Əliyev hadisəyə dərhal müdaxilə edərək, zərərçəkmişin bütün xərclərinin dövlət hesabına ödənilməsinin təmin edilməsi məqsədi ilə müvafiq qurumlara göstərişlər vermişdi. Bunun hesabına zərər çəkmiş şəxslərin ehtiyac duyduğu dövlət dəstəyi onlara vaxtında və səmərəli şəkildə göstərilmişdir.

Göstərilən misal, zərər çəkmiş şəxslərə dövlət dəstəyinin icraatın sonunda deyil, əksinə əvvəlində göstərilməsinin daha faydalı olmasının bariz nümunəsidir. Bu səbəbdən, cinayət qurbanlarına kompensasiya institutunun gələcək inkişaf istiqamətlərindən biri kimi onlara icraatın əvvəlində «dərhal ödəmələrin» həyata keçirilməsi imkanlarının nəzərdə tutulması məqsədəuyğun olardı.

Cinayət qurbanlarına kompensasiya verilməsinin Azərbaycan modelində kompensasiya zərər çəkmiş şəxsə qarşı törədilmiş cinayətin ağırlıq dərəcəsindən asılı olaraq, məbləği qanunla müəyyən edilmiş birdəfəlik ödəmə şəklində nəzərdə tutulmuşdur. Belə ki, AR CPM-in 190-cı maddəsinə əsasən, zərər çəkmiş şəxs cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə ona vurulmuş ziyana görə ona qarşı xüsusilə ağır cinayət törədildikdə üç yüz otuz manat, ağır cinayət törədildikdə yüz altmış beş manat, az ağır cinayət törədildikdə əlli beş manat; böyük ictimai təhlükə törətməyən cinayət törədildikdə on bir manat məbləğində kompensasiya almaq hüququna malikdir.

Hesab edirik ki, səmərəlilik və dövlət avtoriteti baxımından cinayət qurbanlarına kompensasiya institutunun məbləği də qənaətbəxş deyildir. Əvvəla, bu məbləğlərin müəyyən edilməsi zamanı rəhbər tutulmuş kriteriya naməlumdur. Niyə zərər çəkmiş şəxsə qarşı böyük ictimai təhlükə törətməyən cinayət törədildikdə ona on bir manat məbləğində kompensasiya verilir? Niyə məhz on bir manat? Bu pul məbləği zərər çəkmiş şəxsə dəymiş hansı ziyanın əvəzi olacaqdır? Yaxud, xüsusilə ağır cinayətdən əziyyət çəkmiş bir şəxs üç yüz otuz manatla yaratmış problemləri həll edə biləcəkdirmi? Fikrimizcə, bu suallar qanunvericilik orqanının dolğun cavab verməli olduğu suallar sırasında olmalıdır. bu baxımdan Böyük Britaniya modelinin məsələnin həllinə münasibəti qənaətbəxş hesab edilə bilər. Belə ki, bu dövlətdə yaxın qohumun cinayət nəticəsində ölümünə görə bir nəfər kompensasiya barədə ərizə verdikdə, kompensasiyanın məbləği 11000 £, iki nəfərdən çox yaxın qohum müvafiq ərizə ilə müraciət etdikdə isə kompensasiyanın məbləği 5500 £ olur. Cənab Prezident İlham Əliyevin İmran Cəfərzadənin işi üzrə nümayiş etdirdiyi mövqe əminliklə deməyə əsas verir ki, Azərbaycan dövləti öz vətəndaşının həyat və sağlamlığının dəyərini heç də Böyük Britaniya hökumətinin vətəndaşının həyat və sağlamlığına verdiyi dəyərdən ucuz tutmur. Belə olan təqdirdə, AR CPM-in 190-cı maddəsində nəzərdə tutulmuş olduqca kiçik məbləğlərə məntiqi izah vermək mümkün deyildir. Hesab edirik ki, gələcəkdə həmin məbləğlər cəmiyyətin reallıqları, rifah dərəcəsi və inkişaf səviyyəsi nəzərə alınmaqla, layiqli hədlərə çatdırılacaqdır.

Kompensasiyanın «birdəfəlik ödəmə» formasına gəlincə, qeyd etmək istərdik ki, bu forma ümumilikdə qənaətbəxş hesab edilə bilər, lakin bu institutun daha da səmərəli realizəsi üçün konkret hallarda müəyyən müddət ərzində zərər çəkmiş şəxslərə «mütəmadi ödəmələrə» də yol verilməsinin kifayət qədər səmərəli olacağı qənaətindəyik. Məsələn, bir müddət psixoloq yardımı almalı olan, sistematik tibbi müayinələrə ehtiyacı olan və s. mütəmadi tələbatlar hiss edən zərər çəkmiş şəxslərə böyük məbləğli birdəfəlik ödəmələr əvəzinə ağlabatan məbləğlərdə ödəmələrin verilməsi həm kompensasiyanın məqsədlərinə nail olunması, həm də cinayət qurbanlarının pozulmuş hüquqlarının bərpa edilməsi baxımından daha faydalı ola bilər.

Nəhayət, AR CPM-in 191-ci maddəsində qeyd edilir ki, Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə həll edir. Zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi haqqında qərarı ittiham hökmündə əks etdirərkən məhkəmə həmçinin kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutulub dövlət büdcəsinə qaytarılmasını hökmdə göstərir.

Qeyd edildiyi kimi, nəzər salınan prosedurun əsas mənfi cəhəti kompensasiyanın verilməsi məsələsinin gec, yəni iş üzrə icraatın ən sonunda həll edilməsidir. İcraatın əvvəlində cinayət qurbanına kompensasiya verilməsinin təmin edilməsi üçün isə göstərilən prosedur yararsızdır. Hesab edirik ki, icraatın əvvəlində yaxud gedişində cinayət qurbanına kompensasiya verilməsi institutunun realizə edilməsi üçün müvafiq icra hakimiyyəti orqanı, məsələn, Ədliyyə Nazirliyi nəzdində xüsusi qurum yaradılması daha səmərəli ola bilər. Həmin qurum cinayət işi üzrə icraatın başa çatmasını gözləmək məcburiyyətində qalmadan cinayət qurbanına vaxtında zəruri köməkliyi göstərə və daha sonra məhkəməyə dövlətin kompensasiya qismində çəkdiyi xərclər barədə hesabat göndərə bilər ki, həmin hesabatda göstərilən xərclər də məhkəmə xərclərinə aid edilməklə məhkumun üzərinə qoyula bilər.

Hesab edirik ki, cinayət qurbanlarına kompensasiya institutunun yuxarıda sadalanan perspektiv inkişaf istiqamətləri üzrə təkmilləşdirilməsi və tez bir zamanda onun təcrübədə tətbiq edilən real hüquq institutuna çevrilməsi həm şəxsiyyətin, həm insan və vətəndaşın ədalət mühakiməsinin maraqları baxımından zəruridir.

Açar sözlər: cinayət prosesi, zərər çəkmiş şəxs, kompensasiya, model, müqayisə, perspektivlər.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi. Bakı: Hüquq yayın evi, 2014.
2. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: Hüquq yayın evi, 2014.
3. Азарова И.А. Ответственность за вред, причиненный гражданам незаконными действиями органов дознания и предварительного следствия //Бизнес в законе, 2009, №2.
4. Войтенко О.Н. Гражданско-правовая ответственность за вред, причиненный незаконными действиями должностных лиц органов дознания и предварительного следствия. Дисс. … к.ю.н. М., 2001.
5. Горовой Р.А. Социальная функция государства как гарантия реализации социальных прав граждан //Правовая политика и правовая жизнь, 2013, № 1.
6. Митин М.А. Право жертв насильственных преступлений на государственные компенсации в Соединенном Королевстве Великобритании и Северной Ирландии: история, текущее положение и перспективы развития //Закон, 2011, № 6.
7. Родионова О.В. Социальная функция государства: правовая сущность и проблемы субъектов ее осуществления на современном этапе //Государство и право, 2006, № 8.
8. Харченко О.В. Правоохранительная функция в системе функций государства //Полицейское право. Научно-практический журнал, 2008, № 1.
9. Честнов И.Л. Правоохранительная функция современного государства //Криминалистъ, 2011, № 1.
10. Юношев С.В. Государственные компенсации жертвам преступлений в практике зарубежных стран / Актуальные проблемы современного уголовного процесса России. Межвузовский сборник научных статей. Самара: Самарский университет, 2008, № 3.
11. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, № 6, maddə 462.

Исахан ВЕЛИЕВ

ОБ АЗЕРБАЙДЖАНСКОЙ МОДЕЛИ ВЫПЛАТЫ КОМПЕНСАЦИИ ПОТЕРПЕВШИМ ОТ ПРЕСТУПЛЕНИЯ

Резюме

Защита прав и законных интересов потерпевших от преступления является одним из приоритетов современного уголовного судопроизводства в Азербайджанской Республике. Для его реализации уголовно-процессуальное законодательство республики содержит ряд процессуальных институтов, деятельность которых направлена на восстановление нарушенных прав и интересов жертв этих преступлений. Выплата компенсации потерпевшему от преступления является одним из таких институтов. Несмотря на то, что нормы, регулирующие процессуальный порядок реализации этого института пока не применяются на практике, УПК АР определяет своеобразную модель института выплат компенсаций жертвам преступлений. В статье анализируется эта модель и предлагаются пути ее совершенствования.

Ключевые слова: уголовный процесс, потерпевший, компенсация, модель, сравнение, перспективы.

Isakhan VALIYEV

ABOUT AZERBAIJAN MODEL OF PAYMENT OF COMPENSATION TO THE VICTIMS OF A CRIME

Summary

Protection of the rights and legitimate interests of the victims against a crime is one of priorities of modern criminal legal proceedings in the Azerbaijan Republic. For realization of this priority the criminal procedure legislation of the republic comprises a number of the procedural institutes activities of which is directed at restoration of the rights violated by crimes and interests of the victims of these crimes. Compensation payment to the victim of a crime is one of such institutes. In spite of the fact that the norms regulating a procedural order of realization of this institute aren't put into practice yet, the Criminal Procedure Code of AR defines a peculiar model of an institute of compensations payments to the victims of crimes. In the article this model is analyzed, and ways of its improvement are offered.

Keywords: criminal trial, victim, compensation, model, comparison, prospects.

UOT 342

Habil QURBANOV
h.ü.e.d., professor, şöbə müdiri,
AMEA FHİ

HÜQUQ SOSİAL NORMALAR SİSTEMİNDƏ*

Azərbaycan xalqımızın ən böyük istəklərindən biri olan hüquqi dövlət quruculuğu yolunda inamla addımlayır. Hüquqi dövlət quruculuğu və əslində hüquqi dövlətin özü cəmiyyət üzvlərindən qanunlara, insan hüquq və azadlıqlarına yeni münasibət tələb edir. Məhz bu zaman zəngin əxlaqi keyfiyyətlərə malik yeni insan – şəxsiyyətin yetişməsi problemi son dərəcə mühüm amillərdən biri kimi təzahür edir.

Hüquqi dövlət özündə hüquqla qanunun qarşılıqlı vəhdətini ehtiva edən sosial dövlət tiplərindəndir. Bu dövlətin başlıca məqsədi qanunun aliliyini təmin etməkdən ibarətdir. Məhz qanunun ən yüksək pillədə durduğu cəmiyyəti hüquqi dövlət adlandırırlar. Ona görə də belə dövlət yeni və yüksək şüurlu insanlara həmişə ehtiyac duyur.

Azərbaycan Respublikası Konstitusiyasının Preambulunda deyilir ki, Konstitusiya həmçinin "xalqın iradəsinin ifadəsi kimi, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq" üçün qəbul edilir. Deməli, cəmiyyət üzvlərinin şüurluluğu nə qədər yüksək olarsa, insanlar arasında münasibətlər yeni inkişaf mərhələsinə nə qədər intensiv qədəm qoyarsa və sosiumun fəallığı nə qədər yüksək olarsa, Azərbaycan hüquqi dövlət quruculuğu yollarını daha tez başa vurmuş olar.

Yeni insan-şəxsiyyət yetişdirilməsində cəmiyyətdə mövcud olan əxlaq normalarının müstəsna rolu vardır. Zəngin mənəviyyat insanlar arasında, şəxsiyyətlə cəmiyyət və cəmiyyətlə dövlət arasında qarşılıqlı münasibətlərin inkişafına və təkmilləşməsinə böyük təsir göstərir. Belə qarşılıqlı münasibətlərin tənzimlənməsində hüquq normaları ilə yanaşı əxlaq normaları da mühüm rol oynayırlar.

Bu cəhətdən hüquq normaları əxlaq normalarından fərqli olaraq, dövlət hakimiyyəti orqanları tərəfindən tətbiq edilir. Hüquq davranış normalarının məcmusu kimi, cəmiyyətdə nizam-intizamın və sabitliyin, asayişin qorunmasına xidmət edir.

Hüquq bütün digər sosial normalarla çoxcəhətli (genetik, funksional, sistemli və s.) əlaqədə olan mürəkkəb fenomendir. Bu əlaqə özünü müxtəlif qarşılıqlı asılılıqda təzahür etdirir. Belə ki, həmin əlaqə cəmiyyətin sosial-iqtisadi, siyasi-mədəni, hüquq-qanunvericilik sistemindən, sosial normaların bu və ya digər növlərinin differensiasiyasından, bu normalar arasında mövcud üzvi bağlılıq dərəcəsindən asılı olaraq müəyyən edilir.

Bu baxımdan elə həlledici kontekstlə yanaşma tələb olunur ki, hüququn digər sosial normalar (hüququn özü də sosial normadır) sistemində yeri və rolu haqqında müddəalara daha ətraflı aydınlıq gətirilsin, sosial normaların institusionallıq səviyyəsi daha parlaq ifadə edilsin.

Bütün digər sosial normalarla müqayisədə hüquq son dərəcə mürəkkəb, çoxcəhətli və eyni zamanda da ziddiyyətli bütöv institusional təsisatdır. İnsan davranışı və fəaliyyətinin tənzimlənməsində başlıca funksiyanı yerinə yetirən hüquq normalarının bütün məcmusu ictimai münasibətlərin normativ tənzimlənməsi sistemini yaradır. Bu da təsadüfi deyil, çünki hüquq nadir sosial hadisədir. Lakin bununla yanaşı o, normativ tənzimləmə sisteminin üzvi komponentlərindən yalnız biridir. Buna görə də bütün digər sosial normalar (tənzimləyicilər) sistemində hüququn yeri və rolunun müəyyən edilməsi onun həqiqi təbiətini dərk etmək,

* Məqalə hüquq ü.e.d., professor Bəhram Zahidov tərəfindən çapa məsləhət görülüb.

tənzimləyici fəaliyyətinin dürüst sərhədlərini müəyyənləşdirmək baxımından böyük əhəmiyyətə malikdir.

Hüquq normaları real həyatda mövcuddurlar və ümumi qaydaya görə, nəinki bilavasitə özü, həm də digər sosial normalarla qarşılıqlı əlaqə və qarşılıqlı fəaliyyətdə müxtəlif ictimai münasibətləri tənzimləyirlər. Bu zaman tənzimləyici vasitələrə müstəsna dərəcədə hüquq normaları və digər hüquqi fenomenlər qismində baxıldığı bir vaxtda tədqiqatçılar adətən, hüquqi tənzimetmə mexanizmi haqqında danışırlar (1, s.64). Bütün qalan hallarda, yəni ictimai münasibətlərin tənzimlənməsinin hüquqi vasitələri digər, qeyri-hüquqi vasitələrlə tamamlandığı vaxtda ictimai münasibətlərin sosial tənzimetmə mexanizmi nəzərdə tutulur.

Deməli, ictimai münasibətlər mütləq qaydada təkcə hüquq normalarının deyil, eyni zamanda da digər sosial normaların köməyilə tənzimlənir (1, s. 65). "Sosial" normalar dedikdə, fərdlər arasında, fərdlərlə sosial qruplar arasında və fərdlərlə bütövlükdə cəmiyyət arasında münasibətləri tənzimləyən normalar, yaxud davranış qaydalarının məcmusu başa düşülür. K.F.Şerşeneviç yazırdı: "Cəmiyyət olan yerdə birgəyaşayış qaydaları və ya sosial normalar da olmalıdır. Sosial normalar insanın cəmiyyətdə davranışını, deməli, insanın digər adamlara münasibətini müəyyən edir" (2, s.152).

Hüquq və adətlər. Adət normaları hüquqla oxşar keyfiyyətlərə malikdirlər. Adətlər dedikdə, faktiki münasibətlər nəticəsində tarixən təşəkkül tapan və dəfələrlə təkrar olunmaları sayəsində vərdişlərə çevrilən ümumi xarakterli davranış qaydaları başa düşülür.

Doğrudur, əxlaq normaları kimi, onların da tənzim etdikləri hərəkətlər insanların mənəvi həyatı ilə sıx bağlıdır. Bundan başqa, adət normaları sosial psixologiya sferasına daxildirlər. Adət normaları məhz sosial psixologiya vasitəsilə fərdi şüura daxil olurlar. Adət normalarının adamların davranış praktikasına və sosial münasibətlər sisteminin bilavasitə özünə daxil olması da məhz bundan irəli gəlir.

Eyni zamanda, hüquq normaları kimi bir çox adət normaları da digər sosial normaların forması ola bilərlər. Adət normalarının sərbəstlik təyinatı həmin normaların faktiki münasibətlərdə hansı dərəcədə mövcud olmaları ilə müəyyən edilir (3, s.243). Buna görə də mahiyyət etibarilə bu və ya digər davranış qaydasının vərdişə keçərək adət cəhətləri əldə etdikləri zaman istənilən münasibətlər adətlər qismində çıxış edə bilərlər.

Beləliklə, adət normaları ictimai tənzimetmə sistemində xüsusi missiya yerinə yetirirlər. Belə ki, onlar sosial psixologiya və fərdi psixologiya sferasına daxil olaraq, digər sosial normaların qüvvəsini möhkəmləndirir, onları vərdişə, ənənəyə və adi normalara çevirirlər.

Hüquq və adət normalarının xüsusiyyətlərini tənzimləyən məlum oxşarlıq quldarlıq və feodal cəmiyyətləri şəraitində hüquq sistemlərinin formalaşmasının qanunauyğun xarakterinə inandırıcı izah verir. Bu vaxt hüquqi strukturların birbaşa adətlərdən irəli gələrək dəyişməsi, yetişməsi tarixi faktın hər yerdə təkrarlanması qismində təsbit edilmişdir.

L.S.Yaviç yazır: "Adəti... qanunla təbii şəkildə qabaqcadan düşünülmüş hüquq kimi izah etmək olar. Qanun isə bu zaman artıq hüququn öz-özünə düşünülmüş ifadəsi deyil, onun rasional mənbəyi idi (bu müddəa məcəlləşdirməyə də aiddir)" (4, s.121).

Adət normalarının əsasında konkret davranış, praktiki fəaliyyət nümunələri durur. Elə buna görə də onları davranış və fəaliyyətdən ayırmaq çətindir. Adətlərdə ehtiva olunan göstərişlərin yüksək müfəssəlliyi də buradan meydana gəlir. Həmin göstərişlər öz mahiyyətinə görə davranışın özünün ətraflı şəkildə təsviri üçün kifayət edir.

Bu gün, bir qayda olaraq, hüququn və adətlərin bir-birinə qarşılıqlı təsiri haqqında danışılır. Buna əsasən hüquq normalarının cəmiyyətdə mövcud olan adətlərə "münasibəti" qismində baxılır. Belə "münasibət"in aşağıdakı üç əsas variantı qeyd olunur:

1) hüquq normaları cəmiyyət və dövlət nöqteyi-nəzərindən faydalı olan adətləri dəstəkləyir, onların realizəsi üçün şərait yaradır;

2) hüquq normaları cəmiyyət nöqteyi-nəzərindən zərərli olan adətlərin sıxışdırılmasına xidmət edir;

3) hüquq normaları qüvvədə olan adətlərə laqeyddir. Belə adətlərin əksəriyyəti fərdlər arasındakı qarşılıqlı münasibətlərdə, insanların ailə-məişət davranışlarında mövcuddur.

Hüquq və dini normalar. Sosial normaların xeyli hissəsini və vacib bir qrupunu dini normalar təşkil edirlər. Bu normalar möminlər arasındakı münasibətləri tənzimləyir. Məscidlər və müxtəlif dini idarə və təşkilatlar arasındakı münasibətlər də bu normaların tənzimləmə predmetinə daxildir.

Əxlaqi-etik göstərişlər külliyyatı dini normaların tərkib hissəsini təşkil edir. Belə göstərişlər özündə dini etiqadları, spesifik dini mərasim və ayinləri və dini idarələrin fəaliyyətini ehtiva edir. Dini kanonlar (kilsə qanunları) külliyyatı insanlığın ən erkən inkişaf mərhələlərindən başlayaraq qüvvədə olan tənzimləyici sistemdən ibarətdir. Antik dövrdə din, əxlaq və siyasət bir-birindən ayrılmaz olmuşlar. Dünya dinləri – iudeylik, xristianlıq, buddizim və islam cəmiyyətin nəinki mənəvi həyatına, eləcə də hüquq sistemlərinin inkişafına böyük təsir göstərmişdir. Dünya dinləri planetdə yaşayan xalqların, hər şeydən əvvəl, Avropa və Amerika əhalisinin həyatına (xüsusilə də xristianlıq) mühüm təsir etmişlər və indi də etməkdədirlər.

Müasir hüquq sistemlərindən birini islam dini (müsəlman hüququ) təşkil edir. Qurana (və Sünnəyə) əsaslanan hüquqi göstərişlərin bu mükəmməl sistemi bütün müsəlmanlara "doğru yol" göstərir. Şəriət Şərq ölkələrində yaranmış müsəlman feodal hüququnun dini və hüquq normalarının məcmusudur. Şəriətin mənbəyini Quran, Sünnə, İcma və Qiyas təşkil edir.

Azərbaycan Respublikasında islam dini ilə yanaşı, xristian, iudeylik və digər dinlərin daşıyıcıları yaşayır. Ölkədə müxtəlif dini etiqadların normaları uğurla fəaliyyət göstərir. Elə bunun nəticəsidir ki, respublika bütün dünyada tolerantlğın ən nümunəvi ölkəsi kimi tanınmışdır. Azərbaycan dünyəvi dövlətdir. Bu, ən mühüm konstitusiya prinsiplərindən biridir. Azərbaycan eyni zamanda da müsəlman ölkəsidir. Lakin bununla belə, heç bir din dövlət dini qismində müəyyən edilə bilməz. İslam dini Azərbaycanın mənəvi mədəniyyətinin ən qiymətli sərvətlərindən biridir.

Hüquq və texniki normalar. Cəmiyyətdə mövcud olan sosial normaların bir qismini texniki normalar təşkil edir. Bu normalar insanların müxtəlif istehsal və əmək vasitələrinə, alətlərinə, flora və faunaya münasibətini müəyyən edir. Şübhəsiz ki, texniki normalar sosial normalardan təcrid olunmuş halda mövcud ola bilməzlər. Lakin texniki normaların sosiallığı son dərəcə şərtidir. Bu normalar adətən, məhdud dairəyə malikdirlər və xüsusi normativ-hüquqi aktlarda təzahür edirlər (2, s.628). Bioloji, texnoloji, elmi-texniki, ekoloji və s. Normaları texniki normalara aid edirlər. Texniki normalar qanunvericilikdə texniki-hüquqi normalar adı ilə nəzərdə tutulurlar. Hüquq və texniki normaların qarşılıqlı əlaqəsi müəyyən mənada bir vaxtlar hüquq üçün əlçatmaz olan sferanın tənzimləmə obyektinə çevrilməsini əks etdirir.

Hüquq və korporativ normalar. İctimai birliklər (ictimai təşkilatlar, fondlar, siyasi partiyalar və s.) və onların üzvləri, iştirakçıları arasında münasibətləri tənzimləyən normalar korporativ normalar hesab olunur. Bu normalar əsasnamə və ya nizamnamələrdə (habelə digər sənədlərdə) əks olunur, ümumi iclaslarda, konfrans və ya qurultaylarda qəbul və təsdiq edilirlər.

Korporativ normalar hüquq normaları ilə müəyyən oxşarlığa malikdir. Bu normalar da hüquq normaları kimi rəsmi sənədlərdə qeydə alınır və tələb olunan qədər müfəssəlləşdirilirlər (5, s.122). Məsələn, ictimai təşkilatların, yaxud birliklərin nizamnamələrində onların üzvlərinin hüquq və vəzifələri rəsmiləşdirilir. Lakin bu normalar yalnız müvafiq birliyin və ya təşkilatın üzvləri üçün məcburi qüvvəyə malikdir.

Beləliklə, aydın oldu ki, sosial normalar son dərəcə çoxsaylı və müxtəlifdirlər. Bu da ictimai münasibətlərin özünün – tənzimetmə predmetinin zənginliyi çoxcinsli olması ilə

bağlıdır. Müasir sosiologiya elmində onlar müxtəlif əsaslara görə müvafiq növlərə, siniflərə və qruplara (elementar və mürəkkəb, intensiv və eksintensiv, proqressiv və reqressiv, törəmə və direktiv, "canlı" və "ölü" fəaliyyət göstərən və göstərməyən normalar) bölünürlər.

Hüquq elmində isə belə ətraflı və bitkin bölgü aparılmır. Yəni sosial normalar əsasən formalaşma üsulları, təsiretmə sferaları, sosial istiqamət kimi kriteriyalar üzrə təsnifləşdirilirlər (4, s.289). Bu nöqteyi-nəzərdən hüquq elmində - hüquq normaları; əxlaq normaları; siyasi normalar; estetik normalar; dini normalar; ailə normaları; korporativ normalar; adət normaları, ənənələr, vərdişlər; işgüzar-adi normalar; etiket, korrektivlik, nəzakət, ayin və mərasim normaları fərqləndirilir.

Bu hamılıqla qəbul olunan və çox geniş yayılmış təsnifatdır. Biz onların ən əsasları üzərində dayandıq.

Beləliklə, sosial normalar sadəcə olaraq arzu olunan davranışın mücərrəd qaydaları deyillər. Onlar həyatda və praktikada faktiki olaraq öz təsdiqini tapmış real hərəkətlərin özü deməkdir. Bu halda gerçək hərəkətlər qaydaya çevrilirlər. Başqa sözlə, sosial normalar təkcə "lazım olanı deyil, həm də mövcud olanı ifadə edirlər".

Norma dedikdə, müəyyən nəticə və ya marağa nail olmağa yönələn pozitiv, ictimai-faydalı ölçü başa düşülür. Buna görə də sosial normalar hər cür deyil, yalnız ən tipik və kütləvi münasibətləri tənzimləyirlər. Təsadüfi əlaqələr, xətalar, hərəkətlər və digər davranışlar normada əks oluna bilməz. Norma – bu, həmişə stereotipdir. O, həm daxili təhriklərə, həm də xarici determinantlara əsaslanır.

Sabitliyin hökm sürdüyü müasir cəmiyyət və dövlətlərdə bütün sosial normalara ardıcıl və ciddi əməl olunması tələb edilir. Bunların içərisində hüquq normaları, əxlaq normaları və siyasi normalar xüsusi yer tutur. Əsrlər boyu işlənib hazırlanmış belə normaların göstəriş və tələblərindən kənara çıxmaq son həddə meydana çıxan çətinliklərin səbəblərindən biridir (6, s.115). Bütün dünya dövlətləri və xalqlarının rədd etdikləri prioritetlər və imtiyazlar artıq kənara qoylmuşdur. İndi hər bir sivil cəmiyyətdə qüvvdə olan sosial normalara yüksək şüurluluq əsasında əməl olunur.

Nəzərə almaq lazımdır ki, hamılıqla qəbul olunmuş normalardan yan keçmək və insan varlığına aid şərtlərin çərçivəsindən kənara çıxmaq tarixən həmişə dövlətin mübarizə aparmaq məcburiyyətində qaldığı bəlaların meydana çıxmasına gətirib çıxarmışdır.

Beləliklə, deyilənləri yekunlaşdıraraq belə nəticəyə gəlmək olar ki, hüquq sosial normalar sistemində, hər şeydən əvvəl, ictimai münasibətlərin yeganə tənzimləyicisi qismində çıxış edir. İkincisi, hüquq son dərəcə unikal, yüksək əhəmiyyətli və nüfuzlu bir tənzimləyicidir, lakin o, normativ tənzimetmə sisteminin komponentlərindən biridir. Üçüncüsü, hüquq istisnasız olaraq bütün sosial normalara ümumi təsir sxeminə malikdir və zəruri hallarda onun özü də digər sosial normaların təsirini hiss edir. Dördüncüsü, hüquq sosial normalar sisteminin özündə məcburiyyəti və sanksiyanı ehtiva edən komponentdir. Digər sosial normalar belə xüsusiyyətə malik deyillər. Beşincisi, digər sosial normalardan (məsələn, əxlaq normalarından, dini normalardan) fərqli olaraq, hüquq rəqabətə qarşı dözümsüzdür. Məhz buna görə də hər hansı insan cəmiyyətində yalnız bir hüquq sistemi ola bilər.

Açar sözlər: hüquqi dövlət, sosial normalar, tənzimləyici, adət normaları, korporativ.

İstifadə olunmuş ədəbiyyat

1. Марченко М.Н. Проблемы теории государства и права. М., 2007.
2. Шершеневич Г.Ф. Общая теория права. М., 1995.
3. Теория государства и права /Под ред. В.М.Корельского. М., 1997.
4. Явич Л.С. Общая теория права. М., 1991.
5. Теория государства и права: Курс лекций /Под ред. Н.И.Матузова, А.В.Малько. М., 1999.
6. Алексеев С.С. Общая теория права. М., 2009.

Габил КУРБАНОВ

ПРАВО В СИСТЕМЕ СОЦИАЛЬНЫХ НОРМ

Резюме

Право - это сложный феномен, состоящий в многосторонних связях со всеми социальными нормами, которая проявляется в различных взаимозависимостях.

Вся совокупность правовых норм, выполняющих главную функцию в регулировании человеческой деятельности и поведении, создает систему нормативного регулирования общественных отношений.

В современных стабильных обществах и государствах требуется последовательное и серьезное исполнение всех социальных норм. Среди них особое место занимают правовые, моральные и политические нормы.

Ключевые слова: правовое государство, социальные нормы, правила, обычаи и нормы, корпоратив.

Habil GURBANOV

THE LAW IN THE SYSTEM OF SOCIAL NORMS

Summary

The law is a complex phenomenon, consisting of multilateral relations with all social norms. This relationship manifests itself in various interdependencies.

The whole body of the legal norms that performs the main function in the regulation of human activity and behavior, creates a system of normative regulation of social relations.

In the modern stable societes and states the consistent and strong performance of all social norms is required. Among them the legal, moral and political norms take a particular place.

Keywords: legal status, social norms, regulations, customs and norms, corporate.

UOT 342

İlham ABBASOV
hüquq ü.f.d., baş ədliyyə müşaviri,
prokurorluğun fəxri işçisi,
ƏN Ədliyyə Akademiyasının baş müəllimi

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARININ TƏŞKİLİ VƏ FƏALİYYƏTİ*

Mən bu gün bir daha bəyan edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinə tam etibar edirəm və əmin olduğumu bildirirəm ki, nazirlik, onun bütün əməkdaşları bu etimadı tam doğruldacaqlar.

Ümummilli lider Heydər Əliyev

Xüsusi xidmət orqanlarının tarixi qədimdir. Lakin bu orqanlar heç də konkret dövlətin yarandığı vaxtda deyil, onun inkişafının müəyyən inkişaf mərhələsində yaranmış və fəaliyyət göstərmişdir.

Rusiyada isə xüsusi xidmət orqanlarının təşəkkülü orta əsrlərdə, konkret desək Moskva çarlığının banisi Çar İvan Qroznının çarlığı dövrünə təsadüf edir. Belə ki, Çar İvan Qroznının çarlığı dövründə dövlətin, bilavasitə Çarın idarəçiliyində ***(Çarın bilavasitə tabeçiliyində -İ.A.)*** olan və güclü mərkəzi hakimiyyət yaratmaq uğrunda mübarizədə onunüçün dayaq təşkil edən orqan kimi yaradılmışdır. Tarixə, IV İvan Qroznı kimi, düşmüş monarxın mövcud rejimdə xəzinəni talayan və Rusiyanın düşmənləri ilə əlbir olan cinayətkar boyarları başqa cür cəzalandırılması mümkün deyildi.

Çar opriçninasının ***(IV İvan Qroznının çarlığı dövründə dövlətin, bilavasitə Çarın idarəçiliyində olan və güclü mərkəzi hakimiyyət yaratmaq uğrunda mübarizədə onun üçün dayaq təşkil edən hissəsi - İ.A.)*** ilk rəhbəri boyar A.D.Basmanov (1565-1570-ci illərdə) olmuşdur (1, s.9-13).

Xüsusi xidmət orqanları həmişə dövlətin mənafeyini qorumuşdur.

Zaman-zaman xüsusi xidmət orqanları inkişaf etməklə yanaşı, bu orqanların adı, həmin orqanların qarşısında duran vəzifə və funksiyaları, iş üslubu və metodları da dəyişmişdir. Müxtəlif ölkələrdə xüsusi xidmət orqanları fərqli adlar altında yaradılmış və fəaliyyət göstərmişlər. Məsələn, bolşeviklərin oktyabr 1917-ci il çevrilişindən sonra ***(Böyük Oktyabr Sosialist inqilabı nəzərdə tutulur – İ.A.)*** 1917-ci ilin dekabr ayının 7-də ***(yeni stillə dekabrın 20-də - İ.A.)*** Rusiya Sovet Sosialist Respublikasının Xalq Komissarları Soveti F.E.Dzerjinskinin başçılığı ilə Ümumrusiya Fövqəladə Komissiyasının yaradılması haqqında qərar qəbul edir.

XKS qərarı ilə ÜRFK-nın aşağıdakı vəzifələri müəyyən edilirdi:

«1) Rusiyanın hər yerində, kim tərəfindən edilməsindən aslı olmayaraq, hər cür əksinqilabı və pozuculuq cəhdləri və hərəkətlərinin qarşısını almaq;

2) bütün pozucuları və əksinqilabçıları inqilabi tribunal məhkəməsinə vermək və onlarla mübarizə tədbirlərini hazırlamaq» (2, s.42).

---

* Məqalə hüquq ü.f.d., professor Habil Qurbanov tərəfindən çapa məsləhət görülüb.

Quruluş cəhətdən ÜRFK da, Hərbi-İnqilab Komitəsi kimi idi. O, məlumat, təşkilat, əksinqilab və sabotajla, vəzifə cinayətləri ilə mübarizə şöbələrinə və s. şöbələrə ayrılırdı. Orduda və donanmada əksinqilabla mübarizəni ÜRFK-nın xüsusi şöbəsi həyata keçirirdi. ÜRFK-ya sədr, onun iki müavini və iki katibdən ibarət Rəyasət heyəti başçılıq edirdi. ÜRFK-nın aparatı o qədər də böyük deyildi – 1917-ci ilin dekabrında 40, 1918-ci ilin martında isə 120 adamdan ibarət idi. Yerlərdə fövqəladə komissiyalar hər bir vilayət və quberniya icra komitəsinin yanında, dəmir yolu qovşaqları mərkəzlərində, iri limanlarda və sərhəd zolağında yaradılır. 1918-ci ilin birinci yarısında artıq 40 quberniya, habelə 365 qəza fövqəladə komissiyası fəaliyyət köstərirdi. ÜRFK onların fəaliyyətini birləşdirirdi. Fövqəladə komissiyalar bütün partiya və sovet orqanları ilə sıx əlaqədə işləyir və öz hərəkətləri haqqında onların qarşısında hesabat verirdilər (2, s.42).

ÜRFK inqilabi tribunallarla, habelə xalq daxili işlər və ədliyyə komissarlıqları ilə birlikdə əksinqilabi cinayətlərlə mübarizə aparırdı. Bu Xalq komissarlıqlarının ÜRFK-da nümayəndləri var idi, öz növbəsində ÜRFK-nın nümayəndəsi XDİK-nın kollegiyasına daxil idi. Sabotajçılar və sui-qəsdlər barəsində qəti tədbirlər görmək üçün ÜRFK əksinqilabıçıların əmlakını müsadirə etmək, onları ərzaq kartoçkalarından məhrum etmək, xalq düşmənlərinin siyahısını tərtib edərək, elan etmək və s. ixtiyarına malik idi (2, s.43).

Qərbi Avropa ölkələrində isə xüsusi xidmət orqanlarının yaranması tarixi daha qədim dövrə gedib çıxır, lakin həmin dövrdə bu orqanların fəaliyyətinin forma və üsulları primitiv idi.

Göründüyü kimi, xüsusi xidmət orqanlarının yaranması konkret tarixi şəraitdə hər bir dövlətin qarşısında duran vəzifələrlə şərtləşir. Onun mübarizə metod və formaları, iş üsulları, dövrün tələbindən asılı olaraq, dəyişir, elm və texnikanın inkişafı ilə əlaqədar, mübarizə üsulları da təkmilləşir.

Ümummilli lider Heydər Əliyev 5 iyul 1997-ci il tarixdə Respublikanın Milli Təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsinə həsr olunmuş təntənəli yığıncaqdakı nitqində demişdir: «Müstəqil Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi yaranıbdır. Ancaq bu, boş yerdə yaranmayıbdır, bunun tarixi kökləri var və tarixi köklərini də düzgün müəyyən etmək lazımdır.

Azərbaycan xalqının orta əsrlərdə dövləti olmuşdur. Sonra xalqımız dövlətçiliyini itirmiş və əsrin əvvəllərində-1918-ci ilin may ayının 28-də Azərbaycanda yenidən milli dövlət qurulmuş, ilk Azərbaycan Demoktarik Respublikası elan olunmuş və yaranmışdır. Ona görə də bugünki müstəqil Azərbaycan Respublikasının təhlükəsizlik orqanının başlanğıc tarixini 1918-20-ci illərdə yaşamış ilk Azərbaycan Demokratik Respublikasının bu məqsəd üçün yaratdığı orqandan götürmək doğru, düzgün və çox məqsədəuyğun qərardır. Bu təklifi mənə təqdim edən kimi, bunu məmnuniyyətlə qəbul etdim və 28 mart gününü Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan etdim. 1919-cu il mart ayının 28-də ilk dəfə müstəqil Azərbaycan Demoktarik Respublikasının təhlükəsizlik orqanı yaradılıbdır. O, demokratik respublika kimi az yaşayıbdır, ancaq tarixi hadisədir» (3, s.330-331).

Konkret tarixi şəraitdən asılı olaraq, xüsusi xidmət orqanları hər bir ölkədə müxtəlif orqanların tərkibində və müxtəlif formalarda yaradılmış, həmçinin konkret vəzifələri yerinə yetirilmişdir.

Azərbaycan Milli İslam Şurası 28 may 1918-ci ildə Tiflisdə Azərbaycanın dövlət müstəqilliyi haqqında «İstiqlal bəyannaməsi»ni qəbul etdikdən sonra Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası birinci Müvəqqəti Hökumətin tərkibini təsdiq etmişdir. Həmin qərara əsasən Fətəli Xan Xoyski Nazirlər Şurasının sədri və Daxili İşlər Naziri təsdiq etmişdir. Lakin həmin vaxt xüsusi xidmət orqanları hələ təsdiq olunmamışdı.

Birincisi, həmin Müvəqqəti Hökumət Tiflis şəhərində-mühacirətdə yaradılmışdı. Digər tərəfdən, Müvəqqəti Hökumətin hələ kifayət qədər təcrübəsi yox idi və buna görə də belə bir orqanın yaradılmasına zərurət görmürdü.

16 iyun 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin Müvəqqəti Hökuməti Tiflisdən Gəncəyə köçdükdən sonra Nazirlər Şurasının 26 iyun 1918-ci il tarixli Qərarı ilə Gəncədə dislokasiya olunmuş «Müsəlman korpusu» «Əlahiddə Azərbaycan korpusu» adlandırılmış və Ümummilli lider Heydər Əliyevin Prezident kimi imzaladığı 22 may 1998-ci il tarixli Fərmanı ilə hər ilin 26 iyunu Azərbaycan Silahlı Qüvvələrinin yaranması günü kimi qeyd etmək qərara alınmışdır (4, s.1). Lakin ölkədə xüsusi xidmət orqanları isə hələlik yaradılmamışdı.

Şərqdə ilk parlamentli respublika üçün bolşevik Rusiyasının real təhlükə yaratması, ölkədə və o cümlədən Milli Ordu sıralarında hələ də baş verən özbaşnalıqlar və pozuculuq halları xüsusi xidmət orqanlarının təşkilinə zərurət yaratdı. Ona görə də Hərbi Nazir, tam artileriya generalı ***(general-polkovnik - İ.A.)*** S.S.Mehmandarovun 28 mart 1919-cu il tarixli 157 №-li əmri ilə Baş Qərargahın general-kvartmeystr şöbəsində kəşfiyyat və əks-kəşfiyyat bölməsi yaradılır. Maraqlıdır ki, həmin dövrdə, bir qayda olaraq, Hərbi Nazirin əmrlərinə eyni zamanda Baş Qərargahın rəisi Sulkeviç də imza edirdi (5, s.87).

Təsadüfi deyildir ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycan Respublikasının Prezidenti kimi imzaladığı 23 mart 1997-ci il tarixli 525 №-li Fərmanı ilə hər ilin 28 mart Azərbaycan Respublikasının milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü elan edilmişdir (6, s.1).

Ümummilli lider Heydər Əliyev demişdir: «Öz dövlətçilik tariximizi 1918-1919-cu illərdən hesablayaraq, ötən dövrdə Azərbaycan həyatının bütün sahələrində, o cümlədən təhlükəsizlik orqanlarının həyatında da nə qədər çətin və mürəkkəb proseslər olduğunu biz yaxşı görürük. Ancaq bu gün iftixar hissi ilə demək olar ki, Azərbaycan xalqı uzun illər böyük, ağır yol keçərək öz milli azadlığını, dövlət müstəqilliyini əldə etdiyi kimi, Azərbaycanın təhlükəsizlik orqanları da geniş bir yola çıxmışlar» (7, s.110).

Beləliklə, ilk dəfə Azərbaycan Xalq Cümhuriyyəti dövründə xüsusi xidmət orqanları Hərbi Nazirliyin tərkibində yaradılmışdır.

Hərbi idarə çərçivəsində olan bu struktur öz fəaliyyətini yalnız təhlükəsizliyin hərbi aspekti ilə məhdudlaşdırmırdı. 1919-cu ilin aprelin 2-də Nazirlər Şurası sədrinin adına göndərdiyi məktubunda Səməd bəy Mehmandarov yazırdı: «Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir, bolşevizimlə mübarizə ümumdövlət işi olduğundan tək hərbi idarə onun öhdəsindən gələ bilməz. Rus ordusunun dairə qərargahlarının təcrübəsi də göstərir ki, hətta xeyli pul buraxıldıqda belə, təcrübəli icraçılar və axtarışla bağlı xüsusilik tələb edən bu cür mürəkkəb, incə işi qaydaya salmaq hərbi idarənin hünəri deyil» (8, s.107).

Beləliklə, 1919-cu ilin aprelin 13-də dövlət hakimiyyətinin bütün strukturları Azərbaycan hökümətinin ixtiyarına keçdikdən sonra mərkəzləşdirilmiş kəşfiyyat və əks-kəşfiyyat haqqında məsələnin müzakirəsi mümkün oldu. Denikinin 1919-cu ilin aprel ayında Dağıstana və Gürcüstana hücumu Azərbaycan üçün də müstəqilliyin, istiqlaliyyətin itirilməsi təhlükəsini yaratmışdı.

Ona görə də Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 9 iyun 1919-cu il tarixli qərarı ilə dövlətin qorunması üzrə xüsusi orqan-Dövlət Müdafiə Komitəsi yaradılmışdır (5, s.104-105).

Dövlət Müdafiə Komitəsi xüsusi səlahiyyətlərə malik olan bir orqan idi. Dövlət Müdafiə Komitəsi ölkədə ümumi hərbi səfərbərlik keçirmək, hərbi və müharibə vəziyyəti elan etmək, xüsusi könüllü dəstələr yaratmaq, ölkənin təhlükəsizliyi ilə bağlı məsələlərin müzakirəsini aparmaq, müvafiq qərarlar qəbul etmək, qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə

yetirilməsi məqsədi ilə yeni strukturlar yaratmaq və s. hüquqlara malik idi. Dövlət Müdafiə Komitəsi ortaya fövqəladə məsələləri və qəbul edilmiş qərarların icrasını təşkil etməli idi. Dövlət Müdafiə Komitəsinin iclasları onun üzvlərindən üç nəfərin iştirak etdiyi şəraitdə hüquqi səlahiyyətli hesab olunurdu. İclasa rəhbərliyi Nazirlər Şurasının sədri edirdi. O, iclasda iştirak etmədiyi təqdirdə Dövlət Müdafiə Komitəsinin istənilən üzvünə sədrlik səlahiyyəti tapşırıla bilərdi (9, s.49).

29 mart 1919-cu ildə Hərbi Nazir, artileriya generalı S.Mehmandarov aşkar edilmiş casus təşkilatının üzvlərinin saxlanılması üçün tədbirlər görülməsi haqda X.Xasməmmədova teleqram vurur. Teleqramda göstərilirdi ki, Azərbaycan silahlı qüvvələri barədə Könüllülər ordusunun ***(Denikinin ordusu nəzərədə tutulur - İ.A.)*** və Erməni hökumətinin xeyrinə məlumat toplanması haqda şübhə doğurmayan sübutlara əsasən Gəncədə Smıslov həbs edilmişdir. Onun işində iştirakçılığa görə Gəncə qarnizonunun bir neçə zabiti də müəyyən edilmişdir. Bakıda onun aşağıda göstərilən iştirakçıları vardır: Erməni küçəsi 8-də yaşayan, erməni ordusunda xidmət etmiş Baş Qərargah zabitinin arvadı olan Nelli Fyodorovna Çernişova; Stanislav Rudolfoviç Zuber də Rılskilərin Merkuriyevski kontorundadır.

S.Mehmandarov daha sonra teleqramda göstərirdi ki, Çernişovun da mənzilində axtarış aparılması zəruridir, axtarış zamanı nəsə aşkar edilərsə, onu həbs etmək, işi isə məhkəmə müstəntiqinə vermək. Belə bir axtarışın Zuberin də evində aparılması zəruridir.

Həmin teleqramda həmçinin, göstərilirdi ki, cənab Smıslov Gəncəyə Tiflis dəmir yolunun jandarm idarəsinin keçmiş rəisi kn. Şetinin Muxaylovski polkunun müdürinin ona köməklik edilməsi haqda məktubu ilə gəlmişdir. Güman edirəm ki, casus təşkilatı Bakıda yerləşir və bütün yollar ora gedir, təşkilatın rəhbəri təcrübəli jandarm Şetinindir, ona görə də axtarış aparılıb onu təcili həbsə alınması zəruridir.

Teleqramda imzadan sonra belə bir qeyd vardır: Arayış...martın bu günü gündüz saat 5-də qubernator R.Axundov çağrılıb, mənim tərəfimdən müvafiq tapşırıq verildi (5, s.89).

Milli Ordunun Baş Qərargah rəisi general-leytenant Sulkeviç Azərbaycan ordusunun Bakıya gəlməsi ilə əlaqədar S.Ağabəyova Gəncədən 31 mart 1919-cu il tarixdə əks-kəşfiyyatın təşkili barədə 1539 №-li məktub yazır. Məmməd bəy Sulkeviç həmin məktubunda göstərir ki, bu ilin aprel ayının 5-də Azərbaycan ordusunun Bakıya gəlməsi ilə əlaqədar Hərbi Nazir mənə mühüm tapşırıq - əks-kəşfiyyat işinin təşkili haqda tapşırıq vermişdir. Bu məqsədlə tərəfimdən yasavul Yusupov ora ezam edilir, xahiş edirəm, ona müvafiq köməkliyinizi əsirgəməyəsiniz (5, s.90-91).

Həmin məktubun aşağısında imzadan sonra belə bir qeydiyyat vardır: Şəxsən qubernatora təklif edilmişdir ki, yasavul Yusupova hərtərəfli kömək etsin və onun hərəkətlərinin Bakı axtarış polisi ilə razılaşdırılsın. 2 aprel. General Ağabəyov (5, s.91).

Qeyd etmək lazımdır ki, «Kəşfiyyat və əkskəşfiyyat»ın, Hərbi Nazirlikdə bir bölmə olaraq fəaliyyət göstərməsi, eləcə də bu sahə üzrə peşəkar mütəxəssislərin olduqca azlıq təşkil etməsi ictimai-siyasi həyatın bir çox sahələrində olduğu kimi əks-kəşfiyyat işini də genişləndirməyə və inkişaf etdirməyə nəinki imkan vermirdi, hətta mane olurdu. Çətinlik törədən amillərdən biri də bu bölmənin əməkdaşlarının sayca az olması idi. Belə ki, bu bölmənin ştatına uyğun olaraq sayca 28 nəfər olmalı idi. Bunlardan 1 nəfər rəis, 2 nəfər rəis köməkçisi, 2 nəfər kargüzar, 23 nəfər isə agent (əməkdaş) olmalı idi. Lakin bölmə kadrlarla tam komplektləşdirilmədiyindən bəzi vakant yerlər də qalmışdı. Azərbaycana marağın artdığı, müstəqilliyinin təhlükə altında olduğu bir dövrdə belə bir qurumla hərbi nazir S.Mehmandarov dediyi kimi, böyük işlər görmək və ölkənin hərbi təhlükəsizliyini təmin etmək olduqca çətin idi (9, s.38).

Azərbaycan Xalq Cümhuriyyəti dövründə kəşfiyyat və əkskəşfiyyat xidmətinin əməkdaşları əməliyyat işinin ənənəvi üsullarından, o cümlədən inanılmış şəxslərin məlumatlarından da, özünəməxsus qaydalarla, əldə edərək, səmərəli istifadə etmişlər. Bu

cəhətdən, Baş Qərargah Baş İdarəsinin rəisinin əməliyyat-kəşfiyyat bölməsinin böyük adyutantının Lənkaranda olan hökumət əleyhinə qüvvələrin sayı və silahları barədə məlumatı xarakterikdir.

Böyük adyutant qeyd edilən məlumatında göstərir ki, mənim məlumatıma görə (uyezd müdiriyyətinin məmurlarından və tam inanılmış şəxslərdən aldığım məlumata görə) Lənkaranda bolşeviklərin qüvvəsi 1200 nəfərdən 1500 nəfərə qədərdir, hansı ki, onların çoxu rus və ermənilərdir, Lənkaranda bolşeviklərin 4 topu vardır, Baxmayaraq ki, onların kifayət qədər təlimatçı-zabitləri vardır, lakin onlar hərbi-təşkilatı çox zəifdir.

Məlumatda daha sonra göstərilirdi ki, Muğanda 2 dəstələri var: a) bolşeviklər bir neçə zabitə malik olmaqla nisbətən güclüdürlər və 12 topları var, b) bolşeviklərin ikinci dəstəsi zəifdir. Bu dəstələrdə adamların sayını müəyyən etmək mümkün olmamışdır; bu dəstədə 12 top var, bununla bərabər bu dəstələrdə çoxlu nasazlıqlar var. Bolşeviklərin əleyhinə olan dəstə Könüllülər ordusuna hüsn-rəğbət bəsləyir və təsadüfi deyildir ki, Lənkəran və Muğanı işğal etməsi xahişi ilə bu yaxınlarda Denikinə nümayəndə göndərmişlər. Denikin yaxın gələcəkdə dəstə göndərməyə söz verib.

Həmin məlumatda, həmçinin, göstərilirdi ki, Salyandan bizim hərbiçilər hücuma keçərkən yolboyu müsəlman kəndləri yerləşir, hansı ki, onlar bizim hərbiçilərə qoşulmağı səbrsizliklə gözləyirlər. Bu kəndlərdə əhali yaxşı silahlanmış, lakin yaxşı təşkilatlanmamışlar, onlar hücuma keçərkən yaxşı zabitlər ezam edilməsini xahiş edirlər.

Daha sonra həmin məlumatda göstərilirdi ki, Prişip ***(hazırda Göytəpə - İ.A.)*** sırf bolşeviklərdir. Orada 1000-dən çox olmayan silahlılar, 4 topları var. Privolnu kəndi isə bolşeviklərə hüsn-rəğbət bəsləməsələr də, demək olmaz ki, Azərbaycana da sədaqətlidirlər. Yerli hakimiyyət belə hesab edir ki, bizim hərbiçilər hücum edəcəkləri halda Privolnu kəndinin sakinləri ola bilsinki, onlara ***(müstəqil Azərbaycan Respublikasının hərbiçilərinə - İ.A.)*** qoşulsunlar.

Həmçinin, məlumatda o da göstərilir ki, üstün yüksəkliklər Prenbel ***(Yardımlı rayonu ərazisindədir - İ.A.)*** və Biləsuvardadır. Biləsuvarda 3 top var. Bolşeviklərin bazası – Saradadır ***(Sara adası Lənkarana daxildir - İ.A.),*** hansı ki, orada bir neçə qidroplan ***(suya düşə bilən təyyarə - İ.A.)*** vardır (5, s.222-223).

Təbii ki, belə bir kəşfiyyat məlumatlarının gələcək hərbi əməliyyatların keçirilməsi hazırlıq üçün böyük əhəmiyyəti vardı.

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın Yerevandakı diplomatik nümayəndəsi M.X.Tekinskinin Xarici İşlər Naziri M.Y.Cəfərova ünvanlandığı 11 iyul 1919-cu il tarixli teleqramında göstərilirdi ki, Böyük Vedi kəndində erməni ordusuna hücum edərək sonuncunu topları ilə dəmir yolu xəttinə çəkilməyə məcbur edib. Yerevana çoxlu yaralı gəlir. Öldürülən erməni əsgərləri 200 nəfərdən, ölən və yaralanan zabitlər isə 10 nəfərdən çoxdur. Deyirlər ki, müsəlmanlar ermənilərin iki top və səkkiz pulemyotunu ələ keçirmişlər. Ordu yeni hücum üçün hazırlaşır. Ermənilərdə ruh düşkünlüyü var. Ermənilər bu uğursuzluğu türk əsgərlərinin iştirakı ilə əlaqələndirir və buna da ingilislərin hərbi nümayəndəliyi inanır, halbu ki, Türk əsgərləri kənddə ümumiyyətlə yoxdur və belə bir məlumat, bir qayda olaraq ermənilərdən gəlir. Belə tərəfgərliklə ingilislər tərəfindən mənə bu haqda nota təqdim edilmişdir (5, s.225).

Əslində, bu teleqram da hərbi xarakterli teleqram olmaqla, kəşfiyyat məlumatı hesab edə bilməzdi. Lakin belə teleqramın da gələcək hərbi əməliyyatlara hazırlıq üçün böyük əhəmiyyəti vardı.

Bunun ardınca M.X.Tekinski Xarici İşlər Naziri M.Y.Cəfərova 16 iyul 1919-cu il tarixli, Yerevan şəhərinə verilmiş teleqramda göstərilir ki, Ermənistanda güclü səfərbərlik gedir, ingilislər müsəlmanlar əleyhinə getdiklərini gizlətmirlər (5, s.226).

1919-cu ilin əvvəllərində Bakıda Denikinin kəşfiyyatının rəisi, Baş Qərargahın zabiti Çernışov Azərbaycanın xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən həbs edilərkən (sonra o ingilislərin təzyiqi ilə azadlığa buraxıldı – C.Q.) onun Azərbaycanın milli ordusunda Denikinin cəsusu kimi fəaliyyət göstərdiyi sübuta yetirilmişdi. Eyni zamanda əməliyyat tədbirləri nəticəsində Denikinin cəsus şəbəkəsində təmsil olunanların bir qisminin ingilis kəşfiyyatına işləməsi müəyyən edilmişdi. Çernışovun yaşadığı mənzildə Azərbaycanın xüsusi xidmət orqanı tərəfindən aparılan axtarış zamanı Denikin kəşfiyyatının sxemi, onun tapşırıqları, məqsədi və proqramı, eyni zamanda gizli bolşevik təşkilatının işi, Azərbaycan ordusunun vəziyyəti barədə Denikinə ünvalanmış çoxlu sayda məlumatlar tapılmışdır (9, s.40).

Ölkədə hərbi, ictimai-siyasi vəziyyətin gərgin və kənar müdaxilələrin real olduğu, Denikinin ordularının, erməni separatçılarının, riyakar ingilislərin, eyni zamanda bolşeviklərin Azərbaycanın əleyhinə işlədiyi bir vaxtda müstəqil təhlükəsizlik orqanına xüsusi ehtiyac duyulurdu. Bunu nəzərə alan Azərbaycan Parlamenti 1919-cu il iyunun 11-də Dövlət Müdafiə Komitəsi yanında Əksinqilab ilə mübarizə təşkilatının (ƏMT-in) yaradılması barədə qərar qəbul etdi. Dövlət Müdafiə Komitəsinin sədri Nəsib bəy Yusifbəyli tərəfindən 1919-cu il iyunun 13-də imzalanmış bir sənəddə gösətərilirdi: «Mirfəttah Musəvi cənablarına! Dövlət Müdafiə Komitəsinin sənə cariyə haziranın (iyun ayı nəzərdə tutulur-C.Q.) 11-ci günü vaqe olan iclasında zati-aliniz müqabil kəşfiyyat müdirliyinə təyin edilmiş Məhəmmədbağır Şeyxzamanlı cənablarına müavin təyin olunursunuz. Məzkur komitənin qərardadı bərai-məlumat şərh edilir, əfəndin. Dövlət Müdafiə Komitəsinin sədri Yusifbəyli» (9, s.50-51).

Bolşeviklərin fəaliyyəti 1920-ci ilin əvvəllərində yeni vüsət aldı. Azərbaycan Xalq Cümhuriyyətinin hüquq-mühafizə və xüsusi xidmət orqanları bütün səylərini bolşevizmlə mübarizəyə yönəltsə də vəziyyət gündən-günə gərginləşirdi. Vəziyyətin gərginliyinə baxmayaraq, nə qədər qəribə də olsa, Nazirlər Şurası 1920-ci il martın 6-da ƏMT-in ləğv edilməsi barədə qərar qəbul etdi (9, s.64).

Bundan əvvəl isə 1919-cu il avqustun 20-də böyük qardaşı Məmmədbağır Şeyxzamanlının yerinə qardaşı Nağı bəy Şexyzamanlı Azərbaycan Xalq Cümhuriyyəti Hökumətində əks-inqilabı mübarizə təşkilatının rəisi təyin olunmuş, 1920-ci ilin martın 6-na qədər bu quruma rəhbərlik etmişdir. Cümhuriyyət dövründə ölkənin təhlükəsizliyinin təmin olunmasında, sərhədlərin qorunmasında mühüm xidmətlər göstərmişdir.

Nağı bəy Şeyxzamanlı Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəni tərk etmək məcburiyyətində qalmış, 1967-ci ildə Türkiyədə vəfat etmişdir (10, s.368).

Ümummilli lider Heydər Əliyev demişdir: «Bu gün tam qətiyyətlə demək olar ki, Azərbaycan dövləti, müstəqil Azərbaycan Respublikası 1918-ci ildə yaranmış Xalq Cümhuriyyətinin varisidir» (7, s.380).

Hesab edirik ki, ümummilli lider Heydər Əliyevin bu sözləri çağdaş Azərbaycan Respublikasının Milli Təhlükəsizlik orqanlarına da eyni dərəcədə aiddir. Respublikamızın 18 oktyabr 1991-ci ildə öz tarixi dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Komitəsi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyinə çevrilmişdir (9, s.388).

23 may 2007-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası təsdiq edilmişdir (11, s.51-56).

Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının əsas istiqamətləri: təhlükəsizliyin xarici siyasət vasitələri ilə təmin edilməsi; Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa olunması; Avropa və Avratlantik strukturlarına inteqrasiya; beynəlxalq təhlükəsizliyə töhfə 4 beynəlxalq təşkilatlarla əməkdaşlıq; regional əməkdaşlıq və ikitərəfli

münasibətlər; region ölkələri ilə əməkdaşlıq; qeyri-region ölkələri ilə əməkdaşlıq; müdafiə qabiliyyətinin möhkəmləndirilməsi; təhlükəsizliyin daxili siyasət vasitələri ilə təmin edilməsi; demokratiyanın möhkəmləndirilməsi; milli və dini tolerantlıq mühitinin qorunması; elm, təhsil, mədəniyyət və mənəviyyatın qorunması; iqtisadi və sosial inkişaf; daxili təhlükəsizliyin möhkəmləndirilməsi; sərhəd təhlükəsizliyinin möhkəmləndirilməsi; miqrasiya siyasəti; enerji təhlükəsizliyi siyasəti; nəqliyyat təhlükəsizliyi siyasəti; fövqəladə idarəetmə, ətraf mühitin və əhalinin sağlamlığının mühafizəsi; informasiya təhlükəsizliyi siyasəti kimi mühüm məsələləri əhatə edir (11, s.52).

Bu gün Azərbaycan Respublikasının milli təhlükəsiz orqanları öz sələfi olan Azərbaycan Xalq Cümhuriyyətinin xüsusi xidmət orqanlarının işini yeni şəraitə uyğunlaşdırmaq və daha da təkmilləşdirməklə, uğurla davam etdirirlər.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, kəşfiyyat və əkskəşfiyyat orqanları, əməliyyat məlumatları, Əksinqilabı Mübarizə Təşkilatı, konsepsiya.

İstifadə olunmuş ədəbiyyat

1. Александр Колпакиди, Александр Север. «Спецслужбы Российкой Империи», М.: ЭКСМО, 2010, 768 с.

2. SSRİ dövlət və hüquq tarixi (rus dilindən tərcümə), II hissə, Bakı: Maarif, 1977, 445 s.

3. Heydər Əliyev. «Müstəqilliyimiz əbədidir» kitab, 10-cu cild, Bakı: Azərnəşr, 2002, 471 s.

4. Əliyev H.Ə. «Azərbaycan Respublikasının Silahlı Qüvvələri günü haqqında Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli 707 №-li Fərmanı», «Azərbaycan» qəzetində dərc edilmişdir (23 may 1998-ci il, № 117), («VneshExpertService» LLC), 1 s.

5. Азербайджанская Демократическая Республика (1918-1920), Армия (Документы и материалы), Баку: Изд-во Азербайджан, 1998, 440 с.

6. Əliyev H.Ə. «Azərbaycan Respublikasının Milli Təhlükəsizlik orqanlarının əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 22 mart 1997-ci il tarixli 525 №-li Sərəncamı («Azərbaycan» qəzetində dərc edilmiş, № 55) (VneshExperctService LLC), 1 s.

7. Əliyev H.Ə. «Müstəqilliyimiz əbədidir» kitabı, 15-ci cild, Bakı: Azərnəşr, 2005, 527 s.

8. Abbasov N.R. «Öncə Vətəndir» (çıxış, məruzə və müsahibələr), Bakı: Hərbi nəşriyyat, 2000, 192 s.

9. Qasımov C., Bağırov X. «Azərbaycan Təhlükəsizlik orqanlarının qısa tarixi» (Dərslik), Bakı, 2008, 492 s.

10. Azərbaycan Xalq Cümhuriyyətinin Ensiklopediyası. II cild. Bakı: Lider, 2005, 469 s.

11. Əliyev İ.H. «Azərbaycan Respublikasının Milli Təhlükəsizllik Konsepsiyasının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 23 may 2007-ci il tarixli Sərəncamı və «Azərbaycan Respublikasının Milli Təhlükəsizllik Konsepsiyası», «Qanunçuluq» jurnalı, № 5, 2007, 51-66 s.

Ильгам АББАСОВ

ОРГАНИЗАЦИЯ И ДЕЯТЕЛЬНОСТЬ ОРГАНОВ НАЦИОНАЛЬНОЙ БЕЗОПАСНОСТИ В ПЕРИОД АЗЕРБАЙДЖАНСКОЙ ДЕМОКРАТИЧЕСКОЙ РЕСПУБЛИКИ

Резюме

Статья посвящена актуальной теме – вопросу организации и деятельности органов национальной безопасности в период Азербайджанской Демократической Республики.

Автор справедливо приходит к выводу, что органы национальной безопасности современной Азербайджанской Республики являются наследниками органов разведки и контрразведки, действовавших в период Азербайджанской Демократической Республики.

Ключевые слова: Азербайджанская Демократическая Республика, органы разведки и контрразведки, оперативные сведения, организация борьбы с контрреволюцией, концепция.

Ilham ABBASOV

THE ORGANIZATION AND ACTIVITY OF NATIONAL SECURITY BODIES DURING THE PERIOD OF THE AZERBAIJAN DEMOCRATIC REPUBLIC

Summary

The article is devoted to an actual topic – a question of the organization and activity of national security bodies during the period of the Azerbaijan Democratic Republic.

The author fairly comes to a conclusion that national security bodies of the Azerbaijan Republic are the successors of intelligence and counterintelligence bodies operated in the period of the Azerbaijan Democratic Republic.

Keywords: Azerbaijan Democratic Republic, secret service and counter-espionage bodies, operational information, «Organization of fight against counter-revolution», concept.

UOT 34

Oruc MƏMMƏDOV
hüquq ü.f.d., dosent, kafedra müdiri,
AR Prezidenti yanında DİA

DÖVLƏT QULLUQÇULARININ ƏLAVƏ TƏHSİLİNİN HÜQUQİ TƏNZİMİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ*

Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş səmərəli islahatlar müasir dövrdə onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla davam və inkişaf etdirilərək həyata keçirilir. İslahatlar Azərbaycan Respublikasında vətəndaş cəmiyyətini, demokratik, hüquqi dövlətin dayanıqlı və davamlı inkişafını, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, hüquqi dövlət quruculuğu prosesinin davam və inkişaf etdirilməsinə yönəldilmişdir. Sosial, siyasi, iqtisadi, hüquqi və digər sahələri əhatə edən məqsədyönlü islahatlar kompleks xarakter daşıyır. Uğurla həyata keçirilən islahatlar ilk növbədə konstitusion təminatların realizəsini şərtləndirmiş və nəticə etibarı ilə inkişafın Azərbaycan modelinin əsası qoyulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə" 2011-ci il 29 noyabr tarixli Sərəncamı (3) ilə Azərbaycanın yeni inkişaf mərhələsinə qədəm qoyması elan olunmuş, şəxsiyyət, cəmiyyət və dövlət üçün mühüm strateji əhəmiyyət kəsb edən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş yeni inkişaf mərhələsinin əsas hədəfləri müəyyən edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının 2012-ci il 29 dekabr il tarixli Fərmanı (4) ilə "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası" təsdiq edilmişdir. Fərmanın əsas məqsədi kimi 2020-ci ilədək dövr üçün ölkənin perspektiv inkişaf hədəf və istiqamətlərini müəyyənləşdirmək və onların gerçəkləşdirilməsini təmin etmək ehtiva edilmişdir. Fərmanla müasir Azərbaycan dövlətinin fəaliyyətində mərkəzi yer tutan əsas istiqamətlərə: ölkədə iqtisadiyyatın tarazlı və dayanıqlı inkişafını təmin etmək; əhalinin sosial rifahını yüksəltmək; sosial-iqtisadi inkişafın cari, orta və uzunmüddətli dövrləri arasında üzvi bağlılıq və qarşılıqlı uzlaşma yaratmaq; cəmiyyətin bütün istiqamətlərdə tərəqqisini sürətləndirmək; inkişafın keyfiyyətcə yeni modelini formalaşdırmaq kimi, mühüm əhəmiyyət kəsb edən məsələlər daxil edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən təhsil islahatları davamlı xarakter daşıyır. Həyata keçirilən islahatlar kontekstində təhsilin inkişafı sahəsində dövlət siyasətinin əsasını müəyyən edən sənədlərdən biri də Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamıdır (5). Həmin Sərancamla "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təsdiq edilmişdir. Dövlət Strategiyasında "sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsil alanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq" kimi, mühüm əhəmiyyət kəsb edən məsələ təhsil sisteminin başlıca vəzifələrindən biri olaraq müəyyən edilmişdir.

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesi milli təhsil sisteminin əsaslı şəkildə dəyişdirilməsini və bu sahədə məqsədyönlü islahatların həyata keçirilməsini zəruri etmişdir. Müasir dövrdə uğurla həyata keçililən islahatlar milli təhsil sisteminin

* Məqalə hüquq ü.e.d. Əli Rzayev tərəfindən çapa məsləhət görülüb.

qarşısında bir sıra önəmli və həlli zəruri olan vəzifələr qoymuşdur. Fikrimizcə, məhz milli təhsilin inkişafı demokratik hüquqi dövləti, vətəndaş və informasiya cəmiyyətlərini şərtləndirməklə, dövlətin milli təhlükəsizlik sisteminin əsas və həlledici amillərindən biri kimi çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları təhsilin dəyərini yüksək qiymətləndirərərk qeyd etmişdir ki: təhsilin səviyyəsi, elmi-texniki tərəqqi, təhsilə verilən önəm və təhsil sahəsində aparılan islahatlar əsas şərtlərdir. Biz də bu yolu seçmişik. ... təbii sərvətlər tükənən dəyərdir, ancaq təhsil, bilik, elm əbədi, hər bir ölkənin gücləndirilməsinə töhfə verən amillərdir. ... Azərbaycanı irəliyə aparan çox gözəl və milli ruhda böyüyən gənc nəsil yetişir. ... müəllimlərin əlbəttə ki, bu işdə rolu, bəlkə də ən önəmli roldur. Çunki müəllimlər həm tələbələrə öz biliyini çatdırırlar. Eyni zamanda, gənc nəslin hansı formada böyüməsinə də müəllimlərin böyuk təsiri vardır (2, s.1-2).

Təhsil üzrə hüquq münasibətləri sisteminin tərkib hissələrindən biri də əlavə təhsil hüququdur. Şəxsiyyətin, cəmiyyətin və dövlətin inkişafında tutduğu yerə görə əlavə təhsil hüququ kifayət qədər fərqli xüsusiyyətlərə malikdir. Əlavə təhsil hüququ şamil olan çoxsaylı işçi kateqoriyalarından biri də dövlət qulluqçularıdır. Dövlət qulluqçularının əlavə təhsili onların təhsil hüququnun tərkib hissəsidir. Müasir dövrdə dövlət qulluqçularının əlavə təhsilinin tədris təminatı üzrə münasibətləri tənzim edən hüquqi aktların təhlili, qanunvericilikdəki boşluqların aşkar edilməsi və onların həlli yollarının müəyyən edilməsi həm nəzəri, həm də təcrübi baxımdan bir sıra aktual cəhətləri ilə xarakterizə edilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənabları dövlət qulluqçularının əlavə təhsilinə yüksək dəyər vermişdir. Bunun bariz nümunəsi kimi "Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli Fərmanını (8) göstərmək olar. Fərman: 1) dövlət qulluqçularının hazırlanması işinin təkmilləşdiriləməsi; 2) onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi; 3) dövlət idarəçiliyinə dair nəzəri biliklərin artırılması; 4) habelə, bu sahədə vahid kadr siyasətinin həyata keçirilməsi kimi məqsədləri özündə ehtiva etmişdir. Bununla da cənab Prezident tərəfindən müasir dövr üçün dövlət qulluqçularının əlavə təhsili ilə bağlı dövlət siyasətinin dörd əsas istiqaməti müəyyən edilmiş və əlavə təhsil dövlət hakimiyyətinin həyata keçirilməsində dövlət qulluqçularının səmərəli fəaliyyətini şərtləndirən əsas amil kimi, xarakterizə olunmuşdur. Fikrimizcə, bu məqsədlərin realizəsini şərtləndirən əsas vəzifələrdən biri kimi dövlət qulluqçularının əlavə təhsilinin tədris təminatının səmərəliliyi çıxış edir.

Akademik R.Ə.Mehdiyevin fikrincə, dövlət siyasəti ali təhsil müəssisələrində yüksək səviyyəli biliklərin istehsalını və mütəmadi elmi-tədqiqat fəaliyyətini təmin edəcək şərait yaradılmasına yönəldilməlidir (12, s.120). Akademik U.K.Ələkbərov haqlı olaraq belə hesab edir ki, ... modernləşən Azərbaycanın bəlirlədiyi hədəflərə vurmaq üçün, ilk növbədə, idarəetmə sahəsində yüksək peşəkarlığa malik mütəxəssislərin, dövlət qulluqçularının hazırlanmasına ehtiyac var (13, s.149). Prof. Ə.Z.Abdullayevin fikrincə, dövlət qulluğunun səmərəli təşkilinin və cəmiyyətdə onun nüfuzunun artırılmasının vacib şərtlərindən biri məmur kadrlarının hazırlanması, ixtisasının artırılması, idarəçilik və inzibatçılıq sahələrinin nəzəriyyə və praktikasının incəliklərinin öyrənilməsi, bir sözlə, peşəkar məmurların formalaşmasına nail olmaqdır (11, s.285). H.e.d. Ə.H.Rzayev apardığı elmi təhlillərin nəticəsi olaraq belə qənaətə gəlir ki, dövlət qulluğunda geniş miqyaslı islahatlar aparıldığı şəraitdə dövlət qulluqçularının peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yenidən hazırlığı və ixtisasının artırılması xüsusi aktuallıq kəsb edir (14, s.308).

Dövlət qulluqçularının əlavə təhsilə cəlb edilməsi onların qanunvericiliklə müəyyən edilmiş vəzifəsi kimi də xarakterizə edilir. Prof.A.M.Qasımovun fikrincə, işçinin ixtisasının artırılması üzrə münasibətlər tərəflərin sazişi, yaxud işəgötürənin öz iradəsini ifadə etməsi

nəticəsində yaranır. İxtisas dərəcəsinin müntəzəm surətdə artırılması işçinin yalnız hüququ olmayıb, həm də vəzifəsidir (15, s.18). Dövlət qulluqçularının əlavə təhsilinin hüquqi tənzimlənməsi dedikdə, onların inkişafına səbəb olan yeni keyfiyyətə nail olma prosesinin normativ hüquqi tənzimlənməsi, dövlət qulluqçularının əlavə təhsilə olan ehtiyacının faktiki əsaslar üzrə yaranması, diplomdan sonrakı təhsilin davamlılığına olan marağı təmin edən konkret stimullar sistemi başa düşülür (17, s.148).

Təhsil hüququ insan və vətəndaş hüquqları və azadlıqları sırasında mədəni hüquqlar sisteminə daxildir. Təhsil üzrə münasibətləri tənzim edən əsas hüquq normaları Azərbaycan Respublikasının Konstitusiyasının "Təhsil hüququ" adlanan 42-ci maddəsində təsbit edilmişdir (1). Təhsil haqqında Azərbaycan Respublikasının Qanununa əsasən təhsil dedikdə, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi başa düşülür (1.0.43-cü maddə) (18). Həmin Qanunun 24.1-ci maddəsində (18) əlavə təhsilə aşağıdakı məzmunda anlayış verilmişdir: "Əlavə təhsil fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir vətəndaşın fasiləsiz təhsil almaq imkanını təmin edir və insan potensialının inkişafı, kadrların intellektual və peşə hazırlığı səviyyəsinin yüksəldilməsi və təkmilləşdirilməsi, onların daim dəyişən və yeniləşən əmək şəraitinə uyğunlaşdırılması, yaşlı vətəndaşların ölkənin sosial, iqtisadi, siyasi və mədəni həyatında fəal və səmərəli iştirakının təmin edilməsi vəzifəsini daşıyır". Dövlət qulluğu haqqında Azərbaycan Respublikası Qanununun 22-1.1-ci maddəsi (9) ilə dövlət qulluqçusunun əlavə təhsilinə fasiləsiz təhsilin və peşə hazırlığının tərkib hissəsi olmaqla, peşə-ixtisas təhsilinin hər hansı pilləsini bitirmək haqqında dövlət sənədi olan hər bir dövlət qulluqçusunun (o cümlədən, stajçı kimi və sınaq müddətinə qəbul edilmiş şəxslərin) fasiləsiz təhsil almaq imkanını təmin edir kimi anlayış verilmişdir. Dövlət qulluqçularının əlavə təhsilinin həyata keçirilmə qaydaları dedikdə, onların əlavə təhsilinin növü, forması, müddəti, maliyyə təminatı və onunla sıx bağlı olan digər münasibətlərin hüquqi tənzimlənməsi başa düşülür. "Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları"nın (10) 2-ci bəndi ilə dövlət qulluqçularının əlavə peşə təhsilinin məqsədi kimi: dövlət qulluqçularının fəaliyyətində səmərəliliyin artırılması, onlar tərəfindən nəzəri və praktiki biliklərinin əldə edilməsi və artırılması, qulluq funksiyalarının icrası ilə əlaqədar qabiliyyət və peşəkar vərdişlərin inkişaf etdirilməsi, dövlət qulluqçularının ümumi intellektual səviyyəsinin artırılması ifadə edilmişdir.

Dövlət qulluqçularının əlavə təhsili dövlətin həm təhsil siyasətinin, həm də kadr siyasətinin ayrılmaz tərkib hissəsi olmaqla mahiyyətcə eyni və məzmunca müxtəlif məqsədlərə xidmət edir. Bu, bir tərəfdən vətəndaşların dövlət qulluqçusu statusuna malik təbəqəsinin fasiləsiz təhsil hüququnun təmin edilməsinə yönəldilmiş, digər tərəfdən isə, dövlətin kadr potensialını gücləndirmək, dövlət orqanlarını ixtisaslı kadrlarla təmin etmək məqsədi ilə dövlət qulluqçularının əlavə təhsil hüququnun həyata keçirilməsinə istiqamətləndirilmiş bir siyasətdir (16, s.80).

Azərbaycan Respublikasında peşəkar dövlət qulluqçusu korpusunun formalaşdırılması xüsusiləşdirilmiş, peşəyönümlü ali təhsil müəssisələrinin yaradılmasının zəruriliyini şərtləşdirmişdir. Dövlət qulluqçularının əlavə təhsili üzrə tədris təminatının hüquqi problemlərinin araşdırılması məntiqi olaraq ilk növbədə bu sahə üzrə tədris proqramlarını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (bundan sonra DİA) hüquqi statusu ilə bağlı məsələyə xüsusi diqqət yetirməni zəruri edir. Qanunvericilikdə (6; 7; 8; 18) təsbit edilmiş normalar DİA-nın statusu ilə bağlı belə bir mülahizə irəli sürməyə əsas verir ki, DİA dövlət idarəçiliyi üzrə xüsusi və ya ali statusa malik ali təhsil müəssisəsi və aparıcı mərkəzdir. Bu nöqteyi-nəzərdən yanaşmaqla və normativ müddəlara əsasən belə qənaətə gəlmək olar ki, DİA-nın statusunun xüsusi və ya ali statuslu ali təhsil

müəssisəsi və aparıcı mərkəz kimi qanunvericilikdə təsbit edilməsi məqsədəmüvafiq olardı. Fikrimizcə, DİA dövlət idarəçiliyi və dövlət qulluğu üçün ali təhsilin hər üç - bakalavriatura, magistratura və doktorantura səviyyələri üzrə ehtiyat kadr hazırlayan və əlavə təhsil proqramını həyata keçirən xüsusi və ya ali statuslu ali təhsil müəssisəsi və aparıcı mərkəzdir. Buna görə də, DİA ilə xüsusi təyinatlı və dövlət qulluqçularının əlavə təhsil proqramını həyata keçirən digər dövlət ali təhsil müəssisələri arasında qarşılıqlı əlaqənin yaradılması labüddür.

N.M.Kazansev haqlı olaraq, dövlət qulluqçularının yenidənhazırlığı və ixtisasartırması üzrə təhsil müəssisələrini "dövlət qulluğu müəssisələri" kimi müəyyən edir və o, qeyd edir ki, dövlət orqanlarından fərqli olaraq, dövlət qulluğu müəssisələri hakimiyyət orqanları olmayaraq, dövlət qulluğunun təkrar edilməsinin təminatının müxtəlif funksiyalarını yerinə yetirirlər (19, s.167-168).

Fikrimizcə, Azərbaycan Respublikasında dövlətin vahid kadr siyasətini birləşdirməyə və eyni zamanda müxtəlif sahələr üzrə xüsusi təyinatı nəzərə almağa imkan verə biləcək dövlət qulluqçularının əlavə təhsilinin vahid sisteminin yaradılması zəruri məsələlərdən biridir. Müvafiq dövlət hakimiyyəti orqanları və dövlət qulluqçularının əlavə təhsil proqramını həyata keçirən dövlət ali təhsil müəssisələri ilə qarşılıqlı əməkdaşlığı nəzərə almaqla dövlət qulluqçularının əlavə təhsil kompleksinin yeni idarəetmə sisteminin formalaşdırılması məqsədəmüvafiqdir.

Dövlət qulluğu vəzifələrinə müvafiq ixtisaslar üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən dövlət və ya qeyri-dövlət ali təhsil müəssisələrinin məzunlarının dövlət qulluqçularının ehtiyat kadrları və əlavə təhsil sisteminə daxil olunması məsələsi kifayət qədər mübahisə doğurur. DİA-nın xüsusi və ya ali statusa malik özünəməxsus xüsusiyyətini nəzərə alaraq dövlət qulluqçularının əlavə təhsil proqramını həyata keçirən digər ali təhsil müəssisələrinin onun tərkibinə daxil edilməsi düzgün yanaşma olmazdı. Çünki dövlətin idarə edilməsinin ümumi prinsiplərinin və müvafiq sahə üzrə peşə ixtisasının spesifikliyinin – xüsusi prinsiplərinin nəzərə alınması mütləq xarakter daşıyır.

Dövlət qulluğunun xüsusi növləri üzrə akademiyaların fəaliyyət istiqamətləri müvafiq dövlət qulluğu üzrə peşəkar hazırlığın həyata keçirilməsinə yönəldilmişdir. Həmin ali təhsil müəssisələri vasitəsi ilə baza ali təhsili, ixtisasartırma və yenidənhazırlıq, dinləyicilərin bütün kontingentləri ilə tədris-metodiki işin icrası təmin edilir. Dövlət qulluğunun xüsusi növləri üzrə akademiyalar dövlət qulluqçularına əlavə təhsil verilməsi ilə yanaşı tətbiqi tədqiqatların aparılmasını, dövlət hakimiyyəti orqanlarına təcrübi xarakterli məsləhətlərin verilməsini öz fəaliyyətlərində birləşdirirlər. Müsbət hal kimi qeyd etmək lazımdır ki, bu cür yanaşma dövlət qulluqçularının əlavə təhsil proqramının dövlət qulluğu institutunun formalaşması təcrübəsi ilə sıx əlaqədə, daha səmərəli həyata keçirilməsinə xidmət edir.

Dövlət qulluçularının əlavə təhsil sisteminin təhlili göstərir ki, müsbət nəticələrlə yanaşı, onların əlavə təhsil sistemi, inkişafın demək olar ilkin mərhələsindədir. Buna görə də, həmin sahədə prinsipial xarakterli qüsurlar və ziddiyyətlər də mövcuddur. Tədris fəaliyyətinin miqyasına, məzmununa görə də o, hələ dövlət qulluğu üçün kadr korpusunun professionallaşması, vətəndaş keyfiyyətlərinin formalaşması, idarəçilik mədəniyyətinin yüksək səviyyəsinin səmərəli vasitəsi kimi çıxış etmir. Hazırda dövlət hakimiyyəti orqanlarının strukturlarında, o cümlədən dövlət qulluğu sahəsindəki müsbət dəyişikliklərə nisbətən dövlət qulluqçularının əlavə təhsil sisteminin təkmilləşdirlməsi prosesi geridə qalır, əksər hallarda isə təcrübədən uzaq olaraq, tədrisin əsasən ekstensiv metodlarından istifadə edilir. Buna görə də, dövlət qulluqçularının əlavə təhsilinin hazırda fəaliyyətdə olan modelinin keyfiyyətcə ciddi dəyişikliklərə məruz qalması labüddür. Dövlət və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edən fasiləsiz təhsilin tərkib hissəsi olan dövlət qulluqçularının əlavə təhsilinin təkmilləşdirilməsi prosesi uzun müddətli dövrü əhatə etməklə, kifayət qədər mürəkkəb və ziddiyyətli məqamlarla xarakterizə edilir.

Dövlət qulluqçularının əlavə təhsil proqramını həyata keçirən dövlət ali təhsil müəssisələrinin şəbəkəsini müəyyən və bu funksiyaların reallaşdırılmasını təmin edən hüquqi normalar qanunvericilikdə təsbit edilməmişdir. Dövlət qulluqçularının əlavə təhsil sisteminin idarə edilməsi və dövlət qulluqçularının əlavə təhsilini, o cümlədən oxşar hüquqi funksiyaları həyata keçirən dövlət hakimiyyət orqanlarının və dövlət təhsil müəssisələrinin fəaliyyətinin koordinasiyası mövcud deyildir. Fikrimizcə, məhz bu koordinasiya vasitəsi ilə dövlət idarəçiliyi və dövlət qulluğuna dair əlavə təhsil proqramlarının həyata keçirilməsi üzrə ictimai münasibətlərin subyektlərinin bir-birindən hüquqi cəhətdən asılılıq dərəcəsi, təşkilati-hüquqi əlaqələrin müxtəlif xarakteri, ümumi, bərabər, birbaşa, bilavasitə, operativ, ikili və s. tabelik sistemi müəyyən edilə bilər. Yaranmış ziddiyyətli məqamları aradan qaldırmaq, bu sahədə ümumi fəaliyyətə kompleks və sistemli xarakter vermək üçün, Azərbaycan Respublikasının Nazirlər Kabineti və səlahiyyətləri daxilində müvafiq dövlət hakimiyyət orqanları tərəfindən dövlət idarəçiliyi və dövlət qulluğu üzrə əlavə təhsil proqramlarını həyata keçirən dövlət ali təhsil müəssisələrinə müvafiq lisenziyanın verilməsini, onların attestasiyasını və akkreditasiyasını tənzimləyən xüsusi normativ hüquqi aktın qəbul edilməsinə və tətbiqinə ehtiyac vardır.

Fikrimizcə, dövlət qulluqçularının əlavə təhsil sistemində tədrisin mümkün qədər qabaqlayıcı xarakter daşıması da vacib şərtlərdən biri hesab edilir. Tədris prosesində dövlət qulluqçularının əlavə təhsil sistemi daxilində dövlət idarəçiliyi sahəsində fəaliyyət göstərən işçilərin həmin dövrdə qarşılaşdığı problemlər nəzərdən keçirilməklə yanaşı, bu problemlərin inkişafı proqnozlaşdırılmalı və yaranmasına səbəb ola biləcək amillər müəyyən edilməli, onların həlli üzrə nəzəri və təcrbi xarakterli tövsiyələr verilməlidir. Gələcək problemlərin qabaqcadan aşkar edilməsi əlavə təhsil sistemi üzrə səmərəli təhsilin təşkili üçün vacib şərtlərdən biridir.

Maraq doğuran məsələlərdən biri də dövlət qulluqçularının əlavə təhsilə olan ehtiyacının elmi əsaslarla müəyyən edilməsi problemidir. Prinsip etibarı ilə bu, dövlət qulluqçularının əlavə təhsili sahəsinə dair məqsədin aydınlaşdırılması problemidir. Dövlət idarəetməsi və dövlət qulluğu üzrə əlavə təhsil proqramlarını həyata keçirən dövlət ali təhsil müəssisələrinin tədris-metodiki və kadr təminatının təkmilləşdirilməsi məsələsi də müasir dövrdə əsaslı şəkildə mürəkkəbləşmişdir. Bununla yanaşı yeni təhsil sisteminin tətbiqi, ayrı-ayrı təhsil srukturlarının yaradılması əsasən maliyyə və ixtisaslı kadr təminatının bütün növlərinin çatışmadığı bir şəraitdə həyata keçirilir.

Dövlət tərəfindən beynəlxalq standartlara cavab verən, kifayət qədər səmərəli normativ hüquqi bazanın yaradılması, məqsədli dövlət proqramlarının qəbul və tətbiq edilməsi müasir təhsil texnologiyalarının tələblərinə cavab verən kadrların hazırlanmasını və tədris sahəsinə cəlb edilməsini zəruri etmişdir.

Dövlət qulluqçularının əlavə təhsili üzrə səmərəli elmi-pedaqoji fəaliyyəti şərtləndirən əsas cəhətlərdən biri əlavə təhsil proqramlarını həyata keçirən dövlət ali təhsil müəssisələrinin yüksək peşəkarlığa malik, ixtisaslı professor-müəllim heyətinə olan ehtiyacının təmin edilməsidir. Bu sahədə qarşıda duran ən ümdə vəzifələrdən biri isə professor-müəllim heyətinin hüquqi statusunun müəyyən edilməsidir. Fikrimizcə, mütərəqqi metodla, xüsusi şərtlər əsasında seçiləcək və dövlət təminatı alacaq professor-müəllim heyətinə xüsusi təsnifat üzrə dövlət qulluqçusu statusunun verilməsi məqsədəmüvafiq olardı. Professor-müəllim heyətinin hüquqi statusunun qanunvericiliklə tənzim edilməsi aşağıdakı müsbət nəticələri özündə ehtiva edər: professor-müəllim heyətinin sosial təminat problemləri həll edilmiş olar; səmərəli elmi-pedaqoji fəaliyyətin təmin edilməsi üçün stimul yaranar; dövlət idarəetməsi üzrə nəzəri və təcrübi məsələlərin bilavasitə səmərəli mübadiləsini və qarşılıqlı vəhdətini şərtləndirər; dövlət qulluğu üzrə nəzəri və təcrübi məsələlərin bilavasitə səmərəli mübadiləsini və qarşılıqlı vəhdətini şərtləndirər; dövlət hakimiyyət orqanları ilə dövlət qulluqçularının əlavə təhsil

proqramını həyata keçirən dövlət ali təhsil müəssisələri arasında məqsədyönlü əlaqələrin yaranması ilə nəticələnər.

Fikrimizcə, dövlətin kadr siyasətində səmərəliliyi artırmaq, dövlət qulluqçularının əlavə təhsilini həyata keçirən dövlət ali təhsil müəssisələrinin qarşılıqlı əlaqəsini təmin etmək, onların tədris təminatına müasir dövrün tələbləri səviyyəsində nail olmaq məqsədi ilə bir sıra tədbirlərin həyata keçirilməsi zəruridir. Həmin tədbirlər sırasına aşağıdakıları da aid etmək olar:

- vətəndaş cəmiyyətinin bərqərar edilməsinin əsas istiqamətləri ilə, dövlət qulluğunun təşəkkülü və inkişafının institusional imkanlarını və təminatını əlaqələndirməklə dövlət idarəçiliyi və dövlət qulluğu üzrə əlavə təhsil proqramlarının sistemli şəkildə inkişafını və həyata keçirilməsini təmin edəcək ümumi xarakterli dövlət strategiyasının hazırlanması, qəbul edilməsi və tətbiqi;
- təşəkkül dövründən başlayaraq milli və beynəlxalq səviyyədə əldə olunmuş müsbət təcrübəni və müasir elmi-nəzəri müddəaları nəzərə almaqla dövlət qulluqçularının əlavə təhsil proqramlarının vahid sisteminə dair konsepsiyanın hazırlanması, qəbul edilməsi və tətbiqi;
- dövlət qulluqçularının xüsusi peşə təhsili sahəsinə, həmçinin onlara riayət olunması üzrə nəzarət mexanizmi sferasına daxil olan fənnlər üzrə təhsil standartlarının və proqramlarının hazırlanması, qəbul edilməsi və tətbiqi;
- vahid maliyyələşmə mexanizminin tətbiq edildiyi müasir şəraitdə dövlət sifarişinin yerləşdirilməsi zamanı təhsil müəssisələrinin seçimi üçün müəyyən edilmiş müsabiqə qaydalarını nəzərə almaqla, dövlət qulluqçularının əlavə təhsil proqramını həyata keçirən təhsil müəssisələri üçün dövlət qulluqçularının əlavə təhsili üzrə tədris fəaliyyətinin xüsusi maliyyələşmə mexanizminin tətbiq edilməsi;
- Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dövlət idarəçiliyi və dövlət qulluğu üzrə ali və əlavə təhsil proqramlarını həyata keçirən, fundamental və tətbiqi elmi tədqiqatlar aparan ali təhsil müəssisəsi və dövlət idarəçiliyi və dövlət hakimiyyəti orqanları üçün mütəxəssislərin hazırlanması və əlavə təhsili sahəsində aparıcı metodik tədris, elm və analitik informasiya mərkəzi kimi xüsusi və ya ali statusunu müəyyən edən normativ hüquqi aktın qəbul edilməsi;
- dövlət idarəçiliyi və dövlət qulluğu üzrə elmin və təhsilin koordinasiyasını təmin etmək məqsədi ilə dövlət qulluqçularının peşə hazırlığı sferasında ali və əlavə təhsil proqramlarını həyata keçirən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının nəzdində, respublika üzrə "Dövlət və bələdiyyə idarəetməsi" ixtisası üzrə Elmi-metodiki mərkəzin yaradılması.

Açar sözləri: dövlət qulluqçusu, əlavə təhsil, tədris təminatı, hüquq münasibətləri.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq ədəbiyyatı, 2009, 96 s.
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Dovlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdəki çıxışı (2 noyabr 2009-cu il) / Xalq qəzeti, 2009, 3 noyabr, №245, s.1-2.
3. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı «Azərbaycan» qəzeti, 30.11.2011-ci il, № 264.

4. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 nömrəli Fərmanı «Azərbaycan» qəzeti, 30.12.2012-ci il, № 293.

5. “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı / http://president.az/articles/9778

6. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 3 yanvar tarixli 60 nömrəli Fərmanı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, №1, maddə 13.

7. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası işçilərinin vəzifə maaşlarının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 9 iyun tarixli 1240 nömrəli Sərəncamı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, №06, maddə 304.

8. Dövlət qulluqçularının əlavə təhsili ilə bağlı bəzi məsələlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 dekabr tarixli 387 nömrəli Fərmanı.

9. Dövlət qulluğu haqqında Azərbaycan Respublikasının 2000-ci il 21 iyul tarixli 926-IQ nömrəli Qanunu /Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, №01, maddə 1.

10. “Dövlət qulluqçusunun əlavə peşə təhsilinin növü, forması, müddəti və maliyyə təminatı Qaydaları”nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 19 mart tarixli 44 nömrəli Qərarı / Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, №03, maddə 201.

11. Dövlət idarəçilik nəzəriyyəsi. Dərslik. Bakı: Elm və təhsil, 2010, 552 s.

12. Mehdiyev R.Ə. XXI əsrdə Azərbaycan ideyası kreativ millət konteksində //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2012, №2 (38), s.114-152.

13. Ələkbərov U.K. İnnovativ dövlət idarəçiliyi davamlı inkişaf kontekstində //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2012, №4 (40), s.149-156.

14. Rzayev Ə.H. Dövlət qulluğunun hüquqi əsasları. Bakı: Elm, 2011, 480 s.

15. Qasımov A.M. Əmək hüququ. Dərslik. Bakı: Adiloğlu, 2007, 540 s.

16. Məmmədov O.C. Dövlət qulluqçularının əlavə təhsilinin hüquqi tənzimlənməsi. Monoqrafiya. Bakı: Elm və Təhsil, 2013, 188 s.

17. Məmmədov O.C. Dövlət qulluqçularının əlavə təhsil hüququnun anlayışı //Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. Elmi-nəzəri jurnal. 2013, №01 (41), s.140-151.

18. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009, 108 s.

19. Казанцев Н.М. Управление государственной службой. Государственная служба Российской Федерации: первые шаги и перспективы. Раздел II, гл.3. /Под общ. ред. Г.В. Атаманчука. М.: РАГС, 1997, 251 с.

Орудж МАМЕДОВ

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ ПРАВОВОГО РЕГУЛИРОВАНИЯ ДОПОЛНИТЕЛЬНОГО ОБРАЗОВАНИЯ ГОСУДАРСТВЕННЫХ СЛУЖАЩИХ

Резюме

В статье проанализированы теоретические и практические вопросы современных направлений развития правового регулирования дополнительного образования государственных служащих.

В Азербайджанской Республике в результате успешно осуществляемых реформ была заложена основа азербайджанской модели развития. Благодаря этим реформам перед национальной системой образования были поставлены задачи, которые необходимо было решать. Развитие национального образования обусловливает демократическое правовое государство, гражданское и информационное общества, является одним из основных факторов системы национальной безопасности государства.

В развитии личности, общества и государства дополнительное образование имеет большое значение. Право на дополнительное образование имеет и такая категория работников, как государственные служащие. В современный период анализ правового регулирования дополнительного образования государственных служащих, создание системы взаимосвязей между высшими учебными заведениями, реализующими базовые и дополнительные образовательные программы, а также другие вопросы, будучи объектами исследования с теоретической и практической точки зрения, обосновывают актуальность данной темы.

Ключевые слова: государственный служащий, дополнительное образование, учебное обеспечение, правовые отношения.

Orug MAMMADOV

DEVELOPMENT PROSPECTS OF LEGAL REGULATION WITH ADDITIONAL EDUCATION OF CIVIL SERVANTS

Summary

In the article, theoretical and practical issues of modern development directions of legal regulation of additional education of civil servants were analyzed.

As a result of the reforms successfully carried out in the Azerbaijan Republic, the base of the development model of Azerbaijan was founded. Owing to these reforms national education system was put tasks were necessary to solve. Development of national education preconditiones legal state, civil and information societies, it is one of the main factors of national security system of State. Additional education is of great importance in the development of personality, society and state. One of the categories of workers applying additional education is also civil servants. In modern period the times analys of legal regulating additional education of civil servants additional education, establishing the system of inter comections among the educational programs institutions of higher education which carry out the programs of base and additional education and other issues been the objects of research substantiate urgency of the theme from theoretical and practical points of view.

Keywords: civil servant, additional education, teaching provision, legal relations.

UOT 34.001

Səidə HƏSƏNZADƏ
a.e.i., hüquq ü.f.d., dosent AMEA FHİ

AİLƏ İNSTİTUTUNUN KONSTİTUSİYA-HÜQUQİ STATUSU*

Demokratik və hüquqi dövlət quran müasir ölkələrdə Konstitusiyanın əvəzsiz yeri və rolu vardır. Belə ki, o ölkənin ictimai-siyasi və hüquqi həyatında əhəmiyyətli və qlobal rol oynayan əsas institutların statusunu müəyyən edir və qanunvericilik bazasının əsasında dayanır. Bu baxımdan müstəqillik illərində Azərbaycan Respublikasının 12 noyabr 1995-ci il tarixdə referendum yolu ilə qəbul edilmiş Konstitusiyası cəmiyyət, dövlət və şəxsiyyət üçün xüsusi vacib olan ictimai münasibətlərin və dəyərlərin ən əsas və ən vacib tərəflərini, onun özəyini tənzim edir (1, s.3-16). Qalan digər münasibətlərin tənzimlənməsi isə başqa normativ-hüquqi aktlarla həyata keçirilir. Ölkənin həyatında Konstitusiyadan daha önəmli başqa bir normativ-hüquqi akt yoxdur. Bu mənada Konstitusiya dövlətin, cəmiyyətin təşkilini, şəxsiyyətin hüquqi statusunu, yerli özünüidarəetmənin əsaslarını tənzimləyən normativ-hüquqi akt hesab edilir. Konstitusiya qanunvericiliyi daha çox imperativ normalardan ibarət olmaqla, cəmiyyət, dövlət və şəxsiyyət arasında yaranan, ən başlıca hüquq münasibətlərinin əsaslarını tənzimləyir, dövlət həyatında vacib olan hakimiyyət strukturlarının, eləcə də şəxsiyyətin statusunu və dəyərlər sisteminin hüquqi rejimini müəyyən edir. Bu baxımdan o ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olmaqla, mükəmməl siyasi-hüquqi akt hesab olunur. Konstitusiyamız Azərbaycan xalqının iradəsinin, ümumxalq referendum yolu ilə ifadəsi və təcəssümü olmaqla, ən yüksək legitimliyi ilə seçilir. Konstitusiya faktiki olaraq xalqın, millətin və dövlətin suverenliyinin iradə ifadəsinin təcəssümü olmaqla, ali hüquqi qüvvəyə malikdir. Bu sənəd qanunvericilik sisteminin əsasında və ən yüksək pilləsində dayanır, digər normativ-hüquqi aktların hazırlanması və qəbulu üçün əsas rolunu oynayır. Hüquqi dövlətdə qəbul edilmiş qanunlar Konstitusiyaya zidd olmamalıdır. Ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi olmaqla, birbaşa hüquqi qüvvəyə malikdir. Buna görə də Konstitusiyaya müvafiq dəyişikliklərin və əlavələrin edilməsi Konstitusiyanın özündə nəzərdə tutulan xüsusi prosedur qaydalar əsasında həyata keçirilir. Bütün bu kompleks səciyyəvi cəhətlər Konstitusiyamızın demokratik-hüquqi təbiətindən və legitimliyindən irəli gəlir.

Azərbaycan Respublikası Konstitusiyasında nəzərdə tutulan hüquq normaları təsisedici, sistemyaradıcı, definitiv, prinsip müəyyənedici, səlahiyyətverici, məcburedici, qadağanedici, nizamlayıcı xüsusiyyətlərə, normaların tərkibinin klassik elementlərinə, xüsusi qəbuledilmə, dəyişilmə, təkmiləşdirmə, realizə və tənzimetmə mexanizmlərinə, təsbitolunma mənbəyinə, hüquqi qüvvəsinə görə ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan normativ-hüquqi akt hesab olunur. Konstitusiyamızın tənzim etdiyi ictimai münasibətlər, hər şeydən əvvəl fundamental səciyyə daşıyır, digər hüquq sahələri və dövlətin fəaliyyəti üçün önəmli hesab edilən rəhbər prinsipləri, habelə xalq hakimiyyətini, dövlətin əsaslarını, ərazi quruluşunun prinsiplərini, insan hüquqlarını və azadlıqlarını, onun müdafiə mexanizmlərini, dövlət hakimiyyət orqanlarının sistemini, onların əsas səlahiyyətlərini, fəaliyyət istiqamətlərini və məqsədlərini, hüquqi aktların növlərini və qanunvericilik sistemini, yerli özünüidarəetmə orqanlarının başlıca statusunu müəyyən edir. Bu normalar nizamladığı münasibətlərin oxşarlığına, yekcinsliyinə, təyinatına, məqsədlərinə, nizamlama xüsusiyyətlərinə və subyektlərinə

* Məqalə hüquq ü.e.d., professor Bəhram Zahidov tərəfindən çapa məsləhət görülüb.

görə "institut" adlanan müəyyən qruplarda birləşir və təcəssüm olunur. Çox vaxt bu cəhət, Konstitusiyanın bölmələrinin və fəsillərinin sisteminin və ardıcıllığının müəyyən edilməsində əsas kimi götürülür. Konstitusiyada hüquq münasibətlərinin subyektləri, insan və onun sosial birlikləri – din, ailə, dövlət, xalq və s. bu kimi institutlar, onların statusu və hüquqi vəziyyəti öz təsbitini tapmışdır. Konstitusiya olduqca dərin məzmunlu, qısa, lokanik və nisbətən yığcam səciyyə daşıdığından, onda yalnız cəmiyyət, dövlət və insan üçün ən vacib olan təsisatlar, institutlar, fundamental dəyərlər təsbit olunur və onların statusu müəyyən edilir. Buna görə də demokratik-hüquqi dövlətlərdə konstitusiyalar dövlətin və xalqın iradəsini, suverenliyini, insanın və vətəndaşın əsas hüquqlarını və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarını və xalqın özünüidarə sisteminin əsaslarını tənzim edir və öz məzmununda da bütün bunları mükəmməl olaraq əks etdirir. Konstitusiya cəmiyyət, dövlət, şəxsiyyət və kollektiv arasındakı əsas münasibətləri müəyyən edən və qanunvericilikdə ən yüksək hüquqi qüvvəyə malik olan normalar sistemi hesab edilir. Bu sənəd ailə, din kimi sosial təsisatlara, atalıq, analıq kimi sosial dəyərlərə, ümumiyyətlə sosial sistemdə mövcud olan münasibətlərə müsbət təsir göstərir və yeni dəyərlərin formalaşması üçün mükəmməl baza və fundamental zəmin yaradır. Milli Konstitusiyamız milli mədəniyyətimizin, milli hüquq düşüncəmizin, milli əxlaqımızın, zəngin dövlətçilik təcrübəmizin, bəşəri və dünyəvi baxışlarımızın yekunu kimi böyük əhəmiyyət kəsb edir və müqəddəs mahiyyət daşıyır. Bu baxımdan dövlətin iqtisadi, sosial və siyasi əsaslarının Konstitusiyanın 13-19-cu maddələrində birbaşa təsbit edilməsi mühüm əhəmiyyət kəsb edir və dövlətin bu sahələrə verdiyi xüsusi önəmin bariz nümunəsi hesab olunur. Konstitusiyanın "Dövlətin əsasları"na həsr edilmiş II fəslinin 17-ci maddəsinin isə "Ailə, uşaqlar və dövlət"ə həsr edilməsi, ölkəmizdə dövlətin "ailə" institutuna verdiyi böyük önəmin nəticəsi kimi qiymətləndirilə bilər (1).

Azərbaycan dilində işlədilən «ailə» sözü, etimioloji cəhətdən, ərəb mənşəli «avl» sözündən yaranmaqla, «dayanmaq», «biri-birinə etimad göstərən insanlar birliyi» kimi mənaları ehtiva edir (2). Ailə institutu müasir forma və məzmun kəsb edənə qədər, milyon illər təkamül yolu keçmiş, zamanın sınağından çıxaraq bitkin və dərin mahiyyət kəsb etmişdir. Cəmiyyətdə ən geniş yayılmış, ən əhəmiyyətli və ən qədim sosial qrup, insan birliyinin klassik formalarından biri olan «ailə» institutunun yaranması və inkişafı böyük təkamül yolu keçmiş, təkmilləşmiş, mükəmməlləşmiş və müasir ailə fenomeni kimi, bu günkü vəziyyətə gəlib çıxmışdır. Cəmiyyətin əsas dəyərlər sistemində, bütün digər təsisatlardan fərqli olaraq ailə daha böyük dəyərə, mənəvi üstünlüyə, təsir imkanlarına malik olmaqla, ailənin özünün və cəmiyyətin inkişafında aparıcı rol oynayır. O bu və ya digər dərəcədə insanların şəxsi və ictimai həyatının müxtəlif sahələrindəki fəaliyyətlərində özünü göstərir, mürəkkəb sosiomədəni, sosial-iqtisadi, demoqrafik və digər ictimai amillərlə şərtlənərək, həlledici əhəmiyyət kəsb edir və tənzimləyici funksiyalar yerinə yetirir. Buna görə də ailə-nikah və ailə-qohumluq münasibətlərində, insanların davranış mədəniyyətinin mükəmməl formalaşması və bu münasibətlərin düzgün tənzim edilməsi, cəmiyyətdə müstəsna əhəmiyyətə malikdir. Ailə cəmiyyətin və dövlətin özəyini təşkil edir. Dövlət, mahiyyət etibarilə ailə birliklərinin məcmusunu əhatə etməklə, onları özündə birləşdirir. Ailənin və dövlətin idarəçiliyində oxşar elementlər vardır. Ailə kiçik dövlətdir, dövlət isə ailələrin birliyini məcmusunu özündə birləşdirməklə ailələr ittifaqı kimi səciyyələndirilə bilər. Ailə böyük dövlətdir. Ailələrin xoşbəxtliyi cəmiyyətdə sülhün, əmin-amanlığın, rifahın, barışın və həmrəyliyin mövcudluğu üçün son dərəcə əhəmiyyətlidir. Heç bir kənar təsirlərdən asılı olmayaraq cəmiyyətin əsas özəyi olaraq ailə öz varlığını qoruyub saxlamaq üçün münbit və əlverişli şəraitlə təmin edilməli, öz inkişafını və yaşayışını təmin etmək üçün cəmiyyətin və təbiətin yaratdığı nemətlərdən bəhrələnməli, yeməli, içməli və digər bu kimi həyat təminatları ilə özünü qoruyub saxlamalıdır. Buna görə də ailənin öz üzvləri və cəmiyyət

qarşısında funksiyası olduqca geniş, əhatəli və əhəmiyyətlidir. Ailə - insan, cəmiyyət və dövlət üçün elə mühüm fundamental dəyərlər sisteminin əsasını təşkil edir ki, məhz bu keyfiyyəti dünyanın demokratik, hüquqi və dünyəvi meyarlara cavab verən Konstitusiyalarında təsbit olunmağa mənəvi, sosial və hüquqi cəhətdən mötəbər əsaslar verir. Ailə – bəşər cəmiyyətinin və dövlətin təbii və əsas özəyi, bünövrəsi və təməli hesab olunur. Ailələr nikah, kəbin münasibətləri əsasında qurulur, qan qohumluğu prinsipi ilə formalaşır, ailə üzvləri arasında qarşılıqlı cavabdehlik, məsuliyyət və köməklik kimi ənənəvi münasibətlər sistemi ilə möhkəmləndirilir. Maddi, mənəvi və əxlaqi dəyərlərin, vərdişlərin gənc nəslin tərbiyəsi, təşəkkülü və inkişafı məhz ailədə formalaşır, onun vasitəsilə nəsildən-nəsilə ötürülür və milli-mənəvi sərvətlərin əsasında dayanır. Ailə – əxlaqın, tarixən formalaşmış adətlərin, ənənələrin, milli kimlik xüsusiyyətlərinin nəsildən-nəsilə ötürülməsində, qorunub saxlanmasında və inkişafında müstəsna və əvəzsiz rola malikdir. Ailə – cəmiyyətin əsas xüsusiyyətlərini özündə ehtiva etməklə, nikaha, qan qohumluğuna, məişət, birgə yaşayış və təsərrüfat birliyinə əsaslanaraq, ailə və qohumluğu səciyyələndirən bitkin münasibətlər sistemindən ibarətdir. Ailə – cəmiyyətdə insanın davamlı olaraq yetişdirilməsini təmin edən, maddi və mənəvi istehsalın əsasında dayanan, biososial, iqtisadi, mənəvi və hüquqi qaydalara əsaslanan insan birliyi hesab edilir. İnsanlar ailədə doğulur, böyüyür, tərbiyə olunur və cəmiyyət üçün faydalı bir şəxsiyyət kimi yetişdirilir. İnsan nəslinin təkrar istehsalını, bəşər nəslinin zaman-zaman intensiv olaraq ahəngdar inkişafını məhz ailə təmin edir. Tarixin müxtəlif inkişaf mərhələlərində baş verən bütün ictimai-iqtisadi, siyasi, mənəvi, sosial və mədəni dəyişikliklər, bu və ya digər dərəcədə ailədə və onun məişətində öz əksini tapır. Ailə – və ailə üzvləri cəmiyyətdə və ictimai-siyasi həyatda maddi nemətlər istehsalının əsas yaradıcısı, istehsalçısı və istehlakçısıdır. Ailə – sosiomədəni və biososial fenomendir. Ailə, Azərbaycan Respublikasının milli maraqlarının və mənafelərinin, fundamental dəyərlərinin və sərvətlərinin, dövlətin və millətin talehyüklü vəzifələrinin vaxtında və uğurlu həllinin, insanın, cəmiyyətin və dövlətin tərəqqisinin, xalqın vahidliyinin, mədəni-tarixi irsinin, ümumbəşəri və milli mənəvi dəyərlərinin, dilinin, özünüdərkinin, milli iftixarının, vətənpərvərliyinin, intellektual potensialının, demokratik və hüquqi dövlət quruculuğunun, peşəkar milli kadr hazırlığının, iqtisadi, sosial və siyasi tərəqqinin, davamlı insan inkişafının, təhsilin və elmin, texnologiyaların, iqtisadi uğurların, cəmiyyətdə firavanlığın, ləyaqətin, milli tolerantlığın, barışın və sülhün təşəkkülündə və inkişafında misilsiz rol oynayan və heç nə ilə əvəz edilə bilməyən tarixi təsisat, sosial və hüquqi institutdur. Cəmiyyətin və dövlətin həyatında ailəni əvəz edəcək başqa bir birlik, başqa bir institut, başqa bir təsisat ola bilməz. Amerika alimi L.Morqanın qeyd etdiyi kimi "ailə fəal bir başlanğıcdır. O heç bir vaxt bir yerdə dayanıb durmur, cəmiyyət aşağı pillədən yüksək pilləyə doğru inkişaf etdikcə, o da aşağı formadan yuxarı formaya keçir" (3, s.189). Ailə – mədəniyyətin və sivilizasiyanın yaradıcısıdır. O tərbiyənin, əxlaqın, mənəviyyatın və vərdişlər sisteminin qorunub saxlanmasında və inkişafında müstəsna və misilsiz rola malikdir. Ailə – insanların fizioloji, maddi və mənəvi tələbatının ödənilməsini təmin edən sosial institutdur. O insan məişətini təşkil və təmin edən, dəyərlər sisteminin əsasıdır. Buna görə də tarixən insanın yaranmasında və inkişafında, qəbilə, tayfa, icma, cəmiyyət, əxlaq, din, varlıq və dövlət haqqında təlimlər sisteminin bünövrəsi ailədə qoyulur, formalaşır və təşəkkül tapır. Bəşəriyyət bütün dünyanı heyrətə salan, onun varlığını və inkişafını təmin edən uğurlara, kəşflərə və nailiyyətlərə görə məhz ailəyə minnətdar olmalıdır. O tarixən dəyərlər sisteminin yaranmasını, bərqərar edilməsini və inkişafını təmin edir. Ailə – şəxsiyyətin sosial-mənəvi və əxlaqi cəhətdən formalaşmasını təmin edən mənəvi mühitdir. O fəal ünsürdür, dinamik olaraq aşağı pillədən yüksək pilləyə qədər yüksələn inkişafla səciyyəvidir. Ailə – təsərrüfat, məişət, iqtisadiyyat, siyasət, din, cəmiyyət və dövlət münasibətlərinin yaradıcısı və insan birliyinin müasir

formasıdır. O cəmiyyətin ilkin özəyi, insanların sosial qarşılıqlı təsirinin bir forması kimi zaman-zaman inkişaf etmişdir. Ailənin yaranmasında insan-cəmiyyət, insan-təbiət, insan-dövlət, insan-din münasibətlərinin və əlaqələrinin müstəsna rolu olmuşdur. Ailə fenomenal insan birliyinin özəyidir. Ailə – nikah və qohumluq münasibətləri əsasında yaranan insan birliriyinin ən geniş yayılmış tipik nümunəsidir. Ailə – əhalinin və insanların dinamik artımını və inkişafını bioloji cəhətdən təmin edən ocaqdır. Onun kökündə məhəbbət, sevgi, tələbat, mənəvi rahatlıq, tərəqqi və yüksəliş dayanır. Ailəsiz cəmiyyətin və dövlətin mövcudluğu istisna edilir. Ailə – cəmiyyətin və dövlətin inkişafını təmin edən sosial institutdur. Cəmiyyətin ictimai əsasını təşkil edən, onun maddi-mənəvi və iqtisadi yüksəlişini təmin edən sosial-siyasi və hüquq institutudur. Ailə – cəmiyyətdə və dövlət həyatında inkişafı və tərəqqini təmin edən elə bir insan birliyidir ki, onun alternativi yoxdur. Ailə həyatın özü və cəmiyyətin əsasıdır. O kiçik, lakin qüdrətli və fenomen bir dövlətdir.

Sosioloqlar belə hesab edirlər ki, bir institut olaraq "ailə" – kişinin və qadının ailə yaratmaq və nəsil artırmaq məqsədilə yaratdıqları və birgə həyatın cəmiyyət tərəfindən qəbul olunmuş sosial formasını, hüquqi məzmununu ifadə edir. Mənəvi baxımdan, onun struktur tərkibinə ailədaxili qarşılıqlı münasibətləri tənzim edən adətlər, ənənələr, vərdişlər, sonralar isə hüquq normaları, ailə qurmağın qaydaları, tərəflərin öz rolu ilə bağlı statusu – öhdəlikləri, hüquqları və vəzifələri, habelə həyatın bu sahəsində cəmiyyətin təsdiq etdiyi və formalaşdırdığı simvollar sistemi təşkil edir (4, s.168).

Ailə dəyərlərinə, ailə institutlarına mühüm əhəmiyyət verildiyi və diqqət yetirildiyi ölkələrin ana qanunlarında, belə dəyərlərin konstitusiya təsbitinə bir qayda olaraq müəyyən yer ayrılması halları əsasən XX və XXI əsrin ilk onilliklərini əhatə edən dövrə təsadüf edir. Sovet dövründə, 1921-ci ildə, 1925-ci ildə (qismən) və 1937-ci ildə qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyalarında "ailə" institutuna həsr olunmuş müstəqil normalar nəzərdə tutulmurdu (5, s.100-121). Sovet dövründə qəbul edilmiş Azərbaycan SSR-nin Konstitusiyalarında sosial təsisat və fundamental institut olaraq ailənin statusuna konkret yer ayrılmamış, ən yaxşı halda qadının və kişinin hüquq bərabərliyinin Konstitusiyada təsbitini təmin edən normalarla kifayətlənilmişdir. Lakin ailənin hüquqi statusu Konstitusiya səviyyəsində ilk dəfə olaraq Ulu Öndərimiz Heydər Əliyev tərəfindən hazırlanmış və müzakirəyə çıxarılaraq qəbul edilmiş Azərbaycan Respublikasının 1978-ci il Konstitusiyasında öz əksini tapmışdır. Bu Konstitusiyanın 51-ci maddəsində, ayrıca normada ailənin statusu mükəmməl olmasa da, lakin ilk dəfə olaraq Konstitusiya səviyyəsində təsbit edilmişdir. Orada göstərilmişdir ki, ailə dövlət tərəfindən müdafiə olunur. Nikah qadın və kişinin könüllü razılığına əsaslanır: ər və arvad ailə münasibətlərində hüquqca tamamilə bərabərdirlər (6). Bundan başqa həmin Konstitusiyanın 33-cü maddəsində qadının və kişinin hüquq bərabərliyi təsbit olunmuşdur (6).

Cəmiyyətin, dövlətin, millətin, sivilizasiyanın elə inkişaf mərhələsi gəlib çatır ki, müəyyən tarixi zərurət üzündən ayrı-ayrı institutların, təsisatların, fenomenlərin, dəyərlərin konstitusiya statusunun təsbit olunmasına həyati zərurət və tələbat yaranır. Keçən əsrin 80-90-cı illərindən başlayaraq dünyada gedən qloballaşma, inteqrasiya və transformasiya prosesləri SSRİ-nin dağılması və onun tərkibində olan Azərbaycan Respublikasının müstəqil dövlətçiliyinin bərpa edilməsi ilə nəticələndi. 18 oktyabr 1991-ci ildə Azərbaycan Respublikasının Ali Soveti tərəfindən qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı", 29 dekabr 1991-ci il tarixdə keçirilən referendum yolu ilə bir daha təsdiq edildi və öz legitimliyinin hüquqi əsasını möhkəmləndirmiş oldu. Müstəqilliyin ilk illərində konstitusiya səciyyəsini daşıyan bu sənədin 17-ci maddəsində dövlətin əzəli və əbədi özəyi olan ailənin, anaların və uşaqların himayə ediləcəyinə… şəxsin, ailənin …mənafeyinə uyğun surətdə, qanundan irəli gələn hüquqların və azadlıqların təmin olunması,

ailələrin abad yaşayış sahəsi ilə, sosial müdafiə və layiqli həyat səviyyəsi ilə təmin ediləcəyi bəyan edilmişdi (7, s.7-8). Bu sənəd Konstitusiya tipli olsa da, lakin Konstitusiya hesab oluna bilməzdi. Buna görə də Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri nəticəsində hazırlanmış müstəqillik dövrünün ilk ana qanununun layihəsi – Azərbaycan Respublikasının Konstitusiya layihəsi 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edildi. Sonralar – 2002 və 2009-cu illərdə keçirilən referendumlarla Konstitusiyanın müxtəlif maddələrinin və müddddəalarının daha da təkmilləşdirilməsi təmin olundu (8). Konstitusiyanın 17-ci maddəsində "Ailə, uşaqlar və dövlət", 34-cü maddəsi "Nikah hüququ"na müstəqil yer ayrılmış, bu institutların konstitusiya hüquqi təsbiti təmin edilmişdir. Eləcə də Konstitusiyanın 25-ci maddəsində kişi ilə qadının hüquq bərabərliyi, 38-ci maddəsində ailə başçısının itirilməsinə görə sosial təminat hüququ, ana dilindən istifadə hüququ, 66-cı maddədə hər kəsin özünə, arvadına (ərinə), bir sözlə yaxın qohumlarına qarşı ifadə verməyə məcbur etmənin yolverilməzliyi, 94-cü maddənin 14-cü bəndi ailə münasibətlərinə dair ümumi qaydaların Milli Məclis tərəfindən müəyyən edilməsi, 109-cu maddənin 20-ci bəndi vətəndaşlıq məsələlərinin həllinin ölkə prezidentinin səlahiyyətlərinə aid edilməsi müddəaları nəzərdə tutulmuşdur (1).

Dövlət müstəqilliyi bərpa olunduqdan sonra, 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasının 17-ci maddəsində göstərilmişdir: "Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir". Konstitusiyada kişi ilə qadının eyni hüquqları və azadlıqları olduğu bəyan olunmuşdur. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi və ailə həyatına müdaxilə etmək qadağan olunmuşdur. Hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ olduğu təsbit edilmişdir. Konstitusiyanın 34-cü maddəsinə görə hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ tanınmışdır. Nikah könüllü razılığa əsaslanmaqla, heç kəsin zorla evləndirilə və ya ərə verilə bilməzliyi konkretləşdirilmişdir. Belə ki, nikah və ailə dövlətin himayəsində olmaqla analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çox uşaqlı ailələrə yardım göstərməyi öz üzərinə götürmüşdür. Yeni Konstitusiyada hər bir ailənin, o cümlədən hər bir qadının sosial təminat hüququ tanınmışdır. Belə ki, yardıma möhtac olanlara kömək etmək, ilk növbədə onların ailə üzvlərinin borcu hesab olunmuşdur. İnsanın və cəmiyyətin fundamental dəyərlər sisteminin əsasında dayanan bir təsisat, bir institut olaraq "ailə"nin statusu bir sıra ölkələrin Konstitusiyalarında nəzərdə tutulmasa da, lakin İtaliya, Almaniya, Rusiya, Türkiyə və s. bu kimi inkişaf etmiş ölkələrin konstitusiyalarında müstəqil norma kimi təsbit edilmişdir. İtaliya Respublikasının Konstitusiyasının 29-cu maddəsində göstərilir ki, respublika, nikaha əsaslanan təbii bir ittifaq olaraq, ailənin hüquqlarını tanıyır. Nikah, ailə birliyini təminat altına almaq üçün qanunun təsbit etdiyi məhdudiyyətlər çərçivəsində ər-arvadın mənəvi və hüquqi bərabərliyinə əsaslanır. Həmin Konstitusiyanın 31-ci maddəsində isə göstərilir ki, respublika iqtisadi tədbirlər və digər yardımlarla ailənin qurulmasına, xüsusən böyük ailələrdə vəzifələrin yerinə yetirilməsinə şərait yaradır. Respublika, analığa, körpəliyə və gəncliyə onları himayə etməyi boynuna götürən müəssisələrə kömək etməklə qayğı göstərir (9, s.35). Almaniya Federativ Respublikasının Konstitusiyasının 6-cı maddəsində göstərilir ki, nikah və ailə dövlətin xüsusi himayəsindədir... Hər ananın cəmiyyətin himayə və yardımını almağa hüququ vardır (9, s.35). Rusiya Federasiyasının Konstitusiyasının 38-ci maddəsində göstərilir ki, ailə, analıq və uşaqlıq dövlətin müdafiəsindədir. Uşaqlara qayğı göstərilməsində və onların tərbiyə edilməsində valideynlərin hüquqları və vəzifələri bərabərdir. 18 yaşı tamam olmuş, işləyən uşaqların, işləməyən valideynlərinə qayğı göstərmək borcudur (10, s.36). Türkiyə Cümhuriyyətinin Konstitusiyasının 41-ci maddəsinə görə, ailə - Türk cəmiyyətinin təməlidir və ər-arvad arasındakı münasibətlər bərabərlik prinsipinə əsaslanır. Dövlət, ailənin təhlükəsizliyi və rifahı üçün ana və uşaqların müdafiəsi, ailə planlamasının nəzəriyyəsi (təhsili) ilə tətbiqini

formalaşdırmaq üçün önəmli işlər görür və təşkilat qurur. Hər bir uşaq, müdafiə və qayğıdan istifadə etmək, yüksək mənafeyə açıq bir formada zidd olmadıqca, ana və atası ilə şəxsi və birbaşa əlaqə qurmaq və davam etdirmək hüququna sahibdir**.** Dövlət, bütün növdə istismara və şiddətə qarşı uşaqları qoruyucu işlər görür (11, s.26-27). Azərbaycan Respublikası Konstitusiyasının isə 17-ci maddəsində göstərilir ki, cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir (1, s.10). Müqayisədən aydın olur ki, Türkiyə Cümhuriyyətinin və Azərbaycan Respublikasının Konstitusiyaları "ailə" institutunu cəmiyyətin "təməli" və "özəyi" kimi qiymətləndirilməklə konstitusiya normasında təsbit edilməsi, ailəyə verilən yüksək dəyərin nəticəsidir. İtaliya Konstitusiyası isə "ailə"nin statusunu "təbii bir ittifaq" kimi tanıdığını bəyan etmişdir (9, s.35). Beynəlxalq və Avropa hüququ "ailə" anlayışına konkret olaraq bitkin formada definisiya verməsə də, lakin ona insanın ailə həyatının tərkib hissəsi kimi yüksək qiymət vermişdir. Bu da onunla əlaqədardır ki, rəsmi nikahı olub-olmamasından asılı olmayaraq beynəlxalq və Avropa hüququ, kişi ilə qadının "ailə həyatı" yaratmasını onun təbii hüququ kimi qəbul edir (12, s.341, 349, 374, 391). Görünür elə buna görə də məsələn, Rusiya Federasiyasının Konstitusiyası beynəlxalq hüquqla tanınmış insan hüquqlarını və azadlıqlarını bütünlüklə Rusiya Federasiyası vətəndaşlarına şamil etsə də, lakin həmin sənəddə vətəndaşın "nikah hüququ" konkret olaraq nəzərdə tutulmamışdır (13, s.8, 9, 14). Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsi isə "nikah hüququ"na həsr olunmuşdur (1, s.18).

Mürəkkəb sosial institut kimi ailəyə verilən hüquqi anlayış biri-birinə oxşar və bəzən biri-birindən cüzi fərqlərlə seçilən elementlərlə səciyyələndirilə bilər. Müxtəlif tarixi dövrlərdə və müxtəlif müəlliflər tərəfindən ailəyə müxtəlif anlayışlar, definisiyalar, izahlar və təriflər verilmişdir. Azərbaycan Sovet Ensiklopediyasının I cildinin müəllifləri göstərirlər ki, ailə – nikah, yaxud qan qohumluğuna əsaslanan kiçik qrupdur. Ailə üzvləri biri-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı köməklə bağlı olan sabit ictimai birlikdir (14, s.187). Eyni fikir «Fəlsəfə ensiklopedik lüğəti»ndə də əks olunmuşdur (15, s.602). Demoqrafik ensiklopediyanın müəllifləri ilə fikri üst-üstə düşən filosoflar ailəni – biri-biri ilə məişət birliyi və qarşılıqlı məsuliyyətlə bağlı olan adamların nikah və ya qan qohumluğuna əsaslanan birliyi kimi səciyyələndirmişlər (16, s.395). Professor Q.Manayev göstərmişdir ki, ailə – nikaha və ya qohumluğa əsaslanan, dövlət qayğısı ilə əhatə edilən və cəmiyyətin özəyini təşkil edən qadın və kişi birliyidir, ittifaqıdır (17, s.18). Gender terminləri adlı lüğətdə ailənin – nikah, qan qohumluğu, yaxud övladlığa götürülməyə əsaslanan üzvlərin biri-biri ilə eyni məişət, qarşılıqlı kömək və cavabdehlik əlaqələri əsasında formalaşan kiçik qrup olduğu göstərilmişdir (18, s.5). Prof. M.Dəmirçiyeva isə ailəni – nikahla və ya qohumluqla bağlı olan, bir-biri ilə və birlikdə yaşayan şəxslər qrupu kimi səciyyələndirmişdir (19, s.6). Bu barədə onlarla digər müəlliflərin də oxşar definisiyalarını sadalamaq mümkündür. Bütün bunlara baxmayaraq, çoxsaylı müəlliflərin ailəyə verdiyi tərifləri ümumiləşdirərkən belə bir yekun nəticəyə gəlmək mümkündür ki, ailə – cəmiyyətin əsas özəyi, nüvəsi hesab olunan kiçik sosial qrup, şəxsi məişəti təşkil etməyin mühüm formasıdır. Bu ər-arvadlıq ittifaqına və qohumluq əlaqələrinə, yəni bir yerdə yaşayan və ümumi təsərrüfatı birgə idarə edən ər və arvad, valideynlər və uşaqlar, qardaşlar və bacılar, digər qohumlar arasındakı çoxtərəfli münasibətlərə əsaslanan birlik kimi səciyyəvi xüsusiyyətləri ehtiva edir. Lakin şərh edilən definisiyalardan belə bir nəticəyə gəlmək olar ki, ailə dedikdə, ona tarixi yanaşmanın son dərəcə mühüm əhəmiyyətinin nəzərə alınması vacibdir. Bir sosial və hüquqi anlayış kimi ailənin, kişi və qadın birliyi kimi səciyyələndirilməsi qədim və geniş tarixə malikdir. Buna görə də elmi ədəbiyyatlarda «ailə» anlayışı müxtəlif, rəngarəng və dinamik inkişafda olan definisiyalardan biri hesab edilir. Ailənin nikah münasibətinə əsaslanan kişi və qadın birliyi olması kimi izahı müəyyən tarixi dövrün məhsulu olmaqla,

ailə üzvləri arasında yaranan münasibətlərin hüquqi nəticələrinin, ər və arvadın, habelə ailənin digər üzvləri arasında qarşılıqlı səciyyə daşıyan hüquqların, vəzifələrin, funksiyaların, məsuliyyətin və öhdəliklərin düzgün və ədalətli tənzimlənməsinə imkan verir. Beləliklə, müxtəlif müəlliflərin mövqeyini, beynəlxalq və milli hüquq normalarının başlıca meyarlarını nəzərə almaqla ailəyə aşağıdakı kimi anlayış vermək olar:

Ailə – yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, fizioloji və bioloji tələbatlarını təmin etmək, sevgiyə, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, kişi və qadın birliyi kimi ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis olunan, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin təməlini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş prosedur qaydalara əməl etməklə müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan insan birliyidir.

Ailə qurmaq məqsədilə kişinin və qadının könüllü razılığı əsasında bağlanmış nikahın müvafiq orqanlarda rəsmiləşdirilməsi vaxtından etibarən ailə əslində, hüquqi cəhətdən faktiki olaraq yaranmış hesab edilir. Ailə institutunun yaranması üçün nikahın mühüm hüquqi nəticə kimi qiymətləndirilməsinə baxmayaraq, "nikah" və ya "kəbin" kimi əqdlər olmamışdan çox-çox əvvəl, qadın və kişi birliyi, mahiyyət etibarilə bu günkü ailəyə çox oxşar olan bir ittifaq – ailə səciyyəsini daşıyan birlik kimi tarixən mövcud olmuşdur. Tarixdə ibtidai ailə, qan qohumluğuna əsaslanan ailə, qrup nikahı – poliqamiya, poliandriya, ekzoqamiya, endoqamiya, qoşa nikah – monoqamiya və s. bu kimi ailə tipləri mövcud olmuşdur (18, s.5). Ailənin konstitusiya statusu isə heç şübhəsiz bəşəriyyətin konstitusiya quruculuğu tarixinin ilk dövrlərini deyil, yalnız son dövrlərini əhatə edir. Məlumdur ki, Konstitusiya qanunvericilik sistemində ən yüksək səviyyədə dayanır və ictimai həyatın müxtəlif sahələrinə təsir göstərmək imkanlarına malikdir. Konstitusiya hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər, bir qayda olaraq cəmiyyət üçün fundamental səciyyə daşıyır. Konstitusiya qanunvericilik sisteminin tərkibinə daxil olan normativ-hüquqi aktlar sistemində, iyearxiyasında ən yüksək yerdə dayanır və o bütün hüquq sahələri üçün əsas, baza rolunu oynayır. Buna görə də konstitusiya-hüquq normaları təsisedici, definitiv, prinsip müəyyənedici norma səciyyəsi daşımaqla, öz quruluşuna görə hipoteza, dispozisiya, sanksiya kimi norma elementlərini özündə birləşdirir. Azərbaycan Respublikasının müstəqillik Konstitusiyası ümumxalq referendumu ilə qəbul edildiyindən və xalqın iradəsinin təcəssümü olduğundan, o daha legitim və daha güclü hüquqi qüvvəyə və özünəməxsus realizə mexanizmlərinə malikdir. Konstitusiya insan və cəmiyyət, cəmiyyət və dövlət, insan və dövlət, dövlət və ailə arasında yaranan ən fundamental ictimai münasibətləri nizamlayan və tənzim edən, ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan hüquq normalarının sistemini ehtiva edir. Demokratik-hüquqi dövlətlərdə Konstitusiya dövlətin struktur elementlərini təcəssüm etdirir. O xalqın dövlətçilik iradəsini, suverenliyini, ərazi bütövlüyünü, konstitusiya quruluşunun əsaslarını, insanın və vətəndaşın hüquqlarını və azadlıqlarını, hakimiyyətin ictimai-siyasi institutlarını, xalqın özünüidarə təsisatlarının statusunu, cəmiyyətin, dövlətin və insanın formalaşmasının və inkişafının hüquqi əsaslarını müəyyən edir. Konstitusiya cəmiyyətin və dövlətin mikromodeli kimi özünü göstərir. Konstitusiya ən yüksək hüquqi akt olmaqla, o ölkədəki digər aktlardan üstün hüquqa malikdir. Ölkənin digər qanunları Konstitusiyaya müvafiq olaraq və onun şərtləri nəzərə alınmaqla hazırlanır və qəbul edilir. Təsadüfi deyil ki, Konstitusiyanın 149-cu maddəsinə görə ölkə qanunları və digər normativ-hüquqi aktlar Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq qəbul edilməlidir. Konstitusiya ölkədə siyasi qüvvələrin nisbətini nəzərə almaqla qəbul edildikdə, o ölkədə siyasi və hüquqi həmrəyliyi təmin edən və stabillik yaradan sənəd kimi özünü göstərir. Cəmiyyətin və dövlətin həyatında son dərəcə vacib və əhəmiyyətli olan məsələlərin – ictimai münasibətlərin

konstitusion-hüquqi tənzimlənməsi ölkədə həmin məsələlərə verilən yüksək dəyərin və əhəmiyyətin göstəricisi hesab oluna bilər. Ailə cəmiyyətin, şəxsiyyətin və fərd olaraq insanın özünün maddi və psixoloji cəhətdən ən mötəbər və ən etibarlı dayağı hesab olunur. Bu baxımdan ailə cəmiyyətin, dövlətin, insanlığın maddi, mənəvi, psixoloji, sosioloji, iqtisadi, siyasi inkişafının əsasında dayanır, onun təməlini təşkil edir, mədəniyyətin, əxlaqın, tərbiyənin, ideyaların, elmin, dinin başlıca əsası, nəsildən-nəsilə keçən ötürücü bir daşıyıcısı və qoruyucusu hesab olunur (20, s.99-107). Bu mənada ailənin Konstitusiyada təsbiti və konstitusion hüquqi mühafizəsi son dərəcə yüksək qiymətləndirilməlidir. Belə ki, bu normada ilk dəfə olaraq ailənin cəmiyyətin özəyi olduğu göstərilmişdir. Burada özək, hər hansı bir anlayışın, təsisatın, institutun əsası, bünövrəsi, fundamental dəyərlər sisteminin kökündə dayanan institut kimi verilmiş və ailənin dövlətin xüsusi himayəsində olduğu təsbit edilmişdir. Ailəyə belə münasibət yeni və mütərəqqidir. Bu da onu göstərir ki, ailə sözün əsil mənasında cəmiyyətin və dövlətin əsasında dayanır. Onun bünövrəsini, əsasını və kökünü təşkil edir. Sosial, demokratik, dünyəvi respublika quran Azərbaycan Respublikasında ailənin dövlətin əsasında dayanması və onun inkişafına xüsusi himayədarlıq göstərərək bu təsisatın dövlətin qayğısı altında mövcud olmasının Konstitusiyada bəyan edilməsi olduqca mühüm səciyyə daşıyır. Xalqın inkişafında ailənin mühüm rolu olduğu bu müddəada nəzərə alınmışdır. Cəmiyyət və xalq eyni zamanda ailədə, ailə özəyində bir vahid kimi təcəssüm olunmuş, birləşmiş və inkişaf tapmışdır. Dövlət xalqdan və onun birliyi kimi formalaşan ailələrin məcmusundan ibarətdir. Buna görə də son illər dövlət-ailə münasibətlərində və cəmiyyətdə yaranmış mürəkkəb proseslərin, böhranların müəyyən müsbət məcraya yönəlməsində ailələrin rolunun gücləndirilməsi vacib hesab edilmişdir. Belə ki, «Multikulturalizmin müqayisəli tədqiqləri: nəzəriyyədən humanist təcrübəyə doğru» adlı 3 oktyabr 2014-cü ildə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumunda Latviya Respublikasının sabiq prezidenti Valdis Zatlers öz çıxışında müasir böhran şəraitində ailə münasibətlərinin inkişafını və bu kontekstdə qlobal problemlərin həllinin mümkünlüyü barədə əsaslandırılmış tezislər irəli sürmüşdür (21, s.7-35).

Ailənin həyatı müxtəlif maddi-bioloji, fizioloji, təsərrüfat, mənəvi, əxlaqi, hüquqi, psixoloji, estetik proseslərin vəhdətini əks etdirir. Ailənin sosial rolu insanın özünün təkrar istehsalında, bəşər nəslinin davam etdirilməsində, onun bilavasitə iştirakı ilə müəyyən edilir. Ailənin mənşəyi məsələsində başlıca olaraq iki əsas baxış mövcuddur. Belə hesab edilir ki, ibtidai icma quruluşunun əvvəlində nizamsız cinsi münasibətlər hökmran olmuş, sonra isə onu qrup nikahı əvəz etmişdir. Zaman keçdikcə müvafiq surətdə ana və ata nəslinə uyğun böyük ana ailə icmasının, daha sonra isə böyük ata ailə icmasının əsasını təşkil edən qoşa nikah münasibətləri dövriyyədən sıxışdırılıb çıxarılmışdır (22, s.19). Təhlillər göstərir ki, ailənin, məişət birliyinin və özünəməxsus münasibətlər sisteminin əsasında, ailənin və ailə üzvlərinin hüquqları, vəzifələri və qarşılıqlı məsuliyyəti – cavabdehliyi, məcmu etibarilə qarşılıqlı olaraq ailəni səciyyələndirən başlıca hüquqi xüsusiyyətlər hesab oluna bilər. Müasir ailəni hüquqi baxımdan səciyyələndirən definisiyanın mühüm tərkib elementi kimi nəzərdə tutulan «nikah» anlayışı, kişinin və qadının ailə qurmaq niyyəti ilə yaratdıqları birliyin, ittifaqın, bunun üçün məxsusi olaraq nəzərdə tutulan müvafiq dövlət orqanlarında qeydinə – nikah rəsmiləşdirilməsinə və buna dair müvafiq rəsmi dövlət sənədinin – şəhadətnamənin verilməsi ilə nəticələnən hərəkət kompleksi kimi baxmaq olar. Bu ailənin hüquqi baxımdan rəsmi olaraq yaranması üçün kifayət edən zəruri hüquqi ünsür hesab oluna bilər. Ailə tərkibinə daxil olan üzvlərin – ananın, atanın, uşaqların geniş hüquq və azadlıqları Azərbaycan Respublikasının Konstitusiyasında ətraflı təsbit edilmişdir (1).

Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin 14-cü bəndinə əsasən ailə münasibətlərinə dair ümumi qaydalar Azərbaycan Respublikası Milli Məclisinin,

vətəndaşlıq məsələləri, bu məsələlərin həll edilməsi isə ölkə prezidentinin səlahiyyətlərindədir. Bu ailə və ailə münasibətlərinin tənzimlənməsinə olan böyük diqqətin nəticəsidir.

"Ailə" institutunun müasir problemlərinin uğurlu həlli sahəsində ölkəmizdə bir sıra mühüm tarixi sənədlər hazırlanmış və qəbul edilmişdir. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı insan inkişafına dair" Dövlət Proqramında, Azərbaycan Respublikasında "Elmin inkişafı üzrə 2009-2015-ci illər üzrə Milli Strategiya" və Dövlət Proqramında, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasının təsdiq olunması haqqında" Dövlət Proqramında, "Açıq hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün" Milli Fəaliyyət Planında," Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üçün" Dövlət Proqramında, "Azərbaycan gənclərinin inkişaf strategiyası"nda, "Gender bərabərliyi üzrə Milli Fəaliyyət Proqramı"nda, "Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası"nda, "İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nda, "Azərbaycan ailəsi strategiyası"nda, "Milli uşaq strategiyası"nda, bu səpkidən olan digər proqram əhəmiyyətli sənədlərdə ailə və uşaq problemlərinin, ailə və nikah institutunun öyrənilməsi, kompleks tədqiqi və təkmilləşdirilməsi məsələləri sahəsində elmi tədqiqatlara diqqətin artırılması prioritet istiqamətlər kimi nəzərdə tutulmuşdur. Eləcə də Azərbaycan Respublikası Prezidentinin Sərancamı ilə "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair (2014-2020-ci illər üçün) Dövlət Proqramı"nın təsdiq edilməsi, "Çoxuşaqlı ailələrə dövlət yardımı haqqında" Qanun, o cümlədən "Beşdən çox uşağı olan qadınlara müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarətin Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı və s. ailənin inkişafına verilən qayğının nəticəsidir. Azərbaycan Respublikasının nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız *müvafiq icra hakimiyyəti orqanında* bağlanmış nikah tanınır. Ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda insan hüquqlarına və azadlıqlarına üstünlük verilməsinə, bu hüquqlara hörmət edilməsinə, o cümlədən ailə hüquqlarının etibarlı şəkildə qorunmasına təminat verilmişdir (7, s.3-10). Ailənin və qadın hüquqlarının beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində ən böyük hüquqi akt, Ulu Öndərimiz Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası olmuşdur. Bu sənəddə Azərbaycanda demokratik, hüquqi, dünyəvi və unitar respublika qurulduğu elan edilmiş, insan və vətəndaş hüquqlarının və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin dövlətimizin ali məqsədi olduğu bəyan edilmişdir (1, s.7-9).

Konstitusiyanın ikinci bölməsinin üçüncü fəsli bütünlüklə "Əsas insan və vətəndaş hüquqlarına və azadlıqlarına" həsr olunmuş, kişinin və qadının eyni hüquqları və azadlıqları olduğu elan edilmişdir. Ümumiyyətlə, Konstitusiyada ailənin hüquqlarının və azadlıqlarının geniş təsbiti mükəmməl olaraq öz ifadəsini tapmışdır. Qadının və uşağın xoşbəxt olduğu ailənin də, cəmiyyətin də xoşbəxt olması heç kimdə şübhə doğurmur. Ölkədə ən ali normativ-hüquqi akt olan Azərbaycan Respublikasının Konstitusiyası, ənənəvi olaraq ən ali dəyərləri və təsisatları Konstitusiyada təsbit etsə də, lakin ailə münasibətlərində ayrı-ayrı subyektlərin çoxsaylı hüquqlarını və vəzifələrini, öhdəliklərini ehtiva edən daha konkret

normalara dair müstəqil qanunların və məcəllələlərin qəbul edilməsi yolu ilə mürəkkəb tənzimetmə funksiyası üçün əlverişli şərait yaratmışdır. Azərbaycan Respublikasının müstəqillik Konstitusiyası referendum yolu ilə qəbul edildikdən sonra ölkəmizdə eyni zamanda 28 dekabr 1999-cu il tarixdə Ailə Məcəlləsi, Mülki Məcəllə, Mülki Prosessual Məcəllə, 19 may 1998-ci ildə «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanunu və digər çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmişdir. Ailə hüququ ilə sıx bağlı olan yetkinlik yaşına çatmamışların və uşaqların hüquqlarının qorunması sahəsində zəruri olan bir çox qanunlar qəbul edilmişdir. Qürur hissi ilə qeyd etmək lazımdır ki, ölkəmizdə Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş qadın siyasəti və bu sahədə ictimai münasibətlərin hüquqi tənzimlənməsi tədbirləri cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla davam etdirilməkdədir. Belə ki, 6 fevral 2006-cı ildə İlham Əliyevin Fərmanı ilə "Qadın problemləri üzrə Dövlət Komitəsi"nin statusu daha da təkmilləşdirilərək onun bazasında "Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi" yaradılmış, onun səlahiyyətləri, hüquqları və fəaliyyət dairəsi əhəmiyyətli dərəcədə genişləndirilmişdir. 10 oktyabr 2006-cı ildə "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanun qəbul edilmişdir. 22 iyun 2010-ci ildə "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycanda ilk dəfə olaraq Qanun qəbul edilmişdir (23, s.9-15).

Heç şübhəsiz 12 noyabr 1995-ci il tarixdə ümumxalq referendum yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası doqma, ehkam hesab oluna bilməzdi. O yaradıcı təfəkkürün məhsulu olmaqla, ölkənin ictimai-siyasi və hüquqi həyatında baş verən proseslərə mütənasib olaraq vaxtaşırı olaraq təkmilləşdirilmişdir. Belə ki, 24 avqust 2002-ci ildə keçirilən referendumla Konstitusiyanın 3, 27, 71, 76, 83, 88, 89, 95-96, 101-102, 105, 109, 125, 128, 130-133-cü maddələrində, cəmi 24 dəyişiklik aparılmış və müvafiq əlavələr edilmişdir. Cəmiyyətin, dövlətin və ailənin həyatında baş verən real şərait ailə və nikah münasibətlərinə aid konstitusiya normalarında 18 mart 2009-cu il tarixdə keçirilən referendumla daha mühüm dəyişikliklər aparılmasına zərurət yaratmışdır. Belə ki, Konstitusiyanın dövlətin ali məqsədinə həsr edilmiş 12-ci maddəsinə "Azərbaycan Respublikasının vətəndaşlarının layiqli həyat səviyyəsinin", iqtisadi inkişaf və dövlət münasibətlərinə həsr edilmiş 15-ci maddəsinə "sosial yönümlü", 17-ci maddənin adına "uşaqlar" sözü, habelə həmin maddəyə "valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər" məzmunlu III, "uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır" məzmunlu IV, "15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər" məzmunlu V, "uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir" məzmunlu VI əlavələr, şəxsi toxunulmazlıq hüququna həsr edilmiş 32-ci maddəyə "və ailə həyatına", "hər kəsin şəxsi və ailə həyatına qanunsuz müdaxilədən müdafiə hüququ vardır" və s. bu kimi söz və söz birləşmələri əlavə edilməklə, həmin maddələrin mükəmməlləşdirilməsi təmin edilmişdir. Beləliklə, bu referendumla Konstitusiyanın 12, 15, 17-19, 25, 29, 32, 39, 48, 50, 67, 71-72, 75, 84, 88, 92, 95-96, 101, 108-109, 125, 129-131, 146 və 149-cu maddələrində, cəmi 29 dəyişiklik aparılmış və əlavələr edilmişdir. Göründüyü kimi qanunverici orqan son iki referendumla ölkə həyatında baş vermiş əsaslı dəyişikliklərə adekvat olaraq, Konstitusiyanın cəmi 53 maddəsinə əlavələr və dəyişikliklər etmişdir ki, bunun da əhəmiyyətli hissəsi ailə və nikah münasibətlərinə, ailənin və uşaqların hüquqlarının genişləndirilməsinə və mühafizəsinə bilavasitə dəxli olan əsaslı dəyişiklər hesab oluna bilər (24). Bütün bunlara müvafiq olaraq Konstitusiyaya referendum yolu ilə edilmiş əhəmiyyətli dəyişikliklər, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Mülki Məcəllədə, Mülki-Prosessual Məcəllədə və digər zəruri normativ-hüquqi aktlarda müvafiq dəyişikliklərin aparılması ilə nəticələnmişdir (23).

Müstəqillik illərində ailənin və davamlı insan inkişafının hüquqi tənzimlənməsi sahəsində dövlət siyasətinin prioritet istiqamətləri, «İnsan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı»nda və çoxsaylı normativ-hüquqi aktlarda ailə münasibətlərinin inkişafına mühüm diqqət yetirilmiş, onun təşkilati-hüquqi baxımdan həyata keçirilməsi üçün müstəqil olaraq Ailə, qadın və uşaq problemləri üzrə Dövlət Komitəsi yaradılmışdır. Son illər bu Komitə beynəlxalq təşkilatlarla birlikdə ailə, qadın və uşaq problemlərinin öyrənilməsinə, onun problemlərinin həllinə və ailənin inkişafına, sosial təminatlarına xüsusi önəm vermişdir. «Azərbaycan 2020: gələcəyə baxış İnkişaf Konsepsiyası» kontekstində ailə problemlərinin kompleks həlli sahəsində geniş tədbirlər planı hazırlanmış və həyata keçirilməkdədir.

Müxtəlif cəmiyyətlərdə, müxtəlif dövlətlərdə və müxtəlif millətlərdə ailələr oxşar və fərqli cəhətləri ilə diqqəti cəlb edir. Böyük ailələr, kiçik ailələr fərqləndirilir. Başqa meyarlara görə də ailələrin təsnifatları aparılır. Bununla belə inkişaf etmiş dövlətlərdə və xalqlarda ailələrin formalaşmış adətləri və ənənələri, yeri, rolu, dəyərlər sistemi, məqsədləri və vəzifələri, inkişaf səviyyəsi, qanunauyğunluqları, ənənələri, vərdişləri və s. özünəməxsus xüsusiyyətləri ilə, keyfiyyət göstəriciləri ilə biri-birindən az və ya çox dərəcədə fərqlənir. Ailənin inkişafı, onun bütövlüyü, əmin-amanlığı istisnasız olaraq hər bir ölkədə sabitliyin və tərəqqinin əsasında dayanır. Buna görə də ailənin cəmiyyətin və dövlətin həyatındakı müstəsna rolu, fundamental dəyərlər sisteminin əsasında dayanması, hətta özəyini təşkil etməsi, digər vacib amillər nəzərə alınaraq, onun hüquqi statusunun, funksiyalarının, vəzifələrinin, məsuliyyətinin, öhdəliklərinin genişliyi, əhəmiyyəti və dəyəri ümumilikdə götürülməklə, ailə münasibətlərinin Konstitusiya statusunun mükəmməl tənzimlənməsinə zaman-zaman xüsusi diqqət yetirilmişdir. Cəmiyyətdə ən önəmli və ən yüksək dəyərə malik olan institutların, o cümlədən ailənin statusunun və ailə münasibətlərinin, hüquq sisteminin iyerarxiyasında ən yüksək yerdə dayanan ölkə konstitusiyası vasitəsilə müəyyən edilməsi, orada təsbit olunması, ölkəmizdə ailəyə verilən böyük önəmin və diqqətin hüquqi ifadəsidir. Ailə, yalnız sosial münasibətlərin inkişafı sahəsində fövqəladə əhəmiyyətə malik deyil, o həm də bəşəriyyət tarixində insan cəmiyyətinin bütövlüyünü və inkişafını təmin edən əsas institutlardan biridir. ABŞ-da və Qərb ölkələrində ailə münasibətlərinin ciddi surətdə böhran keçirdiyi bir dövrdə nikah münasibətlərinin, ailə qurmaq məqsədilə hər şeydən öncə insani münasibətlərə, sevgiyə və dostluğa əsaslanmasına, ər-arvadın əmlak hüquqlarını və vəzifələrini müəyyən edən nikah müqavilələrinin bağlanmasına daha çox diqqət ayırmaqdadır (25, s.63). "Kaliforniya sindromu" cəmiyyətdə neqativ təzahür olmaqla, insanın daha çox şəxsən özünü düşünməsi, eqoist davranışları, iş, karyera, rahatlıq, sərbəstlik azadlığına, qadınla qeyri-rəsmi vətəndaş nikahlarına üstünlük verilməsi və bu zəmində ailənin və uşaqların ikinci plana, ön cəbhəyə, o qədər də önəmli olmayan arxa plana keçməsi ilə səciyyəvidir. Azərbaycanın ailə modeli – yetkinlik yaşına çatmış kişinin və qadının öz arzularına və istəklərinə müvafiq olaraq, müqəddəs, ülvi sevgiyə və məhəbbətə əsaslanan, qadının ictimai həyatda və ailədəki rolunun üstünlüyünü qəbul edən, milli adət və ənənələrə, ciddi mənəvi-əxlaqi və mental dəyərlərə, böyüklərə hörmət və ehtiram, uşaqlara sevgi, mərhəmət və diqqət əsasında formalaşan, fizioloji və bioloji tələbatlarını təmin etmək, məişət və təsərrüfat ümumiliyinə əsaslanan, ailə yaratmaq, dünyaya uşaq gətirmək, övlad sahibi olmaq məqsədilə tərəflərin könüllü razılığı və bərabərliyi əsasında təsis olunan, dövlətin xüsusi himayəsində olan, cəmiyyətin özəyini təşkil edən və dövlət tərəfindən müəyyən edilmiş prosedur qaydalara əməl etməklə müvafiq icra hakimiyyəti orqanlarında rəsmiləşdirilən nikah əsasında yaranan tarixi insan birliyi kimi qəbul edilir (26).

Məşhur fransız filosofu Rene Dekart vaxtilə yazırdı ki, zaman dəyişir və biz də zamanla birlikdə dəyişirik. Dəyişən zaman isə yeni həyat reallıqlarını diktə etməklə yanaşı,

insanların birgə, yeni yaşayış prinsiplərinə uyğunlaşmaya sövq edir. Cəmiyyət həyatındakı yeniliklərin mütərəqqi xarakteri bütün dövlətlərdə ailənin yaşam tərzinə, məqsədlərinə, ümumi prinsiplərinə müvafiq qaydada təsir göstərir. Cəmiyyətdə ən böyük hörmət və qayğı ilə əhatə olunan müasir Azərbaycan ailəsi, zamanın reallıqlarına adekvat cavab verərək, modernləşir, müasirləşir və daha da möhkəmlənir (26).

Ailənin hüquqi cəhətdən yaranmasında yetkinlik yaşına çatmış qadın və kişi arasında könüllü ittifaqın bağlanmasının vacib hüquqi şərtlərindən biri bu əqdin xüsusi orqanlarda qeyd edilməsi ilə bağlıdır. Buna görə də Azərbaycan Respublikasının Konstitusiyasının 34-cü maddəsində nikah, onun hüquqi statusu, elementləri, şərtləri, tərəflərin hüquq və öhdəlikləri bu normada fundamental dəyərlər kimi özünün konstitusion-hüquqi təsbitini tapmışdır. Burada göstərilir ki, hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır. Ailənin, yəni qadının və kişinin könüllü birliyinin hüquqi cəhətdən qeyd olunması nikah rəsmiləşdirilməsi tərəflərin könüllü razılığı əsasında həyata keçirilir. Heç kəs zorla evləndirilə və ya ərə verilə bilməz. Konstitusiyanın 34-cü maddəsində, həmin sənədin 17-ci maddəsində göstərilən normativ-hüquqi tənzimlənmə, bir qədər də genişləndirilərək qeyd edilmişdir ki, «nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir» (1, s.18). Bu da o deməkdir ki, evlənmək arzusunda olan yetkinlik yaşına çatmış və öz iradələrini sərbəst olaraq ifadə edən qadın və kişi məhz ailə qurmaq məqsədilə könüllü ittifaq yaradırlar. Bu birliyin əsasında rəsmi orqanlarda qeydiyyata alınan və dövlət tərəfindən himayə edilən nikah münasibətləri dayanır. Nikaha daxil olarkən və ailə münasibətlərində milli, dini, irqi, sosial, dil və s. əsaslara görə ayrı-seçkilik və məhdudlaşdırmalar yolverilməzdir. Belə ki, konstitusiyanın 34-cü maddəsinin IV bəndində bu baxımdan göstərilmişdir ki, ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ və həm də vəzifəsidir. Buna müvafiq olaraq valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcu hesab olunur. Bu baxımdan 18 yaşına çatmış və əmək qabiliyyəti olan uşaqların əmək qabiliyyəti olmayan valideynləri saxlamağa borclu olması Konstitusiyanın 34-cü maddəsinin V bəndində nəzərdə tutulmuşdur. Ailə və ailə münasibətlərinin tənzimlənməsinin, Azərbaycan Respublikası Konstitusiyasından sonra ən mükəmməl ifadəsi Azərbaycan Respublikasının Ailə Məcəlləsində öz ifadəsini tapmışdır. Bu Məcəllə 28 dekabr 1999-cu il tarixli qanunla qəbul edilməklə nikahın bağlanması, nikaha xitam verilməsi və onun etubarsız sayılması qaydaları və şərtlərini müəyyən edir. Ailə üzvləri arasında, qanunvericilikdə nəzərdə tutulmuş hallarda, həm də başqa qohumlar və digər şəxslər arasında yaranan əmlak və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, valideyn himayəsindən məhrum olan uşaqların tərbiyə götürməsinin qaydalarını müəyyən etmişdir (27, s.5). Lakin bu Məcəllədə əsassız boşanmaların qarşısını almaq, ailənin və uşaqların sosial rifahını yüksəltmək, ailə idarəçiliyində ananın və atanın rolunu konkretləşdirmək istiqamətində dəyişikliklərin aparılmasına hazırda böyük zərurət yaranmışdır. Ölkəmiz uşaqların hüquq və azadlıqları ilə bağlı, nikahdan kənar doğulan uşaqların hüquqi statusu haqqında, ölkələrarası övladlığa götürmə haqqında, uşaq alverinə, uşaq fahişəliyinə, uşaq pornoqrafiyasına, uşaqların silahlı münaqişələrə cəlb edilməsi haqqında, uşaq əməyinin mühafizəsi haqqında və onlarla digər beynəlxalq hüquqi sənədlər Azərbaycan Respublikasında ratifikasiya edilmiş və bununla bağlı olaraq milli hüquq normaları yaradılmışdır. Azərbaycan Respublikasının Milli Məclisi "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında" Əsasnaməni 31 may 2002-ci il tarixli Qanunla təsdiq etmişdir. 24 may 2005-ci il tarixdə isə «Yetkinlik yaşına çatmayanaların baxımssızlığının və hüquq pozuntularının profilaktikası haqqında» Qanun qəbul edilmişdir. «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» 30 avqust 1999-cu il tarixli Qanunun

qəbul edilməsi uşaqlar haqqında konstitusiya normalarının həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malik olmuşdur. Lakin Ailə Məcəlləsində ailənin idarə olunmasında tərəflərin - ərin və arvadın hüquq və vəzifələri konkretləşdirilməmişdir. Ailədaxili zorakılıq ildən-ilə artmasına baxmayaraq, onun konstitusion təminatları konkret müəyyənləşdirilməmişdir. Halbuki Braziliya Konstitusiyasının 226-cı, Kolumbiya Konstitusiyasının 42 (5-ci) maddəsində, Efiopiya, Vyetnam, Hindistan, Niderland, Latviya, Fransa, Banqladeş, İsrail və bir sıra digər ölkələrin konstitusiyalarında ailə zorakılığı bu və ya digər şəkildə qadağan edilmişdir. Bu mənada Azərbaycan Respublikası Konstitusiyasında da zamanın tələblərindən irəli gələn müvafiq dəyişikliyin aparılmasına zərurət yaranmışdır. Konstitusiyamızın qəbulundan iyirmi ildən çox vaxt keçmişdir. Ölkənin ictimai-siyasi həyatında olduğu kimi ailə institutunun və ailənin ayrı-ayrı üzvlərinin konstitusion statusunun təkmilləşdirilməsinə də əsaslı zərurət yaranmışdır (27). Beləliklə aparılan tədqiqatlar və müqayisələr ailə institutunun, onun statusunun, ailə üzvlərinin hüquq və azadlıqlarının etibarlı qorunmasını təmin etmək üçün konstitusiyanın müvafiq normasının təkmilləşdirilməsinə zərurət yaradır. Belə bir dəyişikliyini aparılması ailə və ailə institutunun beynəlxalq və milli hüquq normalarının ən son tələblərindən irəli gəlir. Buna görə də Azərbaycan Respublikası Konstitusiyasının 17-ci maddəsinin aşağıdakı yeni redaksiyada verilməsini təklif edirəm:

"**Maddə 17. Ailə, uşaq və dövlət**

I. Cəmiyyətin təbii və əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. O cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir. Ailə zorakılıqları qanunla qadağan edilir və məsuliyyətə səbəb olur. Dövlət ailənin inkişafına zəruri köməklik göstərir. Ər və arvad ailə münasibətlərində, o cümlədən ailə qarşısında duran vəzifələrin və öhdəliklərin həyata keçirilməsində və ailənin idarə olunmasında hüquqca tamamilə bərabərdirlər. Ailə imkan dairəsində, ələlxüsus onun yaranma dövründə və öhdəsinə kiçik yaşlı uşaqların böyüdülməsi və tərbiyə olunması məsuliyyəti düşdüyü zaman, dövlət tərəfindən hərtərəfli mühafizə və müdafiə olunur, zəruri həyat şəraiti ilə təmin edilir. Analıq və körpəlik xüsusi himayə və yardım hüququ verir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Ailə üzvlərinin beynəlxalq və milli hüquqla müəyyən edilmiş hüquqlarının, vəzifələrinin və azadlıqlarının müdafiəsinə dövlət tərəfindən təminat verilir.

II. Hər bir insan 18 yaşına, yəni yetkinlik yaşına çatana qədər uşaq hesab edilir. Nikahla və yaxud nikahsız doğulmuş uşaqlar eyni sosial müdafiədən istifadə edirlər. Hər bir uşaq doğulduqdan sonra dərhal qeydə alınmaq, ada malik olmaq və vətəndaşlıq əldə etmək hüququna malikdir.

Uşaqlar və gənclər hər kəsin mənsub olduğu iqtisadi və sosial hüquqlara malikdirlər. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Valideynlər uşaqların təhsilinə və tərbiyəsinə qayğı göstərməli, onları ictimai faydalı əməyə hazırlamalı və cəmiyyətin layiqli üzvləri kimi yetişdirməlidirlər. Valideynlərin bu borcunun yerinə yetirilməsinə dövlət nəzarət edir.

Dövlət uşaq tərbiyə və təhsil müəssisələrinin geniş şəbəkəsini yaratmaq və inkişaf etdirmək, məişət xidmətini və ictimai iaşəni təşkil etmək və təkmilləşdirmək, uşaq anadan olduqda ona birdəfəlik müavinət vermək, çoxuşaqlı ailələrin maddi vəziyyətini yaxşılaşdırmaq üçün yardımlar ayırmaq, güzəştlər etmək, habelə ailəyə başqa növ zəruri müavinətlər vermək, yardım göstərmək və imkan daxilində mənzil şəraitini yaxşılaşdırmaq yolu ilə ailənin qayğısına qalır. Dövlət çoxuşaqlı ailələrə birdəfəlik və fasiləsiz yardımlar göstərir.

III. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar 18 yaşına çatana qədər dövlətin himayəsindədirlər.

IV. Uşaqları, onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən qanunsuz fəaliyyətə cəlb etmək qadağandır.

V. 15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər.

VI. Beynəlxalq və milli hüquqla müəyyən edilmiş ailə, qadın və uşaq hüquqlarının və azadlıqlarının həyata keçirilməsinə dövlət nəzarət edir".

Azərbaycan Respublikası Konstitusiyasının təkmilləşdirilməsi məqsədilə verdiyimiz yeni layihənin qəbul edilməsi Ailə Məcəlləsinin ümumiyyətlə, habelə onun ayrı-ayrı normalarının və digər əlaqədar normativ-hüquqi aktların təkmilləşdirilməsinə səbəb olacaqdır. Bu isə cəmiyyətin və dövlətin təməlində dayanan ailə institutunun və ailə üzvlərinin hüquqlarının və azadlıqlarının konstitusiya tənzimlənməsinə böyük töhfə verəcəkdir.

Açar sözlər: ailənin statusu, nikah hüququ, milli uşaq strategiyası, ailənin institutu.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2014.
2. http://az.wikipedia.org/wiki/Ail%C9%99
3. Marks K., Engels F. Seçilmiş əsərləri. 2 cilddə. II c., Bakı: Azərnəşr, 1953.
4. Vahidov F., Ağayev T. Sosiologiya. Bakı, 2013.
5. Seyidov Ə.C. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.
6. Azərbaycan SSR-nin Konstitusiyası. 1979-cu il.
7. Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı. Bakı, 1994.
8. Mərkəzi Seçki Komissiyasının 18 mart 2009-cu il tarixli referendumla bağlı xüsusi bülleteni, Bakı, 2009.
9. İtaliya Respublikasının Konstitusiyası. "Qanun" jurnalı, 1994.
10. Конституция Российской Федерации. М., 1994.
11. Türk Anayasa hukuku mevzuatı. 3. Baskı. Ankara, 2014.
12. Avropa İnsan Hüquqları Məhkəməsi: şərhlər və normativ aktlar. Bakı, 2006.
13. Конституция Российской Федерации. М., «Айрис-пресс», 2015.
14. Azərbaycan Sovet Ensiklopediyası. I cild, Bakı, 1976.
15. Философская энциклопедия. М., 1983.
16. Демографическая энциклопедия. М., 1985.
17. Manayev Q.İ. Sovet ailə hüququ. Bakı, 1989.
18. Gender terminləri izahlı lüğəti. Bakı, 2005.
19. Dəmirçiyeva Məhəbbət. Azərbaycan Respublikasının ailə hüququ. Bakı, 2008.
20. Нечаева А.М. Семья как самостоятельный объект правовой охраны / Государство и право, № 12, 1996.
21. IV Bakı Beynəlxalq Humanitar Forumunun materialları (cənab İlham Əliyevin, Valdis Zatlersin (Latviya Respublikasının sabiq prezidenti) və s. çıxışları). Bакы, 2014-cü il.
22. Fəlsəfə ensiklopedik lüğət. Bakı, 1997.
23. Azərbaycan Respublikasının Qanunvericilik toplusu, Bakı, 2006.
24. "Qanunçuluq" jurnalı. 2002. № 6; Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasının Xüsusi bülleteni. Bakı, 2009.
25. Алиев Ш. Научно-практический комментарий к Конституции Азербайджанской Республики. Баку, 2000.
26. Cəbrayılov R. Ailə modelini qloballaşmanın mənfi təsirlərindən necə qorumalı // «Azərbaycan qəzeti», 16 aprel 2015-ci il.
27. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı, 2014.

Саида ГАСАНЗАДЕ

КОНСТИТУЦИОННО-ПРАВОВОЙ СТАТУС ИНСТИТУТА СЕМЬИ

Резюме

Для каждого народа строящего демократическое и правовое государство, в определении правого статуса его фундаментальных ценностей Конституция играет важную роль. Она образует базу законодательства и определения статуса институтов и учреждений, имеющих большое значение в общественно-политической и правовой жизни страны. Конституция Азербайджанской Республики, принятая 12 ноября 1995 года, регулирует основные общественных отношений и ценностей общества, государства и личности.

Конституция обеспечивает конституционное регулирование одного из самых важных институтов народа, нации и государства, а именно института семьи.

В статье автор рассматривает конституционный статус азербайджанской семьи, дает ей идеальную дефиницию. Наряду с толкованием основных ценностей, присущих институту семьи, выдвигает предложения о ее совершенствовании. Так, ст. 17 Конституции рекомендовано дать в новой редакции, в статье показаны отношения различных авторов к данной статье. При анализе было уделено внимание конституционному регулированию отношений семья-дети-государство обоснована необходимость 17 Конституции, исходя из требований времени, что даст стимул проведения правовых реформ в этой области.

Ключевые слова: институт семьи, статус семьи, брачное право, национальная детская стратегия.

Saida HASSANZADEH

THE CONSTITUTIONAL AND LEGAL STATUS OF THE FAMILY INSTITUTE

Summary

The Constitution of every country, establishing a democratic and legal state, plays an important role in the life of society, in determining the legal status of its fundamental values. It forms the basis of determining the status of the institutions which play an important and key role in the socio-political and legal life of the country.

In this regard, the Constitution of the Republic of Azerbaijan adopted in the years of independence, on November 12, 1995, by referendum regulates the basic and most important aspects, the core of social relations and values which are important for a society, state and every person. The Constitution provides the constitutional regulation of one of the most important institutions of the people, nation and the state - the family institute. In the article the author considers the constitutional status of the Azerbaijani family, and gives the perfect definition of it. During the investigation, along with explanation on the fundamental features of the family institution values proposals were put forward on how to improve it. It was noted that Article 17 of the Constitution should be given in a new edition. In the article, the opinion of the individual authors to the norm which stipulates the family institution, were given comments on their position. The research also eucidates the constitutional settlement of the family-child-state relations and is provided a new version of Article 17 of the

Constitution. It was noted with confidence that the adoption of the family-child-state relations in the proposed wording comes from the requirements of the time. At the same time, basing on the important political, economic, legal, social value and importance given to the family institutes it will stimulate legal reforms in this area.

Keywords: the status of family, the rights of marriage, the national childs strategy, the institute of family.

UOT 347.13

Sərvər SÜLEYMANLI
hüquq ü.f.d., dosent, BDU

AZƏRBAYCAN MÜLKİ HÜQUQ SİSTEMİNDƏ PAYLI MÜLKİYYƏTİN XİTAM OLUNMASI İLƏ BAĞLI BƏZİ HÜQUQİ MƏSƏLƏLƏR*

Giriş

Paylı mülkiyyətin xitam olunması demək, əslində bir-birindən fərqli iki halı əhatə edir. Bunlardan biri, paylı mülkiyyət halının ümumiyyətlə xitam olunması, aradan qalxması hallarıdır, digəri isə, əşya üzərində ümumi paylı mülkiyyət halı davam etməklə birlikdə hər hansı bir paylı mülkiyyətçiyə aid paylı mülkiyyətin xitam olunması hallarıdır.

1. Paylı mülkiyyət anlayışı

Əşya hüququnda rəhbər tutulan əsas prinsiplərdən biri *müəyyənlik prinsipidir*. Bu prinsipə görə, əşya haqlarının ("Hüquq" və "haqq" anlayışlarının istifadəsi ilə bağlı izahat üçün bax 1, s.75-76) predmeti yalnız müəyyən bir əşya ola bilər. Əşya isə, sərhəd və həcmi müəyyənləşdirilmiş olan və mülki hüquq subyektlərinin faktiki sahiblik etmək imkan və iqtidarına sahib olduqları iqtisadi dəyər kəsb edən xüsusi mülkiyyətə əlverişli fiziki cisimlərdir.

Mülkiyyət haqqı aid olduğu əşya barəsində mülkiyyət haqqı sahibinə əşyadan istədiyi kimi istifadə etmək, faydalanmaq və ona dair sərəncam vermək səlahiyyəti təmin etdiyinə görə (Azərbaycan Respublikası Mülki Məcəlləsinin (bundan sonra qısaca MM) 152-ci maddəsinin1-ci bəndi), hər bir əşya üzərində zəruri olaraq yalnız bir mülkiyyət haqqı ola bilər. Bir əşya üzərindəki bu bir mülkiyyət haqqı eyni anda iki və ya daha çox şəxsə aid olduqda ümumi mülkiyyət halı əmələ gəlmiş olur (MM.213.1). Bir əşya üzərindəki mülkiyyət haqqına eyni anda iki və daha çox şəxsin malik olması hallarının hamısı tək bir hüquqi rejimə tabe tutula bilmir. Çünki bu cür hallarda bu şəxslər arasında əşya ilə bağlı hüquqi münasibətlər həmişə eyni mahiyyət və keyfiyyətdə olmur (2, s. 7). Buna görə də, bir mülkiyyət haqqına eyni anda iki və daha çox şəxsin malik olması hallarında bu şəxslər arasındakı hüquqi münasibətlərin xüsusiyyətlərinin nəzərə alınması və bunlara müvafiq tənzimləmələrin nəzərdə tutulması lazım gəlir.

Bir mülkiyyət haqqına eyni anda iki və daha çox şəxsin malik olması hallarında mülkiyyətçilərin hər birinin payının müəyyən olunduğu duruma paylı mülkiyyət, bu cür payların müyyən olunmadığı hallara isə, birgə mülkiyyət halı deyilir (MM.m.213.2). Ümumi mülkiyyət halının bu cür müxtəlif növləri olsa da, ümumi mülkiyyət halının əsas növü paylı mülkiyyət halıdır. Bu məsələ MM-nin 213-cü maddəsinin 3-cü bəndində *"Əşyaya ümumi mülkiyyət, qanunvericilikdə həmin əşyaya birgə mülkiyyət yaranmasının nəzərdə tutulduğu hallar istisna olmaqla, paylı mülkiyyətdir"* şəklində açıqca qanunvericilik qaydasında öz əksini tapmışdır.

Paylı mülkiyyət predmeti olan əşyanın hər bir zərrəsində hər bir paylı mülkiyyətçinin öz payına mütənasib olaraq payı əmələ gəlir. Başqa sözlə, paylı mülkiyyət halında bölünən paylı mülkiyyət halında olan əşyanın özü deyil, bu əşya üzərindəki mülkiyyət haqqıdır. Əgər əşyanın özü də paylara mütənasib olaraq bölünərək bir neçə şəxsin sərəncamına təxsis edilmiş olsaydı, hər kəs özünə aid əşya üzərində haqq (hüquq) sahibi olardı və belə bir halda "paylı mülkiyyət" deyil, "tam mülkiyyət", yəni ümumi mülkiyyət halı deyil, fərdi mülkiyyət halını zəruri olaraq

* Məqalə hüquq ü.f.d. Zaur Məmmədov tərəfindən çapa məsləhət görülüb.

qəbul etmək lazım gələrdi. Halbuki, əşyanın mülkiyyətçisi onun bütün tərkib hissələrinin mülkiyyətçisi olduğuna görə (MM.m. 135.10; 152.9), əşya nə qədər ki, bölünərək müxtəlif əşyalar şəklində müstəqil hissələrə ayrılmayıb, onda, bu vahid əşya üzərindəki mülkiyyətə olan pay da, məntiqi zərurət olaraq, bu əşyanın hər bir zərrəsinə aid olur.

Nəticə etibarı ilə, paylı mülkiyyətdə hər bir paydaşın pay haqqı, paylı mülkiyyət predmeti olan əşya üzərində mövcud olan bir tək mülkiyyət haqqının təmin etmiş olduğu səlahiyyətlərdən istifadə etmək nisbətini göstərən əmlak xarakterli haqdır (əmlak hüququdur).

2. Paylı mülkiyyətlə bağlı nəzərə alınması lazım gələn ümumi hüquqi əsaslar

Aydındır ki, ümumi mülkiyyətdə olan əşya üzərindəki bu bir tək mülkiyyət hüququnun eyni anda bir neçə şəxsə paylarına mütənasib qaydada mənsub olması onlar (paylı mülkiyyətçilər) arasında müəyyən bir hüquqi nizamın olmasını zəruri edir (3, s. 191-192). Çünki əks halda, yəni hər bir pay sahibinin paylı mülkiyyətin predmeti olan əşya barəsində öz istədiyi qərarı qəbul etməsinə hüquqən imkan verilsəydi onda bu qarışıqlığa və əslində paylı mülkiyyət haqqından istifadənin faktiki olaraq mümkünsüzləşməsinə səbəb olardı. Həqiqətən, hər bir paylı mülkiyyətçi ümumi paylı mülkiyyətdə olan əşya barəsində öz istədiyi kimi qərar qəbul edə bilməsi halında heç kim öz hüququnu faktiki olaraq həyata keçirmək imkanına sahib ola bilməz. Məsələn, A, B və C-nin bir evə paylı mülkiyyətçi olduğunu və A-nın bu evi tək-başına kirayə verə bildiyini, B-nin bu evin əsaslı təmir edilməsi ilə bağlı müstəqil olaraq podrat müqaviləsi bağladığını, C-nin isə, müstəqil olaraq təkbaşına bu evi satıb özgəninkiləşdirilməsi barəsində alqı-satqı müqaviləsi bağladığını təsəvvür etməyə çalışsaq, onda necə bir hüquqi qarışıqlıq və paylı mülkiyyətçilərin faktiki olaraq öz paylı mülkiyyət haqlarından istifadəsinin demək olar ki, mümkünsüz hala gəldiyini daha asan başa düşmək olar. Məhz bu səbəblə də, qanunvericilikdə ümumi mülkiyyət halları baxımından paylı mülkiyyətçilərin hüquq və vəzifələrini müəyyən edən müddəalar qəbul edilməklə bu kimi hallarda qarışıqlıq və xaosun qarşısını alan bir hüquqi sistem və nizam nəzərdə tutulmuşdur.

Beləliklə, paylı mülkiyyət halının xüsusi bir hüquqi nizama salınmasının əsas səbəbi, fərdi mülkiyyət halından fərqli olaraq, ümumi paylı mülkiyyət halında paylı mülkiyyətçilərin səlahiyyətlərinin məhdudlaşdırılması zərurətidir. Çünki eyni əşya üzərində iki və daha çox şəxsin eyni məzmunlu hüquq sahibi olması, təbii olaraq, bunlar arasında mənafe və mənfəət ziddiyyətlərinin əmələ gəlməsini qaçınılmaz edir.

3. Paylı mülkiyyətçinin çıxarılmasının mümkünlüyü məsələsi

Hər bir paylı mülkiyyətçi ümumi paylı mülkiyyətdə olan əşya barəsində fərdi mülkiyyət halında olduğu kimi sərbəst şəkildə hərəkət edə bilməyəcəyinə görə, onların hər birinin hüquq və səlahiyyəti digər paylı mülkiyyətçilərin hüquq və səlahiyyətlərinə mütənasib bir şəkildə qanunən məhdudlaşdırılmış halda olur. Sözü gedən bu məhdudlaşma, hər bir paylı mülkiyyətçinin öz hüquq və səlahiyyətini digər paylı mülkiyyətçilərin eyni istiqamətli hüquq və səlahiyyətlərinə hörmət göstərmək öhdəliyini pozmamaq şərtilə həyata keçirə bilməsində öz təzahürünü tapır. Ümumi paylı mülkiyyət halında paylı mülkiyyətçilərin öz hüquq və səlahiyyətlərindən etibarlı və məqsədəuyğun bir şəkildə həyata keçirə bilmələri, hər bir paylı mülkiyyətçinin digərlərinin hüquq və səlahiyyətlərinə hörmətlə yanaşmasından asılıdır. Bu səbəblə də, hər bir şərikin digər şəriklərə, onların hüquq və səlahiyyətlərinə hörmət göstərməsi, paylı mülkiyyətçilərin ən əsas vəzifə və öhdəliklərdən biridir (4, s. 27). Çünki paylı mülkiyyət səbəbiylə meydana gələn ortaqlığın tək məqsədi, paylı mülkiyyət predmeti olan əşyadan istifadə və faydalanma məqsədidir.

MM-nin 215-217-ci maddələrində nəzərdə tutulan müddəalar paylı mülkiyyətçilərin ümumi paylı mülkiyyət predmeti olan əşya ilə bağlı hüquq və vəzifələrini və bunların həyata

keçirilməsi qaydalarını müyyən etmək məqsədinə xidmət edir. Bu müddəalarda nəzərdə tutulan qaydalar bu məqsədin həyata keçirilməsi üçün paylı mülkiyyətçilər üçün qarşılıqlı hüquq və vəzifələri müəyyən edir. Beləliklə, *ümumi paylı mülkiyyət halında bütün paylı mülkiyyətçilər, bu şəriklik səbəbilə bir-birlərinə qarşı qanundan əmələ gələn öhdəlik və vəzifələr daşıyırlar. Hüquqi məntiq, paylı mülkiyyətçilərin qanundan əmələ gələn bu öhdəliklərə əməl etməməsi, onu pozması hallarında, bunun onların əleyhinə müəyyən bir hüquqi nəticənin və "hüquqi məsuliyyətin" olmasını zəruri edir. Buna əks istiqamətdə olan hər hansı bir fikir, hüququn bütün qaydalarının xidmət etdiyi ümumi məqsəd olan ədalətlilik prinsipinə və hüquq qaydalarının məcburilik mahiyyətinə zidd olacağına görə, təbii olaraq, hüquqən qəbuledilməzdir.*

Mülki qanunvericiliyimizdə, paylı mülkiyyətçilərdən birinin və ya bir neçəsinin paylı mülkiyyət rejiminin həyata keçirilməsini təmin edən bu qaydaları kobud bir şəkildə pozması və bununla da paylı mülkiyyət halının davam etdirilməsini faktiki olaraq digər paylı mülkiyyətçi(lər) üçün mümkünsüz etməsi hallarında bunun nə kimi hüquqi nəticələrə səbəb olacağı açıqca və xüsusi qaydada tənzimlənməmişdir. Ancaq yuxarıda qeyd olunan açıqlamalardan da irəli gələn aşkar hüquqi nəticə odur ki, ümumi paylı mülkiyyət halında olan şəriklər arasında qanunən nəzərdə tutulan ümumi nizam və ahəngin pozulmasına öz hərəkət və davranışları ilə səbəb olan paylı mülkiyyətçilər, qeyd olunan bu hərəkətlərinə görə mülki hüquq məsuliyyəti daşımalıdırlar və daşıyırlar. Başqa sözlə, hər hansı bir paylı mülkiyyətçi və ya paylı mülkiyyətçilər qanunvericilikdə ümumi paylı mülkiyyət predmeti olan əşya ilə bağlı meydana gələn münasibətləri tənzimləyən qanuni qaydaları təqsirli olaraq kobud bir şəkildə pozmaqla paylı mülkiyyətçilər arasındakı ümumi şəriklik münasibətlərini kökündən zədələyərsə, onda sadə hüquqi məntiqə görə, bunun hüquqa zidd hərəkət edən paylı mülkiyyətçinin əleyhinə müəyyən hüquqi nəticələr əmələ gətirməsi qaçınılmazdır.

İndi bu qeyd edilənlərin işığında əsas sual budur ki, bu cür özünün hüquqa zidd əməlləri ilə paylı mülkiyyətçilər arasında ümumi paylı mülkiyyət halının davam etdirilməsini faktiki olaraq mümkünsüz hala gətirən paylı mülkiyyətçi/mülkiyyətçilər əleyhinə nə kimi hüquqi nəticələr meydana gəlir?

Bu sualla bağlı ağıla ilk gələn cavablar təzminat və hüquqa zidd fəaliyyətə son qoyulmasının tələb edilməsi yollarıdır. Ancaq burada işin əsasını təşkil edən mərkəzi problem paylı mülkiyyətçinin bu cürə hüquqa zidd əməllərinin nəticələrinin təzminat və hüquqa zidd fəaliyyətə son qoyulmasını tələb etməklə aradan qaldırılmasının mümkün olmadığı hallarıdır. Məsələn, bir yaşayış sahəsinin 1/5 pay sahibi olan M1, öz ailə üzvləri ilə bu ümumi paylı mülkiyyətdə olan evdə yaşamaqla birlikdə həm də formalaşdırdığı real psixoloji mühitdə digər paylı mülkiyyətçilərin həmin yaşayış sahəsindən nəinki öz hüquqlarına uyğun bir şəkildə istifadə etmələri, hətta ümumiyyətlə hər hansı bir şəkildə istifadə etmələrini faktiki mümkünsüz hala gətirdiyini, həmin yaşayış sahəsi ilə bağlı digər paylı mülkiyyətçilərin fikir və qənaətlərinə əsla əhəmiyyət verməyərək tikinti, təmir, yenidənqurma və s. bu kimi işlərlə bağlı qərarları təkbaşına özü qəbul etməklə həyata keçirdiyini fərz edək. Bu misaldan da göründüyü kimi, çox vaxt bu kimi hallarda paylı mülkiyyət nizamının bəzi paylı mülkiyyətçilər tərəfindən bu cür kobud bir şəkildə pozulması, digər paylı mülkiyyətçilərin mülkiyyət haqlarının pozulması ilə yanaşı onların şəxsiyyət haqlarının, şəxsi toxunulmazlıqlarının da hüquqa zidd bir şəkildə pozulması və ya real pozulması təhükəsi ilə müşayiət olunur (5, s. 86). Belə bir mühitdə digər 4/5 pay sahibi olan paylı mülkiyyətçilərin yalnızca təzminat və hüquqa zidd əməllərinə son qoyulması ilə bağlı məhkəmə qaydasında tələblər irəli sürməkdən başqa M1-ə qarşı hər hansı bir hüquqi imkana sahib olmadığını qəbul etmək demək, 4/5 pay sahibi olan paylı mülkiyyətçilərin bu ümumi paylı mülkiyyət halını davam etdirmək istəyirlərsə bunun yalnız M1 ilə birlikdə davam etdirməyə məcbur olduqlarını qəbul etmək deməkdir. Bu cür bir yanaşma, olsa-

olsa, MM-nin 215 və 217-ci maddələrinə nəzərdə tutulan qaydalara M1-in gələcəkdə hörmət göstərəcəyi və bu səbəblə də digər 4/5 pay sahibi olan paylı mülkiyyətçilərin onunla (M1-lə) birgə mülkiyyət halını davam etdirmək imkanına sahib olduqları ehtimalına əsaslandığı təqdirdə məntiqi çərçivəyə sığa bilər.

Halbuki, yuxarıda misal kimi verilən mahiyyətdə olan hallarda, bir qayda olaraq kobud pozuntu törədən paylı mülkiyyətçi(lər)dən paylı mülkiyyət ilə bağlı hüquqi rejimə gələcəkdə hörmət göstərəcəyinə güman etmək üçün heç bir əsas olmur. Bu səbəblə də, bu kimi hallarda ümumi paylı mülkiyyət halını davam etdirmək istəyən digər paylı mülkiyyətçilərin kobud pozuntular törətməklə paylı mülkiyyət münasibətinin davam etdirilməsini dözülməz hala gətirən paylı mülkiyyətçi ilə paylı mülkiyyət halını davam etdirməyə məcbur olduqları fikrini irəli sürmək həm maddi həqiqətə (reallığa), həm də hüququn əsas məqsədi olan ədalətlilik prinsipinə ziddiyyət təşkil edər. Həqiqətən, paylı mülkiyyətçilərdən hər hansı biri bu misalda göstərilən mahiyyətdə olan özünün kobud hüquqa zidd əməlləri ilə digər paylı mülkiyyətçiləri çətin vəziyyətə salmasına hüquqən imkan verildiyi nəticəsinin qəbuluna gətirib çıxaran hər hansı bir yanaşma və ya düşüncə tərzi bütövlükdə hüquqa və hüquq məntiqinə ziddir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq məsələ ilə bağlı sualları daha da konkretləşdirə bilərik. Belə ki, yuxarıda nümunə kimi təqdim edilən hallarda olduğu kimi, paylı mülkiyyətçilərdən biri və ya bir neçəsi ümumi paylı mülkiyyətlə bağlı hüquqi rejimi tənzimləyən qanuni qaydaları qərəzli olaraq kobud bir şəkildə pozmaqla paylı mülkiyyətçilərin onunla ümumi şəriklik münasibətlərini davam etdirməsini mümkünsüz hala gətirdikdə, digər paylı mülkiyyətçilər (yəni, M1 xaricindəki 4/5 pay sahibləri):

1) öz aralarında paylı mülkiyyət halını davam etdirmək istəmələrinə baxmayaraq, M1-in bu hərəkətləri qarşısında ümumi paylı mülkiyyət halına xitam verməyə məcburdurlarmı? Ümumiyyətlə onlar bu kimi hallarda paylı mülkiyyət halına xitam verə bilmə imkanına sahibdirlərmi?

2) əslində öz aralarında paylı mülkiyyət halını davam etdirmək istəmələrinə baxmayaraq, M1-in bu hərəkətləri qarşısında ümumi paylı mülkiyyətdən çıxmağa məcburdurlarmı?

3) öz aralarında paylı mülkiyyət halını davam etdirmək istəyirlərsə, M1-in paylı mülkiyyətçilikdən çıxara bilərlərmi?

Hər bir suala olan cavabları ayrılıqda təhlil edilməsinin daha məqsədəuyğun olacağı qənaətindəyik.

3.1. Ümumi paylı mükiyyətin xitam olunması

MM-də ümumi paylı mülkiyyət halının xitam olunması ilə bağlı yalnız bir maddə (221-ci maddə) nəzərdə tutulmuşdur. "Ümumi paylı mülkiyyət hüquqlarına xitam verilməsi" başlığını daşıyan bu maddədə paylı mülkiyyət halının yalnız bir yolla xitam olunmasına dair müddəalara yer verilmişdir ki, bu da paylı mülkiyyətçilərin qarşılıqlı razılaşması yolu ilə, yəni paylı mülkiyyətçilərin yekdil qərarı əsasında paylı mülkiyyətə xitam verilməsi halını əhatə edir.

Göründüyü kimi, MM-də ümumi paylı mülkiyyət halına xitam verilə bilməsi üçün əsasən bir üsul nəzərdə tutulmuşdur ki, bu da bütün paylı mülkiyyətçilərin yekdil razılığa gəlməsi şərtidir. Bu səbəblə də ilk baxışda ümumi paylı mülkiyyət halına xitam verilməsinə pay həcmindən asılı olmayaraq hər hansı çox cüzi bir pay sahibinin razılıq verməməklə geri qalan bütün paylı mülkiyyətçilərin ümumi paylı mülkiyyət halına xitam verilməsi iradəsinin həyata keçirilməsinə maneə ola biləcəyi qənaəti hasil olur. Yəni hər bir pay sahibinin sözün həqiqi mənasında ümumi paylı mülkiyyət halına xitam verilməsi ilə bağlı birbaşa və ya dolaylı (etiraz etmək və ya razılığını bildirməmək) veto etmək səlahiyyəti olduğu qənaəti hasil olur.

Bununla belə, qanunən formalaşdırılan bu qənaət mütləq deyildir. Belə ki, hər bir paylı mülkiyyətçi istədiyi vaxt öz payının ayrılmasını tələb etməklə paylı mülkiyyət ortaqlığından

çıxmaq imkanına sahibdir (MM.m. 220.2). Bu səbəblə də hər hansı bir paylı mülkiyyətçinin veto etməsinə baxmayaraq, digər paylı mülkiyyətçilər öz paylarının verilməsini tələb etməklə paylı mülkiyyətçilikdən çıxmaq istədikləri təqdirdə, çox vaxt ümumi paylı mülkiyyət halı da aradan qalxacaq.

Bundan başqa, hətta hər hansı bir paylı mülkiyyətçi öz payının ayrılmasını tələb etdikdə və onun bu tələbini yerinə yetirmək mümkün olmadıqda, bu ümumi paylı mülkiyyət halının xitamına səbəb olur. Belə ki, MM-nin 220-ci maddəsi hər bir paydaşın ümumi mülkiyyətdən çıxma haqqını, yəni ümumi mülkiyyətdə olan şəriklik payının ayrılıb onun özünə verilməsi haqqını tənzimləyir. MM, ümumi paylı mülkiyyətçilərin bu haqlarını tənzimləyərkən, hər bir paydaşın ümumi mülkiyyətdə olan əşyadan öz şəriklik payını ona naturada, yəni fiziki şəkildə verilməsini tələb etmək səlahiyyətini təmin etmişdir (m.220.3, c.1 və 220.4, c. 2). Çıxmaq istəyən paydaşın öz payının naturada fiziki olaraq verilməsini tələb etmək haqqının istisnaları MM-nin 220-ci maddəsinin 4-cü bəndinin 3-cü cümləsində göstərilmişdir.

MM-nin 220.6 və 221-ci maddələrində isə, paydaşlıqdan çıxmaq hallarına deyil, ümumiyyətlə paylı mülkiyyət halına son verilməsi hallarına, yəni əşya üzərində paylı mülkiyyət halının ümumiyyətlə aradan qaldırılmasına dair müddəalar öz əksini tapıb. Başqa sözlə, MM-nin 220.6 maddəsində paylı mülkiyyət halından çıxmaq istəyən paydaşa ümumi paylı mülkiyyətdə olan əşyadan öz payının ayrılıb verilməsinin mümkün olmadığı hallarda ümumi paylı mülkiyyətdə olan əşyanın məhkəmə tərəfindən hərracdan satılmaqla paydaşların pay hüquqlarının təmin edilməsi nəzərdə tutulmuşdur.

Burada payın naturada bölünməsinin mümkün olmadığı deyilərkən, paylı mülkiyyət predmeti olan əşyanın fiziki bölünməsi halında onun əvvəlki təyinatına uyğun bir şəkildə istifadəsinin mümkün olmadığı və ya belə olmamaqla birlikdə, əşya paylara mütənasib olaraq fiziki şəkildə bölündüyü təqdirdə hər bir paydaşın payının iqtisadi dəyərinin əhəmiyyətli dərəcədə azalması halları başa düşülür.

Paylı mülkiyyət ortaqlığından çıxmaq istəyən paydaşın payını naturada vermək mümkün deyilsə, paylı mülkiyyət halını davam etdirmək istəyən digər paylı mülkiyyətçilər çıxmaq istəyən paydaşın pay haqqını nağd qaydada təmin etmək surətilə paylı mülkiyyət halını davam etdirə bilərlər. Belə ki, naturada payın ayrılıb verilməsinin mümkün olmadığı hallarda çıxmaq istəyən paydaşa sırf pay hüququnun təmin edilməsi məqsədilə digər paydaşların istəmədikləri halda ümumi paylı mülkiyyətdəki əşyanın satılması hüquqən qəbul edilməzdir. Bu şərtlə ki, paylı mülkiyyət halının davam etdirilməsini istəyən digər paydaşlar çıxmaq istəyən paydaşın pay hüququnu nağd qaydada ödəməyə hazır olduqlarını bildirmiş olsunlar. Çünki payın naturada ayrılıb verilməsinin mümkün olmadığı hallarda, əşyanın digər paylı mülkiyyətçilərinin iradələrinin ziddinə olaraq hərracdan satılması yolu ilə çıxmaq istəyən paydaşın pay hüququ onsuz da naturada deyil, pul vəsaiti hesabına nağd qaydada təmin edilmiş olacaq. Yəni bu kimi hallarda nəticə etibarı ilə çıxmaq istəyən paydaş baxımından əşyanın hərracdan satılması ilə paylı mülkiyyət halının davam etdirilməsini istəyən digər paydaşlar tərəfindən onun pay haqqının nağd qaydada ödənilməsi arasında heç bir fərq yoxdur.

Beləliklə, MM-nin 220.6 maddəsi: paylı mülkiyyət halından çıxmaq istəyən paydaşa ümumi paylı mülkiyyətdə olan əşyadan öz payının ayrılıb verilməsinin mümkün olmadığı və digər paylı mülkiyyətçilər tərəfindən paydaşlıqdan çıxmaq istəyən paylı mülkiyyətçiyə payına mütənasib vəsaitin verilmədiyi və ya verilə bilmədiyi hallarda tətbiq olunur.

Məhkəmə ona təqdim edilən hüquqi ixtilafı həll etmək məcburiyyətindədir. Bu nöqteyi-nəzərdən də, "naturada" bölünmə tələbi irəli sürülmüş olsa da, məhkəmə naturada bölünmənin MM-nin 220.6-da nəzərdə tutulduğu kimi açıqca əlverişsiz olduğunu müəyyən etdikdə, hüquqi ixtilafı həll etmədən bu tələbi rədd etməməli və digər mülkiyyətçilər tərəfindən onun payının nağd qaydada təmin edilməsini təklif etməli və əgər digər paylı mülkiyyətçilər bu təklifi qəbul

etməzlərsə və ya ayırlmaq istəyənin payını ödəmək imkanına sahib deyillərsə, onda məhkəmə özü "natura" bölünmə ilə bağlı verilən iddia tələbinin hərracdan satılma yolu ilə təmin edilməsi barəsində qətnamə çıxarmalıdır. Bu şəkildə ümumi paylı mülkiyyət predmeti hərracdan satıldıqda aydın məsələdir ki, əşya üzərindəki əvvəlki ümumi paylı mülkiyyət halı da aradan qalxmış olacaq.

Bütün bunlar da, MM-nin 220.6 maddəsində nəzərdə tutulan hallarda ümumi paylı mülkiyyət halına digər bütün paylı mülkiyyətçilərin razılığı olmadan da xitam verilə bildiyini göstərir (8).

3.2. Bir paylı mülkiyyətçinin ümumi paylı mülkiyyət münasibətinin onunla davam etdirməsini mümkünsüz hala gətirməsi digər paylı mülkiyyətçiləri ümumi paylı mülkiyyətdən çıxmağa məcbur edirmi?

Bu suala müsbət cavab verilərsə, onda digər 4/5 pay sahibi olan paylı mülkiyyətçilərin, əslində öz aralarında ümumi paylı mülkiyyət halını davam etdirmək istəmələrinə baxmayaraq, M1-in kobud hüquqa zidd əmelləri nəticəsində hüquqən başqa çıxış yolları qalmadığı üçün çıxmaq məcburiyyətində olduqlarını qəbul etmək lazım gəlir. Onda bu o demək olardı ki, hər hansı bir paylı mülkiyyətçi (məsələn, M1) bu şəkildə kobud hüquqa zidd hərəkətlər etmək sayəsində həm digər paylı mülkiyyətçiləri çıxmağa vadar edə bilər, həm də bu yolla digər paylı mülkiyyətçilər istəmədikləri halda faktiki olaraq ümumi paylı mülkiyyət halına xitam vermək imkanına sahib ola bilər. Yəni belə çıxır ki, hər hansı bir paylı mülkiyyətçi bu şəkildə hüququ pozduğuna görə, hüquq tərəfindən bir növü mükafatlandırılmış və üstün vəziyyətə gətirilmiş olur. Belə bir anlayış və hüquqi nəticənin isə, elə hər şeydən əvvəl "hüquq" anlayışının özünə, mahiyyətinə və hüquq məntiqinə tamamilə zidd olduğu şübhəsizdir. Çünki bir qaydanın hüquq qaydası sayıla bilməsi üçün bu qaydanın pozanın əleyhinə olaraq məcburi qaydada pozma səbəbinin qarşısının alınması və pozuntunun nəticələrinin aradan qaldırılmasını təmin etmə xüsusiyyətinə malik olması lazımdır (6, s. 1, 7, s. 10-11).

Yuxarıda aparılan təhlillər nəticəsində qəti olaraq belə bir nəticəyə gələ bilərik ki, ümumi paylı mülkiyyət nizamını və bu nizamın əsaslandığı ümumi paylı mülkiyyət münasibətlərini özünün kobud hüquqa zidd hərəkətləri ilə kökündən sarsıdan (və bununla da digər paylı mülkiyyətçilərin onunla paylı mülkiyyət halını davam etdirməsini faktiki olaraq mümkünsüzləşdirən) paylı mülkiyyətçi(lər), bu hüquqa zidd əməli sayəsində digər paylı mülkiyyətçiləri yeganə çıxış yolu MM-nin 220-ci maddəsində nəzərdə tutulan qaydada çıxmaq məcburiyyətində qoya bilməz. Bu səbəblə də, bir paylı mülkiyyətçinin (məsələn M1-lə) hüquqa zidd və uzlaşmaz hərəkətləri qarşısında digər paylı mülkiyyətçilərdən onunla (M1-lə) paylı mülkiyyət halının davam etdirməsini gözləməyin vicdanlılıq prinsipinin əsaslarına görə mümkün olmadığı hallarda digər paylı mülkiyyətçilərin paylı mülkiyyət münasibətlərini kökündən sarsıdan həmin paylı mülkiyyətçini/mülkiyyətçiləri çıxara bilmə haqqına sahib olduqlarını qəbul etmək zərurəti vardır. Əks fikir, həm ədalətə, həm də sadə hüquqi məntiqə aşkar bir şəkildə zidd nəticələrin meydana gəlməsinə səbəb olur.

Nəticə

1. MM-nin 220.6 maddəsi, paylı mülkiyyət halından çıxmaq istəyən paydaşa ümumi paylı mülkiyyətdə olan əşyadan öz payının ayrılıb verilməsinin mümkün olmadığı və digər paylı mülkiyyətçilər tərəfindən ona payına müvafiq vəsaitin verilmədiyi və ya verilə bilmədiyi hallarda tətbiq olunur;

2. Hər hansı bir paylı mülkiyyətçi, ümumi paylı mülkiyyətlə bağlı qanuni rejimi onunla paylı mülkiyyət halının davam etdirməsini mümkünsüz edəcək şəkildə pozmaqla nə digər paylı

mülkiyyətçiləri çıxmağa vadar edə bilər, nə də ki, bu yolla digər paylı mülkiyyətçilər istəmədikləri halda onları faktiki olaraq ümumi paylı mülkiyyət halına xitam verməyə vadar edə bilər;

3. Hər hansı paylı mülkiyyətçi paylı mülkiyyət halının davam etdirməsini özünün hüquqa zidd və uzlaşmaz hərəkətləri ilə mümkünsüz hala gətirdiyi hallarda, digər paylı mülkiyyətçilər paylı mülkiyyət münasibətlərini kökündən sarsıdan həmin paylı mülkiyyətçini/mülkiyyətçiləri ümumi paylı mülkiyyətlə bağlı şəriklikdən çıxara bilərlər.

Açar sözlər: hüquq, paylı mülkiyyət, paylı mülkiyyətin xitam olunması, hüquqi tənzimləmə, hüquqa zidd əməl.

İstifadə olunmuş ədəbiyyat

1. Süleymanlı S. Mülki qanunvericiliyimizdəki əşya haqlarının növləri və əşya hüququnda rəhbər tutulan prinsiplər. Bakı: Dövlət Universitetinin xəbərləri, sosial siyasi elmlər seriyası, № 4/2011, s.75-93.

2. Zekeriya Kürşat: Paylı Mülkiyetin Sona Ermesi, İstanbul, 2008, (Arıkan yayınevi).

3. Süleymanlı S. Azerbaycan Hukukunda Müşterek Mülkiyette Olan Eşyadan Paydaşların Yararlanma Hakkı ve Masraflara İştiraki ile Bağlı Düzenlemlerin Genel Sistematiği" I. Türkiyə-Azərbaycan Hüquq Simpoziumu, 1-2 iyul 2011, İstanbul, s. 189-206.

4. Ethem Seba Özmen. Türk Hukukunda Paydaşlıktan Çıkarma Davası, İstanbul, 1992, (Kazançı yayınevi).

5. Abdülkadir Arpacı. Müştərək Mülkiyette Yararlanma ve Yönetim, İstanbul 1990, (Kazançı yayınevi).

6. Kemal Oğuzman. Medeni Hukuk Dersleri (Giriş-Kaynaklar-Temel Kavramlar), İstanbul, 1994, (Filiz kitabevi).

7. Aydın Zevkliler. Medeni Hukuk, Ankara, 1992, (Savaş yayınları).

8. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin 04.04.2014 tarixli qərarı, bax: http://www.constcourt.gov.az/cat/5

Сервер СУЛЕЙМАНЛЫ

НЕКОТОРЫЕ ПРАВОВЫЕ ВОПРОСЫ В СИСТЕМЕ ГРАЖДАНСКОГО ПРАВА АЗЕРБАЙДЖАНА, СВЯЗАННЫЕ С ПРЕКРАЩЕНИЕМ ДОЛЕВОЙ СОБСТВЕННОСТИ

Резюме

Существуют разные виды общей собственности, однако основным ее видом является долевая собственность.

В статье автор рассматривает некоторые правовые вопросы в системе гражданского права Азербайджана, связанные с прекращением долевой собственности. Это наличие одновременного права собственности двух и более лиц на одно и то же имущество с определением доли каждого из собственников, совместная собственность (ст. 213.2 ГК АР) без определения таких долей.

В пункте 3 статьи 213 ГК этот вопрос четко выражен в законодательном порядке: *«Общая собственность на имущество является долевой, за исключением случаев, когда законом предусмотрено образование совместной собственности на это имущество»*. Такое право собственности на имущество, где одновременно несколько лиц обладают

правом собственности, пропорционально их долям, и делает необходимым создание определенного правового порядка между долевыми собственниками. В отличие от личной собственности, основным поводом специального правового регулирования долевой собственности является необходимость ограничения полномочий долевых собственников в общей собственности. Правовая логика предполагает «правовую ответственность» и получение определенного правового результата в отношении лиц, серьезно нарушивших законный режим долевой собственности. В сущности, функция правовой ответственности нарушителя порядка долевой собственности может считаться выполненной только в том случае, если от этого не пострадали законные интересы других владельцев долевой собственности.

Ключевые слова: право, долевая собственность, прекращение долевой собственности, правовое регулирование, противозаконное деяние.

Server SULEYMANLY

SOME LEGAL ISSUES IN THE CIVIC LAW SYSTEM OF AZERBAIJAN RELATED TO THE TERMINATION OF THE OWNERSHIP IN COMMON

Summary

In the article the author considers some legal issues in the system of civic law of Azerbaijan related with termination of the ownership in common.

It is concurrent ownership rights of two or more persons to the same property, with the definition of the share of each of the owners (Art. 213.2 of Civil Code of AR). There are different types of common property, but the main type of common property is shared ownership. This question is clearly reflected in paragraph 3 of Article 213 of the Civil Code in the law in this form "Common ownership of the property is shared, except cases when the law provides for the formation of joint ownership of the property."This right of ownership over the property, where multiple individuals have the right to property in proportion to their shares, makes it necessary to create a specific legal order between shared owners. In contrast to the personal property, the main reason of a special legal regulation of the common ownership is the necessity to limit the powers of the owners of common property. Legal logic makes necessary existence of a "legal responsibility" and obtaining a certain legal result against persons fundamentally violating the law regime of common ownership. As a matter of fact, function of the legal responsibility of violator of common ownership order may be considered fulfilled only if this didn’t hurt the legitimate interests of other holders of common ownership.

Keywords: law, ownership in common, termination of the ownership in common, legal regulation, unlawful act.

UOT 34

Nəzakət SƏLİMOVA
psixologiya ü.f.d.

ANLAQLILIĞI İSTİSNA ETMƏYƏN PSİXİ POZUNTUNUN HÜQUQİ-PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ*

Anlaqlılıq psixoloji vəziyyət olmaqla şəxsin təbiətdə və cəmiyyətdə baş verən hadisə və proseslərə bu və ya digər dərəcədə reaksiyasını əks etdirir və ayrı-ayrı fərdlərdə müxtəlif formalarda təzahür edir. Bu psixoloji vəziyyət bir sıra amillərlə, o cümlədən psixologiya elminin əsas tədqiqat obyektlərindən biri olan temperament növlərinin xüsusiyyətləri ilə də şərtlənir. Bu amillər şəxsin ətraf mühitə, orada baş verən hadisə və proseslərə adekvat reaksiyasının əsasını təşkil etməklə onun davranışına da əhəmiyyətli dərəcədə təsir göstərir. Bu nöqteyi-nəzərdən anlaqsızlıq, məhdud anlaqlılıq, habelə anlaqlılığı istisna etməyən psixi pozuntu hallarının şəxsin davranışı, o cümlədən hüquqazidd davranışına təsiri araşdırılmalı və onlara adekvat qiymət verilməlidir.

Qeyd etmək lazımdır ki, «anlaqsızlıq», «məhdud anlaqlılıq», habelə «anlaqlılığı istisna etməyən psixi pozuntu» anlayışları psixoloji və hüquqi ədəbiyyatda daim diqqət mərkəzində olmuş, onlardan hər biri müxtəlif aspektlərdən tədqiq olunmuşdur. Bu zaman qarşıya qoyulmuş məqsədlərdən asılı olaraq həmin problemin psixoloji və hüquqi mahiyyətinə müxtəlif yanaşmalar mövcud olmuşdur. Fikrimizcə, bu məsələyə psixologiya, pedaqogika, hüquq və sair elmlərin elmi-nəzəri müddəalarına istinad edilməklə kompleks yanaşılmalıdır.

Azərbaycan Respublikasının qüvvədə olan cinayət qanunvericiliyi belə bir prinsipial müddəa müəyyən edir ki, yalnız cinayət qanunu ilə nəzərdə tutulmuş cinayət tərkibinin bütün əlamətlərinin mövcud olduğu əməlin (hərəkət və ya hərəkətsizliyin) törədilməsi cinayət məsuliyyəti yaradır (mad.3). Bu o deməkdir ki, ictimai təhlükəli əməli törətmiş hər hansı şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi və ona müvafiq cəzanın təyin edilməsi üçün cinayət tərkibinin bütün elementləri, o cümlədən cinayətin subyekti mövcud olmalıdır. Cinayət qanununun digər bir norması isə (mad.19) müəyyən edir ki, cinayət törədənədək qanunla müəyyən olunmuş yaş həddinə çatmış anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir.

Beləliklə, cinayət məsuliyyətinin əsasını təşkil edən cinayət tərkibinin elementlərindən biri kimi cinayətin subyektinin müəyyən yaş həddi ilə yanaşı, onun psixi vəziyyətinin, yəni anlaqlı olub-olmamasının düzgün müəyyən edilməsi əməlin dəqiq tövsifi və bunun məntiqi nəticəsi kimi, insan və vətəndaş hüquq və azadlıqlarının hüquqi təminatının başlıca vasitələrindən biri kimi qiymətləndirilməlidir.

Bəzi hallarda şəxs müəyyən kənar təsirlərə məruz qalmaqla psixikasının pozulması nəticəsində ictimai təhlükəli əməli törədir ki, bu zaman onun psixoloji durumu törədilmiş əməlin bilavasitə səbəbi, detonatoru qismində çıxış edir. Məhz bu psixoloji amilləri nəzərə alaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 22.1-ci maddəsi müəyyən edir ki, anlaqlı vəziyyətdə olan, lakin cinayət törətdiyi zaman psixikanın pozulması nəticəsində öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etməyən və ya həmin əməli idarə edə bilməyən şəxs cinayət məsuliyyətinə cəlb edilir. Qanunun tələbinə əsasən anlaqsızlığı istisna etməyən belə psixi pozuntu cəza təyini zamanı nəzərə alınır və Cinayət Məcəlləsi ilə nəzərdə tutulmuş tibbi xarakterli məcburi tədbirlərin tətbiqi üçün əsas ola bilər (mad.93.2).

* Məqalə hüquq ü.e.d., professor Bəhram Zahidov tərəfindən çapa məsləhət görülüb.

Beləliklə, qeyd olunan cinayət-hüquq normalarının məzmunundan görünür ki, qanun anlaqsızlığın, o cümlədən məhdud anlaqlılığın tibbi (bioloji) və hüquqi (psixoloji) meyarlarını müəyyən edir.

Qeyd etmək lazımdır ki, məhdud anlaqlılığın tibbi meyarları bir çox əlamətlərinə görə anlaqsızlığın analoji meyarları ilə uyğunluq təşkil edir. Xroniki psixi xəstəlik, psixi fəaliyyətin müvəqqəti pozulması, kəmağıllılıq və sair psixi xəstəlik ictimai təhlükəli əməl törətmiş şəxsin anlaqsız, o cümlədən məhdud anlaqlı hesab olunması üçün əsas ola bilər. Məsələn, xroniki psixi xəstəliyə aid edilən şizofreniya heç də həmişə şəxsi öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini dərk etmək və ya onu idarə etmək imkanından tam məhrum etmir. Burada həmin imkanlar tam itirilmir, lakin psixi amillərin təsiri altında müəyyən dərəcədə məhdudlaşır.

Onu da nəzərə almaq lazımdır ki, hüquqi və tibbi-psixoloji ədəbiyyatda kifayət qədər tədqiq olunmuş anlaqsızlığın, o cümlədən məhdud anlaqlılığın tibbi (bioloji) əsaslarını təşkil edən şizofreniya, debillik mərhələsində olan kəmağıllılıq və s. psixi xəsitəliklərin müxtəlif formalarının mövcudluğu psixi pozuntunun xarakterindən və dərəcəsindən asılı olaraq cinayət törətmiş şəxslərin məhkəmə tərəfindən məhdud anlaqlı kimi tanınmasına imkan verir. Məhkəmə təcrübəsinin öyrənilməsi və təhlili də belə bir qənaətə gəlməyə tam əsas verir.

Müasir məhkəmə psixiatriyasında məhdud anlaqlılığı göstərən əlamətlər də daxil olmaqla psixi patalogiyanın müxtəlif formalarında anlaqsızlığın meyar və əlamətləri müəyyən edilmişdir. Lakin dəqiq kliniki meyarların olmadığı hallarda məhdud anlaqlılığın müəyyən edilməsi üçün psixi anomaliyaları özündə əks etdirən tibbi meyarları deyil, psixi xəstəliyin ağırlıq dərəcəsini nəzərə almaq lazımdır. Bu zaman anlaqsızlıqda olduğu kimi məhdud anlaqlılığın da təqsirlə deyil, əmələ görə cinayət məsuliyyəti ilə bağlılığına xüsusi diqqət yetirilməlidir. Cinayət qanununun tətbiqi təcrübəsinin təhlili göstərir ki, məhdud anlaqlı hesab olunan şəxs ümumi əsaslarla cinayət məsuliyyətinə cəlb olunur, onun törətdiyi əmənin faktiki tərəfini və ictimai təhlükəliliyini dərk etmə dərəcəsi isə məhkəmə tərəfindən cəza təyini zamanı nəzərə alınır.

Məhdud anlaqlılığın tibbi meyarının anlaqsızlığın tibbi meyarından başlıca fərqləndirici əlaməti ondan ibarətdir ki, birinci halda şəxsdə yaranan psixi pozuntu onu hərəkətlərinin faktiki xarakterini dərk etmək və onlara rəhbərlik etmək imkanlarından məhrum etmir. Anlaqsızlığın yarandığı hallarda isə bu pozuntu şəxsin öz hərəkətlərinin faktiki xarakterini dərk etmək və ona rəhbərlik etmək imkanlarını tamamilə aradan qaldırır.

Anlaqlılığı istisna etməyən psixi pozuntusu olan şəxslərin cinayət məsuliyyətini nəzərdə tutan cinayət-hüquq normasının tətbiqi təcrübəsinin öyrənilməsi və təhlili göstərir ki, «anlaqsızlığı istisna etməyən psixi pozuntu nəticəsində öz hərəkətlərinin faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etmək imkanının olmaması üzündən ekspertiza tədqiqatına cəlb edilən cinayət törətmiş şəxslərin 67,5 %-i baş beyin zədələnməsi, 15,7%-i psixopatiya, 7,5 %-i əqli zəiflik, 4,9%-i şizofreniya nəticəsində məhdud anlaqlı hesab edilmişlər. Digər xroniki psixi pozuntuların sayı isə çox cüzi faiz təşkil etmişdir. Onu da qeyd etmək lazımdır ki, psixikanın anomaliyası müxtəlif psixi pozuntular üçün xarakterikdir və çox böyük zahiri müxtəlifliyə malikdir. Psixi anomaliyanın bu müxtəlifliyi onların anomal vəziyyət və anomal proseslər adlanan iki qrupa bölünməsinə imkan verir. Anomal vəziyyət psixofizioloji reaksiyanın nisbi daimiliyi ilə müəyyən olunduğu halda, ondan fərqli olaraq anomal proseslər müvəqqəti xarakter daşımaqla daimi deyil və müəyyən bioloji proseslərdən asılıdır» (9, s.9).

Məhdud anlaqlılığın tibbi meyarına bilavasitə aid edilə bilən anomal tipli psixi vəziyyətə xolerik və melanxolik temperament növlərini daxil etmək lazımdır. Psixoloji ədəbiyyatda xolerik temperament növü qeyd olunan əlamətləri ilə xarakterizə olunur. Bu temperament – müvazinətsiz, tez-tez əhvalı dəyişən, emosiyalarında coşqun, işə ehtirasla başlayan, daim hərəkətdə olan güclü temperament tipidir. Xolerik üçün reaktivlik, yüksək aktivlik, reaksiyaların sürətli olması səciyyəvidir. Lakin onların reaktivliyi aktivliklərindən üstün olmaqla kəmhövsələ, səbirsiz, tündməcazdır, habelə çətinlikdən qorxmur, məhz öz gücünə onu aradan qaldırmağa çalışır (2, s.87).

Melanxolik isə əksinə, zəif temperament tipidir. Onun hərəkətləri ləngdir, psixi fəallığı aşağıdır, asanlıqla təsirlənir, qeyri-senzitivdir, yeni şəraitə çətinliklə uyğunlaşır, hisslərini zəif ifadə edir. Bu tip adamlarda özünüqiymətləndirmə aşağı olur və onlar üçün zəif reaktivlik xasdır (2, s.87). Məhdud anlaqlılığın tibbi meyarı olan və yuxarıda qeyd olunan psixi xəstəliklər, hər şeydən əvvəl, əqli və emosional iradəvi sahədə pozuntular yaradır ki, bunlar da konkret vəziyyətdən asılı olaraq şəxsdə öz hərəkətlərini dərk etmək imkanlarını məhdudlaşdırır və ya onu aradan qaldırır.

Qeyd etmək lazımdır ki, bir sıra xəstəliklər mövcuddur ki, həmin xəstəliklərə tutulmuş şəxslərin əqli, təfəkkür qabiliyyətində tam olmasa da, bu və ya digər dərəcədə müəyyən pozuntular yaranır və bunların müşahidə olunması o qədər də çətin olmur. Məsələn, oliqofreniya, demenitsiya, şizofreniya, psixopatiya, habelə alkoqolizm və psixi xəstəliklərini digər formalarında şəxs ətraf aləmin predmetlərini, hadisə və proseslərini, obyektiv həqiqəti, onların təzahürlərini dərk etsə də, bütün bunlar məhdud xarakter daşıyır. Məhz qeyd olunan halların təsiri altında şəxsdə özünütənqid, özünənəzarət ya tamamilə itir, ya da o dərəcədə məhdudlaşır ki, şəxsdə yaranan bu cür hallar ona konkret şərait adekvat qərarlar qəbul etməyə imkan vermir, öz hərəkət və davranışlarını sosial və hüquq normalarına, əxlaqi tələblərə uğunlaşdıra bilmir.

Belə bir hala da xüsusi diqqət yetirilməlidir ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 22-ci maddəsində istifadə edilən «anlaqlılığı istisna etməyən psixi pozuntu» anlayışı da məhz 21-ci maddədə nəzərdə tutulan «anlaqsızlıq» anlayışında olduğu kimi tibbi məzmuna malikdir və ona istinad edərək təhqiqat, istintaq və məhkəmə orqanları məhkəmə-psixiatriya ekspertizasının rəyinə əsaslanaraq cinayət törətmiş şəxsin məsuliyyət məsələsi həll olunur. Qanunun məntiqi təfsiri də bu nəticəyə gəlməyə imkan verir. Onu da qeyd etmək lazımdır ki, anlaqlılığı istisna etməyən psixi pozuntunun (məhdud anlaqlılığın) əsasında anlaqsızlıqdan fərqli olaraq xəstəlik, yəni patoloji xarakterli proseslər deyil, digər proseslər (məsələn, zərərçəkmiş tərəfindən edilən zorakılıq, ağır təhqir və ya sair qanunsuz və əxlaqsız hərəkətlər, zərərçəkmiş şəxsin mütəmadi qanunsuz və ya əxlaqsız davranışı ilə əlaqədar yaranmış uzun sürən dözülməz psixi şərait və s.) dayanır.

Məhdud anlaqlılığın hüquqi meyarına gəldikdə isə, burada da anlaqsızlıqda olduğu kimi, əqli və iradi momentlər (anlar) fərqləndirilməlidir. Məhdud anlaqlılığın əqli momenti belə bir psixoloji vəziyyəti nəzərdə tutur ki, cinayət törədən zaman şəxs öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk etmək imkanına malik olmur. Bu o deməkdir ki, şəxs törətdiyi əməllə onun nəticəsi arasındakı səbəbli əlaqəni, habelə öz əməlinin sosial mahiyyətini, onun cəmiyyət üçün təhlükəliliyini məhdud formada olsa da, dərk edir. İradi momentə gəldikdə isə, burada şəxs cinayət törədən zaman öz hərəkətlərini tam şəkildə idarə etmək qabiliyyətinə malik olmur.Məhdud anlaqlılığın hüquqi meyarının müəyyən edilməsi üçün yuxarıda qeyd olunan əlamətlərdən birinin mövcud olması kifayətdir. Lakin bəzi hallarda tam dərketmə qabiliyyətinin olmaması eyni zamanda iradi nəzarətin azalması ilə də bağlı ola bilər. Məsələn, ateroskleroz, psixopatiya və digər psixi pozuntular zamanı yaranan patoloji emosional vəziyyətlərdə şəxs cinayət törədərkən öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini tam dərk edir, lakin cinayəti törətməkdən özünü saxlaya bilmir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 21 və 22-ci maddələrinin məzmununun müqayisəli təhlili belə bir nəticəyə gəlməyə əsas verir ki, anlaqlılığı istisna etməyən psixi pozuntu, yəni məhdud anlaqlılıq vəziyyəti heç də «anlaqlılıq» və «anlaqsızlıq» anlayışları arasında mövcud olan aralıq vəsilə kimi başa düşülməməlidir. Burada söhbət ondan gedir ki, cinayətin törədilməsi zamanı şəxs anlaqlı olur, lakin yuxarıda göstərilən halların təsiri altında o, öz əməlinin faktiki xarakterini və ictimai təhlükəliliyini axıradək dərk etmir və yenə də həmin amillərin təsiri altında baş verən psixi pozuntu nəticəsində öz hərəkətlərini tam idarə edə bilmir. Beləliklə, anlaqlılığı istisna etməyən psixi pozuntu zamanı cinayət törətmiş şəxsin əmelləri heç də bilavasitə anlaqsızlığın tibbi və hüquqi meyarları ilə bağlı deyildir. Bu isə o deməkdir ki, cinayət törətmiş

şəxsin məhdud anlaqlı hesab edilməsi üçün onun həmin əməli törədənədək anlaqlı olub-olmaması məhkəmə-tibbi ekspertizası tərəfindən müəyyən edilməlidir.

Qüvvədə olan cinayət-prosessual qanunvericiliyinin tələbinə əsasən anlaqlı şəxsdə psixi anomaliya aşkar edildikdə müstəntiq işin bütün hallarının tam, hərtərəfli və obyektiv araşdırılmasını təmin etmək məqsədi ilə aşağıdakıları mütləq aydınlaşdırmalıdır:

1. Psixi anomaliyanın təzahür xarakterini.

2. Aşkar olunan psixi anomaliyanın şəxsin cinayət törədərkən öz əməlinin faktiki tərəfini tam dərk etmək qabiliyyətinə təsirini.

3. Həmin anda şəxsin öz hərəkətinə rəhbərlik etmək qabiliyyətinin olub-olmamasını.

Göstərilənlərə əsasən, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 22-ci maddəsində nəzərdə tutulmuş «məhdud anlaqlılığ»ın aşağıdakı əlamətlərini müəyyən etmək olar:

1. Məhdud anlaqlılıq psixi anomaliyaya malik olan şəxslərin törətdikləri ictimai təhlükəli əmələ əqli və iradi münasibətini xarakterizə edən cinayət-hüquqi kateqoriyadır.

2. Cinayət-hüquqi kateqoriya kimi məhdud anlaqlılıq anlaqlılıqla anlaqsızlıq arasında aralıq vəsilə deyil, anlaqlılığın tərkib hissəsi kimi qiymətləndirilməlidir.

3. Anlaqlılığın tərkib hissəsi kimi məhdud anlaqlılıq belə psixi vəziyyətdə olan şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsinin şərti və əsası qismində çıxış edir.

4. Məhdud anlaqlılıq istisnasız olaraq təqsirləndirilən şəxsin cəzasını yüngülləşdiriən hal kitmi qiymətləndirilə bilməz. Lakin bu hal şəxsə məhkəmə tərəfindən cəza təyin edilərkən nəzərə alına bilər. O eyni zamanda cəzanı ağırlaşdıran hal kimi də qiymətləndirilə bilməz, çünki CM-nin 61.2-ci maddəsinə əsasən cəza təyin edilərkən bu Məcəllənin 61.1.1-61.1.13-cü maddələrində göstərilməməiş hallar cəzanı ağırlaşdıran hal qismində nəzərə alınmır. Həmçinin, cinayət qanununun müvafiq maddəsində cinayət tərkibinin əlaməti kimi nəzərdə tutulmuş cəzanı ağırlaşdıran hal da, cəza təyin edilərkən təkrar nəzərə alına bilməz.

5. Məhdud anlaqlılıq yalnız ictimai təhlükəli əmələin törədildiyi anda müəyyən əhəmiyyət kəsb edir və cəzanın çəkilib qurtarmasından sonra heç bir cinayət-hüquqi və digər nəticələrə gətirib çıxarmır.

Beləliklə, anlaqsızlığı istisna etməyən psixi pozuntunun hüquqi-psixoloji xüsusiyyətlərinin düzgün müəyyən edilməsi və qiymətləndirilməsi çox böyük elmi-nəzəri və praktiki əhəmiyyətə malik olmaqla əmələin tövsifi və cəza təyini zamanı mütləq nəzərə alınmalıdır.

Açar sözlər: anlaqlılığı istisna etməyən psixi pozuntu, anlaqsızlıq, tibbi meyar, hüquqi meyar, psixoloji durum, temperament növləri, psixi patologiya.

İstifadə olunmuş ədəbiyyat

1. Əlizadə Ə., Bayramov Ə. Psixologiya. Bakı, 2004.
2. Əliyev R. Psixologiya. Bakı, 2003.
3. Səməndərov F.Y. Cinayətin subyektiv cəhəti. Bakı, 1984.
4. Səməndərov F.Y. Cinayət hüququ. Dərslik. Bakı, 2007.
5. Агафонов А.В. Психология и педагогика. М.: МГТУ ГА, 2004.
6. Голованова О.А. Личность современного преступника как обьект исследования в криминалистической науке. Закон и право, № 3, 2010.
7. Глуханюк Н.С., Семенова С.П., Печеркина А.А. Общая психология, М., 2005.
8. Еникеев М.И. Юридическая психология. Учебник для вузов. М., 2001.
9. Иванов И.Г., Брыка И. Ограниченная вменяемость. Рос. юстиция, № 10, 1998.
10. Немов Р.С. Психология. Учебное пособие. М., 2002.
11. Павлов В.Г. Субъект преступления. СПб, 2001.

12. Чуфаровский Ю.В. Юридическая психология. М.,1998.

Назакет САЛИМОВА

ЮРИДИЧЕСКИЕ И ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ ПСИХИЧЕСКИХ НАРУШЕНИЙ, НЕ ИСКЛЮЧАЮЩИЕ НЕВМЕНЯЕМОСТЬ И ИХ ВЛИЯНИЕ НА НАЗНАЧЕНИЕ НАКАЗАНИЯ

Резюме

В статье рассматриваются понятие и признаки психических нарушений, не исключающих вменяемость, их юридические и медицинские критерии, а также влияние на психику и поведение лица, совершившего преступление. Отмечается, что верное определение психического состояния (т.е. степень вменяемости) наряду с возрастом субъекта преступления имеет важное значение для правильной квалификации пресс-тупного деяния и является одним из основных средств юридического обеспечения прав и свобод человека и гражданина.

Следует обратить внимание на то, что медицинские критерии невменяемости и психических нарушений, не исключающие вменяемость, не идентичны. Различия состоят в том, что в первом случае вменяемости психическое нарушение лица не лишает его возможности осознать свои действия и руководить ими, а при невменяемости эти возможности полностью исключаются.

Ключевые слова: невменяемость, психические нарушения, не исключающие вменяемость, медицинский критерий, правовой критерий, психологическое состояние, виды темперамента, психическая патология.

Nazakat SALIMOVA

LEGAL AND MEDICAL PECULIARITIES OF MENTAL DISORDERS NOT EXCLUDING SANITY AND THEIR IMPACT ON IMPOSITION OF PUNISHMENT

Summary

The given article examines the notion and nature of mental disorders not excluding sanity, its medical and legal peculiarities, its possible impact on mentality and behavior of the criminal. Hereby it is noted that the right determination of mental state and age of the subject of crime, (his sanity level) is very essential for the precise legal treatment of the crime. In its turn, it is regarded one of the crucial remedies in ensuring human and citizen rights and freedoms.

It should be paid attention to that medical features of mental disorder which does not exclude sanity and insanity are not identical. The differences consist in that in the first case the mental disorder does not deprive the person of the opportunity of comprehending and ruling his action, but in the case of insanity these opportunities are completely excluded.

Keywords: mental disorder not excluding sanity, insanity, medical criterion, legal criterion, psychological state, kinds of temperament, psychological pathology.

UOT 341

Mübariz YOLÇİYEV
b.e.i., hüquq ü.e.d., dosent, AMEA FHİ,
Melikşah Universiteti Ticarət Hüququ kafedrasının müdiri

"NİŞANLARIN BEYNƏLXALQ QEYDİYYATI HAQQINDA" MADRİD SAZİŞİNƏ ƏLAVƏ EDİLMİŞ MADRİD PROTOKOLUNA ƏSASƏN ƏMTƏƏ NİŞANLARININ BEYNƏLXALQ QEYDİYYATI PROSESİNİN HÜQUQİ TƏHLİLİ*

Giriş

Əqli və sənaye mülkiyyəti obyektlərindən biri olan "əmtəə nişanı" anlayışının tərifi "Əmtəə nişanları və coğrafi göstəricilər" haqqında Azərbaycan Respublikası Qanunda verilmişdir. Bu tərifə görə, əmtəə nişanı, bir sahibkarın istehsal etdiyi əmtəələri və (və ya) göstərdiyi xidmətləri, başqa bir sahibkarın istehsal etdiyi əmtəə və (və ya) göstərdiyi xidmətlərdən ayıran (fərqləndirən) və qrafiklə təsvir edilə bilən nişan və ya bu nişanların hər hansı uzlaşmasından ibarət kombinasiyadır. Qeyd etmək lazımdır ki, əmtəə nişanı məhsulun (və ya xidmətin) hansı sahibkar tərəfindən istehsal edildiyini göstərdiyi üçün sahibkarlar öz əmtəə nişanları ilə keyfiyyətli məhsul istehsal etməyə çalışırlar. Bu durum isə, əmtəə nişanının məhsulun keyfiyyətinə qarantiya verməsi ilə nəticələnir, həmin nəticə isə ilk baxışda heç bir maddi dəyəri olmayan nişanlar bəzən milyonlarla manat dəyərində ola bilməkdədir. Məsələn "Mercedes" əmtəə nişanını satın almaq üçün hal-hazırda sahibkarlar böyük bir sərvətdən belə vaz keçə bilərlər. Lakin "Mercedes" əmtəə nişanı meydana gətirilmədən əvvəl həmin nişanın heç bir maddi dəyəri olmadığı bir həqiqətdir.

Qeyd etmək lazımdır ki, əmtəə nişanlarının belə böyük maddi dəyərlərə sahib ola bilməsi səbəbi ilə onların qeydiyyata alındığı ölkədə və hətta bütün dünyada hüquqi mühafizəsinin təmin olunması əsasən sahibkarların arzuladığı bir məsələdir. Məlum olduğu kimi, hər hansı bir əmtəə nişanı hansı ölkədə qeydiyyata alınmışsa həmin ölkədə hüquqi mühafizə olunur. Bu durum əmtəə nişanlarının, daha geniş bir ifadə ilə sənaye mülkiyyəti obyektlərinin "ölkəvilik" prinsipi ilə izah olunur. Məhz bu prinsip səbəbi ilə əmtəə nişanların digər ölkələrdə də mühafizə oluna bilməsi üçün həmin ölkələrdə də bir-bir qeydiyyata alınmalıdır. Bu isə, böyük xərclər önəmli vaxt və əmək də tələb etməkdir. Buna görə də daha rasional və az xərc tələb edən yollardan istifadə olunması əhəmiyyət kəsb edir. Həmin yollardan ən faydalısı olaraq bütün dünyada qəbul edilən isə, əmtəə nişanlarının "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə əlavə edilmiş Protokola əsasən beynəlxalq qeydiyyatının həyata keçirilməsi yoldur.

Bu məqalədə əmtəə nişanlarının "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə əlavə edilmiş Protokola əsasən beynəlxalq qeydiyyatı prosesi hüquqi baxımdan təhlil edilmişdir.

1. Əmtəə nişanlarının beynəlxalq qeydiyyatı yolları

Əmtəə nişanlarının beynəlxalq qeydiyyatının məqsədi məlum olduğu kimi, əmtəə nişanlarının az bir xərclə müxtəlif ölkələrdə qeydiyyatının və hüquqi mühafizəsini təmin

* Məqalə hüquq ü.f.d. Zaur Məmmədov tərəfindən çapa məsləhət görülüb.

etməkdir. Bu qeydiyyatın iki əsas yolu mövcuddur. Bunlardan birincisi Avropa İttifaqı hüquqi əsasında qeydiyyat yolu və Madrid Sistemi əsasında qeydiyyat yoludur.

Avropa İttifaqı hüquqi əsasında qeydiyyat yoluna görə, əmtəə nişanının sahibi tək bir müraciət və qeydiyyat şəhadətnaməsi ilə Avropa İttifaqı ölkələrinin hamısında Avropa İttifaqı Hüquqi əsasında hüquqi mühafizə əldə edə bilər. Bu yolla qeydiyyata alınmış əmtəə nişanlarına Avropa İttifaqı Əmtəə Nişanları adı verilir.

Əmtəə nişanlarının beynəlxalq qeydiyyatına ikinci yol isə, əmtəə nişanlarının Madrid Sistemi əsasında qeydiyyata alınmasıdır. Madrid sisteminin məqsədi əmtəə nişanlarının tək bir müraciət ilə tək bir dildən istifadə edilərək iki və ya daha çox ölkədə beynəlxalq qeydiyyatını təmin etmək və əmtəə nişanı qeydiyyata alındıqdan sonra ediləcək dəyişikliklərin də tək bir müraciət və sadə bir əməliyyat ilə Əmtəə Nişanlarının Beynəlxalq Reyestrində qeydiyyata alınmasını təmin etməkdir.

Qeyd etmək lazımdır ki, Madrid Sistemi "Nişanların beynəlxalq qeydiyyatı haqqında" 1891-ci il tarixində Madrid şəhərində imzalanmış Madrid Sazişi və bu Sazişə dair 27 iyin 1989-cu il tarixində yenə Madrid şəhərində imzalanmış Madrid Protokolu bir birinə bənzəyən, lakin bununla birlikdə fərqli tərəfləri də olan iki müxtəlif qeydiyyat yolu daxildir. Bunlardan biri Madrid Sazişi yolu, digəri isə Madrid Protokolu yoludur.

Madrid Sazişi yolunu meydana gətirmiş "Nişanlarının beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişi 14.04.1891-ci ildə qəbul olunmuş, 14.12.1900-cı ildə Brüsseldə, 2.06.1911-ci ildə Vaşinqtonda, 6.11.1925-ci ildə Haaqada, 2.06.1934-cü ildə Londonda, 15.06.1957-ci ildə Nitsada, 14.06.1967-ci ildə və 28.09.1979 Stokholmda yenidən baxılıb və dəyişikliklər edilmişdir. Ölkəmiz Madrid Sazişinin 28.09.1979-cu il tarixli mətninə 25.12.1995-ci ildə qoşulmuş, lakin 2 oktyabr 2006-cı ildə həmin Sazişdən çıxmışdır.

Belə ki, ölkəmiz, 2 oktyabr 2006-cı il tarixli 142-IIIQ Qanun ilə "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə dair 1989-cu il iyunun 27-də Madrid şəhərində qəbul edilmiş Madrid Protokoluna qoşulmuşdur.

2. Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyat prosesi

Madrid Protokoluna əsasən əmtəə nişanın beynəlxalq qeydiyyatı üçün **müraciət hüququ** həmin Protokolun "Beynəlxalq qeydiyyat yolu ilə mühafizənin təmin olunması" başlığını daşıyan 2-ci maddəsinin 1-ci hissəsinin (i) bəndində tənzimlənmişdir. Həmin normaya görə, Madrid Protokoluna əsasən əmtəə nişanın beynəlxalq qeydiyyata alına bilməsi üçün tələb edən şəxs, Madrid Protokolunun iştirakçısı olan dövlətin (Razılığa gələn dövlətin) vətəndaşı olmalı, yaxud həmin ölkənin ərazisində yaşamalı, yaxud da həmin dövlətdə həqiqətən və saxta olmayan sənaye və ya ticarət müəssisəsinə malik olan fiziki və ya hüquqi şəxs olmalıdır. Qisası, Madrid Protokolu iştirakçısı olan dövlətin vətəndaşı, yaxud həmin ölkədə yaşayış yeri olan, yaxud ölkədə həqiqi sənaye və ya ticarət müəssisəsi sahibi olan fiziki və ya hüquqi şəxs sahibi olduğu əmtəə nişanın Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyata alınmasını tələb etmək hüququna sahib olur.

Müraciət hüququ sahibi əmtəə nişanının beynəlxalq qeydiyyata alınması üçün iddia sənədini **mənşə idarə vasitəsilə beynəlxalq büroya** verməlidir. Məhz Madrid Protokolun 2-ci maddəsinin 1-ci hissəsinə görə, əmtəə nişanın beynəlxalq qeydiyyat üçün iddia sənədi (bundan sonra "beynəlxalq iddia sənədi"), həmin əmtəə nişanın qeydiyyata alınmış dövlətin qeydiyyat İdarəsi (bundan sonra "mənşə İdarəsi") vasitəsilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Beynəlxalq Bürosuna (bundan sonra "Beynəlxalq büroya") verilir. Məsələn ölkəmizdə qeydiyyata alınmış "Sirab" əmtəə nişanının Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyata alınması üçün "Sirab" əmtəə nişanın sahibi beynəlxalq iddia sənədini Standartlaşdırma

Metrologiya Patent Dövlət Komitəsi (bundan sonra "SMPDK") vasitəsi ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatına (bundan sonra "ÜƏMT") verməlidir. Müraciətin dövlət rüsumuna tabe olduğu unudulmamalıdır.

Beynəlxalq iddia sənədinin forması və məzmunu isə Protokolun 3-cü maddəsində tənzimlənmişdir. Buna görə, Protokola uyğun verilən istənilən beynəlxalq iddia sənədi Təlimatda göstərilən blankda təqdim olunmalıdır. Qeyd etmək lazımdır ki, həmin beynəlxalq iddia ərizəsinin İngilis, Fransız və ya İspanca hazırlanması Təlimatın tələbidir.

Mənşə İdarəsi beynəlxalq iddia sənədində verilən məlumatların, təqdim olunan anda baza iddia sənədində (özündə olan iddia sənədində) və ya baza qeydiyyatında (özündə olan qeydiyyatda) göstərilən məlumatlara uyğun gəldiyini yoxlayıb təsdiq edir. Bununla yanaşı, mənşə İdarəsi (a) baza iddia sənədi halındadırsa, bu iddia sənədinin nömrəsini və tarixini; və (b) baza qeydiyyatı halındadırsa, bu iddia sənədinin qeydiyyat nömrəsini və tarixini, o cümlədən baza qeydiyyatının aparıldığı iddia sənədinin nömrəsini və tarixini də göstərməlidir. Mənşə İdarəsi ayrıca beynəlxalq iddia sənədinin mənşə idarəsinə verildiyi tarix də göstərməlidir. Həmin tarix müraciət tarixi olaraq qəbul olunur.

İddiaçı isə, həmin beynəlxalq müraciətdə mühafizəsi xahiş edilən nişanın aid edildiyi əmtəə və xidmətləri göstərməlidir. O, həmçinin mümkün olduğu təqdirdə, nişanların qeydiyyatı üçün əmtəə və xidmətlərin Beynəlxalq təsnifatı haqqında Nitsa Sazişi ilə təsis olunan təsnifata uyğun sinif və ya sinifləri də göstərməlidir. Əgər iddiaçı sinifləri göstərmirsə, onda Beynəlxalq büro özü, göstərilən təsnifatın müvafiq sinifləri üzrə əmtəə və xidmətləri sinifləşdirir. İddiaçı tərəfindən əmtəə və ya xidmətlərə görə müəyyən edilən siniflər, mənşə İdarəsinin razılığı əsasında Beynəlxalq büro tərəfindən yoxlanılır. Mənşə İdarəsi ilə Beynəlxalq büro arasında fikir ayrılığı olduğu halda, axırıncının mövqeyi həlledici hesab edilir.

Əgər iddiaçı öz nişanının fərqləndirici elementi kimi rəngin mühafizə olunmasını xahiş edirsə, onda aşağıdakıları yerinə yetirməlidir:

(a) bu barədə bildiriş verməklə və xahiş olunan rəng və ya rənglərin kombinasiyasını göstərməklə özünün beynəlxalq iddia sənədini göndərir;

(b) Beynəlxalq büroya bildirişlə birgə göndəriləcək həmin nişanın rəngli təsvirini özünün beynəlxalq iddia sənədinə əlavə edir; bu cür təsvirlərin nüsxələrinin sayı Təlimatla müəyyən edilir.

Mənşə idarəsi özünə verilmiş beynəlxalq iddia sənədində hər hansı bir çatışmazlıq təsbit edərsə, həmin çatışmazlıqların ortadan qaldırılması üçün iddia sahibindən tələb edər.

Mənşə idarəsi özünə verilmiş olan beynəlxalq iddia sənədinin çatışmazlıqları olmadığına əmin olduqdan sonra 2 ay ərzində həmin sənədi B**eynəlxalq büroya göndərməlidir**. Beynəlxalq büro isə, iddia sənədində mühafizə tələb olunan əmtəə və xidmətlərin Beynəlxalq təsnifatının açıq bir formada göstərilib göstərilmədiyi, təsnifatın düzgün olub olmadığını, xidmət haqqının ödənilib ödənilmədiyini, Madrid Protokoluna əməl edilib edilmədiyini yoxlayır. Hər hansı bir ziddiyyət və ya çatışmazlıq təsbit edərsə mənşə İdarəyə və iddia sahibinə məlumat verir və verilən müddət ərzində həmin çatışmazlığın aradan qaldırılmasını tələb edir.

Madrid Protokolunun 3-cü maddəsinin 4-cü hissəsinə görə, Beynəlxalq büro Protokolun 1-ci maddəsinə uyğun olaraq, verilən iddia sənədi əsasında nişanı təxirə salmadan qeydiyyata alır. Qeydiyyatın tarixi, mənşə İdarəsinə beynəlxalq qeydiyyat üçün İddia sənədinin verildiyi tarixdən hesab edilir, bu şərtlə ki, Beynəlxalq büro göstərilən tarixdən hesablamaqla həmin iddia sənədini 2 ay ərzində alsın. Əgər Beynəlxalq büro beynəlxalq iddia sənədini bu müddət ərzində almırsa, onda Beynəlxalq büro onun qeydiyyatını, aldığı tarixdən aparır.

Buradan məlum olduğu kimi, Beynəlxalq büro çatışmazlıqları olmayan və ya çatışmazlıqları vaxtında aradan qaldırılan beynəlxalq iddia sənədini gecikmədən **"Beynəlxalq reyestrdə" qeydiyyata alır**. Bu qeydiyyatdan sonra isə, Beynəlxalq büro Beynəlxalq reyestrdə

qeydiyyata alınan nişanları, beynəlxalq iddia sənədində göstərilən məlumatlar əsasında Beynəlxalq büronun nəşri olan dövri bülletenlərdə (ÜƏMT-nın rəsmi qəzetində) **dərc olunur**. Bundan sonra isə, Beynəlxalq büro, təxirə salmadan beynəlxalq qeydiyyat barədə **maraqlı İdarəni** (iddia sahibin mühafizəni tələb etdiyi ölkənin əmtəə nişanlarını qeydiyyata alan idarəsini) **məlumatlandırır**.

Məsələn "Sirab" əmtəə nişanını Türkiyədə, Fransada, ABŞ-da, Rusiyada, Kanadada mühafizə olunmasını istəyən əmtəə nişanı sahibi bu nişan Beynəlxalqa reyestrdə qeydiyyata alındıqdan sonra Beynəlxalq büro bu barədə həmin ölkələrin əmtəə nişanlarının qeydiyyata alan İdarəsini məlumatlandırır. Bununla da "Sirab" əmtəə nişanının Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyat prosesi tamamlanır.

3. Beynəlxalq qeydiyyatın razılığa gələn bəzi ölkələr tərəfindən rəd edilməsi və etibarsız sayılması

Madrid Protokolunun 5/1-ci maddəsinə görə, Beynəlxalq qeydiyyat nəticəsində yaranan mühafizənin, 3-tekrar (1) və ya (2) maddələrinə uyğun razılığa gələn Tərəfdə genişlənməsinə dair Beynəlxalq büronun bildirişini alan Razılığa gələn həmin Tərəfin İdarəsi, əgər qanunvericiliyin tətbiqi yol verərsə, Razılığa gələn göstərilən Tərəfdə bu cür genişlənmənin predmeti olan nişana mühafizə verməyin mümkün olmasından imtina edilməsi barədə bildirişlə bəyanat vermək hüququna malikdir. Bu cür imtina, yalnız sənaye mülkiyyətinin mühafizəsi üzrə Paris Konvensiyasında göstərilən dəlillərə əsaslana bilər və bilavasitə imtina barədə bildiriş verən İdarəyə təqdim edilən iddia sənədinin aid olduğu nişana tətbiq edilir. Lakin nişanların mühafizə olunmasından, yalnız o əsaslara - nişanların məhdud sayda siniflərə və ya məhdud sayda əmtəə və ya xidmətlərə görə qeydiyyata alınmasına hətta milli qanunvericiliyin imkan verdiyi əsaslara görə belə, qismən də olsa imtina edilə bilməz.

Bu hüquqdan istifadə etmək istəyən istənilən İdarə, Protokolun 5/2-ci maddəsinin (b) və (c) yarımbəndlərini nəzərə almaqla, həmin İdarə üçün tətbiqi nəzərdə tutulan qanunvericiliyə uyğun olaraq, Beynəlxalq büro tərəfindən həmin İdarəyə göndərilən və bu maddənin (1) bəndində nəzərdə tutulduğu kimi, mühafizənin genişləndirilməsi barədə bildirişin verildiyi tarixdən hesablamaqla, bir il müddət keçməsindən gec olmayaraq, bütün müddət ərzində, imtina ilə əlaqədar dəlillərin hamısını göstərməklə, Beynəlxalq büroya bildiriş verməlidir (Protokolun 5/2-ci maddəsinin (a) yarımbəndi).

Protokolun 5/2-ci maddəsinin (a) yarımbəndinə baxmayaraq, Razılığa gələn istənilən Tərəf bildiriş verə bilər ki, bu Protokolun qüvvəsi daxilində həyata keçirilən beynəlxalq qeydiyyatın müddəti (a) yarımbəndində göstərilən bir ildən 18 aya dəyişdirilsin (Protokolun 5/2-ci maddəsinin (b) yarımbəndi).

Protokolun 5/2-ci maddəsinin (c) yarımbəndinə görə, bu cür bildirişdə həmçinin göstərilə bilər ki, mühafizədən imtina, mühafizənin verilməsinə qarşı etirazla müşayiət olunarsa, onda Razılığa gələn Tərəfin göstərdiyi İdarə 18 ay müddət bitəndən sonra bu cür imtina barədə Beynəlxalq büroya bildiriş verə bilər. Bu İdarə, konkret beynəlxalq qeydiyyata aid mühafizənin verilməsindən imtina edilməsi barədə 18 ay müddət bitənə kimi o halda bildiriş verə bilər ki, əgər:

(1) o, 18 ay müddət bitənə kimi Beynəlxalq büronu xəbərdar edirsə ki, 18 ay müddət bitdikdən sonra etiraz daxil ola bilər və

(2) etiraz əsasında yaranan imtina barədə bildiriş, etirazın verilmə tarixindən hesablanmaqla, maksimal müddət olan yeddi ay ərzində həyata keçirilmişdir; əgər etirazın verilmə müddəti yeddi aydan əvvəl bitərsə, onda bildiriş, etiraz üçün bu tarixin bitdiyi tarixdən hesablanmaqla bir ay ərzində verilməlidir.

Protokolun 5/2-ci maddəsinin (d) yarımbəndinə görə, (b) və (j) yarımbəndlərinə müvafiq olaraq istənilən bəyannamə, 14 (2) maddəsində nəzərdə tutulan aktlara uyğun verilə bilər və bu zaman bəyannamənin qüvvəyə mindiyi tarix bəyannamə verən dövlətlərə və ya hökumətlərarası təşkilatlara görə Protokolun qüvvəyə mindiyi tarixlə eyni olur. Bu cür bəyannamə həmçinin gec də verilə bilər; bu halda o, Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktoru (bundan sonra - Baş direktor) bəyannaməni aldığı tarixdən üç ay sonra və ya beynəlxalq qeydiyyata aid bəyannamədə göstərilən hər hansı daha gec tarixdən, bəyannamənin qüvvəyə mindiyi tarixlə eyni olan tarixdən və ya daha gec tarixdən qüvvəyə minir.

Protokolun 5/2-ci maddəsinin (e) yarımbəndinə görə, bu Protokolun qüvvəyə mindiyi tarixdən on il ötdükdən sonra, Assambleya (a) - (d) yarımbəndləri ilə müəyyən edilən sistemin fəaliyyətini yoxlayır. Göstərilən yarımbəndin müddəaları sonradan, Assambleyanın yekdilliklə qəbul olunan qərarı əsasında dəyişdirilə bilər.

Protokolun 5/3-ci maddəsinə görə, Beynəlxalq büro təxirə salmadan imtina barədə bildirişin bir nüsxəsini beynəlxalq qeydiyyatın sahibinə göndərir. Göstərilən beynəlxalq qeydiyyatın sahibi, əgər nişan onun tərəfindən bilavasitə imtina barədə bəyannamə verən İdarəyə verilibsə, həmçinin etiraz vermək üçün bu cür imkanlara malik olur. Əgər Beynəlxalq büro (2)(c)(i) bəndinə uyğun informasiya alarsa, təxirə salmadan onu beynəlxalq qeydiyyatın sahibinə göndərir.

Protokolun 5/4-cü maddəsinə görə, Beynəlxalq büro nişanın mühafizəsinə qarşı verilən imtinaya dair dəlilləri, müvafiq sorğu verən maraqlı tərəflərə bildirməlidir.

Protokolun 5/5-ci maddəsinə görə, (1) və (2) bəndlərinə uyğun konkret beynəlxalq qeydiyyata aid ilkin və ya son imtina barədə Beynəlxalq büroya bildiriş verməyən istənilən idarə (1) bəndində nəzərdə tutulan bu beynəlxalq qeydiyyata aid hüququ itirir.

Protokolun 5/6-cı maddəsinə görə, Razılığa gələn Tərəfin ərazisində beynəlxalq qeydiyyatın etibarsız sayılması barədə qərar, bu beynəlxalq qeydiyyatın sahibinə öz hüquqlarını qorumaq məqsədilə vaxt imkanı vermədən, Razılığa gələn həmin Tərəfin səlahiyyətli orqanı tərəfindən qəbul edilə bilməz. Beynəlxalq qeydiyyatın etibarsız sayılması barədə qərar Beynəlxalq büroya göndərilir.

4. Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyatın nəticəsi

Beynəlxalq qeydiyyatla birlikdə mühafizə müddəti başlayır və bu müddəti yeniləmək mümkündür. Beynəlxalq reyestrdə qeydiyyata alınmış əmtəə nişanı qeydiyyat tarixindən etibarən 10 il müddətindən maraqlı ölkələrdə mühafizə olunur (Protokol. m.6/1). İstənilən Beynəlxalq qeydiyyatın müddəti, növbəti müddəti bitdiyi tarixdən hesablanmaqla, Protokolun 8 (7) maddəsi nəzərə alınmaqla əsas rüsumların, 8(2) maddəsində nəzərdə tutulan əlavə və üstəlik rüsumların ödənilməsi şərtilə on il müddətinə uzadıla bilər. Müddətin uzadılması zamanı beynəlxalq qeydiyyatın əvvəlki variantında hər hansı dəyişikliyin edilməsinə yol verilmir. Beynəlxalq büro mühafizənin bitməsinə altı ay qalmış, beynəlxalq qeydiyyatın sahibinə, zərurət yarandıqda isə onun patent müvəkkilinə qeyri-rəsmi bildiriş göndərməklə göstərilən müddətin bitdiyi dəqiq tarixi onların nəzərinə çatdırır. Beynəlxalq qeydiyyatın uzadılması üçün, Təlimatla müəyyən edilən əlavə rüsum ödənilməsi şərtilə, güzəşt olaraq əlavə altı ay müddət verilir.

Beynəlxalq qeydiyyat 5 il baza qeydiyyatından asılı olur. Belə ki, Protokolun 6/2-ci maddəsinə görə, beynəlxalq qeydiyyat tarixindən hesablamaqla, həmin tarixdən beş il ötdükdən sonra bu qeydiyyat, baza iddia sənədindən və ya onun əsasında aparılan qeydiyyatdan, yaxud da sonrakı müddəalar nəzərə alınmaqla, müəyyən hallarla asılılıq təşkil edən baza qeydiyyatından asılı olmur.

Qısacası mənşə idarədə qeydiyyata alınmış əmtəə nişanı (əsas qeydiyyat, baza qeydiyyatı) beynəlxalq qeydiyyatdan sonra 5 il ərzində ləğv edilərsə, onun qüvvədə qalma müddəti bitərsə və ya ondan imtina olunubsa, yaxud da o, imtina barədə qəti qərarın, ləğv etmənin predmetidirsə, reyestrdən çıxarılıbsa və ya beynəlxalq qeydiyyatda göstərilən əmtəələrin, xidmətlərin hamısı və ya müəyyən hissəsi üçün etibarsız sayılıbsa beynəlxalq qeydiyyata da xitam verilir. Qeyd etmək lazımdır ki, bu kimi durumlarda mənşə İdarəsi gecikmədən durumu Beynəlxalq büroya bildirməli və beynəlxalq qeydiyyatı tələb etməlidir. Beynəlxalq büro isə xətm etdiyi beynəlxalq qeydiyyatı yenə rəsmi qəzetində dərc edir və maraqlı ölkə İdarələrinə məlumat verir.

Beynəlxalq qeydiyyat 5 ildən sonra baza qeydiyyatından müstəqil olur. Yəni baza qeydiyyatına xitam verilmə beynəlxalq qeydiyyata təsir göstərmir.

Nəticə

Əmtəə nişanlarının Madrid Protokoluna əsasən beynəlxalq qeydiyyatı məlum oldu ki, əmtəə nişanlarının müxtəlif ölkələrdə mühafizəsini tək bir müraciət ilə təmin edən önəmli yollardan birdir. Ölkəmiz 2 Oktyabr 2006-cı ildə 142-IIIQ Qanun ilə "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə dair 1989-cu il iyunun 27-də Madrid şəhərində qəbul edilmiş Madrid Protokoluna qoşulmuş və bu beynəlxalq qeydiyyat sistemində Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında yaşayış yeri olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, ölkəmizdə həqiqi və saxta olmayan sənaye və ya ticarət müəssisəsi olan hüquqi və fiziki şəxslər istifadə edə bilərlər.

Açar sözlər: əmtəə nişanı, Beynəlxalq qeydiyyat, reyestr, Madrid Protokolu.

İstifadə olunmuş ədəbiyyat

1. Əmtəə nişanları və coğrafi göstəricilər haqqında Azərbaycan Respublikasinin 12 iyun 1998-ci il tarixli, 504-IQ saylı Qanunu.
2. "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinin Protokoluna qoşulmaq barəsində Azərbaycan Respublikasinin 02 oktyabr 2006-cı il tarixli, 142-IIIQ saylı Qanunu.
3. "Nişanların beynəlxalq qeydiyyatı haqqında" Madrid Sazişinə dair 27 iyun 1989-cu il tarixli Protokol.

Мубариз Ёлчиев

ПРАВОВОЙ АНАЛИЗ ПРОЦЕССА МЕЖДУНАРОДНОЙ РЕГИСТРАЦИИ ТОВАРНЫХ ЗНАКОВ НА ОСНОВЕ МАДРИДСКОГО ПРОТОКОЛА (В ДОПОЛНЕНИЕ К МАДРИДСКОМУ СОГЛАШЕНИЮ «О МЕЖДУНАРОДНОЙ РЕГИСТРАЦИИ ЗНАКОВ»)

Резюме

Один из способов международной регистрации товарных знаков – регистрация в соответствии с Мадридским протоколом. Такой аспект регистрации позволяет обеспечить защиту товарных знаков в некоторых странах по низкой цене и с первого же обращения.

Азербайджан присоединился к Мадридскому протоколу «О международной регистрации товарных знаков» (согласован странами 27 июня 1989 года в городе Мадрид) 2

октября 2006 года, подписав Договор 142-IIIQ. В соответствии с Мадридским протоколом, граждане стран, присоединившихся к этому протоколу, иностранцы и лица без гражданства, живущие в этой стране, или юридические и физические лица, имеющие легальные промышленные или торговые предприятия, имеют право на использование этого пути международной регистрации знаков.

Ключевые слова: товарный знак, международная регистрация, реестр, Мадридский протокол.

Mubariz YELCHIEV

THE LEGAL ANALYSIS OF THE PROCESS OF INTERNATIONAL REGISTRATION OF THE TRADE-MARKS UNDER MADRID PROTOCOL (SUPPLEMENT TO THE MADRID AGREEMENT «ON INTERNATIONAL REGISTRATION OF THE TRADE-MARKS»)

Summary

One of the ways of international regustration of the trade-marks is a regustration in conformity with Madrid Protocol. Sush an aspect of registration permits to provide protection of the trade-marks in some countries by low price and from the very forst reference.

Azerbaijan joined the Madrid Protocol «On international regustration of the trade-marks (agreed by the countries on June 27, 1989) on October 2, 2006 with signing the Treaty 142-IIIQ. In conformity with the Madrid Protocol the citizens of the counries joined this protocol, the foreigners and persons living in this country, or juridical and physical persons possessing the legal industrial or trade enterprises have a right to the use of this way of international regustration of the marks.

Keywords: trade-mark, international regustration, register, Madrid Protocol.

UOT 343.1

Fərdin XƏLİLOV
b.e.i., hüquq ü.f.d., AMEA FHİ

AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT-PROSESSUAL MƏCƏLLƏSİNİN 318.2-Cİ MADDƏSİNİN DOKTRİNAL ŞƏRHİ BARƏDƏ*

AR CPM-in 318.2-ci maddəsinə əsasən, məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə məhkəmə baxışını dayandırmalıdır. Bu halda məhkəmə müvafiq olaraq cinayət işinin və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarının on gün müddətində təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarır. Bundan sonra ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror tərəfindən təqsirləndirilən şəxsə qarşı yeni ittiham irəli sürülərsə, məhkəmə baxışı məhkəmə iclasında həmin ittihamın elan olunması ilə təzələnir və məhkəmə baxışının davam etdirilməsi ümumi qaydada həyata keçirilir. Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətlərin əlamətlərinin mövcudluğu barədə zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin vəsatəti əsasında məhkəmə bu maddədə nəzərdə tutulmuş qaydada qərar çıxara bilər. Cinayətin tövsifinin dəyişməsi nəticəsində məhkəmə aidiyyətinin dəyişdirilməsi zərurəti yaranarsa, məhkəmə qərarına əsasən məhkəmədə işin baxılmasına xitam verilir və iş ümumi qaydada aidiyyəti üzrə baxılmaq üçün müvafiq məhkəməyə göndərilir.

Hesab edirik ki, AR CPM-in 318.2-ci maddəsi kontekstindən məhkəmədə ittihamın ağırlaşdırılması prosedurunun sistemli şəkildə izah edilməsi üçün aşağıdakı suallara cavab vermək tələb olunur: Məhkəmə baxışı zamanı ittihamın ağırlaşdırılmasının əsası nədir? Məhkəmə baxışı zamanı ittihamın ağırlaşdırılmasının təşəbbüskarı hansı subyektlər ola bilər? Qanunvericilikdə ittihamın ağırlaşdırılması üçün prokurora göndərilmiş iş üzrə icraatın prosessual müddətləri məqsədəuyğun həcmdə təsbit edilmişdirmi? Qanunvericilikdə ittihamın ağırlaşdırılması üçün prokurora göndərilmiş iş üzrə icraatın prosessual forması və subyektlərinin səlahiyyət dairəsi necə təsbit edilmişdir?

Fikrimizcə, bu məsələlərə növbə ilə ayrı-ayrılıqda baxılması məhkəmədə ittihamın ağırlaşdırılmasına dair prosedurun izah edilməsi üçün kifayətdir. Odur ki, onların təhlilinə keçməyi məqsədəuyğun hesab edirik. AR CPM-in 318.2-ci maddəsinə əsasən, məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətlərin əlamətlərinin mövcudluğu müəyyən edildikdə, dövlət ittihamçısının vəsatəti əsasında məhkəmə irəli sürülmüş ittiham üzrə məhkəmə baxışını dayandırmalıdır. Bu halda məhkəmə cinayət işini on gün müddətində təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq üçün prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarır.

Milli hüquq ədəbiyyatında baxılan maddənin bu hissəsi tənqidə məruz qalmışdır. Məsələn, M.A.Ağazadə maddənin bu hissəsi ilə bağlı qeyd edir: «… çox anlaşılmaz fikirdir … əvvəla, aydın deyildir ki, belə halı, yəni təqsirləndirilən şəxsin əməlində daha ağır cinayətin əlamətlərinin olduğunu kim müəyyən etməlidir? Dövlət ittihamçısı, məhkəmə, yaxud hər ikisi birlikdə? Əgər təşəbbüs dövlət ittihamçısı tərəfindən irəli sürülübsə, bu müəyyən etmə (edilmə yox) niyə dövlət ittihamçısının adına yazılmır? Digər tərəfdən, bu norma imperativ xarakter

* Məqalə hüquq ü.e.d., professor İsaxan Vəliyev tərəfindən çapa məsləhət görülüb.

daşıyır, yəni dövlət ittihamçısı tərəfindən belə vəsatət verildikdə, məhkəmə onu mütləq təmin etməlidir. Bəs birdən məhkəmə həmin fikirlə razılaşmadı və hesab etdi ki, verilən ittiham iş materiallarına uyğundur, onda necə olsun? Maraqlı cəhətlərdən biri də budur ki, qanuna görə, dövlət ittihamçısı belə vəsatət verdikdə, fikrini əsaslandırmaya da bilər. Məhkəmə isə bu qərarı mütləq əsaslandırmalıdır. Daxilən dövlət ittihamçısının fikri ilə razılaşmayan məhkəmə məcburiyyət qarşısında qəbul etdiyi qərarı necə əsaslandıra bilər? Fikrimizcə, bu, məntiq-sizliyin bariz nümunəsidir» (1, s. 56).

AR CPM-in Kommentariyasında da baxılan maddənin təhlil edilən hissəsi tənqid edilmişdir: «… bu normanın bir qədər dəqiqləşdirilməyə ehtiyacı vardır. Belə ki, AR CPM-in 318.2-ci maddəsində «daha ağır cinayətin əlamətlərinin mövcud olduğu müəyyən edildikdə» ifadəsi işlənmişdir. Burada daha ağır cinayətin əlamətləri dedikdə, təkcə törədilmiş əməlin tövsifinin dəyişməsilə və əməlin cinayət qanununun daha ağır cinayətə görə məsuliyyət nəzərdə tutan maddəsi üzrə tövsifinə səbəb olan hallar yox, həm də ittihamın istənilən formada ağırlaşmasına səbəb olan hallar başa düşülməlidir. Çünki: birincisi, məhkəmə aşkar olunmuş əlamətin tövsifin dəyişəcəyinə səbəb olacağını müəyyən edə bilməz; ikincisi, şəxsin əməlində onun cəzasını ağırlaşdıra biləcək yeni epizodların, cinayət hadisəsinin və s. olduğu halda, ona qarşı irəli sürülmüş ittihama ilkin həcmdə baxılaraq qanuni və əsaslı yekun qərar çıxarıla bilməz». Bu normanın izahı üçün «ittihamın ağırlaşdırılmasına səbəb ola biləcək hal aşkar edildikdə» və ya «ittihamın ağırlaşdırılmalı olduğu istənilən halda» ifadələrini müəlliflər daha doğru hesab edirlər (2, s. 907).

Hesab edirik ki, öncə, problemin konseptual məsələlərinə diqqət yetirmək lazımdır. Belə ki, əvvəlcə, məhkəmə baxışından işin, ittihamın ağırlaşdırılması üçün prokurora qaytarılması institutunun özünün mahiyyəti dərk edilməlidir. Sovet dövrünün cinayət prosesi üçün xarakterik olan bu institut Az. SSR-in 1961-ci il tarixli CPM-də əlavə təhqiqat və əlavə istintaq kimi nəzərdə tutulmuşdu. Həmin Məcəllənin 274-cü maddəsinə əsasən, məhkəmə istintaqının məlumatları ittihamın daha ağır ittihamla və ya faktik halları etibarilə ilk ittihamdan əhəmiyyətli surətdə fərqlənən ittihamla dəyişdirilməsinin və ya cinayət qanununun daha ağır cinayəti nəzərdə tutan maddəsinin tətbiq edilməsinin zəruri olduğunu göstərərdisə, məhkəmə əlavə təhqiqat və ya istintaq aparılması üçün cinayət işinin göndərilməsi haqqında qərardad çıxarırdı. Sovet cinayət prosesinin nəzəriyyəsində bu institut işin təkmilinin istintaqa qaytarılması adlandırılırdı (3, s. 65). Həmin dövrdə işin, ittihamın ağırlaşdırılması üçün geri qaytarılması səlahiyyəti birbaşa olaraq məhkəmə verildiyi üçün hazırda yaranan bir sıra problemli suallar o zaman meydana çıxmırdı.

Azərbaycan Respublikasının müasir cinayət prosesinə münasibətdə, bəzi müəlliflər bu institutun ləğv edildiyini qeyd edirlər. Lakin hesab edirik ki, bu instiututun transformasiyasını onun ləğv edilməsi kimi deyil, sadəcə olaraq, hakimin təşəbbüsündən çıxması kimi izah etmək lazımdır (1, s. 51). Fikrimizcə, sovet dövründə mövcud olan təkmil istintaq institutunun Azərbaycan Respublikasının müasir cinayət prosesində bərpa edilməsi aparılmış məhkəmə-hüquq islahatları nəticəsində nail olunmuş hakimlərin qərəzsizlik kriteriyalarına zərər verə bilər, onlarda şərtsiz olaraq ittiham meylinin yaranmasına zəmin yaradar və ümumiyyətlə, cinayət-prosessual hüquq münasibətlərinin müasir standartlarla tənzimlənməsi sahəsində hazırki nailiyyətlərlə müqayisədə geriyə atılmış addım olar. Bununla belə, AR CPM-in 318.2-ci maddəsinin ilk cümləsinin problemli olduğunu biz də qəbul edirik. Cinayət-prosessual qanunvericiliyinin müxtəlif maddələrinin (məsələn, AR CPM-in 139-141-ci maddələrinin) hüquqi məntşünaslıq baxımından təhlili belə qənaətə gəlməyə əsas verir ki, cinayət prosesində «müəyyən etmə» ifadəsi «sübut etmə» ifadəsinin ekvivalenti kimi çıxış edir. Məhkəmədə şəxsin əməlinə daha ağır cinayətin əlamətlərinin müəyyən edilməsi üçün həmin əməlin baş verməsini və bu əməlin təqsirləndirilən şəxs tərəfindən törədildiyini təsdiq edən sübutlar

toplanmalı, yoxlanmalı və qiymətləndirilməlidir ki, bu da, AR CPM-in 318.1-ci maddəsinə ziddir, çünki irəli sürülməmiş ittihamın sübut edilməsinə yönəlmişdir. Odur ki baxılan normada «müəyyən edildikdə» ifadəsi düzgün işlənməmişdir. Əvvəldə qeyd etmişdik ki, AR CPM-in Kommentariyasının müəllifləri «ittihamın ağırlaşdırılmasına səbəb ola biləcək hal aşkar edildikdə» və «ittihamın ağırlaşdırılmalı olduğu istənilən halda» ifadələrindən istifadə edirlər. Lakin qeyd etmək lazımdır ki, bu, birmənalı yanaşma deyildir, çünki «ittihamın ağırlaşdırılmasına səbəb ola biləcək hal» ifadəsi dispozitiv xarakterlidir, bu və ya digər halın ittihamın ağırlaşdırılması uçün səbəb olub-olmayacağını həll etmək səlahiyyətini subyektin diskresiyasına buraxır. «İttihamın ağırlaşdırılmalı olduğu istənilən hal» ifadəsi isə imperativdir, ittihamın ağırlaşdırılmalı olmasının məcburi hallarının müfəssəl siyahısının qanunda təsbit edilməsini tələb edir.

Müəlliflərin diqqətindən yayınmış başqa bir hal maddədə «təqsirləndirilən şəxsin hərəkətləri» ifadəsidir. Məlumdur ki, cinayət həm hərəkət, həm də hərəkətsizliklə törədilə bilər, onların hər ikisi isə «əməl» kateqoriyası ilə daha uğurlu şəkildə ifadə edilə bilər.

Hesab edirik ki, hakimin qərəzsizliyinin təminatı üçün onun öz təşəbbüsü ilə ittihamın ağırlaşdırılması üçün işi qaytarmaq səlahiyyətini bərpa etmədən 318.2-ci maddəsinin birinci cümləsinin daha anlaşıqlı olmasını təmin etmək məqsədilə onu aşağıdakı redaksiyada vermək daha məqsədəuyğun olardı: «Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsə istinad edilən əməldə daha ağır cinayətin əlamətlərinin olduğunu güman etməyə kifayət qədər əsas olduqda, dövlət ittihamçısının əsaslandırılmış vəsatəti əsasında və müdafiə tərəfinin fikrini dinləməklə məhkəmə irəli sürülmüş ittiham üzrə məhkəmə baxışını dayandırmaqda haqlıdır».

Hesab edirik ki, tərəfimizdən təklif edilən norma quruluşunun cari norma quruluşu ilə müqayisədə aşağıdakı müsbət cəhətləri var:

1) Məhkəmə mərhələsində ittihamın ağırlaşdırılması üçün əsas daha dəqiq müəyyən edilmişdir – bununla, normadakı anlaşılmazlıq aradan qaldırılmış, maddə dəqiqləşdirilmiş və ittihamın ağırlaşdırılması üçün işdə bunun zərurətini göstərən sübutların mövcudluğu tələbi təsbit edilmişdir;

2) İttihamın ağırlaşdırılmalı olmasını əsaslandırmaq öhdəliyi hakimin deyil, dövlət ittihamçısının üzərinə qoyulmuşdur – bununla, hakim ona xas olmayan ittihamın əsaslandırılması funksiyasından azad olmuş, dövlət ittihamçısının isə ittihamın ağırlaşdırılmalı olması barədə vəsatət qaldırdığı zamanlar öz hüququnun realizəsinə daha məsuliyyətlə yanaşması, vəsatətin ciddi əsaslandırılması üçün mexanizm müəyyən edilmişdir;

3) İttihamın ağırlaşdırılması üçün cinayət işinin prokurora qaytarılması məsələsinin həlli zamanı müdafiə tərəfinə öz mövqeyini bildirmək imkanı verilmişdir – bununla çəkişmə prinsipinin tərəflərin bərabərliyinə dair tələbi və müdafiə hüququnun prioriteti təmin edilmişdir;

4) Dövlət ittihamçısının müvafiq vəsatəti hakim üçün məcburi qaydada təmin edilməli vəsatət kimi deyil, dəlillərinin yoxlanmalı və qiymətləndirilməli olduğu bir vəsatət kimi nəzərdə tutulmuşdur – bununla hakimlərin prosessual müstəqilliyi təmin edilmişdir.

İttihamın ağırlaşdırılması təşəbbüsünün subyektindən söhbət açılmışkən, AR CPM-in 318.2-ci maddəsinin məzmununda bir müddəaya da diqqət yetirmək istərdik: «Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hərəkətlərində daha ağır cinayətin əlamətlərinin mövcudluğu barədə zərər çəkmiş şəxsin və ya onun qanuni nümayəndəsinin vəsatəti əsasında məhkəmə bu maddədə nəzərdə tutulmuş qaydada qərar çıxara bilər».

Bu maddənin ilkin redaksiyasında ittihamın ağırlaşdırılması üçün nəzərdə tutulmuş prosesə yalnız dövlət ittihamçısının vəsatəti əsasında başlamaq mümkün idi. Lakin 2 iyul 2001-ci il tarixli Qanunla AR CPM-in 318.2-ci maddəsinə edilmiş əlavələr nəticəsində belə vəsaətətlə məhkəməyə müraciət etmək imkanı zərərçəkmiş şəxs və onun qanuni nümayən-

dəsinə də verilmişdir. Bununla belə, hesab edirik ki, bu siyahı hələ də dar olaraq qalmışdır. Həmin subyektlərin dairəsinə zərərçəkmiş şəxsin nümayəndəsi, xüsusi ittihamçı və onun nümayəndəsi ilə qanuni nümayəndəsi aid edilməmişdir. Fikrimizcə, AR CPM-in 318.2-ci maddəsinin baxılan hissəsi təkmilləşdirilərək aşağıdakı redaksiyada verilməlidir: «Məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsə istinad edilən əməldə daha ağır cinayətin əlamətlərinin olduğunu güman etməyə kifayət qədər əsas olduqda, zərər çəkmiş şəxsin, onun nümayəndəsinin və qanuni nümayəndəsinin, xüsusi ittihamçının, onun nümayəndəsinin və qanuni nümayəndəsinin əsaslanldırılmış vəsatəti əsasında müdafiə tərəfinin fikrini dinləməklə məhkəmə bu maddədə nəzərdə tutulmuş qaydada qərar çıxara bilər».

Cinayət-prosessual qanunvericilikdə məhkəmədən göndərilmiş cinayət işi üzrə prokuror tərəfindən ittihamın ağırlaşdırılması məsələsinə baxmaq üçün ongünlük prosessual müddət müəyyən edilmişdir. Bu müddət milli hüquq ədəbiyyatında haqlı olaraq tənqid edilmişdir. Məsələn, X.R.Vəliyev qeyd edir ki: «…təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülməsindən ötəri on günlük müddət müəyyən edilməsi düzgün hesab edilməməlidir …məhkəməyə səlahiyyət verilməlidir ki, təqsirləndirilən şəxsə başqa ittiham irəli sürülməsi məsələsi ilə bağlı yerinə yetiriləcək istintaq hərəkətlərinin həcmindən asılı olaraq iki ayadək müddət müəyyən edə bilsin …nəzərə almaq lazımdır ki, təqsirləndirilən şəxsin əvvəllər törətdiyi bir deyil, bir neçə cinayətə görə ona ittiham verilməsi zərurəti yarana bilər, aydındır ki, bu cinayət əməllərinin hər biri üzrə çoxsaylı və uzunmüddətli istintaq hərəkətlərinin aparılması ehtiyacı ola bilər» (4, s. 169).

X.R.Vəliyevlə ümumilikdə razılaşmaq olar. Qeyd etmək lazımdır ki, müəllifin irəli sürdüyü təklif kifayət qədər ağlabatandır. Bununla belə, təklif olunan prosesessual müddətlə bağlı bəzi mülahizələri irəli sürmək istərdik. Hesab edirik ki, X.R. Vəliyevin təklif etdiyi redaksiyada ittihamın ağırlaşdırılması üçün nəzərdə tutulmuş müddətin minimal həddinin göstərilməməsi təklifin qüsurlu cəhətidir və cari redaksiyadakı müddətlə müqayiəsədə prokurorun işini asanlaşdırmaq əvəzinə çətinləşdirmək ehtimalı daşıyır. Belə ki, müəllifin təklif etdiyi prosedur qayda daxilində baxılan müddəti iki ayadək limitdə hakim müəyyən edir, deməli hakim istəyərsə, bunun üçün prokurora bir neçə gün də verə bilər. Bu halda bir neçə günlük müddət «iki ayadək müddət» tələbinə zidd olmadığı üçün hakimin qərarı qanuni olacaqdır, lakin prokurorun ittihamın ağırlaşdırılması üzrə fəaliyyətinin effektivliyi dərəcəsi aşağı düşəcəkdir. Bundan başqa, unutmaq olmaz ki, hazırda məhkəmə baxışı ərzində ittihamın ağırlaşdırılması üçün nəzərdə tutulmuş müddətin prosessual-hüquqi təbiəti haqqında məsələ açıq qalmışdır. Belə ki, bu müddətin ibtidai araşdırma müddətlərinə aid olub-olmadığı aydın deyildir.

Fikrimizcə, itthamın ağırlaşdırılması zərurəti ibtidai araşdırma zamanı tövsifdə yol verilmiş qeyri-dəqiqlik ucbatından yarandığı üçün bu səhvin düzəldilməsinə sərf edilən müddət ibtidai araşdırma müddətlərinə aid edilməlidir və iş prokurora göndərilərkən iki kriteriya rəhbər tutulmalıdır: 1) «ehtiyatda qalmış» ibtidai araşdırma müddətləri; 2) ittihamın ağırlaşdırılması üçün tələb olunan müddətlərin ağlabatanlığı. Bənzər mövqe hüquq ədəbiyyatında da müdafiə edilir (5, s. 3-7). Qeyd olunan fikirləri nəzərə alaraq, AR CPM-in 318.2-ci maddəsində müvafiq prosessual müddətlərə dair hissənin qiymətləndirici kateqoriyalar vasitəsilə ifadə edilməsini və həmin normanın aşağıdakı redaksiyada verilməsini təklif edirik: «Bu halda məhkəmə müvafiq olaraq cinayət işini və ya məhkəməyədək sadələşdirilmiş icraat materiallarını məhkəməyədək icraatda sərf olunmuş ibtidai araşdırma müddətləri nəzərə alınmaqla, ağlabatan müddətlərdə təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq üçün ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurora göndərilməsi barədə əsaslandırılmış qərar çıxarır. Başqa ittihamın irəli sürülməsi məsələsinə baxma müddəti ibtidai araşdırma müddətlərinə daxildir».

AR CPM-in cari redaksiyasında ittihamın ağırlaşdırılması üçün prokruora göndərilmiş iş üzrə icraatın prosessual forması və subyektlərinin səlahiyyət dairəsi tənzim edilmir. Bu, ittihamın ağırlaşdırılması üzrə icraatın prosedur qaydalarında hüquqi qeyri-müəyyənliyə səbəb olur. Belə ki, ittihamın ağırlaşdırılması üçün məhkəmədən işi qəbul etmiş prokurorun hər bir halda ittihamı ağırlaşdırmalı olub-olmaması, bunu şəxsən özünün etməli olması, yoxsa həmin işin ibtidai araşdırmasını həyata keçirmiş müstəntiqə tapşırmalı olması, bu məsələnin həlli ilə yanaşı digər prosessual əhəmiyyətli məsələləri (məsələn, məhkəmə tərəfindən seçilmiş qətimkan tədbirinin ləğv edilməsi, göndərilmiş işdən başqa cinayət işinin ayrılması, iş üzrə icraata xitam verilməsi) həll etməkdə haqlı olub-olmaması məsələləri qüvvədə olan qanunvericilikdə hüquqi tənzimetmədən kənarda qalır.

Odur ki, AR CPM-in 318.2-ci maddəsinin bəzi müddəalarının doktrinal şərhi hesabına ittihamın ağırlaşdırılması üzrə icraatın hüquqi tənzimlənməsi modelini işləyib hazırlamağı məqsədəuyğun hesab edirik.

İlk növbədə nəzərə almaq lazımdır ki, AR CPM-in 318.2-ci maddəsində prokurorun «başqa ittihamın irəli sürülməsi məsələsinə baxmaq» səlahiyyətindən söhbət gedir. Deməli, ittihamın hər bir halda ağırlaşdırılması prokuror üçün məcburi deyil, prokuror göndərilmiş işin materialları əsasında başqa ittihamın irəli sürülə bilib-bilməməsini özü həll etməlidir. Hesab edirik ki, cinayət işinin və sadələşdirilmiş icraatın materialları ilə yanaşı, prokurora məhkəmə iclasının protokolu da göndərilməlidir. Çünki ilk dəfə məhz məhkəmə baxışında başqa ittihamın irəli sürülməsi məsələsi aktuallaşmış olur və bu məsələnin aktuallaşmasına səbəb olan xüsusatlar (məsələn, məhkəmənin öz təşəbbüsü ilə məhkəmə mərhələsində əldə etdiyi sübutlar) prokurora bəlli olmalıdır. AR CPM-in 318.2-ci maddəsinin daha bir müddəasında «prokuror tərəfindən təqsirləndirilən şəxsə qarşı yeni ittiham irəli sürülərsə» ifadəsindən istifadə edilir. Hesab edirik ki, bu müddəanı dar anlamda şərh etmək və yeni ittihamın şəxsən prokuror tərəfindən irəli sürülməli olması kimi başa düşmək doğru deyil. Ümumiyyətlə, cinayət-prosessual qanunvericilikdə «ittihamın irəli sürülməsi» kimi termindən deyil, «təqsirləndirilən şəxs qismində cəlb etmə» və ya «ittihamın elan edilməsi» terminlərindən istifadə edilir. Bu müddəanın şərhi zamanı aşağıdakı amillər nəzərə alınmalıdır:

1) İttihamın ağırlaşdırılması məsələsinə baxan prokuror ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror statusunda çıxış edir – bu o deməkdir ki, prokuror ittihamın ağırlaşdırılması üzrə icraatı həm şəxsən apara bilər, həm də müvafiq göstərişlər verməklə bu icraatı onun tabeliyində olan müstəntiqlərdən birinə tapşıra bilər;

2) Başqa ittihamın irəli sürülməsi mahiyyətcə ittihamın dəyişdirilməsindən başqa bir şey deyil – bu o deməkdir ki, başqa ittihamın irəli sürülməsi məsələsinin müsbət həll edilməsi zamanı müstəntiq və ya prokuror tərəfindən AR CPM-in 223-225-ci maddələrində nəzərdə tutulmuş bütün prosedur qaydalara əməl edilməlidir;

3) Prokuror tərəfindən təsdiqlənən ittiham – ittiham aktında formulə edilən ittihamdır – bu o deməkdir ki, başqa ittihamın irəli sürülməsi məsələsi müsbət həll edildiyi hallarda yeni ittiham aktı da tərtib edilməli və prokuror tərəfindən təsdiq edilməlidir;

4) Prokuror başqa ittihamın həll edilməsi məsələsində prosessual müstəqildir – bu o deməkdir ki, yeni ittihamın irəli sürülməsi məsələsində ibtidai araşdırmaya prosessessual rəhbərliyi həyata keçirən prokuror dövlət ittihamçısının verdiyi vəsatət və ya məhkəmənin qəbul etdiyi qərarla bağlı deyil, lakin bu icraat zamanı yuxarı prokurorun əmənin tövsifi ilə bağlı verdiyi göstərişlər prokurorluğun fəaliyyət prinsiplərinə uyğun olaraq, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokuror üçün məcburidir;

5) İttihamın ağırlaşdırılması üzrə icraatın prioritet məsələsi başqa ittihamın elan edilib-edilməməsidir – bu o deməkdir ki, belə icraat zamanı prokuror digər prosessual məsələlərin

həllini öz üzərinə götürməməlidir, çünki bu icraat tam anlamda ibtidai araşdırma deyil, diferensiasiya edilmiş prosessual formaya malik olan xüsusiləşdirilmiş icraatdır.

Yuxarıda göstərilənlərə əsasən, AR CPM-də ittihamın ağırlaşdırılması üzrə icraatın aşağıdakı hüquqi tənzimlənməsi modelini təklif etməyi məqsədəuyğun hesab edirik:

«Maddə 318-1. Prokuror tərəfindən təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə baxılması

318-1.1. Təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsinə prokuror tərəfindən şəxsən baxılır və ya prokurorun tapşırığı ilə müstəntiq tərəfindən zəruri hərəkətlər edilir. Bu zaman yalnız təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi məsələsi həll edilə bilər.

318-1.2. Təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülməsinin əsaslarının yoxlanılması üçün istintaq hərəkətləri həyata keçirilə, fiziki və hüquqi şəxslərdən sənəd və əşyaların verilməsi, səlahiyyətli orqanlardan yoxlama və ya təftişin həyata keçirilməsi tələb edilə bilər.

318-1.3. Təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi üçün kifayət qədər əsas müəyyən edildikdə, ona bu Məcəllənin 223-225-ci maddələrində nəzərdə tutulmuş qaydada yeni ittiham elan edilir. Bu halda iş məhkəməyə prokuror tərəfindən təsdiq edilmiş yeni ittiham aktı ilə birgə qaytarılır.

318-1.4. Təqsirləndirilən şəxsə başqa ittihamın irəli sürülməsi üçün kifayət qədər əsas olmadıqda prokuror tərəfindən təqsirləndirilən şəxsə qarşı başqa ittihamın irəli sürülməsinin rədd edilməsi haqqında əsaslandırılmış qərar çıxarılır və iş həmin qərarla birlikdə məhkəməyə qaytarılır».

Açar sözlər: cinayət prosesi, tövsif, ittiham, dəyişdirmə, ağırlaşdırma, prosessual forma, təkmilləşdirmə.

İstifadə olunmuş ədəbiyyat

1. Ağazadə M.A. Cinayət və cinayət-prosessual qanunlar haqqında hakimin düşüncələri, Bakı: Hüquq ədəbiyyatı, 2009, 200 s.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin Kommentariyası /Red. C.H. Mövsümov. Bakı: Digesta, 2007, 1320 s.

3. Mövsümov C.H. Sovet cinayət prosesi. Bakı: Maarif, 1989, 312 s.

4. Vəliyev X.R. Birinci instansiya məhkəməsində ittiham funksiyası. Bakı: Qanun, 2002, 256 s.

5. Тришева А.А. Возвращение уголовного дела прокурору и разумный срок уголовного судопроизводства //Законность, 2011, № 5.

Фердин ХАЛИЛОВ

О ДОКТРИНАЛЬНОМ ТОЛКОВАНИИ СТ. 318.2 УГОЛОВНО-ПРОЦЕССУАЛЬНОГО КОДЕКСА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

Резюме

В статье автор анализирует ст. 318.2 УПК АР, и выявляет некоторые пробелы и неточности в правовом регулировании процедуры отягчения квалификации деяния и обвинения в суде. Он выдвигает ряд предложений по усовершенствованию действующего законодательства.

Ключевые слова: уголовный процесс, квалификация, обвинение, изменение, отягчение, процессуальная форма, усовершенствование.

Fardin KHALILOV

ABOUT DOCTRINAL INTERPRETATION OF ART. 318.2 OF THE CRIMINAL PROCEDURE CODE OF AZERBAIJAN REPUBLIC

Summary

In the work Article 318.2 of the Criminal Procedure Code of AR is analyzed and on its basis the author exposes some gaps and inaccuracies in legal regulation of procedure of aggravation of qualification of act and charge at the court. The author also puts forward the numerous legislative offers for current legislation improvement.

Keywords: criminal trial, qualification, charge, change, aggravation, procedural form, improvement.

UOT 348.98

Nazim ƏLİYEV
hüquq ü.f.d.

ŞƏHƏR CİNAYƏTKARLIĞI – REGİONAL KRİMİNOLOJİ ANALİZİN OBYEKTİ KİMİ*

Kriminologiyada regional istiqamətli tədqiqatlarda şəhər cinayətkarlığının kriminoloji analizinə, bu inzibati ərazi vahidlərində cinayətkarlığın vəziyyəti, struktur və dinamikasının, səbəbiyyət kompleksinin təhlilinə xüsusi önəm verilir. Belə ki, kənd yerləri, kənd rayonları ilə müqayisədə, şəhərlərdə, xüsusən də böyük şəhərlərdə ən kəskin və spesifik sosial, iqtisadi, psixoloji və deməli həm də kriminoloji problemlər cəmləşmişdir. Bu ərazi vahidlərində cinayətkarlığın vəziyyətinə və onun inkişaf meyllərinə daha güclü təsir göstərən neqativ və pozitiv amillər kompleksi açıq-aydın ifadə olunur. Buna görə də böyük şəhərlər və şəhər aqlomerasiyaları[1] da regional kriminoloji tədqiqatların obyekti qismində çıxış etməlidirlər. Belə araşdırmalar qeyd olunan ərazi vahidlərində cinayətkarlığın, onun ayrı-ayrı növlərinin artımına gətirib çıxaran səbəb və şəraitlərin müəyyən edilməsinə və onların aradan qaldırılması üzrə tədbirlərin işlənib hazırlanmasına, bununla da hüquq-mühafizə və digər sosial nəzarət orqanlarının qüvvə və vasitələrini düzgün planlaşdırılmasına imkan yaradır.

Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli fərmanı ilə təsdiq edilmiş «Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında» Azərbaycan Respublikası Qanunuun 2-ci maddəsində göstərilir ki, «şəhər – əhalisinin sayı 15.000 nəfərdən yuxarı və onun əksəriyyəti sənayedə, iqtisadi, sosial və ya qeyri-istehsalat sahələrində (dövlət və ya bələdiyyə qulluğunda, kommunal təsərrüfatda, ictimai iaşə, mədəni və ya tarixi obyektlərdə və s.) məşğul olan, ətrafındakı ərazi vahidlərinin inzibati, iqtisadi və ya mədəni mərkəzləri olan inzibati ərazi vahididir».

İnsanların yerləşməsinin ərazi baxımından təmərküzləşmiş forması olan şəhərlər üçün «əhalinin əmək və istehsaldan kənar fəaliyyətinin rəngarəngliyi, sosial və peşə baxımından qeyri-yekcinslik, spesifik həyat tərzi xarakterikdir. Müasir şəhər ən əvvəl sənaye, nəqliyyat, xidmət sahəsində istehsal funksiyalarının təmərküzləşdiyi yerdir» (3, s.36). A.Feber yazırdı: «Şəhərlərin sürətli artımı həm təbiidir, həm də zəruridir, çünki sənayenin heç bir təşkili sənaye mərkəzləri olmadan mümkün deyildir» (12, s.335).

Qeyd edək ki, ilk şəhərlər təxminən 5 min il bundən əvvəl Mesopotamiyada, Nil çayının vadisində, Qərbi Hindistanda, Şimali Çində əhalinin sıx olduğu kənd təsərrüfatı rayonlarında yaranmışdır. Şəhərlər əhali bölgüsündə, qeyri-kənd təsərrüfatı fəaliyyəti növlərinin ayrılması və cəmləşməsi nəticəsində yaranmışdır. Şəhərlərin yaranması sözün əsl mənasında kəndlə qidalanan və eyni zamanda kənd perefiriyasına xidmət edən ayrı-ayrı mərkəzlərdə əhalinin sıxlaşması olmadan mümkün olmazdı. Başqa sözlə, şəhərlərin yaranması iqtisadi tərəqqi ilə – qeyri-kənd təsərrüfatı ilə məşğul olan əhalinin təmini üçün zəruri olan artıq azuqənin yaranması ilə bağlıdır. Şəhərlər həm hökmdarların iqamətgahları (məsələn, Qədim Misirdə – fironların və kahinlərin yaşayış yerləri kimi), həm də əsas funksiyaları müdafiə olan qalalar

---

* Məqalə hüquq ü.f.d., professor Bəhram Zahidov tərəfindən çapa məsləhət görülüb.

[1]Шящяр агломерасийасы (лат.agglomero - бирляшдирирям, йыьырам) – йашайыш мянтягяляринин, илк нювбядя шящярлярин интенсив истещсалат, няглиййат вя мядяни ялагялярля мцряккяб динамик системя бирляшмяси демяк олмагла урбанизасийанын нювбяти, даща йцксяк мярщяляси сайылыр (17, с.49-57).

kimi yaranmışdır. Sonuncu halda onlar strateji baxımdan ən əlverişli yerlərdə salınırdı (15, s.19).

Antik dünyada Babil, Afina, Karfagen, Roma, İsgəndəriyyə və sair kimi şəhərlərin mühüm rol oynadığını vurğulayaraq V.Melikov göstərir ki, 1800-cü ildə 5000-dən çox əhalisi olan şəhərlərdə Yer kürəsi əhalisinin 3%-i yaşadığı halda, 1900-cu ildə şəhərlərdə artıq planetimizdəki əhalinin 13,5%-i yaşayırdı. Yüz il ərzində əhalisi 100 min nəfərdən çox olan şəhərlərin sayı 13 dəfədən çox artaraq 21-dən 291-ə çatmışdı. XX əsrdə urbanizasiya və miqrasiya prosesləri daha da sürətlənmiş, əsrin əvvəllərində dünyada şəhər əhalisinin sayı 15% olduğu halda, 1950-ci ildə şəhər əhalisinin xüsusi çəkisi 30%-ə, 2000-ci ildə isə 49,3%-ə çatmışdır (5).

Şəhər yaşayış məntəqəsini kəndlərdən fərqləndirməyə imkan verən əsas amillər qismində əhalinin böyük sayı, onların əsasən kənd təsərrüfatı ilə bağlı olmayan əməklə məşğul olmaları, habelə kənd yerləri ilə müqayisədə şəhərlərdə əhalinin daha yüksək sıxlığı göstərilir.

Eyni zamanda, dünyada şəhərlərin fərqləndirilməsinin vahid meyarları mövcud deyildir. Yaşayış məntəqəsinin şəhər statusuna aid edilməsi hər ölkənin qanunları əsasında müəyyən edilir. Bu tələb müxtəlif ölkələrdə müxtəlifdir – İslandiyada 200, Danimarkada 250, ABŞ-da 2500, Yunanıstanda 10 min, Niderlandda 20 min, Yaponiyada 50 min nəfər. Bəzi ölkələrdə əhalinin sayı ilə yanaşı həmçinin əhalinin sıxlığı, şəhər rahatlıqlarının mövcudluğu, məşğulluq strukturu kimi göstəricilər də nəzərə alınır. Məsələn, Rusiyada əhalisi ən azı 20 min nəfər olan və əhalinin ən azı 85%-i fəhlələr, qulluqçular və onların ailə üzvləri təşkil edən məntəqələr şəhərlər hesab edilir (15, s.36-37). Əksər ölkələrdə bir qayda olaraq, əhalisi 10 mindən çox olan məntəqələr şəhər statusuna malik olur.

1800-cü ildə milyondan çox əhalisi olan təkcə bir şəhər var idisə, 2000-ci ildə onların sayı 320-dən çox olmuşdur (5). Ekspertlər 2030-cü ilə kimi əhalinin artıq üçdə ikisinin şəhərlərdə məskunlaşacağını ehtimal edirlər (1).

Şəhər əhalisinin artım templəri Yer kürəsinin əhalisinin artım templərini 2 dəfə üstələyir. P.Berolun hesablamalarına görə əgər 19-cu əsrin əvvələrində şəhər əhalisi Yer kürəsinin əhalisinin 9%-ni təşkil edirdisə (düzdür, «Böyük Sovet ensiklopediyasında (1980) 3% göstərilir), hazırda (bu gün) şəhərlərin xüsusi çəkisi 46%-dən çoxdur (18).

Qərbi Avropa və Şimali Amerika ölkələrinin əksəriyyətində əhalinin təxminən 75-80%-i şəhərlərdə yaşayır. Avropada əhalinin 50%-i əhalisinin sayı az 5-10 min arasında, 25%-i əhalisi 10-250 min, yerdə qalan 25%-i əhalisinin sayı 250 mindən artıq olan şəhərlərdə yaşayır (7).

Statistika, 1970-ci ilə qədər respublikada şəhər əhalisinin kənd əhalisi ilə müqayisədə azlıq təşkil etdiyini göstərir. 1970-ci ildə əhalinin şəhər və kənd üzrə bərabər paylanması müşahidə edilmişdir. Məhz bu ildən başlayaraq, kiçik istisnalar nəzərə alınmazsa, şəhər əhalisinin sayca artması sabit meylə çevrilmişdir (3, s.36).

Azərbaycanda keçirilən son siyahıyaalmanın nəticələrinə görə, 2009-cu ildə ölkə əhalisinin sayı 9 milyon nəfəri aşmışdır. Bunun 53,1% şəhər, 46,9% isə kənd əhalisi təşkil etmişdir. Qeyd edək ki, 1897-ci ildə Azərbaycan əhalisinin sayı 1806.7 mln nəfər olmaqla, bunun 16.9%-i şəhər, 83.1%-i isə kənd əhalisi olmuşdur.

2009-cu il son siyahıyaalınmasında Bakı şəhərinin əhalisinin 2 milyon 50 min nəfər olduğu müəyyən edilmişdir. Lakin bu rəqəmlər pasport qeydiyyatında olan əhalinin sayını göstərir. Bu gün əhalinin bir hissəsi pasport qeydiyyatında rayonlarda olsa da, Bakı və Sumqayıt kimi iri şəhərlərdə yaşayır. Buna görə də şəhərlərdə yaşayanların sayı rəsmi statistikada göstəriləndən xeyli çoxdur. Ekspertlər Bakı şəhərində və şəhərətrafı ərazilərdə yaşayanların sayının 4 milyonu keçdiyini göstərirlər (6, s.160).

Bakının özünəməxsusluğu onun paytaxt statusu ilə, Azərbaycan Respublikası konstitusiyası ilə təsbit edilmiş xüsusi mövqeyi ilə, həmçinin böyük ölçüləri ilə müəyyən olunmuş Bakıda bütün böyük şəhərlər üçün xarakterik olan sosial-iqtisadi, demoqrafik hüquqi və digər problemlərin bütün kompleksi cəmlənmişdir. Bakı əsas şəhəryaradıcı amil kimi sənaye istehsalının inkişafı ilə, əhalinin hərəkətliliyi ilə, xidmət, təhsil, tibbi təminat sahəsi üzrə çoxsəviyyəli müəssisə və idarələr şəbəkəsi ilə, nəqliyyat kommunikasiyaları şəbəkəsi ilə, bazar şəraitində şəhər iqtisadiyyatının işini təmin edən məxsusi təhlükəsizlik sistemi ilə xarakterizə olunur.

Bakı və onun aqlomerasiyasının dövlət miqyasında iqtisadi yükünü dəqiq göstərmək üçün bu gün bütün ölkə ümumdaxili məhsulunun 80%-nin onun payına düşdüyünü göstərmək kifayətdir. Bundan başqa, Azərbaycanın bütün sahəsinin 6%-ə bərabər ərazisində əhalinin, təxminən, 37%-i cəmlənib. Bu cür nisbət Bakının Azərbaycanın iqtisadi, sosial və mədəni həyatında böyük rol oynadığını göstərməklə yanaşı, Azərbaycanın bu vəziyyətdə üzləşdiyi problemləri açıq şəkildə nümayiş etdirir (2).

F.Q.Vahidov və T.V.Ağayev, şəhərlərin ilk öncə sənaye, nəqliyyat, xidmət sahəsində istehsal funksiyalarının cəmləşdiyi yerlərə çevrildiyini, qloballaşma şəraitində şəhərlərin bir sıra səciyyəvi cəhətlərin daşıyıcıları olduqlarını qeyd edir: 1) nisbətən kiçik ərazidə xeyli sayda əhali kütləsinin cəmləşməsi və deməli, yüksək əhali sıxlığı ilə bağlı məskunlaşma xüsusiyyətləri; 2) spesifik şəhər mühiti ilə şərtlənən arxitektura-planlaşdırma xüsusiyyətlərində, tikililərin nisbi kompleksliliyində əks olunan şəhərin özünəməxsus siması; 3) şəhərlərdə əhalinin sosial strukturu və şəhər həyat tərzi ilə şərtlənən sosial xüsusiyyətləri; 4) şəhərlərin bir qayda olaraq, yaxın ərazilərin siyasi-inzibati mərkəzləri olması ilə bağlı hüquqi xüsusiyyətlər (3, s.35-37).

V.Q.İlyin, yaşayış məntəqəsi kimi şəhərin təkcə müsbət deyil, həm də mənfi xarakteristikaları özündə topladığını qeyd edərək, belə neqativ amillərə ekoloji problemləri, mədəniyyət təyinatlı obyektlərin məkanca bir-birindən uzaq olmasısını və s. aid edir. Müəllif yazır: «Böyük şəhər aqlomerasiyalarının yaranması ilə şəhərlər iqtisadi və mədəni inkişaf üçün daha geniş imkanlar açmışdır, lakin elə böyük şəhərlərdə də artmaqda olan səfalətin nəticəsi kimi «cinayətkarlığın, zorakılığın və satqınlığın» (C.Bosuell) daşıyıcısı olan cəmiyyətə zidd ünsürlər cəmləşir» (15, s.34-38).

Böyük şəhərlər, o cümlədən Bakı üçün səciyyəvi olan problemlər qismində F.Q.Vahidov və T.V.Ağayev xüsusi olaraq qeyd edirlər: istehsalın yerləşdirilməsində və genişləndirilməsində yol verilən nöqsanlar, miqrasiya və demoqrafik proseslərin kortəbiiliyi, şəhərsalma xarakteri qüsurlar, ekoloji pozuntular, monosənaye şəhərlərində əhalinin cins-yaş strukturundakı müəyyən disproporsiyalar; xidmət sahəsinin müasir tələblərə cavab verməməsi; cəmiyyətə zidd halların geniş yayılması; ailə-nikah münasibətlərindəki nizamsızlıqlar və sair (3, s.36-37).

Kənddən şəhərə köçmə əməyin mahiyyətinin, adət, vərdiş və dəyərlər sisteminin dəyişməsinə gətirib çıxarır. Psixoloji aspektlərlə yanaşı kənd miqrantının şəhər həyatına, özü də Bakı, Sumqayıt və Gəncə kimi böyük şəhərlərin həyat tərzinə uyğunlaşması sırf maddi və mənəvi-məişət aspektlərinə də malikdir. Bundan başqa, şəhərin struktur və təşkilində miqrantlar uzun müddət ikinci dərəcəli yer tutmaları kimi amil də onların mənəvi-psixoloji durumlarına mənfi təsir göstərir.

E.S.Demidenko, böyük şəhərlərin həm də bir sıra sosial problemlərin də mənbəyi olduğunu göstərir. Müəllif, onlara demoqrafik vəziyyətdə baş verən neqativ xarakterli keyfiyyət dəyişiklikləri də aid edilə bildiyini qeyd edir: doğum və təbii artımın aşağı göstəriciləri, yüksək ölüm səviyyəsi, şəhər əhalisində uşaqların və yeniyetmələrin xüsusi çəkisinin az olması və uyğun olaraq yaşlı, pensiya yaşında olan əhalinin xüsusi çəkisinin yüksək olması və s. Böyük şəhərlərdə həyat tərzinin, ailə tərkibinin, ünsiyyət formasının, mobilliyin, peşəkar və

sosial-mədəni motivasiyanın, tələbatların, qonşuluq əlaqələrinin və s. bir çox xarakteristikaları (ailə üzvlərinin (valideynlərin) işləməsi nəticəsində uşaqlara nəzarətin, həmçinin qonşu həmrəyliyinin əhəmiyyətli dərəcədə zəifləməsi, çoxmərtəbəli binaların sakinlərinin bir-birilərini tanımamaları və sair) da ciddi dəyişikliklərə uğrayır (14, s.85).

Müasir şəhərlərin səciyyəvi cəhətlərdən birini şəhər sakinlərinin əhəmiyyətli hissəsinin başqa rayonlardan, kəndlərdən gəlməsi olduğunu qeyd edərək, «Sosiologiya» kitabının müəllifləri yazırlar: «şəhərlər bir sıra hallarda şəhər həyat tərzinə bələd olmayan, əvvəllər sənayedə işləməyən kənd sakinləri hesabına formalaşır ki, bu da həmin şəhərlərin inkişafına təsirsiz qalmır. Əhalinin işə düzəlməsi ilə bağlı problemlərin kəskinliyi şəhər mühitində, bütövlükdə cəmiyyətdə sosial gərginliyi xeyli dərəcədə gücləndirir» (3, s.38).

Şəhər əhalisinin xüsusi çəkisinin artımı, əhalinin sosial-demoqrafik strukturunun dəyişməsi və sair kimi amillər ani olaraq kriminogen vəziyyətə təsir göstərmirlər. Eyni zamanda lazımi sosial-iqtisadi, mədəni, məişət bazası mövcud olmadığı təqdirdə, ayrı-ayrı şəhərlərə, və onların ərazi inzibati vahidlərinə miqrantların böyük axını qısa zamanda cinayətkarlığın sıçrayışla artımına şərait yarada bilər.

Kriminoloqlar sosial-hüquqi tədqiqatların müstəqil obyekti kimi iri şəhərlərin seçilməsini onunla əsaslandırırlar ki, məhz belə şəhərlər müəyyən mənada gələcək cəmiyyətin modelidir. Böyük şəhərlərdə cinayətkarlığın öz kriminoloji xüsusiyyətləri vardır. Respublikada qeydə alınan cinayətlərin yarıdan çoxu (bax: cədvəl 2) Bakı, Sumqayıt və Gəncə kimi böyük şəhərlərin payına düşür. Onların bəzilərində, xüsusən sənaye və ticarət mərkəzlərində çox vaxt mürəkkəb kriminogen şərait yaranır. Cinayətkarlıqda arzuolunmaz meyllər müşahidə olunur, profilaktik iş xeyli çətinləşir. Adətən böyük şəhərlərdə əmlak xarakterli cinayətlərin, məişət zəminində baş verən və zorakı xarakter daşıyan kriminal əməllərin, xuliqanlıq hallarının, yetkinlik yaşına çatmayan şəxslər və gənclər tərəfindən qrup halında törədilən cinayətlərin səviyyəsi daha yüksək olur.

Tədqiqatlar «şəhər» cinayətkarlığının strukturunda yeni sakinlər tərəfindən törədilən cinayətlərin xüsusi çəkisinin daha yüksək olduğunu göstərir. Məsələn, B.V.Baranov qeyd edir ki, son illərin cinayət statistikasına əsaslansaq görərik ki, Moskva şəhərində daimi sakinlər tərəfindən qeydə alınan cinayətlərin 60%-ə qədəri törədilir. Deməli, şəhərdə qeydə alınmış cinayətkar qəsdlərin 40%-i və daha çoxu müxtəlif kateqoriyalı xarici vətəndaşların - miqrantların payına düşür (9, s.5).

Bu isə təşəkkül tapmış bir çox əlaqə və vərdişlərin pozulması, şəhər həyatında psixoloji və əsəb gərginliyinin yüksəkliyi, yeni yerlərdə adaptasiya çətinlikləri və sairə ilə bağlıdır. Şəhəri yeni yaşayış və ya iş yeri seçmiş şəxslər arasında ailə qurmamış gənclərin sayı da çoxdur. Yeni şəhər sakinləri ilə hüquq qaydalarını pozmağa meylli olan şəxslər, o cümlədən əvvəllər məhkum olmuş şəxslər ilə arzuolunmaz ünsiyyət və təmas imkanları da xeyli artır.

Böyük şəhərlərdə daha çox vətəndaşların həyatı, sağlamlığı və təhlükəsizliyi, mülkiyyət əleyhinə ağır və xüsusilə ağır tamah və zorakı xarakterli cinayətlər törədilir. Kənd yerlərinə nisbətən şəhər şəraitində quldurluq, soyğunçuluq, oğurluq, xüsusən də mənzillərdən edilən oğurluq kimi cinayətlərin səviyyəsi (cinayətkarlıq əmsalı) daha yüksəkdir. Bunlar əsasən gənclər və əvvəllər məhkum olunmuş şəxslər tərəfindən də törədilir. Avtonəqliyyat oğurluğu «şəhər», mal-qara oğurluğu isə əsasən «kənd» cinayətkarlığı sayılır.

Azərbaycanda cinayətkarlığın ayrı-ayrı regionlar üzrə paylanması məsələsinə toxunaraq, habelə şəhər mühiti üçün xarakterik, tipik olan cinayət növlərini göstərərək B.Zahidov yazır: «….şəhər tipli rayonlarda yetkinlik yaşına çatmamışlar tərəfindən törədilən cinayətlərin, beynəlxalq əhəmiyyətli yolların və nəqliyyat vasitələrinin intensiv olduğu rayonlarda yol-nəqliyyat hadisələrinin, Bakı şəhərində kompüter cinayətkarlığının və xuliqanlığın,… ümumiyyətlə isə əhalinin çox olduğu, ticarətin, işsizliyin, sərxoşluğun, narkomaniyanın üstünlük təşkil

etdiyi şəhərlərdə mütəşəkkil və əlbirliklə törədilən cinayətlərin, insan alverinin, fahişəliyin, adam oğurluğunun, qəsdən adam öldürmə əməllərinin artdığı müşahidə edilir» (4, s.63).

A.B.Vasilyev qeyd edir ki, xüsusi qəddarlıqla törədilən, qurbanları yetkinlik yaşına çatmayanlar və qadınlar olan cinayətlərin əhəmiyyətli hissəsi böyük şəhərlərdə törədilir. Böyük şəhərlərdə ailə, məişət, asudə vaxt sahələrində, narkotik və alkoqol sərxoşluğu vəziyyətində törədilən ağır və xüsusilə ağır zorakı cinayətlərin xüsusi çəkisi də yüksəkdir. Bu zaman müəllif, böyük şəhərlərdə ağır zorakı cinayətkarlığın törədilməsi spesifikasının bir çox cəhətdən şəhər əhalisinin sosial anonimliyi, sosial nəzarətin zəifləməsi, insanlar arasında qarşılıqlı əlaqələrdə fərdiliyin itməsi, gəlmələrin xüsusi çəkisinin kifayət qədər yüksək olması, əhalinin daxili və xarici miqrasiyasının yüksəkliyi və sair kimi şəhər mikromühitinin xüsusiyyətləri ilə müəyyən olunduğunu göstərir (11, s.4-5).

Kriminoloqlar şəhərin böyüklüyü ilə cinayətlərin açılması faizi arasında asılılığın mövcud olduğunu qeyd edirlər. Məsələn, A.D.Badov göstərir ki, şəhər böyük olduqca cinayətlərin açılma faizi də aşağı düşür. Xüsusən bu şəxsiyyət əleyhinə cinayətlərə və tamah xarakterli kriminal əməllərə aiddir. Şəhər yaşayış məntəqələrində və kənd yerlərində müşahidə olunan şəxsiyyət əleyhinə cinayətlərin strukturu və dinamikasında fərqlər, bəzən isə əhəmiyyətli fərqlər vardır (8, s.24-26).

D.V.Borovkov, böyük şəhərlərdə cinayətkarlığın özünəməxsus səciyyəvi əlamətlərin daşıyıcısı olduğunu, bu yaşayış məntəqələrində zorakılığın isə əsasən küçə cinayətkarlığı ilə bağlılığını qeyd edir. Müəllifin fikrincə, müasir küçə cinayətkarlığı – ilk növbədə böyük şəhərlərin problemidir. Bu da başa düşüləndir, çünki məhz əhalinin sıxlığı artdıqca böyük şəhərlərin küçələrində cinayətkar nəticələrə gətirən münaqişələrin baş vermə ehtimalı da artır (10, s.3-4).

Y.V.Kiviç şəhər şəraitində küçə cinayətkarlığının kriminoloji xarakteristikası və qarşısının alınması problemlərinə həsr olunmuş dissertasiya işində yazır: «Şəhər küçələrində törədilən cinayətlərin təhlükəliliyi ilk növbədə böyük sayda əhali kütləsinin şüuruna aktiv surətdə təsir göstərməsindədir. Nəticədə ictimai sakitlik, əmin-amanlıq pozulur, əhalidə öz təhlükəsizlikləri üçün inamsızlıq və qorxu hissi, ümumi sosial gərginlik yaranır. Böyük şəhərlərdə küçə cinayətkarlığının miqyasları sosial nəzarət orqanlarından antikriminal nəzarətin təmini üçün zəruri olan təşkilati, maliyyə, maddi, texniki və digər resurslar və məsrəflər tələb edir. Bu hal böyük şəhərlərdə küçə cinayətkarlığının müstəqil və spesifik kriminoloji problem olduğunu söyləməyə əsas verir» (16, s.3-5).

Eyni zamanda, şəhərlərin ölçüləri, əhali sıxlığı arasında fərqlər hələ öz-özlüyündə cinayətlərin sayında olan fərqləri izah etmir. Hərçənd ki, bəzi asılılıqları görmək, aşkar etmək mümkündür.

Bu baxımdan əhalisinin sayına görə bir-birindən çox az fərqlənən Sumqayıt və Gəncə şəhərlərinin kriminogenlik faktorlarının müqayisəli təhlili xüsusi maraq doğurur.

Aşağıdakı cədvəllərdə (cədvəl 1-3) Azərbaycan şəhərlərinin əhalisi, bu şəhərlərdə cinayətkarlığın vəziyyəti və səviyyəsi ilə bağlı statistik məlumatlar gətirilmişdir

Cədvəl 1

Azərbaycan şəhərlərinin əhalisi (min)

	2005	2009	2010	2011	2012	2013
Azərbaycan üzrə O cümlədən:	8447,4	8897,0	8997,6	9111,1	9235,1	9356,5
Bakı	1914,4	2039,4	2064,6	2092,4	2122,3	2150,8
Gəncə	305,5	312,9	314,6	316,3	321,1	323,0
Sumqayıt	294,5	308,4	311,7	314,8	318,7	325,2
Mingəçevir	95,2	96,0	96,9	97,8	98,8	99,7
Şirvan	72,9	76,8	77,8	78,7	80,0	80,9

Cədvəl 2

Azərbaycan şəhərlərində cinayətkarlığın vəziyyəti

	2005	2009	2010	2011	2012	2013
Azərbaycan üzrə O cümlədən:	18049	22830	23010	24263	21897	22381
Bakı	7572	11108	11096	11724	10018	10984
Gəncə	437	693	599	597	597	569
Sumqayıt	731	960	1033	1051	935	918
Mingəçevir	235	153	194	236	183	229
Şirvan	198	323	349	289	232	223

Cədvəl 3

Azərbaycanda şəhər cinayətkarlığının səviyyəsi
(əhalinin 10 min nəfərinə düşən cinayətkarlıq əmsalı)

	2005	2009	2010	2011	2012	2013
Azərbaycan üzrə O cümlədən:	21,37	25,58	25,57	26,63	23,71	23,92
Bakı	39,55	54,46	53,74	56,03	47,20	51,07
Gəncə	14,30	22,15	19,04	18,87	18,60	17,62
Sumqayıt	24,82	31,13	33,14	33,39	28,71	28,23
Mingəçevir	24,68	15,94	20,02	24,13	18,52	22,97
Şirvan	27,16	42,06	44,86	36,72	29,00	27,56

Cədvəllərdən göründüyü kimi, respublikanın Gəncə və Sumqayıt şəhərlərinin əhalisi təxminən eyni olsa da (cədvəl 1), bu şəhərlərdə cinayətkarlığın vəziyyəti (cədvəl 2) və səviyyəsini (cədvəl 3) əks etdirən statistik rəqəmlər arasında əhəmiyyətli fərqlər mövcuddur.

2005-ci ildə əhalisi 294,5 min olan Sumqayıtda 731, əhalisi 305,5 min olan Gəncədə isə 437 cinayət qeydə alınmış, cinayətkarlıq əmsalı (əhalinin 10000 nəfərinə düşən cinayətlərin sayı) isə uyğun olaraq 24,82 və 14,30 olmuşdur.

2012-ci ildə əhalisi 325000 olan Sumqayıtda 935, əhalisi 323000 olan Gəncədə isə 597 cinayət qeydə alınmış, cinayətkarlıq əmsalı isə uyğun olaraq 28,4 və 18,4 olmuşdur.

Göründüyü kimi, cinayətkarlığın əmsalı Sumqayıt şəhərində daha yüksəkdir (1,5 dəfə).

Cədvəl 2 əsasında Şirvan şəhərində digər şəhərlərlə, xüsusən də Bakı, Gəncə və Sumqayıtla müqayisədə daha az cinayət hadisəsi törədilsə də, eyni zamanda əhalinin 10 000 nəfərinə düşən cinayətlərin sayı, yəni cinayətkarlıq əmsalı əsasında Gəncə və Mingəçevir şəhərləri ilə müqayisədə bu şəhərin daha kriminogen şəhər olduğu aydın olur.

Eyni zamanda o da aydındır ki, cinayətkarlıq əmsalında əhəmiyyətli fərqlərin mövcud olduğu şəhərlərdə bu «uyğunsuzluğun» səbəblərini, köklərini araşdırarkən yalnız onların əhalisinin sayını nəzərdə tutmaq azdır. Şəhərlərin sosial, iqtisadi, siyasi və s. kriminoloji əhəmiyyət kəsb edən tərəflərini üzə çıxarmaq lazımdır. Xüsusi halda yüksək inkişaf etmiş sənaye infrastrukturu, şəhər ərazisinin yığcamlığı, nəqliyyat şəbəkəsi, əhalinin sosial və demoqrafik strukturu, yeniyetmələrin və gənclərin xüsusi çəkisi, şəhərlərdə məhkumların, o cümlədən, məhkum qadınların, işsizlərin, miqrantların xüsusi çəkisi və s. nəzərə almaq lazımdır.

Digər yaşayış məntəqələrindən böyük şəhərləri fərqləndirən və onlarda mövcud kriminoloji xarakteristikaya təsir edən səciyyəvi cəhətlərdən biri də əhalinin mobilliyinin yüksəlməsidir.

Şəhər hüdudlarından kənarda (şəhər ətrafında), yaşayan insanların daimi rəqqasi və ya əmək miqrasiyası da qeyd olunmalıdır. Böyük şəhərlər özlərinin təsərrüfat və mədəni təsir dairəsinə ona yaxın olan rayonları, kəndləri, qəsəbələri maqnit kimi özünə çəkir. Bununla da aqlomerasiyalar və ya meqapolislər yaranır. Böyük şəhərlərdə işləmək o qədər cəlbedicidir ki, bir sıra yaxın ətraf rayonlardan və şəhərlərdən hər gün bura əmək qabiliyyətli insanların böyük kütləsi gəlib işləyərək geri qayıtmaları baş verir (məsələn, Sumaqyıtdan Bakıya və əks istiqamətə). Təbii ki, bu hal da böyük şəhərlərdə kriminoloji şəraitə öz təsirini göstərir.

Böyük şəhərlərin, bir qayda olaraq ictimai, siyasi, iqtisadi, elmi, mədəni, nəqliyyat mərkəzi olmaqla ölkənin digər regionlarında və onun hüdudlarından kənarda yaşayan çoxsaylı insanları özünə cəlb etdiyini vurğulayaraq, V.İ.Qladkix göstərir ki, məşğulluq və asudə vaxt keçirmənin formalarının və növlərinin genişliyi, fəaliyyət stereotiplərinin dəyişməsi üzrə geniş imkanlar bu yaşayış məntəqələrinə çoxsaylı turistlərin, qonaqların, ezam olunmuş şəxslərin daimi axınını şərtləndirir (13, s.8).

Qeyd olunanlar, böyük şəhərlərdə cinayətkarlıqla mübarizənin ən müxtəlif formalarına və üsullarına müraciət etməyi, digər yaşayış məntəqələrindən fərqli olaraq böyük şəhərlərdə kriminoloji profilaktikanın daha geniş forma və metodlarını işləyib hazırlanması zərurətini diqtə edir.

Bunun üçün isə, fikrimizcə, şəhər cinayətkarlığı regional yönümlü kompleks tədqiqatların obyektinə çevrilməli, şəhər cinayətkarlığı ilə mübarizənin elmi əsaslı konsepsiyası, strategiya və taktikası işlənib hazırlanmalıdır.

Böyük şəhərlərin əsas struktur elementlərindən birinə çevrilən aqlomerasiyalarda cinayətkarlığın tədqiqi problemləri demək olar ki, kriminoloji ədəbiyyatda işıqlandırılmır. Hərçənd ki, böyük şəhərlərin inkişaf istiqamətləri məhz aqlomerasiyaların inkişafı ilə bağlıdır. Məhz onlarda işlə və digər səfərlərlə bağlı yerdəyişmələrin hesabına əhalinin rəqqasi miqrasiyasının ən böyük səviyyəsi müşahidə olunur. Bir sıra şəhərlərdə şəhərətrafı rayonlar daha intensiv cinayətkar fəaliyyət yerlərinə çevrilmişdir.

Yaşayış məntəqələri arasında olan kiçik məsafə, yaxşı inkişaf etmiş yollar şəbəkəsi belə aqlomerasiyaları cinayətkar elementlər üçün olduqca əlverişli edir. Eyni zamanda aqlome-

rasiyalar şəraitində cinayətkarlıqla mübarizəni təşkil edərkən əsas diqqətin hər halda onun mərkəzinə – iri şəhərə yönəldilməsi də yaddan çıxarılmamalıdır.

Hesab edirik ki, bu və ya digər şəhərdə cinayətkarlığı şərtləndirən səbəbləri, ümumən cinayətkarlığın strukturunda ağır tamah və zorakı cinayətlərin xüsusi çəkisinin artmasına gətirib çıxaran halları, bu ərazilərdə regional kriminoloji əhəmiyyətli şəraitin mövcudluğu məsələlərini tədqiq edərkən bu ərazi vahidləri üçün xarakterik olan sosial, iqtisadi, demoqrafik və sair kimi hadisələrin, proseslərin kompleks öyrənilməsi zəruridir.

B.V.Baranov düzgün olaraq göstərir ki, böyük şəhərlərdə cinayətkarlığın spesifikliyinin öyrənilməsinin metodoloji və metodiki təminatı məqsədilə bu yaşayış məntəqələrindəki həyat üçün səciyyəvi olan şəraitlərə xas olan əsas kriminoloji əhəmiyyətli amilləri müəyyən etmək zəruridir. Bu zaman müəllif, bu tip amillər kompleksinə aşağıdakıları aid edir: əhalinin yüksək sıxlığı, bu da nəqliyyatın, ticarət, əyləncə və digər müəssisələrin həddən artıq yüklənməsinə gətirir; qruplararası, şəxsiyyətlərarası təmasların yüksək tezliyi, insanlar arasında ünsiyyətin anonimliyi; çoxsaylı stress vəziyyətlərini doğuran yüksək psixoloji yüklənmələr; şəhərdaxili miqrasiyanın yüksək səviyyəsi, nəticədə şəhərin inzibati rayonları arasında cinayətkarlıqla «qarşılıqlı mübadilə» baş verir; hüquq pozuntularının vaxtında açılmasını, uçotu və profilaktikasını həyata keçirməyi çətinləşdirən hüquqi və faktiki sərhədlərin üst-üstə düşməməsi (şəhər aqlomerasiyası); miqrantların cinayətkarlığını və onlara münasibətdə törədilən cinayətləri doğuran xarici aləmlə əlaqələrin genişmiqyaslılığı («gəlmələrin», turistlərin, xaricilərin «rəqqasi» miqrasiyasının mövcudluğu); narkomaniya və narkotizmin yüksək səviyyəsi; cinayətkarlara hadisə yerindən tez bir zamanda qaçıb gizlənməyə imkan verən inkişaf etmiş nəqliyyat əlaqələri sisteminin mövcudluğu (9, s.29).

Şəhərlərdə cinayətlərin törədilməsi ehtimalı yüksək olan rayonların növlərə bölgüsü kriminoloji tədqiqatlar zamanı öyrənilən sahələrdən biridir. Belə şəhər rayonlarını təxmini olaraq aşağıdakı kimi qruplaşdırmaq olar: 1) ticarət obyektlərinin, bankların, nəqliyyat vasitələrinin daha çox cəmləşdiyi yerlər. Belə yerlər əsasən şəhərlərin mərkəzi hissələri olur; 2) həyat əhəmiyyətli obyektlərin şəhərin mərkəzində deyil, ətrafında yerləşdiyi bölgələr. İri ticarət obyektlərinin, bankların, nəqliyyat vasitələrinin cəmləşdiyi yerlər bir növ kiçik hissələrə bölünərək şəhərin ətrafına paylanır. Belə bölgələrdə kriminogen durum da yalnız bir yerdə daha gərgin olmayaraq, qüvvə və vasitələrin planlı bölüşdürülməsinə zəmin yaradır; 3) şəhərin daha çox əyləncə və istirahət mərkəzlərinin yerləşdiyi hissələr; 4) şəhərin əhalisinin daha imkanlı təbəqəsinin yaşadığı küçə və məhəllələr və s.

Hesab edirik ki, Azərbaycanın şəhərlərində kriminoloji şəraitin xüsusiyyətləri, Bakı, Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan kimi şəhərlərdə cinayətkarlığın kəmiyyət-keyfiyyət parametrlərinin öyrənilməsi, kriminoloji baxımdan qiymətləndirilməsi, bu ərazi vahidlərində və onların ayrı-ayrı hissələrində təzahür edən cinayətkarlığın növləri, səbəbləri, xüsusiyyətləri, yeni inkişaf meylləri ilə bağlı tədqiqatlar aparılmalı və bu iş intensivləşdirilməlidir. Azərbaycanda şəhər cinayətkarlığının statistik-kriminoloji və informasiya-analitik analizinin proqnozlaşdırılması və profilaktikasının elmi-nəzəri, təşkilati-texniki, metodiki və metodoloji ilkin şərtləri və əsasları işlənib hazırlanmalıdır.

Azərbaycanda şəhər cinayətkarlığının kriminoloji analizi, proqnoz-laşdırılması və qarşısının alınması ilə bağlı öz həllini gözləyən problemlər sırasında xüsusi olaraq qeyd olunmalıdır: 1)Şəhər cinayətkarlığının kriminoloji analizinin məqsəd və vəzifələrinin, xüsusiyyətlərinin və əsas istiqamətlərinin müəyyən edilməsi; 2) şəhər cinayətkarlığının əsas kəmiyyət-keyfiyyət xarakteristikalarının və parametrlərinin müqayisəli analizinin elmi-nəzəri əsaslarının və metodologiyasının işlənib hazırlanması; 3) şəhərlərin sosial-iqtisadi, demoqrafik və digər xarakteristikaları, habelə ayrı-ayrı şəhərlər üzrə cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasının öyrənilməsi əsasında şəhərlərin kriminoloji təsnifatı və tipologiyası; 4) Bakı,

Gəncə, Sumqayıt, Mingəçevir və Şirvan şəhərlərində ümumən cinayətkarlığın, habelə ayrı-ayrı cinayət növlərinin latentlik səviyyəsinin qiymətləndirilməsinin metodologiyasının və metodikasının işlənib hazırlanması və qeyd olunan şəhərlər üzrə cinayətkarlığın latentlik dərəcəsinin müəyyən edilməsi; 5) Azərbaycanın ayrı-ayrı şəhərlərində cinayətkarlığın vəziyyəti, strukturu və dinamikasında fərqlərin yaranmasına təsir edən sosial-demoqrafik, iqtisadi, psixoloji, mədəni, hüquqi, təşkilati, texniki və sair xarakterli səbəb və şəraitlər, amillər kompleksinin müəyyən edilməsi; 6) şəhər cinayətkarlığının proqnozlaşdırılmasının məqsəd və vəzifələrinin, elmi-nəzəri və metodoloji əsaslarının, şəhər cinayətkarlığının qısa və orta müddətli proqnozlaşdırılmasının metodiki əsaslarının işlənib hazırlanması; 7) müasir sosial, iqtisadi, hüquqi və digər münasibətlərə təsir edən qloballaşma şəraitində şəhər cinayətkarlığının qarşısının alınmasının məqsəd və vəzifələrinin, prinsiplərinin, forma və metodlarının, əsas istiqamətlərinin müəyyən edilməsi; bu əsasda şəhər cinayətkarlığının profilaktikası üzrə ümumsosial və xüsusi-kriminoloji tədbirlər sisteminin, şəhər cinayətkarlığının profilaktikasının hüquqi, təşkilati, texniki və informasiya təminatının yaradılması.

Açar sözlər: şəhərlər, Azərbaycanın böyük şəhərləri, şəhər aqlomerasiyaları, şəhər cinayətkarlığı, regional kriminoloji analiz.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayev M. Meqapolislər: böyük şəhərlərin böyük qayğıları //www.xalqqazeti.com.

2. Bakı genişlənir: nə vaxta, hara qədər? //www.regionplus.az.

3. Vahidov F.Q., Ağayev T.V. Sosiologiya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2008.

4. Zahidov B. Regional cinyətkarlığın səciyyəvi xüsusiyyətləri //«Regional cinayətkarlığın kriminoloji tədqiqinin aktual problemləri» beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2014, s.63.

5. Melikov B. Urbanizasiya prosesləri və onun formaları. Mühazirə //www.google.az.

6. Əfəndiyev V.Ə., Qasımova F.E. Azərbaycanda urbanizasiyanın müasir vəziyyəti və onun inkişaf istiqamətləri //Bakı universitetinin xəbərləri. Təbii elmlər seriyası. № 3, 2013, s.160.

7. www.az.wikipedia.org

8. Бадов А.Д. География преступности в России в постсоветский период. Автореф. дисс….док. геогр. наук. Краснодар, 2009.

9. Баранов Б.В. Предупреждение преступности в сверхкрупном городе с учетом его территориальных различий (на материалах г.Москвы). Диссерт….к.ю.н. М., 2005.

10. Боровков Д.В. Криминологическая характеристика и предупреждение рецидива тяжких и особо тяжких насильственных преступлений против жизни и здоровья в сверхкрупном городе. Диссерт…. к.ю.н. М., 2004.

11. Васильев А.Б. Криминологическая характеристика и предупреждения насильственных преступлений против личности, совершаемых в условиях крупного города (на материалах г. Москвы). Диссерт…. к..ю.н. М., 2003.

12. Вебер М. Город. //Вебер М. История хозяйства. М., 2001, с.335.

13. Гладких В.И. Проблемы предупреждения органами внутренних дел преступности в сверхкрупном городе. Диссерт….д.ю.н. М., 1997.

14. Демиденко Э.С. Демографические проблемы и перспективы больших городов. М., 1980.

15. Ильин В.Г. Город как концепт культуры. Диссерт… д. социолог.н. Ростов-на-Дону, 2004.

16. Кивич Ю.В. Криминологическая характеристика и предупреждение уличной преступности в условиях города. Диссерт…к.ю.н. М., 1999.

17. Харченко К.В. Проблемы управления развитием городских агломераций //Муниципальный мир, 2009, №1-2, с.49-57.

18. Яхиел Н. Город и деревня. М., 1968; Кондранков А.А., Архипов Б.В. Преодоление различий между городом и деревней. М., 1984.

Назим АЛИЕВ

ГОРОДСКАЯ ПРЕСТУПНОСТЬ КАК ПРЕДМЕТ АНАЛИЗА РЕГИОНАЛЬНОЙ КРИМИНОЛОГИИ

Резюме

В статье автор рассматривает проблему городской преступности предметом исследований региональной криминологии. Он приводит ряд статистических сведений являющуюся о развитии городов численности населения, показывает проблемы, характерный для городов в современных условиях, состоянии и уровне преступности (коэффициенте преступления) на 2005 и 2009-2013 г.г. в Гяндже, Сумгаите, Мингечауре и Ширване.

В статье отмечаются специфические особенности городской преступности, основные виды криминальных действий в городах, определяется комплекс основных задач при принятии решений в сфере криминологического анализа.

Ключевые слова: города, крупные города Азербайджана, городской агломерат, городская преступность, региональный криминологический анализ.

Nazim ALIYEV

URBAN CRIMINALITY AS AN OBJECT OF THE ANALYSIS OF REGIONAL CRIMINALITY

Summary

In the article an urban criminality is considered as an object of regional criminological researches, some statistical data on establishment and development of the cities are offered. A series of the problems characteristic for the cities in modern conditions are shown, the statistical data a number of population, state of criminality, level of eriminality (criminality coefficient) for 2005 and 2009-2013 in relation to such cities of Azerbaijan as Baku, Ganja, Sumgait, Mingachevir are cited.

In the article a number of specific features of urban criminality is noted, the major kinds of criminal actions committed in the cities are stated, the complex of basic tasks to be solved in the sphere of criminalist analysis, prognostication and preventive measures is determined.

Keywords: cities, great cities of Azerbaijan, urban ayglomeration, urban criminality, regional criminological analysis.

UOT 369.06

Mayis ƏLİYEV
hüquq ü.e.d., professor, BDU

MÜSTƏQİL HÜQUQ SAHƏSİ KİMİ TİBB HÜQUQUNUN PRİNSİPLƏRİ*

Məlumdur ki, müasir dövrdə səhiyyə, tibb fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər bir çox hüquq sahələrinin normaları ilə tənzimlənir. Məsələn, Konstitusiyanın 41-ci maddəsi hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüquqlarını təsbit edir. Sosial sistem kimi səhiyyə hüquqi tənzimetmə predmetini, onun əsasını isə konstitusiya hüququnun normaları təşkil edir. Ümumiyyətlə, səhiyyə haqqında qanunvericiliyin konkret bir hüquq sahəsinə aid edilməsi mübahisəli olaraq qalmaqdadır. Fikrimizcə, yaranmış vəziyyətdən çıxış yolu kimi tibbi qanunvericiliyin sahəvi mənsubiyyətinin dəqiq müəyyən edilməsi və bu sahədə qanunvericiliyin sistemləşdirilməsi məqsədəmüvafiq olardı. Bu baxımdan Tibb Məcəlləsinin qəbul edilməsi ən səmərəli vasitə kimi nəzərdən keçirilə bilər.

Tibb hüququ kompleks hüquq sahəsi olmaqla əsas hüquq sahələrindən vahid eynicinsli tənzimetmə predmetinin olmaması, müxtəlif hüquq sahələrindən götürülmüş normalardan ibarət olması və əsas hüquq sahələrinin metodlarından istifadə etməsi ilə fərqlənir. Tibb hüquq münasibətləri konstitusiya, sosial təminat, mülki, inzibati, cinayət, maliyyə və digər hüquq sahələrindən götürülmüş normalarla tənzimlənir.

Qeyd olunanlar əsasında belə nəticəyə gəlmək olar ki, hüquq ədəbiyyatında tibb hüququna verilən anlayışlar onun məzmununu dolğun şəkildə əks etdirmir. Belə ki, həmin anlayışlarda tibb hüququnun məzmunu lüzumsuz olaraq məhdudlaşdırılır və səhiyyənin müasir vəziyyətinin bütün aspektləri və tibb fəaliyyətinin bütün problemləri əhatə olunmur. Həmçinin tibb hüququnun anlayışını təşkil edən elementlər də dəqiq şəkildə fərqləndirilmir ki, bu da tibb hüququnun tənzimetmə predmetinin müəyyən edilməsində çətinliklər yaradır. Hesab edirik ki, səhiyyə sistemi, əczaçılıq, sanatoriya-kurort müalicəsi, dərman yardımı nəticə etibarilə tibbi yardımın göstərilməsi ilə bağlı olduğuna görə tibb hüququ termininin işlədilməsi daha məqsədəmüvafiq olardı. Beləliklə, qeyd olunanlara əsasən, tibb hüququna vətəndaşların sağlamlığının qorunması sahəsində yaranan ictimai münasibətləri vermək olar.

Məlumdur ki, hüququn müstəqil hüquq sahəsinə ayrılmasının əsas meyarlarından biri kimi onun hüquqi tənzimetmə prinsiplərinə malik olması çıxış edir. Bu baxımdan tibb hüququnu hüququn müstəqil bir sahəsi kimi xarakterizə edərkən mütləq olaraq onun prinsiplərini təhlil etmək lazımdır.

Hüququn prinsipləri haqqında məsələnin öyrənilməsi ilk növbədə hüquqi prinsiplərin anlayışı haqqında ümumnəzəri biliklərin olmasını tələb edir. "Prinsip" (prinsipim) latın sözü olub əsas ideyalar, rəhbər başlanğıclar mənasında işlədilir.

Azərbaycan dilinin izahlı lüğətində prinsipə müəyyən nəzəriyyənin, təlimin, əqidənin, dünyagörüşünün, elmin və s.-nin əsas müddəası, çıxış nöqtəsi, müəyyən işdə rəhbər ideya, əsas istiqamət, gözlənilməli şərt kimi anlayış verilir (1, s. 382). Belə bir yanaşma prinsip anlayışının mahiyyətini və hüquqi prinsip anlayışının formalaşması üçün zəruri olan müəyyən əlamətləri özündə əks etdirir.

---

* Məqalə hüquq ü.e.d., dosent Lalə Ələsgərova tərəfindən çapa məsləhət görülüb.

Fəlsəfədə prinsipləri ilkin, rəhbər ideyalar, davranışın əsas qaydaları adlandırırlar (13, s. 329; 7, s. 477). Eyni zamanda prinsiplər insanın gerçəkliyə münasibətini müəyyən edən daxili inamıdır (11, s. 1072).

Hüquqi prinsiplər və hüququn prinsipləri anlayışlarını fərqləndirmək lazımdır. Hüquqi prinsiplər hüquq düşüncəsi kateqoriyasını, daha doğrusu hüquqi dərketmənin, o cümlədən hüququn prinsiplərini dərketmənin müəyyən səviyyəsini formalaşdıran kateqoriyanı özündə əks etdirir. Hüququn prinsipləri isə öz növbəsində yalnız qanunvericilikdə təsbit olunan əsas ideyalardır.

Hüquq nəzəriyyəsində hüququn prinsiplərinin olduqca çoxsaylı anlayışları mövcuddur. M.N.Marçenkoya görə hüququn prinsipləri dedikdə bir qayda olaraq hüququn formalaşması, inkişafı və fəaliyyəti prosesinin əsas ideyaları, ilkin müddəaları və ya rəhbər başlanğıcları başa düşülür.

Prof. Z.A.Əsgərovun fikrincə, prinsiplər hüquqda dünyagörüşünün əsaslarını təşkil edən hər bir şeyin əvvəlinin və sonunun gedib çıxdığı dəyərləri özündə ifadə edir. İstənilən hüquqi müddəa prinsiplər vasitəsilə əsaslandırılır, hər bir hüquq norması prinsiplər nəzərə alınmaqla təfsir edilir. Hüquqi prinsipləri hüququn mahiyyətini, onun təbiətini yığcam formada ifadə edən əsas, başlanğıc müddəalardır. Prinsiplər bir növ istənilən hüquq institutunun bazasını təşkil edir və sahədaxili bütün normalar bu prinsiplərə uyğun gəlməlidir. Prinsiplər hüququn əsaslandığı nəzəriyyələrin pozitiv ifadə formasıdır. Hər müddəa və fikir hüquqi prinsip ola bilməz. Bunun üçün o, dəqiq və yığcam formula edilməli və hüquq norması şəkilində pozitiv hüquqda əks olunmalıdır. Yalnız obyektiv hüquqa çevrilən, hüquq mənbələrində əks olunan müddəalar prinsip adlana bilər. Hüququn prinsipləri müvafiq elmi nəzəriyyə və fikirlərin hüquqda realizə edilməsinin təzahürüdür. Uzun illərdən bəri praktikada formalaşan və əsaslandırılan nəzəriyyə bütöv halda, özünün xırdalıqları və hüquq üçün əhəmiyyəti olmayan tərəfləri ilə hüquqa gətirilə bilməz. Hüququn qəbul etdiyi hər fikri mənimsəmə forması hüquqi prinsipdir. Prinsip adi həyatda olan nəzəriyyədən həm də onunla fərqlənir ki, hüquqda onun əsaslı və sistem kimi realizə edilmə mexanizmi olmalıdır. Belə mexanizmi olmayan müddəa, sadəcə olaraq fiksiyadır (4, s. 121).

S.S.Alekseyev göstərir ki, hüquq normalarında hələ öz əksini tapmamış başlanğıclar hüquqi prinsiplərə aid edilə bilməz və yalnız hüquq düşüncəsinin ideyaları, elmi nəticələrdir (5, s. 103).

Y.Y.Maçulskaya haqlı olaraq qeyd edir ki, hüquqi tənzimetmənin prinsipi kimi ancaq rəhbər ideyaları göstərmək olmaz, çünki, ideya hüquq düşüncəsinin, yaxud hüquq elminin kateqoriyasıdır (9, s. 30). İdeyalar hüquq normalarında təsbit olunmasa belə, mövcud ola bilərlər. Hüququn prinsipləri isə ya hüquq normalarında birbaşa təsbit edilməli, ya da onun mahiyyətindən irəli gəlməlidir. Həmçinin qeyd etmək lazımdır ki, hüquqda formalaşan və əsası qoyulan hüquqi prinsiplər obyektiv faktorların nəzəri əksi olmaqla onda obyektiv olaraq mövcud olur.

Hüququn prinsipləri, həmçinin qanunvericilikdə boşluqlar aşkar edildikdə nəzərə alınır. Bu məqam, xüsusilə mühüm əhəmiyyət kəsb edir. Belə ki, zaman keçdikcə ictimai münasibətlər inkişaf edərək dəyişir və bunun nəticəsində hüquq normaları ilə tənzimlənməyən münasibətlər meydana çıxır. Bunu tibb hüquq münasibətlərinə də aid etmək olar. Onların rəsmiləşdirilməsi və mübahisəli məsələlərin həlli tibb hüququnun ümumi prinsipləri əsasında mümkündür.

Hüquq ədəbiyyatında belə bir fikir geniş yayılmışdır ki, hüququn prinsipləri normativ aktlarda, hüquq normalarında öz ifadəsini tapır və bu vaxt onlar ya birbaşa olaraq hüquq normasında təsbit olunur, ya da prinsip çoxlu sayda normaların məzmunundan, yəni hüquq

normasının məzmunundan irəli gəlir. R.Z.Livşisin fikrincə, prinsip – normalar və normaların məzmunundan irəli gələn prinsiplər hüququn prinsiplərinin iki növünü təşkil edir (8, s. 196).

Hüququn sahələrarası, sahəvi və digər prinsipləri ümumhüquqi prinsiplərə tabedir. Onlar həmin prinsipləri konkretləşdirir, konkret sahəyə, institutlara və s. münasibətdə inkişaf etdirir. Bununla yanaşı, prinsipin bu və ya digər səviyyəyə (sahəvi, sahələrarası və s.) aid edilməsi müəyyən dərəcədə şərtidir və prinsipin eyni zamanda hər iki keyfiyyətdə çıxış etməsi imkanını istisna etmir. Tədqiqatçı alim V.N.Tolkunova konkret olaraq göstərir ki, özünün xarakterinə görə sahələrarası prinsiplər eyni zamanda sahəvi prinsiplər ola bilər (12, s. 4). Hüququn hər hansı digər sahəsində olduğu kimi, tibb hüququnda sahələrarası prinsiplər bütövlükdə deyil, yalnız bu hüquq sahəsinin normaları ilə tənzimlənən ictimai münasibətlərin xüsusiyyətlərinə tətbiqən təzahür edir.

Hüquq nəzəriyyəsində hüququn prinsipləri ümumhüquqi, sahələrarası, sahəvi, habelə ayrı-ayrı institutlar üçün xarakterik olan prinsiplərə bölünür.

Ümumhüquqi prinsiplər bütün hüquq sisteminə şamil olunur. Onlara sosial ədalət, humanizm, hüquq bərabərliyi, qanunçuluq, hüquq və vəzifələrin vəhdəti prinsipləri aid edilir.

Sahələrarası hüquqi prinsiplər hüquqi tənzimetmənin hər iki hissəsi – xüsusi və ümumi hissələri üçün xarakterikdir. Bu prinsiplər daha çoxdur. Onlara aşağıdakı prinsipləri aid etmək olar: çəkişmə, dispozitivlik (müdafiə vasitələrinə sərəncam vermək imkanı), iradə sərbəstliyi və s.

Lakin müxtəlif hüquq sahələrinin eyni tərkibdə prinsiplərdən istifadə etməsi hər bir prinsipin məzmununun, onların konkret hüquq sahəsində təzahürünün eyni olması demək deyildir. İctimai münasibətlərin hər bir qrupu çərçivəsində onlar müəyyən şəkildə dəyişikliyə məruz qalır, həmin qrup ictimai münasibətlər üçün xarakterik olan xüsusiyyətlər kəsb edirlər.

Sahələrarası prinsiplər ümumi prinsiplərdən kəskin şəkildə fərqlənmir, əksinə bu və ya digər rəhbər müddəanı konkretləşdirməklə onlara əsaslanır.

Ümumhüquqi prinsiplər kimi, sahələrarası prinsiplər də ictimai münasibətlərin geniş dairəsinə şamil olunur. İctimai münasibətlərin hər bir qrupunda və hər bir hüquq sahəsində sahələrarası prinsiplər öz inkişafını tapır və müəyyən xüsusiyyətlər kəsb edir.

Hüquqi prinsiplərin digər bir növünü sahəvi prinsiplər təşkil edir. Hər bir hüquq sahəsi ümumi və sahələrarası prinsiplərlə yanaşı, yalnız ona xas olan hüquqi prinsiplərə də əsaslanır (10, s. 26). Sahəvi hüquqi prinsiplər konkret hüquq sahələrinə – mülki, inzibati, əmək, maliyyə, sosial təminat və s. hüquq sahələrinə şamil olunur. Sahəvi prinsiplər konkret hüquq sahəsinin mahiyətini əks etdirir və bu sahənin normalarında təsbit olunur. Sahəvi prinsiplər sanki hüququn prinsiplərinin ümumi sistemində ən aşağı mərtəbəni təşkil edən və daha yüksək səviyyədəki əsas ideyaları konkretləşdirən prinsiplərdir.

Tibb hüququnun prinsipləri dedikdə ictimai münasibətlərin tibbi-hüquqi tənziminin əsas başlanğıcları başa düşülür. Tibb hüququnun prinsipləri bütün səhiyyə qanunvericiliyinə nüfuz edir, onun daha mühüm xüsusiyyətlərini özündə əks etdirir. Ona görə də səhiyyə qanunvericiliyinin normalarının düzgün dərk edilməsi və tətbiq olunması yalnız onun ümumi və ya konstitusion prinsipləri nəzərə alınmaqla mümkündür. Tibb hüququnun belə prinsiplərinə aşağıdakılar aiddir:

- sağlamlığın mühafizəsi və tibbi yardımın ümumiliyi;
- sağlamlığın mühafizəsi və tibbi yardım sahəsində bütün vətəndaşların hüquq bərabərliyi;
- tibbi yardım sahəsində qanunçuluğun təmin edilməsi;
- milli səhiyyə sisteminin və qanunvericiliyinin daimi olaraq təkmilləşdirilməsi;
- əhalinin sağlamlığının qorunması üzrə tədbirlərin dövlət tərəfindən maliyyələşdirilməsi və həmin tədbirlərin prioritet əhəmiyyət kəsb etməsi;
- tibb sahəsində hər kəsə təminat verilən hüquq və azadlıqların müdafiəsi;

- tibb müəssisələrinin vəzifəli şəxslərinin qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıması;

- hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ekoloji xətalar ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin ödənilməsi.

İndi isə bu prinsiplərin məzmununu daha ətraflı şəkildə nəzərdən keçirək.

Sağlamlığın mühafizəsi və tibbi yardımın ümumiliyi prinsipi hər bir şəxs üçün bərabər və eyni qaydada tibbi yardımın mümkünlüyünü və vətəndaşların (pasiyentlərin) bu sahədə hüquqlarının cinsi, irqi əlamətlərinə, milliyyətinə, dilinə, mənşəyinə, yaşayış yerinə, əmlak vəziyyətinə, vəzifəsinə, dinə münasibətinə, əqidəsinə, ictimai təşkilatlara münasibətinə və digər şərtlərə görə məhdudlaşdırmamasında ifadə olunur. Bu prinsip öz əksini tibbi yardım və müalicə ilə, pulsuz və ya güzəştli qiymətlərlə dərman yardımı ilə təminatı tənzim edən normalarda tapır.

Sağlamlığın mühafizəsi və tibbi yardım sahəsində bütün vətəndaşların hüquq bərabərliyi prinsipi Azərbaycan Respublikası Konstitusiyasının 41.1-ci maddəsinin mahiyyətindən irəli gəlir. Həmin maddədə göstərilir ki, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır (2, s. 22).

Tibbi yardım sahəsində qanunçuluğun təmin edilməsi prinsipi tibb hüququnun və bütövlükdə səhiyyə sisteminin fəaliyyətinin əsas prinsiplərindən biri kimi çıxış edir. Qanunçuluq prinsipi bütün hüquq sahələrinin vacib prinsipi olmaqla tibb hüququ üçün də mühüm əhəmiyyət kəsb edir. Konstitusiyanın müvafiq müddəalarının məzmunundan aydın görünür ki, bütün dövlət hakimiyyəti orqanları (səhiyyə sahəsində idarəetməni həyata keçirən orqanlar icra hakimiyyəti orqanlarına aiddirlər), yerli özünüidarə orqanları, onların vəzifəli şəxsləri və vətəndaşlar Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməlidirlər. Məsələn, Konstitusiyanın 72-ci maddəsinin ikinci hissəsinə görə hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir (2, s. 35).

Milli səhiyyə sisteminin və qanunvericiliyinin daimi olaraq təkmilləşdirilməsi prinsipi. Ölkədə sosial ədalətin bərqərar edilməsinin proritet istiqamətlərindən birini milli səhiyyə sisteminin təkmilləşdirilməsi, əhaliyə göstərilən tibbi xidmətin səviyyəsini sivil ölkələrin səviyyəsinə çatdırılması təşkil etməlidir. Bunun üçün səhiyyə sistemində islahatlar aparılmalı və bu islahatlar hüquqi mexanizmin keyfiyyət dəyişikliyi ilə müşayət olunmalıdır. Eyni zamanda səhiyyə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi də səhiyyə sisteminin inkişaf etdirilməsi ilə paralel surətdə həyata keçirilməlidir.

Əhalinin sağlamlığının qorunması üzrə tədbirlərin dövlət tərəfindən maliyyələşdirilməsi və həmin tədbirlərin prioritet əhəmiyyət kəsb etməsi prinsipi. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır. Hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, sağlamlığın qorunması sahəsində dövlət tibb müəssisələrində pulsuz tibbi xidmətin göstərilməsinin təmin edilməsi əhalinin sosial müdafiəsi istiqamətində dövlətin ən ümdə vəzifəsidir (3, s. 195).

Tibb sahəsində hər kəsə təminat verilən hüquq və azadlıqların müdafiəsi prinsipi. Konstitusiyanın 60-cı maddəsinin birinci hissəsində hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Əlbəttə ki, bu konstitusion prinsip vətəndaşların tibb sahəsində mövcud olan hüquq və azadlıqlarına da aiddir. Qeyd edilən maddənin 2-ci hissəsində isə göstərilir ki, hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər.

Tibb müəssisələrinin vəzifəli şəxslərinin qanunvericiliyə uyğun olaraq məsuliyyət daşıması prinsipi. Azərbaycan Respublikası Konstitusiyasının 41-ci maddəsinin üçüncü hissəsində birbaşa göstərilir ki, insanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

Hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ekoloji xətalar ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin ödənilməsi prinsipi də konstitusion prinsip kimi çıxış edir. Belə ki, göstərilən prinsip bilavasitə Azərbaycan Respublikası Konstitusiyasının 39-cu maddəsinin ikinci hissəsində təsbit edilmişdir. Bu prinsip həmçinin ətraf mühitin qorunması konstitusion vəzifəsi ilə sıx surətdə bağlıdır – ətraf mühitin qorunması hər bir şəxsin borcudur (Azərbaycan Respublikası Konstitusiyasının 78-ci maddəsi).

Göstərilən konstitusion prinsiplərlə yanaşı tibb hüququnun qanunvericilik səviyyəsində təsbit edilən sahəvi prinsiplərinə aşağıdakıları aid etmək olar:

- sağlamlığın qorunması sahəsində insan hüquqlarına əməl edilməsi və bu hüquqlarla bağlı dövlət təminatlarının təmin edilməsi;
- tibbi-sosial yardımın hər kəs üçün mümkünlüyü;
- sağlamlığın itirilməsi halında vətəndaşların sosial müdafiəsinin təmin edilməsi.

Tibb hüququnun sahəvi prinsipləri hələ özünün formalaşması mərhələsindədir. Fikrimizcə, tibb hüququnun mühüm prinsiplərindən biri səhiyyə hüquq münasibətlərinin subyektlərinin maraqlarının paritetliyi (harmonizasiyası) olmalıdır. Bu, onunla şərtlənir ki, səhiyyə haqqında qanunvericiliyin təkmilləşdirilməsinin mərkəzi faktorlarından biri olan, bütün mövcud hüquq münasibətləri sisteminin islahatı üçün konseptual əhəmiyyət kəsb edən məsələ kimi konkret pasiyentlərin (müştərilərin) fərdi maraqları ilə qrup (yaşayış məntəqəsinin sakinlərinin) maraqlarının və nəticədə ictimai maraqların optimal şəkildə uzlaşdırılması çıxış edir.

Məlumdur ki, hüquq sahəsi çərçivəsində ictimai münasibətlərin müəyyən növünü tənzimləyən hüquq institutları formalaşır. Məsələn, mülki hüquqda «zərərin əvəzinin ödənilməsi», sosial təminat hüququnda «sosial müavinətlər» institutu fərqlənir. Bu baxımdan nəzəriyyəçi alimlər hüququn prinsiplərinin yuxarıda göstərilən qrupları ilə yanaşı sahədaxili prinsiplərin, yəni sahənin ayrı-ayrı institutlarının prinsiplərinin də fərqləndirilməsini təklif edirlər (6, s. 154). Məsələn, sosial təminat hüququnda pensiya təminatının, sosial xidmətin mahiyyətini bu sahənin müvafiq institutlarının hüquq normalarının məzmununda ifadə olunan əsas, rəhbər başlanğıcların vasitəsilə izah etmək olar.

Tibb hüququnda da bir sıra institutlar, məsələn, tibbi xarakterli məcburi tədbirlər, tibbi ekspertiza və s. institutlar fəaliyyət göstərir və gələcəkdə həmin institutların da sahədaxili prinsiplərini müəyyən etmək məqsədəmüvafiq olardı.

Tibb hüququnun prinsiplərinin əhəmiyyəti isə aşağıdakılardan ibarətdir:

- bu prinsiplər tibb hüququ normaları sisteminin bütövlükdə mahiyyətini əks etdirməklə səhiyyə qanunvericiliyinin və onun cəmiyyətlə əlaqəsinin mahiyyətinin dərk edilməsinə köməklik göstərirlər;
- bu prinsiplər səhiyyə qanunvericiliyinin gələcək inkişafını istiqamətləndirir və qüvvədə olan səhiyyə hüquq normalarının tətbiqinə kömək edirlər;
- bu prinsiplər səhiyyə qanunvericiliyinin ayrı-ayrı normalarının bir sistemdə birləşdirilməsinin əsaslarından biri kimi çıxış edirlər;
- bu prinsiplər tibb hüququnun subyektlərinin vəziyyətini, onların hüquq və vəzifələrini müəyyən edirlər.

Açar sözlər: prinsip, hüququn prinsipləri, tibb hüququ, tibb hüququnun prinsipləri, tibb hüququnun ümumi prinsipləri.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan dilinin izahlı lüğəti. II cild. A.Axundovun redaktəsi ilə. Bakı: Çıraq, 1999, 412 s.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2010.
3. Cəfərov İ.M. Azərbaycan Respublikasının Konstitusiyasının şərhi. Bakı: Hüquq ədəbiyyatı, 2010.
4. Əsgərov Z.A. Konstitusiya hüququ. Dərslik. Bakı: Bakı Universiteti nəşriyyatı, 2011, 760 s.
5. Алексеев С.С. Проблемы теории права. Т.1. Свердловск, 1972.
6. Комаров С.А. Общая теория государства и права. Учебник. М.: Юрайт, 1997.
7. Кондаков Н.И. Логический словарь. М., 1975.
8. Лившиц Р.З. Теория права. Учебник. М., 1994.
9. Мачульская Е.Е. Право социального обеспечения. Учебное пособие для вузов. М.: Книжный мир, 1998.
10. Общая теория государства и права. Академический курс. Учебник для вузов. /Под ред. М.Н.Марченко. Т. 2. М., 1998.
11. Советский энциклопедический словарь. М., 1980.
12. Толкунова В.Н. Конституционные принципы правового регулирования в развитом социалистическом обществе //Советское государство и право, 1980, № 1.
13. Философский словарь /Под ред. М.М.Розенталя. М., 1972.

Маис АЛИЕВ

ПРИНЦИПЫ МЕДИЦИНСКОГО ПРАВА КАК САМОСТОЯТЕЛЬНОЙ ОТРАСЛИ ПРАВА

Резюме

В статье анализируются принципы медицинского права, как самостоятельной отрасли права. Принципы права учитываются при возникновении пробелов в законнодательстве. Данный момент имеет особое значение. Со временем общественные отношения развиваясь, претерпевают изменения, в результате чего возникают не регулируемые правовыми нормами отношения. Данное явление можно отнести и к медицинскому праву. Легитимация этих отношений и решение спорных вопросов возможны на основании общих принципов медицинского права. Вообще под принципами медицинского права понимаются основы медицинско-правового регулирования общественных отношений. Наряду с отражением системы медицинско-правовых норм в целом, принципы медицинского права также проникают в законодательство по здравоохранению, отражая ее более важные особенности.

Ключевые слова: принцип, правовые принципы, медицинское право, принципы медицинского права, общие принципы медицинского права.

Mayis ALIYEV

PRINCIPLES OF MEDICAL LAW AS AN INDEPENDENT BRANCH OF LAW

Summary

This article analyzes the principles of medical law. Characterization of this branch of law creates the need for scientific study of the principles of medical law as a branch of law. The principles of law are taken into account in case of legal gaps. This moment is of particular important. Thus, in due course developing social relations change and as a result, there appear relations not regulated by legal norms. This phenomenon can be attributed to the health law. Legitimation of these relations and the resolution of disputes are possible on the basis of the general principles of medical law. In general, the principles of medical law are adopted as the basic principles of medical-legal regulation of social relations. Principles of medical law, along with the reflection of medical-legal norms, in general, also penetrate into health legislation, reflecting the more important features.

Keywords: principle, legal principles, medical law, the principles of medical law, the general principles of medical law.

UOT 340.1

Farhad MEHDIYEV
Ph.D.

CRIMES COMMITTED AGAINST MIGRANTS IN AZERBAIJAN*

1. Introduction

The people's migration to the countries, lands or regions is an ancient phenomenon. Wars, catastrophes, starvations and epidemics forces people to change their places of living. At the time the when passports and wire-barbed frontiers didn't exist, the migration was different. Now, with strict visa, passport control and the secured borders migration looks rather different, though the reasons for migration are the similar. On the other hand, globalization and rapid increase of population, high levels of unemployment and economic crisis in Africa and Asia have intensified migration.

The migrants are the vulnerable people in a country where they reside, because of lack of the political rights, bad knowledge of local culture, language and customs. The poor income also prevents them from legal, medical and other services.

Humanity, in face of UN or European or national institutions, promotes the respect of human rights and prohibition of discrimination without regarding their nationality.

In this research we studied the crimes committed against migrants as the specific ones taking into regard their vulnerability and being foreigners in Azerbaijan; then we suggested some recommendations the effective anti-discriminatory policy.

2. Migration

Migration is the movement of people across a specified boundary for the purpose of establishing a new or semi-permanent residence. External migration is where residence changes between a residential unit in the country and one outside it, and internal migration is when residence changes from one residential unit to another in the same country (1).

As the main reasons for migation are the different hardships then the solution of the issue as for reasons and consequences of migration is of general interest.

Usually people migrate to developed countries where more chances to get better job and life. And sometimes to save the life, like we face it with Syrian refugees.

Every country has it own migration, employment and visa policy, and the quotas for foreign workers usually are limited. on the other hand, usually the migrants are those without good professional skills what makes them more vulnerable.

Because of high expences for migration process, persons willing to migrate have to spend enough money in order to get lets say Shengen zone. And as considerable number of them lack of money to pay for passport, visa or transportation expenses. Then those intended to migrate often agreed with traffickers on that after arrival to country of destination they will work for trafficker and return thir debt. This isa frequent situation how people become a victim of sex trade or cheap labour force.

Azerbaijan is not a part of EU but being rich oil country it becomes a lucrative one for poor people of Middle and Far East. Chinees, Pakistani, Indians and Central Asian workers try to find a shelter in Azerbaijan. Their number was quiet enormous before 2008, but then

* Məqalə hüquq ü.f.d. Rauf Qarayev tərəfindən çapa məsləhət görülüb.

